SEYFƏDDİN QƏNİYEV



# QOBUSTAN


ŞAMAXI RAYONU
XIZI RAYONU
HAÇIQABUL RAYONU
HILMILLI
SÜNDÜ
QURBANGI
POLADLI
Dağkolanı
Pirsaat
Bakıya
Ceyrankeçməzçayı
2M
3M
4M
5M
6M
7M
8M
9M
20M
22M
23M
47M
46M



**"...Mən həmişə fəxr etmişəm,**
**bu gün də fəxr edirəm ki,**
**mən azərbaycanlıyam".**

***HEYDƏR ƏLİYEV***



"...Əziz qobustanlılar, mən sevinirəm ki, xalq Heydər Əliyev siyasətini dəstəkləyir və onun yaratdığı inkişafın, sabitliyin davam etdirilməsinə səs verir. Biz çalışırıq ki, Azərbaycan qüdrətli, inkişaf etmiş bir dövlətə çevrilsin. Bu bizim hörmətli Prezidentimizin tutduğu yoldur. Biz bu yolu sizinlə - xalqımızla birlikdə davam etdirəcəyik".

*İLHAM ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

**Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur (1.IV. 2005. 3 saylı protokol).**

*Elmi redaktorlar:*
**Nisbət Mehdiyeva**
tarix elmləri doktoru, professor

**Nadir Məmmədli**
filologiya elmləri doktoru, professor

*Rəyçilər:*
**Mayıl Alıcanov**
tarix elmləri namizədi

**Fazil Osmanov**
tarix elmləri namizədi

**Seyfəddin Qəniyev. Qobustan.**
**Bakı, "Nurlan", 2005. – 720 səh., şəkilli.**

Kitabda Azərbaycanın zəngin tarixə malik, poeziya, mədəniyyət beşiyi kimi məşhur olan ulu Şirvanın bineyi - qədimdən sirdaşı Qobustanın maddi-mədəniyyət abidələri, bir sıra yaşayış yerləri, övliya-ziyarətgahları haqqında məlumat, taleyin hökmü ilə zamanın müəyyən çağlarında bu yurdun başına gələn müsibətlər; aşıq, xanəndəlik sənəti, folklor və ədəbi mühitindən ilk dəfə bəhs edilir, bu torpağın istedadlı övladlarının ömür yoluna işıq tutulur. Erməni-bolşevik birləşmələrinin 1918-ci ildə bu regionda törətdiyi soyqırımı, 1937-ci ildə məhv edilmiş günahsız insanlar, Böyük Vətən müharibəsində şücaət göstərmiş, Qarabağ savaşında şəhid olmuş qobustanlılar barədə də kitabda geniş söz açılır. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Q $\frac{4702000000}{N - 098 - 2005}$ *Qrifli nəşr*

© "Nurlan", 2005

# ŞİRVAN ADINA LAYİQ GÖZƏL DİYAR QURACAĞIQ



Qədim Azərbaycanın özü qədər qayım-qədim olan füsunkarlığı ilə dünyanın yüzlərlə alimlərini valeh edən ulu Şirvanın sirli-sehirli Qobustan bölgəsi əslində bu diyara açılmış çox əsrarəngiz bir qapıdır. Dünyanın bu qədim diyarına səmtləşən ticarət yolları əsrlərlə bu qapıdan keçmişdir. Övliyalar məkanı olan bu torpağa ayaq basdığım gündən müasir dövrdə ölkəmizdə gedən möhtəşəm tikinti-quruculuq işləri fonunda sanki yaddan çıxmış, unudulmuş, xeyirxahlığa, nəcibliyə susamış yerlərlə rastlaşdım. Təəssüfləndim... Lakin bu torpağın dünyanın ilk insanlarının məskənlərindən biri olduğunu, müxtəlif dövrlərin sivilizasiyasından keçmiş zəngin tarixi, mədəni irsi barədə oxuduqlarım, bildiklərim *hazırda bu diyarı indiki sivilizasiya səviyyəsinə çatdırmağın* mümkünlüyü qənaəti məni çulğadı. Qürur hissi keçirdim... Odur ki, müasir dünya şərqşünas-tarixçilərinin təksibolunmaz faktlarla sübut etdikləri qədim mədəniyyət incilərinin sahibləri şumerlərin vaxtilə Şirvanın bu qədim diyarı Qobustandan köçüb getdikləri mülahizələri məni bu torpağa bağlamaqla bərabər, bu diyar üçün əlimdən gələn hər şeyi etməyə daha da həvəsləndirdi. Dünya mədəniyyəti xəzinəsinə Şirvan boyda töhfə bəxş edən bu torpaq onun istiqanlı, istedadlı, bacarıqlı övladları ilə görüşlərimdə onların mənə böyük ümidlə baxan narahat gözləri ürəyimdə gecəni-gündüzə qatmaq, bu torpağın hər qarışını Şirvanın adına layiq açılan möhtəşəm qapısına döndərmək istəyi məndə bu ülvi hissi birə-beş artırdı. Odur ki, qolumuzu çırmayıb işə başladıq... Güman edirəm ki, gördüyümüz və görəcəyimiz işlər bütün qobustanlıların ürəyindən xəbər verən şərəfli missiyadır. Bu missiya həm də mənə etibar edən xalqımızın güvənc

yeri, sözün əsl mənasında ölkəmizin çiçəklənməsi üçün yorulmadan çalışan möhtərəm prezidentimiz İlham Əliyev cənablarının ən böyük arzularından biridir! Hal-hazırda rayonda başladığımız çox cəhətli və geniş miqyaslı tikinti-quruculuq və abadlıq işləri həmin missiyanın, demək olar ki, başlanğıcıdır...

Ulu öndərimiz Heydər Əliyev cənabları haqlı olaraq millətimizin gələcəyini təhsildə görürdü. Bu baxımdan Heydər Əliyev fondu tərəfindən 2005-2006-cı tədris ilində rayonumuzun bir neçə ucqar – Nardaran, Dərəkənd, Poladlı kəndlərində, habelə rayon mərkəzində müasir tələblərə cavab verən yeni məktəb binalarının gənc nəslə hədiyyə edilməsi gənc nəslə çox layiqli töhfə olmuşdur. Bu gün rayonda dünyada analoqu olmayan tarixi memarlıq incisi hesab edilən Diri Baba türbəsində görülən bərpa işləri onun beynəlxalq turizm xəritəsinə və YUNESKO-nun maddi-mədəni sərvətlər siyahısına salınması üçün atılan ilk addımdır. Bu addımın gələcəkdə həm də dünyanın Şirvana atılan addımlarından olacağı qənaətindəyik... Rayonda Şirvanın adına layiq mərkəz olan yeni şəhərin yaradılması istiqamətində apardığımız tikinti işləri - inzibati, əlil və aztəminatlı ailələr üçün tikilən binalar, mehmanxana, idman kompleksi, bazar-ticarət mərkəzi, asfalt zavodu, tarix-diyarşünaslıq muzeyi və s. kimi görülən işlər bizə onu deməyə haqq verir ki, yuxarıda dediyimiz missiyanı şərəflə yerinə yetirə biləcəyik... Ümumiyyətlə, hal-hazırda qarşımızda möhtərəm prezidentimiz İlham Əliyevin "Rayonların sosial-iqtisadi inkişaf proqramı"nı layiqincə yerinə yetirilməsi kimi müqəddəs bir vəzifə durur. Rayonda tikilən çörək, bulka məmulatı zavodları, qadınların işləməsi üçün Çin Xalq Respublikasından gətirilən və hazırda son quraşdırma işləri gedən tikinti fabriki, xalçaçılıq sexi, kənd təsərrüfatının inkişafı ilə bağlı müxtəlif yöndə atılan addımlarımız bu diyarın gələcək hərtərəfli inkişafına bizdə böyük əminlik yaradır. Hazırda rayon mərkəzinə çəkilişi başa çatdırılmış və hər bir qəsəbə sakininin qapısında axan içməli suyun uzun illər təşnə olan insanların ürəyinə gətirdiyi sərinlik inanın ki, mənim də bu torpağa olan sonsuz məhəbbətimi bir daha coşdurur. Və bu ulu diyarın – Şirvanın bir parçası sayılan bu diyarın gələcək, hərtərəfli inkişafına bizdə böyük əminlik yaradır... Bu müqəddəs missiyaya nail olacağımız isə şübhəsizdir! Bir sözlə, Şirvanın adına layiq görüləsi işlərimiz hələ çoxdur! Təki sağlıq olsun!..

**İsmayıl VƏLİYEV**
**Rayon İcra Hakimiyyətinin başçısı**

# "QOBUSTAN" TARİXLƏR ŞAHİDİDİR

Azərbaycanımızın qədim bölgələrindən biri də Qobustan regionudur. Ərazisi dağla aranın qovşuğundan ibarət olan bu diyar qədim tarixi abidələri, ziyarətgahları, elm-sənət adamları, şair-aşıqları, el-obanın qeydinə qalan vətəncanlı oğulları ilə də məşhurdur. Hələ institutda tarix fakültəsində oxuduğum illərdə bu diyarı qarış-qarış gəzmiş, qədim, bərəkətli Qobustan torpağının füsunkar təbiətinin şahidi olmuşam. Və müşahidə etmişəm ki, bu diyarın şimalında yazda obalar duman-çiskin içində qərar tutduqları halda, cənubunda bağ-bağçaların nübar barı yeyilir.

Bəllidir ki, 1990-cı ilin aprel ayında əsasən keçmiş Mərəzə rayonunu əhatə edən ərazidə "Qobustan" rayonu təşkil edildi. Taleh elə gətirdi ki, rayon təşkil ediləndən onun ictimai-siyasi həyatında yaxından iştirak etdim, nəticədə müxtəlif məsul vəzifələr mənə etibar edildi. Nəhayət, 2001-ci ildə rayon icra hakimiyyətinin başçısı təyin edildim.

Ölkəmizin mühüm kənd təsərrüfatı rayonlarından hesab edilən Qobustan ərazisinin 61,7%-ni və ya 84,5 min hektarını kənd təsərrüfatına yararlı torpaqlar təşkil edir. Rayonun iqtisadiyyatında taxılçılıq və heyvandarlıq əsas yer tutur.

Qobustan rayonunun sosial-iqtisadi inkişafı vaxtilə daima ümummilli liderimiz, ölkə prezidenti Heydər Əliyev cənablarının diqqət mərkəzində olmuşdur. Bu bir həqiqətdir ki, 1990-cı ilin sonu,

1991-ci illərin əvvəlində gedən ictimai-siyasi və sosial-iqtisadi proseslər rayonun iqtisadiyyatına, insanların şəxsi həyatına öz mənfi təsirini göstərmişdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn cənab Heydər Əliyevin apardığı uğurlu siyasət nəticəsində ölkənin, o cümlədən, Qobustan rayonunun iqtisadiyyatı, mədəni-siyasi həyatı yenidən dirçəlməyə başladı. Odur ki, Respublika Prezidenti cənab Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə rayonda aparılan aqrar islahatlar nəticəsində 32,8 min hektar əkin sahəsi 31748 nəfərə torpaq payı kimi verilmiş, xüsusi mülkiyyət – 37 milyard 822 milyon dəyərində əmlak payçıların sərəncamına verilib. İslahat nəticəsində 246 ədəd müxtəlif markalı yük avtomobili, 311 ədəd traktor, 68 ədəd kombayn, 6 ədəd silos və yemyığan kombayn və digər mülkiyyət özəlləşdirilmişdir.



2001-ci il bütün maliyyə mənbələri hesabına Qobustan rayonunda iqtisadiyyatın və sosial sahənin inkişafına 3 milyard manat və ya əvvəlki ildəkindən 1,3 dəfə çox investisiya yönəldilmişdir. Tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın həcmi əvvəlki illərlə müqayisədə 26 dəfə artmış və 2,6 milyard manat olmuşdur. Beləliklə, hesabat ilində rayonun müəssisə və təşkilatları 158, 9 milyon manatlıq mənfəət əldə etmişdir.

2002-ci ildə rayonda 2 iri və orta, 26 kiçik ticarət müəssisəsi və fərdi sahibkarlıqla məşğul olan 387 fiziki şəxs ticarət fəaliyyəti göstərmişdir. Bununla yanaşı, bir neçə il ərzində rayonumuzda taxılçılıq, heyvandarlıq sahəsində uğurlar əldə edilmişdir. Hər il orta hesabla 38-40 min ton taxıl istehsal edilmişdir. Bu da rayonda yaşayan imkansız əhali və yurd-yuvasından didərgin düşmüş köçkünlərə kömək etmək üçün geniş imkan yaratmışdır.

İşlədiyimiz illər ərzində respublikamızın bəzi regionlarında problemə çevrilmiş əhalinin elektrik enerjisi və qazla təmin edilməsi məsələsini demək olar ki, lazımınca həll edə bilmişik. Bununla yanaşı, Qobustan rayonunun daxili imkanları hesabına Mərəzə qəsəbəsinə

mişik. Qobustan rayonunun daxili imkanları hesabına yaxın vaxtda 5-6 kəndin içməli su ilə təmin edilməsi üçün müəyyən işlər görülmüş, yeni lahiyə artıq hazırlanmışdır.

Rayonun ictimai-siyasi həyatı ilə yanaşı, onun mədəni həyatında da 2001-2004-cü illərdən bəri müvəffəqiyyət və uğurlarımız da sevindiricidir. Rayonun kəndlərində inşa edilən iaişə obyektləri, müasir tələblərə cavab verən tibb məntəqələri, məktəb binaları əvəzsiz uğurlarımızdandır.

Rayonumuzda vaxtaşırı mədəni-kütləvi tədbirlərin keçirilməsi müasir gənclərin tərbiyəsində xüsusi əhəmiyyət kəsb edir. **"Heydər Əliyevin 80 illiyi", "Naxçıvan-80", "M.Ə.Sabir-140", "Hüseyn Cavid-120", "Aşıq Şəmşir-110"** və eləcə də rayonun qocaman sənət adamları, ziyalıları, müəllimlərinin yubiley tədbirlərinin keçirilməsi, rayonun yetirmələri -- alim, şair, dövlət adamları ilə görüşlərin təşkili artıq adət halını almışdır.

Filologiya elmləri doktoru S.Qəniyevin Qobustan regionu haqqında hazırladığı çox dəyərli ensiklopedik məlumat kitabı həm ziyalı, həm müəllim, həm də bir icra hakimiyyətinin başçısı kimi məni sevindirdi. Ona görə ki, bu qədim diyar haqqında indiyə kimi belə geniş, ciddi tədqiqat aparılmamışdır. Azərbaycanımızın qədim bir guşəsi olan Qobustan ərazisinin özünəməxsus şərəfli, ağrılı-acılı, keşməkeşli tarixi vardır. Məşhur alim, filosof, səyyahların qeyd etdiyi kimi, Qobustan tarixlər şahididir. Kitabın əlyazması ilə tanış olanda bir daha yəqin etdim ki, müəllif bu diyarın tarixi keçmişi, maddi və milli sərvətləri; daş yaddaşı, ədəbi və elmi mühiti ilə bağlı uzun illər, gecəli-gündüzlü araşdırmalar aparmışdır. Əminəm ki, müəllifin iyirmi illik yuxusuz gecələrinin məhsulu, yaddaşımızın bərpasında xüsusi əhəmiyyəti kəsb edən "Qobustan" kitabının birinci hissəsi tələbkar və qədirbilən qobustanlılar tərəfindən rəğbətlə qarşılanacaqdır. Mütəxəssislər tərəfindən yüksək qiymətləndirilən bu dəyərli əsər şübhəsiz ki, qobustanlıları stolüstü kitabına çevriləcəkdir. Bizcə, bu da müəllifi əsərin ikinci hissəsini öz oxucularına tezliklə təqdim etməyə ruhlandıracaqdır. Mən həm ziyalı, həm müəllim, həm də tarixçi kimi bu əsərin işıq üzü görməsinə sevinirəm və fəxarət duyuram.

**Əlisəfa CƏBİYEV**

# "DİRİ BABA" YADİGARLI QOBUSTAN

Filologiya elmləri doktoru Seyfəddin Qəniyevin elmi yaradıcılığına çoxdan və dərindən bələdəm. Alimin tədqiqatlarının böyük bir hissəsi ulu Azərbaycanımızın elm, sənət, poeziya, musiqi məbədi kimi uzaq keçmişdən təkcə Şərqdə deyil, rusiya və Avropa ölkələrində belə tanınan Şirvan bölgəsinin öyrənilməsinə həsr olunmuşdur. Bir qədər də dəqiq desək alimin böyük zəhmət və axtarışlar hesabına yazdığı qırx kitabın iyirmidən çoxu, irəlidə qeyd etdiyimiz kimi, Şirvan bölgəsinin tarixi abidələri, ziyarətgahları, ədəbi və folklor mühiti, aşıq yaradıcılığı, xanəndəlik sənətinin tədqiqi, öyrənilməsi, toplanması və araşdırılıb üzə çıxarılmasına həsr olunmuşdur. Mənalı ömrünün otuz ilini belə bir xeyirxah və müqəddəs işə həsr etmiş Seyfəlddin müəllimin böyük səriştə, vətəndaşlıq *amalı, ziyalı yanğısı ilə qələmə aldığı "**Qobustan**" kitabını* (I hissə) böyük həvəs və şövq ilə oxudum.

Mənə belə gəlir ki, Azərbaycanımızın tarixi, arxeologiyası, flora-faunası, toponimləri, daş yaddaşları, milli-mənəvi dəyərlərimizi, aşıq mühitlərini ətraflı şəkildə öyrənməkdən ötrü, ilk əvvəl bu qədim diyarın bütün bölgələrini elbəel, kəndbəkənd, şəhərbəşəhər gəzmək, dolanmaq vacibdir. Əsəri oxuyarkən yəqin edirsən ki, tədqiqatçı qarşısına qoyduğu məqsədə çatmaq üçün müvafiq arxivlərə baş çəkməklə yanaşı, regionu da qarış-qarış gəzmiş, yüzlərlə insanlarla görüşmüş, onların repertuarlarını qələmə almış, xeyli sənəd, şəkil və əlyazmalar əldə etmişdir.

Müəllif əsərin birinci fəsilində Qobustan bölgəsində olan yaşayış yerləri – kəndlər, onların yerləşdiyi ərazi, toponimlərin xalq yozumu və elmi açılışı, kəndlərin təbəhləri və eləcə də əhalinin məşğuliyyəti barədə oxucuya ümumi və maraqlı məlumat verir. Bu fəsildə diqqəti çəkən əsas cəhətlərdən biri də odur ki, vaxtilə regionda kimlərinsə günahı ucbatından "yox olmuş" – **Şamlı, İlanlı, Tulunc, Dağ Kolanı, Toğluüzlü, Damlamaca, Çay Yekəxana** və s. kəndlər barədə bilgilər də kitaba daxil edilməsidir. Fikrimizcə, bu dəyərli bilgilər

gələcək nəsillərə yurdumuz haqqında çox söz deyə bilən tutarlı mənbə olacaqdır.

Tədqiqatçı uzun illərin axtarışları nəticəsində regionda XVIII əsrdən üzü bu yana yaşayıb-yaratmış el şairləri, sinədəftər qadınlar, aşıqlar haqqında topladığı materialları əsərə daxil etməklə ədəbiyyat tariximizə, aşıq ədəbiyyatına qiymətli hədiyyələr bəxş etmişdir. Belə ki, kitaba daxil edilmiş şair, aşıq, sinədəftər qadınlar haqqında məlumatların çoxusu elm aləminə ilk dəfə təqdim olunduğu kimi, onların əsərləri də birinci dəfə işıq üzü görür.

Bununla yanaşı, Sovet dönəmində yazılması qadağan edilən 1918-ci ildə rusların (bolşeviklərin) dəstəyi və silahı ilə ermənilərin törətdikləri qırğınlar; Şura hökuməti qurulandan sonra, bütöv Qafqazda edildiyi kimi, Azərbaycanda, o cümlədən, Qobustan bölgəsində faciələr, sürgünlər, həbslər və elin sözü keçən oğullarının qətilləri, ötən əsrin bütün müharibə ağrıları kitabda ətraflı işıqlandırılmışdır. Bu sahədə ciddi tədqiqat aparan müəllif "1918-ci il Qobustan soyqırımı", "1937-ci il repressiyası və Qobustan", "Qobustan və Böyük Vətən müharibəsi" fəsillərində arxiv sənədlərinə daha çox müraciət etmişdir. Qobustanın erməni cəlladları tərəfindən qətlə yetirilmiş, torpaq uğrunda şəhid olmuş və eləcə də Böyük Vətən müharibəsində canını fəda etmiş igidlərinin siyahısının ümumi şəkildə əsərə daxil edilməsini gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynaya bilən tutarlı sənəd adlandırmaq doğru olardı.

Cəsarətlə demək olar ki, "Qobustan" kitabı "Diri Baba" yadigarlı Qobustan regionunun tarixi keçmişi, maddi-mədəniyyət abidələri, ziyarətgahları, poeziya dünyası, folkloru, musiqi sənəti, elm və maarif fədailəri, sənət adamları, əmək bahadırları barədə oxuculara dəyərli, mükəmməl məlumat verən və torpaq, yurd sevgisi ilə vaxtında yazılmış bir əsərdir. Təbii ki, əlli çap vərəqi həcmində olan belə bir əsərin bütün məziyyətləri barədə burada ətraflı danışmaq və söz açmaq imkan xaricindədir. **Düşünürəm ki, bir neçə elm sahiblərinin görə biləcəyi işi təkbaşına və şərəflə başa vuran** müəllifin bu dəyərli əsəri barədə mütəxxəssislər, qədir bilən oxucular fikir söyləyəcək, alimin ağır zəhmətinə böyük qiymət verəcəklər.

**Nisbət MEHDİYEVA**
***tarix elmləri doktoru,***
***professor***

# QOBUSTANIN "QOBUSTAN"I

Azərbaycanımızın qədim və cənnət misallı guşələrindən biri də Şirvan bölgəsidir. Vaxtılə ərazisinin bir tərəfi qədilm Qəbələ, o biri ucu böyük Kür çayı, başqa bir yanı Xəzər dənizinə kimi uzanıb gedirdi Şirvanın. Mənbələrdə bütün zaman kəsiyində həm də mühüm iqtisadi, siyasi, hərbi-strateji, mədəni və ticarət əhəmiyyətinə malik bir ərazi hesab edilir Şirvan.

Çox qədim mənbələrdə müxtəlif formalarda yazılan Şirvan sözünün elmi yozumu barədə - **V.Bartold, İ.Krımski, Ə.Dəmirçizadə, R.Yüzbaşov, A.Axundov, A.Qurbanov, İ.Cavaxişvili, Q.Qeybullayev, N.Məmmədov, S.Ataniyazov, N.Nəbiyev** və başqa alimlər müxtəlif fikirlər söyləmişlər. Bu toponim elmi mənbələrdə, əsasən tayfa adı kimi şərh edilmişdir. Alimlərin bir çoxunun qənaətinə görə, Şirvan "şir" və ya "şar" tayfasının adı və fars dilindəki "van" ("an") sözlərindən yaranmışdır. Görkəmli dilçi-alim, professor A.Ağundov bu sözün "sanskrit dilindəki şravana sözün"dən yarandığını söyləyir. Xalq yozum və rəvayətlərində Şirvan sözü Sasanilər sülaləsini iyirminci padşahı Ənuşirəvan Qubad oğlunun (531-579) adı ilə əlaqələndirildiyi kimi "**şirlər məskəni**", "**şirə bənzər**", "**şirlər kimi döyüşənlər yeri**", "**qoçaq, döyüşkən xalqın diyarı**" mənasında da yozulur.

Maraqlıdır ki, bu adda təkcə respublikamızın müxtəlif ərazilərində deyil, eyni zamanda Orta Asiya, Türkiyə, Cənubi Azərbaycanda da toponimlər mövcuddur.

Min il qüdrətli Şirvanşahlar dövlətinin əsas ərazisi hesab olunan

bu diyarın baş şəhəri uzun zamanlar Şamaxı olmuşdur. Üç min ildən artıq yaşı olan Şamaxı şəhəri bütün Şərq dünyası, eləcə də Avropa, Rusiya, Orta Asiya, Uzaq Sibir, Hindistan və Çin vilayətində də poeziya, sənət, mədəniyyət, ticarət, dini mərkəz kimi şöhrət qazanmışdır. O hökmdar, səyyah, şərqşünas, tacir, dərviş və sarban özünü xoşbəxt sayırdı ki, azı bir dəfə də olsa, Şamaxıda olub, oranı ziyarət edib. **Əl-Yəqubi** (IX əsr), **İbn Havqəl** (X əsr), **Əl-Məsudi** (X əsr), **Rubrun Vülhelm** (XIII əsr), **Marqo Pole** (XIII əsr), **Əmir.Teymur** (XIV əsr), **Qoksales de Kolovixo** (XIV-XV əsr), **Hens Şibtverner** (XIV-XV əsr), **Afanasi Nikitin** (XV əsr), **Antoni Cekinson** (XV əsr), **Şah İsmayıl** (XV-XVI əsr), **Evliya Çələbi** (XVII əsr), **Adam Oleari** (XVI-XVII əsr), **Aleksandr Düma** (XIX əsr), **M.Y.Lermontov** (XX əsr) və başqaları kimi.

Şirvanşahlar dövlətinin süqutundan sonra bir zamanlar bu qədim ərazidə **Şamaxı xanlığı** (XVIII əsr), **Şamaxı quberniyası** (1846-1859), **Şamaxı qəzası** (1841-1929) fəaliyyət göstərmişdir. Ən nəhayət, Azərbaycanda sosialist inqilabı qələbə çalandan bir müddət sonra – 1929-cu ildə qəza sistemi ləğv edildi və 1930-cu ildə Şamaxı inzibati rayonu təşkil edildi.

Mərəzə zonası da o zaman Şamaxı rayonunun tərkibinə daxil edilmişdir. Böyük Vətən müharibəsinin qızğın çağında – 1943-cü ilin oktyabr ayında övliyalar, qədim yaşayış məskəni, neçə-neçə ticarət yolunun kəsişdiyi sirli-sehirli diyarda Mərəzə inzibati rayonu təşkil edildi. Mərəzə rayonu ərazisinə, Şirvanın ürəyinə yaxın olan, el-obanın qış aylarında sığınacaq-qışlaq kimi istifadə etdikləri Qobustan ərazisinin böyük bir hissəsi daxil edilmişdir. Müharibə olmasına baxmayaraq, gəllahlı, ilxılı, naxırlı, qoyun sürülü və özünəməxsus təbiəti, fauna-florası olan bu ərazidə arxa cəbhədə çalışan insanlar tez bir zamanda – 1943-1944-cü illərədə çox işlər gördülər, dövlətin ümidini doğrultdular. Müharibə qələbə ilə başa çatandan sonra rayonda abadlıq və yenidənqurma işləri daha da canlandı, sürətləndi.

Arxiv sənədləri, mətbuat və yaddaşlardan bu rayonda hünər göstərmiş bir çox əmək bahadırları, vəzifə sahibləri haqqında xeyli məlumatlar əldə etmişik. Müəyyənləşdirmişik ki, rayon təşkil edilərkən ona ilk rəhbər əslən Masallıdan olan əqidəli kommunist **Məmmədəli Əliyev** təyin edilmişdir. Ümumiyyətlə, 1943-cü ildən rayon ləğv edilənə kimi (1959-cu il dekabr) Mərəzə rayon partiya komitəsi katibi vəzifəsində qabaqcıl iş təcrübələri, əmək fəaliyyətləri müxtə-

lif təltif və mükafatlara layiq görülmüş, xatirələri indi də əziz tutulan, adları aşağıda qeyd edilən insanlar çalışmışlar: Bakılı **Musa Əlizadə**, **Böyük Mamedov**, maştağalı **Məmməd Məmmədzadə**, quşçudan **Mehbalı Mirzəyev**, əngəxaranlı **Kamal Qəhrəmanov**, şamaxılı **Ağaələsgər Şıxəliyevi**, İcra Komitəsinə isə **Böyük Mamedov**, kəlbəcərli **Abdulla Bağırov**, şamaxılı **Nəsrulla Rəsulov**, ərəbşahverdili **Məhəmməd Əsədov**, bakılı **Kərim İbrəhimov**, nərimankəndli **Babacan Vəliyev** rəhbərlik etmişlər. Mərəzə rayonunda prokuror və məhkəmə sistemində işləyənlərin ancaq bir qismi barədə (prokuror-məlhəmli **Tapdıq Əmirov**, göyçaylı **Məmmədəli Mahmudov**, məhkəmə-əngəxaranlı **Baba Soltanov**, bakılı **Məmməd Bayramov**, **Nizam Qədirov**, bakılı **Naibə Məmmədova**) məlumat öyrənə bildik. **Qafar Qafarov**, şuşalı **Qacay Hacıyev**, naburlu **İmanəli Xalıqov** (general-mayor Xalıqovun əmisi oğlu), **Davud Orucov, Nizam Qədirov**, gədəbəyli **Yusif Mamedov** isə Mərəzə rayon maarif şöbəsinin müdiri işləmişlər. 1959-cu ilin dekabrında ləğv edilən Mərəzə inzibati rayonu yenidən Şamaxı rayonunun tərkibinə qatıldı.

* * *

1990-cı il aprel ayında Azərbaycanda bir neçə yeni inzibati rayon təşkil edildi. Onlardan biri də keçmiş Mərəzə rayonu ərazisində qədim Şirvanın ürəyinə yaxın bir yerdə qərar tutmuş Qobustan diyarında yaradılan Qobustan rayonu oldu. Rayonun indiki ərazisi **1369,4** kvadrat kilometrdir. Qobustan rayonu şimaldan Xızı, cənubdan Hacıqabul, qərbdən Şamaxı, şərqdən Abşeron rayonu ilə həmsərhəddir. Rayonun **35993** min nəfər əhalisi vardır. Rayon təşkil ediləndə tərkibində müxtəlif millətlərin nümayəndələri də (35677 nəfər azərbaycanlı, 8 nəfər ukrainalı, 159 nəfər rus, 149 nəfər isə Məshəti türkləridir) vardır. Rayon əhalisinin 51,8% kişilər, 48,2% isə qadınlardan ibarətdir. "Qobustan" rayonunda 470 nəfər köçkün, 149 nəfər isə Özbəkistandan qovulmuş Məshəti türkləri yaşayır. Rayonda bir qəsəbə, 35 kənd mövcuddur.

Rayon təşkil ediləndə onun şəninə neçə-neçə xoş sözlər deyildi, şerlər qoşuldu, mahnılar bəstələndi...

**QOBUSTANIN "QOBUSTAN"I**

*Qədəmlərin mübarəkdi,*
*Qobustanın, "Qobustan"ı.*
*Şan-şöhrətin başdan aşsın,*
*Qobustanın, "Qobustan"ı.*

*Diri Baba sənə dayaq,*
*Pis kəslərin gözün oyaq,*
*Arzuların açsın ayaq,*
*Qobustanın, "Qobustan"ı.*

*Var-dövlətin aşıb-daşsın,*
*Tər bənövşən ətir saçsın,*
*Barsız bağın çiçək açsın,*
*Qobustanın, "Qobustan"ı.*

*Qədim ulusun Kolanı,*
*Şıxzərlinsə şən nəğməli,*
*Qurbançı Alim sövdalı,*
*Qobustanın, "Qobustan"ı.*

*Nabur, Çalov vuran əlin,*
*Sündü, Təklə qədim elin,*
*Gəmüstüsə coşan selin,*
*Qobustanın, "Qobustan"ı.*

Hazırda Qobustan rayonunda beş siyasi partiya fəaliyyət göstərir. 1995-ci ildə yaradılan YAP Qobustan rayon təşkilatının hazırda 1096 nəfər üzvü vardır. Bununla yanaşı, rayonda AXCP-nın (klassiklər) 15 nəfər, AXCP-nın (birləşdiricilər) 28 nəfər, AXCP-nın (islahatçılar) 13 nəfər və Müsavat Partiyasının isə 44 nəfər üzvü vardır.

* * *

1990-cı ildən keçən on dörd il müddət ərzində Qobustan rayon İcra Hakimiyyətinə adları aşağıda qeyd olunan ziyalılar – **Gülabbas Qəhrəmanov, Səmid Daşdəmirov, Nazim Xankişiyev, Əflan İbrahimov, Rafiq Alışov** başçılıq etmişlər. Hal-hazırda, rayon İcra Haki-

miyyətinə işgüzar, səriştəli, gözəl ziyalı və sadə insan **Əlisəfa Cəbiyev** başçılıq edir.

Qobustan rayonunun iqtisadiyyatının əsasını taxılçılıq və heyvandarlıq təşkil edir. Bununla yanaşı, rayonda xeyli ticarət müəssisələri də fəaliyyət göstərir. Dövlətimizin müstəqillik tarixini yaradan ümummilli liderimiz Heydər Əliyev tövsiyyələrinə əməl edən rayon rəhbərliyi əhalinin yaşayış şəraitinin yüksəldilməsi üçün vaxtaşırı müxtəlif tədbirləri həyata keçirir. Belə ki, yaxın vaxtlarda rayonun 1 qəsəbə, 11 kəndi təbii qazla təmin edilmiş, demək olar ki, bütün yaşayış məntəqələri telefonlaşdırılmışdır.

Bütün bunlarla yanaşı, rayon İcra Hakimiyyəti yeni iş yerlərinin açılması, əhalinin işlə təmin olunması üçün geniş tədbirlər planı hazırlamışdır. Həmin tədbirlərin bir qismi -- rayonun münasib ərazilərində kənd əməkçiləri üçün gəlirli sahə sayılan üzümçülüyün bərpa, azad sahibkarlığın inkişaf etdirilməsi, xüsusən, kənd təsərrüfatı məhsullarını müasir tələblərə, standartlara uyğun emal edən müəssisələrin yaradılmasının yaxın vaxtlarda həyata keçirilməsi dəqiqləşdirilmişdir.

Bəli, bir ucu başı qarlı, qalın meşəli, zümzümə bulaqlı, o biri tərəfi isə yovşanlı-qarağanlı, boz çöllü, qızmar günəşli, övliyalara sığınıb, sirli-sehirli tərəkəmə aləmində yaşayan Qobustan rayonunda həyat davam edir.

* * *

Qobustan sözünün leksik mənası alimlər tərəfindən müxtəlif cür yozulmuşdur. Əvvəlcə onu qeyd edək ki, bu söz mənbələrdə ən çox **Qabıstan, Gavıstan, Govurstan, Qəbiristan və Qobustan** şəklində qeyd olunur.

Toponimi Qabıstan, Gavıstan kimi yozanların fikrincə, söz iki hissədən ibarətdir. Onların fikrincə, həm birinci tərəf, "**Qo-qov, go-gav**", həm də ikinci tərəf - **stan** fars sözüdür. Birinci tərəf "**öküz**", "**inək**", ikinci tərəf isə "**yer**", "**məkan**" mənasını bildirir. Yəni, "**öküzlər məkanı**" və ya "**öküzlər diyarı**". Toponimi Qobustan və Qabıstan (sözün dialekt şəkli) kimi izah edənlərin fikrincə, söz türk mənşəli "**qobu**" və fars dilindəki "**stan**" sözündən yaranmışdır. Birinci tərəf, "**qobu-çökək, çuxur, vadi**", ikinci tərəf **yer, məkan** deməkdir. Yəni, "**çökək yer**". Respublikamız və eləcə də bir çox

türkdilli ərazilərdə kökü **"qobu"** olan, anlamı isə qeyd etdiyimiz kimi **çuxur, dərə, vadi, çökək yer** kimi izah edilən toponimlər onlarladır. Fikrimizcə, "**Qobustan**" toponimini də bu anlamdakı variantı məğbul sayılmalıdır. Bununla yanaşı Qobustan sözünün birinci hissəsinin mənasını ("**qobu**") qədim türk dilində "**boş**", "**kimsəsiz**", ikinci hissəsi isə (**"stan"**) fars dilində **"yer"** kimi izah edənlər də vardır. Yəni, **"boş yer"**, **"kimsəsiz yer"**. Doğrudan da, bu ərazinin böyük bir hissəsi daimi yaşayış üçün o qədər də əlverişli deyildir.

**Gavırıstan** sözü də iki – **"gavır"** və **"stan"** hissələrinə ayrılır. Ərəblər Azərbaycanın başqa bölgələri kimi bu ərazidə də İslam dinini yayarkən müsəlman olmayanları **"kafər" ("gavur")** adlandırırdılar. **Gavırıstan**, yəni **"müsəlman olmayanların yaşadığı yer"**.

Qobustan sözü ilə bağlı bir neçə xalq yozumu da mövcuddur. Həmin yozumun birində Qobustan sözü **"qarbostan"** kimi izah edilir.

Yəni, *bu ərazidə qış mülayim keçdiyinə görə, hər vaxt hətta,* "qar yağsa da" bostan əkilə bilər və məhsul götürmək olar.

Uzun illər Qobustan ərazisi karvan-ticarət yollarının kəsişdiyi bir məkan olmuşdur. Səfər zamanı əcəli çatan insanlar eləcə yol kənarlarında dəfn edilmişdir. Odur ki, bu ərazidə yol kənarlarında qədim qəbristanlıqlar çoxdur. Ona görə də, bəzi tədqiqatçılar Qobustan toponiminin **Qəbristan** variantını qəbul edirlər. Və həmin sözü – Qəbiristanı **"qəbirlər məkanı"**, **"qəbir yeri"** kimi açıqlayırlar.

* * *

Qobustan rayonu ərazisi flora və faunasına görə özünəməxsus keyfiyyətlərə malikdir. Qobustan inzibati rayon kimi nə qədər cavan olsa da, yaşayış yeri, tarixi abidələri – **kurqan, xanəgah, şərgah, türbələr, qalalar** baxımından bir o qədər zəngin diyardır. Bu abidələrin çoxusunda xalqımızın keçmişi, tarixi, həyatı, qan yaddaşını təsdiqləyən kitabələr mövcuddur. Millətimizin keçmişini dəqiq və ətraflı araşdırmaq üçün bu diyarın tarixi abidələrini öyrənmək, onları "danışdırmaq" vacib şərtdir. Bu tarixi abidələrin öyrənilməsi, araşdırılması həm də uzun illər ərzində donmuş, korşalmış yaddaşımızın müəyyən mənada bərpası deməkdir edər.

*Ümumiyyətlə, demək olar ki, bu vaxta kimi Qobustan ərazisinin* tarixi keçmişi, arxeologiyası, ədəbi və folklor mühiti, aşıq sənəti, bitki örtüyü, oykonimləri və s. geniş, sistemli şəkildə araşdırılmamış, bu

sahədə ciddi elmi-tədqiqat və toplama işləri görülməmişdir. İyirmi beş ildən artıq çəkdiyimiz zəhmət hədər getməmiş. Şamaxı-Qobustan regionu ilə bağlı apardığımız araşdırmaların bir qismi əsasında – **"Qobustanın ziyarətgah və din nümayəndələri", "Qobustanın aşıq və el şairləri", "Qobustan folkloru", "Qobustanın elm fədailəri", "1918-ci il Qobustan soyqırımı", "Qobustan toponimləri"** adlı altı kitab (yüz çap vərəqindən artıq) hazırlamışıq. Həmin kitablardakı materialların müəyyən bir qismi əsasında "Qobustan" adlı iki hissədən ibarət elmi-publisistik toplu tərtib etmişik. Kitaba daxil edilən materialların əldə edilməsində regionun bir çox ziyalı, sənət adamları və vəzifə sahibləri bizə öz köməklərini əsirgəməmişdir. Həmin xeyirxah insanlara – irayon İcra Hakimiyyətinin Başçısı **Əlisəfa Cəbiyev**, eləcə də **Abdulla Rəcəbov, Molla Səbzalı, Heybət Şikarov, Yusif Yusifov, Aşıq Barat, İzzətalı Zülfüqarov, Höccət Paşa, Aşıq Xanış, Nizam Qədirov, Mayıl Alıcanov, Abasxan Allahverdiyev, Məhəmməd Maqsudov, Mamed Baxışov, İmran Sabirov, İzzət Tahiroğlu, Baxış Məmmədov, Mustafa Xəlfalı oğlu, Vəli Mirzə oğlu, Heybət Rəfiyev, Hacı Həqiqət Əhmədalı oğlu, Haxverdi Baba oğlu, Ənvər Kərəm oğlu, Əbil Qasımov, Lalə Maqsudova, Musayev Sərdar, Haxverdi İlyasov, Elimxan Baxışəliyev, Babalar Babaxan oğlu, Məmmədhəsən Əbülhəsən oğlu, Hacı Füzuli, Hacı Nəzir, Pənah Xəlilov** və həm də rayonun kənd bələdiyyələri, icra nümayəndələri, məktəb direktorlarının bir çoxuna minnətdarlığımızı bildiririk. Təbii ki, şərəfli tarixi, öfliya və ziyarətgahlar, folklor məkanı olan böyük bir bölgəyə həsr edilmiş bu kitab nöqsan və qüsurlardan xali deyildir. "Qobustan" (I kitab) kitabı ilə bağlı bizə öz haqlı irad və təkliflərini, dəyərli fikir, məsləhətlərini çatdıran bütün insanlara qabaqcadan minnətdarlığımızı bildiririk.

# I
# FƏSİL



# QOBUSTANIN KƏNDLƏRİ

*"Vətəninizə üçün qan, dostunuz üçün göz yaşı, ailəniz üçün tər tökün".*
*M.K.Atatürk*

İyirmi beş ildən artıq bir müddət ərzində Şirvan folklor və ədəbi mühitini araşdırmaq məqsədi ilə **Şamaxı, İsmayıllı, Ağsu, Kürdəmir, Göyçay, Zərdab, Ucar, Ağdaş, Hacıqabul, Əli-Bayramlı və Qobustan** rayonlarının demək olar ki, hər bir kəndini qarış-qarış gəzmişəm. Bu müddət ərzində həm də bu ərazilərdə yaşayıb-yaratmış şair, el şairləri, aşıq-xanəndə, din nümayəndələri, eləcə də övliya-ziyarətgah və tarixi abidələri haqqında məlumatlar əldə etmiş, folklor nümunələri toplamış, bütün kənd, yaylaq-qışlaq, meşə, dağlar-ormanlarını gəzmiş – xeyli sayda toponimləri toplamış, həmin toponimlər barədə xalq arasında mövcud olan yozumları, deyimləri, əfsanə və rəvayətləri yazıya almışam. Qobustan onomastikasının bir hissəsini də kənd, oba, yaşayış yerlərinin adları təşkil edir. Məlumdur ki, coğrafi adlar həm də tarixçi, arxeoloq və dilçi alimlər tərəfindən öyrənilir.

Respublikamızın başqa bölgələri kimi Qobustanda da vaxtilə türkdilli tayfalarla yanaşı ərəb və slavyan, eləcə də etnik tayfalar da yaşamışdır. Odur ki, regionda olan kənd və yaşayış yerlərinin adının leksik yozumunu üzə çıxarmaqdan ötrü tədqiqatçı diqqətli olmalıdır.

Doğrudur, bu vaxta kimi elmi ədəbiyyatlarda Qobustan rayonu-

nun toponimlərindən, eləcə də yaşayış yerlərinin adlarının (oykonimlər) bir qisminin məna və etimologiyasından bəhs edilmişdir. Çox əfsus ki, hələ indiyə kimi ayrıca **"Qobustan toponimləri"**[1] kitabı yazılmamışdır. Qobustanın yaşayış yerlərinin şərhini verərkən məlum mənbələr, yerli sakinlərin söylədikləri yozum, şərhlərə əsaslanmış və xüsusi tədqiqatımızdan istifadə etmişik. Bu fəsildə təkcə rayonda mövcud olan kəndlər deyil, eyni zamanda dövrün-zamanın, gərdişin, taleyin qisməti və ya kimlərinsə günahı ucbatından "yox olmuş" kənd və obalar barədə də məlumat verməyə çalışmışıq...

Bizcə, bu bilgilər sirli-soraqlı, övliya qismətli, inanc məqamlı, tutiyə torpaqlı Qobustanın hər bir vətəndaşı üçün vacibdir, lazımdır... **Axı toponimlər eyni zamanda, xalqın etnolinqvistik yaddaşı, şərəfli tarixi, keçmişini əks etdirən mənbədir, kitabədir...**

Hal-hazırda Qobustan rayonunda otuzdan artıq kənd, oba və bir qəsəbə mövcuddur.

## ACIDƏRƏ KƏNDİ

Toponimin adından göründüyü kimi sözün leksik yozumu onun yerləşdiyi coğrafi ərazinin adı ilə bağlıdır. Toponim iki – **"acı"** və **"dərə"** sözlərinin birləşməsindən əmələ gəlmişdir. Dərədən axan su şor olduğuna görə çaya da "Acıdərə" deyilmişdir. Oba öz adını yaxınlığından axan eyni adlı çayın adından götürmüşdür. Bu obanın əhalisi tərəkəmə olub. Onlar yayda yaylağa köçər, qışda isə Acıdərədə yaşayardılar.

Şirvanın müqəddəslərindən biri Şeyx Əyyub baba Ərəbqədim kəndində anadan olmuşdur. Mənbələrdən o da bəllidir ki, Şeyx Əyyub baba 20-25 yaşı olanda, təxminən, XVIII əsrin 50-ci illərində ailələri ilə birlikdə Acıdərə kəndinə köçmüşlər. Bu zaman obada 15-20 ev olmuşdur.

Vaxtilə Şamaxı qəza mərkəzi olduğundan Bakı-Şamaxı mərkəz yolu boyunca bir neçə poçt-çaparxana məntəqələri vardır. Onlardan biri də Acıdərə çayı üstündə idi. Bu barədə mənbələrdə oxuyuruq: "Acıdərə keçmişdə Şamaxı qəzasında yaşamış çıraqlı tayfasının qış-

[1] Bu sahə ilə bağlı Naxçıvan, İsmayıllı, Ağdaş, Şəki, Xızı və s. bölgələrə aid əsərlər çoxdan yazılmışdır.

laq yeri idi. 1896-cı ildə çıraqlıların bir hissəsi Acıdərədə xidmət evi olan poçt (çaparxana) ətrafında məskunlaşmışlar"[1].

Ötən əsrin ortalarında əhali oradan müxtəlif ərazilərə köçmüşlər. Hal-hazırda Acıdərədə az da olsa əhali yaşayır.

## BƏKLƏ KƏNDİ

Bu adda Azərbaycanın bir neçə ərazisində yaşayış məntəqəsi mövcuddur. Mənbələrdə bu toponimin mənası bir neçə cür yozulur. Bəzi alimlər bu sözü türk dilindəki "beklə" (gözləmək) sözü ilə əlaqələndirirlər. Başqa mənbədə toponim "Kitabi-Dədə Qorqud"un qəhrəmanlarından olan Bəkilin adı ilə əlaqələndirilir[2].



Professor A.Qurbanov və başqa mütəxəssislərin fikrincə, "toponim qədim türk dillərindəki "bələgü" – "belqü" sözündən olub, "nişan, nişangah, o cümlədən əkin yerlərini, otlaq, biçənək sərhədlərini bildirən nişan" mənasını verir.

Kənd ərazisində hal-hazırda bir çox tarixi abidələr və pirlər mövcuddur.

Kənd əhalisi əkinçilik və heyvandarlıqla məşğul olmuşdur.

[1] Azərbaycan toponimləri, Bakı, 1999, səh.48

[2] M.Ə.Abbasov, ... "Böyük Qafqazın cənub-şərq hissəsinin toponimiyası", Bakı, 1993, səh.71

# QURBANÇI KƏNDİ

Qurbançı kəndi Qəcəl dağının sinəsində yerləşir. Kənd vaxtilə iki hissədən – Dağ Qurbançı və Çay Qurbançıdan ibarət olmuşdur. Deyilənə görə, Qurbançının qədim adı Qılcan (Qılıcyan) imiş. Xalq deyiminə görə, ərəblər bu ərazini işğal edərkən il çox soyuq olur. Çarəsiz qalan ordu qılınclarının taxta dəstəsini sındırıb yandırırlar. Odur ki, ərazi əvvəl "Qılıcyanan" adlanmış, zaman keçdikcə "Qılıcyan", "Qılcan" formasına düşmüşdür.

Respublikamızda bu adda bir neçə toponim mövcuddur. E.A.Deminski Qurbançı toponimi barədə yazır: "Qurban-Allahın şərəfinə kəsilən heyvan, qurbançı isə bu qurbanı kəsən adam mənasında işlənir"[1].

Kənd **Budaxlı, Şeynat, Manaflı, Allahverimli, Rəcəbli, Atakişili, Sofulu** *təbəhlərindən ibarətdir.*

XX əsrin 30-cu illərində burada üç – Ərəbşahverdi, Qurbançı, Çay Qurbançı kəndlərini əhatə edən "Komsomol" kolxozu yaradılmışdı. Ötən əsrin 60-cı illərindən sonra Qaracüzlü, Xələfli kəndləri də bu kolxoza qatıldı. Kolxoza bir-birinin ardınca **Ağayev Mirzə, Rüstəmov Niyaz, Şərifov Mürsəl, Məmmədov Əmirşah, Əlibala Babayev, Baləmi Səftərov, Heydər Əli oğlu (Bəkləli), Ənvər Balakişiyev (Naburlu), Nəriman Qəhrəmanov (Cəmcəmli), Ağayev Ağamoğlan (Qurbançı), Əliyev Abdulhüseyn (Qaracüzlü), Səftərov Xəlfəqulu, Dəmirov Baba, Xəlilov Pənah, Atakişiyev Xanmusa, Baloğlanov Adil** kimi insanlar rəhbərlik etmişdir. Bu kolxoz öz dövründə əkinçilik, heyvandarlıq, bağçılıq sahəsində rayonda qabaqcıl yerlərdən birini tuturdu.

Qurbançı tərəkəmə elat olduğu üçün burada daimi məktəb sonralar təşkil edilmişdi. Ötən əsrin 20-ci illərindən sonra təşkil edilən səyyar ibtidai məktəb, 50-ci illərdən sonra daimi olmuşdur. Həmin illər ərzində məktəbdə – **Dadaş, Nəcməddin, Şirxan, Cəbrayılova Fatma, Musa Hacıyev, Məhərrəm Əsədov** kimi maarif fədailəri çalışmışdır. 1962-ci ildə kənddə 8 illik məktəb yaradıldı. 1970-ci ildə bacarıqlı təsərrüfatçı, el ağsaqqalı, işgüzar insan Baləmi Səftərovun təşəbbüsü, köməkliyi sahəsində kənddə orta məktəb təşkil edildi.

[1] E.A.Deminski. Göstərilən əsəri, səh.21

1962-ci ildən başlayaraq məktəbə **Cəbrayılov Əzməmməd, Dəmirov Bəybala, Alıyev Vaqif, Baloğlanov Adil, Məmmədov Qəndalı, G.Poladov** rəhbərlik etmişdir. Məktəbdə Faiq, Ramiz, Məlikağa, Tərcüman kimi bacarıqlı, el-obanın hörmətini qazanmış əsl pedaqoqlar da çalışmışlar...

Qurbançı kəndində hazırda 257 təsərrüfat, 674 nəfər əhali vardır.

## DAĞ KOLANI KƏNDİ

Kolanı da qədim türk tayfalarından biridir. Görkəmli alimlər - **İ.Şopen, M.Adıgözəl bəy, Xan Aqov, A.Bakıxanov, İ.Savina, R.Yüzbaşov, A.Qurbanov, N.Məmmədov, N.Xudiyev** və b. öz tədqiqatlarında kolanı tayfası, onun mənşəyi, təbəh və tirələri barədə müəyyən məlumatlar vermişlər. Mənbələrə görə, qədim türk tayfalarından olan kolanılar təxminən, XVI-XVII əsrlərdə Xorasan əyalətindən Anadoluya, oradan isə Qarabağa köçüb gəlmişlər. "Ağa Məhəmməd şah Qarabağa hücumu zamanı Qarabağ elatlarının bir qismi, o cümlədən, kolanılar köçüb Naxçıvanda, Şirvanda və b. yerlərdə məskunlaşmışlar".



Şirvana köçən kolanı təbəhlərinin bir qismi Quba ərazisində, bir qismi isə mal-qaraya münasib yer olduğu üçün Girdə yaylasında binə salmışlar. Daha sonralar kolanıların bir qismi Kür qırağına köç-

müşlər. Girdə yaylasında olanlar Dağ Kolanı kimi tanınmışdır. Son tədqiqatlarda kolanı toponimi **kolan, kuman, kol** tayfaları ilə əlaqələndirilir. Mənbələrdə kolanı sözünün leksik mənası **"böyük"**, **"yüksək"** və s. kimi yozulur. Bu adda respublikamızda bir çox kəndlər mövcuddur.

Dağ Kolanı elatı bir çox təbəh və tirələrdən – **Pirəvəd (Borravənd, Pirili Abbaslı, Ağarzalı); Alataxta (Həzili, Zeynallı, Zülfüqarlı, Kəllə Məmmədli, Babalı, Məşədili); Qaroğlanlı (Tahirli); Ağsaqlı (Qurbanlı)** və s. ibarətdir. Köçəri elat olan Dağ Kolanılar qış aylarında Küdrü düzündəki Gögəc qışlağı, yaz-yay aylarında Girdə yaylasında, Sarıdaş yaylağında öz mal-dövlətlərini bəsləyərdilər. Kənddə kolxoz ötən əsrin 30-cu illərində yaradılmışdır. Kolxozun ilk sədri Sündülü Şamil Musa oğlu olmuşdur. Sonralar kolxoza **İsmayıl İbrahim oğlu, Mirzə Alı oğlu, İfti Assan oğlu, Xeyrulla Səməd oğlu** sədr seçilmişdir.

Dağ Kolanı əhalisi XX əsrin 50-ci illərindən sonra Poladlı kəndi, Hacıqabul, Salyan regionu və Bakı şəhərinə köçmüşlər... Kolanı təşnəsi olan Sahabcan kişi öz doğmaları ilə ötən əsrin 60-cı illərindən sonra Girdədə yenidən yurd saldılar. Amma son illərdə həmin insanlar da ata-baba yurdlarını tərk etdilər və Dağ Kolanı yenidən "yox" oldu.

Respublikamızın başqa bölgələrində olduğu kimi Dağ Kolanı elatında da camaatın savadlanmasında vaxtilə kənd mollalarının əvəzsiz xidməti olmuş və həmyerlilərinə "qara tanımaq", "Quran" oxutmağı öyrətmişlər. Belə xeyirxah insanların – **Hacı Heydər, Kərbəlayi Qaraxan, Məşədi Molla Qəni, Məşədi Nuh, Molla Saday, Molla Allahyar** və b. adları indi də el arasında hörmət və ehtiramla yad edilir.

Dağ Kolanı köçəri elat olduğu üçün sovetlər zamanı təşkil edilən ilk ibtidai məktəb də "köçəri" idi. 1925-1935-ci illərdə təşkil olunan ibtidai məktəb yaz-payız aylarında Girdədə əvvəl alaçıqlarda, sonra taxta evdə təşkil edilir, qış aylarında isə Gögəc qışlağında fəaliyyət göstərərdi. Dağ Kolanı məktəbində **Dilmanlı Tacəddin, Bicolu Köçəri, Bakılı Həsənbala, Dəmirçili Məcid, Şamaxılı Nabat, Həmyəli Rəhim, Dədəgünəşli Qulu, Kolanı Əsəd Məşədi Səftər oğlu** və b. pedaqoqlar şərəflə çalışmışlar...[1]

[1] *Ətraflı bax:* S.Qəniyev. Dağ Kolanı - elim mənim, Bakı, 2001

# DƏRƏKƏND KƏNDİ

Bu kənd Nərimankənd kəndinin cənubunda – Zəngi çayının sahilində – dərənin içində yerləşir. Toponim dərə və kənd sözlərinin birləşməsindən yaranmışdır. Sözün mənası aydındır; "Dərədə yerləşən kənd". Kəndin ilk adı Gəmaltı olmuşdur. Şamaxı-Qobustan dialektində "Gəm" su axan ərazidə, dərədə olan yaşıl yerə, çəmənliyə deyilir. Deməli, kəndin qədim adı iki - "gəm" və "alt" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Sonra kəndin adı dəyişmiş və Dərəkənd adlandırılmışdır. Dərəkənddə **Panalı, Gülümlü, Qəşrət** və s. adlı təbəhlər vardır.

XIX əsrin 30-cu illərində kənddə "Voroşilov" adlı kolxoz yaradılmışdır. Sonra kolxozun adı dəyişdirilmiş – Telman qoyulmuşdur. Sonralar bir neçə qonşu kəndlər də həmin kolxoza qatılmışdır.

Kənd əhalisi əsasən əkinçilik, heyvandarlıqla məşğul olmuşdur. Kolxozun Gümüşlü adlı yaylağı və Divanni yaxınlığında Ərzəni, Qulaqçın adlı qışlaqları vardır.

Kənddə ilk ibtidai məktəb ötən əsrin 30-cu illərində fəaliyyətə başlamış, 1947-ci ildə yeddillik məktəbə çevrilmişdir. Həmin vaxtdan günümüzə kimi bir çox bacarıqlı pedaqoqlar – **Əli Əliyev, Həsənova Rəhilə, Əfəndiyev Feyruz, Mustafayev Ağamurad (11 il), Daşdəmirov Səmid (6 il), Şərifov İzzət (3 il), Səlimov Mirzəli (11 il), Süleymanov Zakir (1 il)** məktəbə rəhbərlik etmişlər. Dərəkənd məktəbi 2002-ci ildən orta məktəbə çevrilmişdir. Hal-hazırda məktəbə Şərifov İzzət rəhbərlik edir. İndi kənddə 60 ev və 350 nəfərdən artıq əhali vardır.

# DAMLAMACA KƏNDİ

Kəndin şimal tərəfində eyni adlı mağara var. Kəndin adı da mağarının adından götürülmüşdü. Mənbələrdə toponim "damla" "damlama (damcılama, damcılayan) sözü və "ca" şəkilçisinin cəmi kimi yozulur.

Deyilənə görə, vaxtilə mağaranın divarlarından həmişə su damcılayırmış. Ona görə də, mağaraya "damcılı mağara" deyirmişlər. Həmin mağaranın suyundan vaxtilə müalicə üçün istifadə ediblər. Sonralar burada əhali məskunlaşır. Kənddə mağaranın adına uyğun olaraq Damlamaca adlandırılmışdır.

Əvvəllər kənddə 50-dən artıq ev olmuşdur. Ötən əsrin 60-70-ci illərində əhalinin çoxu müxtəlif ərazilərə köçmüşlər. Vaxtilə əhali ta-



xılçılıq və heyvandarlıqla məşğul olmuşdur. Hazırda kəndin ərazisində *xarabalıqları və doğmalarının nəfəsinə, ayaq izinə tamarzı qalan* qəbristanlıq mövcuddur... **Bir də kəndin başının üstündə uzun illər ağır fikrə dalmış, vaxtilə damlamacalıların ümid yeri olmuş "Şana nənə" ziyarətgahı...**

## QARACÜZLÜ KƏNDİ

Kənd *barədə mənbələrin birində oxuyuruq:* "Baş Qafqaz silsiləsinin ətəyindədir. Əsl adı Qaraqozlu. XIX əsrdə Qozlu çayın sahillərində maldarlıqla məşğul olmuş 13 ailədən ibarət kiçik elin adıdır. Sonralar Qaraqozlu adı qoz (meyvə) sözünün dialektlərdə cöüz (cövüz formasında tələffüzünə görə Qaracövzlü) Qaracüzlü şəklinə düşmüşdür".[1]

Qaracüzlü ilə bağlı **xalq yozumları** mövcuddur. Deyilənlərə görə, bu kəndin ilk sakinləri də ərəblər olmuşdur. Bir müddət ərəblər *qonşu obaların əhalisi ilə ünsiyyətdə olmamışlar. Qonşu obalar həmin* ərazini ərəblərin xarici görünüşünə görə Qaraüzlülər (qara üzlü) adlandırmışlar. Zaman keçdikcə Qaraüzlü sözü Qaracüzlü formasına düşmüşdür. A.Deminski Qaracüzlü kəndi haqqında yazır: "Buranın sakinlərinin sifət quruluşu monqol tiplidir. Kənd Qozlu çay və Gilgil-

[1] Azərbaycan toponimləri, Bakı, 1999, səh.145

çayın hər iki sahəsində salınmışdır. Yaxşı cins qoyun itləri ilə şöhrət tapmışdır"...



Mərəzədən 20-22 km şimali-şərqdə Qozlu çayı ərazisinə yaxın bir yerdə yerləşir. Bu kənddə ilk dəfə **"Budyonu"** adına kolxoz təşkil edilmişdir. Həmin kolxoza qonşu – **Qarabulaq, Xələfli, Toğluüzlü, Hacı Səfili, Kamıllı, Çayqovuşan** obaları da daxil edilmişdir. Bu kolxoz 1959-cu ilə kimi mövcud olmuşdur. Sonra həmin kəndlər Qurbançı, Ərəbşahverdini əhatə edən "Komsomol" kolxozuna qatılmışdır. "Budyonu" kolxozunun bir çox sədrləri olmuşdur. Hərə də öz əməlinə görə yaşayır yaddaşlarda; **Əmrah kişi (Qaracüzlü kəndi), Qara İrzaxan oğlu, Albaba Alıyev (1947-ci ilə qədər)**, yenidən **Qara İrzaxan oğlu, Abdulla Abdullayev, İsmayıl İsmayılov (Kolanı), Sündülü Əli...**

**Cəbələr** adlı yaylaqları **Çeylin yaxınlığında** isə **Xanqulu** adlı **qışlaqları** olub. Bununla yanaşı Qaracüzlülərin kəndə yaxın olan Tülkülük deyilən ərazidə də qışlaqları olub. Kolxazda heyvandarlıq, əkinçilik və bağçılıq mövcud idi. Bununla yanaşı kolxozda bir müddət dəvələr də saxlanılırdı. Təsərrüfat "Komsomol" kolxozuna qoşulanda dəvəçilik ləğv edildi. Qaracüzlüdə 1990-cı ildə Babək kolxozu yaradıldı. Kolxozun sədri **Əliyev Abdulhüseyn** seçildi. 1995-ci ildə təsərrüfat ləğv edildi.

Qaracüzlü kəndində 1950-1960-cı illərdə 70-80 ev, 1980-1990-cı illərdə 40-45 ev olmuşdur. İşsizlik ucbatından əhali Bakı, Sumqayıt və başqa ərazilərə köçmüşlər. Hal-hazırda kənddə 10-12 ev 214 nəfər əhali yaşayır. Kənddə əvvəllər 8 illik məktəb fəaliyyət göstərmiş, indi isə ibtidai məktəb fəaliyyət göstərir.

# QALAĞLI (KƏLAĞALI) KƏNDİ

Qobustan ərazisində "yox" olmuş kəndlərdən biri də Qalağlıdır (Qalağalı; Kəlağalı-Kəlayağı). Bu yaşayış məntəqəsi indiki Cəmcəmli kəndi ərazisində olmuşdur. Kəndin xarabalıqlarından (həmin yerdən toplanan qədim əşyalar Cəmcəmli kənd orta məktəbinin muzeyində saxlanılır) nişanələr mövcuddur.



**Cəmcəmli kəndi yaxınlığında orta əsrlərə aid yaşayış yeri**

Ərazidən tapılan nümunələr əsasında mütəxəssislər belə qənaətə gəlmişlər ki, bu ərazidə hələ 2-3 min il əvvəl yaşayış olmuşdur. Və ərazidə yaşayış, təxminən XVI-XVIII əsrlərə qədər davam etmişdir.

Bu qədim yaşayış yeri Cəmcəmli kəndinin təxminən, bir kilometr cənubunda yerləşmişdir.

Qalağlı – Kəlağalı toponimi barədə el arasında müxtəlif fikirlər söylənilir. Deyilənə görə, bu ərazidə çoxlu daş qalaqları olmuşdur. Burada məskunlaşan əhali yerli şəraitə uyğun olaraq oranı Qalaqlı (daş qalağı olan yer) adlandırmışlar. Sonra həmin söz təhrif olunaraq Qalağalı formasına düşmüşdür.

Başqa xalq etimologiyasına görə, burada məskunlaşmağa gələn əhalinin arasında çox güclü, qüvvətli Ağalı adlı bir insan olmuşdur. Belə ki, köç yol boyu gedəndə kəl arabları yoxuşda çəkməyəndə və ya batanda Ağalı özü də arabaya qoşular və kəllərə kömək edərdi. Əhali onu Kəl Ağalı adlandırardı. Odur ki, əhali ilk dəfə məskunlaşdıqları ərazini onun şərəfinə Kəlağalı adlandırır.

Başqa bir rəvayətə görə, qoçu, cığal, qal törədən Ağalı obadan ayrılır. Gedib həmin ərazidə məskunlaşır. Qonşu obalar oranı Qalağalı (yəni, qal törədən Ağalı) adlandırırlar. Bir müddət sonra Ağalının başına bir çoxları da toplaşır, oba yaranır. Deyilənə görə, 350-400 il əvvəl həmin əraziyə ilan sürüsü gəlir. Odur ki, Qalağlı-Kəlağayı camaatı həmin ərazini tərk edir. Bir çoxları Ağsu rayonu ərazilərində məskunlaşırlar.

Y.Yusifov "Cəmcəmli kəndinin igid oğulları" kitabında bu barədə yazır: "Əvvəllər Qalağlı adı ilə adlandırılan kənd yerində, Sarı Qərəbdə, Biçənəkdə yaşayış olmuş, ilan camaata çox ziyan vurduğu üçün həmin ərazidən hamı köçüb dağılmış, indiki kənd mülkündə və Ağsu rayonunun Kəlağayı kəndində məskunlaşmışlar".

## QARABULAQ OBASI

Oba Qozlu çayının sol sahilində yerləşir. Toponim "qara" və "bulaq" sözlərinin birləşməsindən yarannmışdır. Tərəkəmə elatlarından biridir. XX əsrin 50-60-cı illərində əhali müxtəlif ərazilərə köçüb getmiş, cəmi 10-15 ev qalmışdır. Ötən əsrin 80-ci illərindən sonra evlərin sayı azalıb 6-7 olmuşdur. Qarabulaq obası vaxtilə bir neçə qonşu kəndlərlə birlikdə əvvəl "**Budyonu**", sonra isə "**Komsomol**" kolxlzuna qatılmışdır. Əhalinin əsas məşğuliyyəti əkinçilik, bağçılıq və heyvandarlıq idi.

## ƏRƏBQƏDİM KƏNDİ

Azərbaycanın bir çox regionları ilə yanaşı, Qobustan bölgəsində də ərəblərlə bağlı bir neçə kənd mövcuddur. Bu barədə Q.Qeybullayev özünün "Azərbaycan toponimyasında ərəb təbəəsi haqqında"[1] adlı məqaləsində ətraflı məlumat vermişdir.

Mənbələrdən bir daha aydın olur ki, VIII-IX əsrlərdə Azərbaycana köçürülən ərəblər əsasən, "**Şam, Mosul, Diar, Rəbiə, Yəmən, Xeybər, Xilə, Kufə, Bəsrə** və s. dairələrdən olmuşdur". "Ərəblərin Azərbaycanda olması barədə Ərəb coğrafiyaşünaslarından **İbn-Əl-Bəlazuri, İbn-Əl-Fətih-əl Həmədani** və başqa tədqiqatçılar da öz əsərlərində məlumat vermişlər. Həmin dövrdən sonra Azərbaycanın

[1] Azərb. SSR EA Xəbərləri. Ədəb. dil və incəsənət ser. Bakı, 1976, №1

bir sıra yaşayış məntəqələrinin, orfoqrafik obyekt adlarının və digər *mikroobyektlərin ərəb adı daşıması vaxtilə ərəblərin məskən salmasına sübutdur".*[1]

Qobustan regionunda da bu adda bir neçə kənd və onlarla toponim mövcuddur.



**Ərəbqədim kənd məscidi**

**Ərəbqədim.** Toponim iki – "**ərəb**" və "**qədim**" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Mənası qədim və ya köhnə ərəblər deməkdir. Yəni, ərəblər daha qədim zamanlarda bu əraziyə köçürülmüşlər. Deyilənlərə görə, Azərbaycan ərazisində ilk dəfə ərəblər burada məskunlaşmışlar. Mənbələrdə qeyd olunduğu kimi, bu kəndin əsası Məhəmməd (s.ə.v.s.) peyğəmbərin əmisi (Həmzə Şühədanın qardaşı) Əbü Ləhəbin (*o islam dinini qəbul etməmişdir*) nəvəsi İbn Əmr tərəfdarları ıtərəfindən qoyulmuşdur. İbn Əmrin Hatəm və Hakim adlı iki oğlu olmuşdur. Hatəm burada yaşamışdır. Vəfat edəndə ticarət yoluna yaxın bir ərazidə (Dəmdəməki şəhəri) dəfn olunmuşdur. Əhali həmin məzarı ziyarət etməyə başlamışdır. Vaxtilə yaşlı sakinlərin dediyinə görə, Şirvanşah İbrahim də həmin məzarda uyuyanın peyğəmbər əsabəsindən olduğu üçün məzarın üstündə bənzəri olmayan, möhtəşəm bir türbə tikdirmişdir. Zaman keçdikcə Şeyx İbrahim təriqqətinin davamçıları və eləcə də Şeyx Məhəmməd də (Diri Baba) "həmin pak vücudu" həmişə ziyarət etmişlər. Diri Baba da öləndə gəlib həmin türbənin yanında canını təslim etmişdir.

[1] N.Məmmədov. Azərbaycanın yer adları. Bakı, 1993, səh.145

E.A.Deminskinin yazdığına görə, XIX əsrdə Şamaxı qəzasında əhalisinin sayına görə ən böyük kəndlərdən biri Ərəbqədim olmuşdur. Bu yaşayış məntəqəsində "**200-250 tüstü**" qeydə alınmışdır. Deminski obada **Nəsirli, İbn Əmr, Şahbədəlli** təbəhlərinin olduğunu qeyd etmişdir. (Şahbədəlli Şeyx Əyyub babanın nəsilidir – **S.Q.**).

Ərəbqədim kəndində bu gün bir çox – **Əhmədli, İmamlı, Gülümlü, Süleymanlı, Seyidli, Ağaməmmədli, Zallı, Qızyetərli, Molla Şərəfli, Qafarlı, Rəfili, Manaflı** kimi təbəh və tirələr vardır. Əhali əsasən, heyvandarlıq və əkinçiliklə məşğul olur.

Sovet hakimiyyətinin 30-cu illərində kənddə "**Bolşevik**" adlı kolxoz yaradılmışdır. Kolxoz 1959-cu ildə bir neçə kəndi özümdə birləşdirən "**Telman**" kolxozunda qatılmışdır. 1966-cı ildə Ərəbqədim kəndi "Telman" kolxozundan ayrılmış və burada "**Bakı**" kolxozu yaradılmışdır. Ərəbqədim kəndində fəaliyyət göstərmiş kolxoza **Mirzəliyev Zərqulu, Cənnətalı Zərbalı oğlu, Güləliyev Güləli, Həmidov Həmid** və b. təsərrüfatı yaxşı bilən insanlar başçılıq etmişdir.

Kolxozun **Ramazanlı, Rəhim, Sağallar** adlı qışlaqları, **Şahnazar, Gülümlü, Meşəbaşı, Cəbəkər** adlı yaylaqları olmuşdur. Bu gün də kənddə fəaliyyət göstərən məscid XIX əsrin 90-cı illərində Şeyx Əyyub babanın nəvəsi Alıxan bəyin təşəbbüsü ilə inşa edilmişdir. Deyilənlərə görə, məscidə **Hacı Zülfüqar, Hacı Qəhrəman, Molla Zərbalı, Molla Fəti, Molla Gülbala, Molla Ağadadaş** və b. qayğı göstərən, dini mərasimlərə rəhbərlik edən insanlar olmuşlar. XX əsrin 30-cu illərindən kənddə əvvəlcə ibtidai, sonra isə yeddiillik məktəb təşkil edilmişdir. 1989-cu ildən kənddə orta məktəb fəaliyyət göstərir. Kənddə klub və kitabxana da vardır. Hal-hazırda kənddə təxminən, 170-180 ev və 1262 nəfər əhali vardır.

## ƏRƏBŞAHVERDİ KƏNDİ

Bu adda da respublikamızın müxtəlif ərazilərində kəndlər mövcuddur. Bu barədə mənbələrin birində oxuyuruq: "Ərəbşahverdi XIX əsrdə ərəb mənşəli tayfaların birinin adı idi. 1870-ci ildə 250 ailədən ibarət idi; Ərəbbabalı (53 ailə) və iki hissədən ibarət Ərəbşahverdi (118 ailə)".[1]

Ərəbşahverdi toponimi haqqında bir neçə **xalq yozumu** da mövcuddur. Deyilənə görə, ilk əvvəl Göyçay ərazisində məskunlaşan

[1] Azərbaycan toponimləri (ensiklopedik lüğət), Bakı, 1999, səh.222

bu əhalinin bir hissəsi Şirvan şahına Şamaxı ərazisində yaşamaq üçün müraciət etmişlər. Şirvan şahı da bu günkü Ərəbşahverdi kəndinin ərazisini onlara bağışlamışdır. Xalq yozumuna görə, Ərəbşahverdi sözü də həmin mənanı ifadə edir. Yəni, "**şahın ərəblərə bağışladığı yer**". Başqa bir xalq deyiminə görə, bu ərəblər vaxtilə Şahverdi adlı bir şəxsin başına yığışmışlar. Sonra onlar həmin ərazidə məskunlaşmışlar. Kəndin də adını həmin şəxsə hörmət olaraq Ərəbşahverdi qoymuşlar. Hətta deyilənə görə, Göyçay ərazisində olan Ərəbşahverdi kəndinin sakinləri vaxtilə bu kənddən köçüb getmişlər. Bu əhali də həmişə əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. Ərəbşahverdilərin Güzgülü, Taxta yaylaqlarında yaylağı, Unbakı yaxınlığında Ağbulaq, Kaftaran, Uzun dərə adlı qışlaqları olmuşdur. Kənd ərazisində həm şirin, həm də şor sulu bir çox bulaqlar vardır: **Boza bulağı, Sövdəgar bulağı, Novruz bulağı, Şirin bulağı, Leyli bulağı** ("Məru" – şor su) və s.

Kənd bir neçə – **Novruzlu, Əzimli, İmanqululu, Sofu Həmidli** və s. təbəhdən ibarətdir. Son illərdə əhalinin bir hissəsi Bakı, Sum-



qayıt və Sanqaçala köçmüşlər. Kənd ərazisində bir çox ziyarətgahlar (**"Boza piri", "Seyidlər ocağı", Balaca pir, Şıxzada baba, "Kömbə piri"**) və şərgah xarabalığı mövcuddur.

Ərəbşahverdi kəndi uzun illər Qurbançı kəndi ilə bir təsərrüfatda – "Komsomol" kolxozunda fəaliyyət göstərmişdir. Kənddə ilk məktəb ötən əsrin 30-cu illərində Xəlfə Dostalının mülkündə təşkil edilib. 1936-cı ildə isə yeni ibtidai məktəb təşkil edilib. Böyük Vətən

müharibəsinə qədər məktəbdə **Xəlilov Zahid (Kalva kəndi), Yaralıyev Ağakərim (Ağdam), Mahmud müəllim (Bakı), Şakir müəllim (Qaravəlli), Həmidov Nəsir (Şamaxı);** müharibədən sonra məktəbdə **Vəliyev Babacan, Qədirov Nizam (Nərimankənd kəndi), İbrahimov Mollağa. Osmanov Camo** və b. pedaqoqlar çalışmışdır. Kənd əhalisi köçəri olduğu üçün qışlaqlarda (Şahmələk və Xanqulu) da məktəb həmişə fəaliyyət göstərmişdir.

1969-1970-ci tədris ilində kənd ibtidai məktəbi 8 illik məktəblə əvəz olunur. 1974-cü ildə isə kənddə yeni məktəb binası istifadəyə verilmişdir. Müxtəlif vaxtlarda **Qəniyev Ağacamal, Əsədov Məhərrəm, Vəliyev Vəli, Adil İskəndərov, Nəsirulla Bəbirov, İnqilab Məmmədov, Ağasəf İskəndərov** məktəb direktoru işləmişlər. Halhazırda kənddə 75 ev və 546 nəfər əhali vardır.

## ƏRƏBŞALBAŞ KƏNDİ

Bu da ərəb mənşəli kənddir. Toponimin elmi yozumu barədə mənbələrdə bir neçə fikir mövcuddur. Q.Qeybullayev özünün "Azərbaycan toponimyasında ərəb təbəsi haqqında" adlı məqaləsində yazır: "...1853-cü ildə 50 ailədən ibarət olmuş bu tayfa Şalbaş adlı xəzinə torpağında məskunlaşdığına görə belə adlandırılmışdır"[1] .

Bu kənd el arasında Ərəbcəbirli də adlanır. Hər iki toponim barədə xalq arasında yozumlar mövcuddur. Belə deyirlər ki, ərəblər bu ərazidə məskunlaşdığı zamanlarda da öz adətlərinə uyğun olaraq başlarına şal (kişilər də) örtərlərmiş. Ona görə də qonşu camaat onları Ərəbşalbaş – başı şallı ərəb adlandırmışlar. Başqa bir **xalq yozumuna** görə, vaxtilə ərəblər bu əraziyə məcburi köçürülmüşlər. Ərəbcəbirli sözü üç hissədən (Ərəb, cəbr və "li" şəkilçisi) ibarətdir. Sözün birinci tərəfinin leksik mənası aydındır. İkinci komponent – "cəbr" sözünün ərəb dilində bir mənası "zor", "zor işlətmə" deməkdir. **"Cəbri"** isə "zorla icra olunan" mənasını bildirir. Deməli, ümumi şəkildə sözün ikinci tərəfi "məcburi icra olunan" mənasını daşıyır. Deməli, Ərəbcəbirli sözünün xalq etmologiyasına görə yozumu – məcburi köçürülən ərəblər anlamını bildirir.

Respublikamızın hər bölgəsində olduğu kimi, bu kənddə də dövlət məktəbi 1920-ci ildən sonra yaradılmışdır. Ona qədər kəndin mollaları öz həmyerlilərinə "qara tanıtmış" və "Quran" oxumağı öy-

[1] *Q.Qeybullayev.* Azərbaycan toponimyasında ərəb təbəsi haqqında".Azərb. SSR EA Xəbərləri. Ədəb. dil və incəsənət ser. Bakı. 1976. №1

rətmişdir. **Molla Almaz, Molla Balağa, Hacı Süleyman, Hacı Molla Vəli** və b. belə insanlardan olmuşdur. 1924-cü ildə Ərəbşalbaş kəndində ibtidai məktəb təşkil edilmiş, 1929-cu ildə ilk məzunları (Əhmədov Ağaəhməd, Məhəmməd Mirqanı, Məmmədov Ana, Mehdiyev Heybət, Orucov İsmayıl, Hacıyev Musa, Musayev Heybət...) məktəbi bitirmişdir. Məktəbin ilk müəllimi Məhəmməd Əfəndiyev olmuşdur. Müharibədən sonra kənddə yeddillik, 1968-ci ildə isə orta məktəb fəaliyyət göstərmişdir. **Əhəd Əzizov, Şadilək Söhbətov, Ağaveyis Saatov, Məmməd Əhmədov, Arif Rəhmənov, Mübahil Ağarəhimov** 1969-cu ildən sonra müxtəlif vaxtlarda məktəbdə direktor işləmişlər. Hal-hazırda məktəbə Elçin Orucov rəhbərlik edir.

3361 nəfər əhalisi olan Ərəbşalbaş kəndində məscid, klub, kitabxana da fəaliyyət göstərir. Kəndin əhalisi indi də əsasən, heyvandarlıq və əkinçiliklə məşğul olur.

## İLANLI OBASI

Vaxtilə bu oba Şıxzərli kəndi ərazisinə yaxın bir yerdə yerləşmişdi. Mənbələrin göstərdiyi kimi, bu kəndin əhalisi təxminən, XVII əsrin sonu, XVIII əsrin əvvəllərində qədim Dəmdəməki şəhərindən (Mərəzədən) həmin yerə – Şor bulağın yanına köçüb gəlmişlər. Deyilənlərə görə, həmin yerdə ilk məskunlaşan Zal bəy və oğlanları olmuş, sonra onun qohum-əqrəbaları da köçüb gəlmişdir. Özləri də Xəlvəti təriqqətinin başçılarından olan böyük dini bilik sahibi Seyid İbrahimin nəslindəndirlər. Bu kənddə babalarının yolunu davam etdirən onlarla dini bilik sahibləri, möminlər yetişmişdir. Elin **Hacı Ağası bəy oğlu Zal bəy və eləcə də İbrahim bəy, Cəbrayıl bəy, Abdulla bəy, Xancan bəy, Süleyman bəy, Ağalar bəy, Tağı bəy, Niftalı bəy, Mustafa bəy, Məhmərza bəy, Səlim bəy, Alış bəy, Şahpələng bəy, Hacı Nuh bəy, Eynəli bəy, İlyas bəy, İdayət bəy, Vəlican bəy, Hacı Alıcan bəy** kimi neçə-neçə xeyirxah, el-oba qədri bilən, bütün Şirvanda hörmət-izzət sahibi kimi tanınan, mərd-mübariz övladları olmuşdur. Kəndin əhalisi əsasən, əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. Ta uzaq keçmişdən ilanlıların Qobustanda bir neçə – Şıx, Soltan, Gəray, Ağıl – Daş adlı qışlağları olmuşdur.

İlanlı kəndinin əhalisi, əsasən, XIX əsrin sonundan Duvannı qəsəbəsinə köçməyə başlamışdır. 1918-ci ildə erməni quldurları bu

kəndi odlara qalamışdır. Amma İlanlı kəndinin mərd oğulları **Qulu bəy Gəray bəy** oğlunun başçılığı ilə onlarla vuruşmuş və erməni daşnaklarına xeyli itki vermişlər. İlanlı kəndinin qorxmaz oğlu **Sərxan bəy** də həmin illərdə Qarabağda – Əsgəran qalasında gedən döyüşlərdə iştirak etmiş və şəhid olmuşdur. Sərxan bəy elə həmin yerdə də dəfn olunmuşdur.

Onu da qeyd edək ki, Orta Asiyada da bu adda kəndlər mövcuddur. Görkəmli alimlər **A.Qurbanov, B.Budaqov, Q.Qeybullayevin** tədqiqatında bu söz, totemləri ilan olan türkdilli ilanlı tayfasının adı ilə bağlanılır.

Xalq etimalogiyasına görə, ilk sakinlər bu ərazidə çoxlu ilana təsadüf etmişlər. Ona görə də yaşayış yerini İlanlı adlandırmışlar.

1918-ci ildən sonra, əhalinin bir hissəsi də yenidən Bakı şəhəri və Duvannı ərazilərinə köçmüşdür. Məlumdur ki, ötən əsrin 30-cu illərində yerli bəylər təqib olunur, var-yoxları əllərindən alınırdı. Bu illərdə İlanlıda olan insanların demək olar ki, hamısı kəndi tərk etmişdir. Beləliklə, Şamaxıda bir kənd də "yox olur".

Kənddən günümüzə nişanə ancaq ilanlıların ata-babalarının uyuduğu qəbristanlıq qalmışdır.

## YEKƏXANA KƏNDİ

Yekəxana kəndi Pirsaat çayının sol sahilində yerləşir. Elmi mənbələrdə yekəxana sözü, əsasən, nəsil adı kimi yozulur. "1870-ci il məlumatına görə, Pirsaat çayı yaxınlığında yaşamış bu tayfa iki hissədən; **Yekəxana Talıb bəy (72 ailə)** və **Yekəxana İbrahim bəy (32 ailə)** ibarət olmuşdur".

O.A.Deminski bu kənd barədə yazır: "...Xan yerinin ilk sakinləri Türkiyədən gələn dörd qardaş olublar; **Xan Əhməd, Gül Əhməd, Qoç Əhməd, Çaş Əhməd.** Onlar Mustafa xanla birlikdə İrana qaçmış, sonra geri qayıdıblar və hazırda məskunlaşdıqları Pirsaat çayının sahillərində yaşamışlar". Deminskinin yazdıqlarından o da bəlli olur ki, hər iki şəxs – Talıb bəy və İbrahim bəy təxminən, 1820-ci ildən köçə başçılıq etmişlər.

Ötən əsrin əvvəllərindən bu kəndlər el arasında üç – **Çay Yekəxana (Əhmədli), Orta Yekəxana** və **Dağ Yekəxana (Bədəlli)** – adı ilə adlanmışdır. XX əsrin 70-ci illərindən sonra Çay Yekəxana-

sında yaşayan əhali Orta Yekəxana (Yekəxana) və Dağ Yekəxanaya (Bələdiyyə) köçmüşlər.




Yekəxana bir çox təbəh və tirələrdən ibarətdir; **Xəlilli, Həbibli, Bədəlli, Davudlu (Doudlu), Əzməmmədli, Ağcabəyli** və s.

Yekəxana sözünün leksik mənası haqqında bir çox **xalq yozumları** da mövcuddur. Belə deyirlər ki, eldən küsüb getmiş bir nəfər həmin ərazidə bir ev tikib yaşamağa başlamışdır. Fars dilində bir evə "Yek xanə" deyilir. Zaman ötdükcə, "Yekxanə" sözü dəyişilərək "Yekəxana" formasına düşmüşdür. Başqa bir xalq yozumuna görə, Yekəxana sözü "yekə ev", "böyük ev" mənasını bildirir.

Bu adda respublikamızda bir neçə kənd mövcuddur.

Yekəxana da rayonun tərəkəmə elatlarındadır. Əhali heyvandarlıqla yanaşı, əkinçiliklə də məşqul olmuşdur. Yekəxana kəndində ötən əsrin əvvəllərində uşaqlar ancaq el mollalarından "Quran" oxumağı öyrənmişdir. Belə insanlara **Molla Ağa, Molla Bədəl** və b. nümunə göstərmək olar. XX əsrin 30-cu illərində kənddə məktəb təşkil edilmiş, müharibə başladığı üçün iş davam etdirilməmişdir. 1947-ci ildə kənddə yenidən məktəb təşkil edildi. Daha dəqiq desək, xeyirxah insan Məşədi Qabul öz mülkündən məktəbə bir bina verir. Məktəbin ilk müəllimləri – **Aqil Sultanov, Hacağa Məmmədov, Mirzə Muradov** başqa kənddən olmuşdur. Kənddə məktəb binası 1956-cı ildə istifadəyə verilmişdir. 1966-cı ildən sonra yerli kadrlar – **Adgözəlov Can-**

**məmməd, Bayramov Əbdülrəhman, İsrafilov Məhəmməd, Qabulov Haqverdi, Rəfiyev Heybət** məktəbə rəhbərlik etmişlər.



**Kənd məktəbinin müəllimləri**

Hal-hazırda 20 nəfər müəllim və 241 nəfər şagird kollektivi olan kənd orta məktəbinə Qabulov Vidadi rəhbərlik edir.

## KAMILLI OBASI

Oba Qozlu çayından bir qədər aralıda yerləşmişdir. Deyilənə görə, bu yerin ilk sakinləri Hacı Kamılla birlikdə bu ərazidə məskunlaşmışdır. Sonra isə obaya qonşu kəndlərdən də köçüb gələnlər olmuşdur. XX əsrin əvvəllərində obada 20-25 ev, sonralar əhali bu ərazidən köçmüş və ötən əsrin 80-ci illərində burada 4-5 ev qalmışdır. Ən nəhayət, əhali kənddən tamamilə köçüb getmişdir. Kənd "yox" olmuşdur.

Bu oba da vaxtilə əvvəl "Budyonu" sonra isə "Komsomol" kolxozunun tərkibində olmuşdur. Hal-hazırda obadan sahibsiz ormanlar, xarabalıq və qəbristanlıq nişanə qalmışdır.

## GÖYDƏRƏ KƏNDİ

Ərəbqədim kəndinin qərbində yerləşir. El arasında Göydərə kəndinə Dərəyurd da deyirlər. Kəndin adı yerləşdiyi ərazinin – dərə-

nin adı ilə adlanır. Dərənin göy adlandırılması ilə bağlı bir neçə **xalq yozumu** mövcuddur. Bir yozuma görə, dərədəki torpaq süxurlarının rəngi göyə çalır. Başqa fikirə görə, dərədə həmişə şor və ya kükürdlü sular olur. Ona görə yay aylarında da dərədə həmişə yaşıl ot olur. Yerli dialektdə çox zaman yaşıl sözü əvəzinə göy işlədilir. Məsələn, bir çox dialektlərdə **"yaşıl çəmən"** əvəzinə, **"göy çəmən"** deyilir. Göydərə sözünün birinci tərəfindəki **göy** sözü də **yaşıl** mənasını ifadə edir.

Əhali uzun illər əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. Kənddə ilk dəfə "XVIII partiya qurultayı" adlı kolxoz yaradılmışdır. 1959-cu ildə həmin kolxoz Dərəkəndə yaradılan "Telman" kolxozuna qatılır. Göydərə kəndinin əhalisinin müəyyən hissəsi Bakı, Sumqayıt, Duvannı, Şamaxıya köçmüşdür. Hal-hazırda kənddə təxminən, 60-a yaxın ev və 440 nəfər əhali vardır.

## MƏRƏZƏ QƏSƏBƏSİ[1]

Qobustan rayonunun mərkəzi olan Mərəzə qəsəbəsi Bakı-Şamaxı şosse yolunun təxminən, yüz kilometrliyində yerləşir. İnzibati rayon kimi cavan olan rayon demək olar ki, respublikamızda ən qədim (eramızdan əvvəl) yaşayış ərazilrindən biridir. Regionun müxtəlif kənd ərazilərində olan və e.ə. dövrlərlə səsləşən, eləcə də qəsəbənin şimalındakı kurqanlar, qəsəbənin şərq tərəfində yerləşən qəbrlər və qəsəbənin mərkəzində yeni aşkar edilmiş və ilk orta əsrlərdən soraq verən xanəgah, XV əsr yadigarı Diri Baba türbəsi (1402-03) və eləcə də qədim karvansara bu diyarda uzaq keçmişdə yaşayış yeri olduğunu təsdiqləyir. Ərazidə İslamdan əvvəlki dövrlərə aid olan çoxlu ziyarətgahların olması Qobustanın qədimliyini bir daha sübut edir.

Şirvanşahlar dövlətinə hücum edən işğalçılar ziyarətgahlar diyarı kimi məhşur olan **Qobustan ərazisinə çatanda əl saxlamış, qılınclarını qınna qoymuş, bu övliyalar xatirinə cəngdən, savaşdan çəkilmiş, onlara baş endirmiş, hətta topladıqları vəsaitlərdən abidələrin bərpasına pay da ayırmışdır**. Ərazidə yerləşən Diri Baba türbəsinin bir neçə dəfə bərpa olunması haqqında mənbələrdə müəyyən məlumatlar mövcuddur. Şarvanşahlar dövlətinin dünyada

[1]Toponimin elmi yozumunda M.Baxışov, İ.Sabirovla fikirlərimiz eynidir.

məşhur olduğu çağlarında böyük karvan-ticarət yolunun biri də buradan keçmişdir. Müxtəlif istiqamətlərdən Şamaxıya yol alan karvanlar burada görüşürdü... Belə ki, cənubdan baş alan karvanlar Quba – Dəmirqapı Dərbəndə, oradan rusiya bazarlarına getmək üçün ya Şamaxı – "... **Xaltan aşırımı – Qonaq kənd Təngi dərəsi** (o vaxtlar bu dərəni dəmir darvaza adlandırmışlar, çünki yol ancaq buradan – bu dar və dərin dərədən keçirdi)" – **Quba – Dərbənd və ya Mərəzə – Xilmilli – Pirbəyli – Qonakənd – Quba...** yolundan keçib getmişdir... Odur ki, Mərəziyə yetişən karvanlar dincəlmək, gecələmək üçün Mərəzə xanəgahları və ya karvansaralarında qalırdılar.



Şamaxı xanlıqları dövründə isə bu böyük karvan yolu **Mərəzədən Ərəbşahverdiyə oradan da Cəngi istiqamətində** Bakıya uzanırmış.

Bu yaşayış yerinin hələlik iki – Dəmdəməki və Mərəzə adı məlumdur.

Mərəzə toponiminin leksik mənasının elmi izahları ilə yanaşı xalq arasında müxtəlif yozumları da mövcuddur. Mərəzə sözünün mənbələrdə "**Məri-zad**" (Məri-Sad), "**Pir Mərizat**", "**Mərizat**" formalarına rast gəlinir. XVII əsrdə dünyanın və eləcə də Azərbaycanın bir çox bölgələri ilə yanaşı Şamaxı-Mərəzədə olmuş türk səyyahı Evliya Çələbi bu söznən bağlı maraqlı fikir söyləmişdir. Vaxtilə Diri Ba-

ba türbəsini ziyarət edən səyyah özünün "Səyahətnamə" əsərində yazır: "... Tabelimizdə olanlar kələntərin evində qonaq olduqları halda, həqir, Pirin (Diri Baba – S.Q) astanasında qalmalı oldum. Buraya avam (camaat) "Şeyx Mərəza" deyirlər. Lakin əslində "Mərizat" deyilsə, daha düzgün olar. "Diri Dədə" adı ilə məşhurdur. İranda "Mərizat" fars dilində "**bükülmüş**" deməkdir"[1].

Deminiski XIX əsrdə bu ərazini gəzmiş, yerli sakinlərdən müxtəlif məlumat əldə etmişdir. Yerli sakinlərdən Mərəzə toponimii haqqında eşitdikləri barədə o, öz əsərində qeyd edir: "... qədim zamanlarda Mərəzənin yerində çox böyük olan "Mari-Zad" və ya "Mari-Sad" adlı şəhər olubmuş. Bu şəhər belə böyük idi ki, hər tərəfə bir neçə vers uzanırdı. Hətta 1195-ci ildə iranlı Soltan İsmayılın dövrünə qədər qalırdı"[2] .

Başqa bir mənbədə isə Mərəzə sözünün leksik yozumu barədə oxuyuruq: "Yaşayış məntəqəsi öz adını orada mövcud olmuş **Pirmərəz** adlı pirin adından götürmüşdür. Sonralar toponimin tərkibindəki pir sözü düşmüşdür"[3].

Yuxarıda izah etdik ki, "hər tərəfə bir neçə verst uzanan" Mərəzə şəhəri həm də uzun illər karvan yollarının ayırıcı, qovuşuğu olmuşdur. Bu baxımdan bizə belə gəlir ki, Mərəzə sözü ərəb dilindəki "**məcəzə**" sözündəndir. "**Məcəzə**" sözünün lüğəvi mənası "**görüş**", "**görüş yeri**" deməkdir. Yəni "yolların" və ya "tacirlərin, səyyahların görüşdüyü yer" mənasında.

Mərəzə sözünün yozumu ilə bağlı xalq deyimləri də mövcuddur. Deyimlərdən görünür ki, ilk əvvəl bu yaşayış yerinin adı "Mərəzi" olmuşdur. Bu da ərazinin iqlimi, havası ilə əlaqədardır. Belə ki, buranın qışı çox sərt, soyuq, yayı isə həddindən artıq isti olur. Ona görə də ilk sakinlər buranı "Mərəzi" adlandırıblar. Söz iki hissədər ibarətdir. Birinci tərəf – "**mərəz**" fars dilində "xəstə", ikinci tərəf "**i**" mənsubiyyət şəkilçisindədir. Ümumi şəkildə götürdükdə sözün xalq yozumunda mənası "**xəstə yer**" məzmununu daşıyır. Vaxtilə, yaşayış yerinin **Dəmdəməki** adlanması da mənbələrdən yaxşı məlumdur. Bu söz xalq yozumuna görə, "hərdəmxəyal" mənasını verir. Bizə belə gəlir ki, bu yozum da əslində ərazinin hava və iqliminin dəyişkən – hərdəmxəyal olması ilə bağlıdır.

[1] E.Çələbi. Səyahətnamə. Bakı, 1997, səh.64
[2] A.Deminski. "Göstərilən əsəri". səh. 46
[3] Azərbaycan toponimləri (ensklopedik lüğəti), Bakı, 1999, səh.356

Dəmdəməki sözünün aşağıda verdiyimiz elmi yozumu isə daha məntiqə uyğundur. "Dəm" sözü həm ərəb, həm də fars dillərində mövcuddur. Ərəb dilində bu **söz üç – "qan", "söhbət", "göz yaşı"** mənalarında işlədilir (sözün hər üçü eyni formalı hərflə yazılanda). "Dəm" sözü fars dilində başqa – "nəfəs çəkmə", "an", "zaman" mənasında işlədilir. Fars dilindəki dəm sözü təkrarla yazılanda (**dəmdəm**) onda **anbaan, dəqiqəbədəqiqə** məzmununu daşıyır. Fars dilində təkrarla yazılan dəm sözü dindarlar tərəfindən "xoşnəfəs", "nəfəsi təsirli olan"[1] kimi də yozulur. Odur ki, Dəmdəməki sözünə bu yozumla yanaşsaq, onda sözü iki hissəyə ayırmaq olar. Birinci tərəf – **"dəmdəm"**, ikinci tərəf isə – **"əki"** olur. Birinci tərəfin mənası məlumdur – "nəfəsi təsirli olan". Bizə belə gəlir ki, ikinci tərəf – "əki" ərəb dilindəki "əxi" sözünün təhrif olunmuş formasıdır. Deməli, bütöv şəkildə Dəmdəməki (Dəmdəməxi) sözünün leksik yozumu **"nəfəsi təsirli olan qardaşlar"**. XIV əsrdən bu ərazidə "Xəlvəti" təriqqətinin tərəftarlarının ömür sürdüyünü, böyük məktəb yaratdıqlarını xatırlasaq, onda bu sözün yuxarıdakı yozumu tam yerinə düşür.

XIX əsrin təxminən, 30-cu illərindən başlayaraq Azərbaycanın müxtəlif bölgələri ilə yanaşı Şamaxı quberniyasının Xilmilli, Mərəzə, Nağaraxana, Çuxuryurd və s. kəndlərinə ıdə rus və malokanlar köçürülmüşdür. **"... Onların buraya gəlişləri 1838-ci ilə aiddir. Bu mühacirlər Ukraynanın cənub quberniyalarından və böyük Rusiyanın, Volqaboyu və mərkəzi quberniyalarından gəlmişdilər"... Velikoruslar "andı, kilsəsisi, dini mərasimi və ali hakimiyyəti qəbul etməyən adamlar kimi çar hökuməti və xəfiyyələri tərəfindən bura sürgün olunmuşlar. Onlar müxtəlif təriqqətlərdən (molokanlar, duxoborlardan, yəhudipərəstlərdən, baptislərdən, subbotniklərdən və s.) ibarətdir. Velikoruslar rus dilində danışırlar"**[2] (seçmələri bizimdir – **S.Q.**)...

Molokanlar barədə başqa bir mənbədə verilən məlumat da maraqlıdır. Onlar (molokanlar – **S.Q.**) ilk dəfə... "XVIII əsrdə Tambov quberniyasında təşəkkül tapmış, sonra bir çox regionlara yayılmışlar". Molokan "o kəsdir ki, "süd kimi pak sözlərlə" qidalanır". Təriqqətlərinin adı buradan götürülmüşdür. Bir gümana görə, əcdadları XVIII əsrin axırlarında Moloçniye vodı çayının sahillərinə sürgün edilmiş, ad da bu çaydan götürülmüşdür. Başqa bir ehtimal da budur ki, provoslavlardan fərqli olaraq onlar pəhriz müddətində süddən istifadə ediblər. Elə buna görə də onları molokan adlandırıblar".

---

[1] Ərəb və fars sözləri lüğəti, Bakı, 1967, səh.142

[2] M.Baharlı. Azərbaycan, Bakı, 1993, səh.62

*Yerli ruspərəs insanlar və dövlət çinovniklərinin səyi nəticəsində* molokanlar indiki Qobustan rayonunun Xilmilli və Mərəzə ərazilərindən – yerli əhalini dədə-baba ocağından sıxışdırıb çıxarmış və "qonaqları" orada yerləşdirmişlər. Bundan sonra yerli sakinlər məcbur qalıb müxtəlif əraziyə köçmüşlər. **Necə deyərlər, "yersiz gəldi, yerli qaç".**



Mərkəzi kitabxana

Həmin ərazilərə tam sahib olandan sonra molokanlar özləri üçün hər cür şərait düzəltdilər. Əsasən heyvandarlıq və əkinçiliklə məşğul olmağa başladılar. XIX əsrin son rübündə Mərəzə molokanlarının məşğuliyyəti barədə daha dəqiq məlumata **SMOMPK** məcmuəsində rast gəlirik. Bu məcmuənin 1891-ci il on birinci nömrəsində Altıağac birsinifli kənd məktəbinin müəllimi Stepan Şulkov "Şamaxı qəzası, Mərəzə kəndi" adlı bir məqalə çap etdirmişdir. Məqalədə sadəcə faktlar sadalansa da, həmin məlumatlar günümüz üçün çox əhəmiyyətlidir. Ona görə ki, yazıdan tam aydın olur ki, azərbaycanlıların uzun əsrlər ata-baba yurdu olan Mərəzədə XIX əsrin sonunda demək olar ki, heç bir müsəlman qalmamışdır. Molokanlar yerli sakinlərin 80 faizdən çoxunu ərazidən çıxarmış, qəsəbədə öz təsərrüfatlarını qurmuşlar. Odur ki, yüz ildən artıq yaşı olan həmin məqaləni ixtisarla kitabda verməyi məsləhət bildik.

"...1886-cı ilin axırıncı siyahıyalma nəticələrinə görə Mərəzə kəndinin hər iki cinsdən olan əhalinin sayı 1612 nəfər təşkil edir. O, cümlədən, kişilər 812 nəfər, qadınlar isə 800 nəfər.

Əhali Poltava və Saratov quberniyalarından köçürülüb gələnlərdən ibarətdir. Əhalinin əsas məşğuliyyəti taxıl əkib becərməkdən ibarətdir. Bu məşğuliyyətlə əlaqədar əhalinin diqqəti kənd təsərrüfatında və əkində istifadə olunan alətlərin hazırlanmasına yönəlmişdir. Bu da öz növbəsində sənayenin inkişafına səbəb olurdu" (toxucular 360 nəfər qadın; bənnalar 20 nəfər kişi; xarratlar 8 nəfər kişi; dülgərlər 2 nəfər kişi; çəlləkçilər 4 nəfər kişi; dəmirçilər 7 nəfər kişi; dəmirdöyənlər 3 nəfər kişi; dabbağlar 3 nəfər kişi; əyricilər 3 nəfər kişi; çəkməçilər 12 nəfər kişi; dərzilər 5 nəfər kişi və bir nəfər qadın; boyaqçılar 2 nəfər kişi-tatar)... **(hamısı molokan, cəmi bir nəfər dəmirçi "tatar" var (seçmələr bizimdir - S.Q.))**.



Mərəzə qəsəbəsi yaxınlığındakı qədim qəbristanlıq

**1. Toxuculuqla** yalnız qadınlar və qızlar məşğul olurlar. 11-12 yaşlı qızlar əsasən, ip əyirir, 15 yaşlı qızlar isə toxumaq işi ilə məşğul olurlar. Burada toxuculuq məmulatı əsasən ipəkdən ibarət idi.

**2. Bənnalar** əsasən, evlərin daşdan tikilməsi ilə məşğul olur. Rus milləti olduğundan onlar üçün bu iş çox çətinlik törədirdi. Axı, onlar meşəyə və meşə ağacından istifadə etməyi öyrənmişlər.

**3. Xarratlar** və dülgərlər sayca azlıq təşkil edirlər. Onlar evlərinin üstünə qarğı və qamış döşədiyi üçün, həmçinin ağac materialının az olması ilə əlaqələndirilir. Amma 1886-cı ilin əv-

vəllərində onlar üçün də iş tapıldı. Əl ilə idarə olunan kotanlar üçün, taxtadan dəstəklər düzəlməli olduğundan bu iş görülməli idi.

**1982-ci ilə** kimi taxta kotanlardan istifadə olunurdu. **Amma, 1982-ci** ildə dəmir gavahınlar peyda oldu. Bu kotanlar ingilis-bolqar stili ilə dəmir dəstəkdən ibarət idi. Bir neçə vaxtdan sonra bu kotanlar da təkmilləşdirildi. Hətta həmin kotanlardan yaxın kəndlərə də satılmağa başlandı.

**4. Dülgərlərin** işi isə hamıdan az olur. Onlar şüşə salmaq işi ilə məşğul olurlar.

5. Bu yerlərdə su qıtlığı mövcud olduğundan **çəlləkçilər** üçün hələ iş var idi. Çünki suyu buraya Bakıdan və ya qeyri yerlərdən daşıyıb gətirirdilər. Suyu çəlləklərdə saxlamalı olurdular.

**6. Dəmirçilər** cəmi 7 nəfərdən ibarət olsalar da, yay aylarında onlar bu qüvvə ilə işlərini çatdıra bilmirdilər. Çünki materialı uzaqdan – Bakıdan gətirməli olurdular. Onların işləri əsasən yaz-yay aylarında çoxalırdı. Qalan fəsillərdə onların işi demək olar ki, olmazdı. Dəmirçilər 1885-ci ildən peyda olmuşdular. *Həmin ilə kimi bu kənddə evlərin üstünə dəmir vurulmazdı.* Dəmir vurulmasını yaxın olan Uyezd şəhərindən – Şamaxıdan götürmüşdülər.

**7. Dabbaqlar** dəridən yalnız bel kəmərləri düzəldə bilirdilər. O, da keyfiyyətli alınmazdı (hamısı molokan), (hər zaman, həmişə).

**8. Əyricilər** əsasən Bakıdan və Elizavetopoldan gətirilmiş iplərdən istifadə edirdilər. Onlar bu iplərdən yüyən, tapğır, örkən və s. məmulatlar toxumaqla məşğul olurdular.

**9. Çəkməçilər** isə qış fəsli üçün Altıağac və ya Şamaxıdan gətirilmiş dərindən "rus" ayaqqabıları tikərdilər. Bu ustalar ev-ev gəzərək bu işi görürdülər.

**10. Dərzilər** də yalnız öz işlərini payız və yaz aylarında görərdilər. Yayda isə onlar taxıl yığmaqla məşğul olurlar.

**11. Boyaqçılar** Şamaxı şəhərindən olan 2 nəfər tatarlardan ibarətdir. Onlar yerli əhali üçün yun və paltarlar boyayırdılar. Onların boyadıqları rəng əsasən "qırmızımtıl" göy və başqa rənglərdə olardı...

* * *

XIX əsrdə "Azərbaycanın bir çox kəndlərində... təlimi rus dilində aparılan xalq məktəbləri yaradılmağa başladı. Şamaxı qəzasının Mərəzə kəndində birinci dəfə belə məktəb **1866-cı ildə** açıldı. Bu məktəbdə tatar (**Azərbaycan – S.Q**) dilini bilən Çerniyayevski həm rus, həm də tatar uşaqlarına birgə dərs verirdi"[1].

Həmin vaxtdan düz 138 il ötür. Bu gün görkəmli pedaqoq A.O.Çerniyayeveskinin adını daşıyan Mərəzə qəsəbə orta məktəbi fəaliyyət göstərir. Məktəbin işgüzar kollektivi gənc nəsilin təlim-tərbiyəsi ilə ciddi məşğul olur. Məktəb əldə etdiyi uğurlara görə, respublikamızın qabaqcıl məktəbləri cərgəsindədir.

Ötən əsrin otuzuncu illərində Azərbaycanda kolxoz quruluşu təşkil ediləndə mərəzəlilər də buna ilk səs verənlərdən oldular. Kənddə **"Kollektivist"** adlı kolxoz yaradıldı. Sonralar kolxozun adı dəyişdirilib **"Mehdi Hüseynzadə"** qoyuldu. Kolxoz fəaliyyət göstərdiyi illərdə (həm Şamaxı, həm də Qobustan rayonunun tərkibində olduğu zaman) ən iri və ən qabaqcıl təsərrüfatlardan olmuşdur. Əsasən əkinçilik, heyvandarlıq, üzümçülüklə məşğul olan kolxoz o zamanlar təkcə Azərbaycanda deyil, həm də keçmiş SSRİ-də məşhur olmuşdur.

Ötən əsrin 30-cu illərindən 90-cı illərinə kimi bu qabaqcıl təsərrüfata bir çox əməksevər insanlar rəhbərlik etmişdir. **Nikolay Nikoleyev, İlin Vasiliyev, Anna Popova, Baləmi Səftərovun** adı indi də hörmə ilə xatırlanır. Ötən əsrin 90-cı illərindən sonra Mərəzədə yaradılan təsərrüfata Nəriman Mirsalı oğlu, Ələm Ağamirzəyev rəhbərlik etmişdir. Hal-hazırda əsasən əkinçilik və heyvandarlıqı inkişaf etdirən təsərrüfata Qoşqar müəllim başçılıq edir. Bu gün Mərəzə qəsəbəsindəki 731 evdə 3583 nəfər əhali yaşayır. Qəsəbədə mədəniyyət evi, kitabxana, iki ümumtəhsil, bir musiqi, bir idman-gənclər məktəbi, mərkəzi xəstəxana, məscid, poçt idarəsi və eləcə də müxtəlif iaişə obyektləri fəaliyyət göstərir.

## NABUR KƏNDİ

Nabur toponiminin leksik yozumu haqqında mütəxəssislər müxtəlif fikirlər söyləmişlər. Həmin fikirlərin birində göstərilir

[1] Z.Mehdizadə. A.O.Çerniyayevskinin həyatı və pedaqoji fəaliyyəti, Bakı, 1983, səh.9

ki, "yaşayış məntəqəsinin adı qızılbaş tayfa ittifaqına daxil olan zülqədər tayfasının **nabur** tirəsinin adı ilə bağlıdır"[1].

Bəllidir ki, köçəri elat olan naburlular, təxminən XVI-XVII əsrlərdə Şamaxının Boyat kəndinə yaxın ərazidə yerləşmişlər. Qonşu kəndlərlə narazılıqlar baş verdiyi üçün naburlular oradan köçüb Xaçmaz ərazisinə gəlmişlər. İndinin özündə də həmin ərazidə Nabur (Nabran) adlı toponim mövcuddur. Buna görə bəzi xalq yozumlarında Naburla-Nabran toponiminin mənası eyniləşdirilir.

Deyilənə görə, bir müddət sonra Şamaxı xanı Quba xanından xahiş edir ki, onun ərazisinə köçüb gedən naburluları geri qaytarsın. Belə də olur, xan Şamaxıya dönən naburlulara Xilə


Dəvə Daşı abidəsi

ərazisində yer verir. Bir müddət bu yerdə yaşayan naburlular sonra "Qışlaq qabağı" deyilən, indiki Naburun üç kilometrliyində "Əzzingi" dağının arxa tərəfində yerləşirlər. Bu ərazidə xeyli yaşadıqdan sonra naburlular indiki əraziyə köçürlər. Bütün bu deyilənləri həmin ərazidə olan və gürümüzə şahidlik edən qəbristanlıq və xarabalıqlar təsdiq edir.

Professor A.Qurbanov "Azərbaycan dilinin onomalogiyası" adlı əsərində göstərir ki, ilk orta əsrlərdə Şimaldan bolqar, süvar, avar, çeçen, xəzər, qıpcaq tayfaları gəlib Azərbaycan ərazisində məskunlaşmışdır. Sonra müəllif mənbələr əsasında də-

[1] Azərbaycan toponimləri. Bakı, 1999, səh.377

qiqləşdirdiyi həmin tayfalar barədə daha geniş söz açır. Sonra müəllif həmin sırada "kavar (nobar)" adlı tayfanın da adını çəkir. Düzdür, professor "kavar (nobar)" tayfasını "kəbirli" ilə əlaqələndirir.[1] Bizə belə gəlir ki, "nabur" sözü elə həmin "kavar (nobar)" tayfasının adındandır.

Nabur kəndinin yaşlı sakinlərinin dediyinə görə, XIX əsrin sonu XX əsrin əvvəllərində kənddə yaşamış dini bilik sahibləri kəndin ilk sakinlərini İbrahim Xəlil peyğəmbərin nəslindən olmuş Naburun adı ilə bağlayırlarmış **(Tarik ibn Nabur, İbn Sarut, İbn Arqu, İbn Faliq, İbn Abir, İbn Saleh, İbn Kaynan, İbn Əfradşah, İbn Sam, İbn Nuh).** Bizə belə gəlir ki, Deminski də Nabur köçü haqqında aşağıdakı – "...bunlar müsəlmançılığı qəbul etmiş yəhudilərdir"[2] fikri söyləyərkən kənddəki din nümayəndələrinin dediklərinə əsaslanmışdır. Nabur kəndində aşağıdakı təbəh və tirələr – **Məhəmmədli, Əkəbırlı, Bağalar, İsbatlı, Molla Davudlu, Qaraməmmədli, Sofulu, Dəliməmmədli, Piralı uşağı, Şiralı uşağı, Alpaşa uşağı, Nurəhməd uşağı** və s. mövcuddur.

Nabur kəndində ilk məktəbi təşkil edən Zərbəliyev Cilovxan olub. Sonra ibtidai məktəb Salamın evində fəaliyyət göstərib. Məktəbdə ilk dəfə Mirzəyev Mövsüm müəllimlik edib. 1930-cu ildə isə Qazaxlı Əli müəllim işləyib. Bir il sonra məktəb Hacağanın arvadı Güləndamın evində yaradıb. Sündülü Məhəmməd uşaqlara dərc deyib.

1934-1935-ci illərdə isə dərs Yarıməmmədin şəxsi evində keçilib. Məktəbdə **Məmmədtağı** və **Əlməmməd** müəllim çalışıb. Kənddə məktəb binası 1936-cı ildə isə istifadəyə verilib. Kənd ibtidai məktəbi 1949-cu ildə yeddillik məktəbə çevrilib. Məktəbin ilk direktoru İsa olub. Sonra isə **Əsədov Məhərrəm, Pirverdiyev Gülməmməd, Cəmilə Abasova, Əhmədov Vahid, Kərimov Misir, Zeynalov Aslan, Baxışov Əlbala, Hacıyev Hacı, Məmmədov Balazeyıd, Şükürova Könül, Xanməmmədov Babaxan, Nurəhmədov Zeynal** məktəbdə direktor işləmişlər. Hazırda 2601 nəfər əhalisi olan kənddə məktəb, kitabxana, klub fəaliyyət göstərir.

[1] A.Qurbanov, Göstərilən əsəri, səh.295-296

[2] Deminski. Göstərilən əsəri, səh.47

## NARDARAN KƏNDİ

Kənd Gicəki dağının cənubundadır. Bu adda respublikamızda *bir neçə yaşayış yeri mövcuddur. Bu sözün mənası haqqında* **xalq arasında** bir neçə **yozum** məlumdur. Deyilənə görə, vaxtilə bu ərazidə yabanı nar kolları çox olmuşdur. Payız aylarında əhali buradan çoxlu nar dərərmiş, nar yığarmış. Toponim **"nar"** və **"dərən"** sözlərindən yaranmış. "Nardərən" sözü dəyişərək "Nardaran" formasına düşmüşdür.

Xalq etimologiyasının ikinci variantı isə yerli şəraitlə bağlıdır. Doğrudan da, bu kənd Qobustanın susuz, yay aylarında çox isti ərazisində yerləşir. Deyilənə görə, bu anlamda toponim üç sözün – "nar", "dar" və "an" birləşməsindən əmələ gəlmişdir. İki əvvəlki hissələr fars sözüdür. "Nar" – od, "dar" ("darəd") – "vermək", "olan"; "an" (van) isə "yer", "məkan" bildirir. Deməli, xalq etmologiyasına görə, Nardaran sözü "od (isti) olan yer" mənasını bildirir.

Nardaran sözünün birinci komponentini "nər" (dəvə) sözü ilə əlaqələndirənlər də vardır. Bu kənd bir neçə təbəhdən ibarətdir. Kənddə ilk dəfə "Kirov" adına kolxoz təşkil edilmişdir. Sonra Nardaran kəndi Ərəbqədim kəndi ilə eyni kolxozda birləşdirilmişdir. Nardaran kəndində təxminən, 186 nəfər əhali yaşayır.

## NƏRİMANKƏND KƏNDİ

Rayonun ən qədim yaşayış ərazilərindən biri olan bu kəndin adı bir neçə dəfə (Gəmüstü, Müsəlman Mərəzəsi, Stalinkənd, Nərimankənd) dəyişdirilmişdir.

**Gəmüstü** sözü "gəm" və "üstü" hissələrindən ibarətdir. Dialektlərdə çökək, su axan, yaşıl olan əraziyə, vadiyə "gəm" deyilir. "Üstü" sözünün isə leksik mənası məlumdur. Ümumi şəkildə götürdükdə gəmüstü sözü – su axan, yaşıl vadinin üstü mənasını bildirir. Doğrudan da, Nərimankənd kəndinin yerləşdiyi qayanın aşağısından kiçik Zəngi çayı axır.

XIX əsrdə molokanlar Mərəzə ərazisində yerləşdirildikdən sonra qonşu kəndi Tatar Mərəzəsi adlandırmışlar.

Sovet hakimiyyəti qurulandan sonra kəndin adı İ.V.Stalinin şərəfinə Stalinkənd qoyulmuşdur. İ.V.Stalin vəfat etdikdən sonra Sovetlər Birliyinin hər bir regionunda onun adını daşıyan bütün müəssisə,

kənd, qəsəbə, əyalət adları dəyişilməyə başladı. Eləcə də Stalinkənd kəndinin adı dəyişdirilib Nərimankənd qoyuldu.



**Kənd ərazisində mağara**

Nərimankənd kəndində **Qurdlar, Həşimli, Əmirli, Ləzgili, Küüllü, Alışlı** və s. təbəh və tirələr mövcuddur. Nərimankənd kəndində ilk şəxsi məktəb 1914-cü ildə yaradılmışdır. Bu məktəb 1917-ci ildə erməni cəlladları tərəfindən yandırılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti zamanı kənddə ibtidai məktəb təşkil edilmişdir. Kənddə ilk məktəb binasını bacarıqlı usta Daşdəmirov Həmid Cəfər oğlu tikmişdir. 1937-1938-ci ildə ibtidai məktəb yeddiillik, yeddiillik məktəb isə orta məktəbə çevrildi. Bu məktəbdə 1970-ci illərə kimi Şamaxı-Mərəzə ərazilərində olan bir çox kəndlərin gəncləri orta məktəbi başa vurmuşlar. Həmin illərdə Nərimankənd orta məktəbi Azərbaycanda ən qabaqcıl tədris ocağı kimi şöhrət qazanmış, məktəb dövlət tərəfindən müxtəlif mükafatlara layiq görülmüşdür. Məktəbin istedadlı yetirmələrinin sayı yüzlərlədir. Ötən əsrin 30-cu illərindən günümüzə kimi bu məktəbdə respublikamızın müxtəlif ərazilərindən olan yüzlərlə qabaqcıl pedaqoqlar çalışmışdır. Ötən 80 il müddətində bu əvəzsiz təhsil ocağına rəhbərlik etmiş bir çox direktorların da adını dəqiqləşdirə bilmişik: **Babaş Hasilov, Ağasəf Mamedov, Ceyhun İbrahimov, Əli Əlibalayev, Əli Əliyev, Camo Qəniyev, Ağasəf Qayıblı (1949), Həsən Bəbirli (1946-1956), Solmaz Əliqulu qızı (1956), Heybət Şikarov (1956-1957), Davud Orucov (1957-1977), Məcnun Adıgözəlov (1977-1987), Əbil Qasımov (1987-1989), Rə-**

**sul Babayev (1989-1992)** və həmin vaxtdan bu günə kimi yenidən Əbil Qasımov...

Nərimankənd kəndində ilk dəfə **"Nərmaniyyə"** adlı kolxoz təşkil edilmişdir. Kolxozun sədri **Xanlar Təhmazov** seçilmişdir. Bir müddət sonra kolxozun adı dəyişdirilib **"Komintern"** qoyulmuş və təsərrüfata çalovlu Həmidov Həmid rəhbərlik etmişdir. 1978-ci ildə kolxozun adı dəyişdirilib **"Karl Marks"** qoyulmuşdur. Bu müddət ərzində kənddə fəaliyyət göstərmiş kolxoz və sovxozlara adları aşağıda qeyd olan insanlar rəhbərlik etmişdir: **Məhəmməd Abdullayev, adnalı Vahab Əliyev, Əliveyis Baxışov, Babacan Vəliyev, Əliağa Mamedov, Bəybala İsmiyev, İsaxan Bayramov, quşçu Məhəmmədəli Məmişov, Əbil Qasımov, Mirzəxan Musayev, Babaş Səfərov, Pərviz Mərdanlı, Tahir Gülmalıyev... Hər kəs də elin yaddaşında əməli ilə yaşayır...**

Nərimankənd kəndi ərazisində bir neçə qədim tarixi abidə qalıqları mövcuddur. Kənddə məktəb, məscid, klub, kitabxana, tibb məntəqəsi fəaliyyət göstərir. Hazırda kənddə 3291 nəfər əhali yaşayır.

## POLADLI KƏNDİ

Qobustan rayonunun cənubunda, Pirsaat çayının sahilində yerləşən qədim bir kənddir.

Poladlı haqqında mənbələrdə oxuyuruq: "**...I Şah Abbas (1587-1629) Azərbaycanda güclü tayfa başçılarını mərkəzi hakimiyyətə tabe olmaq cəhdlərinin qarşısını almaq və mərkəzi hakimiyyəti gücləndirmək məqsədi ilə bəzi tayfaları (Əfşar, Qacar və b.) öz tərəflərinə çəkərək "şahsevən" adlı xüsusi şah qvardiyası yaratdı. Səfəvilər dövlətinin əsas hərbi qüvvəsinə çevrilən Şahsevənlər sonralar Azərbaycanın siyasi həyatında mühüm rol oynamışlar "Şahsevənlər"... onlarla tayfa, tirə, qoldan (dursun, xocalılar, zərgərlilər, quzatlılar, rzabəylilər, poladlılar, novruzbəylilər və s.) ibarətdir**"[1].

M.Baharlı öz dəyərli tədqiqatında Şahsevən tayfası haqqında yazır: "Şahsevən tayfalarının ən nüfuzlu başçılarından birinin – Kürd bəyin üç oğlu, yəni Polad bəy, Dəmir bəy, Kozat bəy öz adlarını nəsillərinə vermişdir. Poladlı, Dəmirli, Kozatlı. Onlardan Azərbaycanda yalnız iki əvvəlki nəsil yaşayır"...

[1] ASE, V c, Bakı, 1987, səh.476

Poladlı ərazisinin hələ e.ə. yaşayış yeri kimi mövcud olmasını alimlər qazıntı zamanı kəndin yaxınlığındakı qəbristanlıq və qədim yaşayış ərazisindən tapdıqları əşyalarla sübuta yetirmişlər. "**Arxeoloji materialların müqayisəli təhlili Poladlı yaşayış yerinin e.ə. III əsrdən başlayaraq eramızın VII əsrinədək mövcud olduğunu söyləməyə əsas verir**"[1].

Poladlı kəndində ilk ibtidai məktəb XX əsrin 20-ci illərindən sonra yaradılmışdır. Son əlli ildə məktəbdə bir çox pedaqoqlar əhalinin savadlanmasına böyük əmək sərf etmişlər: **Molla Məşədi Əvəz, Bayram Həmzə oğlu, Cəmcəmli Gülməmməd, Abbasov Nəbi, Balaxan Şahbazov, Qələmşah Səmədov, Surxayev Baldadaş, Bağıyev Bəhram, Əliyev Məhərrəm, Abbasov Abay, Əliyev Ələkbər, İsmayılov Qurban, İsmayılov Ağamahmud** və başqalarını nümunə göstərmək olar.



Ötən əsrin 30-cu illərindən sonra kənddə kolxoz təşkil edilmişdir. Kolxoz idarəsi Hacalı Zeynalovun evində yerləşirdi. Kolxozun sədri Nağıyev Ənnağı seçilir. XX əsrin 50-ci illərində üç kənd – Quşçu, Dağ-Kolanı və Poladlı bir kolxozda birləşdirilir. Kolxozun sədri Xeyrulla Səməd oğlu olur. Sonralar bu kəndlər Xəqani sovxozunda birləşirlər. Ən nəhayət, bir müddət sonra Poladlı kəndində Ə.Qarayev adına sovxoz yaradılır. **Həqiqət İsmayılov, Hidayət İsgəndərov, Mövsüm Əsgərov, Məlik Məlikov, Məsi Nəzərov, Feyruz Babay-**

[1] N.Xasayev. Dağətəyi Şirvanın ilk orta əsr arxeoloji abidələri. Bakı, 1998, səh.26

**ev, Ağayusif Vahidov, Hacalı Sadıqov, Nadir Nərimanov, Abdulhəsən Ağayev** və b. sovxoza rəhbərlik etmişlər.

Xalq rəvayətinə görə, kəndin ilk sakini Polad adlı varlı-karlı, igid bir insan olmuşdur. Yaşayış yeri də onun şərəfinə Poladlı adlanmışdır.

Poladlının Sarıdaş otlağında yaylağı, Küdrü düzündə qışlağı olmuşdur.

Kənd əhalisi əsasən əkinçilik, heyvandarlıq və bağçılıqla məşğul olur. Hazırda kənddə məktəb, klub, kitabxana, tibb məntəqəsi, məscid fəaliyəət göstərir. Əhalinin sayı 1454 nəfərdir.

## SƏDƏF KƏNDİ

Sədəf ərəb sözüdür. Əsasən, iki mənada işlədilir; **içindən inci çıxan dəniz böcəyi və ya həmin böcəyin qabığı**. Bizə belə gəlir ki, kəndin adının bu yozumlarla bir o qədər də əlaqəsi yoxdur.



Danışıq dilimizdə düymə sözünün bir sinonimi də sədəfdir. Vaxtilə paltar düymələri əsasən, sədəfdən hazırlanırdı.

Bu kənd Qarpızlı yalının döşündə, sinəsində yerləşir. **Xalq yozumuna görə**, kənd dağın döşündə düyməyə, sədəfə oxşadıldığı üçün belə adlandırılmışdır. Regionda bu kəndin adı bəzən Sədəf Yekəxana-

sı adlandırılır. Başqa bir xalq yozumuna görə, bu kəndin ilk sakini Sədəf adlı bir şəxs olmuşdur. Guya sonralar kənd onun adı ilə adlandırılmışdır.

Sədəf kəndində əsasən üç təbəh – **Dəmirli, Eminli, Qarabağlı** vardır. Kənddə bir neçə tirələr də mövcuddur. Hal-hazırda kənddə, təxminən qırx evdə iki yüz nəfərə yaxın əhali yaşayır.

Ötən əsrin 30-cu illərində kənddə "Oktyabr kolxozu" yaradılmışdır. Kəndin bir çox xeyirxah, əməksevər kolxoz sədrləri **(İrisxan Xanbaba oğlu, Babasəlim Məhərrəm oğlu, təsili Heybət Maqsud oğlu, Şahmirzə Gülmirzə oğlu)** olmuşdur. Kolxozun Yəhərcə, Taxta yaylaqlarında yaylağı, Baydar, Qalaçıq, Atabora adlı qışlaqları olmuşdur. Sədəf kəndindəki kolxoz 1960-cı ildə özündə bir neçə kəndi əhatə edən "Nərimanov" sovxozu ilə birləşdirilmişdir.

Ötən əsrin 30-cu illərindən kənddə ibtidai məktəb fəaliyyət göstərmişdir. İlk illərdən məktəbdə qonaqkəndli Balakişi, sədəfli Yemən, çağanlı Qələmşah, çarhanlı Zülfalı, sədəfli Xasay kimi bacarıqlı pedaqoqlar çalışmışdır. Hal-hazırda kənddə əsas məktəb, kitabxana fəaliyyət göstərir.

## SÜNDÜ KƏNDİ

Qobustan regionunda ən qədim kəndlərdən biridir. Arxeoloqların apardığı araşdırmalar və qazıntılar nəticəsində əldə edilən əşyalar bu ərazidə hələ e.ə. yaşayış mövcud olduğunu təsdiqləmişdir. Sündü sözünün leksik mənası haqqında müxtəlif elmi yozumlar olduğu kimi, bir neçə xalq etimologiyası da mövcuddur. Məlum olduğu kimi, bu qədim kənd dağın döşündə, sinəsində yerləşir. Ona görə bəzi mütəxəssislər sözün mənasını belə izah edirlər: "...Toponim "sinə" (döş, yamac) və "di" (tatca "kənd") sözlərindən ibarət olub, "yamacda kənd" mənasındadır"[1].

"... Elmi mənbələrdə e.ə. üçüncü əsrdə türkdilli tayfa ittifaqı kimi təşəkkül tapmış hunların Azərbaycan xalqının etnogezində də iştirak etdiyi dönə-dönə qeyd olunur. Hun toponimi mənbələrdə həm də hunnu, xunnu, syunnu kimi də yazılır". Bizə belə gəlir ki, Sündü toponimi hun sözünün variantı olan syunnu sözünün zaman keçdikcə dəyişib Sündü formasına düşməsindən yaranmışdır.

[1] Azərbaycan toponimləri (Ensiklopedik lüğət), Bakı, 1999, səh.452

Xalq yozumunda Sündü sözünün sindi felindən yarandığı da güman edilir.

Sündü kəndində bir çox – **Nəsirli, Kərimli, Mikayıllı, İslamlı, Papaqçılı, Dəlləkli, Molla Həsənli, Nəhmətli, Qaralılar, Əhmədli və s.** kimi təbəhlər vardır.



Qədim qəbristanlıq

Hələ e.ə. qədim yaşayış yeri olmuş bu kəndin hər tərəfində kurqan, qala yerləri və onlarla qədim qəbristanlıqlar mövcuddur – Molla Hüseynqulu, Papaqçılı, Hacı Balahəsən və Cəm-Cəmli qəbristanlığı və s. Bu ərazidə ciddi şəkildə arxeoloji qazıntıların aparılması haqqında mütəxəssislər yaxşı düşünməlidirlər. Axı təbii fəlakətlər artıq bir çox tarix yadigarlarını məhv etmək üzrədir...

Maraqlıdır ki, qədim yaşayış yerində salınmış kəndin bir çox həyətlərində də pirlər və ziyarətgahlar (Şax İsmayıl, Sofu Kəlbəli, Ulu Soltan və s.) mövcuddur.

Kənddə ötən əsrin 30-cu illərində "Stalin" adlı ilk kolxoz qurulmuşdur. Çox sonralar sovxoza çevrilən təsərrüfatın adı dəyişdirilib "Partiyanın XX qurultayı" qoyulmuşdur. Ən son vaxtda sovxoz xalq şairi R.Rzanın adını daşımışdır. Həmin illər ərzində kolxoz və sovxoza bir çox təsərrüfat biliciləri – **Fərzalıyev Feyzulla, Piri Murad oğlu, Qaracüzlülü Qara, Ağayev Şamil, Mərəzəli Ağasəlim, Xudatov Allahverdi, Ağalarov İbiş, Həmidov Baba, Yaqubov Cabbar, Ağaquliyev Azər, Həmidov Nəsir, Məmmədov Bəşir, Əkbərov Zeynal, Məmmədov Əlqasım**... və başqaları rəhbərlik etmişlər.

Azərbaycanda islam dini bərqərar olduqdan sonra bütün oturaq kəndlər kimi Sündüdə də məscid inşa edilmişdir. Məscidin yaşı çox qədimdir (mil... 920). Məscidin nəzdində mollaxananın olması isə təbiidir. Deməli, burada təxminən, azı 500 il əvvəl mollaxana da mövcud olmuşdur (Məsçid iki dəfə təmir olunub – 1757, 1870).


**Əbu-Bəkir məsçidi**

Sündü kəndində şəxsi məkiəblər ötən əsrin əvvəllərində yaradılmış, Xalq Cümhuriyyəti dövründə isə evlərdə təşkil edilmiş və bu proses 1923-cü ilə kimi davam etmişdir. Bu illərdə keçmiş Şamaxı qəzasında kəndlərində dörd ibtidai məktəb binasının inşasına sərəncam veriləmişdir. Həmin məktəb binaları tez bir zamanda (Göylər kəndi, Bağırlı kəndi, Nərimankənd kəndi və Sündü kəndində) tikilib istifadəyə verilmişdir (1924-1927-ci illər ərzində).

Sündü kəndində ibtidai məktəbin tikilməsi və istifadəyə verilməsində yerli ziyalılardan **Babaş Hasilov** və **Mövsüm Əfəndinin** xidmətləri əvəzsiz olmuşdur. Bunlardan əlavə, o dövrdə bir çox həqiqi pedaqoqlar **(İbrahimov Ceyhun-1939-1940; Ə.Musəvi-1940; Əmraslanov Mahmud-1940; Səfiyev İbrahim-1940-1941; Talıbov Talıb-1941-1942; Hacıyev Balahəsən-1942-1943; Əfəndiyev Məhəmməd-1943; pedaqoji səriştəsi, təşkilatçılıq bacarığına görə Lenin ordeni və əməkdar müəllim adına layiq görülmüş Pirverdiyev Gülməmməd-1944-1956)** rəhbərlik etmişlər. 1954-cü ildən məktəb orta məktəbə çevrilmişdir. Həmin vaxtdan qonşu kəndlərdə (Çuxanlı, Cəyirli, Təklə, Ərəbşalbaş, Nabur, Çalov, Təklə-Mirzəbaba və s.) orta məktəb olmadığı üçün şagirdlər təhsillərini Sündü kənd məktəbində başa vururdular. 1956-cı ildən sonra məktəbə **Qəniyev Kəniz, Nəcəfova**

**Xədicə, Əfəndiyev Feyruz, Ənvərov Tapdıq, Balayev Durhəsən, Aslanov İdris, Söhbətov Şahdilək** rəhbərlik etmiş – hər kəs də öz bacarıq, el-obaya göstərdiyi xadmət, bir sözlə, əməlinə görə yaddaşlarda qalmışdır. Hal-hazırda məkitəbin direktoru İslam müəllimdir.

Qədim tarixə malik olan Sündü kənd orta məktəbinin bu illər ərzində uğurları yüzlərlədir. Onun yetişdirdiyi məzunlarının səsi respublikamızın müxtəlif bölgələrindən gəlir. Milli Qəhrəman Şikar Şikarovun adını daşıyan 421 nəfər şagirdin təhsil aldığı məktəbin uğurlar qazanmasında bacarıqlı pedaqoqlardan **S.Əhməd, B.Dürhəsən, Ə.Xalis, A.İdris, B.Mülkəsahib, X.Rizvan, R.Anar, A.Elbrus** və başqalarının xüsusi xidmətləri vardır.

Hazırda 300-dən artıq ev və 2628 nəfərdən çox əhalisi olan Sündü kəndində məscid, klub, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərir.

## TƏKLƏ KƏNDİ

Türkdilli tayfalardan biri də Təklədir. Bu toponimlə bağlı M.Abdeyev, İ.P.Petruşevski, M.Baharlı, R.Yüzbaşov, Q.Qeybullayev, N.Bəndəliyev və b. öz tədqiqatlarında müəyyən fikir söyləmişlər. Bizə belə gəlir ki, həmin fikirlərin çoxu bir-birinin təkrarıdır.



Məsələn, professor A.Qurbanov "təklə" etnonimi haqqında danışarkən İ.P.Petruşevskiyə əsaslanır: "...Təklə etnoniminin etimologiyası açılmamışdır. Bəzi tədqiqatçılar onu səlcuq oğuzlarının **Təkəli** tayfasının adı ilə əlaqələndirirlər. Türkmənistan ərazisində indi də "təkə"

tayfası yaşayır ki, bu da (təkə "erkək keçi", "sürünün qabağında gedən keçi" sözündəndir) görünür, həmin tayfanın totemi olmuşdur.

1540-cı ildə Türkiyə ərazisindən Qazıxan başda olmaqla Təklə tayfası İrana gəlmiş və şah I Təhmasibin tabeliyinə keçmişdir. Şah təklələlilərin bir hissəsini yaşamaq üçün indiki Salyan rayonu ərazisinə köçürmüşlər. XX əsrin əvvəllərində bu tayfa 14 tirədən ibarət bir tayfa idi: **Talıbxanlı, Boşqalar, Budaqlı, Bulutlu, Hacılı, Evdələr, Xələfqulular, Ağamalılar, Muradxanlı, Murtulu, İbadlılar, Nəsibuşağı, Mirzəbabalı, Sahıblı, Məhərrəmli, Kərimli".**

Təklə tayfası haqqında M.Baharlı isə belə bir fikir söyləmişdir. Daha doğrusu, müəllif vaxtilə Cənubi Azərbaycana gələn səlcuq tayfaları haqqında danışarkən yazır: "...İran Azərbaycanına yeni səlcuq tayfaları – Rzabəyli, Qomuşu, Əhmədli, Təklə yaxud Tekka gəlmişdir. Əhmədli və Təklə öz adını Səlcuq-Rum sultanlığının xarabalıqlarında yaranan (1301-ci il) və birincisi 1459-cu ilə qədər (864-cü ilə qədər), ikincisi isə 1427-ci ilə qədər (830-cu ilə qədər) mövcud olan müstəqil knyazlıqların – Qızıl Əhmədli və Tekka adından götürülmüşdür. Bu knyazlıqların Osmanlı imperiyasına birləşməsindən sonra onların sakinlərinin bir hissəsi səlcuqlar – Əhmədli və Tekke, yaxud Təklə adı altında doğma Anadolu ocaqlarını atıb Azərbaycana gələrək burda məskən salmışlar"[1].

Kənd əhalisi əsasən heyvandarlıq, əkinçiliklə məşğul olur. Kənddə məktəb, məscid, kitabxana, musiqi məktəbi və tibb məntəqəsi mövcuddur. Kənddə indi 1725 nəfər əhali yaşayır.

## TƏKLƏ-MİRZƏBABA KƏNDİ

Bu kəndin adındakı təklə etnonimi haqqında təbii ki, əvvəlki oçerkdə ümumi məlumat verdik. Bizə belə gəlir ki, kəndin adındakı ikinci söz (Mirzəbaba) bu tayfanın başçısının adıdır. Mənbələrdən bəlli olur ki, bu kənd "XIX əsrdə Cavad qəzasında - Həramidə yaşamış 110 ailədən ibarət Təkləmirzəbaba tayfasının məskunlaşması nəticəsində yaranmış"dır[2].

**Xalq etimologiyasına** görə, kəndin sakinləri iki qardaş olublar. Böyük qardaşın adı Mirzəhüseyn, kiçik qardaşın adı Mirzəbaba imiş. Onlar ilk əvvəl Peyvənd təklə ərazisində yaşayıblar. Nəyə görəsə, qar-

[1] M.N.Baharlı. Göstərilən əsəri, səh.41

[2] Azərbaycan toponimləri. Bakı, 1999, səh.464

daşlar arasında söz-söhbət olur, narazılıq baş verir. Kiçik qardaş oradan köçüb indiki ərazidə məskunlaşır. Odur ki, bu yaşayış yeri kiçik qardaşın adı ilə – **Təklə-Mirzəbaba** adlanır. Bu kəndin el arasında bir adı da Cır təklədir.

Başqa bir xalq yozumuna görə də Təklə sözü təklənmək sözü ilə əlaqələndirilir.

Hal-hazırda bu kənddə **Totuqulu, Üzüqaralı, Qarabağlı, Hüsünlü, Məhərrəmli, Şahsuvarlı, Kosalar, Keçəllər, Bəylər, Balacalılar** kimi təbəhlər və tirələr mövcuddur. 1920-ci ildən əvvəl bu kənddə insanların yazı-oxu öyrənməsində kənd mollalarının (Baxış Əziz oğlu, Nuru Məmməd oğlu, Ədil Məmmədkərim oğlu, Hacıbala Məhəmməd oğlu və b.) xüsusi yeri olmuşdur. Həmin mollalardan biri də Molla Həbib Əziz oğlu (1876-1966) idi. Molla Həbib xeyirxah, el-oba məclislərinin ağsaqqalı olmaqla yanaşı uzun illər həmyerlilərinə yazı-pozu və "Quran" oxumağı öyrətmişdir. Belə əməllərinə görə onun adı kəndə indi də hörmətlə yad olunur. 1922-ci ildən sonra isə kənd məktəbi evlərdə təşkil edilmişdir. 1932-ci ildə kənddə yeni tipli dörd sinifli məktəb fəaliyyətə başlayır. Ötən əsrin 50-ci illərindən sonra məktəbdə **Özbək Murad oğlu, həmyəli Azayev Rəhim, sündülü Allahverdiyev Abasxan, Əziz Məlikov** və başqa pedaqoqlar çalışmışlar. 1971-ci ildə isə məktəb səkkizillik məktəbə çevrildi. Məktəbin direktoru Ramazan Musayev təyin edilir. Bir müddət sonra Qayıbov Şaban məktəbin direktoru olur. 1982-ci ildə məktəb orta məktəbə çevrilir. Hal-hazırda Təklə-Mirzəbaba kənd orta məktəbin direktoru Şıxalıyev İsfəndiyar müəllimdir. Qazandığı uğurlarına görə məkitəb rayonun qabaqcıl təhsil müəsisələri cərgəsindədir.

Təklə-Mirzəbaba kəndində ilk kolxoz, təxminən 1935-ci ildə yaradılmışdır. Tez bir müddətdə kənd camaatının böyük əksəriyyəti **Andreev** kolxozunun üzvü olmuşlar. Sonralar isə Ərəbşalbaş kəndi ilə birlikdə orada Abbas Səhhət adlı sovxozu təşkil edilmişdi. Həmin vaxtdan sonra kolxoza bir çox təsərrüfat səriştəsi olan insanlar – **Təkləli Şıxıyev Ağakərim, Yusif Seyidov, Osmanov Alı, Həşimov Abdulxalıq, Abdullayev Abbasqulu, İmanbala Qəhrəmanov, Əhmədov Nüsrət, Həsənov Hüseyn, Musayev Heybət, Əzizov Abdüləziz** rəhbərlik etmişdir.

1991-ci ildə sovxozun adı diyişdirilərək "Təbriz", sonra isə "Ramiz İbrahimov" qoyulmuşdur. Həmin kolxozlara **Soltanov Osman, Əzizov Rəşad, Dəmirov Bayramqulu** rəhbərlik etmişlər...

Əsasən əkinçilik, heyvandarlıq, üzümçülüklə məşğul olan bu təsərrüfatın Altıağac və Qonaqkənd ərazilərində Maxsud, Qoçbulaq, Meşəbaşı, Cəbələr adlı yaylaqları, Əli-Bayramlı ərazisində isə Tava, Şıx, Qıdı adlı qışlaqları yerləşmişdir.

İki min nəfərə yaxın əhalisi, üç yüz yetmiş təsərrüfatı olan Təklə-Mirzəbaba kəndində bu gün məktəb, klub, kitabxana, məscid fəaliyyətdədir.

## TƏSİ KƏNDİ

Təsi, Pirsaat çayının sahilində Yekəxana kəndinə qonşu ərazidə yerləşir. Təsi sözü haqqında müxtəlif fikirləri mövcuddur. Bəzi alimlərin qənaətinə görə, bu kəndin əsasını **Təsi** adlı bir şəxs qoymuşdur. Başqa qrup alimlərin fikrincə, Təsi monqol tayfalarının birinin adıdır.

Təsi kəndində bir neçə – **Şıx Ata uşağı, Rustamlı, Koxa Məmmədli təbəhləri mövcuddur.**

Kənddə ötən əsrin 25-30-cu illərində ibtidai məktəb yaradılmışdır. Məktəbin direktoru Çarhanlı Dostməmməd, sonra Məbud, Sündülü Mirzə olmuşdur. Təsi kəndində ilk dəfə "Komsomol" adlı kolxoz yaradılmışdır. Kolxoza Alxan Əhmədov, Qardaşalı Musayev, Əli Səmədov və b. rəhbərlik etmişlər. Kolxoz əsasən heyvandarlıq və əkinçiliklə məşğul olmuşdur.

Təsi kəndində hazırda məktəb, kitabxana mövcuddur. Kənddə təxminən, 332 nəfər əhali yaşayır.

## TOĞLUÜZLÜ OBASI

Vaxtilə Qozluçayın sağ sahilində yerləşirdi. Bu obada ötən əsrin 50-60-cı illərində 15-20 ev, 80-cı illərində isə təxminən, 6-7 ev olmuşdur. Sonralar kənd əhalisi tamamilə köçüb getmişdir. Toğluüzlü obası da uzun illər **"Budyonu"** və **"Komsomol"** kolxozunun tərkibində olmuşdur. Vaxtilə kənd əhalisi heyvandarlıq, əkinçilik və bağçılıqla məşğul olmuşdur. İndi isə kənddən nişanə xarabalıqlar və qəbristanlıq qalmışdır.

## TULUNC OBASI

Qobustan ərazisində "yox olmuş" kəndlərdən biri də Tuluncdur. Deyilənə görə, bu kəndin ilk sakinləri Feyzulla adlı bir nəfərin başına toplanmış qohum-əqrəba olmuşdur. Həmin kəndin yaşlı sakinlərinin dediyinə görə, onların nəsli Şəkidən Şamaxıya pənah gətirmişlər.

Cəyirli kəndi ərazisində məskunlaşmışlar. Nəyə görəsə, iki kənd əhalisi arasında narazılıq olmuşdur. Odur ki, tuluncların bir hissəsi müxtəlif bölgələrə köçüb getmiş, böyük bir hissəsi Çalov kəndində məskunlaşmışlar. Hal-hazırda Cəyirli kəndi ərazisində kəndin adı ilə bağlı – Tulunc bulağı, Tulunc yalı kimi oykonimlər mövcuddur. Cəyirli ərazisində onların qədim qəbristanlığı da olmuşdur. Hal-hazırda Çalov kəndində Tulunc təbəhi mövcuddur. Tulunc kəndində vaxtilə Hacı Feyzulla, Hacı Hümbətalı və Mehdili təbəhləri olmuşdur.

Mənbələrdə Tulunc toponimini Tulus sözü ilə əlaqələndirirlər. Tulus toponimi çox güman ki, "... qədim türkdilli **tolos/teles** tayfasının adı ilə bağlıdır. E.ə. üçüncü əsrdə Orta Asiyada yaşamış **teles** adlı tayfanın varisləri hesab olunan tulusların adı Orxan-Yenisey yazılı abidələrində **tolis** kimi qeyd olunmuşdur".

**Xalq yozumunda** isə Tulunc toponimi qılınc sözü ilə də əlaqələndirilir.

## XƏLFƏLİ OBASI

Bu oba Qozlu çayın sahilində yerləşir. Obanın adı onun ilk sakini – Hacı Xəlfənin adı ilə adlanmışdır. Vaxt çekdikcə obaya qonşu kəndlərdən də köçənlər olmuşdur. Odur ki, XX əsrin 50-60-cı illərin-



də burada 20-22 ev, 80-ci illərdə isə əhali köçüb dağılmış, cəmi 14-15 ev qalmışdır. Hazırda obada 7-8 ev vardır. Xəlfəli obası da həmişə əkinçilik, maldarlıq, bağçılıqla məşğul olmuşdur. Bu oba əvvəl "Budyonu", sonralar isə "Komsomol" kolxozunun tərkibində olmuşdur.

## ÇALOV KƏNDİ

Mənbələrdə kəndin adının yerləşdiyi əraziyə uyğun olaraq verildiyi qeyd olunur. Belə ki, kənd çökək bir yerdə yerləşir. Odur ki, toponimi iki "çala" və "ov" (ab-su) sözün birləşməsindən əmələ gəldiyini söyləyirlər. Toponimin mənası ümumi şəkildə **"su çalası"** kimi qəbul edilmişdir.

Dərin bilik sahibi, bacarıqlı pedaqoq, kənd sakini Abdulla Rəcəbov vaxtilə **"Yeni Şirvan" qəzetində (1982-ci il, 22 may)** Çalov kəndi, onun tarixi ilə bağlı maraqlı bir yazı dərc etdirmişdir. Məqalədən aydın olur ki, kənd sakinləri Məmmədəli Baxışov, Əliağa Osmanov qazıntı zamanı kənd ərazisindən gümüş sikkələr tapmışlar. **"Bu pulların biri Parfaya hökmdarı Qotarsın, digəri isə Makedoniyada Yuli Sezarın adına kəsilmişdir. Pulun üzərində Yuli Sezarın adı və şəkli təsvir olunmuşdur"**. Deməli, bu ərazi həmin dövrlərdə kimlərinsə yaşayış yeri olmuşdur.

Müəllifin fikrincə, vaxtında "Şamaxı-Bakı yolu Çalov ərazisindən keçirmiş, Çalov şəhər tipli yaşayış yeri olmuşdur". A.Rəcəbov da Çalov sözünün yozumunu mənbələrdə qeyd olunduğu kimi izah edir. Sonra müəllif həmin yerdə çalovluların məskunlaşması barədə ağsaqqallardan eşitdikləri əsasında yazır: "Bu kəndin əhalisi 1710-1720-ci illərdə Şamaxı ətrafında olan kəndlərdən köçüb gəlmişlər. Kəndin ətrafı meşəlik və xırda kolluqdan ibarət olmuş, quraqlıq nəticəsində bu meşələr məhv olmuşdur... XVIII əsrin əvvəllərində bu kənd 12 qəbilə (əqrəba) və beş ata uşağından ibarət olub. Müharibədən əvvəl 250 təsərrüfatda birləşib. 1948-1949-cu illərdə 150 təsərrüfat Salyan rayonunun Kürsəngi qəsəbəsinə köçmüşdür. Kürsəngi qəsəbəsinin ətrafında vaxtilə kəndin **Təpəli, Axundlu, Yolqırağı, Ocaqqullu, Alyar** və s. qışlaqları olmuş, kəndin tərəkəmə camaatı burada 1600 dəvə, 30 min qoyun saxlamışlar"...

Hal-hazırda Çalov kəndində **Nərli, Ağalar, Mərəşdi, Keçəllər, Çaranlı, Çerov, Pəncili, Muradlı, Topugüllü, Dərğalı, Kürkətli, Tuluclu, Dəmir uşağı, Yaqub uşağı** və s. kimi təbəh və tirələr mövcuddur.

Vaxtilə Çalov kəndinin Yəhərcə və Taxta yaylağı eləcə də, Dovşan təpəsi ərazilərində yaylaqları, Salyan ərazisində – Kürsəngi, Ağbığ, Ara dərəsi, Döllənlər, Ocaq, Söyüdlü, Qaraçala, Qarabazı və s. adlı qışlaqları olmuşdur. Çalov kəndi əhalisinin bir qismi vaxtilə Salyan rayonu ərazisinə köçmüşlər. Orada Çalov adlı kənd təşkil etmişlər. *Buna baxmayaraq, hal-hazırda Çalov kəndində iki yüzə yaxın* ev vardır. Kənddə 1297 nəfər əhali yaşayır.

## HACI SƏFİLİ OBASI

Oba Qozlu çayın sahilində yerləşib. Tərəkəmə elatı olublar. Deyilənə görə, ilk dəfə bu ərazidə Hacı Səfi adlı bir nəfər öz qohum-əqrəbası ilə məskunlaşmışdır. Obanın əhalisi hamısı eyni bir nəsildəndir. Ötən əsrin əvvəllərində obada 50-60 ev olmuşdur. 1980-cı illərdə isə burada cəmi 5-6 ev qalmışdır. Bir müddət sonra həmin insanlar da köçüb getmişlər. İndi həmin ərazidə təkcə kəndin xarabalıqları və bir də qəbristanlığı nişanə qalıbdır.

## ÇUXANLI KƏNDİ

*Çuxanlı kəndi dağlıq ərazidə yerləşir. Ərazidə olan tarixi abidə*lərə əsasən demək olar ki, burada yaşayış hələ çox qədim dövrlərdən mövcud olmuşdur. Çuxanlı sözünün leksik mənası barədə həm elmi,



Bəsrə nənə piri

həm də müxtəlif xalq yozumları mövcuddur. Bəzi müəlliflər sözü **çuxanlı** tayfasının adı ilə bağlayırlar.

Çuxanlı sözünün leksik yozumu haqqında yürüdülən başqa bir fikir daha maraqlı və inandırıcıdır. ...Hələ e.ə. kanqlar, eramızın ilk əsrlərindən hunlar, peçenqlər, Xəzərlər Azərbaycan torpağına axınlar etmiş və nəinki xalqımızın formalaşmasında iştirak etmiş, həm də öz adlarını bir çox toponim və hidronimlərdə qoyub getmişlər.

M.Kalankatuklu "Alban tarixi" əsərində "Çola şəhəri", "Çola darvazası" ifadələrini işlədir. Həmin söz çoqa şəklində də işlədilmişdir. T.Əhmədov monoqrafiyasında bu söz haqqında İ.Şopenin aşağıdakı mülahizəsini misal gətirir: **"Ço-qa, yaxud Co-ğa hərfən at yeri, yaxud atlı adamların, yaxud hunların yaşadığı yer deməkdir" (seçmələr bizimdir – S.Q.).** Hunlar isə mənbələrdə hun, huntu, xunnu, syunnu kimi təqdim edilir. Beləliklə, Çuxanlı etnoniminin söz açımını belə vermək olar: "**Çolaxunnu-Çoçaxunnu-Çoxunnu-Çuxanlı.** Deməli, bu hunların məskəni, yaşayış yeri olmuşdur. Təsadüfi deyil ki, bu gün də regionumuzun dialektlərində coğa sözü ocaq, yurd, əsil, təbəh mənasında işlənir"[1].

Mənbələrdə Çuxanlı sözünü kanqlı türk tayfası ilə əlaqələndirənlər də vardır.

Xalq yozumunda isə Çuxanlı toponimi **çuxuryanlı** sözü kimi də izah olunur. Bunun səbəbini də kəndin yerləşdiyi ərazi ilə əlaqələndirirlər. Belə ki, kənd doğurdan da, çuxurun, dərənin üstündə, yanında yerləşir.

Kənddə **Hacı Maxsallı, Vəlilli, Bədəlli, Şikarlı, Güllü** və s. təbəğələri mövcuddur. Kənddə kolxoz 1936-cı ildə yaradılmışdır. Kolxozun adı "Qızıl Əsgər" olub (İsa kişidən başqa hamı kolxoza qoşulub).

Ötən əsrin 20-ci illərdən başlayaraq kənddə şəxsi evlərdə ibtidai məktəb fəaliyyət göstərmişdir. Məktəbin ilk müəllimi sündülü, əvəzsiz pedaqoq Əfəndiyev Məhəmməd olmuşdur. İbtidai məktəb 1961-ci ilə kimi davam etmişdir. Həmin ildə kolxozun sədri, elm-maarif təşnəsi Heybət Şikarovun təşəbbüsü və kənd camaatının köməyi ilə kənddə yeni məktəb binası tikilib istifadəyə verilmişdir. 1961-ci ildən sonra uzun illər məktəbin direktoru bacarıqlı pedaqoq Əziz Mə-

[1] M.Maqsudov. Erkən orta əsrlər Azərbaycan dili nümunələrinin Şamaxı-Qobustan toponimlərində əksi. Pedaqoji Universitetin Xəbərləri. (Dil-ədəbiyyat seriyası). №2, Bakı, 1996, səh.29

likov olmuşdur. 1968-ci ildən məktəb səkizillik, 1992-ci ildən isə orta məktəb kimi fəaliyyət göstərir. Məktəb rayon Xalq Deputatları Sovetinin 1993-cü il 19 yanvar tarixli 32 saylı sərəncamına əsasən kəndin şəhid oğlu Ələkbərov Qabilin adını daşıyır.

Hal-hazırda 135 nəfər şagirdin təlim-tərbiyəsi ilə iyirmi dörd nəfər müəllim məşğul olur.

Çuxanlı kəndində məktəb, klub, kitabxana, məscid fəaliyyət göstərir. Kənddə 738 nəfər əhali yaşayır.

## ÇAYQOVUŞAN OBASI

Bu oba Qozlu çayla Ağdərə çayının (Acı çay da deyilir) qovuşduğu ərazidə yerləşdiyi üçün Çayqovuşan adlanırmış. Çayqovuşan obasında 1950-1960-cı illərdə 16-20 ailə yaşayıb. 1980-1985-ci illərdə obanın əhalisi müxtəlif ərazilərə köçüblər. Obadan nişanə xarabalıq və qəbristanlıq qalıb. Çayqovuşan obası da vaxtilə **"Budyolu"** və **"Komsomol"** kolxozunun tərkibində olubdur. Vaxtilə kənd əhalisi əkinçilik, üzümçülük və heyvandarlıqla məşğul olmuşdur.

## CƏYİRLİ KƏNDİ

Mənbələrdə bu söz çakirlu və ya cəkirli adlı türk tayfasının adı ilə əlaqələndirilir. Bu tayfa ilk əvvəl Orta Asiya, sonralar isə İran, Kiçik Asiya, ən nəhayət, Qafqaz ərazilərində məskunlaşmışlar. Odur ki, həmin ərazilərdə bu adda kəndlər, toponimlər mövcuddur.

Məlumdur ki, "XV əsrdə Səfəvilərin hakimiyyət uğrunda mübarizəsi başlanır. Səfəvilər "Qızılbaş" adlanan türk, Azərbaycan tayfalarına əsaslandırırlar: **Ustaclı, Rumlu, Şamlı, Zülqədər, Əfşar, Qacar, Qaradağlı, Türkman, Cəyirli, Alpout, Bayat** və b[1]" (seçmələr bizimdir – **S.Q.**).

Bu tayfaların bir çoxusu Azərbaycan ərazisində əsasən, XVIII-XIX əsrlərdə məskunlaşmışlar.

M.Baharlı öz tədqiqatında "Xanqarlar" haqqında danışarkən yazır: "Xanqarlar Azərbaycanda bir neçə nəslə bölünmüşlər və bunlardan da ən əsasları – Gəngərli, Qarapapaqlılar, yaxud Qaraböriüklülər, Cəyirli və başqalarıdır"[2].

[1] A.Qurbanov. Azərbaycan dilinin onomologiyası, Bakı, 1988, səh.296-297

[2] M.Baharlı. Azərbaycan, Bakı, 1993, səh.39

Cəyirli toponimi haqqında bir neçə xalq yozumu da mövcuddur. Həmin rəvayətlərin birində deyilir ki, guya bu kəndin ilk sakini Cəyir adlı bir cəngavər olmuşdur. Zaman ötdükcə onun başına bir çox ailələr də cəm olur. Odur ki, ərazi həmin cəngavərin adı ilə Cəyirli adlanır.

Qobustan ərazisində olan cəyirlilər də başqa tərəkəmə elatlar kimi ötən əsrin 50-ci illərinə kimi köçəri həyat sürmüşlər. Belə ki, "cəyirlilər qış aylarında Hacqabul rayonunun şimalında olan Harami dağlarının ətəklərinə köçər, **Çarçı, Könüllü, Ovdam, Şıx, Təzəkənd** deyilən düşərgələrdə qara keçədən alaçıq adlanan evlər tikər və orada yaşayardılar. Yaz aylarında el Şamaxının 30 km məsafədə olan Cəyirli kəndinə gələrdi"[1].

Cəyirlidə bir çox – **Məşədili, Koxanlı, Muratlı, Nağılı, Mirili, Qara Mirzəli, Qarabağlı, Tulunclu, Korcalı, Göyçəlilər** və s. təbəhləri vardır.

Cəyirlidə ilk ibtidai məktəb 1922-ci ildə təşkil olunmuşdur. Kənddəki ibtidai məktəb 1945-ci ildə yeddiillik məktəbə çevrilmişdir. Ötən əsrin 70-ci illərində kəndə orta məktəb fəaliyyətə başlamışdır.

Cəyirli kəndinin əhalisi əsasən, heyvandarlıq, əkinçilik, sonralar isə üzümçülüklə də məşğul olmuşdur. Cəyirlilərin Muğan stansiyasından 3 km şimala – Haramı dağının ətəyində qəbristanlıqları da vardır, həmin qəbristanlıqda daha qədim zamanlarla səslənən sanduqəli qəbrlər də mövcuddur. Hal-hazırda kənddə məktəb, klub, kitabxana, tibb məntəqəsi və məscid fəaliyyət göstərir. Kənddə 2369 nəfər əhali yaşayır.

## CƏMCƏMLİ KƏNDİ

Bu kənd Bakı-Şamaxı şosse yolundan 10 km cənubda yerləşir.

Mənbələrdən və deyilənlərdən bəlli olur ki, təxminən, 400-450 il əvvəl Quba tərəflərdən Paşa adlı bir nəfər öz qohum-əqrəbası ilə köçüb Şamaxı ərazisinə gəlir. Həmin insanlar əvvəlcə Çalov, sonra isə Sündü (Şeyda bəy torpağında) ərazisində məskunlaşırlar. Bir müddət keçəndən sonra yerli əhali bu işə narazılıq edir. Odur ki, Pa-

[1] H.Paşa. Cəyirli, Bakı, 2000, səh.3

şanın qohum-əqrəbası heyvandarlığ üçün əlverişli olan, vaxtilə Kələğalıların tərk etdikləri əraziyə yaxın bir yerdə yurd qururlar.

Quba bölgəsindən bu əraziyə **Əlverdi** (Mövlanverdi nəsli), Paşanın övladları – **Yunis, Abdulla, Qədir, Mütəllim və Məmməd;**



Məktəb müəllimlərinin bir qrupu

**Həşimli** nəslindən **Tapdıq, Səməd; Bəylər** nəslindən isə **Həmid** və başları bu ərazidə cəmləşmiş, məskunlaşmışlar. Hazırda kəndin əhalisinin böyük hissəsi həmin insanların törəmələridir.

Deyilənə görə, bu nəsillərlə bərabər vaxtilə əraziyə Çalov, Ərəbşahverdi, Sündü kəndlərindən bir çox insanlar köçüb gəliblər. *Odur ki, bir neçə kənddən və nəsildən bu obada əhali cəmləşdiyi* üçün kəndin adını da Cəmcəmli qoymuşlar. Bu barədə Y.Yusifov "Cəmcəmli *kəndinin igid oğulları*" adlı kitabında qeyd edir: "...Cəmcəmli kəndinin təxminən, 500 illik bir tarixi vardır. Buraya Dağıstan, Quba mahalından tərəkəmə nəsilləri gəlmiş, cəm halda yaşayaraq qohumlaşıb öz təsərrüfatlarını inkişaf etdirmişlər. Elə Cəmcəmli məhfumu da buradan əmələ gəlmiş..."dir.

Bir məsələni də vurğulamaq yerinə düşər ki, respublikamızda **elmi cəhətdən əsaslandırılıb, dəqiq** öyrənilməyən toponimlərdən biri də Cəmcəmlidir. Düzdür, elmi mənbələrdə bəzi mülahizələr

mövcuddur. Məsələn, bir mənbədə bu toponim haqqında oxuyuruq: "Yaşayış məntəqəsi cəmcəmli nəslinə mənsub ailələr tərəfindən bina edilmişdir"[1].



Naməlum əsgər

O.A.Deminski də vaxtilə Cəmcəmli sözünün yozumu haqqında Zeydlistin fikrini dəstəkləmişdir: "Zeydiistə görə, Cəmcəmli bataqlıq suyu mənasında işlənir. (Məlumdur ki, bir müddət keçəndən sonra bataqlıqdakı suyun üzünü yaşıl rəngli çəm və ya çəmir örtür. Müəllif yəqin ki, bunu nəzərdə tutur). Bu izaha əsasən, kəndin əvvəl bataqlıqlara əhatə olunmuş düzənlik sahədə yerləşdiyini güman etmək olar. Hazırda kənd daşlı dağ yamacında yerləşir. Kənd sakinlərinin əksəriyyəti uca boyluqda, qonurbənizlikdə ərəbqədimlilərə oxşasalar da, köklərini ərəblərlə bağlamırlar"[2].

Cəmcəmli kəndində ilk məktəbi təxminən, 1910-1912-ci illərdə kənd sakini, böyük dini bilik sahibi Əlibədəl Bədəlov təşkil etmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra kənddə ilk ibtidai məktəb isə 1923-cü ildə yaradılmışdır. Məktəbin müdiri sündülü Pirverdiyev Gülməmməd olmuşdur. 1932-ci ildə isə ibtidai məktəb yeddiillik məktəbə çevrilmişdir. Həmin vaxtlardan günümüzə kimi məktəbdə onlarla bacarıqlı pedaqoqlar çalışmışdır. Adları aşağıda qeyd olunan müəllimlər isə müxtəlif illərdə məktəbin direktorları olmuşdur: **Sündülü Balaxan, şamaxılı Mamed, Ağəli Şıxəliyev, Sara Şıxəliyeva, Gülməmməd Yolçuyev, Nurəhməd Əhmədov, Seyidməmməd Mikayılov, Balosman Vahidov, Məhəmməd Tapdıqov, Abdulhəşim Tanrıverdiyev, Elimxan Baxşəliyev.**

[1] Azərbaycan toponimləri (ensiklopedik lüğət), Bakı, 1999, səh.552

[2] A.Deminski, Göstərilən əsəri, səh.21

Cəmcəmli kənd orta məktəbi hal-hazırda Qarabağ şəhidi A.Babaşovun adını daşıyır.

Cəmcəmli kəndində də ötən əsrin 30-cu illərində **"Stalin"** adlı kolxoz yaradılmışdır. Kolxoz 1957-ci ildə Mərəzədə olan **"Kollektivist"** kolxozuna birləşdirilmişdir. Bir müddət sonra kolxoza Mehdi Hüseynzadənin adı verilmişdir. 1957-ci ilə kimi kolxoza **Feyzulla İsmayılov, Təfəkkül Mikayılov, Məcid Gülməmmədov, cəbirli Ağəhməd Əhmədov, Şahməmməd Şıxəliyev, Balaş Heybətov, Nurəhməd Əhmədov** kimi insanlar rəhbərlik etmişdir.

1969-cu ildə Cəmcəmli kəndində Y.Qaqarın adına sovxoz təşkil edildi. Əkinçilik, üzümçülük və heyvandarlıqla məşğul olan sovxozun Torağay dağı ərazisində qışlağı və Cəbələr Ləki adlı yaylağı olmuşdur. 1969-cu ildən təsərrüfat dağılana kimi sovxoza **Seyidməmməd Mikayılov, sündülü İzayəddin, şamaxılı Arif Muradov, Mirbala İsmayılov, Elxan Mikayılov, Rəşid Heybətov, Cavanşir Babaşov, Əlişah Əhmədov rəhbərlik etmişlər... Hər kəs də elin yaddaşında öz işi və əməli kimi qalmışdır...**

Cəmcəmli kəndində məscid, kitabxana, musiqi məktəbi, tibb məntəqəsi və klub fəaliyyət göstərir. Hazırda kənddə təxminən 1114 nəfər əhali yaşayır.

## CƏNGİ KƏNDİ

Vaxtilə Bakı-Şamaxı ticarət yolu üzərində bir neçə çaparxanalar mövcud olmuşdur. XIX əsrin 30-cu illərindən sonra isə yol boyu, təxminən 30-35 km-dən bir poçtxanalar yaradılmışdır. Cəngi də Ba-



kı-Şamaxı yolunun əllinci kilometrliyində yaradılan məntəqələrdən biri olmuşdur. Həmin ərazidə vaxtilə bir neçə təsərrüfatın qışlağı da yerləşmişdir. XX əsrin 50-60-cı illərindən sonra Qobustanın bir neçə kəndindən həmin əraziyə tərəkəmə ailələr köçmüşdür.

Cəngi fars dilindəki "cəng" sözü və "i" mənsubiyyət şəkilçisindən yaranmışdır. Məlum olduğu kimi "Cəng" sözünün leksik yozumu "vuruş, döyüş, dava" mənasını bildirir. Ərazinin cəngi adlandırılması ilə bağlı xalq arasında müxtəlif rəvayətlər də mövcuddur... Xalq deyiminə görə, uzaq keçmişdə bu ərazidə pəhləvan cüssəli qadın cəngavərlər yurd salmışlar. Onlar bu əraziyə hücum edən yadelli işğalçılara qarşı həmişə cəsarətlə müqavimət göstərmişlər. Düşməni məğlub edəndən sonra onlar qələbələrini Şamaxının şimalında olan səfalı yerdə – meşədə qeyd edərlərmiş. Həmin meşə də Cəngi meşəsi adlanır.

Hazırda kənddə təxminən, 50-60 ev vardır. Burada ibtidai məktəb fəaliyyət göstərir.

## CEYRANKEÇMƏZ

Bakı-Şamaxı şosse yolunun kənarında, Mərəzə qəsəbəsinə 3-4 kilometr qalmış məsafədə yerləşir. Yaşayış yeri eyni adlı çayın adından götürülmüşdür. Göründüyü kimi, toponim iki – "ceyran" və "keçməz" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Toponimin leksik mənası da tam aydındır – "ceyran keçə bilməyən çay". Bu toponimlə bağlı xalq arasında bir neçə rəvayət dolaşmaqdadır. Deyilənə görə, uzaq keçmişdə bu çaydan ancaq yaz və payız aylarında deyil, ilin bütün fəsillərində su axarmış. Tərəkəmə camaat üçün ilin payız, qış və yazın əvvəllərində əlverişli olan bu diyarda ceyran sürüləri də olurmuş. Ceyranlar isə ilin bütün vaxtlarında çayın bir tərəfindən o biri tayına istənilən vaxt keçə bilməzdilər. Çayda su gur olanda, ovçular ceyranları çaya tərəf hürküdər və onları asanlıqla ovlaya bilərdilər.

XX əsrin əvvəllərində burada "poçt evi", sonralar isə "yol evi" fəaliyyət göstərmişdir.

Böyük Vətən müharibəsi zamanı – 1942-ci ildə Tiflisdən Bakıya xüsusi sənəd aparan hərbiçilərin vertolyotları hava duman olduğu üçün yolu azır və Giçəki dağına (bəzilərinin dediyinə görə, "Qayıblar" babaya) dəyir və parçalanır. Beş nəfər həlak olur. Onları şosse yolunun kənarında dəfn edirlər. Müharibədən sonra həlak olan-

ların xatirəsini əbədiləşdirməkdən ötrü Ceyrankeçməzdə abidə ucaldırlar. Məzarda uyuyanların adları abidənin üstünə həkk olunur –



**V.T.Sidorçuk, K.K. Yuneşev, V.D. Barxatov, N.Soşnikov** və **Q.Stelmax.** Hərbçilərin ikisi ukrayna, üçü isə rus olmuşdur. Vaxtilə (1970-1975-ci illər) onların doğmaları tez-tez Şamaxıya gələr və həmin məzarı ziyarət edərdilər...

Ötən əsrin ortalarında burada hərbi hissə də mövcud olmuşdur. Bununla yanaşı, vaxtilə Bakıdan Gürcüstana ötürülən neft kəmərinin Ceyrankeçməzdə nizamlayıcı mərkəzi – stansiyası da yerləşirmiş.

## ŞAMLI KƏNDİ

Qobustanın **"yox olmuş"**, adı ancaq tarixi sənədlər və xatirələrdə *yaşayan kəndlərindən biri də Şamlı kəndidir. Şamlı kəndi barədə* bir mənbədə oxuyuruq: "Əvvəllər Orta Asiyada yaşayan bir çox *türkdilli tayfalar sonralar səlcuqların və monqolların tərkibində* Kiçik Asiyaya köçür. Suriyada (Şam) yaşayan türk tayfaları Şamlu, Anadoluda (Rum) yaşayanlar isə rumlular adlandırılır... Teymur 1402-ci ildə Osmanlı sultanı I Bəyazidi məğlub etdikdən sonra həmin tayfanın bir qismini yenidən geri götürdü. Teymur Ərdəbildə Şeyx Səfiyəddin türbəsini ziyarət etməyə gəldikdə Şeyx Xacə Əlinin xahişi ilə şamlı

və rumlu tayfaları Səfəvi Şeyxinin tabeliyinə verildi"[1]. Sonralar "Şah İsmayıl Xətainin ən etibarlı silahdaşlarının bir çoxu şamlı tayfasından olmuşdur – Hüseyn Lələ, Əbdi bəy, Durmuş xan və başqaları..."



**Şamlı qəbristanlığı**

M.Baharlı səlcuqlardan bəhs edərkən yazır: "Səlcuqlar bir sıra tayfalara bölünmüşlər və bunlardan bir çoxları monqol hücumu dövründə onlara tabe olmaq istəməyib, Kiçik Asiyaya çıxıb getmiş və oradan sonralar müxtəlif vaxtlarda Azərbaycana gəlmişlər"[2]. Müəllif Azərbaycanda məskunlaşmış həmin tayfalar arasında şamlıların da olduğunu söyləyir. "Səlcuq tayfaları indi də Ayrum Şamlı, Bəydilli, İmanlı, Təklə, Qaramanlı, Əhmədli, Aydınlı, İmirli, Düxər və s. adlarla məşhurdur". Bu adda Azərbaycanın bir çox bölgələrində kənd adları vardır.

Xalq etimologiyasına görə, bu kəndin (obanın) təməlini Şamı adlı bir nəfər qoymuşdur. Odur ki, kənd də (oba da) onun adı ilə Şamılı adlanmışdır.

Şamlı kəndində bir neçə təbəh və tirələr – **Mollalı, Hacı Əzizli, Hacı Balacalı, Molla Alışlı, Adışdı, İsbatlı, Burğumlu, Əlixanlı** olmuşdur.

XX əsrin 30-cu illərində Şamlı, Poladlı kəndi ilə bir kolxoz olmuşdur. Şamlılar yayda Taxta yaylağında mal-qaralarını bəsləyər, qışı isə əsasən, Xanalı qışlağında yaşayardılar.

1952-ci ildə Şamlıların bütün mal-qarası kolxoza qatıldığı üçün əhali ata-baba yurdunu həmişəlik tərk etdi. Əsasən, Duvannı qəsəbəsi, Salyan, Əli-Bayramlı ərazisi və Bakı şəhərinə köçdülər.

[1] ASE, V c, Bakı, 1984, səh.462

[2] M.Baharlı. Göstərilən əsəri, səh.40

Hal-hazırda Şamlı kəndindən ancaq qədim qəbristanlıq və xarabalıqlar nişana qalamışdır.

1923-ci ildə Şamlıda üç sinifli ibtidai məktəb təşkil olunmuş və Böyük Vətən müharibəsindən sonrakı dövrə kimi fəaliyyət göstərmişdi. Məktəbin ilk müəllimi Şamaxılı Məhəmməd Əli oğlu olmuşdur. Sonralar Şamlı məktəbində Əkbər Aslan oğlu, Məhəmməd Qasım oğlu, Sarı Abgül oğlu və başqaları çalışmışlar...

# ŞIXLAR KƏNDİ

Bu adda Azərbaycan ərazisində bir çox kəndlər vardır. Bu söz "şıx" sözü və "lar" cəm şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. "Şeyx" ərəb sözüdür. Mənası "savadlı şəxs", "təriqət başçısı", "qəbilə başçısı" və s. deməkdir. Şıxlar (Şeyxlər), yəni, "şeyx nəslindən olan insanlar". Kənd Çigilçay ilə Qozluçayın arasında yerləşirdi. Bu kənd **Şıx Xudaverdili, Hacı Bayramlı, Şıx Mikayıllı, Şıx Kazımlı, İsmayıllı, Qədimli, İsifli** kimi təbəhlərdən ibarət idi. El arasında kəndə "Hunbu" və ya "Hunbu Şıxları" da deyilir. El yozumuna görə, kəndin adındakı Hübü sözü Hunbu dağı, Hünbət pirinin adından yaranmışdır.


Tuti piri

Kənd və onun ətrafında bir çox ziyarət yerləri – Şıxdağ, Tutu piri, Şıxnovruzəli piri, Məmmədşah piri, Hümbət piri (Ərçənni) vardır. Həmişə əkinçilik və heyvandarlıqla məşğul olmuş Şıxlar kəndinin Dəli qayada yaylaqları, Ceyrançöl ərazisində isə qışlaqları olmuşdur.

# ŞIXZƏRLİ KƏNDİ

Xalq arasında bu kəndin adı barədə müxtəlif fərziyələr olsa da, mütəxəssislər bu sözün **Şeyx Zahir (Şıxzayırlı)** adlı şəxsin adından götürüldüyü fikrini qəbul edirlər[1]. Kənd sakinləri ilk əvvəl Sündü ərazisində yaşamışlar. İndiki ərazi Şıxzərlilərin qışlağ yeri olmuşdur. Sonradan kənd sakinləri Sündü yerini tərk edərək həmişəlik həmin ərazidə məskunlaşmışlar. Sündü ərazisində indi də **Şıxzərli yaşayış yeri** və **Şıxzərli bulağı** adlı oykonimlər mövcuddur. Xalq deyiminə görə, Şeyx Zahir adlı dini bilik sahibi, mömin bir adam həmin ərazidə ilk dəfə binə qurub ibadətlə məşğul olur. O, dini bilik sahibi olmaqla yanaşı, həm də bir çox xəstəlikləri türkəçarələrlə müalicə edə bilmişdir. Odur ki, Şeyxin ətraf kəndlərdə də böyük nüfuz və hörməti olmuşdur. Bəzi insanlar Şeyxin yaşadığı əraziyə köçür. Bir müddət sonra orada bir oba yaranır. Həmin ərazini də Şeyxin şərəfinə Şeyxzahirli adlandırırlar. Zaman keçdikcə söz dəyişib Şıxzərli formasına düşür. Amma mənbə və sənədlərdə bu söz çox vaxt Şıxzairli və ya Şeyxzairli kimi də qeyd olunmuşdur.

Başqa bir xalq deyimə görə, kəndin ilk sakini varlı-karlı, qızıllı-gümüşlü bir şeyx olur. Camaat da həmin ərazini "varlı şeyx" anlamını verən "Şıx", "zər" sözləri və "li" şəkilçisinin birləşməsindən yaranan Şıxzərli adlandırmışlar. Vaxtilə kənd sakinləri həm də "çarvadarlıqla-dəvələrlə yük daşımaqla" məşğul olmuşlar. Hazırda əhalinin əsas məşğuliyyəti heyvandarlıq və əkinçilikdir.

Hal-hazırda kənddə orta məktəb, klub, kitabxana fəaliyyət göstərir.

# ŞORSULU OBASI

Vaxtilə Tatar Mərəzəsi özündə bir neçə obanı – **İlanlı, Şorsulu, Dərəkənd (Gəmaltı) və Damlamacanı** birləşdirirdi. 1918-ci il ermənilərin törətdikləri qırğın zamanı bu kənd-obalar daha çox ziyan çəkmiş, dağıdılmışdır. Sonralar kəndlər yenidən bərpa olmuşdur.

Şorsulu kəndi indiki Dərəkəndin cənubunda, Mərəzə-Ərəbqədim yolunun yaxınlığında – sağında yerləşirdi. Mütəxəssislər kəndin adını o ərazidə olan şorsulu, kükürdlü bulaqların adı ilə əlaqələndirirlər.

Kənd əhalisi əsasən, müharibədən sonra müxtəlif ərazilərə köçüb getmişlər. Kənddən günümüzə ancaq qəbristanlıq yadigar qalmışdır. Kənd ərazisində olan küp qəbir və kurqanlar bu ərazidə islamiyyətdən də əvvəlyaşayış olduğunu təsdiqləyir.

[1] Azərbaycan toponimləri, səh.578

# II
# FƏSİL



# QOBUSTANIN DAŞ YADDAŞI

*"Azərbaycanın tarixi abidələri mənim üçün əzizdir"*
*Heydər Əliyev*

Uzun illər ərzində Şirvan regionunu qarış-qarış gəzmiş, şəhər, qəsəbə, kənd, oba, allı-güllü yaylaqları, alaçıqlı, küzülü, zağalı qışlaqları, susuz, yovşanlı-qarağanlı çölləri, il boyu zirvəsi qarlı dağları, ormanlarında olmuş, alın qırışlarında el-obanın tarixini, folklorunu, müdrik kəlamlarını yaşadan, yaddaşları dəryadan dərin ipək nənələrimiz, müdirik babalarımız və ziyalılarla görüşmüşük. Nəticədə minlərlə folklor örnəkləri, el şairləri, aşıqlar, şairlər haqqında məlumatlar toplamışıq. Bunlarla yanaşı, gəzib-dolaşdığım ərazidə olan tarixi abidələri görmüş, ziyarət etmiş, çoxunun şəklini çəkmiş, siyahıya almış, üstündə kitabə olan **daşları oxumağa (və ya oxutmağa)** çalışmışıq. Nəticədə, Şirvan regionunda mövcud olan **kurqan, şərgah, qala, ziyarətgah, məscid, karvansara, şəhid qəbrləri** (daş) barədə kataloq tərtib etmişik. **Axı tariximiz – daş yaddaşımız həm də soy kökümüzdür...** Tərtib etdiyimiz kataloqda Şirvan regionunda keçmişimizdən günümüzə soraq verən **minə yaxın tarixi abidələr** haqqında müfəssəl məlumat öz əksini tapmışdır. Keçmiş Şirvan ərazisində ən qədim regionlardan biri də tarixlər şahidi Qobustandır. Qobustan regionu tarixi abidələrlə – **şərgah, qala, ziyarətgah - inanc yerləri** (xanəgah, türbə, pir, ocaq), **karvansara, məscid, şəhid qəbrləri** və s. ilə zəngindir. Qədim Qobustanın tarixi abidələri – daş yaddaşı Azərbaycan tarixinin bir hissəsidir. Rayonun Mərəzə, Nabur, Dağ Kolanı, Poladlı, Yekəxana, Xilmilli, Sündü, Çuxanlı, Təklə, Bəklə, Ərəbşah-

verdi, Çalov, ~~Nabur~~, Cəmcəmli, Cəyirli, Ərəbqədim və s. ərazilərində eramızdan əvvəl – antik dövr, ilk qədim orta əsrlərdən soraq verən neçə-neçə şərgah – yaşayış yerləri, qəbir abidələri, qala xarabalıqları, mağara, xanəgah, türbələr, karvansaralar mövcuddur. Qazıntılar zamanı bu ərazilərdən tapılan rəngarəng maddi-mədəniyyət nümunələri deməyə əsas verir ki, övliyalara sığınan, sirli-sehirli tərəkəmə dünyası Qobustanda azı 2000-2500 ildən də əvvəl yaşayış olmuşdur.

Araşdırmalarımız nəticəsində onu da nisbətən müəyyənləşdirə bilmişik ki, bu ərazidə mövcud olan tarixi abidə və ziyarətgahların **sayı iki yüz əlliyə yaxındır.**

Yeri gəlmişkən onu da vurğulamaq vacibdir ki, Qobustan regionunda olan bu qədər tarixi abidələr indiyə kimi arxeoloqlar tərəfindən ətraflı şəkildə araşdırılmamış, öyrənilməmiş və həmin ərazilərdə qazıntı işləri aparılmamışdır. Bizə belə gəlir ki, üzərlərindəki şəkil, cizgi, damğa və arnamentlərlə fərqlənən Qobustan abidələrinin ciddi tədqiqi Azərbaycan tarixinə yeni söz deyə bilər.

Düzdür, Sovetlər birliyi zamanı regionda müəyyən işlər görülmüşdür. Amma iş Sovetlər Birliyinin qanunları çərçivəsində aparılmışdır. Bizə belə gəlir ki, müstəqilliyimiz dövründə arxeoloqlar gecikmiş həllini gözləyən bu vacib məsələyə bu günün gözü ilə yanaşsalar, çox udarlar.

Qobustan regionunda olan daş yaddaşlarımızın çoxusu baxımsızlığımız, etinasızlığımız, eləcə də təbiətin şıltaqlıqları ucbatından və ya təbii fəlakətlər nəticəsində dağılmaq, məhv olmaq üzrədir. Üzərində daş kitabəsi olan tarixi abidələrin çoxusunun yazısı artıq pozulmuş, oxumaq qeyri mümkündür və ya çox çətindir. Möhtərəm prezidentimiz **H.Əliyev cənabları 10 aprel 1998-ci ildə "Tarix və mədəniyyət abidlələrinin qorunması"** haqqında Azərbaycan Respublikasının Qanununu imzaladı. İlk əvvəl Respublikanın aidatı təşkilatları işə başlasa da, bir müddət sonra heç bir əməli iş görülmədi. Həyəcan təbili çoxdan çalınsa da... Abidələri qorumağı, həmin yerə sadəcə lövhə vurmaqla (bəzən lövhədə abidənin adı, tarixi düzgün də göstərilmir) kifayətlənən mütəxəssislər həmin qanunu daha diqqətlə oxumalıdırlar... Və eləcə də sirli-sehirli Qobustan diyarında əsrlərlə susmuş, öyrənilməmiş abidələrimizin – daş yaddaşlarımızın "dilini açmaq, dilləndirmək, danışdırmaq", onların sirrini öyrənmək üçün arxeoloqlar bölgələrdə illərlə ciddi tədqiqatlar aparmalıdırlar. Eləcə də yüzlərlə tarixi abidəsi, qədim inanc yerləri olan Qobustan bölgə-

sində. Belə olan təqdirdə Qobustanda yeni abidələrin və ya maraqlı məlumatların izinə düşmək mümkündür. Elə bu il təsadüfən Mərəzə qəsəbəsinin mərkəzində aşikar edilmiş Şeyx İbrahim türbəsi kimi...

* * *

Son olaraq onu qeyd etmək vacibdir ki, maddi-mədəniyyət abidələri – övliya, qala qalığları, kurqan, sərgah, qədim yaşayış yeri tarixlər şahidi Qobustan regionuna son 30-40 il ərzində demək olar ki, arxeoloq ayağı dəyməmişdir. Halbuki bu qədim diyarda tədqiq olunmamış yüzdən artıq pir-türbə, xanəgah, qədim qəbristanlıq, nekropol, kurqan, sərgah, mağara, tunel, zağa, körpü, ovdam və s. mövcuddur. Onu da etiraf etmək vacibdir ki, regionda indiyə qədər salamat qalmış tarixi-memarlıq abidələrin bir qismi son günlərini yaşayır – artıq məhv olmaq üzrədir... Çünki təbii fəlakətlər qəzəblənəndə heç kimə və ya heç nəyə güzəştə getmir.

Bizə belə gəlir ki, kitaba haqqında ümumi məlumatlar daxil etdiyimiz tarixi abidələr gələcək tədqiqatçıları, arxeoloqları bu diyara çağıracaq, onlar Qobustan abidələrini birər-birər öyrənəcək, gecikmiş tədqiqatlarını reallaşdıracaqlar. Axı aqillərimiz demişlər ki, **"...vətənin hər bir saxsı parçasının tarixini bilmədən, yurdun böyük tarixini öyrənmək xülyadır".**

Təbii ki, kitabda regionda mövcud olan **iki yüz əllidən artıq tarixi abidələrin** – minillərin sirrini özündə yaşadan kurqan, zəmanəsinə görə bazar-dükanları, bəy-bəyzadələri, nökər-naibləri olmuş sərgah, el-obanın azadlığı uğrunda qanına qəltan edilmiş şəhid daşları, əsrlərlə insanların ümid, inam yeri sayılan ziyarətgahlar, xeyirxahlığı ömrünün çırağı bilən insanların tikdirdikləri karvansara, ovdamlar və s. barədə müfəssəl məlumat vermək qeyri-mümkündür. Buna baxmayaraq, regionun müxtəlif kənd və ərazilərində yerləşən tarixin daş yaddaşlarının bəziləri barədə müəyyən məlumatlarla oxuculara nəsə deyə bilmişiksə... uğurumuzdur...

## DAĞ KOLANI QALACIĞI

Uzun illər Şamaxını cənub ölkələri ilə birləşdirən qədim ticarət yolunun üstündə yerləşən bu tarixi abidə qədim Dağ Kolanı ərazisindədir. Müdafiə məqsədi üçün tikilmiş qalanın qalıqları indi də durur. Onun salamat qalan hissəsində qala divarının eni iki metrdən artıqdır.

Ötən əsrin 80-ci illərində qalada arxeoloji qazıntı aparan mütəxəssislərin fikrincə, bu qala **eramızın II-III əsrlərində inşa edilmişdir**[1].

## BAŞIBAĞLI QALASI

Bu abidə Dağ Kolanı kəndi ərazisində, keçmiş ticarət yolunun yaxınlığında hündür bir təpədə yerləşir. Həmin təpə qala divarları ilə əhatə olunmuşdur. Qalanın qalıqları indi də mövcuddur. Arxeoloqlar vaxtilə[2] bu ərazidə tədqiqatlar aparmış, müxtəlif əşya – maddi-mədəniyyət nümunələri əldə etmişlər. Həmin nümunələr əsasında belə qərara gəlmişlər ki, gözətçi məntəqəsi olmuş bu istehkam, təxminən, **III-VII əsrlərdə mövcud olmuşdur.**

## BOZA YAŞAYIŞ YERİ

Ərəbşahverdi kəndinin şərqində, Xəlfəbəy bağı, Şor bulağdan cənubda, Sövdəgar bulağına yaxın bir ərazidə yerləşir. Mənbələrin qeyd etdiyi kimi Boza bulağı və qəbristanlığın cənubi-şərqində qədim yaşayış yeri – şərgah olmuşdur. Qədim yaşayış yerindən nişanə qalmaqdadır. Şərgah IV-VII əsrlərə and edilir.



[1] A.Nuriyev. *Раскопки в Кучичи и Даг-Коланы в 1986 г. Тезисы докладов конференции. Баку, 1988, с.49-50*

[2] *Нуриев А. Раскопки в Кучги и Даг-Коланы в 1986 г. Тезисы докладов конференции. Баку, 1988, с.49*

Mənbələrə əsasən, vaxtilə Əşkanilər (bəzi mənbələrdə Ənsarilər) Azərbaycana hücum edəndə bu yaşayış yerini-şərgahı da dağıtmışlar, Qayıb və Şayıb qardaşları da bu döyüşdə həlak olmuşlar. Həmyerliləri döyüşdə şəhid olan qardaşları yaxınlıqda olan uca dağların zirvəsində dəfn etmişlər. Həmin vaxtdan birinci dağ Qayıb, ikinci dağ isə Şayıb adlandıradlanmışdı... Belə deyirlər, Həzrət Baba həmişə Baba dağından bura gələr – Qayıblar Babanı ziyarət edərmiş...

## GAVUR QALASI

Mənbələrdə bu adda Respublikamızın Naxçıvan, Ağdam, Laçın, Qəbələ ərazilərində qalaların mövcud olduğu göstərilir. Amma Qobustan ərazisində olan Gavur qalaları heç bir kataloq və ya siyahıda qeydə alınmamışdır.

Belə ki, Cəyirli kəndinin cənubunda Bakı-Şamaxı şosse yolundan 500-600 metr şimalda kiçik dağın yamacında yerləşir. Qalanın dairəvi şəkildə olan özülü bilinir. Aydın olur ki, qala vaxtilə yerli yonulmamış iri daşlardan təşkil olunmuşdur. Abidə bir növ gözətçi məntəqəsini xatırladır.

Belə qalaların yaranma tarixinə gəldikdə Gavur (Govur) sözü çox mətləbi açıqlayır. Əslində bu söz kafər sözünün dialektdə



işlədilən formasıdır. Kafər ərəb sözüdür. Leksik mənası "müsəlman olmayan", "islam dininə inanmayan" deməkdir.

Deməli, qala (və ya gözətçi məntəqəsi) müsəlman olmayanlar tərəfindən tikilmişdir. Məlumdur ki, VIII əsrin 30-cu illərində ərəblər torpaqlarımızı əllərinə keçirdilər. Bir sözlə, "Azərbaycan Əməvilər xilafətinin tərkibinə qatıldı"[1]. Demək olar ki, Azərbaycana köçürülən ərəblərin ilk nümayəndələrindən Qobustan ərazisində də məskunlaşanlar olmuşdur. **Deməli, qala VIII əsrdən əvvəl tikilmişdir**. Abidədə heç bir arxioloji – tədqiqat işi aparılmamışdır. Bu adda bir tarixi yer-oykonim də, Bəklə kəndi ərazisindədir.

## MƏRƏZƏ YAŞAYIŞ YERİ

*Bu yaşayış yeri Mərəzənin şimali-şərqində – hazırda Qurbançı* kəndinə gedən yolun üzərində (vaxtilə dünya səyyah və tacirlərinin keçdiyi Şamaxı-Bakı ticarət yolunun üzərində) geniş bir sahəni əhatə etmişdir. Açıq etiraf etmək lazımdır ki, bu əraziyə malakanlar gəldik-



dən sonra yaşayış yeri nəzarətsizlik ucbatından dağıdılmış, orada yaşayış evləri tikilmişdir... Amma qəsəbənin yuxarı hissəsində az bir ərazi nisbətən salamat qalmışdır. Rayon təşkil olunanda abidənin salamat qalan hissəsi yol çəkilişi zamanı tamamilə həmin ərazinin bir hissəsi də korlanmışdır. Mənbələrdə bu ərazidə ilk orta əsrlərdə, bəlkə də daha əvvəl, daha qədim yaşayış yeri olduğu güman edilir. Dəqiq fikri isə həmin ərazidə geniş tədqiqat aparıldıqdan sonra arxeoloqlar söyləyə bilər.

[1] Azərbaycan tarixi, I c, Bakı, 1961, səh.123

## GÜMÜŞLÜ YAŞAYIŞ YERİ

Bu yaşayış yeri Poladlı kəndinin şimali-şərq istiqamətində – Qarayman dağının ətəyindən Pirsaat çayı arasında böyük bir ərazini əhatə edir. Vaxtilə Azərbaycan EA Tarix İnstitutunun əməkdaşları Vahidov R., Əhmədov Ş. və başqaları bu ərazidə tədqiqat işləri aparmış, bir çox təsərrüfat və məişətdə istifadə olan gil və daş məmulat-



lardan hazırlanan əşyalar (bardaq, kasa, boşqab və s.) əldə etmişlər.[1] Həmin əşyalar əsasında arxeoloqlar belə qənaətə gəlmişlər ki, **abidə V-VIII *əsrlərin nümunəsidir.***

## DAĞ KOLANI YAŞAYIŞ YERİ

Bu ərazidə də 1960-cı illərdən başlayaraq sistemli, ardıcıl şəkildə qazıntı işləri aparılmışdır. Bu ərazidəki maddi-mədəniyyət abidələrinin öyrənilməsində arxeoloqlardan C.Xəlilov, A.Nuriyev, E.Qasımov, R.Vahidov və b. xüsusi xidmətləri olmuşdur[2]. Arxeoloqlar təd-

[1] R.Vahidov, Ş.Əhmədov, "Pirsaat dəstəsinin 1984-cü ildə gördüyü işlərin hesabatı", *Azərb.EA. Tarix İnstitutunun arxivi, №372, səh.12-13*

[2] A.Nuriyev Şamaxı rayonunun Quşçu, Kolanı, Poladlı və Göylər abidəlrinə olan səfərin hesabatı. Azərb. EA Tarix İnstitutu, elmi arxiv, №180, səh.14



Qalacığ dağının uzaqdan görünüşü

qiqat nəticəsində 18-20 ha. sahəni əhatə edən bu ərazidən xeyli maddi-mədəniyyət nümunələrini əldə etmişlər. Həmin əşyalar əsasında belə nəticəyə gəlmişlər ki, Şərq dünyası ilə Şamaxını birləşdirən qədim ticarət yolu üzərində olan Kolanı yaşayış yeri **IV-VIII əsrlərdə mövcud olmuşdur.**

## CAVANŞİR QALASI

Tarixdən məlumdur ki, vaxtilə Mehranilər sülaləsinin idarə etdiyi Girdiman dövlətinə VII əsrdə Cavanşir başçılıq etmişdir. "Bu dövrdə Azərbaycanın üzərini yeni bir təhlükə aldı. Xəzərlilər Dərbənd keçidi ilə Azərbaycana soxulurdular. Cavanşirin qoşunları onların hücmunu dəf etdi"[1].

Hakimiyyətdə olduğu illər ərzində düşmən hücumlarının qarşısını almaq üçün o, Şirvan ərazisində bir çox qalalar tikdirmişdir. "Çox ehtimal ki, Şamaxı rayonunun (indiki Qobustan – **S.Q.**) Nabur kəndindəki qala, Şıxlar kəndindəki Cavanşir qalası və s. istehkamlar həmin dövrdə tikilmişdir"[2]. Yeri gəlmişkən onu da xatırladaq ki, Cavanşirin adını daşıyan qalalardan biri də Şirvanın İsmayıllı bölgəsində daha konkret desək, Talıstan kəndi yaxınlığında – Ağçayın sahilində böyük dağın üstündədir. Mənbələrdə həmin qalanı da Girdiman döv-

[1] Azərbaycan tarixi. I c. 1961, səh.121
[2] T.Haqverdiyev. Daşların hekayəti, Bakı, 1989, səh.79



Hümbət (Ərçənni) piri

lətinin başçısı Cavanşirin VII əsrdə tikdirdiyi göstərilir[1].

Həmin zaman kəsiyindən 1300 ildən artıq bir vaxt ötməsinə baxmayaraq Qobustanda olan hər iki – Nabur və Şıxlar kəndlərindəki qalaların qalıqları indi də mövcuddur. Təbii ki, ötən vaxt ərzində təbiətin şıltaqlıqları abidələrin çox hissəsini məhv etmiş, onlara ziyan vurmuşdur. Amma təbiətin zərbələrinə sinə gərən tarix yadigarları hələ də öz tədqiqatçılarının yolunu gözləyirlər...

## ŞƏHİDLƏR GÜNBƏZİ

Nabur kəndi ərazisində olan abidələrdən biridir. Abidə kəndin Şimal tərəfdən girəcəyində yerləşir. Abidəyə ehtiram olaraq, kəndə kiçik yaşlı körpələr öləndə orada dəfn edirlər. Məzarın üstündə yerli



Pir Abdulla

[1] В.Минорский. История Ширвана и Дербенда X-XI вв, Москва, 1963, стр.48

daşdan künbəz tikilib. Təzə baş daşı olan məzarın kitabəsi var. O qədər də yaxşı oxunmur. Tarixi abidə XVIII əsrə aid edilir.

## NƏRİMANKƏND MAĞARALARI

Kəndin cənubunda, Zəngi çayının sol sahili ilə görüşən sal qayada üç böyük mağara vardır. Açıq deməк lazımdır ki, həmin mağaralardan az-çox bəhs olunsa da, hələlik mütəxəssis sözü deyilməmişdir.



Qaranlıq mağara

Onun nəticəsidir ki, mağaraların nə vaxt, nə məqsədlə yarandığı, orada hansı yaşayış formasının olduğu günümüzə qədər məlum deyildir. El arasında olan deyim, əfsanə və rəvayətlərdə mağaralar, "ibtidai insanların yaşayış yeri", "karvan – ticarət yoluna yaxın olduğu üçün qaçaqların yuvası", "dini-təriqət üzvləri, dərvişlərin (xəlvətlərin) məkanları" kimi təqdim olunur. Mağaralara qayanın təxminən, adam boyundan xeyli hündür olan "qapılarından" girmək mümkündür. **"Qoşa mağara"** qayanın şərqində yerləşir. İki böyük zaldan ibarətdir. "Otaq və zalların" hündürlüyü iki metrdən artıq və ya iki metrə yaxındır. **"Qaranlıq mağara"** iki böyük "zal", "eyvan" və "pəncərə"dən ibarətdir. Otaqlarda şam və ya digər məişət əşyaları qoyulan yerlər aydınca görünür. **"Peyğəmbər mağarası"** isə ortada böyük zal, sol tərəfdə kiçik otaq, çay tərəfə görünən "pəncərə"dən ibarətdir.

Müşahidələrimiz nəticəsində belə qənaətə gəlmişik ki, bu qayada olan mağaralar Diri Baba ziyarətgahının söykəndiyi qaya mağarala-

rına çox oxşardır. Diri Babada ciddi tədqiqatlar aparılsa, ziyarətgahın həm sağ, həm də sol tərəfində şübhə yoxdur ki, bir çox yem oxşar mağaralar aşkar edilə bilər. Belə olarsa, cəsarətlə demək olar ki, Nərimankənd kəndi ərazisində olan mağaralarla, Diri Baba yaxınlığında yerləşən mağaralarla eynilik və bir çox uyğunluq təsdiqlənə bilər... Əsl sözü isə ciddi tədqiqatlar aparandan sonra mütəxəssislər söyləyə bilər...

## ALLAHUƏKBƏR ABİDƏSİ

Qədim Dağ-Kolanı ilə Quşçu ərazisinin arasında Allahuəkbər adlı dağ yerləşir. Ötən əsrin 60-cı illərində görkəmli arxeoloq C.Xəlilovun rəhbərliyi altında Dağ-Kolanı ərazisində arxeoloji qazıntı işləri aparılmış[1] və nəticədə buradan bir çox maddi-mədəniyyət abidələri əldə edilmişdir. Mütəxəssislər orada – qədim insanların yaşayış yeri olduğu (I-VIII əsrlərdə) qənaətinə gəlmişlər. Bundan əlavə, həmin ərazidən tapılan abidələr barədə **professor S.Aşurbəyli yazır:** "1961-ci ildə Şamaxı rayonunun Dağ Kolanı kəndi yaxınlığındakı Allahuəkbər adlı yerdə, qədim yaşayış məskəninin ərazisində eramızın birinci minilliyinin birinci rübünə aid edilən müxtəlif saxsı qablar və digər əşyaların arasında daş insan heykəli tapılmışdır. Başı yaxşı yonulmuş, çiyinləri enlidir. Boyu mütənasib deyil, sifəti monqolaoxşar, yastı burunlu çapıqdır. Qulaqları hündürdədir. Göz qapağı dərindədir. Ağız yeri və saqqalı aydın seçilir. Sol əli sinəsində, ürəyinin başındadır, sağ əli isə düzbucaqlı şəkildə bükülmüş halda qarnının üstündədir. Ətəkləri aydın seçilən paltarı koftana, yaxud çuxaya oxşayır. Heykəlin **e.ə. I minilliyin sonu – eramızın I minilliyinin əvvəllərinə aid olduğu ehtimal olunur"[2].** Onu da xatırladaq ki, sovetlər dönəmində həmin ərazidə üzüm bağları salınanda tarixi yaddaşımızın bir parçası olan tikili qalıqları başdan-başa məhv edilmişdir.

## SOFU NOVRUZ BABA ƏRAZİSİNDƏKİ YAŞAYIŞ YERİ

Sofu Novruz ziyarətgahı Ərəbqədim kəndi ərazisində – Gicəki dağının cənubi-qərbində yerləşir. Bu qəbristanlıqda olan qədim qəbirlərin baş daşında müxtəlif damğalar mövcuddur. Bundan əlavə, bəzi

---

[1] Халилов Д. Археологические находки. Близ села Даг-Коланы Шемахинского района. Архе. иссид. Азерб, Баку, 1965, стр. 114-127

[2] S.Aşurbəyli "Şirvanşahlar dövləti", Bakı, 1997, səh.88

qəbirlərin baş daşında altı guşəli – Allahın dünyanı 6 günə yaratdığının rəmzi olan ulduz vardır. Qəbristanlığın şimalında qaba daşlardan tikilmiş qədim tikili qalıqları mövcuddur. Mənbələrdə qeyd olunduğu kimi, bu ərazidə uzaq keçmişdə yaşayış olmuşdur. "Lakin müşahidələrə əsasən deyə bilərəm ki, bu divar qalıqları Böyükdaşda **(Qobustan qoruğunda – S.Q.)** eramızdan əvvəlki III minilliyin sonuna aid "Dairə" yaşayış yeri və Qayparça kromlexləri tipindədir. Bu tip abidələr Böyük Qobustanın qərb sərhədləri daxilində "Qoçbulaq" deyilən Qoşabulağın ətrafında da çoxdur"[1].



Əfsuslar olsun ki, nə Sovetlər Birliyi zamanı, nə də müstəqilliyimiz dövründə arxeoloqlar bu ərazidə tədqiqat işləri aparmamışlar. Bizcə, bu ərazidə aparılan dəqiq tədqiqat tariximizə hansısa bir yenilik gətirə bilər.

## ŞƏMSƏDDİN KÖRPÜSÜ

Ərəbşahverdi ərazisi ilə Qaracüzlü ərazisinin arasında Qayıblar baba dağının şimalında, yaz-payız aylarında dağlardan axıb gələn selin keçdiyi böyük dərənin üstündə tikilmiş bir körpüdür. Dərə ilə axan sellər cənubdan keçən Ceyrankeçməz çayına qovuşurmuş. Körpünün uzunluğu təxminən, 10-12 metrdən artıqdır. Körpünün mərkəzindən hündürlüyü isə 3-4 metrə yaxın olar. Tişə ilə yorulmuş yerli daşdan inşa olunubdu. Körpünün tağları tamamilə salamatdır. Üstündə heç bir tarix və yazı yoxdur. Deyilənlərə görə, Boza yaşayış məntəqəsindən keçən karvanlar bu körpüdən yol alıb şimala gedirmiş. Körpüyə

[1] C.Rüstəmov. Qobustan dünyası. Bakı, 1994, səh.124



Şəmsəddin adının verilməsi barədə dəqiq məlumat yoxdur. Ehtimal edirlər ki, körpü onu tikdirən şəxsin – Şəmsəddinin adı ilə adlandırılmışdır.

## YEKƏXANA QALACIĞI

Kənddən təxminən, 2 km məsafədəki sal, hündür qayada yerləşir. Qalacıq qayanın 30-35 metr hündürlüyündədir. Ora çıxmaq o qədər də asan deyildir. Orada təxminən, 5-6 "otaq" mövcuddur. Hə-



min otaqların aşağı hissəsindən daşların arasından su gəlir. Həmin ərazidə bulaqlar (Durasan bulağı, Ələsən bulağı) vardır. Qalanın yerləşdiyi ərazidən aydın olur ki, insanlar buradan müdafiə məqsədi üçün istifadə etmiş, və ya haçansa qaçaqların sığındığı məkan olmuşdur. Qalanın yaxınlığında tikinti xarabalıqları da görülür. Hündür bir qayanın əlçatmaz divarına sığınmış bu qalada indiyə kimi ciddi tədqiqat aparılmamışdır. Müəyyən uçqunlar, sel-su axınları nəticəsində hələ də salamat qalan Yekəxana kəndi ərazisindəki qalacıq arxeoloqların yolunu gözləyir.

Bizə belə gəlir ki, artıq qala gözləməkdən cana doyub... Bir gün də görəcəyik ki, qala qayaqarışıq uçub-dağılıb... Və onda tariximizin də hansısa bir çağı itib gedəcək... Biz isə adətimizə uyğun olaraq təəssüflənməklə kifayətlənəcəyik.

## TÜRK QƏBİRLƏRİ

Bəklə kəndi ərazisində mövcud olan qədim tarixi abidələrdən biri də el arasında *"Türk qəbirləri"* adlanan tarix yadigarlarıdır. Bu barədə yazılı mənbələrdən heç bir məlumat yoxdur. Yerli sakinlərin vaxtilə öz ata-babalarından eşitdiklərindən bəlli olur ki, burada ilk sakinlər türklər olmuşlar. Kəndin də adını onlar vermişlər. Bəklə sözü türk sözüdür. Bəklə ("Bekle") türk dilində "gözlə" mənasında işlədilir... Həmin ərazidə yerləşən qəbristanlığda salamat qalmış baş daşlarının üzərində yonulmuş "ekranlarda" qədim dövlərlə səsləşən müxtəlif işarə və şəkillər buranın qədim bir yaşayış yeri olduğunu təsdiq edir. Bir sözlə, Bəklə ərazisində "Türk qəbirləri" nekropolunu dəqiq araşdırılması üçün burada da arxeoloqların geniş şəkildə tədqiqat aparmaları vacibdir.



Dağ Kolanının qədim qışlaq qəbristanlığı



Şıxzərli yaşayış yeri

# III FƏSİL



# QOBUSTANIN ÖVLİYA, ZİYARƏTGAH VƏ MÜQƏDDƏSLƏRİ

*"Bismillahir-rəhmanir-rəhim. Rəhman və rəhim olan Allaha həmd və səna, iki dünyanın Günəşi Məhəmməd səlləllahu əleyhi və alihi və səlləmə, onun hidayət nurundan işıq alan ailəsinə və əsabələrinə salat və salam olsun".*

İlahiyyatçı alimlər övliya sözünü – peyğəmbərdən sonra Allah – təbarəkə və təalaya yaxınlıqları ilə fərqlənmiş və Allahın dostları kimi şərh edirlər. İslam dini tarixində belə insanların sayı minlərlə olmuşdur və indi də mövcuddur. "Bu adamlar "həqiqətlər-həqiqətini" – Allah təbarəkə və təalanı dərk etməyin mümkünlüyü fikrini təbliğ edir, insanın mənəvi kamilliyə yetişməsi yollarını öyrədir. Dərin bilikləri, dünya ləzzətindən çəkinmələri, təqva və əməlisalehlikləri ilə fərqlənən sufi təriqətlərinin baniləri, şeyxləri və zahidləri öləndən sonra "Allahın dostları" (Övliyaüllah), - deyə adlandırdılar"...[1]

İslam dünyasının elə bir regionu yoxdur ki, orada Allah-təbarəkə və təalanın dostlarının məzarları, ocaqları-ziyarətgahları olmasın (onu da qeyd etmək vacibdir ki, Qobustan ərazisində, islamdan qabaqkı, dövrlərə aid inam yerləri də mövcuddur). Xalqın səcdə qıldığı, paklıq, saflıq, təmizlik və halallıq rəmzi olan ziyarətgahlar həm də el-

[1] Böyük övliyalar. Bakı, 1993, səh.3

*obanın inam, ümid və güman yeri sayılmışdır.* Ağzı dualı, mənəviyyatı təmiz olan insanlar dar ayaqda, çətin vaxtda, tüğyan edən dərdlərinə çarə axtaranda Allah-təalanın izmi ilə onun dostlarına üz tutmuş, onlara sığınmışlar. Sidqlə övliya dərgahına sığınmış iman əhli bəndələrinə Allah-təala özü yar olmuş, onların arzularını çin etmişdir. Bir sözlə, bu insanlar yaxşıların yaxşısı, nurluların nurlusu, xeyirxahların-xeyirxahı, halalların-halalı, ilqarlıların-ilqarlısı olublar. Ona görə də Allah-təalanın əziz bildiyi belə insanların – müqəddəs kəslərin məzarları, ocaqları əsrlərlə xalqın ziyarət yeridir. Allah təbarəkə və təalanın səslərini eşitdiyi "vəliyullahlar" barədə **"Qurani Kərimin" "Yunis" surəsinin 62-64-cü ayələrində yazılmışdır: "Bilin ki, Allah-təalanın dostları üçün əzab qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər. Onlar Allaha inanmışlar. Onlara dünya həyatında da, axirətdə də müjdələr vardır".**

Ömürləri boyu Allah-təalanın buyurduğu İslam dini qayda-qanunlarını təbliğ etmək, yaymaq, təbliğ etmək və öyrətməkdə bir şərəf duyan, bu yoldakı əziyyətləri ən ali rahatlıq sayan insanların məzarları İslam dünyasında – **xanəgah, pir, ribat, türbə, ocaq** adlanmış və *müqəddəs tutulmuşdur.*

Bütün İslam dünyası – eləcə də Azərbaycanın hər bir regionu, guşəsində belə müqəddəs yadigarlar mövcuddur. Qobustan ərazisində müqəddəs ocaqların sayı isə yüzlərlədir. Sorağı IX-X əsrlərə gedib çıxan Qobustan torpağında uyuyan müqəddəs insanların həyat-yaradıcılığı, dini və islam aləmindəki fəaliyyətləri geniş şəkildə araşdırılmamış, öyrənilməmişdir.

Respublikamız müstəqillik əldə edənə qədər baxımsızlıq ucbatından bir çox tarix yadigarları olan dini abidələrimizin çoxu uçub-dağılmış, bərpa olunmamışdır. Tarixlər şahidi olan belə abidələrin əhəmiyyəti, onlara diqqət və qayğı göstərilməsi, barədə professor M.Nemət yazır: "...abidələrin tarixi mənbə kimi əhəmiyyətini nəzərə alsaq, İslam dininə xas mədəni irsimizə indiyədək dəymiş ziyanın yarısından qayıdıb, xalqımızın əsrlərdən bəri ziyarətgah, pir kimi qoruyub saxladığı bu sosial-mədəni ideoloji mərkəzlərin ciddi və hərtərəfli öyrənilməsinin bu gün vacib məsələlərdən biri olduğunu görərik"[1].

Bəli, qədim, bərəkətli Qobustan övliyalar diyarı, yurdudur. Açıq demək lazımdır ki, bu qədim regionda nə qədər övliya uyduğu

[1] M.Nemət. Azərbaycanda pirlər, Bakı, 1992, səh.6

dəqiq məlum deyildir. Ona görə ki, tarixçi alimlər, arxeoloqlar təkcə Qobustan regionu deyil, bütövlükdə Azərbaycanda olan ziyarətgahlar barədə o qədər geniş və ciddi tədqiqatlar aparmamışlar. Təkcə onu demək kifayətdir ki, arxeoloqlar bu günə kimi övliyalar məkanı olan bu diyarın təxminən, 14-15 ziyarətgahı haqqında nəsə demişlər...

Vaxtilə qədim və zəngin tarixə malik olan Şirvanşahlar dövlətinin bərqərar olduğu bir çox ərazilərdə ziyarətgahlarla yanaşı, dini mərkəzlər də fəaliyyət göstərmişdi.

Elmi araşdırmalar sübut edir ki, islam dünyasının geniş yayılmış, inkişaf etmiş, elm, ədəbiyyat və mədəniyyət, ticarət mərkəzlərindən olan Şamaxı qəzasında mədrəsədə oxumuş, Şərqin Bağdad, Nəcəf, Şam şəhərindəki oxumuş, ali dini təhsil görmüş, savadlı, təmiz əqidəli, saf amallı, camaat içində xüsusi nüfuz sahibi olan, ağsaqqallıq missiyasını şərəflə yerinə yetirən insanlar çox olmuşdur. Bu insanların təşkil etdikləri dini mərkəzlər-xanəgahlar təkcə "Quran" oxumağa xidmət etməmişdi. Bu mərkəzdə alimlər elmi əsərlər, təfsillər yazır, yararlı məsləhətləri el-obaya, xalqa çatdırmaq üçün gəzərki dərvişlərdən istifadə edirdilər.

Apardığımız araşdırmalar, tədqiqatlar və eləcə də Qobustan regionunu başdan-başa səyahətimiz zamanı bu qədim diyarda **iki yüz əlliyə yaxın** xanəng, türbə, pir, ocaq, seyid qəbri və s. haqqında tarixi məlumat və eləcə də əfsanə və rəvayətlər əldə etmişik...

Xalqımıza əbədi düşmən kəsilən erməni cəlladları 1918-ci ildə törətdikləri soyqırımı zamanı Qobustan ərazisində olan tarixi memarlıq abidələrimizi, qədim qəbristanlıqları və eləcə də ziyarətgahlarımızın bir qismi vəhşicəsinə yerlə-yeksan etmiş, dağıtmış-uçurmuşlar.

* * *

Azərbaycanımızın başqa bölgələrində olduğu kimi, Qobustan ərazisində olan bu qədər abidələrə Sovetlər birliyi zamanı o qədər də cani-dildən diqqət yetirilməmiş, nəticədə bir çox ziyarətgahlar, abidələr dağılmış və ya dağıtmaq üzrədir. Rayonun ərazisində olan öz dövrünün mühüm sosial-siyasi mərkəzlərdən olan ziyarətgahların beş-altısı istisna edilərsə, qalanlarının elmi cəhətdən öyrənilməsi, tədqiq olunması diqqətdən kənarda qalmışdır. Vaxtilə əhalinin həyatında mühüm yer tutan, sosial-siyasi mərkəzlər hesab edilən ziyarət-

gahlar üzərində ciddi tədqiqatlar aparan professor M.Nemət dini abidələri əsasən dörd qrupa ayırır: *1.* Azərbaycanda şiyə imamlarının övladları ilə əlaqdar yaranmış pirlər. **2.** Qədəmgah kimi yaranmış pirlər. *3.* Şəhid məzarları ilə əlaqədar yaranmış ziyarətgahlar. *4.* Mineral su, kükürdlü palçıq, dərmanlı bitki növləri olan yerlərdə yaranmış ziyarətgahlar[1].

Qobustan regionunda bu bölgü ilə səsləşən iki yüzə yaxın ziyarətgahlar mövcuddur. *Tədqiq etdiyimiz materiallar əsasında* "**Qobustan övliyaları**" adlı kitab hazırlamışıq. Kitaba iki yüzə qədər ziyarətgah haqqında məlumat daxil etmişik. Çox əfsus ki, "Qobustan" əsərinə "Qobustan övliyaları" kitabında olan məlumatların hamısını daxil edə bilmədik. *Haqqında məlumat əldə etdiyimiz Qobustan övliyaları* barədə yazarkən mənə bir daha gün kimi aydın oldu ki, Allah təalanın kəramət bəxş etdiyi bu pak insanların – övliyaların daxili aləmi, dünyasını ifadə edə biləcək hər hansı bədii təsvir vasitələri tapmaq *çətindir, müşküldür... Təsvirlərimin acizliyini* başdan-başa özüm də hiss etdim... Allah təala isə bağışlayandı...

* * *

İslam dinində mistik cərəyanlardan olan sufilik ilk dəfə VIII əsrdə İraq və Suriyada yaranmışdır. "Tərkidünyalığı, yaşadığımız dünyanın faniliyi və ona uymamağı təbliğ edən, **şəriət, təriqət, mərifət, həqiqət** mərhələlərindən keçməklə Allah-təalaya yaxınlaşmağın yollarını təbliğ edən sufilər təriqətinin Əbu Hişam, Zunnin əl-Misri, Əbu Abdulla əl-Mühasibi, Həllac Mənsur kimi tanınmış nümayəndələri olmuşdur". IX-X yüzilliklərdə sufi təriqətləri bir çox Şərq ölkələri ilə yanaşı Azərbaycanda da yayılır və fəaliyyət göstərir. İlk əvvəl məscid, qəbristanlıq və ya dağ mağaralarında toplanan təriqət üzvləri sonralar **xanəngahlar** yaradıb orada yaşamağa, fəaliyyət göstərməyə başladılar. İlk dövrlərdə xanəngahlar yaşayış olmayan ərazidə yaradılırdısa, zaman keçdikcə bu təriqqət mərkəzləri əsasən, böyük ticarət *yolları üstündə təşkil edilməyə başladı. Elmi mənbələr xanəngahlar* haqqında geniş məlumat verir. Aydın olur ki, ticarət yollapı üstündə inşa edilən xanəngahlar böyük kompleksdən – türbə, məscid, karvansara, ovdam, bir neçə otaq, mədrəsə və s. tikililərdən ibarət olur. *Xanəngaha onun şeyxi-mürşüdü rəhbərlik edir.* Şeyxin köməkçiləri-mürüdləri olur. Şeyx öz ailəsi ilə xanəgahda onun üçün təş-

[1] M.Nemət. "Pirlərimiz - ziyarət yerlərimiz", "İnşaatçı" qəzeti, 30.10.2001

kil edilmiş otaqda yaşayır. Şeyx öldükdə o, xanəngaha yaxın bir yerdə dəfn olunur və həmin məzar vaxtaşırı ziyarət olunur. Və nəticədə xanəngahın ətrafında böyük bir qəbristanlıq yaranır. Belə xanəngahlar get-gedə həm də elmi, dini mərkəzə çevrilir. Tarixi mənbələrdə qeyd olunduğu kimi, vaxtilə Azərbaycanımızın qədim bir guşəsi olan "Şirvan ərazisində Şeyx Əbu Səid Əbül Xeyr Xorasaninin ideyalarını yayan 400-dən artıq xanəngah fəaliyyət göstərmişdir".

Şirvanda sufi təriqətinə mənsub olan ticarət yolları üstündə fəaliyyət göstərmiş dini mərkəzlərə – xanəngahlara – **"Veyis baba", "Şeyx İbrahim", "Diri Baba", "Pir Hüseyn", "Pir Mərdəkan", "Pirsaat baba"** və s. nümunə göstərmək olar.

Belə xanəgahlarda sufi dərvişləri fəaliyyət göstərərdi. Sufi təriqqətində əsas məqsəd Allaha olan eşqi tərənnüm etməkdir. İnsan ürəyində Allaha olan ülvi eşqi coşdurmaq üçün islam dünyasında belə dərvişlərin rolu böyük olmuşdur. Sufi dərvişlər el-el gəzib, dolaşar, ülvi məhəbbəti insanlar arasında təbliğ edərdilər... **Sən bu dünyada elə yaşamalısan ki, axirət dünyasında Allah dərgahına qovuşa biləsən...**

Şirvanın ürək sirdaşı olan Qobustan rayonunda da bir neçə xanəngah qalıqları mövcuddur.

* * *

Qobustan bölgəsində müqəddəs yerlər arasında pirlər çoxluq təşkil edir. Qobustan ərazisində mövcud olan ziyarətgah-pirlərin bir qismin də şiyə imamların övladları, sufi şeyxləri, "dini və dünyəvi elmlər sahəsində tanınmış alimlərin, ümumiyyətlə, ölkənin sosial-siyasi və mədəni-ideoloji həyatında böyük rol oynayan və mühüm mövqe tutan bir sıra görkəmli şəxsiyyətlər"inin uyuduğu qəbirləridir. Qobustan bölgəsində bir qismi ziyarətgahlar-**ağac pirlərdir.** Bununla yanaşı, regionda **bulaq pirlər, daş pirlər** və **dağ pirlər** də mövcuddur. Bəllidir ki, Azərbaycan mifologiyasında su, ağac-bitki, daş, dağ və s. əşyalar xüsusi yer tutur. Görkəmli mifoloqların bu məsələlərin izahı ilə bağlı istənilən qədər araşdırmaları mövcuddur. M.Seyidov öz tədqiqatında ağaca inamın bir çox ölkələrdə mövcud olması, eləcə də bu şaman tarixinin çox qədim olması barədə sovet türkoloqu akademik V.A.Qorlevskidən belə bir sitat verir: "...azərbaycanlılar qoşa ağaca, qırx ağaca, bəzən ağaclığa, ormana tapınır və həmin ağacların bir budağını belə sındırmağa heç kəs cürət etmir. Onlar sitayiş etdikləri ağaclara and içir, ildə bir dəfə isə qurban kəsirlər"[1].

[1] M.Seyidov. Azərbaycan mifik təfəkkürünün qaynaqları, Bakı, 1983, səh.92

Azərbaycan xalqının mifik insanları islamiyyətdən sonra da "...*həyat səhnəsindən zorla qovulmuş bu və ya başqa mifik baxışları* sonralar zəif halda da olsa, yaşatmış, öz izlərini saxlamışdır". Bizə belə gəlir ki, bütövlükdə Şirvan ərazisi, eləcə də onun bir guşəsi olan Qobustan torpağında olan daşa, qayaya, dağa, ağaca tapınma qədim şamanların bu günkü yaşantılarıdır.

Ümumiyyətlə, Qobustan ərazisində olan pirlər orta əsrlər zamanından xalqın sosial-siyasi həyatında xüsusi yer tutmuş, insanların paklaşmaq, saflaşmaq, pis əməllərdən uzaqlaşmaq, həm də halalı harama qatmamaq, həqiqətdən uzaqlaşmamaq, insanlar arasında dostluğ, məhəbbət kimi ülvi hissləri təmin etmişdir.

Azərbaycanımızın qədim bir diyarı olan Qobustan bölgəsinin özünəməxsus şərəfli tarixi vardır. Bu tarixin səhifələrinin bir qismi uzaq əsrlərdən yol alıb zəmanəmizə daş yaddaşlar – xanəngah, türbə, pir, ocaqlar üzərində həkk olunmuş yazılar və kitabələr də gəlib çatmışdır. Lazımınca öyrənilmədiyi üçün Qobustan torpağında min illərin o üzündən boylanan şərəfli tariximizdən söz aça bilən o qədər milli-mədəniyyət abidələrimiz var ki, gəl görəsən! Bunların gec də olsa öyrənilməsi, aşkara çıxarılması alimlərimiz-arxeoloqlarımız qarşısında duran daha çətin, daha məsuliyyətli, daha şərəfli və daha ciddi vəzifələrdir. İşin ikinci – mənəvi, borc tərəfinə gəldikdə isə ulu öndərimiz Heydər Əliyev cənablarının Bibi-Heybət məscid-ziyarətgah kompleksinin açılışı mərasimindəki nitqində dediyi bir müdrik kəlamı yada düşür: "...**İslam dininin dəyərləri ən yüksək mənəviyyətə malik olan mənəvi dəyərlərdir. Bu dəyərləri yaşatmaq, insanların bu uca, ülvi, yüksək mənəvi dəyərlər səviyyəsində tərbiyə etmək Allah-təalanın buyruğudur. Məhəmməd Peyğəmbərin (s) qoyduğu yoldur[1]...**"

## QAYIB VƏ ŞAYIB ZİYARƏTGAHI

Şamaxı-Bakı şosse yolunun təxminən, 30 kilometrliyində-Ceyrankeçməz çayı körpüsünün şimalında bir-biri ilə baş-başa vermiş qoşa dağlar Qayıb-Şayıb adlanır. Həmin dağların şimalı-qərbində Boza piri ilə Boza bulağı yaxınlığında vaxtilə şərgah – yaşayış yeri olmuşdur. Bu şərgah həmin ərazidən keçən ticarət yolunun üstündə yerləş-

[1] "Azərbaycan" qəzeti, 14 iyul 1998


Qayıb Baba piri

mişdir. Uzaq keçmişdə Azərbaycan ərazisinə hücum edən ənsarilər (və ya əşkarilər e.ə 256-miladı 226-cı il) bu şərgaha da hücum etmişlər. İki qardaş – Qayıb və Şayıbın başçılığı ilə insanlar səfərbər olmuş, düşmənə qarşı mərdliklə vuruşmuşlar. Düşmən məğlub olsa da, hər iki qardaş şəhid olmuşdur. Həmyerliləri qardaşları hörmət əlaməti olaraq eyni adlı dağların ən uca zirvəsində dəfn etmişlər. Həmin vaxtdan bə-


Şayıb Baba ziyarətkahının uzaqdan görünüşü

ri onların qəbri el-oba tərəfindən ziyarət olunur. Mənbələrdə həmin şərgahda təxminən, yeddinci əsirə kimi yaşayış olduğu da göstərilir.

Hal-hazırda Qayıb Baba və Şayıb Baba haqqında el arasında onlarla əfsanə və rəvayətlər söylənilir. Məsələn, Qayıb dağının sinəsində sürüyə oxşar daşlar indi də durur. Deyilənə görə, orada qoyun otaran bir çoban ziyarətə gələn insanları geri qaytarmağa səy göstərir. Ziyarətçilər geri qayıdan zaman arxaya baxıb görürlər ki, çoban öz sürüsü ilə birlikdə daşa dönmüşdür[1].

Eyni adlı dağın zirvəsində Qayıb babanın məzarı yerləşir. Məzardan bir qədər Şərq tərəfdə onun mücörüsünün qəbri də vardır. Xeyirxah insanlar məzardan bir az kənarda **ovdam** da tikiblər... Dağın döşündə ziyarətə gələn insanlar üçün qurbangah tikilmişdir....

# ŞEYX HƏSƏN BƏSRƏ TÜRBƏSİ

Ziyarətgah Çuxanlı kəndinin qərbində yerləşən eyni adlı qəbristanlıqdadır. Şeyx Həsən mənşə etibarı ilə ərəbdir. Vaxtilə İslam dini qayda-qanunları və əsasən də sufiliyi təbliğ etmək üçün Bəsrə şəhərindən köçüb gəlmişdir. Uzun illər Şamaxı mədrəsəsində dərs demiş, sonra köçüb Çuxanlıda yaşamış və orada dünyasını dəyişmiş, dəfn olunmuşdur. Çuxanlı kəndində hal-hazırda onun nəsli ya-



Türbənin içərisindəki məzar

şamaqdadır. Bu nəslin arasında babaların adını daşıyan bir neçə eyni – Şeyx Həsən adlı insanlar da olmuşdur.

[1] "Şayb Baba və Qayıb Baba haqqında rəvayətlər. Şirvan folklor antalogiyası. Bakı, 1996.

Şeyx Həsən Bəsrə nəslinin nümayəndələri də həmin qəbristanlığda dəfn ediliblər. Onların da məzarı hazırda ziyarət olunur. Xalq inamına görə, ziyarətgah ziyil xəstəliyinin sağalmasına kömək edir. Bir çox alimlər N.Tusinin "Əxlaqi Nasiri" əsərinə yazılan şərhdə adı çəkilən Həsən Bəsri ilə ziyarətgahda uyuyan şəxs eyniləşdirilir. "Həsən Bəsri, Həsəni Bəsri – Əbu Səid, Həsən Bəsri dövrünün görkəmli Sufi alimlərindən hesab edilmişdir. Anadan olduğu il məlum deyildir. 723-cü ildə vəfat etmişdir"[1]. Ziyarətgah üzərində türbənin XII-XIII əsrlərdə tikildiyi qeyd olunub. Yazılar nisbətən korlandığına görə türbənin üstündə olan kitabəni tam oxumaq çətindir.

## SEYİD İBRAHİM

İslam dünyasında geniş şəkildə yayılmış sufizm cərəyanının əsasən XII əsrdə başlayaraq bir çox təriqqətləri yaranmış və yayılmışdır. Öz təriqqətlərini yayan və onları "Dərviş", "Zahid", "Miskin", "Vəli", "Qərib" və s. adlarla çağıran pak vücud sahibləri öz ideyalarını (**"...Yer üzərində olan hər kəs fanidir. Ancaq əzəmət və kəramət sahibi olan rəbbinin zatı vaqidir"**) təbliğ etmək üçün xanəgahlarını da qurmağa başlamışlar... Şirvan bölgəsində orta əsrlərdə bir çox təriqətlər – əxilik, xəlvətiyyə, hürufilik, zahidlik və s. fəaliyyət göstərmişdir. Bu bölgədə sufi dünyagörüşünün – xəlvətiyyə təriqqətinin intişarında böyük irşad sahibi Seyid Yəhya – Baba Kuhi və qardaşı Pir Hüseynin (Pir Hüseyn xanəgahı Şirvanşah "...Cam-Əfridun Əbül Müzəffər Fəriburz ibn Gerşasp ibn Fərruxzad məniçöhr" tərəfində tikilmişdir) xüsusi xidmətləri olmuşdur... Odur ki, XIV-XV əsrlərdə Şirvanda fəaliyyət göstərən bu təriqqətin bir çox böyük irşad sahibləri yaşamışdır. Təriqqətinin başçılarından biri də, mənbələrdə haqqında böyük hörmət və şövq ilə danışılan **Şeyx İzzəddin Şirvani** olmuşdur. O, XIV əsrin ortalarında Şamaxı şəhərində doğulmuşdur. Burada mollaxana və mədrəsə təhsili almışdır. İzzəddin gənc yaşlarında Şamaxıdakı xəlvəti təriqqəti tərəfdarları ilə əlaqə saxlamışdır. O, təriqqətin qayda-qanunlarına kamil yiyələnmək üçün anadoluya gedir. Orada xəlvətiyyə şeyxlərindən olan Şeyx Əxi Mirəmə şagird durur, dərvişlik edir. Nəhayət, Şeyxin razılığı ilə müstəqil şəkildə fəaliyyətə başlayır. Mənbələrin göstərdiyi kimi, o, Marağada yaşamış, hətta

[1] N.Tusi. Əxlaqi-Nasiri. Bakı, 1989, səh.250.

orada məscid də tikdirmişdir. İzzəddin Şirvani təxminən, 1424-cü ildə Şamaxıda vəfat etmişdir.

Həmin dövrdə Şeyx İzzəddinin bir çox müridləri, xəlifələri olmuşdur: "**Şeyx Ömər Şirvani, Seyid Yəhya Bakuvi, Şeyx Kəmaləddin eləcə də İzzəddinin oğlu Pirzadə Məhəmməd, Şeyx Sədrəddin Xiyavi, Seyid İbrahim** və b.".

İzzəddin Şirvani vəfat etdikdən sonra onun müridi Seyid İbrahim Şamaxı şəhərindən çox da uzaq olmayan Bakı-Şamaxı karvan-ticarət yolunun üstündə yerləşən Dəmdəməki şəhərində irşad fəaliyyətini davam etdirmiş, zaviyə və məscid tikdirmişdir. Xəlvətiyyə təriqqətinin cəm olduğu bu məkanda bir neçə il sonra xanagah yaradılmış – orada məscid, mədrəsə fəaliyyət göstərişdir. Seyid İbrahimin



**Mərəzə qəsəbəsində yeni aşkar edilmiş məzar**

xəlvəti müridləri arasında, mənbələrdə adı Şeyx Məhəmməd kimi göstərilən Diri Baba da olmuşdur.

Həmin xanagah XVIII-XIX əsrlərdə də salamat imiş. Vaxtilə Şirvanın bu qədim, sirli-sehirli məkanında olmuş alim, şərqşünas, səfir və səyyahların bir çoxu – **A.Oleari, B.Pozuxin, Dorn, E.Çələbi, Deminski** və b. "Seyid İbrahim ziyarətgahını gözləri ilə görmüş, abidəki kitabədən və yerli sakinlərin yaddaşından qeydlər götürmüşlər. "... Pir Maraza kəndinə 5 mil də getdikdən sonra müqəddəs Seyid İbrahimin dəfn olunmuş məqbərəsinə yetişdik. Yerlilərin dediyinə görə, bura çox qədim yerdir".

Mərəzə qəsəbəsində həmin yadigarlardan günümüzə nişanə təkcə karvansara və mədrəsənin xarabalıqları qalmışdır.

Son vaxtlarda Mərəzənin mərkəzində – Mədəniyyət evinin arxasında, karvansaradan təxminən 15-20 metr şərqdə traktor işləyərkən qədim qəbristanlıq aşikar edilmişdir. Düzdür, hələlik arxeoloqlar aşkar edilmiş yerdə heç bir tədqiqat işləri aparmamışlar. Buna baxmayaraq keçmiş şərqşünas və səyyahların söylədikləri əsasında belə qənaətə gəlmək olar ki, Seyid İbrahim xanagahının nəzdində olan mədrəsə, məscid, karvansara, su quyusu, anbarları, və eləcə də daşınmaz əmlakları aşkar edilən qəbristanlığın yaxınlığında yerləşirmiş. Ehtimal etmək olar ki, yeni aşkar edilən ərazi ya Seyid İbrahim, ya da onun mürüdlərinin dəfn edildiyi türbə və ya qəbristanlığın bir hissəsidir...

Təbii ki, bu bizim fərziyələrimizdir. Əsl sözü isə bu sahədə ciddi arxioloji tədqiqatlar aparıldıqdan sonra demək mümkün olacaqdır...

## DİRİ BABA TÜRBƏSİ

Qobustan rayonunun mərkəzi Mərəzə qəsəbəsinin şərqində, qədim Bakı-Şamaxı ticarət yolunun üzərində, Ceyrankeçməz çayının mənbəyi və Ala daş dağının ətəyində yerləşir Diri Baba türbəsi. Şirvan memarlıq məktəbinin tacı Diri Baba! Türbə ikimərtəbəlidir. Özü də ağ əhəng daşından tikilmişdir. Türbə hal-hazırda yerdən (dərənin içindən) təxminən, 10-12 metr hündürlükdədir. Hal-hazırda türbəyə pilləkənlə çıxılır. Türbənin girəcəyində kiçik artırma vardır. Oradan üç ayaqlı pillə ilə dəhlizə daxil olursan. Dəhliz qoşa arnamentli girişdən ibarətdir. Birinci mərtəbə tağlı qapıdan və dəhlizə açılan pəncərədən ibarətdir. Birinci mərtəbədən ikinci mərtəbəyə dolanbac pilləkan qalxır.



**Ziyarətgahın içəridən görünüşü**

Çöl tərəfdən birinci mərtəbə ilə ikinci mərtəbə birləşən yerdə arnamentli kəmər vardır. İkinci mərtəbə isə tavanı naxışlarla bəzədilmiş geniş salondan ibarətdir. İkinci mərtəbədə olan kitabə pozulub. Ancaq bir-iki söz oxunur. İkinci mərtəbədən qarşı tərəfə böyük bir pəncərə açılır. Həmçinin ikinci mərtəbədən iki pilləkən hündürlükdə dağın içinə doğru bir ovuq vardır. Deyilənə görə, vaxtilə oradan qayanın arasına doğru yol varmış, Xəlvəti üzvləri – orada ibadət edilərmiş. (İndi həmin ovuqda pirin "mücovrüsü" oturur). İkinci mərtəbədən türbənin üstünə pilləkən qalxır.

XVI-XVII əsrdən günümüzə kimi bir çox səyyah, şərqşünas, alim və ziyalılar – **A.Oleari, B.Dorn, İ.Bartolemey, Pazuxin qardaşları, O.Deminski, E.Çələbi, V.Sisoyev, Y.Poxomov, S.Aşurbəyli, Q.Hüseynzadə, H.Ciddi, S.Kərimzadə, Ə.Salamzadə, Z.Bünyadov, E.Mehrəliyev, M.Nemət, Ə.Cəfərzadə, S.Paşayev, S.Qəniyev, O.Cəfərov, A.Alxasov, F.Orxan, M.Rəsulov** və b. bu möhtəşəm, indinin özündə də sal daş qayaya söykənib əzəmətli duruşu ilə insanları heyrətləndirən, tarixlər şahidi türbə haqqında tədqiqatlar aparmış və ya müxtəlif fikir, mülahizələr söyləmişlər.

Diri Baba türbəsi haqqında gəlib bizə çatan məlumatlardan biri də alman səyyahı **Ölşleger Adam Olearinin (1599-1671)** qeydləridir. Rus, türk, ərəb, fars, o cümlədən Azərbaycan dilini də yaxşı bilən bu böyük alim Səfəvilər dövlətində səfirlikdə fəaliyyət göstərmişdir. Azərbaycanın bir çox şəhərlərini gəzmiş A.Olearı Şamaxıda və onun bir çox yerlərində olmuş, xalqımızın tarixi keçmişi, adət-ənənəsinə aid xeyli məlumatlar toplamışdır. A.Olearı səfəri zamanı ziyarətgah barədə yazır: "1636-cı ilin dekabr ayının 27-də biz Şamaxıdan 30 mil aralı olan Pirmərəz kəndinə qədər daha 5 mil də getdikdən sonra Seyid İbrahim adlı bir övliyanın dəfn olunduğu məqbərəyə çatdıq. İnsanların söylədiklərinə görə, Teymurləng hər yeri talan etsə də, bu əraziyə toxunmamışdır. Bura daş hasarla örtülmüş iki həyətdən ibarətdir. Bizim səfarətin işçiləri türbəyə baxmağı arzu etsələr də, onları ön həyətə buraxmadılar. Mən isə sərdabəyə daha yaxından baxmaq ümidi ilə, axşam yenidən oraya getdim. Oradakı adamlar mənə dəyməsin deyə, qeyd dəftərimi əlimə götürdəm və divarın müxtəlif yerlərində olan ərəb yazıları götürdüm. Bu onların xoşuna gəldi. Onlar elə fikirləşdilər ki, mən bunu onların övliyalarının şərəfinə edirəm. Mən bundan cəsarətlənib qapıdan baş meydançaya keçdim. Burada bütün divarlar boyu yazılar və dualar həkk edilmişdi. Yarım sa-

ata qədər burada dayandım, heç kimə rast gəlmədim. Əlimdə kiçik payacıq vardı. Mən sonuncu qapıya yaxınlaşdım. Qorxu və vahimə içində ətrafa baxa-baxa içəri keçdim. Burada ensiz pəncərədən işıq düşən bir neçə qübbəli otaq var idi... Divarda böyük qara hərflərlə ərəb dilində yazılmışdır: "Öz işlərimi Allaha həvalə edirəm, çünki çətin ayaqda o mənə kömək edir"[1].

Böyük Türk səyyahı və coğrafiyaşünası **Evliya Çələbi (İbn Dərviş Mehmed Zülmi 1611-1683)** əlli il səyahətdə olmuşdur. Bu müddət ərzində o, dünyanın bir çox ölkələri ilə yanaşı Azərbaycanda, o cümlədən Şamaxıda da olmuşdur. O, "Səyahətnamə" ("Tarixi səyyah") adlı oncildlik əsərinin ikinci cildində Azərbaycan əyalətlərindən bəhs edir. Şamaxıda "Tağı xanın yanında yeddi gün qonaq qalır"[2].

Sonra o Bakıya gedəndə yolda "Diri Dədə" **(Diri Baba – S.Q.)** ziyarətgahında da olur. E.Çələbi gördükləri haqqında belə yazır: "Buraya avam (camaat) "Şeyx Mərəzə" deyirlər. Lakin əslində "Mərizat" deyilsə, daha düzgün olar. "Diri Dədə" adı ilə məşhurdur. İranda "Mərizat" fars dilində "bükülmüş" deməkdir. Həqiqətin irşad sahibi (olan) bu pir hündür dağın ətəyində yerləşmiş müqəddəs astanası içərisində bir küncdə səccadə üzərində oturmuşdur. **Müqəddəs gövdəsi yun parçaya bükülüb çönbəlmiş halda oturmuşdur. Üzü qibləyə başı ibadətgahın daşına söykənmiş vəziyyətdə oturur. Hal-hazırda müqəddəs bədəni pambıq kimi ağarıb, çürüməmiş, tərtəmiz və təzədir... Bu qədər illərdən bəri (onun), müqəddəs üst paltarı üzərinə bir zərrə toz qonmamışdır (seçmələr bizimdir – S.Q.).** Səadətli astanasında ziyarətə gələnlərin burnu ud və ənbər qoxusundan ətirli olur. Şeyx Səfi Ərdəbildən gəlib ziyarət etdiyi vaxt on Azərbaycan xəzinəsini sərf edərək bu səadət astanasını tikdirmişdir ki, gözəllikdə əzəmətdə bu astanaya yalnız Məşhəddəki İmam Musarza astanası bərabər ola bilər[3].

E.Çələbi məzarda dəfn olunan barədə orada Xaca Cəlahəddin adlı birisindən aşağıdakıları öyrənmişdir: "Ulu Həzrətləri Şeyx İbrahim Şirvani Həzrətlərinin azan verəni imiş. (Azanı) çox uca səslə oxurmuş"[4].

---

[1] А.Олеари. "Описания путешествие в Московию и через Московию в Персию и обратно". М., 1906, стр.470-472

[2] E.Çələbi. Səyahətnamə. Bakı, 1992, səh.64

[3] Yenə orada, səh.64-65

[4] Yenə orada, səh.65

Bundan başqa B.Dorn, Y.Poxomov kimi görkəmli şərqşünaslar da ziyarətgah haqqında müəyyən fikirlər söyləmişlər. "Diri Baba" haqqında O.A.Deminskinin də yazdıqları maraqlıdır: "Mən bir neçə dəfə "Diri Baba" türbəsində olmuşam. Axırıncı dəfə ora 1885-ci ilin avqust ayının 5-də getmişəm... Yarğanın dibində, məscidin yaxınlığında bir neçə il **bundan əvvəl daşla hörülmüş bir hovuz görmüşdüm. Həmin yarğandan çıxan bulaq suları həmin hovuzda toplanırmış. Bu dəfə türbəni ziyarət edərkən həmin hovuzu tapa bilmədim. Görünür hovuz yarğanın divarlarından uçan qayanın altında qalmışdır (seçmələr bizimdir – S.Q)...** İkinci otaqda divarda hicri 1259-cu ildə İran şahının saray şairi əslən Şamaxılı Mirzə Nəsrulla tərəfindən fars dilində yazılmış belə bir şeri var: **"Mən bu pirin iqamətgahına sidqi-qəlbdə gəldim və kədərlə ona baxaraq gözlərimdən yaş axıtdım. (Küləyin iradəsinə tabe olan) sərv ağacı kimi Allah məhəbbəti qarşısında titrəyən bu tənha qərib daşlı-qayalı bu dağlara görəsən nə üçün gəlib düşüb?"[1] (seçmələr bizimdi – S.Q.).**

Bir çox mənbələrdə qeyd olunur ki, "Diri Baba" türbəsində vaxtilə müxtəlif yazılar, kitabələr olmuşdur. Bu dəyərli kitabələr zamanın keşməkeşlərinə tab gətirməmiş məhv olmuş və ya talan edilmişdir.

Görkəmli alim M.Nemət uzun zaman axtarışlardan sonra 1963-cü ildə şərqşünas alim, vaxtilə "Diri Baba" türbəsində tədqiqat aparmış, B.Dornun şəxsi fondunda apardığı "əlavə axtarışlar zamanı "Diri Baba" türbəsinin kitabəsindən əllə çəkilmiş, kiçildilmiş bir surət aşkar edə" bilmişdir. Sonra müəllif kitabəni bərpa edib oxuya bilmişdir: **"Ən böyük sultan, xalqların ixtiyar sahibi, sultan oğlu sultan cəlal-əd-dünya vəd-din (dünyanın və dinin şöhrəti) Şeyx İbrahim Xanın – Allah onun dövlət və hökmdarlığını əbədiləşdirən və hər iki dünyanı onun dəlili ilə aydınlaşdırsan – hakimiyyəti günlərində səkkiz yüz beşinci (1402-03) ilin aylarında. Onu (kitabəni) Dərviş yazdı"[2].**

Günümüzə gəlib çatan yazılardan biri də memarın adının yazıldığı medalyondur. Həmin türbənin 2-ci mərtəbəsinin tavanının medalyonda isə memarın ancaq "atasının adı – ustad Hacı oğlu" sözləri yazılmışdır"[3].

---

[1] O.A.Deminski. Göstərilən əsəri, səh.30

[2] M.Nemət. Azərbaycanda pirlər, Bakı, 1992, səh.45

[3] Yenə orada, səh.46

Xalq yazıçısı Ə.Cəfərzadə "Vətənə qayıt" əsərində (yazıçı təxəyyülü olsa da) Diri Babanı Şirvanda sayılıb-seçilən müridləri olan sufi bir təriqət başçısı kimi təqdim edir. Əsərdən aydın olur ki, Diri Babanın şagirdlərindən olan Seyfulla ağa hörmət əlaməti olaraq ustadının qəbri üstündə həmin türbəni tikdirmişdir.

Şirvan torpağını ələ keçirməyə cəhd edən bir çox hökmdarlar – Teymurləng, Şah İsmayıl Xətai və başqaları bu müqəddəs türbəyə toxunmadıqları kimi, Diri Babanı ziyarət etmiş və türbənin bərpa olunmasına xüsusi tapşırıq vermiş və vəsait ayırmışlar.

Ümumiyyətlə, son olaraq onu qeyd etmək lazımdır ki, heç bir tədqiqatçı məzarda dəfn olanın kimliyini dəqiqləşdirə bilməmişdir. Sadəcə onu müəyyən etmişlər ki, **Diri Baba şəxsiyyət kimi XIII əsrdə yaşamış, türbə isə XIV əsrin əvvəlində inşa edilmişdir.**

Amma türbədə dəfn olunan şəxsin kimliyi barədə bir neçə **fərziyə - mülahizə və rəvayətlər mövcuddur.** Əvvəlki fəsildə qeyd etdiyimiz kimi, Şirvan ərazisinə köçürülən ilk ərəblərin məskunlaşdığı ərazi indiki Ərəbqədim kəndidir. O da məlumdur ki, Məhəmməd (s) peyğənbərin əmisi, islam dininin yayılması uğrunda mübarizə aparanlardan biri də Həmzə Şühada olmuşdur. Onun qardaşı Əbu Ləhəb islam dinini qəbul etməmişdir. Onun nəvəsi İbn Əmr Hatəm isə öz əsabələri ilə bu əraziyə gəlmiş islam dinini yaymış və məskunlaşmışlar. (İndiki Ərəbqədim kəndində olan qədim təbəhlər – Əmirli (İbn-Əmir); Şeyx Bədəlli, Nəsirli həmin nəsildəndir). **Fərziyəyə görə,** Diri Baba türbəsində dəfn olan şəxs, Məhəmməd (s.) peyğəmbərin doğmalarından olan və burda vəfat edən – Hatəmdir.

Məlumdur ki, "Diri Baba" türbəsi sıldırım bir daş qayanın sinəsində yerləşir. Türbədə qəbir yoxdur. Amma ikinci mərtəbədə salondan bir qədər hündürdə dağın arası oyulmuşdur. Oradan dağın içinə yol olduğu güman edilir. Apardığımız müşahidələr nəticəsində yəqin etmişik ki, türbənin həm sağ, həm də sol hissəsindən yerdən 3-5 metr yüksəklikdə böyük **mağaralar** mövcuddur. Yerli sakinlər həmin mağaralarda mömin insanların dəfn olunduqlarını da söyləyirlər. Yerli sakinlər həmin mağaranın birini **"Nənə"**, o birini isə **"Baba"** adlandırırlar. Bu mağaralar haqqında O.A.Deminski vaxtilə yazırdı: "Diri Baba" türbəsinin yaxınlığında, həmin dağda çoxlu mağara və otaqlar vardır. Burada zəvvarların gətirdikləri inayələr yerləşdirilir. **Bu binaların bəziləri elə hündürdə oyulmuşdur ki, onlara nərdivansız qalxmaq mümkün deyildir**[1] **(seçmələr bizimdir – S.Q.).**

[1] O.A.Deminski. Göstərilən əsəri, səh.28



Diri Baba türbəsi

Bir çox müəlliflər mənbələr və eləcədə el arasında söylənən əfsanə və ya rəvayətlər əsasında Diri Babanın adının **Şeyx Məhəmməd, Babaşah, Hüseynəli ibn Abdullah Şirvani** və ya **Ələmşah** olduğunu da qeyd etmişlər.

600 ildən artıq yaşı olan ziyarətgah haqqında çox yazılıb, bir neçə müəlliflər (əsasən ötən əsrin 50-ci illərinə kimi) istisna olmaqla, cəsarətlə demək olar ki, 60-cı illərdən sonra isə tədqiqat aparanlar, əsasən A.Olearı, Pazuxin, E.Çələbi, Deminski və b. söylədiklərini təkrar etmiş (türbə barədə) o qədər də yeni fikir söyləyə bilməmişlər. (Professor M.Nemət isə başqalarından fərqli olaraq abidənin şərqşünas Dorunun arxivindəki kitabəsini ilk dəfə oxuyub, tərcüməsini oxuculara təqdim etmiş, Ə.Salamzadə isə memarın adını oxumuşdur). Diri Baba ziyarətgahının vaxtilə karvan yolunun üstündə yerləşməsindən (bir də ətrafda olan tikili qalıqları, qəbristanlıq, eləcə də mənbələrin qeyd etdiyi ovdanı, Musa bulağı, xurma bağı, yaşıllıq, məscid, karvansara və s.) belə qənaətə gəlmək olur ki, bu ərazidə böyük möhtəşəm xanəngah yerləşibmiş. Odur ki, yeni söz o zaman deyilə bilər ki, arxeoloqlar təkcə "Diri Baba" türbəsində deyil, onun yerləşdiyi qayada, ziyarətgaha yaxın olan qəbristanlıqda ciddi tədqiqatlar aparsınlar... Ötən əsrin 1956, 1961, 1980, 1990-cı illərində türbədə cari xarakterli olsa da, abadlıq və bərpa işləri aparılmışdır. İnsaf xatirinə demək lazımdır ki, o zaman həmin işlər görülməsəydi, Diri Babamız daha bərbad vəziyyətdə olardı... **Əzəmət, vüqar, hünər, paklıq, təmizlik rəmzi kimi sal daş qayaya söykənmiş, əsrlər boyu Şirvana hücum etmiş hökmdarların belə baş endirdiyi, bac-xərac verib getdi, zəvvarlarının ardı-arası kəsilməyən, 600 il yol gəlib günümüzə sağ-salamat çatmış Diri Babaya ixtiyar yaşında qayğı göstərmək, mənəvi dəyərlərimizin simvolu kimi gələcək nəsillərə təqdim etmək, çatdırmaq üçün bu ziyarətgaha dövlət tərəfindən qayğı göstərilməli – bütün yaxın ərazisi ilə birlikdə cənnət misallı abadlaşdırılmalıdır... Özü də Diri Baba adına layiq və bir az da tələsik...**

Qobustan şairləri çox söz qoşublar "Diri Baba"nın şəninə. Bizə belə gəlir ki, qəlblərdə olan istək, səcdə, məhəbbət və ehtiramdan doğan belə sözlər dünya durduqca deyiləcək "Diri Baba"nın adına...

## DİRİ BABA

*Əsrlərdən bu gün bizə,*
*Əmanətdir Diri baba.*
*Səni görmək bizə ülvi,*
*Səadətdir, Diri baba.*

*Başdan-başa möcüzə, sirr,*
*İnsan oğlu nəyə qadir?*
*Şirvanda yox, Şərqdə nadir,*
*İmarətdir, Diri baba.*

*İgidlərin doğrandı çox,*
*Bircə yolu demədi, "ox",*
*Daş qayada tikili yox -*
*Dəyanətdir Diri baba.*

*Rəhmət olar hər kəs qursa,*
*Lənətlənər kim uçursa,*
*Bir daşına kim əl vursa,*
*Xəyanətdir, Diri baba.*

*Nələr yoxdur Qobustanda,*
*Kitabə var hər yastanda,*
*Səndən yazmaq bir dastan da,*
*Cəsarətdir, Diri baba.*

## RZAXAN DÜŞMƏLİ

Şirvan ərazisində islam dininin yayınması, təbliğində Məhəmməd (s.ə.s.) peyğəmbərin əmisi Həzrəti Həmzə Şühədanın nəsilindən olan insanların rolu əvəzsizdir. Qobustan bölgəsinin Ərəbqədim kəndində məskunlaşmış bu nəslin bütün Şirvanın ehtiram göstərdiyi nümayəndələrindən biri də böyük irşad sahibi Rzaxan Düşməlidir. Böyük dini bilik sahibi olmuş Rzaxan Düşməli, təxminən XV-XVI əsrdə yaşamış, mədrəsə təhsili almış, dövrünün hörmət-izzət, şan-şöhrət sahibi olmuşdur. Şirvan şahı ilə xüsusi yaxınlığı olmuşdur. Hazırda bununla bağlı el arasından beş rəvayyət əldə etmişik. O, Qobustanın Böyük Kaftaran və Kiçik Kaftaran yataqlarına yaxın olan Hökür və Qulu qışlaqlarında saxlatdırdığı mal-dövlətlərindən xeyirxah işlərə sərf etməyi şərəf işi bilmiş. Onun ünvanına gələnlər heç vaxt boş qayıtmamış. İmkansız, əlsiz-ayaqsızlara həmişə əl tutmuşdur. Evi həmişə qonaq-qaralı olmuşdur. Xalq arasında deyilənlərdən

bəlli olur ki, Rzaxanın bu xasiyyətinə görə ona – Düşməli ləqəbini vermişlər. Yəni, evi-ünvanı zəvvarlar, yolçuların düşdüyü-qaldığı yer.

Deyilənlərə görə, Şirvana yağı hücum edəndə Şirvanşah həm də Rzaxan Düşməliyə müraciət edərdi. El arasında böyük nüfuzu olduğuna görə Rzaxan Düşməli camaatdan ordu üçün azuqə, sursat toplanmasına rəhbərlik edərdi. O, Sofu Həmid baba qəbristanlığında dəfn olunmuşdur.

## HÜMMÜ BABA

Qədim Şıxlar kəndində XVII-XVIII əsrlərdə Sufi təriqətinin təbliğatçılarından imiş. Əsasən Sofu Həmid Babanın mürüdlərindən biri olmuşdur. Hümmü Babanın yaşadığı Şıxlar kəndinin adının izahı da bu ərazidə dini təbliğ edən, insanlar-şeyxlərin çox olduğunu açıqlayır. Belə bir mühitdə böyüyən Hümmü Baba Şirvan ərazisində ətrafına sufi tərəfdarları toplamış, uzun illər irşad fəaliyyəti göstərmiş, böyük kəramət sahibi Sofu Həmid Babanın fikirlərini, ideyalarını yaşadanlardan olmuşdur. Şıxlar kəndinin qocaman sakinlərinin yaddaşında Hümmü Babanın əməlləri ilə bağlı neçə-neçə əhvalatlar bu gün də yaşamaqdadır. Deyilənə görə, onun övladı olmurmuş, Ustadının adına qurban götürür. Allah təala Sofu Həmid Baba hörmətinə ona bir oğul qıyır...

## ŞEYX ƏYYUB BABA

Şirvan ərazisində el-obanın uzun əsrlər boyu səcdə qıldığı ziyarətgahlardan biri də Şeyx Əyyub baba türbəsidir. Bu şəxs haqqında XIX əsrdən başlayaraq bir çox alim, ziyalılar bəhs etmişlər. A.Belinski, O.A.Deminski, O.F.Nemanzadə, M.Mahmudbəyov, M.Nemətova, Ə.Cəfərzadə, A.Rəcəbov, S.Qəniyev, A.Alxasov, Q.Yunisoğlu və başqaları müəyyən kitab və məqalələr yazmışlar. Məsələn, son dövrdə filologiya elmləri doktoru Əhməd Cəfərzadə Məsud əl-Sahiri, Nizaməddin Misiri, Nəzihə Araz, Həsən Yavaş, Bürhan Kılıq kimi qüdrətli din alimlərinin əsərlərindən bəhrələnərək özünün **"Həzrət Baba və onun kəramət verdiyi Şeyx Əyyub baba"** adlı maraqlı kitabında Şeyx Əyyub Babanın tərcümeyi-halı, soyadı, dini fəaliyyəti, möcüzatları barədə ətraflı bəhs etmişdir.

Tədqiqatçılar müəyyən etmişlər ki, Şeyx Əyyub Babanın nəs-

li təxminən, 644-cü ildə Səudiyyə Ərəbistanının Məkkə şəhərindən Hatəm Haşiminin başçılığı ilə gəlmiş nəslindəndir. Gürcüstan respublikası EA-nın arxivindən götürülmüş məlumatlarda və Azərbaycanda vaxtilə geniş tədqiqatlar aparan Gürcüstanda yaşamış rus tarixçisi Belinskinin "24 il Şirvanda" adlı kitabında Şeyx Əyyub baba haqqında geniş məlumatlar dərc edilmiş, Şeyx Əyyub babanın ulu babasının (11-ci babası) Həmzə Şühadinin olduğu dəqiqləşdirilmişdir. Elmi mənbələr əsasında və qohumlarının yaddaşından Şeyx Əyyub babanın nəsil şəcərəsi aşağıdakı kimi müəyyənləşdirilmişdir. **Şeyx Əyyub Bayram oğlu, Bayram-Alıxan oğlu, Alıxan-İbrahim oğlu, İbrahim-Alıxan oğlu, Alıxan-Məhəmməd oğlu, Məhəmməd-Məlikcəb-**



Şeyx Əyyub Baba türbəsi

**rayıl oğlu, Məlikcəbrayıl-Rzaxandüşmə oğlu, Rzaxandüşmə-Alıxan oğlu, Alıxan-Abdulla oğlu, Abdulla-Həmzə Şühadə oğludur.**

Şeyx Əyyub Baba Bayram oğlu 1731-ci ildə[1] Şirvan qəzasının Ərəbqədim obasında doğulmuşdur. Anasının adı Dürnisə olmuşdur. Şeyx Əyyub Baba təxminən, 20-21 yaşlarında Fatimə adlı bir qızla evlənmişdir. Onların **Həmzə, Kərəm, Həbib, Məhəmməd** adlı dörd oğlu və **Əminə, Xədicə** adlı qızları olmuşdur. Onun oğlanlarının üçü "körpə və ya yeniyetmə ikən vəfat edib. Özündən sonraya qədər yalnız Məhəmməd və qızları yaşayıb".

Molla Məhəmmədin oğlu Əhməd Paşa böyük nüfuz sahibi olduğu

[1] Bəzi müəlliflərin Şeyxin 1740-cı ildə anadan olduğunu göstərirlər

üçün hökümətin təqibinə məruz qalmış və 1888-ci ildə həbs edilmişdir. O, Rusiya həbsxanalarının birində, təxminən, 1896-cı ildə dünyasını dəyişmişdir.



Şeyx Molla Məhəmməd türbəsi

"1860-1867-ci illərdə çar hökümətinin təşkil etdiyi komissiya yüzlərlə adamı dindirmiş və **Şeyx Əyyub Babanı şəxsən görmüş 80-90 yaşlı 14 nəfərin dediyinə əsasən yazmışdı: "Şeyx Əyyub Baba ucaboy, zərif bədənli bir adam idi. Üzünün rəngi ağ, yanaqları qırmızı, qaş-gözü qara idi, dişləri ağ sədəf kimi idi və biri də düşməmişdi; üzü ay kimi yumru və parlaq idi. Hər kimi görsəydi gülümsünərdi. Heç vaxt qəh-qəhə çəkib gülməzdi. Hamı ilə şirin danışar, mehriban dolanırdı**[1] **(seçmələr bizimdir – S.Q.)..."**

Şeyx Əyyub Baba 1797-ci ildə vəfat etmiş və Acıdərə kəndi yaxınlığında dəfn edilmişdir.

Şeyx Əyyub Babaya kəramət verilməsi barədə Ə.Cəfərzadənin tədqiqatında oxuyuruq:

– Şıxeyib baba 26 yaşında ikən **Əhməd adlı bir nəfərlə birlikdə Qobustanda qoyun otarırmış. Bir dəfə nahar vaxtı onlar qoyun otararkən görürlər ki, üç atlı gəlir: atlıların biri ağ, biri kəhər, biri də dəmiri göy idi. Şıxeyib və Əhməd irəli yerib atlılarla görüşür və onları nahar etməyə dəvət edirlər. Atlılar atdan düşməmiş deyilir: Sənin süründə bir ağ kərə, dizləri və gözləri qara qoç var, onu kəssən, sizə qonaq olarıq (seçmələr bizimdir - S.Q.).**

[1] Ə.Cəfərzadə. Həzrət Baba və onun kəramət verdiyi Şeyx Əyyub Baba, Bakı, 1998, səh.29

Şıxeyib babanın o qoçdan çox xoşu gəlirmiş. Buna baxmayaraq qoçu tutub gətirir. Atlılar yerə düşüb otururlar.

Əhməd qoçu kəsir. Qonaqlar onun qanını bir qaba tökürlər. Əti bənd-bənd doğrayıb sacın üstündə bişirib yeyirlər. Sonra qoçun baş-ayağını, sümüklərini dərisinin içinə yığır, qanını da ora tökürlər. Az sonra sağollaşıb gedirlər. Şıxeyib baba çox narahat olur ki, qoçun sahibi nə deyəcək. Bikef halda sürüyə girəndə görür ki, indicə kəsilib-yeyilən qoç sürünün içindədir. O, bunu görəndə çığıra-çığıra atlıların dalınca yürüyür, Əhməd də bunun ardınca götürülür.



Şeyx Əhməd Paşa

Şıxeyib baba atlılardan ikisinə çatır, bunlardan biri Xıdır Zində, o biri isə Üveys-əl Qərani imiş. Onlar deyir ki, irəliyə get, sənə gərək olan şəxs dəmiri göy atın üstündə gedən Həzrət Babadır.

Şıxeyib baba qaça-qaça gəlib Həzrət Babaya çatır və ondan pay (murad) istəyir. Həzrət Baba qırmancla 3 dəfə Şıxeyibin kürəyinə vurur. Sonra Veysəlqara və Xıdır Zində də gəlib çatır. Şıxeyibə xeyir-dua verirlər. Həzrət Baba əmmaməsini Şıxeyibin başına qoyur. Veysəlqara qurşağını onun belinə bağlayır. Xıdır Zində də əsasını ona verir. Az sonra hər üçü qeyb olur. Həzrət Babanın səsi gəlir ki, durma, gəl dağa, axtar, məni tap.

Şıxeyib baba üç günə dağı çıxır, altmış gün ac-susuz gəzir, nəhayət, göydən səs gəlir ki, Həzrət Baba buradadır, sən get insanlara xidmət elə. Bundan sonra Şıxeyib baba kəramət sahibi olur, bütün Şirvan mahalında məşhurlaşır"[1].

## ŞEYX ƏYYUB BABANIN VƏSİYYƏTLƏRİNDƏN

*1. İslam dininin, şəriətin qanunlarını öyrənin və onlara ciddi əməl edin.*

*2.Namaz qılın, oruc tutun, sədəqə verin, savab əmməllər edin.*

[1] Ə.Cəfərzadə. Göstərilən əsəri, səh.30-31

*3.Ata-ananıza, bütün qocalara, alimlərə ehtiram göstərin, onların qulu olun.*
*4.Nəfsinizə ağa olun. Çünki insanı cəhənnəm yoluna sürükləyən nəfəsdir.*
*5.Paxıllıq bir yanar oddur. Ürəyinizə düşsə, rahat yaşaya bilməyəcəksiniz. Paxılın yeri cəhənnəmdir.*
*6.Övladınıza dini-şəriətin əsasını namaz və oruc, dəstəmaz və qüsul məsələlərini başa salın.*
*7.Allah bəndəsinə rəhm edin: istər kəbr olsun, istər yəhudi, istər xaçı ərəsi olsun, istər nəsrani...*[1]

## SOFU NOVRUZ BABA TÜRBƏSİ

Sofu Novruz Baba, təxminən, XVIII əsrin sonu, XIX əsrin ortalarında Ərəbqədim kəndində yaşayıb, türbə isə, XIX əsrin II yarısında inşa edilib.

Ziyarətgah Qobustan regionunun Ərəbqədim kəndindən 4-5 km



aralı, Gicəki dağının ətəyində yerləşir. Burada eyni adlı qədim qəbristanlıq yerləşir. Sofu Novruzun qəbri dördbucaqlı məqbərə içində yerləşir. Qəbristanlığın arasından torpaq yol keçir. Mənbələrdə deyildiyi kimi, Umbakıdan gələn torpaq yolun sol tərəfində olan qəbirlər

[1] Ə.Cəfərzadə. Göstərilən əsəri, səh.36-39

birlər daha qədimdir. Maraqlıdır ki, yolun sol tərəfində yerləşən bütün qədim qəbirlərin baş daşlarında müxtəlif formalı **işarə və ya damğalar vardır.** Onu da qeyd edək ki, Ərəbqədim kəndi ərazisində (eləcə də Pirsaat çayına yaxın yerdə) olan qəbristanlıqlarda damğalı qəbirlər çoxdur. "Bizə görə, Sofu Novruz qəbristanlığındakı işarə və damğalar Qobustan zonasındakı yazı mədəniyyətindən qabaqkı dövrün məhsuludur və orta əsrlərin ilk çağlarına, bəlkə də daha qədim zamanlara aiddir". Əfsus ki, arxeoloqlar hələlik bu işarələri "oxuya" bilməmişlər. Eyni işarəli qəbirlər Pirsaat çayı ərazisində yerləşən qəbristanlığda da mövcuddur.

Sofu Novruz baba ziyarətgahının şimalında qədim hörgü qalıqları da mövcuddur. Bütün bunlar sübut edir ki, tarixin hansı zaman kəsiyindəsəb burada qədim yaşayış yeri də olmuşdur.

## AĞ ABDAL PİRİ

Bu ziyarətgah Nabur kəndindən 5-6 km şimal-şərqdə, Ağ dağın arxasında, Ağdərə kəndinin aşağısında yerləşir. Türbə hicri 1150-ci ildə (miladi 1737-ci il) inşa edilmişdir. Ziyarətgahın adı iki – "ağ" və "Abdal" sözlərindən ibarətdir.

Abdal adında Azərbaycanın bir çox – Laçın, Tovuz, Ağdaş, Oğuz və s. bölgələrində toponimlər mövcuddur. Mənbələrin qeyd etdiyi kimi, Abdal qədim türk dilli tayfalardan birinin adıdır. Bu tayfanın mövcudluğu barədə A.A.Bakıxanov da vaxtilə özünün "Gülüstani-İrəm" əsərində məlumat vermişdir. Bizə belə gəlir ki, ziyarətgahda uyuyan da həmin tayfaya məxsus şəxs olmuşdur. Birləşmənin birinci tərəfindəki ağ sözü (təyini) isə müəyyən fərqləndirmə nişanəsidir.

Deyilənə görə, bu ziyarətgah yel xəstəliyinə şəfa verir. Ona görə də yerli camaat bu pirə "Yel piri" də deyirlər. Bu ziyarətgaha əsasən, keçi qurbanı gətirirlər. *Uzun illər Ağ Abdalın nəvə-nəticələri* Qarabulaq kəndində babalarının yolunu davam etdirmişlər.

**Haşiyə:** *Ağ Abdalın nəvəsi Abdullanın ötən əsrdə başına gəl*miş bir əhvalatı yaşlılar indi də həyəcanla söyləyirlər. Abdulla kişi öz oğluna toy etməyi qərarlaşdırır. Ürəyindən keçir ki, toyu gərək Aşıq Şakir etsin. Bu da o zamanlar idi ki, Aşıq Şakirin adı-sanı bütün Azərbaycanı başına götürmüşdür. Toy mövsümü vaxtı onun bir günü də boş olmazdı. Abdulla Kürdəmirə gəlir. Aşıq Şakiri axtarıb tapır. Ha-

radan gəldiyini və istəyini bildirir. Aşıq Şakir kişiyə "yox" cavabı verir. Abdulla nə qədər edirsə, Aşıq Şakiri razı sala bilmir. Gedərkən Aşıq Şakirə deyir:

– Ustad, mənim üst-başımı unlu olmasına baxma. Gərək arzumu yerinə yetirəydin. Eybi yoxdur, amma arxayınam ki, sən özün öz ayağınla toya gələcəksən. Elə həmin axşam Aşıq Şakirin qıçı ağrımağa başlayır. Səhəri gün isə yerindən dura bilmir. Dünənki kişinin dediyi yadına düşür. Fikirləşir ki, burada nəsə bir sirr var. Axı ağrılar o kişi gedəndən sonra baş vermişdir. Telefonla Mərəzə qəsəbəsində olan dostu Baləmi Səftərova zəng vurub, əhvalatı danışır. Baləmi Abdullanın hansı nəsildən olduğunu Şakirə söyləyir. Bir də deyir ki, sabah həmin kişinin oğlunun toyudur. Mütləq gəl, toyu elə. Həm də onların ocağını ziyarət edən kimi ağrılar keçəcək. Aşıq Şakir öz dəstəsi ilə Mərəzəyə gəlir. Dostu Baləmi ilə birlikdə səhəri günü Abdulla kişinin məclisinə – Qarabulağa gəlirlər. Maşın qapıya çatanda əvvəl Baləmi düşür. Abdulla kişi ilə görüşür. Sonra Aşıq Şakir bir təhər maşından enir:

– Abdulla kişi, keç günahımdan. Sən haqlısanmış, öz ayağımla gəlmişəm məclisinə. Abdulla kişi onunla öpüşüb-görüşür. Elə aşığın ayaqlarının ağrısı da oradaca keçir. Aşıq Şakir bu kənddə iki gün-iki gecə elə toy keçirir ki, gəl görəsən. Həmin vaxtdan Abdulla ilə Aşıq Şakir möhkəm dost olurlar.

## QƏRBİ PİRİ

Ziyarətgah Nabur kəndinin yaxınlığında yerləşir. Bir rəvayətə görə, Pir Abdullakərim babanın qardaşı orada dəfn olunub. Sonra ağac göyərib, Qərbi (cır armud ağacı) neçə yüz illərdir ki, çox da su olmayan bir yerdə yaşayır, qurumur. Onun nəziri sudur. Kim niyyət edirsə, paltarından bir şırım ona bağlayır. Arzusu çin olanlar isə aparıb ağacın dibinə su tökürlər.

El arasında bu Qərbi pirinə **Pirmərdəkan** da deyilir.

## BOZA PİRİ

Bu pir Ərəbşahverdi ərazisində Xəlfə bəy bağı deyilən yerə yaxın, Şor bulağın şərqindəki qədim-eyni adlı qəbristanlıqda yerləşir. Boza pirinin ətrafı yerli daşla tutulmuşdur. Qəbristanlığa yaxın ərazi-

də yaşayış yeri olduğu aydınca görünür. Qəbristanlığdakı qəbirlərin baş daşının çoxunun hündürlüyü iki metr və ya daha artıqdır. Sinə daşları-sanduqələrin çoxusunun hündürlüyü 70-90 sm-dir. Onların "ekranlarında" kitabələrlə yanaşı, müxtəlif rəmzlər, naxışlar da mövcuddur. Nisbətən yaxın zamanların qəbir daşlarının üzərində olan tarixlərin bir çoxu aydınca oxunur – 1200-1300-cü illər (hicri). Amma qəbristanlığın Qayıblar Babaya baxan hissəsində yerə batmış, torpağla eyni səviyyədə olan məzarlar da vardır. Bu ərazi vaxtilə ticarət yaluna yaxın olmuşdur. Həmin ərazidə olan Sövdagar bulağı, Sövdagar



Boza piri

yeri, eləcə də uzunluğu təxminən, 10-12 metr, eni beş metrə yaxın, hündürlüyü 3 metrdən artıq olan və böyük dərə keçidini birləşdirən Şəmsəddin körpüsü bu fikri tamamilə təsdiqləyir...

"Boza" piri indi də yaxın ərazinin sakinləri tərəfindən ziyarət olunur.

## SARI PİR

Sarı pir Nabur kəndinin qərbində, kənddən təxminən, bir kilometr aralıda olan qəbirstanda yerləşir. Üstündə daş kitabə vardır. Sarılıq xəstəliyinə tutulanlar bu piri ziyarətlə şəfa tapırlar.

**Aşıq Xanışın dediklərindən:** "Bu ziyarətgahda uyuyan mənim yeddinci babamdır. XVII əsrin sonu XVIII əsrin əvvəllərində yaşa-

mışdır. Sarı pirdən günümüzə qədər nəsil şəğcərəmiz belədir: **Sarı pir, Molla Davud, Molla Xocamməd, Molla Məhəmməd, Məhəmməd oğlu Zahid, Zahid oğlu Xəlgüllah, Aşıq Xanış Xəlgullah** oğlu. Göründüyü kimi, babalarımın dördü dini bilik sahibi – el mollası olmuşlar". Sarı pir bu gün də insanların ümid yeri-ziyarətgahıdır.

## PİR ABDULKƏRİM BABA

Nabur kəndinin şimalında, kənddən 3-4 km aralıqda Xilə dağının döşündə yerləşir. Pirin üstü künbəz şəklində hörülmüşdür. İçəridə kitabəli baş daşı olan bir məzar var. Sərdabənin üzərində hicri 1267 (1851) tarix göstərilir. Pir səfalı bir yerdə yerləşir. Yanında asma bulaq var. **"Sarı bulaq"** adlanır. Pirdən bir qədər yuxarıda – şimalda **"keçid daşı"** deyilən – bir böyük ortası deşik dik daş var. Pirə ziyarətə gələnlər həmin daşın deşiyindən keçməlidirlər. Həmin deşikdən ancaq əməlisaleh insanlar keçə bilirlər. Deyilənə görə, ziyarətgahda uyuyan şəxs XVIII əsrdə yaşamışdır.



**Pir Abdulkərim Baba**

**Deyilənlərdən:** Pir Abdulkərim xilə elatındadır. Nabur kəndindən Şeyx Eyyub Babanın müridi olan Xəlfə İsmayıl "Qoşabulaq" adlı bir yerdə işləyirmiş. Bir də görür ki, Xilə qəbristanlığından bir şey yana-yana qalxıb gedib, indi Pir Abdulkərim olan yerə düşür və torpağa batır. Xəlfə İsmayıl həmin yerə bir ağac basdırır və papağını ağacın başına qoyub, tez Şeyx Eyyub babanın dalınca gedir. Əhvalatı ol-

duğu kimi Şeyxə danışır. Şeyx Eyyub baba sonralar orada künbəz tikdirir. Həmin günbəz bir müddət sonra uçulub-tökülür. Sonralar günməzi naburlu "Çöpçü Gülzar" xanım usta Əlövsət və Şirzada bərpa etdirir.

Pirin ilk mücövlərindən biri də Xəlfə İsmayılın nəvəsi, Xəlfə Novruzun qızı Gülnüsə xanım olmuşdur. Deyilənlərə görə, Pir Abdulkərim türbəsində qoruyucu ilanlar da varmış. Onlar heç vaxt ziyarətə gələnlərə toxunmazdı. Bəzən Gülnisə xanım pirdə olan ilanları balağına yığar, həyətə çıxarıb "dağılın gedin", – deyən kimi onlar uzaqlaşarlarmış.

Bu müqəddəs ocaq əsəb-psixi xəstəliyə düçar olanlara şəfa verir. Ustad Aşıq Xanışın ziyarətgahın adına bağladığı şer maraqlıdır.

*Yurdumu, yerimi saya salmayan,*
*Gəl Pir Abdulkərimə hikmətə bir bax.*
*Onun sayəsində nə qədər xəstə,*
*Şəfa tapıb gedib, qüdrətə bir bax.*

*Darda naçarlara dayaq odur, o,*
*Allahın yanında oyaq odur, o,*
*Elmdə müqəddəs ocaq odur, o,*
*Məhəmməd naxışlı hümmətə bir bax.*

*Şıx Eyyub həmrahi, fikir daşıydı,*
*Qıfıllı sirlərə dəmə naşıydı,*
*Qobustanda övliyalar başıydı,*
*Xanış, əzəmətə, hörmətə bir bax.*

## KEÇİD DAŞI (DEŞİK DAŞ)

Nabur kəndinin şimalında Pir Abdulkərim baba türbəsindən yuxarıda, Keçid daşı vardır. Daşın keçilən yeri çox da gen deyildir. Əməli saleh olan insanlar – nazik və ya kök olmasına baxmayaraq, həmin deşikdən rahatlıqla keçə bilirlər. Ürəyi xain, paxıl, əməlləri düz olmayan adam nə qədər arıq olsalar belə həmin daşın deşiyindən keçə bilmirlər.

Daşın üzərində heç bir işarə və ya yazı yoxdur.

# SOFU XANMƏMMƏD BABA



Ziyarətgah Qobustan rayonunun Qurbançı kəndindən təxminən, 7-8 km aralı, Çay Qurbançı ərazisində Qozlu çayın yaxınlığındadır. Tədqiqat zamanı müəyyən etdik ki, Sofu Xanməmmədin ulu babaları vaxtilə Ərəbistandan gəlmişdir. Sofu Xanməmməd Baba **1742-ci** ildə anadan olmuş, **1822-ci** ildə 80 yaşında vəfat etmişdir. İtkisi olan kəs sidq ürəklə həmin ziyarətgaha sığınarsa, o, arzusuna çatar, itkisini tapar.

Ustad sənətkar Aşıq Xanış ziyarətgahın adına düzdüyü şerdə doğru buyurub;

***Eşit bu hikməti, ustadı tanı,***
***Qobustanın əziz piri, piranı,***
***İtkiçi Şofu Xanməmməd babanı,***
***Sidq ilə çağırsan köməyin olar.***

Sofu Xanməmməd Babanın məzarı üstündəki türbəni nəvəsi Nəsib Babanın oğlu Dədəxan müəllim tikdirmişdir.

**Haşiyə:** İndinin özündə də xalq arasında belə bir rəvayət dolaşır. Sofu Xanməmməd Şeyx Eyyub Babanın çobanı olmuşdur. O, həm dindar, həm də əliaçıq bir insan imiş. Bir dəfə Sofu Xanməmməd

buğda yudurdub qurudarmış. Bir qarğa taxıla cumanda Sofu Xanməmməd Baba onu tutur:

– Ay heyvan, insafın olsun, məni daha incitmə, – deyib, quşu buraxır. Bunu təzəcə atdan düşən Şeyx Eyyub görür. Ona yaxınlaşıb deyir:

– Xanməmməd, sən artıq yetişmisən. Daha qoyuna getmə. Allahdan sənə pay umdum. İtki yerini söyləmək sənə pay verildi. Oldun İtkiçi Sofu Xanməmməd...

## SOFİ ƏZİZ ZİYARƏTGAHI

Xilmilli kəndi ilə Sündü kəndi arasında Köp bulağı adlanan ərazidə qədim bir qəbristanlıq vardır. Deyilənə görə, bura vaxtilə Ərəbşalbaş kəndi əhalisinin yay ərazisi imiş. Sofu Əziz ziyarətgahı da həmin qəbristanlıqdadır.

Sofi Əziz İsmayıl oğlu əslən Ərəbşalbaş kəndindəndir. Onun 1770-ci ildə anadan olduğu, təxminən 1800/1-ci ildə vəfat etdiyi məlumdur. (Bəzi müəlliflər bu tarixi 1775-1802/1803 kimi də göstərirlər). Nəsilləri Ərəbistandan gəlmədir. Onun ata-babaları da süfi təriqqətinə mənsub insanlar olmuşlar. Sofu Əziz də bilikli, bacarıqlı, kəramət sahibi olan bir insan imiş. Arzu, istəkləri hər zaman çin olurdu. Onun haqqında el-oba arasında çoxlu rəvayətlər mövcuddur. Müqəddəs şəxs barədə beş rəvayət əldə etmişik.

Rəvayətlərin birində deyilir ki, Sofi Əziz lap cavan vaxtında bir axşam yuxu görür. Səhər qardaşı Hacı Cəbrayıla deyir:

– Sürüdən bir yaxşı qoç saxla. Mötəbər qonaqlarımız olacaq.

Bir az ötəndən sonra qoçü kəsir və xörək bişirir. Deyilənə görə, o, çox zaman çömçə əvəzinə qaynar qazanı əli ilə qarışdırardı. Bu zaman Şeyx Eyyub Baba öz müridləri ilə Həzrət Babaya ziyarətə gedirmiş. Həmin ərazidən keçəndə hər şey ona da əyan olur. Müridlərinə deyir:

– Atları bu biri tərəfə sürün. Sofi Əziz bizim üçün xörək hazırlayır. Gəlib görürlər ki, Sofi Əziz əli ilə qaynar qazanı qarışdırır. Sofu Əziz qonaqlarını çox hörmətlə qarşılayaraq deyir:

– Gəlişiniz mənə əyan olmuşdu. Ona görə də sizə xörək hazırladım. Şeyx Eyyubun müridləri təəccüb etsə də, mətləb Şeyx Eyyuba ay-

dın olur. Sofi Əziz onları axşam da qonaq saxlayır. Gecə yarı o, gedib Həzrət Babanı ziyarət edir. Yadından çıxır papağı orada qalır. Səhər Şeyx Eyyub Baba həyətə çıxanda Sofu Əzizin başmağının dabanında qar görür. Məsələ bir daha ona əyan olur. Sofi Əzizə baxıb gülümsəyir. Sofi Əziz Şeyx Eyyub Babagili yola salanda xahiş etdi ki, qayıdanda onun da papağını gətirminlər...



Ona lap gənc yaşlarında vergi verilməsi haqqında indi də el arasında rəvayətlər söylənilir... Özündə olan dəyişikliyi hiss edən Əziz bir müddət dərvişlər kimi Qobustanı dolaşır. Odur ki, el arasında onu ilk əvvəl "Dəli Əziz", – deyə çağırırlar... Amma onun bədahətən dediyi dini şerləri eşidənlər Əzizə vergi verildiyi qənaətinə gəlirlər.

*Mənə vergi verib ağam,*
*Allah, sənə şükür olsun.*
*Vəsf edərəm hər vaxt sağam,*
*Allah, sənə şükr olsun.*

*Qismətimə yetişmişəm,*
*Qayibdən səs eşitmişəm,*
*Qiylü-qaldan ötüşmüşəm,*
*Allah, sənə şükr olsun.*

*Sofi Əziz sənin qulun,*
*Hax yoludu sənin yolun,*
*Dərviş olub gəzdim çölün,*
*Allah, sənə şükr olsun*[1].

Sofi Əzizin bir qardaşı, iki bacısı olmuşdur. Bu nəslin nəvə-nəticələri indi də babalarının yolunu davam etdirirlər...

## AĞ GÜNBƏZ

Ziyarətgah Nabur kənd ərazisində qədim qəbirsanlığda, "Nabur bulağına" yaxın ərazidə yerləşir.

Yaşlı sakinlərin dediyinə görə, "Ağ günbəz" də dəfn olunan qadındır. Elə ona görə də el arasında ona **"Qız piri"** də deyilir. Çox zəhmli övliyadır. Yaşlıların dediyinə görə, əməlisaleh adamlar gecə həmin ərazidən keçəndə qulaqlarına səs gəlir. Özü də zəhmli bir səs. Türbənin nə vaxt tikildiyi məlum deyildir.

Üstündə kitabə yoxdur.



Ağ gümbəz

[1] Şer vaxtilə Çalovlu Abdulla Rəcəbovdan əldə edilmişdir.

# AĞƏLİ (SÜLEYMAN) TÜRBƏSİ

Nabur kəndindən 3-4 km cənub-qərbdə Bəklə və Qurbançı kəndləri ilə həmsərhəddə - "Dursunalı dəmyəsi" deyilən ərazidə yerləşir. Abidənin yanında olan bürcləri sınıb. Ziyarətgahın günbəzi isə


Ağəli türbəsi

salamatdır. Gümbəzin içində təkcə sinə daşı vardır. Daşın üstündə kitabə vardır. Abidə XVI-XVII əsrlərin yadigarı kimi qəbul edilir... Uzun illərdir ki, bu adibə el-obanın ziyarət yeridir.

# SOFU AĞALI ZİYARƏTGAHI

Bu ziyarətgah Qaracüzlü kəndinin şərqində yerləşən Nəxrədil qəbristanlıqda yerləşir. Ziyarətgah baş və sinə daşından (sinə daşının altı bütövdür) ibarətdir. Məzarın dörd tərəfi uzunluğu 2,5-3 metr, hündürlüyü təxminən, 60-80 sm bütöv (sal) daşla tutulmuşdur. Sonra onun ətrafı xeyirxah insanlar tərəfindən hörülüb. Həmin qəbristanlıq qədimdir. Bir çox qəbir daşları üzərində kitabələr salamatdır. Onu da qeyd edək ki, **erməni cəlladları 1918-ci ildə həmin ərazi isə Şamaxıya hücum edəndə həmin obalardakı əhalini qırmaqla yanaşı, qəbristanlıqdakı baş daşlarını da güllələmişlər. Baş daşlarında olan "güllə yaraları" indi də durur...**

# ŞIXZADA BABA

Ərəbşahverdi kənd qəbristanlığında yerləşir. Ziyarətgah sinədaşından ibarətdir. Daşın üstündə yazı yoxdur. Kənd sakinlərinin dediyinə görə, Şıxzada baba böyük dini bilik, kəramət sahibi, sufi ideyalarının



təbliğatçısı, Qobustan düzündə torpağa tapşırılandan sonra ağ dəvəsi də daşa dönmüş, neçə-neçə insanların arzularını çin edən İlanlı Sofu Həmid babanın nəslindəndir. Şıxzada babanın məzarının aşağı hissəsində iki ziyarətgah vardır. Onların Şıxzada babanın qardaşları olduğu söylənilir.

# ÇIRAQLI PİRİ

Qaracüzlü kəndi ərazisində, yerləşən ziyarətgahlardan biridir. Pirin ətrafını kənd sakini Faiq tikdirib. Ziyarətgahın üzərində kitabə yoxdur.

Deyilənlərə görə, hər ildə bir dəfə gecə bu pirin üstündə işıq yanır. Həmin işığın yanmasını kim görərsə, bütün diləkləri hasil olur. Ona görə də el arasında bu pirə "çıraqlı" pir deyirlər.

# GÖGƏC PİRİ

Bu ziyarətgah Dağ Kolanıların Küdrü düzündəki Gögəc qışlağında yerləşir. Pirin üstündə heç bir yazı-kitabə yoxdur. Yaşlıların de-




diyinə görə, göz ağrısı, göy öskürək xəstəliyinə tutulanlar niyyət edib, piri ziyarət edəndən sonra Allah-təalanın izni ilə şəfa tapırlar. Poladlı kənd sakini Məşədi Əlmirzə pirin ətrafını hördürmüşdür.

## QARADONLU PİRİ

Nabur kəndi ilə Bəklə kəndinin sərhədində hündür tənənin üstündə yerləşir. Bu ziyarətgahın yanında başqa qəbrlər də mövcuddur. Qəbristanlıq təxminən, XVII-XVIII əsr yadigarıdır. Qara Donlu piri əvvəllər bu qəbristanlıqda təkcə döş daşından ibarət bir ziyarətgah olub. Həmin daşın üstündə kitabə də vardır. Nabur kəndinin istedadlı övladı, gözəl xalça ustası Könül Şükürova həmin məzarın üstündə öz xərci hesabına türbə tikdirmişdir... Ziyarətgah camaatın ümid, inam yeridir.



# ŞEYX ALIXAN ŞEYX ƏHMƏDPAŞA OĞLU (1882-1929)



Şeyx Əyyub Babanın nəvə, nəticə, kötücə, yadıcalarının sayı yüzlərlədir. Şeyx Əyyub Babanın nəticələrindən biri də Şeyx Alxan bəy olmuşdur.

Şeyx Əyyub Babanın oğul nəvəsi Əhməd Paşanın üç oğlu olmuşdur. Onlardan biri də Alxan bəy idi. Alıxan bəy 1882-ci ildə anadan olmuşdur. Mənbələrdə isə Alıxan bəyin müxtəlif – 1875, 1880, 1881-ci illərdə anadan olduğu göstərilir.

**1918-ci ildə Alıxan bəy erməni cəlladlarının Şamaxıda törətdikləri cinayət barədə istintaq komissiyasına məlumat vermiş və bununla bağlı dindirilmə protokolu tərtib edilmişdir. Həmin protokolda Alxan bəy Eyyubbəyov özü 36 yaşı *olduğunu qeyd etmişdir. Rəsmi sənədin təsdiq etdiyi* yaşla hesağlasaq, onda Alıxan bəyin anadan olduğu tarix 1882-ci ilə müvafiqdir.**

Alıxan bəy xeyirxah, sözübütöv, imkansızlardan köməyini əsirgəməyən dini bilik sahibi olmuşdur. Vaxtilə Alxan bəyin oğlu Şeyx Bayram baba ilə bir neçə dəfə görüşmüşəm. Yeri gəlmişkən onu qeyd edim ki, Bayram baba hərtərəfli dərin biliyə malik bir insan idi. O, Şirvanşahlar, Şamaxı tarixi ilə bağlı rus, həm də ərəb mənbələrindən olan məlumatların çoxusuna bələd idi. Atası barədə belə deyirdi:

– "Biz doqquz bacı-qardaş olmuşuq. Hazırda bir qardaşım və bir bacım sağdır. Atam təkcə biz övladlarının deyil, onu tanıyan insanların yaddaşında sadə, mülayim, xeyirxah, sözübütöv, el-torpaq qədri bilən, məğrur bir insan kimi qalmışdır. Çalışardı ki, dinin elmi tərəfini insanlara daha çox izah etsin. İslam dininin qayda-qanunlarını fanatizmlə eyniləşdirən ruhanilərlə arası olmazdı. Müqəddəs ocaq olmağımıza baxmayaraq o, ömrü boyu nəzir götürməzdi. Bizə nəzir gətirənlərə:



Şeyx Bayram

– Apar qonşuluğunuzda olan əlsiz-ayaqsız və ya kasıblara payla. Özü də kasıblara əl tutardı. Qurban bayramına 3-4 gün qalmış qonşu kəndlərin hər birindən bir neçə ağsaqqal dəvət edər, imkansızları siyahı etdirər və onlara qurbanlıq heyvan göndərərdi... Atam vaxtilə Dərəkənddən Ərəbqədimə yol çəkdirmiş, Ərəbqədim məscidinin bərpasına kömək etmiş, kəndin yaxınlığında olan Heybət dərəsindən körpü saldırmışdır..."

El ağsaqqalı, xeyirxah əməl, bütün Şirvan ərazisində hörmət sahibi olan Şeyx Alıxan bəy 1929-cu il mart ayının 21-də vəfat etmişdir.

## ŞEYX MUSTAFA BABA (1909-1986)



Şeyx Mustafa Baba Hacı Həmidpaşa oğlu 1909-cu ildə anadan olmuşdur. Gözünü açandan evlərində azan səsi, zikirlər eşidən, xeyirxah əməllərin şahidi olan balaca Mustafa da bu əqidədə böyümüşdür. Öz davranış, hərəkət, insanlara münasibətləri və el-obaya gərəkliyi ilə cavan yaşından ağsaqqal misallı olmuşdur. Üz-gözündən nur tökülən, hərəkətlərindən – yerişi, duruşundan müdriklik, salgarlıq, təmkinlik yağan Mustafa Baba ocağına ümid dalınca gələnlər həmişə arzularına, istəklərinə qovuşmuşlar. Əsrlərin sınağından çıxmış Şeyx Əyyub Baba ocağının qoru ilə isinmiş Şeyx Mustafa Baba ünvanına təkcə Şamaxı-Qobustandan deyil, Azərbaycanımızın – Quba, Bakı, Lənkəran, Qarabağ, Muğan bölgələrindən gə-

lən dərdli insanlar evlərinə şəfa tapıb yollalanmışlar. Üz-gözündər nur tökülən, qara gözləri ilə insanlara sevinc, səadət, xeyir-bərəkət bağışlayan, əli şəfalı, ağzı dualı Şeyx Mustafa Baba 77 yaşında 1986-cı ildə dünyasını dəyişdi. Babası Şeyx Əyyub Baba uyuyan Acıdərə qəbristanlığında dəfn olundu.

## ŞEYX SƏLİM BABA
## (1911-1994)

Şeyx Əyyub Baba əqidəsi, yol-yolacağının davamçısı olan Şeyx Səlim Hacı Həmidpaşa oğlu 1911-ci ildə anadan olmuşdur. El-obanın hörmət bəslədiyi, ümid gözlədiyi bir ailədə böyümüş Səlim Baba uşaq yaşlarından namaz əhli, iman əhli olmuşdur. Atasından dini qayda-qanunlara dərindən yiyələnən, "Quran" oxumağı kamil bilən Səlim Baba el-obanın dini mərasimlərinin bəzəyi idi. Həzrət Babaya, Veysəl Babaya ziyarətə gedən zəvvarlar arasında olar, onlara öyüd verər, zikirlər oxuyardı. Onlara təbliğ edərdi ki, islam adətlərinə əməl etsinlər. Ona görə ki, "Quran" ayələri insanları həmişə ibadətə, halallığa, paklığa, axirət dünyasına inama səsləyir.



Onun müqəddəs ocağına şəfa tapmaq üçün qədəm qoyanlar, gələnlər boş qayıtmazdılar. Allah-təalanın qisməti, Şeyx Əyyub Babanın ocağının nuru ilə işıq tapmış Səlim Baba ünvanı yüzlərlə insanın dərdinə çarə, şəfa vermişdir. Şeyx Səlim Baba 1994-cü ildə dünyasını dəyişmiş və Şeyx Əyyub Babanın uyduğu qəbristanlıqda dəfn olunmuşdur.

* * *

Şirvanda olan və haqqında məlumat əldə etdiyim övliya – ziyarətgahların sayı mindən artıqdır. Qobustan regionunda mövcud, bu gün də ziyarət olunan övliyaların təxminən iki yüz əllisi barədə məlumat toplamış, şəkillərini çəkmiş, onlar barədə iki yüzdən çox əfsanə-rəvayət, şer-zikir, mərsiyə toplamışam... Ustad sənətkar Ozan Xanışın bir zikri ilə fikrimizi tamamlayırıq...

# ZİKR

*Ay həzarət, gəlin sizə söyləyim,*
*Məna dolu ötən günlərdən deyim.*
*Şıx Eyyub zikirli evliyalardan,*
*Davası kəsərli əllərdən deyim.*

*Dar gündə yoxsulun darına çatan,*
*Fağırın, məzlumun əlindən tutan,*
*Hanı Şıx Eyyubum, gözəl Alı xan,*
*Onlara can deyən dillərdən deyim.*

*Məskəni Acıdərə, yurdu Qobustan,*
*Ruhən namazını "Babada" qılan,*
*Başına döndüyüm əziz Hacaxan,*
*Ayağ izi dəyən çöllərdən deyim.*

*Hanı Şeyx Məhəmməd, Hachəmid Paşa?*
*Nuru bəsdir bizim torpağa, daşa,*
*Qurbət eldə məskən saldı tamaşa,*
*Yoluna göz dikən ellərdən deyim.*

*Mustafa heç kimi ümüdsüz qoymaz,*
*İrzaxan, Şıx Səlim kəsərdə almaz,*
*Böyükağa, Ziyatxan, bahardı solmaz,*
*Hacıxan naxışlı Nüsrətdən deyim.*

*Sidqilə diləsən, dadına çatar,*
*Qubada Qırxlardı, Şirvandı şıxlar,*
*Xıdır Zinda, Xıdır İlyas olar yar,*
*Hər kəs uzaq olan şər işdən deyim.*

*Nura boyamışdı şəhəri, kəndi,*
*Hacı Ağa görünməyir, nədəndi?*
*Bir də Avaxıllı İsam Əfəndi,*
*Onlar qoyub keçən yollardan deyim.*

*Veysəl Qara ildə ziyarət olu,*
*İlanlı Sofhəmid Allahın qulu,*
*Unutmayaq Məhəmməd qoyan yolu,*
*Dəlilər sahibi pirlərdən deyim.*

*Həzrət Baba, Həzrət nənə qoşadı,*
*Allahın yanında onlar ucadı,*
*Xanış, qibləmizin yönü Hacadı,*
*Evliya, Əmbiya, Nəbidən deyim.*

## QOBUSTAN REGİONUNDA OLAN ARXEOLOJİ ABİDƏLƏR-ÖVLİYALAR VƏ ZİYARƏTGAHLARIN SİYAHISI[1]

| Sıra №si | Abidənin adı | Tarixi | Yerləşdiyi ərazi |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1 | Ağ Abdal piri | XVIII əsr | Ağdərə kəndi |
| 2 | Ağ Cünbəz piri | XVII əsr | Nabur kəndi |
| 3 | Alxan baba ocağı | XX əsr | Ərəbqədim kəndi |
| 4 | Ağəli övliyası (Süleyman) | XVI-XVII | Nabur kəndi |
| 5 | Ağ pir (Abzər) | XVI-XVII | Sündü kəndi |
| 6 | Bostan qurudan | – | Şorsulu kəndi |
| 7 | Bala baba türbəsi | – | Sündü qışlağı |
| 8 | Balaca pir | XIX əsr | Ərəbşahverdi kəndi |
| 9 | Bəkir baba | XIX əsr | Ərəbqədim kəndi (çay) |
| 10 | Boza piri | ilk orta əsr | Ərəbşahverdi |
| 11 | Bəylər günbəzi | XVI-XVII | Çuxanlı kəndi |
| 12 | Bəsrə nənə | XVIII əsr | Çuxanlı kəndi |
| 13 | Başıbağlı abidəsi | III-VII əsr | Dağ-Kolanı ərazisi |
| 14 | Cavanşir qalası | VII-VIII | Şıxlar kəndi |
| 15 | Ciddə Əzənənə ziyarətgahı | – | Ərəbqədim kəndi |

[1] Siyahı tam əhatə olunmayıb

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 16 | Cəfər baba | XIX əsr | Damlamaca kəndi |
| 17 | Ceyran piri | – | Şamlı obası |
| 18 | Cəyirli yaşayış yeri | ilk orta əsr | Cəyirli kəndi |
| 19 | Ceyran piri | – | Acıdərə kəndi |
| 20 | Çıraqlı piri | XIX əsr | Qaracüzlü kəndi |
| 21 | Çöpçü piri | – | Qurbançı kəndi |
| 22 | Çalov yaşayış yeri | ilk orta əsr | Çalov kəndi |
| 23 | Diri Baba türbəsi | X V əsr | Mərəzə qəsəbəsi |
| 24 | Diri Baba qəbristanlığı | XIII-XIV | Mərəzə qəsəbəsi |
| 25 | Dəmrov piri | – | Ərəbqədim kəndi |
| 26 | Dəmirov piri | – | Çuxanlı kəndi |
| 27 | Dəyirman piri | – | Cəmcəmli kəndi |
| 28 | Dəyirman piri | – | Poladlı kəndi |
| 29 | Dəmirov piri (Səddarağa) | – | Sündü kəndi |
| 30 | Diş piri | – | Xəlfəli obası |
| 31 | Dəvə daşı abidəsi | XVII-XVIII | Nabur kəndi |
| 32 | Dəmrov piri | – | Toğluüzü obası |
| 33 | Əziz piri | XIX əsr | Şıxzərli kəndi |
| 34 | Əl-Qəddi baba | XVIII əsr | Bədəlli kəndi |
| 35 | Həmqoca (Qərbi) piri | – | Təklə-Mirzəbaba kəndi |
| 36 | Köşək Ata piri | XVIII-XIX | Qaracüzlü kəndi |
| 37 | Gümüşlü yaşayış yeri | V-VIII əsr | Poladlı ərazisi |
| 38 | Hacı Balakişi baba ocağı | – | Dərəkənd kəndi |
| 39 | Hacı Abdulqədir piri | XVIII əsr | Ərəbqədim kəndi |
| 40 | Hacı Şirin baba ocağı | XIX əsr | Ərəbqədim kəndi |
| 41 | Hacı Məhəmməd türbəsi | XIX əsr | Ərəbqədim kəndi |
| 42 | Hacı Əfruz nənə ocağı | XIX əsr | Ərəbqədim kəndi |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 43 | Hacı Gülalı ocağı | – | Dərəkənd kəndi |
| 44 | Hacı Xası baba ocağı | – | Ərəbqədim kəndi |
| 45 | Hacı Zülfüqar baba ocağı | XIX əsr | Ərəbqədim kəndi |
| 46 | Həzrə piri | XIX əsr | Ərəbqədim kəndi |
| 47 | Hacı Mirzə Baba | – | Ərəbqədim kəndi |
| 48 | Hacı Baxşəli ocağı | – | Ərəbşahverdi kəndi |
| 49 | Hacı Alxan baba ocağı | XIX əsr | Ərəbqədim kəndi |
| 50 | Xoruzlu piri | – | Damlamaca kəndi |
| 51 | Xilə qəbristanlığı | XV-XVI | Xilə kəndi ərazisi |
| 52 | Xaliq baba | XIX əsr | Ərəbşahverdi kəndi |
| 53 | Xilə piri | XVIII əsr | Xilmilli kəndi |
| 54 | İbad baba ocağı | XIX əsr | Ərəbqədim kəndi |
| 55 | Karvansara | XVII əsr | Mərəzə qəsəbəsi |
| 56 | Kolanı yaşayış yeri | IV-VIII əsr | Dağ-Kolanı kəndi |
| 57 | Küp qəbirləri nekropolu | antik dövr | Bəklə kəndi |
| 58 | Karvansara | XV-XVI | Xilmilli kəndi |
| 59 | Keçid daşı | XVIII-XIX | Nabur kəndi |
| 60 | Qobustan yaşayış yeri | ilk orta əsr | Mərəzə qəsəbəsi |
| 61 | Qala | VII-VIII | Nabur kəndi |
| 62 | Qaçay baba | XIX əsr | Şıxzərli kəndi |
| 63 | Qərbi piri (Qərib ağa) | – | Sündü kəndi |
| 64 | Qılınc qaya piri | XVIII əsr | Çuxanlı kəndi |
| 65 | Qoşalar baba | XVI-XVII | Ərəbqədim kəndi |
| 66 | Qorğa piri (daş kitabəli) | XVIII əsr | Nabur kəndi |
| 67 | Qorğa piri | – | Poladlı kəndi |
| 68 | Qalacıq baba | – | Ərəbqədim kəndi |
| 69 | Qarıq baba | XIX əsr | Ərəbqədim kəndi |
| 70 | Qərbi piri (Mərdəkan piri) | – | Nabur kəndi |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 71 | Qaradonlu baba | XIX əsr | Nabur kəndi |
| 72 | Qırxlar piri | – | Qurbançı kəndi ərazisi |
| 73 | Qırxlar baba | XIII-XV əsr | Ərəbqədim kəndi |
| 74 | Qız Faxra piri | XIX əsr | Qurbançı kəndi |
| 75 | Qalacıq | II-III əsr | Dağ-Kolanı kəndi |
| 76 | Qəbristanlıq | ilk orta əsr | Çalov kəndi |
| 77 | Qəbristanlıq | ilk orta əsr | Təklə kəndi |
| 78 | Qəbristanlıq | ilk orta əsr | Şamlı kəndi |
| 79 | Lil piri | – | Ərəbşalbaş kəndi |
| 80 | Molla Məhəmməd türbəsi | XVIII-XIX | Acıdərə kəndi |
| 81 | Molla Zərbalı baba ocağı | XIX əsr | Ərəbqədim kəndi |
| 82 | Mal Piri | – | Qurbançı kəndi |
| 83 | Mal Piri | – | Dərəkənd kəndi |
| 84 | Məscid | X-XI əsr | Sündü kəndi |
| 85 | Məscid | XIX əsr | Ərəbqədim kəndi |
| 86 | Məscid | – | Çalov kəndi |
| 87 | Məscid | – | Təklə kəndi |
| 88 | Məscid | – | Şıxzərli kəndi |
| 89 | Mötədil baba | XVIII əsr | Sündü kəndi |
| 90 | Molla İsa qəbristanlığı | orta əsr | Qurbançı kəndi |
| 91 | Narrıq piri | XVIII-XIX | Ərəbqədim kəndi |
| 92 | Nazəni ocağı | XIX əsr | Toğluüzlü obası |
| 93 | Nəxrədil qəbristanlığı | XVIII-XIX | Qaracüzlü kəndi |
| 94 | Öskürək piri | – | Çuxanlı kəndi |
| 95 | Pir Abdulkərim türbəsi | (1767-1851) | Nabur kəndi |
| 96 | Pirzad türbəsi | XIX əsr | Ərəbqədim kəndi |
| 97 | Pir Abdulla | XVIII əsr | Ərəbqədim kəndi |
| 98 | Pirimsaat baba | XIX əsr | Sündü kəndi |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 99 | Pirdar piri (Pirdara) | XIX əsr | Sündü kəndi |
| 100 | Pir Eyvaz (tək daşdı) | – | Sündü kəndi |
| 101 | Pir Çalov (Pirtəçalov) | XVIII əsr | Çalov kəndi |
| 102 | Pir Hakı | XVII-XVIII | Çalov kəndi |
| 103 | Pirə Gülməşə | – | Nərimankənd kəndi |
| 104 | Pir Cəmil ağa (Camal ağa) | XIX əsr | Sündü kəndi |
| 105 | Pidcə piri | – | Cəmcəmli kəndi |
| 106 | Pir İsmayıl | – | Çuxanlı kəndi |
| 107 | Pir Kamil | XVII əsr | Çuxanlı kəndi |
| 108 | Pir Abdulla | XIX əsr | Toğluüzlü obası |
| 109 | Sofu Əziz türbəsi | XVIII-XIX əsr | Təklə-Xilə ərazisi |
| 110 | Sarılıq piri | – | Ərəbqədim kəndi |
| 111 | Sofu Xanməmməd türbəsi | XIX əsr | Qurbançı kəndi |
| 112 | Sofu Alıbaba piri | XIX əsr | Ərəbqədim kəndi |
| 113 | Sofu Novruz Baba türbəsi | XIX əsr | Ərəbqədim kəndi |
| 114 | Səfiyya Banu (xala) piri | XIX əsr | Sündü kəndi |
| 115 | Sığır piri | -- | Çuxanlı kəndi |
| 116 | Sofu Kərim piri | XIX əsr | Ərəbşalbaş kəndi |
| 117 | Sofu Novruz Baba ocağı | XIX əsr | Ərəbqədim kəndi |
| 118 | Sarı Pir (daş kitabəli) | XVII əsr | Nabur kəndi |
| 119 | Sarı Baba piri | XIX əsr | Təklə-Mirzəbaba kəndi |
| 120 | Sofu Ağalı piri | XVIII-XIX əsr | Qaracüzlü kəndi |
| 121 | Sofu Nur piri | – | Sündü kəndi |
| 122 | Sofu Həmid türbəsi | XIV-XV | Qobustan ərazisi |
| 123 | Sofu Xanməmməd qəbristanlığı | orta əsrlər | Qurbançı kəndi |
| 124 | Sofu Alı piri | – | Ərəbqədim kəndi |
| 125 | Sofu Cəbi piri | – | Təklə-Mirzəbaba kəndi |
| 126 | Şeyx Həsən Bəsrə türbəsi | XI-XII əsr | Çuxanlı kəndi |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 127 | Şəhidlər günbəzi | XVIII əsr | Nabur kəndi |
| 128 | Şıx ocağı | – | Cəmcəmli kəndi |
| 129 | Şıx İsmayıl ocağı | – | Sündü kəndi |
| 130 | Şıx Səhər piri | XIX əsr | Sündü kəndi |
| 131 | Şeyx Əyyub baba | XVIII əsr | Acıdərə kəndi |
| 132 | Şayıb və Qayıb ziyarətgahı | IX-X əsr | Acıdərə kəndi |
| 133 | Şeyx Alıxan bəy | 1882-1929 | Acıdərə kəndi |
| 134 | Şeyx Səlim baba | 1911-1994 | Acıdərə kəndi |
| 135 | Şeyx Mustafa baba | 1909-1986 | Acıdərə kəndi |
| 136 | Şana nənə | XIX əsr | Damlamaca kəndi |
| 137 | Şıxzərli kurqanı | ilk orta əsr | Şıxzərli kəndi |
| 138 | Şəhidlər qəbristanlığı | orta əsrlər | Qurbançı kəndi |
| 139 | Tək pir | XIX əsr | Ərəbqədim kəndi |
| 140 | Titrəmə piri | – | Çuxanlı kəndi |
| 141 | Tək pir | XIX əsr | Cəmcəmli kəndi |
| 142 | Tuti piri | XVIII-XIX | Şıxlar kəndi |
| 143 | Yaşayış yeri | ilk orta əsr | Cəmcəmli kəndi |
| 144 | Yavanı Baba | XVIII-XIX | Cəmcəmli kəndi |
| 145 | Üç qardaş piri | XVIII-XIX | Çayqovuşan obası |
| 146 | Vəli Rəhim ocağı | – | Ərəbqədim kəndi |
| 147 | Yeddi pir | XVIII əsr | Ərəbşahverdi kəndi |
| 148 | Yeddi qardaş (yeddi ağac olub) | – | Sündü kəndi |
| 149 | Yel piri | – | Ərəbqədim kəndi |
| 150 | Yeddi qardaş | – | Cəmcəmli kəndi |
| 151 | Yeddi qardaş | XVIII əsr | Nabur kəndi |
| 152 | Zigil piri | – | Nərimankənd kəndi |
| 153 | Kurqan | e.ə. | Şorsulu kəndi |
| 154 | Qəbiristanlıq | orta əsr | Xilmilli kəndi |

# IV FƏSİL



AMİ-nin Şamaxı filialı.
"Beytüs-səfa" ədəbi məclisinin davamçıları.
2000-ci il.

# SAZLI, SÖZLÜ VƏ NƏĞMƏLİ QOBUSTAN

*"Allah taalanın taxt altında gizli xəzinələri vardır. Onların açarı şer dilidir". Məhəmməd peyğəmbər (S.Ə.S.)*

Uzun illərdi ki, qədim Şirvanın ədəbi mühiti, folkloru, aşıq yaradıcılığı, musiqi-muğam sənəti, el şairləri, sinədəftərləri barədə tədqiqat aparıram. Nəticədə beş min səhifədən artıq material, minə yaxın sənəd, şəkil, əlyazma və xatirələr əldə etmişəm.

Topladığımız qiymətsiz materiallar arasında Şirvanın qədim bir diyarı olan Qobustan regionunda da yaşayıb-yaradan **aşıq, xanəndə, balabançı, şair, el şairləri** barədə də müfəssəl məlumatlar vardır.

Cəsarətlə demək olar ki, XVIII əsrdən günümüzə kimi bu ərazinin **200 nəfərdən artıq istedadlı övladlarının yaradıcılığından tədqiqatçıların çoxunun demək olar ki, xəbəri yoxdur**. Çox əfsus ki, biz də bu istedadlarının bir çoxunun quruca adını öyrənə bildik. Onların yaratdığı incilər, əlyazmalar əsrlərin "zərbi-dəstinə" dözə bilməmiş, məhv olmuşdur. Ağsaqqal baba, ağbirçək nənələrin yaddaşlarında olanlar da vaxtından yazıya alınmamış, söyləyiciləri ilə birlikdə torpağa gömülmüşdür. Və ya ərəb əlifbası ilə yazıya köçürülənlər də "dini kitab" adı ilə ötən əsrin 20-30-cu illərində məhv edilmişdir. Amma əldə etdiyimiz materiallar bir daha təsdiq edir ki, qədim, sirli-sehirli Qobustan həm də sazlı, sözlü, nəğməli bir məkan olmuş, bu gün də elədir!..

Bizdən asılı olmayan səbəblərə görə, kitabın birinci cilidində həmin istedadların ancaq bir qismi haqqında söhbət aça bildik.

# 1. QOBUSTAN AŞIQLARI

Aşıq Dostu Şirvani ilə (XVI-XVII əsr) uzaq keçmişdən baş alıb gələn Şirvan aşıq mühiti özünəməxsus xüsusiyyətləri ilə Azərbaycanımızın başqa aşıq mühitlərindən fərqlənir. Bu mühitin coğrafi hüdudu çox genişdir. Azərbaycanımızın çox bölgələrində o - bir tərəfi Qarabağ, bir yanı Quba, o biri başı Muğanda bu üslubda çalıb-oxuyan aşıqlar olmuş və indi də vardır. Şirvan aşıq mühitində elə regionlar mövcuddur ki, orada yüzlərlə aşıq yetişmişdir. Belə regionlardan biri də qədim Qobustandır. Maraqlı haldır ki, bu bölgənin bir çox – Şamlı, Şıxzərli, Cəyirli, Nabur, Dağkolanı, Sündü və s. kəndlərinin hər birində 15-20 nəfər sənətkar (aşıq, xanəndə, balabançı, dəmkeş, nağaraçı) yetirmişdir. Onların isə azı 5-7 nəfəri aşıq olmuşdur. Qobustan regionunun müxtəlif ərazilərində haqqında məlumat və şerlərindən nümunələr əldə etdiyimiz aşıqların sayı **əlli nəfərdən artıqdır**. Və onu da qeyd edək ki, həmin sənətkar haqqında elm aləminə ilk dəfə sətirlərin müəllifi müfəssəl məlumat vermişdir.[1] Milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin təbliğatçıları olan Qobustanın ustad aşıqları tarixin bütün dönəmlərində xalq tərəfindən sevilmişlər... Şirvan aşıq mühit ənənələri, bir çox ustadların – **Aşıq Babaş, Aşıq Sərxan, Aşıq Abbas, Aşıq Barat, Aşıq Şirsoltan, Aşıq Məmmədağa, Aşıq Rza, Aşıq Mahmud və b. qoyub getdikləri yol-yolağaclar bu gün də yaşamaqdadır. Aşıq Xanmusa, Aşıq Xanış, Aşıq Əvəz, Aşıq Abas, Aşıq Vüqar, Aşıq Xamisin** və b. sazında-sözündə, avazında və repertuarında!..

## AŞIQ BABAŞ
### (XVIII-XIX əsr)

Aşıq Babaş Mənsim oğlu XVIII əsrin sonunda anadan olmuş, XIX əsrin 50-60-cı illərində vəfat etmişdir. Əldə olunan şerlərindən savadlı bir şəxs olduğu aydınlaşır. Mərhum Əhməd Cəfərzadənin arxivində aşığın bir neçə şeri vardır... Aşıq Pirməmmədin yaddaşından aşığın daha üç şerini əldə etmişik.

[1] Aşıqlar və el şairləri. (top., tərtib edən, S.Qəniyev), Bakı, 1994; Şirvan aşıqları (top., tərtib edən, S.Qəniyev), 1997; Şirvanın qadın şairləri (top., tərtib edən, Ə.Cəfərzadə, S.Qəniyev), Bakı,1997.

Sənətin sirlərini oğlu Mürsələ də öyrətmişdir. Aşıq Babaş Şamaxıda vəfat etmişdir.

## NECOLDU

*Mat qaldım dünyanın həngaməsinə,*
*Adı bəlli neçə insan necoldu?*
*Aqillə nadana qiymət qoymadı,*
*Neçə-neçə sahib-zaman necoldu?*

*Adəmdən xatəmə zənd et, fəhm elə,*
*Necə canlar qovuşubdur xak ilə,*
*Neçə min nəbilər düşsə də dilə,*
*Qərib-qərib, pünhan-pünhan necoldu?*

*Kim kam aldı bu dünyaya gələli,*
*Halları var ağlamalı, gülməli,*
*Məhəmməd Mustafa, o Həzrət Əli,*
*İmam övladları can-can necoldu?*

*"Əhsabi-Kəhfi"də eylədi bəhsi,*
*Harda bəndə düşdü Nuhun gəmisi,*
*Hatəmi, Yusifi, Lutu, Yunisi,*
*Udan üzü dönmüş dövran necoldu?*

*Gedən gedir, gələn olur, bərqərar,*
*Babaş düşündükcə ürəyi ağlar,*
*Hələ bundan sonra qiyamət qopar,*
*Duymayanlar, ya da duyan necoldu?*

## DÜŞMÜŞƏM

*Sevda yolu nə tilsimli olurmuş,*
*Odlu canım, bir gör hara düşmüşəm?*
*Məhəbbətə düçar olduğum gündən,*
*Məcnun kimi ahu-zara düşmüşəm.*

*Aşıq olub məclislərə varalı,*
*Çox mətləb görmüşəm ağlı, qaralı,*
*Bir səyyadam ovum məndən aralı,*
*Onun üçün bu dağlara düşmüşəm.*

*Bu sevdanın acısı da şirindi,*
*Məşəqqətli, təlatümlü, dərindi,*
*Babaş deyir; son söz ərənlərindi,*
*Demərəm ki, bəxti qara düşmüşəm.*

## AŞIQ SƏRXAN
### (XVIII-XIX əsr)

Sərxan İsgəndər oğlu Cəyirli elatında anadan olub. O, XVIII-XIX əsrlərdə yaşamışdır. Dövrünün qüdrətli sənətkarı kimi xatırlansa da, haqqında o qədər də geniş məlumat yoxdur. Ustad Aşıq Barat xatirəsində yazır ki, atası Əhməd bəyin Aşıq Sərxan və Aşıq Qafar haqqında məlumatı geniş imiş. Əhməd bəyin atası gənc yaşlarında Aşıq Sərxanı görmüş, Aşıq Qafarın isə məclislərində dəfələrlə iştirak etmişdir. Aşıq Sərxan ömrünün son illərində Orta Asiyaya köçmüş və Cərco şəhərində yaşamışdır.

Aşıq Barat atasının yaddaşından həm Aşıq Sərxan, həm də Aşıq Qafarın bir neçə şerini saxlaya bilmişdir. Vaxtilə Cəyirli kənd sakini Kərəm Həsən oğlundan da (əslən Cənubi Azərbaycanlıdır) aşığın bir şerini əldə etmişdir. Ümumiyyətlə, aşığın on şerini toplamışıq.

### ...BAX BELƏ

*O rübəndi al üzündən,*
*Qoy görünsün xal üzündən,*
*Busə alım al üzündən,*
*Deyim bax belə, bax belə.*

*Xara qofta, şallı tirmə,*
*Sən məni günahkar bilmə,*

*Ala gözə siyah sürmə,*
*Gülüm, yax belə, yax belə.*

*O eyvandan, bu eyvana,*
*Bir dəstə gül göndər, sona,*
*Xəlvət otaq, al qoynuna,*
*Demə, yox belə, yox belə.*

*Səni mələk doğub ana,*
*Mən qalmışam yana-yana,*
*And verirəm Şahi Mərdana,*
*Görüm, çıx belə, çıx belə.*

*Cəyirli Aşıq Sərxanam,*
*Ölənəcən sənlə varam,*
*Elə vurdun, qopdu yaram,*
*Zalım, ox belə, ox belə.*

## AŞIQ SADIQ
## (1801-1873)

Sadıq Adıgözəl oğlu 1801-ci ildə Gəmüstü (Nərimankənd) obasında köçəri ailədə anadan olmuşdur. Gənclik illərində bir dövlətli qızı sevmişdir. Qızı ona verməmişlər. Nakam aşiqin dərdi, həsrəti şerlərinin canına hopmuşdur. Ona görə də el içində Aşıq Sadıq adı ilə məşhurlaşmışdır. Sonralar Bibixanım adlı bir qadınla evlənmiş və onların Adgözəl, Şair, Gülarə adlı övladları olmuşdur. Ustad sənətkarların və doğmalarının yaddaşından aşığın on doqquz şerini toplamışıq.

O, 1873-cü ildə həmin kənddə vəfat etmişdir.

### FƏLƏK

*Əzəl gündən yolum düşdü dolayı,*
*Yandırdın cismimi sən oda, fələk.*
*Bir quş idim, sığınmışdım butama,*
*Alıban vermisən sən yada, fələk.*

*Zalım ata çəpər çəkdi oraya,*
*Tikan kimi soxuldu o, araya,*
*Kimə deyək məlhəm qoysun yaraya,*
*Yapış əldən, yetiş imdada, fələk.*

*Mən haqqa qul oldum, bəylərə bəndə,*
*Axır günüm yara oldu şərməndə,*
*Ahü-vayla məni qovdun bu gündə,*
*Dar gündə yetmədin fəryada, fələk.*

*Sadıq deyər, ağlım başda coşanda,*
*Bahar çağı çaylar aşıb-daşanda,*
*Hampa məni vələ, cütə qoşanda,*
*Qalsın vilayətin bərbada, fələk.*

## MƏNƏ

*İşim müşkülə düşəndə,*
*Yarım oldu həyan mənə.*
*İlhamı xudadan aldım,*
*Sənət gəldi bəyan mənə.*

*Əlli il məclis dolandım,*
*Dürüst oldu əhdim, andım,*
*Çaşdım, dedim, "havalandım",*
*Ellər dedi; "əhsən" mənə.*

*Neçə şagirdlər yetirdim,*
*Cümlə ərsəyə gətirdim,*
*Təzə pöhrələr bitirdim,*
*Ustad dedi, qanan mənə.*

*Aşıq Sadıq eşq alovlu,*
*Sazla gəzdi el-mahalı,*
*Yaratmaq oldu amalı,*
*Dil öyrətdi "Quran" mənə.*

# AŞIQ AĞAMƏMMƏD
## (1805-1875)

Aşıq Ağaməmməd Cavad oğlu gəlimli-gedimli dünyada sənətkar ömrü yaşadı. Elinə, yurduna, xalqına gərək olan sənətkar ömrü... İndi ayağımıza dəmir çarıq geyib, əlimizə əsa alıb şamla gəzsək də, tapa bilmədiyimiz ustad sənətkar ömrünü yaşadı Aşıq Ağaməmməd. O, 1805-ci ildə Şamlı kəndində dünyaya göz açmış və 70 ildən artıq ömür sürmüşdür...

...Kəndin koxası Zamanın qızı Məryəmə ürəyini vermişdi. Gənclər əhd-peyman bağlamışdılar... İşdən halı olan koxa kasıb bir aşıqla qohum olmağı şəninə sığışdırmamışdı.

Bundan sonra Ağaməmməd bir müddət Şamlıdan gedir. Quba, Dağıstan məclislərinin yaraşığı olur. Məryəm həsrətli şerləri ilə təsəlli tapır. Yad yer, istəklisindən çox-çox uzaqlarda olmağa aşıq tab gətirə bilmir...

Yazda, el yaylağa köçən ərəfədə Ağaməmməd qayıdır öz elinə... Gümüşlü dəyirmanın "saz" vaxtı idi. Camaat dəyirmanda növbə gözləyirdi. Aşıq Ağaməmməd bir qədər dincəlmək üçün dəyirmanda dayanır. Adamlar onun başına yığılır. Aşıqdan oxumağını xahiş edirlər. Aşıq Ağaməmməd yanıqlı-yanıqlı oxuyur...

Elə bu vaxt yaylağa qalxan koxa Zamanın köçü dəyirmana çatır. Aşıq səsinə köçü əyləyirlər. Qız-gəlin aşığı dinləmək üçün yığnağa gəlirlər. Ağaməmməd aralıdan öz ellilərini görür. Gələnlərin içərisində Məryəm də vardı. Sinəsi dəmirçi körüyü kimi qalxıb enir, iki illik həsrətdən sonra təsadüfi görüş aşığın səsində-avazında olan yanğını daha da alovlandırır...

Gələnlər də Aşıq Ağaməmmədi tanıyırlar. İşdən halı olan koxa Zaman yola düşməyi əmr edir. Köç yola düşür. Məryəm atasının qorxusundan bir daha başını qaldırıb istəklisinə baxa bilmir. Əlacsız qalan Ağaməmməd bədahətən düzdüyü şeri yanıqlı-yanıqlı oxumaqla ürəyini soyudur:

***Gözəllərdə ayıb deyil gizlənmək,***
***Sən məndən gizlənmə, a sarı gözəl,***
***Yandırdın odlara yazıq canımı,***
***Bir dönüb baxmaqla, a sarı gözəl!***

Bu istəklilərin son görüşü olur. Ayrılığa tab gətirməyən Məryəm yaylaqda nakam eşqinə əlvida deyir. Yaylaqdan Şamlıya Məryəmin cənazəsini gətirirlər... El koxa Zamanı qınayır, amma artıq gec idi...

Bu dəhşətli hadisə Aşıq Ağaməmmədi diri-diri yandırıb-yaxır... Uzun müddət el məclislərində çalıb oxumur. Ürək dərdlərini Məryəm həsrətli şerlərinə köçürür. Məryəmin şəninə düzdüyü dastan el məclislərinin bəzəyi olur. Həmin şerlərdən bir neçəsi yaddaşlarda əbədiləşə bilmişdir. "Aşıq Ağaməmməd və Məryəm" dastanından bir neçə yarpaq qalmışdır.

Ustad aşıq 1875-ci ildə Şamlı kəndində vəfat etmişdir.

### QALDI

*Üzü bəri baxan dağlar,*
*Mənim səndə yarım qaldı.*
*Əlim çatmaz, ünüm yetməz,*
*Güllü ahu-zarım qaldı.*

*Mən gedərəm, qalar izim,*
*Hanı məndə dərdə dözüm?*
*Bir kimsəyə yoxdu sözüm,*
*Kimə etibarım qaldı?*

*Aşıq Ağaməmmədin sözü,*
*Pozulmaz yazılan yazı,*
*Bizim koxa Zaman qızı,*
*Adı Məryəm-yarım qaldı.*

## AŞIQ MUSA
## (XIX əsr)

Aşıq Musanın soyadı, həyatı, yaradıcılığı haqqında dəqiq məlumat əldə edə bilmədik. Təkcə XIX əsrdə yaşadığını və Kolanı elatından olduğunu müəyyənləşdirdik. Bir cüngdən bu şerini əldə edə bildik:

*Həsrətini çox çəkmişəm,*
*Bizim dağlar, bizim dağlar.*
*Gözüm yollara tikmişəm,*
*Bizim dağlar, bizim dağlar.*

*Obam-elim yerindəmi?*
*Sənam-gölüm yerindəmi?*
*Qələm-qaşlım yerindəmi?*
*Bizim dağlar, bizim dağlar.*

*Bir taleyin qismətindən,*
*Bir ox dəydi düz sinəmdən,*
*Musa ayrı düşdü səndən,*
*Bizim dağlar, bizim dağlar.*

## AŞIQ ŞIXMİRHÜSEYN
## (XIX-1918)

Aşıq Hüseyn (el arasında Şıxmirhüseyn adlanır) təxminən, XIX əsrin II yarısında Şamaxı qəzasının Ağdərə kəndində anadan olub. O, gənc yaşlarından aşıqlıq sənətinə yiyələnə bilmişdir. Deyilənlərə görə, o, Xaçmaz ətrafındakı kəndlərdən birində varlı ailədən olan Turac adlı bir qızı sevmiş, lakin o, istəyinə qovuşa bilməmişdir... Aşıq Şıxmirhüseyn təkcə Şirvanda deyil, Quba, Dağıstan mahallarında da məşhur olmuşdur. Aşığın "Hüseyn və Turac" adlı dastanından bəzi qoşmaları əldə edə bilmişik. Aşıq Şıxmirhüseyn 1918-ci ildə Bakıda erməni cəlladları tərəfindən öldürülmüşdür.

### MÜHƏMMƏD

*Çağırram ürəkdən "lam" bir, "cim" iki,*
*Şövğilə gələndə adı Məhəmməd.*
*Salavatlar gül camala, ya Rəsul,*
*Din islamın ilk ustadı, Mühəmməd.*

*Sidqini bağladı şahlar-şahına,*
*Ona görə yetdi öz muradına,*
*Səcdə qıldı o, otuz cüz "Qurana",*
*Seçmədi doğmadan, yadı Mühəmməd.*

*Dayaq durdu o zəlilə, möhtaca,*
*"Rəf-Rəf" ilə qanad açdı "Meraca",*
*Hünərilə yetdi o taxtı-taca,*
*Hümbətinə yol aradı, Mühəmməd.*

*Mən Mirhüseynəm qəlbi ataşlı,*
*Ürəyi qubarlı, gözləri yaşlı,*
*Çox cəfalar çəkdim mən başı daşlı,*
*Yetdi mənə, var imdadı, Mühəmməd.*

## KÖNLÜM

*Gah sevinc, gah qəm udubdur,*
*Mənim viran olan könlüm.*
*Büdrəsə də heç sınmayıb,*
*Məhəbbətə heyran könlüm.*

*Məclisləri gəzə-gəzə,*
*Gah mey gördüm, gah da məzə,*
*Toyxanada süzə-süzə,*
*Şad olub, gah nalan könlüm.*

*Çox müşkül işlər bitirdi,*
*Sevgilər kama yetirdi,*
*Təbrik, qınaq da götürdü,*
*Haqqa qayil olan könlüm.*

*Hüseyn el sənətkarı,*
*Çox sınadım dostu, yarı,*
*Uca tutdu etibarı,*
*Əhdə sadiq qalan könlüm.*

# AŞIQ QAFAR
## (XIX-XX)

Aşıq Qafar Səməd oğlunun bir çox mənbələrdə adı çəkilir. Məsələn, tənqidçi V.Yusifli "Yolun düşsə Şirvana" adlı əsərində Cəyirli kəndində yetişən aşıqlar haqqında yazır: "Aşıq Fərəc, Aşıq Qafar, Aşıq Sərxan, Aşıq Məmmədağa, Aşıq Barat kimi sənətkarlar bu kəndin oğullarıdır". Apardığımız araşdırmalar zamanı Aşıq Qafar haqqında da müəyyən yeni məlumatlar əldə edə bildik. Məlum oldu ki, o, XIX əsrin II yarısında Cəyirli elatında anadan olmuş, XX əsrin əvvəllərində vəfat etmişdir. Aşıq Qafar həm də mədrəsə təhsili almışdır. Əsrimizin əvvəlində yazılmış bəyazdan aşığın beş şerini əldə etmişik. Nümunə verdiyimiz şer yeddilik formasındadır.

### DAĞLAR

*Səhər çıxdım seyrinə,*
*Verib başbaşa dağlar.*
*Sevgimizi andırır,*
*Durubdu qoşa dağlar.*

*Haqqına ola yazı,*
*Tapam sevdiyim qızı,*
*Heç kimin bəxt ulduzu,*
*Dəyməsin daşa, dağlar.*

*Yenə o gün olaydı,*
*Dərd, nə düyün olaydı,*
*Ömür vəfa qılaydı,*
*Yol sizə düşə, dağlar.*

*Yol uzun, ömür gödək,*
*Uğur ver yarı görək,*
*Qafar köçüb gedəcək,*
*Deyirəm, yaşa, dağlar.*

# AŞIQ FƏRƏC
## (XIX-1902)

Tədqiqatımız zamanı müəyyən etmişik ki, Aşıq Fərəc Bağı oğlu XIX əsrin 30-cu illərində Cəyirli elatında anadan olmuş, əvvəl kənd mollası yanında, sonra Şamaxıda mədrəsədə oxumuşdu. O, S.Ə.Şirvani, Mirzə Məhəmmədhəsən Nalə, Mahmud ağa Əhməd ağa oğlu ilə dost olmuşdur.

Aşıq Fərəc Şirvanın yaradıcı aşıqlarından olmuşdur. Deyilənə görə, cavan yaşlarında Aşıq Bilal onunla yaxından dostluq etmişdir. Aşıq Fərəc 1902-ci il zəlzələsinin qurbanlarından olmuşdur. Mərhum Aşıq Baratın dediyinə görə, Aşıq Fərəc onun uzaq qohumlarından olmuşdur... Aşıq Barat və mərhum filologiya elmləri doktoru Əhməd Cəfərzadə və gözəl pedaqoq Abdulla Rəcəbovdan Aşıq Fərəcin on dörd şerini əldə etmişik... Bu şerlər aşığın istedadlı şair olmasını bir daha təsdiqləyir...

### EYLƏR

*İnsan oğlu şərlə oynamasa heç,*
*Bacarıb, hər zaman savablıq eylər.*
*Qalan işlər qadir Allah işidir,*
*Hər dərdə çarəni o xaliq eylər.*

*Nanəcib səmərə verəmməz elə,*
*Bacar adını da gətirmə dilə,*
*Gədanın başına tac qoysan belə,*
*Taxtda otursa da, gədalıq eylər.*

*Bədəsil xar edər elin, özünü,*
*Bilməz qibləsini, əyri-düzünü,*
*Əsil olan tutar ağıl sözünü,*
*Təmiz bir ad qoyar uzaqlıq eylər.*

*Arzular, ümidlər yolda qalmaya,*
*Pardaxdana, çiçək aça, solmaya,*
*Bir evdə ki, böyük-kiçik olmaya,*
*O xanə od tutar, ziyanlıq eylər.*

*Adam haqqın mətləbini bilməsə,*
*Qoşulub cümləyə verməz səs-səsə,*
*Zaman bəd gəlib, dövran gülməsə,*
*Eldə gədə-güdə ağalıq eylər.*

*Aşıq Fərəc deyər, uyma şöhrətə,*
*Hər şey ötərgidi, bax həqiqətə,*
*Alçağa baş əymə, getmə minnətə,*
*İnsanlıq adını nəlayiq eylər.*

## AŞIQ İSMİ
## (1860-1918)

İsmi Məmmədnəbi oğlu 1860-cı ildə Şamaxı qəzasının Sündü kəndində anadan olub. Uşaq ikən atadan yetim qalmışdır. Yaxşı səsi olduğu üçün kənd toylarında oxuyarmış. Deyilənlərə görə, bir təsadüf nəticəsində Əngəxaranlı Aşıq Xəlillə tanış olur və ondan aşıq sənətinin sirlərini öyrənir, 25-30 yaşlarından müstəqil aşıq kimi fəaliyyət göstərmişdir. O, Quba adlı bir qızla evlənmiş "İsmi və Quba" adlı dastan yaratmışdır. Həmin dastandan bir neçə şer bizlərə gəlib çatmışdır. O, 1918-ci ildə vəfat etmişdir.

### SARI

*Mən baxdıqca uca dağlara, doğru,*
*Gördüm güllər sap-sarıdır, ha sarı.*
*Tərəkəmələr qurub neçə alaçıq,*
*Banıstanı, quzu küzü, hasarı.*

*Sar quşlara necə meydan oxudu,*
*Elə bil ki, lələkləri ox idi,*
*Qürrəliyi, lovğalığı çox idi,*
*Tərlan necə yaxaladı ha sarı.*

*İsmiyəm yad yerdə qalmaram barı,*
*Yetəm elə, bitə könlümün barı,*
*Barxanamı quram, çəkəm bir barı,*
*Könül çəkdi məni Vətənə sarı.*

## BİLSƏN

*Aşıq yaranandan qəmə yoldaşdır,*
*Yoxdu mən tək bəxti qara, bil, sən*
*Əhli-hal yetişir, xeyir-şər üçün,*
*Düşür eldən-elə avarə bilsən.*

*Nələr çəkmir fitnə-fəsad əlindən,*
*Yaralanır neçə nadan dilindən,*
*Bir bülbülsə ayrı düşsə gülündən,*
*Alışır günahsız odlara, bil sən.*

*Pərizadı, Zərniyarı yetirən,*
*Şotan adlı bir oğlunu itirən,*
*Zərputa yarını cana gətirən,*
*Fələk, yetməyənə et çarə, bil sən.*

*Əzəldən olmusan bəxti kəm, İsmi,*
*Cisminə sığardı bu aləm, İsmi,*
*İndi sənə həmdəm olub qəm, İsmi,*
*Çək bu dərdi görüm, bacara bilsən.*

# AŞIQ SOLTAN
## (XIX əsr)

Aşıq Soltan da haqqında geniş məlumat olmayan sənətkarlardandır. XIX əsrdə yaşadığı güman edilir. Deyilənə görə o, gözəl saz çalıb oxuduğu kimi, gözəl də şerlər yazırmış. Başqa bir məlumata görə o, həm də yaxşı çarıq tikə bilirmiş. Özü də Dağ Kolanının Goran tayfasından olub.

*Deyim, siz də dərdim bilin,*
*Məni yaman çaldı bu qız.*
*Ayrı düşdüm el-obamdan,*
*İxtiyarım aldı, bu qız.*

*Bəy-buxunu nə görməli,*
*Alma yanaq, ləb yeməli,*
*Çox şirin dilli, əmməli,*
*Bircə çanaq qandı, bu qız.*

*Soltanam, dərdə düşmüşəm,*
*Eşqin şərbətin içmişəm,*
*Abır-həyadan keçmişəm,*
*Məni çölə saldı, bu qız.*

## AŞIQ MÜRSƏL
### (XIX əsr)

Mürsəl Babaş oğlu XIX əsrdə yaşayıb-yaratmışdır. Şirvanın Dağ Kolanı elatında anadan olmuş, Şamaxıda vəfat etmişdir. Ulu sənətin sirlərini atasından – Aşıq Babaşdan öyrənmiş, sonra da məşhur Aşıq Səmədin şagirdi olmuş, Mirzə Bilal, Aşıq Daşdəmir və b. ilə dostluq etmişdir. Onun qoşma və gəraylıları vaxtilə aşıqlar tərəfindən məclislərdə oxunmuşdur. Həmin şerlərin bir neçəsini toplaya bilmişik.

### GÜNDƏN

*Ustaddan dərs alıb dolub, bişmişəm,*
*Söz mülkündə uca zirvə aşmışam,*
*Bəzi məclislərdən uzaq düşmüşəm,*
*Hörmətilə izzət azalan gündən.*

*Oyun imiş kökdən fələyin işi,*
*Əskik olmur bir an onun təşvişi,*
*Çəpə çəkir hərdən çərxin gərdişi,*
*Həqiqətin gücü pozulan gündən.*

*Mürsələm oxuyub kamala doldum,*
*Gül olub açıldım, vədəsiz soldum,*
*Yusif kimi mülki-didərgin oldum,*
*Bəxtimə bu günlər yazılan gündən.*

## BİLDİM

*Saz qurşayıb məclislərə varandan,*
*Sözün qüdrətini deyəndə bildim.*
*Əsdi başım üstən səmum yelləri,*
*Ömür pəncərəmi döyəndə bildim.*

*Yazdım, yaratdım, tuti dil ilə,*
*Həmrəy oldum ulus ilə, el ilə,*
*Həyatın mənasın duydum yol ilə,*
*Başım daşdan-daşa dəyəndə bildim.*

*Cavanlıq, qocalıq yarışdı bir-bir,*
*Demə tənəzzülçün çəkirmiş tədbir,*
*Tərəqqimi aldı ehtiyac əsir,*
*Fələk qamətimi əyəndə bildim.*

*Kolanı Mürsələm kamalım duru,*
*Bir vaxt oldum el-obanın məşhuru,*
*O vaxt ki, azaldı çeşmimin nuru,*
*Düşürəm əlacsız kəməndə bildim.*

## ŞİRİN-ŞİRİN

*Səhər-səhər badi səba əsəndə,*
*Köksünü köksümə gər şirin-şirin.*
*Qoy duraq göz-gözə, xəyala varaq,*
*Ağ üzündən busə ver, şirin-şirin.*

*Sənsən var-dövlətim, binadarlığım,*
*Sən mənimlə olsan, yox qaranlığım,*
*Günü-gündən cavanlaşır varlığım,*
*Hər mənə deyəndə ər, şirin-şirin.*

*Kolanı Mürsələm, ay boyu bəstə,*
*Bəxtimə tuş olub, sən tək növrəstə,*
*Gətir tər buxağı qoy üzüm üstə,*
*Qarışsın cismimə tər şirin-şirin.*

## AŞIQ ƏHMƏD
### (XIX əsr)

Bu sənətkarın da soyadını öyrənə bilmədik. XIX əsrdə yaşadığı güman edilir. Aşığın təkcə möhür bəndi yadigar qalan şerindən onun Dağ Kolanıdan olması bəllənir. Şerdən bir də o məlum olur ki, Kolanı torpağına yağılar hücum edəndə düzmüşdü aşıq bu şeri!...

***Əhmədəm Dağ Kolanının övladı,***
***Qoymaram bu yerə düşməni, yadı,***
***Qəbul etmək olmaz şərəfsiz adı,***
***Ay oğullar, bir silaha sarılın.***

## AŞIQ CANALI
### (1880-1946)

Canalı Həsənalı oğlu 1880-cı ildə Şamaxı qəzasının Nabur kəndində anadan olub. O, aşıqlıq sənətinin sirlərini Aşıq İbrahimdən öyrənmişdir. Onu balabanda müşayət edən qardaşı Canyar olmuşdur. Aşıq Canalı 1937-ci ildə həbs edilib, Sibirə göndərilmişdir. O, beş ildən sonra sürgündən azad edilmişdir.

O, həm də gözəl şerlər müəllifi olmuşdur. Aşıq Canalı Sufayı adlı bir qadınla evlənmişdir. O, Sufayıya həsr etdiyi şerlər əsasında "Canalı və Sufayı" adlı bir dastan da bağlamışdır. Aşıq Canalı 1946-cı ildə vəfat etmişdir.

### GÖRMÜŞƏM

***Dolandım elləri mən qarış-qarış,***
***Neçə əyri, neçə dürüst görmüşəm.***
***Məclislər içində cövlan eyləyib,***
***Neçə kamil, neçə naqis görmşəm.***

*Açdım kitabları hey varaq-varaq,*
*Çox müşkül işlərdən olmuşam agah,*
*Sözün hərisindən ilham alaraq,*
*Heca, vəzn, təxmis, təcnis görmüşəm.*

*Kimi var həvəsdə, kimi şöhrət-şan,*
*Hərə bir növ gəlir kökdən, binadan,*
*Kiminin qəlbini tez alır şeytan,*
*Kim gözü tox, kimi həris görmüşəm.*

*Düşmənsiz bir şəxs də deyildir bəşər,*
*Onsuz da məğlubdur həqiqətə, şər,*
*Qədir bilən ola ağa, ya nökər,*
*Dost yolunda çoxlu munis görmüşəm.*

*Zaman da durmayır heç vaxt bir anda,*
*Gah çil-çıraq olur, gah dolu qanda,*
*Bəzən həqiqət də susur zamanda,*
*Dövranı gah yaxşı, gah pis görmüşəm.*

*Elmi təriqətdən vardır xəbərim,*
*Elə bəlli olub sinədəftərim,*
*Canalıyam haqqa qurbandır sərim,*
*Neçə surə, ayə, hədis görmüşəm.*

## VAR Kİ, ÖLMƏDİM

**Sürgündən qayıdarkən**

*Allahım üzmədi, döndüm Vətənə,*
*Beləymiş qismətim var ki, ölmədim.*
*Elə bildim gəldim imana, dinə,*
*Dikəldi qamətim, var ki, ölmədim.*

*Qucub öpdüm Vətən torpağını mən,*
*Can qurtardım qəribliyin əlindən,*
*Yaralarım şəfalandı bədəndən,*
*Dedim, məhəbbətim var ki, ölmədim.*

*Hax darda sıxılar, sınmaz, üzülməz,*
*Məskənim oldusa, o gedər gəlməzə,*
*Mənə dayaq durdu gözə görünməz,*
*Qadiri qüdrətim var ki, ölmədim.*

*Canaliyəm qəm çəksəm də qürbətdə,*
*Elim unutmadı məni heç vədə,*
*Dadıma yetişdi yeri düşəndə,*
*Əziz cəmahətim var ki, ölmədim.*

## AŞIQ HÜMBƏT
### (1880-1959)

1880-ci ildə Şamaxı qəzasının Nabur kəndində anadan olub. O, aşıqlıq sənətinin sirlərinə tam bələd bir sənətkar olmuşdur. Aşığın əldə etdiyimiz şerlərindən onun saza-sözə dərindən bağlılığı bir daha yəqinləşir. O, həmyerliləri Aşıq Canəli, Naburlu Badamla deyişmiş, Aşıq Şamıl, Aşıq Abbasla dost olmuşdur. Aşıq Hümbət 1959-cu ildə vəfat etmişdir.

**Aşıq Xanışın yaddaşından:** "Aşıq Hümmət 70 yaşında öz cürə sazından ayrılmamışdı. Mən hərdən gedib, onunla görüşərdim. Dastanları çox mükəmməl bilirdi. Sazı gözəl çalırdı. Zil, qaltanlı, məlahətli səsi var idi. Bir çox toylarda da onu görmüşdüm. "Seydi", "Nigar", "Mahmud", "Dülusuz və Xəzangül", "Yetim Aydın", "Tahir – Zöhrə" dastanlarını yana-yana deyərdi, çalanı Canyar, sonra Əmirxan, dəmkeşi Qasım, nağaraçıları Mirzəhməd, Ağamirzə, Müseyib oğlu Məhəmməd olardı, yerdə oxuyanı Zülfüqar, çağanlı Hüseyn və başqaları olardı. Son vaxtlar azan çəkərdi".

### İLLƏR

*İllərin ardınca baxıram bu gün,*
*Görürəm evimi yıxıbdır illər.*
*Laylasilə, ağısilə oxşayıb,*
*Sıyrılıb, aradan çıxıbdır illər.*

*Elə vurulmuşam mən bu peşəmə,*
*O günlər ömürdən gedirmiş demə,*
*Aldadıb, aldadıb fəqət, döşümə,*
*Qocalıq nişanın taxıbdır illər.*

*Bəzən də bəxtimə bəd düşüb zərlər,*
*Hitlerin gözünə çəkilsin millər,*
*Qəfildən itirdim neçə şiri-nər,*
*Köksümü yandırıb yaxıbdır illər.*

*Bənd olandan Zərputa tək sənəmə,*
*Hümbət, ünüm car olubdur aləmə,*
*Gah məlhəm tək yayılıbdır sinəmə,*
*Gah da ildırım tək çaxıbdır illər.*

## ŞÜKÜR

*Bir dəstə qız gördüm bulaq başında,*
*Dedim ki, nəqş edən qələmə şükür,*
*Qanlar oynar kipriyində, qaşında,*
*Bəzəkdir hər biri aləmə, şükür.*

*Nigardır, Həcərdir sanki hər biri,*
*Nə biri xırdadır, nə biri iri,*
*Bir təndə boy, buxun, tay bərabəri,*
*Xub yaraşır doğma elimə şükür.*

*Yeddi gözəl al qumaşa bürünüb,*
*Bir almadır yeddi yerə bölünüb,*
*Sanki göydə təzə ulduz görünüb,*
*Kəlməşədat[1] gəldi dilimə, şükür.*

*Hamı bir-birindən əladı, başdı,*
*Hümmətəm görüncə kamalım çaşdı,*
*Ağlım zayil oldu, dilim dolaşdı,*
*Dedim: Gülüstanda gülümə şükür.*

[1] Kəlmeyi-şəhadət

## A HÜMBƏT [1]

*Qarğa gəlib dad istəyir, a Hümmət,*
*İsağ da arvad istəyir, a Hümmət.*
*Çək atları, yəhəri bas belinə,*
*Elçi göndər Qobustanın elinə,*
*Bir hallıca, dulluca arvad axtar,*
*Bir varlıca, pulluca arvad axtar.*
*Çox da yaşı altmışı adlayıb,*
*Eşqin təcallası başına vırıb,*
*Kərəm kimi Əsli deyib ağlayır,*
*Dost-aşnanın sinəsini dağlayır.*
*Öz könlünü şad istəyir, a Hümmət,*
*İsağ da arvad istəyir, a Hümmət.*

*Yığ dəstəni, köklə zurna, qavalı,*
*Çal-çağır et, çıxsın dərdi-zavalı.*
*Bir məclis qur cavanlara görk ola,*
*Bu qəm-qüssə təzə "bəydən" tərk ola.*
*Gəlin gətir, hal-əhvalı düzəlsin,*
*Məşşatəni çağır, onu bəzəsin.*
*Qoy dastana düşsün İsağın adı,*
*Hasil olsun "möcüzəli" muradı,*
*Damağına dad istəyir, a Hümmət,*
*İsağ da arvad istəyir, a Hümmət.*

## AŞIQ QURBAN
### (1896-1940)

Aşıq Qurban 1896-cı ildə Şamaxı rayonunun Ağdərə kəndində anadan olub. Aşıqlıq sənətinin sirlərini ustad Aşıq Bilaldan öyrənmişdir. O, yaradıcı aşıq olmuşdur. Deyilənə görə, **"Qurban və Tükəzban"** adlı dastan bağlamışdır. Çox əfsus ki, həmin dastan və şerlərinin çoxu itib-batmışdır. Aşığın iyirmiyə qədər şerini əldə edə bilmişik. O, təxminən, 1940-cı ildə vəfat etmişdir.

---
[1] İsağ adlı, yaşı altmışı ötmüş zarafatcıl bir kişinin arvadı dünyasını dəyişir. O, Aşıq Hümmətlə dost idi. Söz arası, o, Hümmətə öz arzusunu - yəni arvad almaq istəyini bildirir. Aşıq Hümmət bu müxəmməsi o münasibətlə yazır.

## QALDI

*Ozan olub gəzdim eli sərbəsər,*
*Ürəyimdə yenə həsrətim qaldı.*
*Ana, bacı bildim qızı, gəlini,*
*Dedim, bəlkə dürüst söhbətim qaldı.*

*Cəfa çəkdim, cövr elədim, yar sevdim,*
*Könül verdim, ümid etdim, sevindim,*
*Onu da vədəsiz salıb itirdim,*
*Dərd əlindən quru möhnətim qaldı.*

*Ağdərə soyadım, mərd Aşıq Qurban,*
*Kam almadım heç bu gidi dünyadan,*
*Bildim ki, qonağam, köçərəm hər an,*
*Ruqiyyəm, Əlağam, Nüsrətim qaldı.*

## LƏNƏT

*Duyanlar dərk edir nədir bu dünya,*
*Ona tam etibar edənə lənət.*
*İnsan kimi yaşa, təmiz adla öl,*
*Onda günah alıb gedənə lənət.*

*Paxıllıq, xainlik olub mayası,*
*Dosta, yada atıb yüz tələ tası,*
*Silə bilməyibsə, könüldən pası,*
*Qəlbini qurd kimi didənə lənət.*

*Qonşu müqəddəsdir qədrini bilsən,*
*Onu əziz saxla, hörmət elə sən,*
*Qurban deyir, əyər haqqı bilməsən,*
*Belə çürük başa, bədənə lənət.*

# XİLƏLİ AŞIQ XEYRULLA (XIX-XX)

Aşıq Xeyrulla Əli oğlu XIX əsrin sonunda Şamaxı qəzasının Xilə elatında doğulmuşdur. O, Şirvan aşıq mühitinin ən ünlü sənətkarlarından biri olmuşdur. (Araşdırmalarımızda dəqiqləşdirmişik ki, Xilə[1] elatında altı nəfər aşıq olmuşdur). Yaddaşlardan bəlli olur ki, o, "Aşıq Xeyrulla və Minəbəyim" dastanını yaratdığı kimi, yüzlərlə şer də yazmışdır. Deyilənlərə görə, məlahətli səsi olan Aşıq Xeyrulla mağarlarda oxuyanda məclis əhli inan ki, ovsunlanar, heyranlıqla qulaq kəsilərdi, bənzərsiz səsə, avaza... Əfsuslar ki, həmin dastandan bir neçə yarpaq, şerlərindən isə ancaq on beşini əldə edə bilmişik...

## DÜŞÜBDÜR [2]

*Əziz yarım deyirsən ki, qəm etmə,*
*Vətənsiz bu günüm qara düşübdür.*
*Daş deyil, ürəyim dolu dünyadır,*
*Cövr edib, sıxılıb, dara düşübdür.*



Xilə piri

[1] Xilə elatı Qozlu çayın ərazisində yaşamışdır. Bu elat Şamaxının ən böyük elatlarından olmuşdur. "Xil" sözü xalq yozumunda elə "çox", "çoxlu" mənasında işlədilir. XIX əsrdə malakanlar həmin ərazini zəbt etmiş, xilələri oradan sıxışdırıb çıxarmışlar. Həmin əhali Salyan, Əli-Bayramlı, Hacıqabul rayonuna köçmüşlər. Xilələrin Xilmililli ərazisində olan qədim qəbristanlığı günümüzə çox söz deyir.

[2] Aşıq şeri Xilə həsrətilə yazmışdır

*Yandırır cismimi sinə dağlarım,*
*Hanı eldə deyib, gülən çağlarım,*
*Əlvan otaqlarım, barlı bağlarım,*
*Gedib baxsan, nə didara düşübdür.*

*"Xilə dağı" Şah dağ ilə qoşadır,*
*Nurlu kəhrizlərim bir tamaşadır,*
*"Qozlu çay" indi gör kimi yaşadır,*
*Xoş günümüz ixtisara düşübdür.*

*Aşıq Xeyrəullayam, üzər qəm məni,*
*Tərk etmişəm allı-güllü çəməni,*
*Doğma yuvam əldən çıxıb gedəni,*
*Külli günüm ahi-zara düşübdür.*

## DÜŞÜB

*Başı bəlalı millətim,*
*Ömrü boyu qana düşüb.*
*Hər gələn ağalıq edib,*
*Gündə bir ziyana düşüb.*

*Neçə yol dara çəkilib,*
*Monqol gedib, əcəm gəlib,*
*Yurdumu tarmar edib,*
*Gah bəyə, gah xana düşüb.*

*Yandırıb evlərimizi,*
*Xakollar[1] kor qoyub bizi,*
*Neçə bədbəxt oğul, qızı,*
*Günahsız zindana düşüb.*

*Xeyrullayam, Xilə elim,*
*Çar eylədi bizə zülüm,*
*Xalqım oldu para-bölüm,*
*Hərəmiz bir yana düşüb.*

[1] Xakollar - Malakanlar nəzərdə tutulur

# AŞIQ ABBAS
## (1902-1966)



Aşıq Məmmədağa və Aşıq Abbas (sağda)

Aşıq Abbas Ağabala oğlu Söhbətov 1902-ci ildə Şamaxı qəzasının Cəyirli kəndində anadan olmuşdur. Cəyirli kəndi tarixən aşıq sənətinin beşiyi olmuşdur. **Aşıq Fərəc, Aşıq Qafar, Aşıq Sərxan, Aşıq Məmmədağa, Aşıq Barat** bu kəndin suyundan içib, pərvazlanmış, el məclislərinin bəzəyi olmuşlar.

Şirvan aşıq sənətinin inkişafında Aşıq Bilaldan sonra onun şagirdi Abbasın xidmətləri əvəzsizdir. Əlli ildən artıq aşıqlıq etmiş, neçə-neçə istedadlara yol göstərmişdir. Onun şagirdlərinin çoxu respublikamızın tanınmış saz-söz ustaları olmuşdur. **Aşıq Bəylər, Aşıq Xanmusa, Aşıq Şirsoltan, Aşıq Məmmədağa, Aşıq Barat, Aşıq Şərbət** və başqaları böyük sənətin sirlərini ondan öyrənmişlər.

Aşıq Abbas təkcə Şirvanda deyil, Qubada, Dərbənddə də məşhur olmuşdur. Hazırda Ağsuda, Kürdəmirdə, Göyçayda, Salyanda onunla bağlı neçə-neçə xatirələr danışan yaşlılar vardır... Əfsus ki, həmin xatirələri toplanılmamışdır. Bir vaxtdan sonra isə gec olacaqdır...

Şagirdlərinin dediyinə görə, Aşıq Abbas özü neçə-neçə saz havası yaratmışdır.

Aşıq Abbas şöhrət güdmədiyindən öz yazdığı şerlərini də yazıya almamışdır. Başqaları da bu işə biganə olmuşdur. Qədirbilməz-

lik isə bizim qanımızdadır. Dədə Ələsgər şerlərini özü vaxtında yazıya köçürmüşdürmü?[1] Aşıq Abbas 1966-cı ildə vəfat etmişdir.

## MƏNİM

*Neçə insanlarla dostluq eylədim,*
*Olmadı üzümə gülənim mənim.*
*Bir övlad üzünə həsrət kəsildim,*
*Hanı göz yaşımı silənim mənim?*

*Deyin, kim olardı, kim mən həvəsdə?*
*Vaxt vardı deyərdim, "Qədim şikəstə",*
*İndi artıb dərdim olmuşam xəstə,*
*Olmadı qədrimi bilənim mənim.*

*Çox sınıq könüllər abad eylədim,*
*Neçə şəyirdləri ustad eylədim,*
*Dərdə düşdüm, dadi-bidad eylədim,*
*Olmadı qədrimi bilənim mənim.*

*Mən Abbasam Cəyirlidi məkanım,*
*Quzeyli yaylaqlar ola dərmanım,*
*Əyər xəstələnsə, qəddar düşmənim,*
*İstəmərəm olsun ölənim mənim.*

## YOX

*Köçür bala-bala ömür karvanım,*
*Yollar uzaq, dost tanışdan gələn yox.*
*Zəmanədən razı qalan görmədim,*
*Qəhr əlindən ağlayan çox, gülən yox.*

*Dosta gəc baxana yağı deyərlər,*
*Eldə sonsuzlara ağı deyərlər,*
*Dünya ki, var ona baqi deyərlər,*
*Nasaq verən olar, dərdi bilən yox.*

[1] S.Qəniyev. Mən Abbasam Cəyirlidi məkanım, Bakı, 2002

*Bu sənət taxtında hökmran Abbas,*
*İndi günüm keçib alış, yan Abbas,*
*Yar vəfasız, hanı deyən, can Abbas?*
*Yaxın durub göz yaşımı silən yox.*

* * *

*Var-dövlət puç şeydir, axırı yoxdur,*
*Xoş o kəsə nəfsi yox, gözüsə toxdur,*
*Qanan gəlsin, halal süfrəm açıqdır,*
*İlqar iman, haqqı-salam məndədi.*

*Taleh mənə qıymasa da bir övlad,*
*Qismətə qaneyəm, etmədim fəryad,*
*Neçə "bala quşa" vermişəm qanad,*
*Şagirdlərim-doğma balam məndədi.*

*Abbas, mən qurbanam haqqı əsasa,*
*İmamlar yolunda batmışam yasa,*
*Vurulmuşam Qurbaniyə, Abbasa,*
*Onlar yaratdığı kalam məndədi.*

## AŞIQ XANBALA
## (1905-1947)

Aşığın həyat və yaradıcılığı haqqında əldə olan məlumatlar azdır. Doğmalarının xatirələri və söylədiklərindən aydın olur ki, o gözəl təbə, fitri istedada malik sənətkar olmuşdur. Həmişə haqsızlığa, ədalətsizliyə etiraz səsini ucaltdığı kimi, düzlüyün, xeyirxahlığın da tərəfdarı olmuşdur.

Aşıq Xanbala 1905-ci ildə Şamlı kəndində anadan olmuş, 1937-ci ildə malı-dövləti "dolk" edilmişdir. Çətinlik, haqsızlıq girdabında boğulan el sənətkarı cavan yaşında – 1947-ci ildə vəfat etmişdir.

*Bir gözəl sevmişəm bizim ellərdə,*
*Məcnun tək dərdindən oldum avara.*
*Həsrətindən gecə-gündüz sızlaram,*
*Onu görcək canım düşdü azara.*

*İkimizdə bir biçimdə, bir şəstdə,*
*Çiçək təravətdə, bülbül həvəsdə,*
*Oxuram dərdindən qəmli şikəstə,*
*Dözmərəm eşqində min ahu-zara.*

*Tovuzdan o yana – Zəyəmdən bəri,*
*Onu görcək başım oldu sərsəri,*
*Xudam, yar olaydı, gələydi bəri,*
*Onnan olar bu dərdimə bir çarə.*

*Xanbalayam, eşq içində varım var,*
*Aləm bilir namusum var, arım var,*
*Lalə kimi bir istəkli yarım var,*
*Belə ceyran bir də gəlməz bazara.*

## AŞIQ ALLAHVERDİ

Aşıq Allahverdi Əliyev 1912-ci ildə Şamaxı qəzasının Damlamaca kəndində anadan olmuşdur. Uşaq yaşlarından ata və anadan yetim qalan Allahverdi Ərəbqədim kəndinə qohumlarının yanına gedir. Bizə göndərdiyi məktubunda bu barədə yazır: "Ərəbqədim kəndində varlı-karlı Süleyman oğlu Gülbalaya nökər oldum. (Ləqəbi Çalpapaq idi). İki il nökər işlədim. Axırda Gülbala məni qovdu"[1]... Sonra o Qızılburun kəndinə köçür və orada yaşayır. Dediyi kimi, bir saz alıb Aşıq Abbasdan bu sənətin sirlərini öyrənməyə başlayır.

### ŞİRVANA BİR GƏL

*Aşıq qardaş, ilin hər fəsilində,*
*Gül-çiçək üzməyə Şirvana bir gəl.*
*Lalədən, nərgizdən, tər bənövşədən,*
*Dəstələr üzməyə Şirvana bir gəl.*

*Şeh də bərqə vurub gül yarpağında,*
*Bülbül fəğan edir gül budağında,*

[1] Aşığın məktubu müəllifdədir

*Dostluq bağçasında, dostluq bağında,*
*Saz çalıb süzməyə Şirvana bir gəl.*

*Ellər olub qonağı çox o elin,*
*O, gözəl ellərdə neçə şairin,*
*Xəqaninin, Seyid Əzimin, Sabirin,*
*Vətənin gəzməyə – Şirvana bir gəl.*

*O yerləri gəzib görübdür hamı,*
*Allahverdi ordan alıb ilhamı,*
*Əlinə alıbdır dəftər, qələmi,*
*Şerlər yazmağa Şirvana bir gəl.*
*Nəğmələr düzməyə Şirvana bir gəl.*

## GEDƏR

*Xalq ilə hər zaman xoş ülfət olsan,*
*Əməlin aləmdə ad olub gedər.*
*Sənə can deyənə, sən də can desən,*
*Onun qəlbi səndən şad olub gedər.*

*Sındırma bir könül, nə qəlbə dəymə,*
*Sən dindir hər kəsi xoş kəlmə-kəlmə,*
*Dostundan ayrılıb, yada baş əymə,*
*Məhəbbət aradan yad olub gedər.*

*Namərd olub mərd kəsləri izləmə,*
*Namərd kəsdən heç bir aman gözləmə,*
*Allahverdi, sinə sözün gizləmə,*
*Söyləsən ellərdə ad olub gedər.*

# AŞIQ BARAT ŞİRVANLI
## (1916-1998)

Aşıq Barat Əhmədbəy oğlu Məmişov (Şirvanlı) 1916-cı ildə Şamaxı qəzasının Cəyirli kəndində anadan olmuşdur.

Cəyirli kəndində sənətkarlar çox olmuşdur. Belə bir mühitdə böyüyən Barat daha çox aşıq sənətinə rəğbət bəsləyir. Atasının məsləhəti ilə ifaçı aşıq Soltanmurad Tərlan bəy oğlunun yanında şagird durur. Şaqraq səsi olan Barat sazın, aşıqlıq sənətinin sirlərini tez bir zamanda öyrənir. Ustad xeyir-duası alır. Ən nahəyət, 1953-cü ildən müstəqil aşıqlığa başlayır. Elə ilk vaxtdan Şirvanda məşhurlaşır. El məclislərində daha da püxtələşir, kamilləşir. Quba, Dərbənd, Salyan, Göyçay, Kürdəmir, Gəncədə el məclislərinə hörmətlə dəvət olunur.


Aşıq Barat (soldan üsüncü) sənət dostları ilə

Respublikamızda, ittifaqda keçirilən festivalların iştirakçısı olur, böyük uğurlar qazanır, belə ki, böyük ustad on dəfə Ümumittifaq festivalının laureatı olmuşdur. Moskvada keçirilən ongünlükdəki çıxışı isə qızıl medala layiq görülmüşdür.

Aşıq Barat üç dəfə Azərbaycan aşıqları qurultayına nümayəndə seçilmişdir. Aşıq Barat Şirvanlı 1998-ci ildə vəfat etmişdi.

## ŞİRVAN

*İstəyirəm saz götürəm, söz qoşam,*
*Səsimcə göylərə ucala Şirvan.*
*Oğulların sayəsində yetişdin,*
*Gözəl günə, gözəl iqbala Şirvan.*

*Məhsullu zəmilər, fermalı dağlar,*
*Turaclı səhralar, meyvəli bağlar,*
*Gündən-günə artıb sel kimi çağlar,*
*Əcəb bürünmüsən sən ala, Şirvan.*

*Xəqani, Nəsimi burda boy atdı,*
*Seyid, Sabir, Səhhət yazıb-yaratdı,*
*Hər biri sənətə bir kainatdı,*
*Şerdən qurmusan bir qala, Şirvan.*

*Sülh işi ilk arzun, diləyin olmuş,*
*Elim, obam arxan, köməyin olmuş,*
*Üzümlü bağların bəzəyin olmuş,*
*Əhsən, bu dövrana, bu hala, Şirvan.*

*Biz qurduqca azad günlər durmadan,*
*Həyatımız olur gözəl, firavan,*
*Aşıq Barat tərəfində hər zaman,*
*Mahnı qoşa, daim saz çala, Şirvan.*

## GÖRÜM SƏNİ

*Bizim elin, a yaşılbaş sonası,*
*Gəl mənim könlümdə üz görüm səni.*
*Çırpınıb, qalxanıb çıx sinəni gər,*
*Bulaq kənarında gəz görüm səni.*

*Əndəlib naxışlı, ey mina gərdən,*
*Üzmə aşiqindən nazını hərdən,*
*Siyah tellərinə inci, sədəfdən,*
*Narın-narın bəzə, düz görüm səni.*

*Yaranandan gül üzlüsən, məzəsən,*
*Gəl Baratın məclisini bəzə sən,*
*Yayın bədnəzərdən gözə gələrsən,*
*"İnnabı" çalınsın süz görüm səni.*

# AŞIQ SOLTANMURAD
## (1922-1961)



Aşıq Soltanmurad Tərlan bəy oğlu 1922-ci ildə Şamaxı qəzasının Sündü kəndində doğulmuşdur. O, aşıq sənətinin sirlərini ilk dəfə həmyerlisi Aşıq Nizam və balabançı Xanış Asdan oğlundan öyrənmişdir. Daha sonra iki il Aşıq Abbas Söhbətovun yanında şagirdlik etmişdir. Böyük Vətən müharibəsindən sonra ömrünün sonuna kimi el məclislərinin bəzəyi olmuşdur. O, 1961-ci ildə, cavan yaşında dünyasını dəyişdi. Aşığın şerləri toplanıb çap edilmişdir.

### HARDAYAM

*Məni oda salıb yandıran, dilbər,*
*Səndən ayrılanı intizardayam.*
*Məcnun kimi səhraları gəzirəm,*
*Qövr edir yaralar, ahu-zardayam.*

*Kimim var ki, halım sənə yetirə,*
*Cəfa çəkib müşkülünü bitirə,*
*Səndən mənə bircə soraq gətirə,*
*Onu bil ki, Mənsur kimi dardayam.*

*Soltanmurad deyər, bu nə zamandı?*
*Nadanlar əlindən ürəyim qandı,*
*Sənsiz dünya gözlərimdə zindandı,*
*Bir görəydi şux tərlanım, hardayam?*

# AŞIQ ŞİRSOLTAN
## (1924-1988)

Aşıq Şirsoltan Məhəmməd oğlu 1924-cü ildə Şamaxı rayonunun Nabur kəndində doğulmuşdur. Şirsoltanın atası Məhəmməd gö-



zəl səsə, təbə malik bir insan olduğu kimi Azərbaycan dastanlarını da əzbərdən bilirdi. Odur ki, Şirsoltanın uşaq yaşlarından aşıq sənətini sevməsində atası Məhəmmədlə yanaşı, sinədəftər anası Turunc və nənəsi Narınc xanımın xüsusi xidmətləri olmuşdur. Şirsoltan bu böyük sənətin sirlərini, sonralar Aşıq Abbasdan öyrənmişdir. Aşıq Şirsoltan 1988-ci ildə vəfat etmişdir.

## VAR

*Dinim islam dini, ismi Məhəmməd,*
*Allahın yolunda ibadətim var.*
*Ustadım Şıx Eyyub, pirim Pirsaat,*
*Cəmi evliyaya məhəbbətim var.*

*Bütün əsli-kököm dinə bağlıdır,*
*Yeddi qat dönümüm hamı molladır,*
*Qobustanda dədəm nur çırağımdır,*
*Namaza, oruca dəyanətim var.*

*Ustadnamələrim din xidmətində,*
*Qayiləm, sadiqəm el adətində,*
*Əlidir dadıma yetən çətində,*
*İmamlar eşqində bil xidmətim var.*

*Fanidə qonağam, baqidə doğma,*
*Əməli mələklər yazır dağıma,*
*Nadanlar xalidir bu növrağıma,*
*Torpağam, torpağa pak niyyətim var.*

*Şəriət, təriqət çıxmaz yadımdan,*
*Onlar miras qalıb mənə babamdan,*
*Şirsoltanam, "Sarı pir" ocağından,*
*Soyumdan müqəddəs əmanətim var.*

## GÖRMÜŞƏM

*Dolandım Şirvanı, Mili, Muğanı,*
*Bu elləri çox mehriban görmüşəm.*
*Dosta, yada, ulu sənətə hörmət,*
*Səxavətli neçə insan görmüşəm.*

*Çox məclislər qurdum aranda, dağda,*
*Məmişlərdə, Qaralarda, Bıldığda,*
*Hörmətli ağsaqqal var Xınalıqda,*
*Elliyin dərd bilən, qanan görmüşəm.*

*Yoxdur tayı, bərabəri elimin,*
*Filosofdur hər bəşəri elimin,*
*İsmətlidir gözəlləri elimin,*
*Kamalı pak, qaşı kaman görmüşəm.*

*Qonaqpərvər, üzügülər, şirindil,*
*Geniş ürək, açıq süfrə, müqabil,*
*Səxavətdə Hatəm, əhdində kamil,*
*Pərvanətək oda yanan görmüşəm.*

*Azərbaycan, nə böyükmüş qüdrətin,*
*Unutmaram bu ellərin hörmətin,*
*İtirməzlər sənətkarın zəhmətin,*
*Şirsoltanam haqqı bəyan görmüşəm.*

## ALLAH-ALLAH

*Yetişmişəm boya, başa,*
*Ucalıram, Allah-Allah.*
*Gözəllər seyrəngahından,*
*Bac alıram, Allah-Allah.*

*Kövrəlirəm, boş günümdə,*
*Bəzən də çaş-baş günümdə,*
*Bir mənə bax, xoş günümdə,*
*Əl çalıram, Allah-Allah.*

*Gördüm günün üç-beşini,*
*Vaxt qovurmuş hər kişini,*
*İndi yaş görür işini -*
*Qocalıram, Allah-Allah.*

*Şirsoltanam, sirri andım,*
*Var itirdim, dərd qazandım,*
*Pərvanətək oda yandım,*
*Heç oluram, Allah-Allah.*

## AŞIQ XANMUSA

Xanmusa Musaxan oğlu 1926-ci ildə Şamaxının Şamlı kəndində anadan olmuşdur. O, aşıq sənətinin sirlərini ilk əvvəl atasından, əmisi Cənnətalı və həmyerlisi Aşıq Xanbaladan almışdır. Sonra cəyirli Aşıq Abbasdan sənətin sirlərini daha da dərindən mənimsəyir. Aşıq Xanmusa əlli ildən artıq ulu aşıq sənətinin yaşadan və təbliğ edənlərdəndir.



Yaradıcı aşığın şerlərinin sayı beş yüzdən artıqdır. Onun şerlərinin bir qismi iki kitabında (**"Qayıt ömür, qayıt, bir də görüşək", 1999; "Gözəlləmə", 2000**) işıq üzü görmüşdür.

Sətirlərin müəllifinin "Şirvanlı Aşıq Xanmusa" əsərində sənətkarın ömür yolu, şerlərinin poetikası işıqlandırılmış, onun haqqında deyilən və yazılanlardan söz açılmışdır[1]. Ustad aşıq bu sənətin sirlərini neçə-neçə cavanlara mənimsədə bilmişdir.

## DASTANI QOBUSTAN

*Tarixlər muzeyi, ellər oylağı,*
*Əzəldən olmusan belə, Qobustan.*
*Mən də bir aşığam gəzdikcə səndə,*
*Gəldi nəğmələrim dilə, Qobustan.*

*Sən də bir qolusan ana Şirvanın,*
*Bu şanlı-şöhrətli Azərbaycanın,*
*Görmüsən hər üzün dövrün, zamanın,*
*Əsirlər keçdikcə hələ, Qobustan.*

*Babalar ad qoyub burda yerlərə,*
*Dağ-daşda tanınır adına görə,*
*Xanalı qışlağı, Qum, Uzundərə,*
*Bir yurd-yuva olmuş elə, Qobustan.*

*Buradakı dağlar ekiz yaranıb,*
*Kəhnizə Torağayla, qoşa dayanıb,*
*Milas, göyərçinə necə boylanıb,*
*Böyük daş, Kiçik daş belə, Qobustan.*

*Qarakürə dağı gedib xəyala,*
*Qazan-quzan yaman verib dal-dala,*
*Quzğunca, Təkbazı, Şəhərgah ilə,*
*Səndədi, Şorcülgə, Ala, Qobustan.*

*Aşıq Xanbala da minib atını,*
*Deyərdi şikəstə, zil bayatını,*
*Edərdi ellərin toy-büsatını,*
*Telli sazı çala-çala, Qobustan.*

[1] S.Qəniyev. "Şirvanlı Aşıq Xanmusa". Bakı, 2004.

*Hacı Molla Əziz, Məhəmməd əmi,*
*Cənnətalı qağa məclis görkəmi,*
*Nəbi, Ağaşirin sağlığı dəmi,*
*Ağsaqqal idilər elə, Qobustan.*

*O vaxt bu qocalar növcavan idi,*
*Enli kürəkliydi, pəhlivan idi,*
*Çoxda bir-birinə mehriban idi,*
*Həbib dayı, Fatma xala, Qobustan.*

*Yazın ilk ayına oluram heyran,*
*Çıxıb sazlı-sözlü edirəm seyran,*
*Dələmə, bulama, şit kərə, ayran,*
*Dönər hər nemətin bala, Qobustan.*

*Qaramığ, qırxbuxum var doqquzdonlu,*
*Qarağan, sirkan, şayüzümü kolu,*
*Yovşanın, çərənin, kəklikotunu,*
*Ətiri yayılır çölə, Qobustan.*

*Qonçu, Bulağdağı, Şəkixan, Qoltuğ,*
*Əyricə örəndi, Sürücə otluğ,*
*Sündi qışlağında bir gecə qaldıq,*
*Obaşdannan düşdük yola, Qobustan.*

*Quba, Qüsar, Şirvan, Abşeronun da,*
*Qışda mal-dövləti bəslənir burda,*
*Soyuğlu ayların oğlan çağında,*
*Olur hər qışlağın qala, Qobustan.*

*Günəş öz yerindən çıxmamış hələ,*
*Çobanlar sürünü səsləyir çölə,*
*Quzuçu qoyundan süd sağıb gələ,*
*Bir yannıq dələmə çala, Qobustan.*

*Gəzdikcə sinəndə mən qarış-qarış,*
*Oldum hər dərənə-dağına tanış,*

*Şairlər, alimlər dastana salmış,*
*Düşmüsən dillərdən-dilə, Qobustan.*

*Könül boylan hərdən Xəzərə bir bax,*
*Ruha qida verir hər dərə, hər dağ,*
*Hansı əsrlərdən söyləyir soraq?*
*Bu daş abidələr ola, Qobustan.*

*Sinəndə keçibdi aylar, fəsillər,*
*Sən yola salmısan neçə əsrlər,*
*Nola bizi də bu gənc nəsillər,*
*Unutmaya yada sala, Qobustan.*

*Həyalıydı kişiləri, qadını,*
*Tanıyırdı qohumunu, yadını,*
*Nənəm koma-koma yığıb odunu,*
*Babam bağlayardı şələ, Qobustan.*

*Yadıma düşdükcə o, ötən günlər,*
*Az qala gözümdən car ola sellər,*
*Səndə keçirdiyim toylar, düyünlər,*
*Bir daha düşərmi ələ, Qobustan.*

*Kəleysər, Qulaxçın, Şahgəldi belə,*
*Ağdam, Həsənağa qışlaqdı hələ,*
*Seyrinə çıxmışam çəmənə-çölə,*
*Baxmışam yamaca-yala, Qobustan.*

*Tarixlər söz açır kişilərinnən,*
*Dağlar bir-birinə boylanır gennən,*
*Bəlkə Xan Kərəmdi keçən sinənnən,*
*Qərq olub gürdüğə şələ, Qobustan.*

*Qışın son ayları, bahar çağında,*
*Olmuşam ellərin şən yığnağında,*
*Əzğənni, Şahgəldi, Bulaq dağında,*
*Sazımı çəkmişəm zilə, Qobustan.*

*Sənət dostlarımla gəzərək qoşa,*
*Uymadım hər sözə, hər qələmqaşa,*
*Cavanlıq köç edib dolmuşam yaşa,*
*Yetmişi vermişəm yelə, Qobustan.*

*Aşıq Xanmusayam Qobustanlıyam,*
*Sinəsi dastanlı, xoş misallıyam,*
*Musaxan oğluyam – kəndi Şamlıyam,*
*Salmışam illəri yola, Qobustan.*

## AŞIQ ƏHMƏDALI

Aşıq Əhmədalı Dostalıyev 1928-ci ildə Ərəbşahverdi kəndində anadan olub. Gözəl səsi olan Əhmədalı ötən əsrin 50-ci illərində cəyirli Aşıq Abbasın ansanblında bir neçə il xanəndə kimi çıxış edir. Sonra sərbəst aşıqlığa başlayır. Aşıq Əhmədalının iki övladı – Zeynəb və Nazpəri Dostalıyeva bacıları bu gün respublikamızın adlı-sanlı sənətkarlarındandır.

### NECOLDU

*Möhlətmiş fələyin işi-peşəsi,*
*Puçmuş bu dünyanın karı, necoldu?*
*Gecə-gündüz işığında gəzdiyim,*
*İtirilmiş gözəl yeri, necoldu?*

*Qoyduq cəfalarda biz şirin canı,*
*Alaçığda keçən xoş günlər hanı?*
*Babam Dostalının dəvə karvanı,*
*Qoyun sürüləri, varı necoldu?*

*Tərəkəmə tərs oturar deyərdin,*
*Dəvə üstdə bərk oturar deyərdin,*
*Yağ-qaymağı su yerinə içərdin,*
*Əhmədalı, yad et barı, necoldu?*

## TAPILMAZ

*Əhli-dərdlər bir azara düşmüşəm,*
*Bilinməz dərdimə dərman tapılmaz.*
*Dost vəfasız, dövran namərd, dərd də çox,*
*Bir insaflı həkim – loğman tapılmaz.*

*Səməndər quşuyam yandırammaz od,*
*Bisitunu çapmış necə ki, Fərhad,*
*Gecə-gündüz eyləyirəm dad-bidad,*
*Gizli əhvalımı soran, tapılmaz.*

*Qohumdan, qardaşdan üzülüb əlim,*
*Daha ötüşməyir o tuti dilim,*
*Qayğı gözlədiyim ulusum, elim,*
*Qaçıb ətrafımdan yaman, tapılmaz.*

*Əhmədalı-Ərəboğlu var idi,*
*Bir vaxt qohum-qardaş ona yar idi,*
*Külək əsdi, yaz qarı tək əridi,*
*Sağalmağa yoxdu güman, tapılmaz.*

## AŞIQ BABA



Eyvazov Baba 1928-ci ildə Şamaxı rayonunun Dərəyurd (Dərəkənd) kəndində anadan olub. Onların ailəsi 1930-cu ildə Hacıqabul rayonunun Qızılburun kəndinə köçmüşdür. Baba orta təhsilini həmin kənddə alıb. Aşıq sənətinə böyük meyli olan Baba iyirmi beş yaşından müstəqil aşıqlığa başlayır. O, Azərbaycan aşıqlarının III-IV qurultayının nümayəndəsi olmuşdur.

Ömrünün çox hissəsini ulu sənətə həsr etmiş, zəngin şəxsi arxivi olan Aşıq Baba gənc aşıqların məsləhət yeridir.

## USTADNAMƏ

*Allahı çağırıb girib meydana,*
*Düşməndən qisasım alasıyam mən.*
*Sözlərimi deyib mərdi-mərdanə,*
*Nanəcibə çəngəl çalasıyam mən.*

*Anadan olanda mərd deyib atam,*
*Mərdlərin yolunda özüm qurbanam,*
*Elin məclisinə yaman heyranam,*
*Toylarda xoş söhbət olasıyam mən.*

*Dərəyurd çüxurunda oldum anadan,*
*Xudam hifz eylədi dərdən-bəladan,*
*Adildi, qadirdi böyük yaradan,*
*Mərhəmət dəryası, sonasıyam mən.*

## MƏN

*Dilədim badəni yetirdi Əli,*
*Dünyadan köç edib neçə min vəli,*
*Soyum-soyadımdı mənim Mirzəli,*
*Dərəyurd çüxurunun binasıyam mən.*

*İyirmi beş yaşımda götürdüm sazı,*
*İstədim xudadan şirin avazı,*
*Könlüm arzulayır oruc-namazı,*
*Belə bir fikirə dolasıyam mən.*

*Xudam bəxş eyləyib şirin bir səsi,*
*Oldum bu sənətin kamil yiyəsi,*
*Adım Aşıq Baba, Eyvaz nəvəsi,*
*O, ustad Eyvazın nəvəsiyəm mən.*

## GƏLSİN

**Aşıq Pənahın 70 illiyinə**

*Jurnalist qardaşım, Ağalar oğlum,*
*Qoy Pənah lentinlə cahana gəlsin.*
*Ölüm sevinməsin, nə də küsməsin,*
*Pənah saz əlində meydana gəlsin.*

*Sevinsin Arazım, şad olsun Kürüm,*
*Xoş gəlib Şirvanım, Muğanım, Milim,*
*Çox da öyünməsin o vaxtsız ölüm,*
*Pənahım bu günə mərdanə gəlsin.*

*Baba arzularla sən ver baş-başa,*
*Arzu, istəklərin dəyməsin daşa,*
*Pənah ürəyimlə yaşayır qoşa,*
*Ustad yetmiş yaşda Salyana gəlsin.*

## AŞIQ XANIŞ

Aşıq Xanış Xeyrulla oğlu Zahidov (Pirpaxtıkəm) 1932-ci ildə Şamaxı rayonunun Nabur kəndində doğulmuşdur. Atası adi kəndli idi. Balaları şerə, musiqiyə bələd olmuşlar. Belə ki, Xanışın əmisi Şirsoltan Zahidov öz dövrünün ən qüdrətli aşıqlarından olmuşdur. Ulu sənətinin ilk sirlərini əmisindən öyrənən Xanış, aşıq Abbasın yanında şagirdlik etmişdir. Bu yaxınlıq Xanışa aşıq sənətinin çox sirlərini açmışdır. O, 1959-cu ildən sonra sənət yollarında ilk müstəqil addımını



atmağa başlayır. İlk gündən el-obanın rəğbətini qazana bilir. Mərhum aşıq Məmmədağa Babayevlə yaxınlığı onun püxtələşməsinə bir daha təkan verir.

Aşıq Xanış radionun "Bulaq", televiziyasının "Ozan" verilişlərini öz duzlu söhbətləri, yaratdığı dastan və şerləri ilə bəzəyən daimi qonağıdır.

Üç yüzdən artıq şerin, **"Bilal-Badam"**, **"Şakir-Badam"**, **"Hümbət-Badam"**, **"Aşıq Soltanmurad"** adlı dastanların müəllifidir. Aşığın şer və dastanları müxtəlif qazet, jurnallarda çap olunmuş, bir şer kitabı işıq üzü görmüşdür[1].

Hazırda Nabur kənd mədəniyyət envi nəzdində fəaliyyət göstərən "Aşıq qızlar" birliyi ustadın ən böyük müvəffəqiyyətlərindəndir. Həmin birliyin on nəfər üzvü aşıq sənəti, saz sənətinin sirlərinə, deyərdim ki, tam bələddirlr. Həmin qızlar dəfələrlə müxtəlif konsertlərdə və festivallarda birincilik qazanmışlar. Aşıq sənətinin sirlərini cavanlara öyrədən Xanış Zahidov indi də eyni həvəs və istəklə yazıb-yaradır.

## NEYLƏSİN

***Belə gəlib, belə gedib zəmanə,***
***Gah alçalıb, gah yüksəlib zamanə,***
***Dinc olmayıb, zülm çəkib zəmanə,***
***Çarx dönəndə bu zəmanə neyləsin?***

***"Qızıl öküz" əfsanədir, bir röya,***
***Çarx üstündə qərar tutub bu dünya,***
***Üzlər dönük, insaf sönük, yox həya,***
***Çarx dönəndə bu zəmanə neyləsin?***

***Bəlkə fələk belə yazıb yazını,***
***Torpaq qırğın üçün açıb ağzını,***
***Loğman hanı çəkə bilə "nazını",***
***Çarx dönəndə bu zəmanə neyləsin?***

[1] Aşıq Xanış. Sazım-sözüm, ömrüm mənim, (tər. ed. ön sözün müəllifi S.Qəniyev). Bak. 2000.

*Allah da eşitmir heç şikayəti,*
*Çünki bəd əməllər aşıbdı həddi,*
*İsrafil "sur çalan" vaxt yəqin çatdı,*
*Çarx dönəndə bu zəmanə neyləsin?*

*Ay Xanış, hər gündə dərd ötür yüzdən,*
*Ağla için-için, gül üzdən-üzdən,*
*Əl çək bu dərmansız zəmanəmizdən,*
*Çarx dönəndə bu zəmanə neyləsin?*

## DÜŞƏNDƏ

*A qardaş, zəmanə nə günə düşüb,*
*Neyləyək işimiz dara düşəndə?*
*Evdə hərdən-hərdən bozbaş olardı,*
*Yamanmış kiftədən şora düşəndə.*

*Şor qalxıb çıxıb "ceyran belinə",*
*Şor satan qənimdi doğma elinə,*
*Bundan sonra heç nə dəyməz dilinə,*
*Yetən yoxdur dədə, dara düşəndə.*

*Kim necə istəyir eləcə kəsir,*
*Prokuror, məhkəmə, həm təbib kəsir,*
*İnsafsız, Allaha şəkk edib kəsir,*
*Həngamədir iş bazara düşəndə.*

*Başsız başçı gördüm qəlbim qan oldu,*
*Göz yaşım selləndi bir ümman oldu,*
*Qiyamət baş verdi, Nuh-tufan oldu,*
*Bülbülün güzarı sara düşəndə.*

*Müşküldür düzələ bir də bu həyat,*
*Məhşərdə bin tutar bu qurğu-büsat,*
*Siyasət cəhlində ev, uşaq, arvad,*
*Çarə olmur, pis azara düşəndə.*

*Ədli-divan, ola göz görə-görə,*
*Boş tərif nə lazım ölən kəslərə,*
*Xanış, doğru yol lazımdır bəşərə,*
*Neylərəm o haqqı, gora düşəndə.*

## GEDİR

**Oğlum Tahirə**

*Aman qasid, mənim ərzi halımı,*
*Yetir cananıma, can əldən gedir.*
*Ömrə vəfa yoxdur, cana etibar,*
*Saydıqca günləri, san əldən gedir.*

*Qəza səni salsa qəmlər içinə,*
*İstər alış, istər ağla, veçi nə?*
*Heç kim səni alan deyil vecinə,*
*Od tutub yanırsan, yan əldən gedir.*

*Qeyriyə bu könlüm bir bürcü-qala,*
*Ürəyim sinəmdə dönüb bir qula,*
*Gülüm gələ bəlkə çaram tapıla,*
*Tükənibdir səbrim, qan əldən gedir.*

*Onsuz günüm, ruzigarım becədir,*
*İşıqlı gündüzüm zülmət gecədir,*
*Bir deyən yox, Xanış, halın necədir?*
*Düşüb ən qiymətli an, əldən gedir.*

## AY HACI

**(Alim dostum Seyfəddin həcc ziyarətindən dönəndə)**

*Bir səda eşitdim yaman sevindim,*
*Ziyarətin qəbul olsun, ay Hacı.*
*Bu ziyarət pilləsidir behişdin,*
*Ziyarətin qəbul olsun, ay Hacı.*

*Sənin ürəyində Allah xofu var,*
*İnamı olana yetir arzular,*
*Qəsəm sahibisən, haqqa xiridar,*
*Ziyarətin qəbul olsun, ay Hacı.*

*Qoy Məkkə-Mədinə köməyin olsun,*
*Kərbəla eşqiylə gözlərin dolsun,*

*Dostların çoxalsın, düşmənin solsun,*
*Ziyarətin qəbul olsun, ay Hacı.*

*Bu yolda uğurlar dilərəm sənə,*
*Xanış heyran qalıb həqiqətinə,*
*Xudam özü fərəc versin işinə,*
*Ziyarətin qəbul olsun, ay Hacı.*

## AŞIQ MƏMMƏDAĞA
## (1933-1977)

Məmmədaığa Ağaxan oğlu 1933-cü ildə Şamaxı rayonunun Cəyirli obasında anadan olub. Bu ulu sənətin sirlərini həmyerlisi, ustad Aşıq Abbasdan öyrənmişdir. Daha doğrusu, onun məsləhətləri ilə aşıq sənətinə kamil yiyələnə bilmişdir. Bununla yanaşı bənzərsiz səsi, musiqi duyumu, muğamlarımızın kamil ifaçısı olması Məmmədağanı sənətin zirvələrinə yüksəldə bilmişdir. Elə ona görə də o, cavan yaşlarında təkcə Azərbaycanda deyil, Dağıstan, Orta Asiya regionunda da məşhur olmuşdur. Şirvan aşıq mühitinin əvəzsiz sənətkarı Aşıq Məmmədağa 1977-ci ildə dekabr ayının 25-də dəyişdi öz dünyasını.

Azərbaycan klassik aşıq sənətini dərindən bilən Aşıq Məmmə-


Aşıq Məmmədağa (sağdan birinci) sənət dostları ilə

dağa xalq dastanlarının da mahir ifaçısı olmuşdur. O, həm də yaradıcı aşıq idi. Aşığın əlyazmalırının çoxusu baxımsızlıq ucbatından itib-batsa da, onun otuza yaxın şerini əldə edə bilmişik.

Aşıq Məmmədağanın şerlərinin bir qismi 2000-ci ildə ayrıca kitab kimi çap olunmuşdu.

## MƏN

*Cəyirli elində oldum anadan,*
*Dərsimi almışam ustad Abbasdan,*
*Anam Nazxanımdı, atam Ağaxan,*
*Ulu Qobustanın balasıyam mən.*

*Dinləyib Feyzini, Cənnətalını,*
*Kürdəmirli Əhməd, Dədə Əlini,*
*Çağırdım Allahı – böyük Xudanı,*
*Bildim telli sazı çalasıyam mən.*

*Sinəmdə döyünür, eşqi Şirvanın,*
*Qoynunda bəsləndim mən Şamaxının,*
*Bəstəkarı oldum, dağın, aranın,*
*O, sehirli Buğurt qalasıyam mən.*

*Oxu Məmmədağa, oxu, çal, oxu,*
*Qonmasın gözünə dumanlı yuxu,*
*Hələ qabaqdadır arzunun çoxu,*
*O, pak istəklərə çatasıyam mən.*

## GƏL

*Gəl Xəqani beşiyinə,*
*Nəsiminin görüşünə,*
*Sabirin "sərt gülüşünə",*
*Çıx meydana, xitabə gəl.*

*Aşıq İbrahim oylağı,*
*Aşıq Daşdəmir yığnağı,*
*Bilalla Abbas sınağı,*
*"Çap" olmamış kitabə gəl.*

*Mahmudaığa məclisinə,*
*Məhəmməd Həsən səsinə,*
*Hikmət dolu naləsinə,*
*Dözə bilsən bir taba gəl.*

*Abbasdan almışam dərsi,*
*Məmmədağa edər bəhsi,*
*Çağırram gəl, söz yiyəsi,*
*Şirvanıma cavaba gəl.*

## ŞİRVANIN

*Qoy qələm alım əlimə,*
*Toydur çağları Şirvanın.*
*Seyidli, Sabirli sözü,*
*Gəzir diyarı Şirvanın.*

*Pirquluda gəl qulaq as,*
*Sanki qeybdən gəlir səs,*
*Möcüzəyə düşər hər kəs,*
*Nəğmədir varı Şirvanın.*

*Oğlu, qızı tikir, qurur,*
*Fəxarətlə məğrur-məğrur,*
*Göydə buluda baş vurur,*
*Meyvə bağları Şirvanın.*

*Sıra dağlar sinə gərər,*
*Məmmədağa vəsf eyləyər,*
*İçən cana şəfa verər,*
*Buz bulaqları Şirvanın.*

# AŞIQ ƏSƏD (QARABALA)
## (1936-1976)



Aşıq Əsəd 1936-cı ildə Şamaxının Ərəbcəbirli kəndində anadan olmuşdur. Gənc yaşlarından rəvan təbi olan Əsəd aşıq sənətinə meyl göstərir. Bir müddət Şirvan aşıq mühitindən XX əsrin ustadı sayılan Aşıq Abbasa şagird durur. Ustadından xeyir-dua alan Əsəd ötən əsrini 60-cı illərindən sərbəst şəkildə aşıqlığa başlayır. Aşığın şerlərinin bir qismini əldə etmişik.

### OLDUM

*Baxdıqca Şakirə, Məmmədağaya,*
*Sənət kəməndinə girifdar oldum.*
*Cismimə od saldı musiqi səsi,*
*Nabələd cocuğdum, xiridar oldum.*

*Qamışdan at minib yamsılayardım,*
*Uşaqlıq dünyamı xoş yaşayardım,*
*Böyüdüm, boy atdım meydana vardım,*
*Xudam bir pay verdi, sənətkar oldum.*

*Saz qurşadım gəzdim gur məclisləri,*
*Əsli yarı sevdim Kərəm təhəri,*
*Mənə arxa durdu Şirvan elləri,*
*Kamillər yanında bərqərar oldum.*

*Sənət məni püxtə başa yetirdi,*
*Sinəmdə sözlərim sətir-sətirdi,*
*Dostlarımla xoş ülfətə gətirdi,*
*Gözəl insanlarla bərabər oldum.*

*Qarabala təxəllüs, Əsəddir adım,*
*Cəyirli Abbasdır böyük ustadım,*
*Məclisə çıxmaqçün ondan dərs aldım,*
*Bala bülbül idim, dilavər oldum.*

## TALEYİNƏ QANE OL SƏN

*Təqdirə heç tədbir olmaz,*
*Taleyinə qane ol sən.*
*Ya zirək ol, ya da avam,*
*Taleyinə qane ol sən.*

*Ərəbcəbirli elində,*
*Göz açıb böyüdüm mən də,*
*Dedim, sazı götürəndə,*
*Taleyinə qane ol sən.*

*Xudam mənə qanad verdi,*
*Uğurlu bir sənət verdi,*
*Şükür, gözəl həyat verdi,*
*Taleyinə qane ol sən.*

*Qarabala dindir sazın,*
*Elə yayılsın avazın,*
*Dildə gəzsin şirin sözün,*
*Taleyinə qane ol sən.*

# AŞIQ ƏZİZXAN



Əzizxan Xeyrulla oğlu Məmmədov 1937-ci ildə Şamaxı rayonunun Nabur kəndində anadan olub. O, bu ulu sənətin sirlərini ilk əvvəl əmisi Aşıq Şirsoltandan, sonra isə qardaşı Aşıq Xanışdan öyrənmişdir. Aşıq Əzizxan yaradıcı aşıqdır. Şerləri müxtəlif toplu, kitab, qəzet və jurnallarda çap olunur.

## BAĞLIYAM

*Odlu kirpiklərdən gözüm doymadı,*
*Ox kirpiyə, qələm qaşa bağlıyam.*
*Anam-bacım sevincəkdi bu hala,*
*Atam yoxdur dost, qardaşa bağlıyam.*

*Sədaqəti, isməti var hər canın,*
*Ağ günü var, dar günü var dünyanın,*
*Mən görürəm düyünü var dünyanın,*
*Bu doğma torpağa, daşa bağlıyam.*

*Əzizxanam gül də məndən inciməz,*
*Ustayam, bəm, zil də məndən inciməz,*
*Ərk eləyən dil də məndən inciməz,*
*Ürəkdən sənətə, haşa bağlıyam.*

## KƏNARIMDA

*Çərxi fələk dövranını çevirsə,*
*Qısılıb qalarsan yol kənarında.*
*Cəfa çəkib, candan cida düşərsən,*
*Qəm, kədər oynayar bol kənarında.*

*Nanəcib gözləməz işin həddini,*
*Nə elmi bəyənər, nə də ki, dini,*
*Üz göstərsən sözü əyər qəddini,*
*Sağ yanın od tutar, sol kənarında.*

*Əzizxan, uzaq ol şərdən, nadandan,*
*Üzü boz, sözü boz, qəlbiqaradan,*
*Qoyar səni darda, çıxar aradan,*
*Əlləşib solarsan çöl kənarında.*

# AŞIQ RZA QOBUSTANLI
## (1944-1994)



Aşıq Rza Əlisa oğlu 1944-cü ildə Mərəzə rayonunun Təklə-Mirzəbaba kəndində anadan olmuşdur. Gənclikdən aşıq sənətinə xüsusi məhəbbəti olan Rza bu sənətin sirlərini Aşıq Bəylər və Aşıq Xanmusadan mükəmməl şəkildə öyrənir. O, tez bir zamanda məlahətli səsi, avazı, sözü ilə bütün respublikamızda ad-san qazanır. Aşıq təkcə Azərbaycanda deyil, eyni zamanda keçmiş İttifaqda keçirilən bir çox tədbirlərin, festivalların müxtəlif mükafatlarına layiq görülmüş, Azərbaycan aşıqlarının III-IV qurultayının nümayəndəsi olmuşdur. Şerləri dövrün mətbuatında vaxtaşırı çap olunmuşdur. Hacı Rza 1994-cü ildə vəfat etmişdir.

## QOBUSTANDADIR

*Ulu babaların qədim tarixi,*
*Ən gözəl sənəti Qobustandadır.*
*Zərdüştlər yurdunun sözü-söhbəti,*
*Yazısı, hikməti Qobustandadır.*

*Qayalar kitabdı, daşlar varağı,*
*Dərdə şəfa verir Araz bulağı,*
*Xınalı kəkliyin səsi, sorağı,*
*Keçmişin ziynəti Qobustandadır.*

*Hər qaya üstündə var min cür naxış,*
*Alimlər bu yerdə edir axtarış,*
*Aşıq Rza deyir, əhsən, min alqış,*
*Zəhmətin qüdrəti Qobustandadır.*

# AŞIQ MAHMUD ƏLƏSGƏROĞLU
## (1946-2002)



Aşıq Mahmud Niftəliyev 1946-cı il mayın 20-də Şamaxı rayonunun Şıxzərli kəndində dünyaya göz açmışdır. 1963-cü ildə orta məktəbi bitirib, Politexnik İnstitutuna daxil olur. 1967-ci ildə IV kursda ixtisasını dəyişmək niyyəti ilə ərizə verərək institutdan çıxıb və sənədlərini yenidən Bakı Dövlət Universitetinin riyaziyyat fakültəsinə verir və qəbul olunur. O, 1973-cü ildə BDU-nun riyaziyyat fakültəsinin qiyabi şöbəsini bitirib, ömrünün sonunadək Şıxzərli kənd orta məktəbində müəllim işləyir.

Mahmud ağlı söz kəsəndən bağlanmışdır aşıq sənətinə. Elə ona görədir ki, gənclik illərindən Şirvanın ustad aşıqları – Aşıq Şakir və Aşıq Barat, Aşıq Şərbət və Aşıq Məmmədağanın toy məclislərində vaxtaşırı iştirak edir, onlardan ulu sənətin sirlərini öyrənir, sənətə tam bələd olmaq üçün bir müddət xanəndəlik də edir. Nəhayət, həmkarlarının məsləhəti ilə sərbəst şəkildə aşıq kimi el məclislərinə ayaq açır, bəyənilir, sevilir, özünə pərəstikarlar qazanır.

1978-ci ildə keçirilən "Aşıqların Ümumrespublika Müsabiqəsi"nin qalibi-laureatı adına layiq görülür. O, Azərbaycan aşıqlarının III-VI qurultaylarının iştirakçısı olmuşdur. 1980-cı ildə Özbəkistanda keçirilən Azərbaycan dekadasında, 1989-cu il Qərbi Berlin və 1995-ci il Türkiyədə rəsmi dövlət tədbirlərində Azərbaycan aşıq sənətini təmsil edib. Bundan əlavə o, ayrı-ayrı illərdə müxtəlif ölkələrdə qastrol səfərlərində olmuşdur.

Gözəl şerlər müəllifi olan aşıq həm də bir neçə – "Aşıq Şakirin Tovuz səfəri", "Aşıq Şakirlə Aşıq Pənahın Nardaran görüşü", "Aşıq Mahmud" və s., kiçikhəcmli dastan və rəvayətlərin müəllifidir. Aşıq Mahmud Ələsgər oğlu 2002-ci il iyun ayının 3-də ömrünün 56-cı ilində dünyasını dəyişdi... 2003-cü ildə aşığın "Ömür bivəfalıq etməyəydi kaş!" adlı şerlər kitabı işıq üzü görmüşdür.

## ÖMÜR BİVƏFALIQ ETMƏYƏYDİ KAŞ...

*Nələr çəkməmişəm bu az yaşımda,*
*Zəhmətim heç olub itməyəydi kaş.*
*Öz yolumda bitən qaratikanlar,*
*Oğlumun yolunda bitməyəydi kaş.*

*Hər şöhrətə çatan olmaz hünərli,*
*Çoxu kəmqeyrətdi, azı dəyərli,*
*Bir yol şad olmuşam, min yol kədərli,*
*Bundan belə bəxtim yatmayaydı kaş.*

*Səcdəgahım oldu ulu dədələr,*
*Deyindi arxamda hərdən gədələr,*
*Namərddə qaydadı haqqı bad olar,*
*Kişilər qeyrəti atmayaydı kaş.*

*Saflıqdır dövləti, varı Mahmudun,*
*Bəllidir qeyrəti, arı Mahmudun,*
*Vəfasız olmadı yarı Mahmudun,*
*Ömür birvəfalıq etməyəydi kaş.*

## "YANAQ KƏRƏMİ" DƏ OYNAMA, QARDAŞ

*"Yanıq Kərəmi" də Kərəm dərdi var,*
*Sən onda qol açıb oynama, qardaş.*
*Onu sazda çalıb aqil babalar,*
*"Yanıq Kərəmi" də oynama, qardaş.*

*Bir uğursuz eşqin naləsidir o,*
*Əhdin, etibarın haqq səsidir o,*
*Sevib-sevilənlər səcdəsidir o,*
*"Yanıq Kərəmi" də oynama, qardaş.*

*Yaddır bu yanqıya qaval, nağara,*
*Hər alətdə çalır yetən avara,*
*Söylə yanmaq hara, oynamaq hara?*
*"Yanıq Kərəmi" də oynama, qardaş.*

*Gəl eşit Mahmudu çağlayanda saz,*
*Hər simdə min dastan bağlayanda saz,*
*Kərəm ağısıyla ağlayanda saz,*
*"Yanıq Kərəmi" də oynama, qardaş.*

## AŞIQ VÜQAR

Vüqar Mahmud oğlu Niftəliyev (Vüqar Mahmud) 1970-ci il noyabrın 3-də Şamaxı rayonunun Şıxzərli kəndində anadan olmuşdur. 1978-ci ildə Şıxzərli kənd orta məktəbin birinci sinfinə getmiş, 1982-87-ci illərdə Şamaxı şəhər Musiqi məktəbində qarmon ixtisası üzrə təhsil almış, ixtisasını yüksək səviyyədə mənimsədiyi üçün birbaşa 3-cü sinfə keçirilmişdir. 1988-ci ildə orta məktəbi bitirmişdir.



O, 1991-1996-cı illərdə İncəsənət Universitetində ali təhsil alınmışdır. Əmək fəaliyyətinə 1992-ci ildə Mərəzə qəsəbəsində Mərkəzi kitabxananın müdiri kimi başlamış, 1994-cü ildən Şıxzərli kənd mədəniyyət evində kütləvi tədbirlər üzrə mədəni təşkilatçı vəzifəsində çalışmışdır. 1998-ci ildən Qobustan rayonu uşaq musiqi məktəbində ixtisası üzrə müəllim kimi fəaliyyət göstərmişdir.

Ölkə daxilində müxtəlif tədbirlərdə vaxtaşırı iştirak etmiş, eyni zamanda 2002-2003-cü illərdə Türkiyə, Bəhreyn Respublikası, Rusiya və s. ölkələrin geniş konsert salonlarında çıxış etmişdir. 2002-ci ildən atası Aşıq Mahmud Ələsgəroğlunun yolunu davam etdirir.

## MƏNƏM

*Çox aşıqlar verib Şirvan cahana,*
*Onların közündən od alan mənəm.*
*Adı dillər gəzən Mirzə Bilalın,*
*Şirin məclisindən dad alan mənəm.*

*Varmı İbrahimə səsdə tay, hanı?*
*Abbas idi şer, sənət ümmanı,*
*Məlhəmli Şakiri gəl yaxşı tanı,*
*Belə sələfləri bad olan mənəm.*

*Günəş tək parladı Şakir cahanda,*
*Açdı söz matahın dağda, aranda,*
*Qayıtmaz quş oldu, uçdu bir anda,*
*Aqil məclsində yad olan mənəm.*

*Hanı Aşıq Mahmud, bülbül nəfəsli,*
*Şaqraq zəngüləli, tükənməz səsli,*
*Məclisə girəndə könlü həvəsli,*
*Onu xatırladıb ad alan mənəm.*

## DÜNYA

*Kiminə yalavac, kiminə yorğan,*
*Kiminə sevinclər bəxş edən dünya.*
*Kimini çatdırıb uca zirvəyə,*
*Kiminə Məcnuntək sərgədan dünya.*

*Əvvəldən fanisən yaranan kəsə,*
*Salmısan altuna, vara həvəsə,*
*Amma çox şirinsən bilmirəm, nəsə,*
*Doymaq olmur səndən de, nədən dünya?*

*Kiminə baharsan ömrün qış çağı,*
*Kiminə həqiqət, kimə bayağı,*
*Sultanlar məskəni, şahlar oylağı,*
*Özüsə nə gələn, nə gedən dünya.*

# AŞIQ XAMİS



Xamis Xanış oğlu 1976-cı ildə Şamaxı rayonunun Nabur kəndində anadan olmuşdur. Ata-babadan aşıq sənətinin ocağı olan bir ailədə doğulan Xamis lap körpə yaşlarından bağlanır saza-sözə... Atası Aşıq Xanışla məclislərdə iştirakı onu daha da püxtələşdirir. Bu vaxta qədər Aşıq Xamis müxtəlif festival, yığıncaqlarda çıxış etmiş və mükafatlara layiq görülmüşdür. O, həm də aşıq şeri üslubunda gözəl əsərlər yazır.

## TUTMUŞAM

*Yeddi arxam gedən yola sadiqəm,*
*Əzəl başdan din-imanı tutmuşam.*
*Bütün kitabların başı-örnəyi,*
*Ürəyimdə mən "Quran"ı tutmuşam.*

*Xilaf yoxdur ilqarımda, sözümdə,*
*Əyrilik görmərsən mənim izimdə,*
*Dünya aləm cənnət ola gözümdə,*
*Vətən deyib, Qobustanı tutmuşam.*

*Ağ kağızda sınamışam "qaramı",*
*Mərd yolumu kəsə bilməz haramı,*
*Abbas yurdu sənətkarsız çaparmı,*
*Saz üstündə təzənanı tutmuşam.*

*Aşıq Xanış dərsin alan aşiqəm,*
*Sarı pir nəslindən, özüm də pirəm,*
*Çox cavan olsam da buna qadirəm,*
*Xamisəm, bu yol-ərkanı tutmuşam.*

## SEYFƏDDİN

**Atamın dostu,**
**alîm Hacı Seyfəddinə**

*Atamın dostları mənə əzizdir,*
*Ərz eləyim sən biləsən, Seyfəddin.*
*Heç xəzan görməsin ömrünün bağı,*
*Səxavətdə bir dənəsən, Seyfəddin.*

*Nadana bir dağsan, mərdə dayaqsan,*
*Dosta mehribansan, şöhrəti-şansan,*
*Hacısan, alimsən, nəcib insansan,*
*Şirvanımda yekdanəsən, Seyfəddin.*

*Xamis deyir, ömrün boyu şad yaşa,*
*Müqəddəs qələmin dəyməsin daşa,*
*Sən ki, qədir qoydun atam Xanışa,*
*Can qurbandı qəbul etsən, Seyfəddin.*



# 2. ŞAİRLƏR, EL ŞAİRLƏRİ VƏ SİNƏDƏFTƏR QADINLAR

*"...Şirvanda iyirmi beş min tacir var və hər bir tacir - şairdir..."*
*A.Düma*

Qobustan həm də şairlər oylağıdır. Bu bölgənin müxtəlif oba, elat və kəndlərində yaşamış şairlərin sorağı ta **XVII-XVIII əsrlərə** gedib çıxır. Şübhəsiz, bu qədim bölgənin şair və sinədəftərləri barədə indiyə kimi geniş, sistemli, ardıcıl tədqiqatlar aparılmamışdır. Nəticədə isə ancaq XVIII-XIX əsrlərdə Şirvanın Qobustan bölgəsində yaşamış bir çox sənətkarların əsərlərinin bir qismi günümüzə gəlib çatdığı halda, bəzilərinin quruca adı bəllidir. Tədqiqatımız nəticəsində Qobustan bölgəsinin ədəbi mühiti barədə **XIX əsrdə tərtib olunmuş bəzi cüng, bəyazlardan və şəxsi arxivlərdən** müəyyən məlumat əldə edə bilmişik. Qobustan bölgəsində yaşamış şairlər haqqında aparılan müəyyən tədqiqat və araşdırmalara görə əsasən mərhum professor, xalq yazıçısı Əzizə Cəfərzadə və filologiya elmləri doktoru Əhməd Cəfərzadəyə minnətdar olmalıyıq. Ötən əsrin 80-ci illərindən apardığımız uğurlu tədqiqat nəticəsində bu bölgədə yaşamış 60 nəfərdən artıq sənətkarın əsərini toplamış və çap etdirmişik...

...Şairlər diyarı olan bu bölgədə Qobustan rayon kimi təşkil edildikdən sonra mədəniyyət evində ədəbi məclis yaradıldı. Bu məclis Mirəzə rəsəbə və eləcə də müxtəlif kəndlərdə olan istedadlı gəncləri başına yığdı. Məclisin 50 nəfərdən artıq üzvü olmuşdur. Məclis ayda bir dəfə yığıncaq keçirər, şer yarışları təşkil edərdi. Dəyərli şerlər rayon qəzetində vaxtaşırı işıq üzü görərdi. Məclisdən ruhlanan bəzi kəndlərdə yaşayan qələm sahibləri də yerlərdə şer məclisləri təşkil etməyə başlayırlar. Bu baxımdan Ərəbqədim kənd məktəbində **Hacı Füzulinin təşkil etdiyi "M.Ə.Sabir ədəbi məclisi"** diqqətəlayiqdir. Məclisin Mehman, Rasim, İman, Kənan, Müşfiq kimi istedadlarının şerləri təkcə kənddə deyil, rayonda da özünə onlarla oxucu qazanmışdır.

Ötən əsrin 30-50-ci illərində anadan olmuş şairlərin şerlərini isə onların özlərindən, doğmalarından (və ya işıq üzü görmüş kitablarından) toplamışıq. Ümumiyyətlə, XVIII-XX əsrlərdə Qobustan bölgəsində yaşayıb-yaratmış 150 nəfərdən artıq şair, el şairi, sinədəftər qadınlar haqqında məlumat, əsərlərindən nümunələr, yaddaşlardan xatirələr və şəkillər əldə etmişik. Bu kitabda həmin sənətkarların hamısı deyil, ancaq bir qismi haqqında qısaca məlumat verə bildik.

# KOLANI MƏŞƏDİ MUSTAFA
## (XVIII-XIX)

Kolanı Mustafa XVIII əsrin sonunda Şirvan mahalının Kolanı elatında doğulmuşdur. İlk təhsilini evdə atasından almışdır. Yoxsulluq içində həyat sönmüşdür. Ömrünün son illəri ağır keçmişdir. Ömür-gün yoldaşını – Sənəm xanımı erkən itirmişdir. Qızı ilə tək qalmışdır. Vəziyyət elə yerə çatmışdır ki, onun yayda Kolanı obaları ilə qışlaqdan – Kür qırağından yaylağa köçməyə maddi imkanı belə olmamışdır.

***Kasıblıq güc gəldi, eldən üzüldüm,***
***Kür qırağındayam yaman hallıyam,***
***Qohumum, qardaşım, əziz övladım,***
***Qırılıb, qürbətdə ahu-zarlıyam.***

Onun Şamaxıda baş vermiş 1859-il zəlzələsi və Kür çayının daşmaları barədə şerləri vardır. Deyilənlərə görə, Mustafanın yeganə qızını da yolxucu xəstəlik əlindən alır. Şair ömrünün sonuna qədər kimsəsiz yaşayır. O, XIX əsrin ortalarında təxminən, 1888-ci ildə vəfat edir. Qəbri Küdrü düzündəki qədim Kolanı qəbristanlığındadır.

Deyilənlərə görə, Mustafanın şerlərinin sayı üç yüzdən çox olmuşdur. Onların bir qismi işıq üzü görmüşdür. Bəzi kitablarda el şairi Dollu Mustafa ilə Kolanı Mustafanın şerləri çaş düşmüşdür. Yaşlıların və Mustafanın uzaq qohumlarının dediyinə görə, el nəğməkarının "Mustafa və Sənəm xanım" adlı dastanı da olmuşdur. Həmin dastandan bir neçə şer yaddaşlarda indiyə kimi qala bilmişdir. Mustafa haqqında Əzizə Cəfərzadə, Əhməd Cəfərzadə, Nurəddin Bəndəliyev və sətirlərin müəllifi tədqiqat aparmış, şerlərindən nümunələr çap etdirmişlər.

## GÖRMƏDİM

***Dolandım dünyanı divana kimi,***
***Billah gərdişində sahman görmədim.***
***Hara getdim, dərd, qəm kəsdi yolumu,***
***Həqiqət, ədalət, divan görmədim.***

***Dərdsiz insan ola bilməz aləmdə,***
***Hərə bir növ dadır, sevinc də, qəm də,***
***Cəh-cəlalın olan gördüm hər yerdə,***
***Həyatından razı qalan görmədim.***

*Müxənnətdir bu "çərx" çoxdu cəfası,*
*Görən kimə yetəcəkdi səfası?*
*Bir quruşa dəyməz onun vəfası,*
*Mən ki, onda doğru mizan görmədim.*

*Mustafayam, çəkmişəm çox hesabı,*
*Hər kəs tapa gərək özünə babı,*
*Aqillər hər dərdə edərlər tabı,*
*Onu edə bilmiəz nadan, görmədim.*

## MUSTAFA İLƏ SƏNƏM XANIMIN DEYİŞMƏSİ

*Mustafa:*
*Arvad, sənin tərəfini eyləyim,*
*Sən gələndən halım yaman olubdu,*
*Qaçıb, vəhə çıxıb bin-bərəkətim,*
*Elə bil sovrulub saman olubdu.*

*Sənəm xanım:*
*Kişi, bu qədər də öymə özünü,*
*Mənə sataşanda özündən də de.*
*Bu evə sağ gəlib, sayrı olmuşam,*
*Xaranı görmədim, bezindən də de.*

*Mustafa:*
*Dədəövün evində sən nə görmüsən?*
*Buğda tapmazdınız, darı yemisən,*
*Bir deyənə beş dəfə çox demisən,*
*Haçan nəslivüzdə sahman olubdu.*

*Sənəm xanım:*
*İş görmürsən cəhd edirsən çənənə,*
*Gülünc gəlir hər eşidib görənə,*
*Rüsvay olmuşuq gülürlər sənə,*
*Utanmaz-qamaşmaz üzündən də de.*

*Mustafa:*
*Gəl alçatma Kolanı Mustafanı,*
*İrad elə başımdan bu xatanı,*
*Sarıyaram kürəyinə atanı,*
*Bəlkə dədən həkim-loğman olubdu?*

*Sənəm xanım:*
*Kişi, dilə alma yerdə yatanı,*
*Mən də oxşamayım şair atanı,*
*Özün yaradırsan şəri-xatanı,*
*Sənəmə atdlığın sözündən də de.*

## DÜNYA

*Neçə insanların qeydinə qaldım,*
*Hayıf ki, qədrimi bilmədi dünya.*
*Axıtdım didədən yaşı dəmbədəm,*
*Nə fayda, bircə yol silmədi dünya.*

*Əzəldən ilqara könül bağladım,*
*Ürək dərdlərimi gizli saxladım,*
*Mən onun dərdinə yandım, ağladım,*
*Bir dəfə üzümə gülmədi dünya.*

*Mustafa, bu dərdlə çatladı zəhrin,*
*Can yoxdu çəkməyə qocalıq qəhrin,*
*Görmədim xeyrini, dərmədin bəhrin,*
*Mənim bir xeyrimə gəlmədi dünya.*

## MƏN

*Deyib ki, bu dünya baqidi, baqi,*
*Şirvana da gəlib çatıb sorağı,*
*Buyursun meydana qubalı Tağı,*
*İxtilat yerində şiri-nərəm mən.*

*Qubaya gəlməkçin geymişəm abı,*
*Əriyib cisminin qalmayıb tabı,*
*Gəlmişəm Tağıdan alam cavabı,*
*Eşidənlər görsün, sözdə tərəm mən.*

*Mustafayam, Kolanıdır məkanım,*
*Laf olmaz söhbətim, əhdi-peymanım,*
*Doğruluq dinimdi, düzlük imanım,*
*Kürreyi-ərzində tək gövhərəm mən.*

* * *

*Bir kəlmə dərdimi yara demişəm,*
*Dedi: Çək dərdimi, var olasan var,*
*Dadına yetişsin insaflı Heydər,*
*Əli tək mötəbər, a büлqar yar.*

*Büлqar yara qulam, nökərəm,*
*Ağlayıb-sızlayıb qan-yaş tökərəm,*
*Bir maralın həsrətini çəkərəm,*
*Sinəsi mərmərdi, məkanı ülkər.*

*Məkani-ülkərdə sevdim zalımı,*
*Yıxma camalımı, sökmə könlümü,*
*Ölləm, səndən üzməyərəm əlimi,*
*Mən sənə aşiqəm, gülüzlü dilbər.*

*Gülüzlü dilbərdən gün düşər üzə,*
*Hərcayı danışma, mailəm sözə,*
*Yığılın qardaşlar, ərzim var sizə,*
*Hər kim ki, darıxırsa, çəkər ahu-zar.*

*Ahu-zar çəkənin birisi mənəm,*
*Dərdim çoxdu, dərd bilməzə demənəm,*
*Mustafayam daha səyyad olmanam,*
*Səndən qeyri nə tərlan var, nə də sar.*

## ÇÜRÜK İSLAM
### (1795-96 – 1886)

İslam İsmayıl oğlu Şirvanın Kolanı elatında tərəkəmə ailəsində anadan olub, yoxsul yaşayıb, heyvandarlıqla məşğul olmuşdur. Müasiri Kolanı Mustafa ilə dost olub, onun evində təşkil edilən ədəbi məclisdə fəal iştirak edib, bir sıra aşıq və şairlərlə deyişmişdir. Çox sözbaz, danışqan olduğu üçün "Çürük" (çürükçü – çox danışan) təxəllüsü ilə tanınıb.

*Yeri bərbad olmuş, viran Gümüşdü,*[1]
*Bayqular banlayır, bağlar boş qalıb.*
*Açılmır gülləri, dərilmir barı,*
*Görünmür bağbanı, tağlar boş qalıb.*

*Bu obaya bəla gəldi nahaqdan,*
*Bir nişan qalmadı zənən-uşaqdan,*
*Yağı hücum çəkdi daldan, qabaqdan,*
*Sol tərəf yox olub, sağlar boş qalıb.*

*Bu yerlərin çəməni var, dağı var,*
*Sinəm üstə Gümüşdünün dağı var,*
*Çürük İslam Qaraymanda yağı var,*
*Dağılıb ev-eşik, dağlar boş qalıb.*

## ALLAHVERDİ RƏFİ OĞLU
### (1810-1895-96)

Allahverdi Rəfi oğlu 1810-cu ildə Mərəzə rayonunun Şıxzərli kəndində dünyaya gəlmişdir. Heç bir təhsil görməmiş, heyvandarlıq və kirəkeşliklə məşğul olmuşdur. O, 15-16 yaşlarından şer qoşmağa başlamış, el-obada "Haqq aşığı" kimi tanınmışdır. Saysız-hesabsız şerləri olduğu deyilirsə də, onların çoxusu itib-batmış, şairin həyat və yaradıcılığı öyrənilməmiş, şerləri toplanıb nəşr edilməmişdir. Biz isə onun cəmi **on səkkiz** şerini toplamışıq.

Allahverdi təxminən, 1895-96-cı illərdə vəfat etmişdir.

*Qadir mövlam, budur səndən diləyim,*
*Bu dünyada üz yüz oğlum olaydı.*
*Hər birisi şirin dilli, gülərüz,*
*Şəkərim, nabatım, noğulum olaydı.*

*Əllisi qılaydı Məkkəni, Hacı,*
*Əllisi başına qoyaydı tacı,*
*Əllisi doydurub kasıbı, acı,*
*Əllisi məktəbdə dərsin alaydı.*

[1] Gümüşdü - Şamaxı rayonu Poladlı kəndi yaxınlığında olan qədim yaşayış yerin adıdır.

*On beşinin yaylaqlarda qoyunu,*
*On beş oğlum meydanlarda soyunu,*
*On beşinin bir edəydim toyunu,*
*Məclisdə aşıqlar "Cəngi" çalaydı.*

*İyirmi cüt kəlim yeyəydi kütü,*
*İyirmi beş oğlum sürəydi cütü,*
*İyirmi beş oğlum sağaydı südü,*
*İyirmi beş oğlum rəncbər olaydı.*

*Əlli dəvəm çəkiləydi karvana,*
*Əlli nərim bağlanaydı yan-yana,*
*Allahverdi köç edəndə Şirvana,*
*Əlli oğlum çarvadarım olaydı.*

## DÜŞÜBDÜR

*Ay ağalar, mən neylədim fələyə,*
*Dolandırıb saldı məni tələyə,*
*Ayda-ildə bir ras[1] gəldim kirəyə,*
*Azmışam, karvanım qara düşübdür.*

*Alıbdı qarşımı bu qarlı dağlar,*
*Yaralar sızıldar, gözlərim ağlar,*
*Karvan qabağına gəlsə uşaqlar,*
*Deyərsiz ki, lələn dara düşübdür.*

*Qar yağıbdı, yolum girvə bağlayıb,*
*Sinəm başın düyünləyib, dağlayıb,*
*Baba dağı[2] məni dustaq saxlayıb,*
*Tərlanam, işlərim sara düşübdür.*

*Yükləndi karvanım yola düzüldü,*
*Xumarlanıb ala gözlər süzüldü,*
*Allahverdi, əlin yardan üzüldü,*
*Əzəl gündən yazın qara düşübdür.*

[1] Ras - rast sözünün formasıdır.
[2] Baba dağı - İsmayıllı ərazisində.

## GƏRAY MUSA OĞLU
### (1840-1910)

1840-cı ildə Şamlı kəndində anadan olan Gəray elə uşaq yaşlarından şer vurğunu olmuş, atasının söylədiyi nağıl və dastanları əzbər öyrənmişdi. Əldə etdiyimiz əsərlərindən bəlli olur ki, şairin şerləri xalqın dərdindən-sərindən xəbər verir. Əsl məsələ onda idi ki, kənddə vaxtilə ayağını "cızığından" kənar qoyan hampalar Gəray həcvlərindən həmişə ehtiyat etmişlər.

El şairi 1910-cu ildə doğma kəndində vəfat etmişdir. Onun da kimsəsiz məzarı nəvə-nəticə ziyarətinə tamarzıdır qədim Şamlı qəbristanlığında.

Apardığım araşdırmalar nəticəsində el şairinin şerlərindən **on beş yarpaq** əldə edə bilmişəm.

### QOCALIQ

*Dindirməyin məni qan ağlayaram,*
*Hamı dərddən yaman olur qocalıq.*
*Üzülüb taqətim, yoxdu amanım,*
*Əlif qəddim kaman olur, qocalıq.*

*Bükülüb qamətim düşmüşəm candan,*
*Görən tanış-biliş ötüşür yannan,*
*Gözlərim görməyir, tökülüb dəndan,*
*Yel aparan saman olur qocalıq.*

*Gəray deyir, mən də beş qədəm atdım,*
*Qaçanda qurtardım, qovanda tutdum,*
*Qışın çilləsində buz üstə yatdım,*
*İndi desəm, yalan olur, qocalıq.*

## MİRZƏ ASSAN OĞLU
### (1840-1924)

Mirzə Assan oğlu Rəfiyev 1840-cı ildə Şamaxının Cəyirli obasında dünyaya gəlib, heyvandarlıqla məşğul olub. O, gənc yaşlarında Xilə elatından olan Yetər adlı bir qızı sevsə də, ona qovuşa bilmir. Bu hadisə ilə bağlı şerlər yazmışdı. 1918-ci ildə Salyanın Qarabağlı kən-

dinə köçüb və 1924-cü ildə orada vəfat edib. Az savadlı olduğu üçün yazdığı qoşma, gəraylı, düzgü və bayatıları yazıya köçürülməmiş, buna görə də həmin əsərlərin ancaq **on dördü** günümüzə gəlib çatmışdır.

*Ay ağalar, sizə tərif eləyim,*
*Bahar olcaq açır gülü Şirvanın.*
*Bu yaz qara gəlib, millət ah çəkir,*
*Düşübdür tapırğa[1] eli Şirvanın.*

*Dörd tərəfdən qoşun axıb gəlibdir,*
*Axıb göz yaşımız, ümman olubdur,*
*Eşitmişəm Azad bəy[2] də ölübdür,*
*İndi bildim sınıb beli Şirvanın.*

*Yalan olsun, qurban kəsim adına,*
*Beş kimsənə özü yetsin dadına,*
*Hərdəm-hərdəm düşür mənim yadıma,*
*Soyuq bulaqları, seli Şirvanın.*

*Top-topxana gəlir Gəncə elindən,*
*Ermənini dara çəkin dilindən,*
*Namus, qeyrət, dövlət gedib əlindən,*
*Gör kimə qalıbdır malı Şirvanın?*

## OLMUR

*Oğrun baxdı, aldı yazıq canımı,*
*Bu nə zəmanədir, yar sevmək olmur.*
*Çətin görəm bir də Yetər xanımı,*
*Elin öz adəti, yar sevmək olmur.*

*Həsrətindən adım çıxıbdı yaddan,*
*Bəxtəvər günlərim düşübdü daddan,*
*Bəs niyə ürəyim yanır bu oddan?*
*Yağır yollarıma qar, sevmək olmur.*

*Soluxdu bəhəri bağın-bostanın,*
*Bu xəzəl könlümü alan dost hanı?*
*Bəs niyə bu dünya yazıq Assanın,*
*Olubdu başına dar, sevmək olmur.[3]*

[1] Tapırğa - qaçqın, didərgin
[2] 1918-ci ildə ermənilərlə vuruşmuşdur.
[3] "Yeni Şirvan" qəzeti, 3 mart 1987

# MƏŞƏDİ ABBAS ŞİRVANİ
## (1848-1908)

Məşədi Abbas Mirzəcan oğlu təxminən, 1848-ci ildə Şirvanın Kolanı elatında anadan olmuş, gənc yaşlarından Şamaxıya köçüb orada bənnalıq sənətinə yiyələnmişdir. XIX əsrin 70-ci illərində zəlzələ zamanı arvadı və 7 uşağı həlak olduğundan küskünləşmiş, dərdini dağıtmaq üçün Orta Asiyaya piyada gedərək Aşqabad, Mərv, Cərco, Buxara, Səmərqənd şəhərlərin gəzmiş, sonra İrana köçmüşdür. Səkkiz ildən sonra – 1902-ci ilin əvvəllərində Şmaxıya qayıtmışdır. O, zəlzələdən sonra Dağıstana getmiş və 1908-ci ildə orada vəfat etmişdir.

Məşhədi Abbas Şirvani daha çox mərsiyə, qoşma və gəraylı janrında əsərlər yazmışdır. Arxiv və yaddaşlardan onun əsərlərindən bəzi nümunələr əldə etmişik.

### BÜLBÜL

***Xəzan olmuş bu bağçamda,***
***Nə gəzirsən, sarı bülbül?!***
***Gəl görünmə gözlərimə,***
***Ağlamayım barı, bülbül.***

***Duman alıb dörd yanımı,***
***Qəm-qüssə üzüb canımı,***
***Yarım pozum peymanını,***
***Mehman edib xarı, bülbül!***

***Çərxim dönüb, tale yatıb,***
***Tufan qopub, qəmim batıb,***
***Cümlə bəşər məni atıb,***
***Üz döndərib tarı, bülbül.***

***Abbasam bitməz əfqanım,***
***Kimsəyə gəlməz gümanım,***
***Ölüb-itmir mənim canım,***
***Yoxmuş qeyrət-arı, bülbül.***

## MƏNİ

*Leylətül-qədridə iltac[1] eylədim,*
*Tezliklə yetirsin o, yarə məni.*
*Sevdanın ucundan yaralanmışam,*
*Bilin öldrəcək bu yarə məni.*

*Sığınmışam Məhəmmədə, Əliyə,*
*Onlar şəfakardır əhli-vəliyə,*
*Bu duvamı tuta, qəbul eyləyə,*
*Eşqim salacaqdır azara məni.*

*Vəslinə yetməyə çata imkanım,*
*Gələr qərarıma dinim, imanım,*
*Şahım, qibləgahım, adı pünhanım,*
*Qul edib qoy çəksin bazara məni.*

*Zimistan çəkirəm bəd olub yazım,*
*Sinəmdə sızlayır üç telli sazım,*
*Bir ah çəksəm ərşə qalxar avazım,*
*Deyin, yar atmasın kənara məni.*

*Məşədi Abbasam, oldum ozan da,*
*Yar məni qaynatdı qaynar qazanda,*
*Neyləmişdim fələk yazı yazanda,*
*Yar yolunda saldı avara məni.*

## ŞAMLI CABBAR
## (1850-1920)

El şairi Cabbar 1850-ci ildə Şamlıda yoxsl ailədə anadan olmuşdur. Uşaqlıqdan aşıq sənətinə böyük maraq göstərmişdir. Get-gedə el ədəbiyyatı nümunələrindən eşitdiklərinin hamısını yadında saxlayır. İti hafizəli Cabbar özü də şerlər düzməyə başlayır. Deyilənlərə görə, istəklisini yoxsul olduqlarına görə ona vermirlər. Bundan sonra şairliyi daha da tüğyan edir.

Tərəkəmə ailəsində böyüyüb, varlıların qoyun-quzularını otarmış, həm də çox hazırcavab imiş...

Deyilənlərə görə, bir dəfə yaylaqdan qayıdanda Şamaxıya,

[1] İltac-iltica mənasında işlənir.

Cümə məscidinə namaz qılmağa gəlir. Məscidin qabağında Hacı Məcid Əfəndi ilə rastlaşır. Məscidin imamı Hacı Məcid Əfəndi onu tanımadığı üçün soruşur:

– A kişi, kimsən tanımadım səni?

– Mən Şamlı Cabbaram, başına dönüm.

– Çox yaxşı bala, "həmdi-surəni" bilirsən ki, məscidə ayaq basırsan?

Cabbar fikirləşmədən deyir:

– Əfəndim, qurbanın olum, hansı "həmdi-surəni" deyirsən?

Əfəndi təəccüb edib deyir:

– Ay Allahın avam bəndəsi, "həmdi-surə" neçədir?

Cabbar deyir:

– Əfəndim, başına dönüm, avamlığına avamam, amma "həmdi-surə" bir deyil, üçdür.

– De görək, bala, hansılardır?

Cabbar deyir:

– Əfəndi, başına dönüm, bir "həmdi-surə" var onu peyğəmbər Rəsullah oxuyub, siz oxuya bilməzsiniz! İkinci "həmdi-surə" var, siz oxuya bilərsiniz, mən yox. Üçüncü də biz avamların oxuduqları.

Cabbarın belə hazırcavablığı Əfəndinin xoşuna gəlir və onunla yaxından tanış olur, şerlərini də bəyənirmiş. Dini şerlərini çox vaxt məhərrəmlik məclisində oxuyarmışlar.

Bir dəfə Cabbarın inəyinin balası gəlmir. Arvadı deyir, əlindən bir iş gəlmir, heç olmasa get bu yaxın yerlərə bax dananı axtar. Cabbar getmək istəmədikdə qonşusu Məcid də təkid edir. Onlar ikisi birlikdə yaxındakı Qazan-quzan dağının ətəyinə gedirlər. Cabbar deyir, qoy bu dağdan dananı xəbər alım. O, dananın yerini bilməmiş olmaz.

## NECOLDU?

*Səndən xəbər alım, ay Qazan-Quzan,*
*Səndə gəzən qonur danam necoldu?*
*Yoxdu mən yazığın dərdini yazan,*
*Səndə gəzən qonur danam necoldu?*

*Sərkərdələr bərk bərkidir qalasın,*
*Eşitginən mən yazığın naləsin,*
*İnək mələr, məndən istər balasın,*
*Səndə gəzən qonur danam necoldu?*

*Aləm bilir göy üzündə meh idim,*
*Əl dəyəndə nalə idim, ah idim,*
*Yanımdakı qonşu Məcid şahıdim,*
*Səndə gəzən qonur danam necoldu?*

*Bir baxan yox Şamlı Cabbar üzünə,*
*Çox çıxmışam gədiyinə, düzünə,*
*Düşəmmədim bircə soraq izinə,*
*Səndə gəzən qonur danam necoldu?*

Bir azdan o, Məcidlə kor-peşman evə qayıdır. Deyir ki, arvadı dananın yerini bilirəm. Sabah gələcək. Doğrudan da, sübh tezdən dananın səsinə yuxdan oyanırlar... Cabbar 1920-ci ildə vəfat etmişdir. Onun hələlik **on beş** şerini toplamışıq.

*Bir güzər eylədim yarın bağına,*
*Bağçasında xar qucubdu gülləri.*
*Bizimnən şirin-şirin danışdı,*
*Yandırdı cismimi tuti dilləri.*

*Dəli könlüm, nə diyara çaparsan,*
*Məkkəynən, Mədinəni yaparsan,*
*Rumda tapmasan, Şamlıda taparsan,*
*Qədim mövlam bağlamasa yolları.*

*Cabbarın dərdini bu dağlar çəkməz,*
*Ayrılıq toxumunu heç bəşər əkməz,*
*Vədəsiz bağçalar gülünü tökməz,*
*Tərs əsməsə, bu fələyin yelləri.*

## KİMİ

*Bir gözəlin sevdasına düşmüşəm,*
*Qaşları şux, yanaqları gül kimi.*
*Hər baxanda şövqi düşür cahana,*
*Dili şəkər, dodaqları bal kimi.*

*Qaşı kimi tamarlanmış yay olmaz,*
*Könlü kimi daşqın axan çay olmaz,*
*Gözəllikdə heç kəs ona tay olmaz,*
*Yusif onun camalında xal kimi.*

*Cabbar deyir, göz yoluna tikmişəm,*
*Ayrılıq toxumunu çoxdan əkmişəm,*
*Yollarında çox cəfalar çəkmişəm,*
*Əlif qəddim əyilibdi dal kimi.*

## HƏZRƏT ƏLİYƏ

*Sənə deyim şahi-mərdan nişanın,*
*Yaranışdan Zülfüqarı lal oldu.*
*Haxdan nərə çəkib girdi meydana,*
*Tamam gavur qorxusundan lal oldu.*

*Əli aldı Zülfüqarı əlinə,*
*Suvar oldu, o, Düldülün belinə,*
*Allahı şəhadət etdi dilinə,*
*Əlində Zülfüqar halbahal oldu.*

*Əli aldı Zülfüqarı dəstinə,*
*Yoxdu bərabəri gələ məstinə,*
*Qədəm basdı o, Xeybərirn üstünə,*
*Xeybər qalasında qalmaqal oldu.*

*Önücən öz qulu Qənbər yeridi,*
*Hər tərəfi zalım ləşgər bürüdü,*
*Yüz min nəfər yerindəcə çürüdü,*
*Axdı-axdı al qanından sel oldu.*

*Cabbar geyinibdi yaşıl libası,*
*Piranı saqqalı, əldə əsası,*
*Ərəstidə kimdi ümbət yiyəsi?*
*Çağırdılar, ya Məhəmməd, gəl oldu.*

# ŞAİR QARA
## (1851-52-1932)

Qara Hacı Yusif oğlu təxminən, 1851-52-ci illərdə Şamaxı rayonunun Gəmüstü (Nərimankənd) kəndində dünyaya gəlmişdir. Əldə etdiyimiz əsərləri satirik və aşıq şeri üslubda yazılmış qoşma, ustadnamə, həcvlərdən, eləcə də zikirlər və mərsiyələrdən ibarətdir. El şairi haqqında Ə.Cəfərzadə, M.Mürsəlov, İmran Sabirov və başqaları

müxtəlif qəzet, jurnallarda məlumat vermiş və şerlərindən nümunələr çap etdirmişlər. Şairin **iyirmi bir** şerini toplamışıq.

Şair Qara 1932-ci ildə vəfat etmişdir.

*Başına döndüyüm, ay gözəl pəri,*
*Qadasın aldığım qonağam, qonaq.*
*Yolunda qoymuşam can ilə sərim,*
*Qadasın aldığım qonağam, qonaq.*

*Nə süzgün baxırsan gözləri xəndan,*
*Zalım, cəllad kimi doymursan qandan,*
*Turunclar baş verib, çıxıb yaxandan,*
*Qadasın aldığım qonağam, qonaq.*

*Sən tülək tərlana mən oldum naşı,*
*Yanır ürəyimdə eşqin ataşı,*
*Yazığam, sinəmə gəl döymə daşı,*
*Qadasın aldığım qonağam, qonaq.*

*Əslim Gəmüstüdən, adım Qaradır,*
*Səni görən dəmdən qəlbim yaradır,*
*Söylə adın nədir, yerin haradır?*
*Qadasın aldığım qonağam, qonaq.*

## BİZƏ GÖNDƏR

*Başına döndüyüm sərvi-salatın,*
*Yetkin yemiş, şirin bar bizə göndər.*
*O gözəl bağçada heyvadan, nardan,*
*Gilas tez yetişir, nar bizə göndər.*

*Seyrana çıxanda geyirsən yaşıl,*
*Zülfün kəməndinə qəddim dolaşır,*
*Güldən, ireyhandan bir dəstə düşür,*
*Zülfün arasında var bizə göndər.*

*Başına döndüyüm, ay nazlı xumar,*
*Yaşılbaş sonalar göllərə cumar,*
*Səfalı yaylaqdan bu könlüm umar,*
*Yaylıq arasında qar bizə göndər.*

*Qara çox arzular qaşların tağın,*
*Lalə yanaqların, qonça dodağın,*
*Şahmar hörüklərin, ayna qabağın,*
*Yığıb-yığışdırıb, yar, bizə göndər.*

### NECOLDU?

*Məlul-müşkül bir tərlanı gəzirəm,*
*Yoxdu, bərabəri hanı, necoldu?*
*Baxışı nər kimi, sifəti gülşən,*
*Mərifət mədəni, kanı necoldu?*

*Hər məclisdə söylənəndə sözündən,*
*Arif olan gərək getsin özündən,*
*Ərəbqədim icma, batdı gözündən,*
*Yesir etdi Qobustanı necoldu?*

*Gedəni gözləmir, gəlmir qürbətdən,*
*Yatanı oyanmır xabi qəflətdən,*
*Siz agah eyləyin məni bu dərddən,*
*Yer üzünün Süleymanı necoldu?*

*Biçarə Qarayam, canım atəşli,*
*Əllərim qoynumda, gözlərim yaşlı,*
*Tərlanım qeyb oldu bir yaşılbaşlı,*
*Ol piri-sultanım hanı, necoldu?*

## CƏYİRLİ MURAD
## (XIX-XX)

Şamaxı qəzasının Cəyirli obasında XIX əsrdə anadan olub, XX əsrin əvvəllərində vəfat edib. Kərəm Həsən oğlu ilə görüşüm zamanı dedi ki, Murad haqqında yaşlılar belə deyərdi: "Murad Cəyirlinin Turunc təbəhindən olmuşdur. Onun həm gözəl səsi, həm də gözəl təbi varımış. Ağsaqqalların yaddaşından Muradın bir çox şerini əzbər örənmişdim. Əfsus ki, unutmuşam". Kərəm kişi Muradın "Olmaya" rədifli şerindən aşaıdakı bəndləri yadına sala bildi.

*...Pidrəki zirvəsinə çıxmışam,*
*Turanc bulağının suyun içmişəm,*
*Bu el gözəlindən birin seçmişəm,*
*Bilmirəm qismətim ola, olmaya?!*

*Yaz gəlib, lalələr çıxıbdı dizə,*
*Muradam vurğunam nəğməyə, sözə,*
*Çoxdan bənd olmuşam bir alagözə,*
*Bilmirəm qismətim ola, olmaya?!*

## KEÇƏL PİRİ
### (XIX əsrin otraları – XX)

Piri Nəzir oğlu XIX əsrin ortalarında Şirvanın Kolanı elatında anadan olmuş və təxminən, 85-90 yaşlarında orada da vəfat etmişdir. Hədsiz zarafatcıl və bacarıqlı olduğu üçün ona "keçəl" deyirlərmiş. Piri savadsız olsa da, çoxlu şerlər qoşmuş, Kolanı Mustafanın təşkil etdiyi şer məclislərdə müntəzəm iştirak etmiş, Orucəli Goranı, Çürük İslam və b. birlikdə bir çox şənlik məclislərində zarafatyana şəbədələr, həcvlər, deyişmələrlə çıxış etmişdir.

*Ay camaat, qulaq verin sözümə,*
*Deyim necə candı Güləndam qarı.*
*Gündə bir çaxnaşma salır obaya,*
*Çanaq dolu qandı Güləndam qarı.*

*Salışdırır ana ilə balanı,*
*Deyir hərəsinə bir cür yalanı,*
*Vurmaqda, çalmaqda keçib ilanı,*
*Yaman ev yıxandı Güləndam qarı.*

*İşdən ağır, amma dildən diridir,*
*Üstündəki yeddi ilin kiridir,*
*Böhtançıdır, imansızın biridir,*
*Hamıya düşməndı Güləndam qarı.*

*Öldürərsən – deməz sözün düzünü,*
*Torpaq da doydurmaz çamxır gözünü,*
*Mürdəşirlər yusun bunun üzünü,*
*Borandı, tufandı Güləndam qarı.*

*Həftələrlə yumaz qabı-qacağı,*
*Zibil olar evin küncü-bucağı,*
*Küllükdə axtarır çömçə-bıçağı,*
*Əcinnə, şeytandı Güləndam qarı.*

*Keçəl Piri, çox bilirsən, az danış,*
*Özgənin işinə az sarış-qarış,*
*Məsləhətdir, gedib dübarə barış,*
*Əsil bümandı Güləndam qarı.*

### QURBAN

*Göz-gözə baxanda alışır ciyər,*
*Sənə bu ədanı verənə qurban.*
*Yüz gözəl içində gözəllər xası,*
*Allah bəxşişi, görənə qurban.*

*Aşiqə şəfadır hər bənövşə xal,*
*"Dəli şeytan" deyir, dur qadasın al,*
*Şahə çəkib pürçüm açan mahcamal,*
*Pərişan telləri hörənə qurban.*

*Hər bülbülün gülü özünə tuşdur.*
*Yarsız yaşayanlar inan bayquşdur,*
*Əzabın ömürlük mənimçün xoşdur,*
*Piri tək barını dərənə qurban.*

## RƏHİM SƏFƏRALI OĞLU

### (1885-1935)

Rəhim Səfəralı oğlu təxminən, 1885-ci ildə Şamaxı qəzasının Şamlı kəndində anadan olmuşdur. Ömrü-günü yaylaqda, qışlaqda keçmişdir. Bədahətən düzdüyü şerləri ilə də öz dövründə məşhur olmuşdur. Əfsus ki, yaddaşlarda uzun ömür sürə bilməmişdir o şerlər. O, 1935-ci ildə Şamlı kəndində vəfat etmişdir. El şairinin **on iki** şerini toplamışıq.

*Gürdik vurub Qazan-quzan*[1] *belinə,*
*Neçə gündü qoyun gəlmir...*
*Allah versin Navahanın elinə,*
*Gözün olsun, belə qışı görməsin.*

*Bərk örtün qapını, görməyim çölü,*
*Əlimin tabağı, üstümün lili,*
*Nohurlar bağlayıb tamam buz gölü,*
*Gözün olsun, belə qışı görməsin.*

[1] Qazan-qazan - Şamlı kəndi yaxınlığında yer adıdır

*Xanalı qışlağı, gəlmərəm sənə,*
*Bilirsən nə olub Nəbiylə, mənə?*
*Bir sürü qoynumu qırıbdı gənə,*
*Gözün olsun, belə qışı görməsin.*

*Rəhim deyir, daha yoxdu təmənnam,*
*Aləm bilir yaz açılıb yavanam,*
*Saqqalım ağardı, özüm cavanam,*
*Gözün olsun, belə qışı görməsin.*

## HEYBƏT MOLLA MƏHƏMMƏD OĞLU

Heybət Şamaxı qəzasının Dərəkənd kəndindən olub. Vaxtı ilə kənddə hazırcavab, bədahətən söz deyən insan kimi şöhrət qazanıb.

**Haşiyə:** Professor M.Cəbrayılov əmisi Heybət haqqında yazır ki, onun yaxşı da təbi olmuşdur. Bədahət şer deməyi bacarırdı. Heyf ki, onun şerləri vaxtında yazıya alınmadı. Bir şerin tarixçəsi yadımdadır. Deyilənə görə, plana söz qoşmaq dəbdə olub. Qəza mərkəzindən Heybət kişiyə də sifariş verirlər ki, o da belə şer yazsın. Sifarişlə ömüründə şer yazmayan Heybət kişi, ən nəhayət, dörd bəndlik bir şer yazır.

*Beşillik plana söz deyir şair,*
*Danışanda danış mətləbə dair,*
*Basarlar QPO-ya görməzsən bayır,*
*Baxarlar işinə beş ildən sonra.*

Şer yuxarıdakılara pis təsir edir. Savadsız olduğu üçün onu tutmurlar...

El şairi Heybətin bir neçə şerini Şirvan folklorunun toplanmasında xüsusi xidmətləri olmuş, filologiya elmləri doktoru Əhməd Cəfərzadənin şəxsi arxivindən qorunub saxlanır. Onun birini şersevərlərə və el şairinin qohumlarına ərmağan edirik.

### ŞIX EYYUB BABA

*Ustadlar ustadı, mürüdlər xası,*
*Məkanı Qobustan Şıx Eyyub baba.*
*Acdərədə yaxşı məkan salmısan,*
*Elmizə dayaqsan, Şıx Eyyub baba.*

***Həzrət baba, Həzrət nənə oylağın,***
***Tütyədir hamıya məzar torpağın,***
***Yayılıb hər yerə adın, sorağın,***
***Ağır övliyasan, Şıx Eyyub baba.***

***Səni bizə qıyıb böyük yaradan,***
***Heybət söhbət açsın bilmir haradan,***
***Dərd-bəlanı özün götür oradan,***
***Köməyim olasan, Şıx Eyyub baba.***

## ORUCƏLİ GORANI
### (XIX əsrin ortaları – 1932)

Orucəli Assan oğlu Məmmədov Goranı XIX əsrin ortalarında Şamaxı qəzasının Kolanı elatının Goran obasında anadan olmuşdur. O, təxminən, 1931-32-ci illərdə Girdədə vəfat etmişdir. O, həmyerlisi və müasiri olmuş şairlərdən Çürük İslam, Qasım və başqaları ilə toy məclislərində dəfələrlə deyişmiş, onlarla birlikdə Quba və Dağıstanda çıxış etmişdir. Orucəlinin yaradıcılığında dini əsərləri ilə yanaşı, ailə-məişət mövzusunda yazdığı satirik şerləri əsas yer tutur. Onun **on beş** şerini əldə etmişik.

### DEYİŞMƏ

**Orucəli:**
*Başına döndüyüm, maral inəyim,*
*Aman inək, oba köçdü, dur gedək.*
*Əldən getdi səbri-qərar, inəyim,*
*Aman inək, oba köçdü, dur gedək.*

**İnək:**
*Ay Orucəli, mən bələdəm halına,*
*Üç ay qışı nə vermisən malına?*
*Çox danışma gönü verrəm dalına,*
*Salamat qal, mən gedəsi olmadım.*

**Orucəli:**
*Əmcəklərin gənə kimi iridir,*
*Səni sağan Baday qızı Pəridir,*
*Könül quşu havalanıb dəlidir,*
*Aman inək, oba köçdü, dur gedək.*

**İnək:**
*Sən Orucəli Məhəmmədin hümməti,*
*Qışda verdin mənə xeyli zəhməti,*
*Çox danışma, qısa elə söhbəti,*
*Salamat qal, mən gedəsi olmadım.*

**Orucəli:**
*Üç ay qışı gözüm töküb yaşını,*
*Yeməmişəm südlü plov aşını,*
*Tez durmasan kəsəcəyəm başını,*
*Aman inək, oba köçdü, dur gedək.*

**İnək:**
*Ay Orucəli, inanmaram sözünə,*
*Həsrət qoydun, kəpək, saman üzünə,*
*Mən cəhənnəm, nə tapırsan, özün nə?*
*Salamat qal, mən gedəsi olmadım.*

## ÖZÜNDƏN KÜS

***Çay qırağı əkin əkmə,***
***Sel aparsa, özündən küs.***
***Çiy söz ağılsız işidir,***
***Yel aparsa, özündən küs.***

***Sovurma söz "samanını",***
***Tanı yaxşı, yamanını,***
***Əldən alıb imanını,***
***Tel aparsa, özündən küs.***

***Həqiqətə can sadağa,***
***Əyriliyə ver "qadağa",***
***"Yad bülbülü" qoyma bağa,***
***Gül aparsa, özündən küs.***

***Tərəkəmə yuxu yatmaz,***
***Fərsiz çobanı qurd saymaz,***
***Qoçaqdan davar aparmaz,***
***Bil, aparsa, özündən küs.***

*Boş söhbətə vermə qulaq,*
*Ara vurar yalan, lağ-lağ,*
*Orucəli, danışma ağ,*
*Dil aparsa, özündən küs.*

## ŞAMLI CƏNNƏTALI
## (1900-1965)

Zülfüqarov Cənnətalı Məhəmməd oğlu 1900-cü ildə Şirvan mahalının Şamlı obasında anadan olmuşdur. Dini təhsil almşdır. Bir müddət də Şamaxı Cümə məscidində Hacı Məcid Əfəndinin yanında dini elmləri öyrənir. Uşaq yaşlarından möhkəm hafizəyə, gözəl təbə malik olmuşdur. El ədəbiyyatının bir çox nümunələrini əzbərdən bilirdi. Aşıq sənətinin mahir bilicisi idi. Dövrünün aşıqları həmişə ondan məsləhət alar, xalq dastanlarını öyrənirdi. Düzdüyü şerlər ustad aşıqlar tərəfindən məclislərdə oxunardı.



Şerlərində vətən istəyi, Şamlı həsrəti, gözəllərin vəsfi öz əksini tapmışdır. O, 1965-ci ildə Qaradağ rayonunun Qobustan qəsəbəsində vəfat etmişdir.

### NEYLƏDİN?

*Səndən xəbər alım, ey piri-fani,*
*Bu cahana gələn hanı, neylədin?*
*Döndərmisən neçə-neçə dövranı,*
*Batırdın şöhrəti-şanı, neylədin?*

*Fani dünya, səndə yoxdu etibar,*
*İşin dövrü cəfa hər axşam-səhər,*
*Gedənlər qayıtmaz, yoxdu bir xəbər,*
*Gədanı, soltanı, xanı neylədin?*

*Hökm eylədin inni-cinni, heyvana,*
*Onları eylədin xaki yeksana,*
*Əcəl şərabını nuş etdi cana,*
*Qaldı mülkü,* Süleymanı neylədin?

*Nə səbəbdən o quyuya atıldı?*
*Qul deyibən o, Misirdə satıldı,*
*Neçə illər o zindanda yatırdı,*
*Sən* Yusifi – o, Kənanı neylədin?

*Axirəzzaman haqq peyğəmbəri,*
*Övliyalar, ənbiyələr rəhbəri,*
*Yüz iyirmi dörd min nəbi sərvəri,*
Məhəmməd-əl Mustafanı neylədin?

*Əbubəkir, Siddiq Ömər, həm Osman,*
*Onları eylədin xak ilə yeksan,*
*Gəldi ayət-ayət yazıldı "Quran",*
*Cəm eyləyən o,* Osmanı neylədin?

*Minibən Düldülü meydana girdi,*
*Siyirib Zülfüqarı hər yana vurdu,*
*Yıxdı bütxanəni, Xeybəri aldı,*
Əli kimi pəhləvanı neylədin?

*Cənnət nəsib olsun Həmidpaşaya,*
*Ruhi qoy batmasın zövqi səfayə,*
*Cənnətalı bir gün köçər üqbaya,*
*Deyin rəhmətlik hanı, neylədin?*

## A GİDİ DÜNYA

*Zarafat eləmə, a gidi dünya,*
*Gah dikəlib, gah əyirsən qəddimi.*
*Hərdən döndərirsən dolu dəryanı,*
*Hərdən uçurursan uca səddimi.*

*Sanki Koroğluyam Çənlibelim yox,*
*Düşmüşəm didərgin obam, elim yox,*
*Bəzən elə bil ki, lalam dilim yox.*
*Alırsan başımdan olan əqlimi.*

*Arifəm, xəbərdar "əlif"dən, "bey"dən,*
*Mənə pay verilib sahibi göydən,*
*Tuti dilim köçüb gedib evimdən,*
*Artırıb Məcnuntək bilməz dərdimi.*

*Şamlı Cənnətalı itib nəzərin,*
*Get-gedə bənd olur nurlu gözlərin,*
*Yusiftək zindanda keçdi günlərini,*
*Kəsdi bəd zəmanə olan əhdimi.*

### VAR MƏNİM

*Səpələnib düşdük qərib ellərə,*
*Ürəyimdə ağrılarım var mənim.*
*Yurdumda qalmayıb bir əmcək əmən,*
*Xaraba qalan bağlarım var mənim.*

*Hərə bir iyiddir Şamlı elləri,*
*At belində gəzər qoç iyidləri,*
*Hər yerdən üzüldü, çıxdı əlləri.*
*Nə bir günüm, güzarım var mənim.*

*Görmürəm bir uğur bu gedişatda,*
*Neçə hoqqa çıxır hər bir saatda,*
*Etibar hardadır bu kəc həyatda?*
*Bundan sonra bədrüzgarım var mənim.*

*Şamlı Cənnətalı, qədim yurdum Şam,*
*Şıx Eyyub babadan ilham almışam,*
*Nə vaxtdır yurdumdan aralanmışam,*
*Gör nə qədər intizarım var mənim.*

## YARMƏMMƏD AĞAMƏMMƏD OĞLU

O, Ərəbqədim kəndində anadan olub. Uşaqlıqdan dinə bağlı insan olub. Dəfələrlə Şirvan övliyalarını, eləcə də Həzrət Babanı ziyarət etmişdir. Şirvan övliyalarının adına bədahətən neçə-neçə şerlər-zikirlər yazmışdır.

# KAMİL USTAD – ŞIX MUSTAFA

*Allah deyib, qədəm qoydum,*
*Ya Məhəmməd, Şıx Mustafa.*
*Şıx Əyyubdan payın alıb,*
*Kamil ustad – Şıx Mustafa.*

*Veysəl Qara, Həzrət Baba,*
*Dərdlilərə verən dəva,*
*Haqq özüdür verən şəfa,*
*Kamil ustad – Şıx Mustafa.*

*Şıx Əyyubun nəslindən,*
*Dürr tökülübdü dilindən,*
*Qədim ərəbin elindən,*
*Kamil ustad – Şıx Mustafa.*

*Övliyalar ovlağındır,*
*Qobustanın çırağıdır,*
*Şıx Əyyubun budağıdır,*
*Kamil ustad – Şıx Mustafa.*

*Dualıdır şirin dili,*
*İşarə edirdi əli,*
*Cənnətməkan olsun yeri,*
*Kamil ustad – Şıx Mustafa.*

*Dəstəmazsız oturmayın,*
*Xeyirdən, şərdən qalmayın,*
*Ölüm haqdı, unutmayın,*
*Kamil ustad – Şıx Mustafa.*

*Tam paylayır yediyindən,*
*Çıxmaq olmur dediyindən,*
*Mürüd yazar, gördüyündən,*
*Kamil ustad – Şıx Mustafa.*

*Atam mənim Ağamməddir,*
*Şəfaqəti Məhəmməddir,*
*Görüb-yazan Yarməmməddir,*
*Kamil ustad – Şıx Mustafa.*

# DADAŞ AĞA OĞLU



Məmmədov Dadaş 1925-ci ildə Şamaxı qəzasının Çalov kəndində doğulmuşdur. O, kənd məktəbində oxumuş, 1942-ci ildə cəbhəyə yollanmışdır. Böyük Vətən Müharibəsindən qayıtdıqdan sonra kolxozda çalışmışdır. 1954-cü ildə bu günə kimi – 50 ildir ki, Çalov kənd kitabxanasının müdiri işləyir. Bu illər ərzində o, dəfələrlə müxtəlif mükafatlarla təltif olunmuşdur. D.Məmmədov 2004-cü ildə Respublikanın "Əməkdar kitabxanaçısı" fəxri adına layiq görülmüşdür.

Müharibə və əmək veteranı həm də, poeziya həvəskarıdır. Onun yazdığı şerlər rayon mətbuatında işıq üzü görmüşdür.

## SƏS VERDİM...

***(1998-ci il prezident seçkiləri oldu. Heydər Əliyev cənablarına ürəkdən səs verdim).***

*Mən o şəxsə səs verdim,*
*Ürəklərdə yaşayır o.*
*Öz adının mənasını,*
*Şərəflə daşıyır o.*

*Mən o şəxsə səs verdim,*
*Heykəli var qəlbimizdə.*
*Mən o şəxsə səs verdim,*
*Əməyi var elimizdə.*

*Mən o şəxsə səs verdim,*
*Körpələrin dilindədir.*
*Ürəyinin hərarəti,*
*Öz xalqında, elindədir.*

*Mən o şəxsə səs verdim,*
*Məramı düz, amalı düz.*

*Hamımızın taleyini,*
*O düşünür gecə-gündüz.*

*Mən o şəxsə səs verdim,*
*Onu Azərbaycan seçir.*
*Qəlbindəki körpülərdən,*
*Milyon-milyon insan keçir.*

*Mən o şəxsə səs verdim,*
*Ürəklərə körpü salır.*
*Mən o şəxsə səs verdim,*
*Tarixlərdə izi qalır.*

*Mən o şəxsə səs verdim,*
*Xalqımızın dayağıdır.*
*Elimizə yol göstərən,*
*Azərbaycan mayakıdır.*

## HACI MƏMMƏD ALMAZ OĞLU



Əhmədov Hacı Məmməd 1928-ci ildə Şıxzərli kəndində anadan olub. İbtidai təhsil alıb. O müqəddəs Həcc ziyarətində olmuşdur. Sinədəftər el şairi iki yüzdən artıq şerin müəllifidir.

### ÇATMADI

*İnsan üçün nə qədər şirindir dünya,*
*Çox kimsələr əhd-kamına çatmadı.*
*Çoxları doymadı dünya malından,*
*"Oxay" deyib, bir doyunca yatmadı.*

*İnsanı özünə edərsən aşıq,*
*Kimi varı sevib, kimi yaraşıq,*
*Hamı bu dünyaya göstərir işıq,*
*Fikirləşmir, əhd-kamına çatmayır.*

*Məmməd! – Dünyada gəl etmə fikir,*
*Keçən günlərinə elə min şükür,*

*Ərəsət günündə de nədir tədbir?*
*Bəlkə əlin bir kimsəyə çatmadı.*

## BİR GÜN

*Dünya sənin deyil, mənəmlik etmə,*
*O, fərzdi, qapını alacaq bir gün.*
*Düşünüb, fikir edib pis yola getmə,*
*Haqq-hesab yiyəsi alacaq bir gün.*

*Bacarırsan əgər yaxşılıq elə,*
*O xəbsin yoluna sən qurma tələ,*
*Dalda quyu qazma sən bilə-bilə,*
*Haqq özü sirrini açacaq bir gün.*

*Məmməd fikirlərin çoxdu dünyada,*
*Deyirsən, dostumdur, gəlməyir ya da,*
*Nəsihətim budur bütün övlada,*
*Xain yaman günə qalacaq bir gün.*

# NÜSRƏT QASIMLI



Nüsrət Altay oğlu 1932-ci ildə Nərimankənd kəndində anadan olub. İbtidai təhsillidir. Uşaq yaşlarından kolxozda işləmişdir. Özünün dediyi kimi, 1961-ci ildə xəstəliyə tutulmuşdur. Həmin il Həzrət Baba və Veyis baba dərgahını ziyart etmişdir. Xəstəliyi tam sağaldığı kimi şer yazmaq təbi də həmin vaxtdan gəlmişdi.

Əsasən, dini mövzulu əsərlər-zikir, mərsiyələr yazan şairin şerlərinin sayı beş yüzdən artıqdır. Artıq N.Qasımlının iki şerlər kitabı ("Zikirlər") işıq üzü görmüşdür.

## SƏNİN QIYIMINDI, YAZIRAM, ALLAH!

**Bismillahir-rəhmanir-rəhim!**

*Sən ona tapşırdın hümmətin yolun,*
*Geydirdin əyninə peyğəmbər donun,*
*Mələklər yığıldı, soruşdu halın,*
*Sənin qıyımındı, yazıram, Allah!*

*Haqqın hökmü ilə dikəldi yola,*
*İlləllah kəlməsin gətirdi dilə,*
*O hax peyğəmbərdi, bu gündən belə,*
*Sənin qıyımındı, yazıram, Allah!*

*Yolları açmısan gülər üzünə,*
*Mələklər də qulaq asdı sözünə,*
*O hansı ay idi, hansı günü nə,*
*Sənin qıyımındı, yazıram, Allah!*

*O məram gününü yadına saldı,*
*Hümmətin qayğına daima qaldı,*
*Cəbrayıl da gəldi, təsəlli aldı,*
*Sənin qıyımındı, yazıram, Allah!*

*Onu Allah bilir, hansı aydadı,*
*Bəlkə də payızda, bəlkə yaydadı,*
*Gündü, gəlib-gedir, hamı saydadı,*
*Sənin qıyımındı, yazıram, Allah!*

*Hümmət olanları o bir-bir seçir,*
*Şirin yuxuda da yadına düşür,*
*O, merac gününün həsrətin çəkir,*
*Sənin qıyımındı, yazıram, Allah!*

*Allah bəxş eyləyib, olmusan halı,*
*Dünyaya gəlməmiş tutmusan yolu,*
*İlləllah söyləyib tədbirdə dili,*
*Sənin qıyımındı, yazıram, Allah!*

# YA MƏHƏMMƏD, YA MƏHƏMMƏD

***(Peyğəmbərin gecə Abçəyil dəstəsindən qorumaq üçün Sammur dağına qaçması)***

Bismillahir-rəhmanir-rəhim

*Əliyə gətirdi pənah,*
*Yığıldılar üzdəniraq,*
*Abubəkirə çatdı soraq,*
*Ya Məhəmməd, ya Məhəmməd.*

*Fikri Yəmən ellərində,*
*Əli yatmışdı yerində,*
*Zalımlar durub güdükdə,*
*Ya Məhəmməd, ya Məhəmməd.*

*Ayaq barmağı üstündə,*
*Kömək gərək bu günündə,*
*Allah əli var üstündə,*
*Ya Məhəmməd, ya Məhəmməd.*

*Abubəkir çatdı sənə,*
*Qorxu güc gəlirdi cana,*
*Sammur dağında mağara,*
*Ya Məhəmməd, ya Məhəmməd.*

*Səhər girdilər mağara,*
*Hörümçək çəkdi divara,*
*Göyərçin də bir cüt bala,*
*Ya Məhəmməd, ya Məhəmməd.*

*Zalımlar tapdılar izi,*
*Yolda gördülər bilici,*
*Haqq hökmüdü, çatmaz gücü,*
*Ya Məhəmməd, ya Məhəmməd.*

*Keçməyib buradan izi.*
*Bilici aldadıb bizi,*
*Hörümçək toru hər üzü,*
*Ya Məhəmməd, ya Məhəmməd.*

*Qasımlı Nüsrət ağlayır,*
*Söz gəlir, yadda saxlayır,*
*Ümidin haqqa bağlayır,*
*Ya Məhəmməd, ya Məhəmməd.*

## AĞASALEH (SALEH) BƏDƏL OĞLU



Muradov Ağasaleh 1934-cü ildə Şamaxı (indiki Qobustan) rayonunun Nərimankənd kəndində anadan olmuşdur. O, kolxozda çalışmış, sonra traktorçu vəzifəsində işləmişdir. Hal-hazırda təqaüdçüdür.

### QOCALANDA
(nəzirə)

*Titirəyir əllərin, tor görər gözün,*
*Məclis-mağarlarda heç ötməz sözün,*
*Xəyalla danışar, özünlə-özün,*
*Dəyişər əhvalın sən qocalanda.*

*Əzəldən belədi dünyanın işi,*
*Qocanın özündə çox olmaz huşu,*
*Əyilər qaməti, tökülər dişi,*
*Dəyişər əhvalın sən qocalanda.*

*Günbəgündən evdə pisləşər dilin,*
*Gözündən düşərsən obanın-elin,*
*Vaxt gələr qapını kəsdirər ölüm,*
*Dəyişər əhvalın sən qocalanda.*

*Saleh, ümidini üzmə Allahdan,*
*Qoy yetsin dadına səni yaradan,*
*Hələ ki, seçirsən ağı qaradan,*
*Dəyişər əhvalın sən qocalanda.*

## RAMAZAN MUSAYEV

Ramazan Alı oğlu 1934-cü ildə Şamaxı rayonunun Təklə-Mirzəbaba kəndində anadan olmuşdur. O, 1965-ci ildə BDU-nu (keçmiş



S.M.Kirov adına ADU) bitirmişdir. Uzun illər müəllim işləmişdir. Şer yaradıcılığına orta məktəbdə oxuduğu illərdən başlamışdır. Şerləri müxtəlif mətbuat səhifələrində, toplu və almanaxlarda çap olunmuşdur.

## SƏNİ AXTARIRAM

*Səni axtarıram, səni gəzirəm,*
*Nə bir xəbər verən, nə də görən var.*
*Bircə xəyalındı mənimlə həmdəm,*
*Xəyalla qovuşmaq nə qədər olar?*

*Sənin ünvanını tapa bilmirəm,*
*Axı sən bilirsən ünvanımızı.*
*Sevinə bilmirəm, gülə bilmirəm,*
*Qaytar o əvvəlki xoş anımızı,*

*Gəl, sənin yoluna dikilib gözüm,*
*Fırtına gözləyən ümman kimiyəm,*
*Elə biganəyəm özümə-özüm,*
*Sarbanın itirən karvan kimiyəm.*

*Həsrətin könlümü tarımar edib,*
*Tutulub qaralmış aya dönmüşəm.*
*Hər sözüm-söhbətim səninlə gedib,*
*Üstü buz bağlamış çaya dönmüşəm.*

*Dedim, ölüm-itim dünyası deyil,*
*Darıxma, hər qışın bir baharı var.*
*Verdiyin vədədən keçir neçə il,*
*Nə zaman gələcək dediyin bahar?*

*Gəl sənin yoluna dikilib gözüm,*
*Fırtına gözləyən ümman kimiyəm.*
*Elə biganəyəm özümə-özüm,*
*Sarbanın itirən karvan kimiyəm.*

## SEYFƏDDİN

**Tədqiqatçı – alim dostum**
**Hacı Seyfəddin Qəniyevə**

*Axtarmaq, aramaq peşəndir sənin,*
*Yorulma bu yolda ara, Seyfəddin.*
*İtib-batanları həyata qaytar,*
*Yönünü çevirsən hara, Seyfəddin.*

*Yaşın az olsa da, müdriksən özün,*
*Elin qəlbincədir söhbətin-sözün,*
*Yaxşını-yamandan ayırır gözün,*
*Hər yerdə gəlirsən kara, Seyfəddin.*

*Əlin qələm tutub yazandan bəri,*
*Olub hər kəlamın dillər əzbəri,*
*Gəzib hər oylağı, kəndi, şəhəri,*
*Qərq et könülləri nura, Seyfəddin.*

*Müqəddəs ruhları gətirib cana,*
*Qaytardın anamız qoca Şirvana,*
*Böyük xidmətlərin gələrmi sana?*
*Yara el dərdinə, yara, Seyfəddin.*

*Neçə itkin aşıq əllərində saz,*
*Nurlu yollarına salır nayəndaz,*
*Əhli-qələm, vallah, səni unutmaz,*
*Çəkilsə dilindən dara, Seyfəddin.*

*Xilqətinə Allah qoyub qeyrəti,*
*Bağlamısan el-obayla ülfəti,*
*Ürəkdən sevirsən şeri, sənəti,*
*Aludə deyilsən vara, Seyfəddin.*

*Barındı, bəhrəndi otuz kitabın,*
*Çox aydındı hər suala cavabın,*
*Böyük xidmətinlə məğrur olmadın,*
*Hər zaman yaradıb qur, a Seyfəddin.*

*Ramazanın qəlbi sözlə doludu,*
*Tutduğun yol Seyyid, Sabir yoludu,*
*Sən Hacısan-Hacı Allah quludu,*
*Qəlbində qalmayıb qara, Seyfəddin.*

# NURƏDDİN DƏMİRLİ



Bəndəliyev Nurəddin Səməndər oğlu 1936-cı ildə Dağ-Kolanı kəndində anadan olmuşdur. O, 1953-cü ildə Poladlı kənd məktəbinin yeddinci sinfini, sonra Göylər kənd orta məktəbini qurtarmışdır. O, 1958-ci ildə Şamaxı tibb məktəbini, 1968-ci ildə ADU-nun geologiya-coğrafiya fakültəsini bitirmişdir. Azərbaycan EA Coğrafiya İnstitutunun dissertantı olmuş Nurəddin müəllim B.Budaqovun elmi rəhbərli altın da 1986-cı ildə "Dağlıq Şirvanın landşaftların toponimik üsulla öyrənilməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.Alim bir monoqrafiya (şərikli) və əllidən artıq məqalənin müəllifidir. N.Dəmirlinin şerləri müxtəlif almanax, qəzet və jurnallarda çap olunmuşdur. Şairin iki şerlər kitabı işıq üzü görmüşdür.

O, hal-hazırda Poladlı kənd orta məktəbi ilə yanaşı AMİİ-nin Şamaxı filialında da çalışır.

## QOCALMIŞAM

*Xatirələr didir məni,*
*Qocalıqdan naz almışam.*
*Sənsiz keçən günlərimin,*
*Kölgəsində qocalmışam.*

*Uçub uşaqlıq illəri,*
*Keçir ömrün fəsilləri,*
*Oxşamağa gözəlləri,*
*Kövrəklikdən saz almışam.*

*Təbiətin ömür payı,*
*Qismət olub tac almışam.*
*Qara şəvə saçlarıma,*
*Qar yağıbdı ucalmışam.*

*Zirvələrdə gözüm qalıb,*
*Yurd yerində izim qalıb,*

*Ocaqlarda közüm qalıb,*
*Ad axtarıb qocalmışam.*

*Nurəddinəm gəzə-gəzə,*
*Çiçəklərdən üzə-üzə,*
*Yurd dərdinə dözə-dözə,*
*Öz elimdən güc almışam.*

### BİZİM BU DAĞLAR

*Ay duvağdan başa calmalar bağlar,*
*Cənnətdir gəzməyə bizim bu dağlar.*
*Könlüm səni gəzib, səni sorağlar,*
*Sərvətdir yazmağa bizim bu dağvlar.*

*Kəklik qayalarvda verib səs-səsə,*
*Bülbül məhəbbətdən gəlir həvəsə,*
*Hər kim gözəlliyi görmək istəsə,*
*Tarixdir yazmağa bizim bu dağlar.*

*Kol dibində yol gözləyir bənövşə,*
*Bəxtimizi kim dərəcək, kim düşə,*
*Boyunu bükük küskün durub bənövşə,*
*Ziynətdir yazmağa bizim bu dağlar.*

*Qoşa gedək yaylaqları gəzməyə,*
*Bənövşənin qəm yükünü sezməyə,*
*Yurd həsrəti, hicranına dözməyə,*
*Nurəddin yazmağa bizim bu dağlar.*

## BƏYALI ABDULBAĞI OĞLU



Bəyalı Hidayətov 1937-ci ildə Şamaxı rayonunun Cəyirli kəndində doğulmuşdur. Orta məktəbi bitirmiş, sonra hərbi xidmətdə olmuşdur. O, 1967-ci ildə Bakıdakı Krupskaya adına kitabxanaçılıq texnikumunun mədəni-maarif şöbəsini bitirmişdir. Hal-hazırda Cəyirli kəndində klub müdiri vəzifəsində çalışır. Gənc yaşlarından şer yazmağa başlamışdır.

## NƏSİHƏT

*Dünyaya fani, beşgünlük demə,*
*Unut o hissləri qapılma qəmə.*
*Elinin-obanın işinə yara,*
*Yoxsula kömək et, düşərsə dara.*

*Çalış bu dünyada qoy qalsın izin,*
*Elm oxu, yaz-yarat, qoy qalsın sözün,*
*Əgər bu dünyada yoxdursa izin,*
*Elə bil olmamısan dünyada özün.*

*Xeyirli iş gör ki, qalsın yaddaşda,*
*İşindən danışsın dost da, tanış da,*
*Namus-qeyrətli ol, vicdanla yaşa,*
*Səninlə fəxr etsin qohum-qardaş da.*

*Bəyalı, gün gələr oxunar sözün,*
*Xatırlayar səni oğulun, qızın,*
*Bir gün bu dünyadan köçəri olsan,*
*Sevin bu dünyada qalarsa sözün.*

## SÖNMƏ

*İlk bəxtimin, talehimin ulduzu,*
*Sönmə, ay ulduzum, sönmə amandı.*
*Sən sönsən qəlbimə çökər qaranlıq,*
*Sönmə, ay ulduzum, sönmə amandı.*

*Həmişə mənimlə birgə olmusan,*
*Ömür yollarıma işıq salmısan,*
*Bircə şirin sözlə könlüm almısan,*
*Sönmə, ay ulduzum, sönmə amandı.*

*Hər kəsin ömür payı, bəxt ulduzu var,*
*O uca göylərdə tutmuşdur qərar,*
*Mənim bəxt ulduzum, gur işıq salar,*
*Sönmə, ay ulduzum, sönmə amandı.*

*Gözəlsən sən bu ixtiyar yaşında,*
*Elə bil yaqutsan üzük qaşında,*
*Bəyalıya lazımsan ahıl yaşında,*
*Sönmə, ay ulduzum, sönmə amandı.*

# ƏLİŞİRAZ ŞİRVANİ



Pənahov Əlişiraz Əliyusif oğlu 1936-cı ildə Mərəzə rayonunun Dağ-Kolanı kəndində anadan olmuşdur. Orta məktəbi qurtarıb. İlk şerlərini məktəb illərində yazmağa başlayıb. Şerləri qəzet səhifələrində çap olunub, Salyan rayonunda yaşayır.

## AY FINDIQ TƏPƏSİ, AY ƏRƏB DAĞIM

*Sinəndə çox keçib uşaqlıq çağım,*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

* * *

*Ay dağlar alçağı, dağlar girdəsi,*
*Gəlin tək üzündə duman pərdəsi,*
*Üstündən əsməsin qəmlər kölgəsi,*
*Alma tək qızarsın səndə yanağım,*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

*Dəstə bağlayaydım kəklik otundan,*
*Doyub məst olaydım onun qoxundan,*
*Sənin həm varından, həmi yoxundan,*
*Ləzzətin çox görüb cavanlıq çağım,*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

*Kəklik qaqqıldaşıb uçuşan zaman,*
*Əzizsən mənimçün özün doğmadan,*
*Yaşıl zirvənizə olaydım mehman,*
*Çoxdandır dəyməyir sizə ayağım,*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

*Dəllək şişi, Xan arxacı Girdənin,*
*Başqa cür göstərir onun görkəmin,*
*Kəmaləddin dağı olub həmdəmin,*

*Şölə çəkib yanır onda çırağım,*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

*İlanlı yamacın, tikanlı dərən,*
*Enmişəm, çıxmışam onu min kərəm,*
*Kəhrəba salxımdan nə ola dərəm,*
*Məhsulu bal təki var üzüm bağım,*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

## KOLANI NƏNƏLƏRİMƏ

*Kədərim bayatın, sevincim laylan,*
*Sinəsi çeşmətək bulaqlı nənəm.*
*İlıq nəfəsilə qızan evimin,*
*Sönməyən məşəli, çıraqlı nənəm.*

*Elə bil yoğrulub nur kündəsindən,*
*Heç kəs inciməyib onun səsindən,*
*Hamıya pay düşüb hədiyyəsindən,*
*Umaclı, südgözlü, qaymaqlı nənəm.*

*...Həmişə babamın arxadaşıydı,*
*Ən çətin günündə dərd yoldaşıydı,*
*Bütün məclislərin sanki başıydı,*
*Oxuyub-oynayan, oxşarlı nənəm.*

*Tezcə uyuyardıq laylay səsindən,*
*Ətir qoxu verən gül nəfəsindən,*
*Doymaq olmaz idi bal tikəsindən,*
*Xaşıllı, şullulu, qaymaqlı nənəm.*

*Hamıdan baş idi xalı, gəbəsi,*
*Allı-güllü idi hər bir dükcəsi,*
*Hənəsi, ilməsi, kirkid-həvəsi,*
*Kələfli, ərişli, yumaqlı nənəm.*

*Gümüş kəmərliydi, sarı cutxalı,*
*Altun bilərzikli, qızıl sırğalı,*
*Ağarmış saçları müdam xınalı,*
*Abırlı, həyalı, yaşmağlı nənəm.*

*İpək arxalıqlı, atlaz qoftalı,*
*Büzməli tumanı, zərli, baftalı,*
*Qəlbi məhəbbətli, üzü həyalı,*
*Ayağında gümüş başmaqlı nənəm.*

*Sandıqlı-farmaşlı, şallı-palazlı,*
*Xurcunu, heybəsi hamsı qotazlı,*
*Bir ömür yaşadı baharlı, yazlı,*
*Barmağı xınalı, oymaqlı nənəm.*

*Yığıb dərdikləri bizlərə qaldı,*
*Dünya yola saldı – axır qocaldı,*
*Əcəl pərdəsini üzünə saldı,*
*Qisməti beş arşın dümağlı nənəm.*

## ƏSGƏR VƏLİCAN OĞLU

Əsgər Məmiyev 1938-ci ildə Dağ Kolanının Qaroğlanlı təbəhində anadan olub. Orta məktəbi bitirəndən sonra Göyçay şəhərindəki mexanizasiya texnikumuna daxil olmuşdur. O, 35 ilə qədər mexanik işləmişdir... Hazırda təqaüdçüdür.

### MƏNƏ GÖNDƏR[1]

*Ay Kolanı oğlu, şair Şirazım,*
*Diləyimi sənə şerlə yazım,-*
*Çoxdan uçub gedib ördəyim-qazım,*
*Ordakı ördəkdən, qaz mənə göndər,*
*Şerdən-qəzəldən yaz mənə göndər.*

*Artıq yetişibdir orucluq ayı,*
*Hər yetən istəyir Allahdan payı,*
*Az vaxta gələcək məhərrəm ayı,*
*On iki imamdan yaz mənə göndər,*
*Şerdən-qəzəldən yaz mənə göndər.*

*Demə, çox dərdlidir, yaman ahı var,*
*Bütün müsəlmanın qibləgahı var,*
*Dada yetişəcək bir Allahı var,*
*Sən Allah, eyləmə naz mənə göndər,*
*Şerdən-qəzəldən yaz mənə göndər.*

[1] Şiraz-Əlşiraz Poladlıdan Salyan ərazisinə köçüb. Əsgər isə Dağ Kolanıda qalıb. Dədə-baba elindən Şiraza arzusunu bildirir.

*Qonşularım köçüb qapısı bağlıdı,*
*Sinəm başı çarpaz düyün-dağlıdı,*
*Demə, ağlı gedib, nə sayaqlıdı,*
*Dərdim söyləməyə saz mənə göndər,*
*Şerdən-qəzəldən yaz mənə göndər.*

## AY FINDIQ TƏPƏSİ, AY ƏRƏB DAĞIM

**(Dostum Şiraz Müqəssirin məktubuna cavab)**

*Şiraz Müqəssirdən bir məktub aldım,*
*Oxuduqca onu alışdım-yandım,*
*Tək idim, təkliyi bir daha andım,*
*Gəlir Kolanıdan mənim sorağım.*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

*Ellər köç eyləyər ellərə doğru,*
*Sellər yol eyləyər sellərə doğru,*
*Sonam baş eyləyər göllərə doğru,*
*Yanımda olaydı oğul-uşağım,*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

*Pirsaat çayında yuyar ayağım,*
*Xan yurdunda yanır sönməz çırağım,*
*El atıb gedibdir yoxdu dayağım,*
*Zirvəmdən görünür Dübrar yaylağım,*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

*Saçım ağappaqdı, başa nə qaldı?*
*Saqqala dən düşdü, yaşa nə qaldı?*
*Payız yetişibdi, qışa nə qaldı?*
*İstəyirəm gedəm, getmir ayağım,*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

*Gedər zimistanım, açılar yazım,*
*Ötüşər bülbülüm, dillənər sazım,*
*Qafiyəni tutub şair Şirazım,*
*Allaha təvəkkül gələr növrağım,*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

*Qurd ulaşan zaman mən tələ qurdum,*
*Göydə gedən quşu gözündən vurdum,*

*Ceyran təkəsini atla tuturdum,*
*Yayda yaylağımdı, qışda ovlağım,*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

*"Qalacıq" dağında keşikçi durdum,*
*"Allahuəkbər"də "Quran" oxudum,*
*İndi yetim kimi boynumu burdum,*
*Əlimdə qalıbdı boşca yarağım,*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

*Bilin yerim-yurdum Dağ Kolanıdı,*
*Bu yerlər mənimçün cənnət kanıdı,*
*Əsgər bəy sultanı, həm də xanıdı,*
*Nə ola bir zaman ola yığnağım,*
*Şiraz Müqəssir də gələ qonağım,*
*Görüşə burada aranım, dağım,*
*Ay Fındıq təpəsi, ay Ərəb dağım.*

## AĞAHÜSEYN BƏDƏL OĞLU



Muradov Ağahüseyn 1938-ci ildə Şamaxı rayonunun Nərimankənd kəndində anadan olmuşdur. Kənd orta məktəbinin yeddinci sinfini bitirmişdir. Gənc yaşlarından şer yazmağa başlayan Ağahüseyn sadə peşə adamı olmuş – qırx ilə yaxın bərbər işləmişdir. Elə şerlərini də "Bərbər" təxəllüsü ilə yazır.

### SİRLİ DÜNYA

*Dünyanın hər işi çətindir, çətin,*
*Çoxda ki, olginən mətindən mətin,*
*Onda olar mütləq eldə hörmətin,*
*Düyünlü işlərin, tapılar həlli,*
*Orası da bəlli, burası bəlli.*

*Hər acı sözləri, tam demək olmur,*
*Atalar deyiblər; boşalan dolmur,*

*Elə güllər də var heç zaman solmur,*
*Bunu elə deyək, tapaq təsəlli,*
*Orası da bəlli, burası bəlli.*

*...Aşığın bəzəyi, onu bil sazdır,*
*Nə qədər söz desən, yenə də azdır,*
*Gölün yaraşığı ördəkdir, qazdır,*
*Mən istərdim görəm yarımı şallı,*
*Orası da bəlli, burası bəlli.*

*Adam var ürəkdə düyünü çoxdur,*
*Həkimlər deyir ki, çarəsi yoxdur,*
*Ona haxdan gəlib, dəyən də oxdur,*
*Heç nədə bilməyir yazıq, zavallı,*
*Orası da bəlli, burası bəlli.*

*Qobustan qayası dərin bir sirdir,*
*Babalarımız gəzən qədim bir yerdir,*
*Onlar pir olublar, indi də pirdir,*
*Dağlarda, daşlarda gediblər yallı,*
*Orası da bəlli, burası bəlli.*

*Hüseyn nə söyləsə yenə də azlır,*
*Dağlarımız qışdı, aranda yazdır,*
*İncə gözəllərə yaraşan nazdır,*
*Ondadakı ola, yanağı xallı,*
*Orası da bəlli, burası bəlli.*

## HÖCCƏT PAŞA

Höccət Məmmədov 1939-cu ildə indiki Qobustan rayonunun Cəyirli kəndində anadan olub. Höccət 1961-ci ildə Bakı bir saylı tibb məktəbini, 1968-ci ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirib. 1973-cü ildə V.Komarov adına Nəbatət institutunda **"Qobustanın florası"** mövzusunda dissertasiya işi götürüb. O vaxtdan Qobustanın bitkilər aləmini tədqiq etməyə başlayıb. Höccət orta məktəbdə oxuduğu illərdən şer yazır. İlk şeri 1958-ci ildə "Mərəzə kolxozçusu" qəzetində çap olunub. Höccət Paşa **"Taleyimə yazılanlar"**, **"Pisaat baba"**, **"Cəyirli"**, **"Dədə Feyruz"** və s. kitabların müəllifidir. Bacarıqlı pedaqoq, şair indi də eyni həvəslə yazıb-yaradır.



## DÜNYADAN

*Nə şaham, sultanam, nə də vəzirəm,*
*Adi vətəndaşam, sanma nazirəm,*
*Xeyli var aləmdə nalan gəzirəm,*
*Gənckən qəm şərbətin içdi dünyadan,*
*Aşıq Məmmədağa köçdü dünyadan.*

*Bülbül ləhcəliydi, xoş avaz idi,*
*Vaxtsız gəlib-gedən güllü yaz idi,*
*Sinəsi üstündəki telli saz idi,*
*Ağ ilə qaranı seçdi dünyadan,*
*Aşıq Məmmədağam köçdü dünyadan.*

*Çalış, yaxşıları bir-bir yad elə,*
*Bu yolla dərdlərə gəl imdad elə,*
*Höccət o ustadın ruhun şad elə,*
*Çox vaxtsız, vədəsiz köçdü dünyadan,*
*Aşıq Məmmədağam köçdü dünyadan.*

## MƏHƏMMƏD

*Min dörd yüz ildir ki, bütün Şərq bilir,*
*Göydən yerə enmiş nurdu Məhəmməd.*
*Öz xoş məramıyla, əməlləriylə,*
*Müsəlman dünyasın qurdu Məhəmməd.*

*Ey xaliq, iti et, şair qələmin,*
*İnsanlıq naminə bir pərdədir din,*
*Allahın hökmüylə islam aləmin,*
*Məkkənin evinə vurdu Məhəmməd.*

*Uçuldu tikilən uca saraylar,*
*Yüksəldi səmaya ahlar, haraylar,*
*Çıxdı yaddaşlardan çox-çox gəraylar,*
*Tarixdə yaşadı, durdu Məhəmməd.*

*Demişəm, deyəcəm yenə min kərə,*
*Minnətdar olacam ulu göylərə,*
*"Quran"ı səmadan endirib yerə,*
*Kəlməsi gövhərdi, dürdü Məhəmməd.*

# MƏMMƏD FAİQ

Məmmədov Faiq Gülməmməd oğlu Şamaxı rayonunun Cəmcəmli kəndində anadan olmuşdur. O, şer yaradıcılığına orta məktəbdə oxuduğu illərdən başlamışdı...

Get-gedə poeziya dünyasında püxtələşən Faiqin səsi-sorağı respublikamızın, daha sonralar Moskvanın mətbuat səhifələrindən eşidildi. Neçə-neçə pərəstişkarlar qazandı... O, bir çox şer kitabının müəllifidir. Məmməd Faiq 1988-ci ildə vəfat etmişdir.

## ANAMLA GÖRÜŞ

*Sənin şair oğlun qayıdıb, ana,*
*Doğulduğu yurda – Azərbaycana.*
*Qoy onu üzməsin, sarsıtmasın qəm,*
*Çətin günlərində ol ona həmdəm.*
*Onu qəbul elə, oxşa, qucaqla,*
*Öz ana qoynunda əbədi saxla!*
*O görüb həyatın xoş günlərini,*
*Çox açıb taleyin düyünlərini.*
*Dünyanın dərdləri onu çox yorub,*
*Zaman külləkləri ona od vurub.*
*Yıxılıb, sonra da qalxıb ayağa,*
*Lakin inamını itirməyibdir.*
*Xəyanət etməyib ana torpağa,*
*Qəlbində pis niyyət gətirməyibdir.*
*O, son tikəsini ikiyə bölüb,*
*Yaxşı adamlara bağlayıb ülfət,*
*O sevib, sevilib, danışıb, gülüb,*
*Qəlbində qaynayıb, coşub məhəbbət.*
*İndisə qayıdıb ana yurduna,*
*Sən onu ürəklə qarşıla, ana!..*

## DAĞLAR

*Hər insan ömrünün öz ilqarı var,*
*Gözəl istəkləri, arzuları var,*
*Hər sitəmli qışın bir baharı var,*
*Açın qoynunuzu siz mənə, dağlar.*

*Nə vaxtdır çıxmışam doğma elimdən,*
*Nə vaxtdır ayrıyam qızılgülümdən,*
*Sazımdan, neyimdən, qaratelimdən...*
*Qulaq verin könlüm deyənə, dağlar.*

*Məni qucağına çəkir o düzlər,*
*Mənə gəl-gəl deyir gülər, şad üzlər,*
*Anam uzaqlarda yolumu gözlər,*
*Durmayın yolumun qəsdinə, dağlar.*

*Yolum sinəninizin üstündən keçir,*
*Yaxşını, yamanı gözlərim seçir,*
*Xəyalım əyilib bulaqdan içir,*
*Mən ki, tələsirəm vətənə, dağlar...*

## ƏMRAH ŞÜKÜR OĞLU



Şükürov Əmrah 1941-ci ildə Şamaxı rayonunun Sündü kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirmişdir. 1965-ci ildə Bakı Neftayırma texnikumunun avtomobil nəqliyyatının istismarı fakültəsinə daxil olmuşdur. Texnikumu qurtarandan sonra o, bir çox vəzifələrdə çalışmışdır. Gənc yaşlarından şer yazan Əmrah hal-hazırda təqaüdçüdür.

### DÜNYADI

*Dostum, çox güvənmə dünya malına,*
*Bu dünya zəmilər biçən dünyadı.*
*Səmədin əsərin yarımçıq qoydu,*
*İgidlər qanını içən dünyadı.*

*Süleyman tək ömür edən de hanı?*
*Uçdu xanimani, sındı tavanı,*
*Həzrət Əli namaz qılan zamanı,*
*Onun da canından keçən dünyadı.*

*Məhəbbətdi bu dünyanın əzəli,*
*Əmrah da çox sevir nazlı gözəli,*
*Söz-söhbəti məzəlidi, məzəli,*
*Yaxşını yamandan seçən dünyadı.*

## GÖZ DƏYƏR SƏNƏ

*Uca boylu, şux yerişli gələn, yar,*
*Sən nazu-qəmzəsən, göz dəyər sənə.*
*Tərif eləməyə acizdir söz də,*
*Mina gərdənlisən göz dəyər sənə.*

*Kəklik kimi qaqqıltılı gülüşün,*
*Ceyran kimi hürkək-hürkək yerişin,*
*İnsanı məst edir işvə, duruşun,*
*Nə şux baxışlısan, göz dəyər sənə.*

*Boyun şux çinardı, heç varmı tayı?*
*Gözəllik qismətin, Allahın payı,*
*Əmraha tuşladın ox ilə yayı,*
*Qorxuram tənhasan göz dəyər sənə.*

# CAVAD BƏYALI OĞLU



Rüstəmov Cavad 1941-ci ildə Qobustan rayonunun Dərəkənd sovetliyinin İlanlı kəndində kolxozçu ailəsində doğulmuşdur. O, 1957-ci ildə Şıxzərli kənd yeddiillik məktəbini bitirmişdir. Uzun illər kolxozda və yol idarəsində işləmişdir. 1973-cü ildən Dərəkənd kəndində yaşayır. Sinədəftər bir insan olan Cavad Bəyalı oğlu gənclik illərindən şer yazır.

## QARDAŞ

*Papaq qoyursan ki, desinlər kişi,*
*Kişilik papaqla sayılmır, qardaş.*
*Tamam bambaşqadır kişilik işi,*
*Papağa kişilik deyilmir, qardaş.*

*Elə kişilər var, yaraşır, papaq,*
*Elə kişilər var, bir elə dayaq,*
*Elə kişilər var, həmişə oyaq,*
*Kişi var ki, yatır ayılmır, qardaş.*

*Kişi var, kasıbın tutur əlindən,*
*Kişi var ki, dürr tökülür dilindən,*
*Kişi var ki, həyalıdır gəlindən,*
*Kişi var məclisə qoyulmur, qardaş.*

*Kişilik kişinin öz əlindədir,*
*Kişilik kişinin öz qəlbindədir,*
*Kişilik kişinin əməlindədir,*
*Kişi var pis işdən yorulmur, qardaş.*

*Kişi var yumşaqdır sarı yağ kimi,*
*Kişi var təmizdir ağ varaq kimi,*
*Kişi var gərəkdir bir yarağ kimi,*
*Kişi var, daş kimi yonulmur, qardaş.*

*Kişi var hər yerdə deyilir adı,*
*And içir başına qohumu, yadı,*
*Kişi var ki, baldan şirindir dadı,*
*Kişi var ki, eldə tanınmır, qardaş.*

*Cavad! Hər yetəndən kişi olmayır,*
*Əsilsiz kişinin izi qalmayır,*
*Hər nadan kişilik nədir qanmayır,*
*Kişilik bazarda satılmır, qardaş.*

## KƏKLİYİN

*Bir payız günündə çıxmışdım ova,*
*Qayalıqda gördüm izin kəkliyin.*
*Günəş görünürdü, istiydi hava,*
*Qaya üstə gördüm özün kəkliyin.*

*Əyildim daldaya məni görməsin,*
*Qayanın üstündən yerə düşməsin,*
*Oxusun mahnısın – səsin kəsməsin,*
*Eşidim doyunca səsin kəkliyin.*

*Qayalar sonası, a gözü mərcan,*
*Qayalıqdır elin, qayadır yuvan,*
*Nə olar tez getmə bir qədər yuban,*
*Qoy yaxından görüm gözün kəkliyin.*

*Xınadır ayağın, xınadır başın,*
*Sənsən yaraşığı bu çölün, daşın,*
*Niyə tək durmusan, hanı yoldaşın?*
*Nə ola, görəydim yüzün kəkliyin.*

*Ovçu, insafını vermə sən əldən,*
*Xınalı kəkliyi azaltma çöldən,*
*Çöllər yaraşığı düşməsin dildən,*
*Döndərmə Cavaddan üzün kəkliyin.*

## ALXAS ALXASOV

1941-ci ildə Nərimankənd kəndində anadan olub. Qaradağ rayonu Qızıldaş qəsəbə orta məktəbini bitirmişdir. Ədəbi yaradıcılığa orta məktəb illərindən qədəm qoyan Alxasın ilk əsəri mərkəzi mətbuatda 1969-cu ildə işıq üzü görmüşdür. O, Bakı Dövlət Universitetini bitirmişdir.

Xeyirxah insan, gözəl pedaqoq **"Mənə qar gətir"**, **"Arı və gürzə"**, **"Murad quşu"**, **"Hekayələr kitabı"**, **"Qaradağ qartalları"**, **"Qurd ürəkli qəhrəman"**, **"Müqəddəs ziyarətgahlar"** kimi kitabların, onlarla məqalə və publisist yazıların müəllifidir. Altmış yaşa əlvida deyib, yetmişə bel almış A.Alxasov indi də cavanlıq eşqi ilə yazıb-yaradır.

## GÜLƏLİ RƏSUL
### (1944-2004)

O, 1944-cü ildə Şamaxı rayonunun Cəmcəmli kəndində anadan olub. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Şerləri 1968-ci ildən dövri mətbuatda çap olunur. İki şer kitabının müəllifidir. G.Rəsul 2004-cü ildə vəfat etmişdir.

### UZAQDA YAXIN VƏTƏN

*O yerlərin havası nur, suyu nur,*
*Körpəsinin baxışı nur, boyu nur,*

*O yerlərdə ürək qəmi soyuyur-*
*Qürbətdə o yerlə bəzənir yuxum.*

*O yerlərin cızdağı var sinəmdə,*
*Ayrılıqtək göz dağı var sinəmdə,*
*İstəklərim qəmi boğar sinəmdə-*
*Hara düşsə belə bitər bu toxum.*

*O yerlərdi mənim üçün canamaz,*
*O yerlərə sırınan çox, yanan az,*
*Bilirəm ki, məni heç kim qınamaz-*
*Öz sinəmə tuşlananda öz oxum.*

*Günlər ötür, ancaq kədər qazanır,*
*Qəriblikdi, qəm yolları uzanır,*
*Hara baxsam, qəm yolları uzanır-*
*Hara getsəm, möhnət olar duyuğum.*

*Mənim üçün nurdu qarı, çisəyi,*
*Məhəbbətdi onun bəri-bəzəyi,*
*O yerlərdi ürəyimin özəyi-*
*Orda məni gül yaşadır soyuğum.*

## TƏRƏKƏMƏ

*Tərəkəmə balasıyam,*
*deyirlər.*
*Tərəkəmə doğulmuşam,*
*Tərəkəmə qalasıyam*
*deyirlər...*

*Yayda yaylağım olmayıb,*
*Qışda arana həsrətəm.*
*Örüşü yox, yaylımı yox,*
*Səhər yataqda həmdəmə,*
*Alatorana həsrətəm.*

*Yağış döyəndə mürgü yox,*
*Qəhəldə, küzdə bürkü yox,*
*Necə olur tərəkəmə,*
*Əynində adi kürkü yox?!*

*Basdırması gəl-gəl deyən,*
*Ocaq qoruna həsrətəm.*
*Heç demirəm dələmə, süd,*
*Motal suyuna həsrətəm.*

*Yanaqlarım alma deyil,*
*Çobanlıqdan qalma deyil,*
*Payız günüdür, sozalıb,*
*Nə odum vardı, köz qalıb.*

*Bəzən kədər güc gələndə,*
*Xəyaldı qoyun gürnəşim...*
*Arzuma dan söküləndə,*
*Yanımda nadan gərnəşir.*

*Əsəblərim gəriləndə,*
*Çapba suyuna həsrətəm,*
*İstəyirəm bu günümü,*
*Şıltaq ümidə həsr edəm.*

*"Tərəkəmə" çalın bir az,*
*Ürəyimi alın bir az,*
*Mənə "tərəkəmə" deyin,*
*Tərəkəmə qalım bir az.*

## HAXVERDİ MƏHƏMMƏD OĞLU



İlyasov Haxverdi 1947-ci ildə Nabur kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra – 1966-cı ildə V.İ.Lenin adına APİ-nin (indiki ADPU) fizika-riyaziyyat fakültəsinə daxil olur. Səhhəti ilə əlaqədar təhsilini başa vura bilmir. Bir müddət Bakı Mədəni-maarif texnikumunda oxumuşdur. Oxuduğu illərdə "Təranə" gənclik ansamblının fəal üzvlərindən biri olur. Gənc xanəndə, aşıq sənətinin sirlərini də Aşıq Şirsoltan Zahidov və Xanış Zahidovdan öyrənmişdir. Uzun müddət el şənliklərində Şirsoltan Zahidovla əməkda-

şlıq etmişdir. 1984-1987-ci illərdə Qusar mədəniyyət evində xanəndə kimi fəaliyyət göstərmişdir.

1987-94-cü illərə qədər Nabur kənd orta məktəbində musiqi müəllimi, 1995-ci ildən hal-hazıra kimi Qobustan rayon mədəniyyət şöbəsində baş metodist vəzifəsində çalışır.

## OLMUŞAM

*Dünyaya gələn gündən mən bəxtiyar olmuşam,*
*El-oba xidmətində mən sənətkar olmuşam.*

*Arı tək pöhrə verib, pətəkdə şan bağladım,*
*Zirvəyə çıxmaq üçün daş-kəsək ayaqladım,*
*Neçə məclis qurub taleyimi də yoxladım,*
*Bu sənət meydanında sınanıb, var olmuşam,*
*El-oba xidmətində mən sənətkar olmuşam.*

*Ustadıma min rəhmət, doğru yolu qandırdı,*
*Həyat eşqin, qaydasın, zəhmət çəkib andırdı,*
*Öz nurlu çeşməsindən çırağımı yandırdı,*
*Bəlkə yönüm qış idi, indi bahar olmuşam,*
*El-oba xidmətində mən sənətkar olmuşam.*

*Adımı anam qoyub, boya-başa yetirib,*
*Ustadım Şirsoltandır bil dərsimi o verib,*
*Haxverdiyəm, zəhmətə sidq ilə sinə gərib,*
*Püxtələşib, yetişib bir ixtiyar olmuşam,*
*El-oba xidmətində mən sənətkar olmuşam.*

## NEYLƏRƏM

*Haqq işə, doğruya yoxdur qadağa,*
*Nanəcibin yolun, izin neylərəm?*
*Mən mərdə verərəm başı sadağa,*
*Namərdin əyrisin, düzün neylərəm?*

*Şirvanlıyam, övladıyam bu yurdun,*
*Hər mətləbin arayıram çox dərin,*
*Acıya acıyam, şirinə şirin,*
*Hər gədanın köntöy sözün neylərəm?*

*Pərvanəyəm el üçün yana-yana,*
*Mənə süd verəndə öyrədib ana,*
*Əyilmərəm müxənnətə, nadana,*
*Namərdin çörəyin, duzun neylərəm?*

*Haxverdiyəm, doğru yol adətimdir,*
*Halallıq Allahdan əmanətimdir,*
*Eldə sazım, sözüm kifayətimdir,*
*Var-dövlətin çoxun, azın neylərəm?*

## ƏSGƏR SƏDİ OĞLU (DƏRVİŞ)



Dəmirov Əsgər 1948-ci ildə Şamaxı rayonunun Nərimankənd kəndində anadan olmuşdur. Nərimankənd kənd orta məktəbini bitirib, Azərbaycan DTİ müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1973-cü ildə həmin fakültəni bitirib əmək fəaliyyətinə başlamışdır.

Gənc yaşlarından bədii yaradıcılığa başlayan Əsgər nəyə görəsə 80-ci illərdə əlyazmalarını məhv etmişdir. Klassik Azərbaycan ədəbiyyatına dərindən bələd olan Əsgər böyük yazıçı İsa Hüseynovun (Muğana) məsləhəti ilə yenidən qələmi əlinə alır... Yüzlərlə şer müəllifi olan şair hal-hazırda Qobustan rayon mərkəzi xəstəxanasında həkim işləyir.

*Gülşənindən keçmişəm bülbüli-şeyda olmuşam,*
*Tabanına varmışam onunçün ehya olmuşam.*

*Canım içrə "Od" gəzir, canında narın mən varam,*
*Ta qədimdən Zərdüşəm, sonradan Musa olmuşam.*

*Bir həqiqət aşiqi mükəmməl vermiş dərsimi,*
*Sevmişəm ol aşiqi, aşiqə sevda olmuşam.*

*Gah səmada uçmuşam Simurq quşuyla əlbəəl,*
*Enmişəm yer üzünə "Quran"da "Taha" olmuşam.*

*Zəmanə aşiqiyəm başımda eşqin tacı var,*
*Mülki-Məcnun məndədir, Məcnunda səhra olmuşam.*

*Nütfədir zatımdakı, qətrə içindən çıxmışam,*
*Ümmanın qəvvasıyam, qəvvasa dərya olmuşam.*

*Ustadım verdi mənə əlaci-eşqin düsturun,*
*Dəvalar mədəniyəm, dərdlərə kimya olmuşam.*

*Gəlməmişdən dünyaya lövhi-məhfüzda var idim,*
*Kərəmindən Xaliqin dünyada "dünya" olmuşam.*

*Piri-Muğan röyada həqqin baratın al, – dedi,*
*Ol baratla Dərvişa, aqilə röya olmuşam.*

* * *

*Çəkərəm həsrətini olunca ta sur, ey pəri,*
*Həsrətin çəkmiş necə aləmdə Mənsur, ey pəri.*

*Görməsə şəm nurunu pərvanə can yaxarmı heç?*
*Canımın istəyidir cöhrəndəki nur, ey pəri.*

*İçəndən Piri-Muğan badəsin baqi sərxoşam,*
*Xumarı mərəz olub canımda durur, ey pəri.*

*Yaraşmaz bir kimsəyə gözəllik tacı başının,*
*Olmaz heç bir bəndədə səndəki qürur, ey pəri.*

*Ey əqlin gəncinəsi, ey inci üzlü Ağ mələk,*
*Gəl canı tərk eyləmə, canımda da dur, ey pəri.*

*Qaf ilə Sinay dağı aldı qoynuna narını,*
*Həsrətəm camalına, məni də san Tur, ey pəri.*

*Lütf elə, dərgahına yol göstər Faqir Dərvişə,*
*Ol taban komasını bu dünyada qur, ey pəri.*

## FAZİL YEYLAĞALI OĞLU

Fazil Məmmədov 1948-ci il iyul ayının 1-də Şamaxı rayonunun Nabur kəndində anadan olmuşdur. O, orta məktəbi bitirib, ordu sıralarında xidmət etmişdir. Gənc yaşlarından sənətə bağlanmışdır. Yax-

şı səsi olduğu üçün xanəndəlik etmişdir. Bu sənətə kamil yiyələnməsində Aşıq Xanışın xüsusi rolu olmuşdur. O, həm də gözəl şerlər yazır.



## XANIŞ

*Ey böyük sənətkar, ey böyük ustad,*
*De hansı ustaddan, dərs aldın, Xanış?*
*Sədəfli sazınla, eldə, obada,*
*Ələsgər sənətin, yaşatdın, Xanış.*

*Telli saz sinəndə, neçə məclisdə,*
*Oxudun "Kərəmi", dedin "Şikəstə",*
*Yazdığın şerinə, fitri sənətə,*
*El əhsən söylədi, ucaldın, Xanış.*

*Böyük bir ədibsən, vardır kitabın,*
*Sən şair oğlusan, böyük Şirvanın,*
*Aşıq Bilal ilə Badam dastanın,*
*Gələcək nəsilə çatdırdın, Xanış.*

*Yaş ötüşüb, gedib gəncliyin əldən,*
*Qara saçlarına ağ düşüb dən-dən,*
*Fazil, kövrəlirəm deyirəm hərdən -*
*Heyif səndən, sən də qocaldın, Xanış.*

## DEYİRLƏR

*Qurunun oduna yaş da yanarmış,*
*Doğru sözdür, el arası deyirlər.*
*Acı sözün dağı getməz ürəkdən,*
*Sağalmazdır dil yarası, deyirlər.*

*Varlısansa əgər, güclüsə qolun,*
*Fağıra əl qatma, göstərmə pulun,*
*Haqqa sadiq olan, məzlumun, qulun,*
*Yerdə qalmaz ah-naləsin, deyirlər.*

*Yaddan çıxmaz, nə yaxşılıq, nə pislik,*
*Namərddən gözləmə, ərlik, kişilik,*
*Əcəllə üzləşib çəksən də keşik,*
*Ölüm haqdır, yox çarəsi, deyirlər.*

*Hax verib dərdimi, qılar çaramı,*
*Ağlım çaşıb, itirmişəm qaramı,*
*Fazil yeməz, oğurluqla haramı,*
*Onun da var, bir bəlası deyirlər.*

## MƏHƏMMƏD KAMAL



Dadaşov Məhəmməd Heydər oğlu 1950-ci ildə Şamaxı rayonunun Çalov kəndində anadan olub. Orta məktəbi bitirmişdir. Şerləri respublikanın müxtəlif mətbuat səhifələrində çap olunmuşdur. Məhəmməd Kamalın **"Savalan dağıyam, döyüb donmuşam"** adlı şer kitabı çap olunmuşdur.

### ÖTÜŞDÜ

*Xaltavanın bulaqları döşüdü,*
*Suyun içdim dodaqlarım üşüdü.*
*Gül-çiçəyin görüşünə tələsdim,*
*Qısqanc arı məni çalıb, ötüşdü.*

*Hər addımda büllur çeşmə qaynadı,*
*Hər talanın öz gülü var, öz adı,*
*Gördüm təkə cüyürünü qovladı,*
*Qartal cumub, ovun alıb, ötüşdü.*

*Boz kəkliyi boz daşlara daraşdı,*
*Perikəni qaya aşdı, yal aşdı,*
*Duman gəlib zirvələrə yanaşdı,*
*Tələsirdi, bir az qalıb, ötüşdü.*

## QAN ÇƏKƏCƏK

***Şair dostum Höccət Paşaya***

*Tonqal yanır qarış-qarış,*
*Bir səs deyər, oda qarış.*
*Od oğlusan, odla yarış,*
*Baxma oda yanı, qardaş.*

*Susuzluğun olmaz daha,*
*Əkdiklərin olmaz daha,*
*Boşalanlar dolmaz daha,*
*Gedənlərin hanı, qardaş?*

*Öz cığırın, öz yolun var,*
*Öz sağın var, öz solun var,*
*Koroğlu tək bir ulun var,*
*Öz ulunu tanı, qardaş?*

*Unudulmaz yaddaşından,*
*Mənimsəsə yad daşından,*
*Uzaq düşsən qardaşından,*
*Qan çəkəcək qanı, qardaş.*

*Sevirsənsə, halalındı,*
*İzin qalsa cəlalındı,*
*Od eyləsən amalındı,*
*El yolunda canı, qardaş.*

# ADİL ƏLİYAR OĞLU



Əzizov Adil 1951-ci ildə Şamaxı rayonunun Şıxlar kəndində anadan olub. Şıxlar kənd səkkizillik və Bakı şəhərindəki 100 saylı orta məktəbi bitirmişdir. O, hərbi qulluqdan sonra Daxili İşlər orqanlarında çalışmışdır. O, əvvəl Moskva şəhərində sistemdə işləmiş, 1976-1978-ci illərdə Ali Partiya məktəbini, 1979-1984-cü illərdə Moskva şəhərində SSRİ DİN Akademiyasını bitirmiş, milis polkovniki rüt-

bəsinə kimi yüksəlmiş və bir çox yüksək vəzifələrdə çalışmışdır. Hüquq elmləri namizədi A.Əzizov hal-hazırda hüquq sahəsində çalışmaqla yanaşı, Cənubi-Rusiya Humanitar İnstitutunun baş müəllimidir. Gənc yaşlarından şer yazan Adil müəllimin əsərləri müxtəlif mətbuat orqanlarında işıq üzü görmüşdür.

## QOBUSTANA

*Toy-bayram eləyin şad olun, dostlar,*
*Artıq yenə gəlir yaz Qobustana.*
*Geyinsin al-əlvan oğlanlar, qızlar,*
*Yaraşır toy-bayram, saz Qobustana.*

*Alırsan nəfəsi mavi Xəzərdən,*
*İnsanlar məskəni oldun əzəldən,*
*Əl çəkmərəm sənin kimi gözəldən,*
*Xudaya, dəyməsin göz Qobustana.*

*Bütün ölkələrdən gəlir qonağın,*
*Yayılıb ellərə sənin sorağın,*
*Arzum budur daim yansın çırağın,*
*Görməyənlər gəlsin tez Qobustana.*

*Bir yanın dənizdir, bir yanın dağlar,*
*Ucalır göylərə bağçalar-bağlar,*
*Ayrılmaq istəmir gələn qonaqlar,*
*Bir də nə vaxt gələk biz Qobustana?*

*Adil sevir səni bir ana kimi,*
*İnan ki, bağlıdır sənə ümidi,*
*Eşitsin el-oba, onun dediyi-*
*Qoşacaq o çoxlu söz Qobustana.*

## HÜMBÜ

*Dumanlı dağların, meyvə bağların,*
*Ucuz pula satıb gədən, ay Hümbü.*
*Ürəyimin sağalmayan dağları,*
*Yandırıb sinəmdə gedən, ay Hümbü.*

*Bağ-bağçalar artıq vermir bəhəri,*
*Gəlmir yuxum gözləyirəm səhəri,*
*Dedim rahat olub, içim zəhəri,*
*İçirdib zəhəri gedən, ay Hümbü.*

*Başın bəlalıdır, günlərin qara,*
*Vurmusan sinəmə sağalmaz yara,*
*Söylə baş götürüb mən gedim hara?*
*Satıb biyabanı gedən, ay Hümbü.*

*Banlayır bayquşlar, hər bucağında,*
*Sönüb közərməyir od ocağında,*
*Sevimli yar təki, yar qucağında,*
*Canını tapşırıb gedən, ay Hümbü.*

*Atıb gedib səni namərd övladlar,*
*Töküb göz yaşları, edər fəryadlar,*
*Ağlayar qız-gəlin, qoca arvadlar,*
*Ayrılıb yarından gedən, ay Hümbü.*

*Neçə oğulları salmısan yola,*
*Yanar ürək bədən halbahal ola,*
*Görsə yağı düşmən gözləri dola,*
*Sağalmaz yarayla gedən, ay Hümbü.*

*Çox-çox bəlaları çəkibdir başın,*
*Ötüb qərinələr, bilinmir yaşın,*
*Qalmadı daş üstə, söküldü daşın,*
*Yadigar daş qoyub gedən, ay Hümbü.*

*Kaş kor olaydı mənim gözlərim,*
*Sınaydı əl-qolum, həm də dizlərim,*
*Məhv olub sinəndə gedib izlərim,*
*Ürəkdə iz qoyub gedən, ay Hümbü.*

*Adil də yad oldu başı qarışdı,*
*Od-alov içində yandı, alışdı,*
*Döyündü-çırpındı o çox çalışdı,*
*Yandırıb odlara gedən, ay Hümbü.*

# SEYFƏDDİN HƏMZƏ OĞLU



Seyfəddin Qəniyev Dağ Kolanı kəndində anadan olub. Filologiya elmləri doktorudur. Şer yaradıcılığına orta məktəb illərindən başlamışdır. Şerləri qəzet, jurnal və toplularda işıq üzü görmüşdür.

## AY DƏDƏ

*Yenə də eşitdim nur kamalını,*
*Söhbətinə qurban olum, ay dədə.*
*O zəif cismində dağ vüqarı var,*
*Hikmətinə qurban olum, ay dədə.*

*Bir övladın gedər olsa səfərə,*
*Qıvrılırsan gecə-gündüz min kərə,*
*Hərdən nəm də düşür qara gözlərə,*
*Həsrətinə qurban olum, ay dədə.*

*Fikir dəryasında düşüb üz üstə,*
*Nə hala düşürsən bir çəp söz üstə,*
*Hər qayğını mən çəkərəm göz üstə,*
*Heyrətinə qurban olum, ay dədə.*

*Seyfəddinəm, bulud kimi dolmuşam,*
*İlhamımı kamalından almışam,*
*Bala quş kimi idim kamil olmuşam,*
*Qüdrətinə qurban olum, ay dədə.*

## "YANIQ KƏRƏMİ" Nİ OYNAMA, QARDAŞ

*Oynamaq toyların yaraşığıdı,*
*İgidlər qol açıb hara şığıdı?*
*Kərəm yar dəlisi, yar aşığıdı,*
*"Yanıq Kərəmi"ni oynama, qardaş.*

*Od tutdu Kərəmi daş da ağladı,*
*Yetmədi vüsala, sinə dağladı,*
*Sazın hər pərdəsi min bir ahlıdı,*
*"Yanıq Kərəmi"ni oynama, qardaş.*

*Aşığın nə qədər bəmi, zili var,*
*"İnnabı", "Nəlbəki", "Heyvagülü" var,*
*"Yanıq Kərəmi"də Kərəm külü var,*
*"Yanıq Kərəmi"ni oynama, qardaş.*

*Oyna, bəy Süleyman oynayan hava,*
*"Mirzeyi" məclisə qoy versin səfa,*
*"Tərəkəmə", "Yüzbiri"yə qıl vəfa,*
*"Yanıq Kərəmi"ni oynama, qardaş.*

## GƏLƏCƏYƏM

**"Bəlkə bu yerlərə bir də gəlmədim,**
**Duman salamat qal, dağ salamat qal".**
**M.Araz**

*Yerlər, mən sizinlə vidalaşsam da,*
*Duman, gələcəyəm, dağ, gələcəyəm.*
*Bu ana torpaqdan necə ayrılım?*
*Leysan, gələcəyəm, yağ, gələcəyəm.*

*Nərgizim, bənövşəm solub, açacaq,*
*Məhəbbətim qanad açıb uçacaq,*
*Ayılanda arxam ilə baxacaq -*
*Boylan gələcəyəm, bax, gələcəyəm.*

*Seyfəddinəm, izim var çox könüldə,*
*Yatsam yer altında milyon, min il də,*
*Bircə kəlmə sözüm qalarsa, dildə,*
*Salamat gələcəyəm, sağ gələcəyəm.*

# MƏHƏMMƏDMUSA KOLANI



İsmayılov Məhəmmədmusa Səmid oğlu 1952-ci ildə Mərəzə rayonunun Dağ Kolanı kəndində anadan olub. Poladlı kənd orta məktəbini bitirib. İlk şer yaradıcılığına da orta məktəbdə oxuduğu illərdən başlamışdır. Şerlərinin sayı 200-dən artıqdır. 1971-ci ildən rayon, respublika qəzet, jurnallarında və eləcə də müxtəlif toplularda şerləri çap olunur.

## AŞİQİYƏM SÖZ-SƏNƏTİN DOĞRUSU

***Yazıçı-alim Əzizə Cəfərzadənin 75 illiyinə***

*İmzam yoxdu imzaların içində,*
*Aşiqiyəm söz-sənətin doğrusu.*
*Ürək susmur hey aramdı köksümdə,*
*Kaş olaydım bu hikmətin yolçusu,*
*Aşiqiyəm söz-sənətin doğrusu.*

*Söz deyəydim, düz deyəydim yerində,*
*Əlacını tapa idim dərdində,*
*Ağbirçəyim, sənin bu ad günündə,*
*Çin olaydı bu millətin yuxusu,*
*Aşiqiyəm söz-sənətin doğrusu.*

*Göz yaşım çox, kədərim çox, dərd ümman,*
*Ümüdümü qırmamışam, yox inan,*
*Söz mülkündə, ay el qızı, sən sultan,*
*Gül-çiçəkdi bal sənətin qoxusu,*
*Aşiqiyəm söz-sənətin doğrusu.*

*Açılmamış neçə hikmət qəlbində,*
*Qoy qələmin titrəməsin əlində,*
*Kolanıyam, söz deyəcəyəm yüzündə,*
*Yetmiş beşdi elə ömrün yarısı,*
*Aşiqiyəm söz-sənətin doğrusu.*

* * *

*Hardandı bəla yox elə kimsə deyə, Allah,*
*Hardandı qara bir bölük, ölkə geyə, Allah.*

*Arzu-diləyim, dünyaya sığmaz olub hər vaxt,*
*Büküldü muradım niyə göy əskiyə, Allah?!*

*Ağlar gözümün yaşını silməm neçə gündü,*
*Qəddim bükülüb dönübdü ürək neyə, Allah.*

*Varmı günahım haqqımı istərkən, ilahi?*
*Haqlı olanı nədəndi cəllad döyə, Allah?!*

*Yüzlərlə şəhid al qana nahaq boyandı,*
*Yüz min sualın br cavabı yox niyə, Allah?!*

*Nahaqdan axan al qana kimsə dözə bilməz,*
*Gəl ki, dözürəm bir belə məkr, hiyləyə, Allah.*

*Qandan ürəyim qan diləyir, qansız olana,*
*Əllər uzanıb haqq deyə sonsuz göyə, Allah.*

*Səbri tükənən Kolanı ummaz qeyri-imdad,*
*Yol verma yağı qəddimi bir də əyə, Allah.*

## FƏRHAD CƏFƏROV



Cəfərov Fərhad 1953-cü ildə Şamaxı rayonunun Şıxlar kəndində doğulmuşdur. Orta məktəbi bitirəndən sonra, Şamaxı kənd təsərrüfatı texnikumunun aqranomluq şöbəsində oxumuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra, "Lenin" adına kolxozda (Xilmilli kəndi) aqranom işləmişdir. O, orta məktəbdə oxuduğu illərdən şer yazmağa başlamışdır. F.Cəfərov hal-hazırda Qaradağ rayonunun Ələt qəsəbəsində yaşayır.

## YURD HƏSRƏTİ

**Doğma kəndim**
**(Hümbü) Şıxlar kəndinə**

*Düşmən tapdağından olsan da uzaq,*
*Elə bil, döyüşdən çıxmısan, kəndim.*
*Qaçqına-köçkünə olmusan dayaq,*
*Övlad tək bağrına sıxmısan, kəndim.*

*"Sarı qaya" kəkliklərin oylağı,*
*"Şor-bulaq", "Həmzə", "Qızıl bulağı",*
*Yayda bütün sürülərin yaylağı,*
*Qışdasa yollara baxırsan, kəndim.*

*Həmişə dumandı "Şiş dağ"ın başı,*
*Evləri söküblər qalıb yurd daşı,*
*Baxdıqca dayanmır gözümün yaşı,*
*Elə bil döyüşdən çıxmısan, kəndim.*

*Yazdır, çöllərinə "xalı" döşənib,*
*İzlər var, nə vaxtsa burda yaşanıb,*
*Bənövşələr gəlin təki yaşmanıb,*
*Gülləri döşünə taxmısan, kəndim.*

*Yormayır yolların yoxuşu məni,*
*Məst edir, çöllərin naxışı məni,*
*Danışmağa qoymur göz yaşı məni,*
*Qəlbimi yandırıb-yaxırsan, kəndim.*

*Fərhad-Fazil, xoş dəmlərin var idi,*
*Toy-düyünün, həm qəmlərin var idi,*
*Səndə mənim həmdəmlərim var idi,*
*Onları köksünə sıxmısan, kəndim!*

## QALIBDI

*Gedə bilməyirəm o doğma kəndə,*
*Evimiz sökülüb yeri qalıbdı.*
*Uşaqlıq illəri yada düşəndə,*
*Qəlbimdə bir "yara" yeri qalıbdı.*

*Hanı o acılı-şirinli günlər?*
*Çal-çağırlı, toylu-düyünlü günlər?*

*Bülbüllər oxumur, yalqızdı güllər,*
*Üzən yox, güllərin təri qalıbdır.*

*Bulaq zümzüməsi, kaman, ney səsi,*
*Qoca çinarların həzin nəğməsi,*
*Gözləri yol çəkir, gəlmir doğması,*
*O kənddə, bir tənha qarı qalıbdı.*

*Hər dəfə xəyalım qanadlananda,*
*Ancaq röyalarda gedirəm kəndə,*
*Yuxudan yarımçıq mən oyananda,*
*Şairin arzusu yarı qalıbdı.*

*Dərindən düşünək, dostlar, bir anlıq,*
*Görün necə eyləmişik nadanlıq,*
*Müqəddəs ocaqlar – o qəbirstanlıq,*
*Orda babaların nuru qalıbdı.*

## RƏŞAD BƏYDƏMİRLİ

Rəşad Qardaşxan oğlu Qobustan rayonunda anadan olub. Orta məktəbdə şer aləminə qədəm qoyan Rəşad Bəydəmirli bir çox – **"Yağış ətri"**, **"Lalə işığı"**, **"Yadına düşsəm"** və s. kitablarının müəllifidir. Onun şerləri rus, ərəb, tatar, tacik, polyak, monqol və s. dillərinə tərcümə olunmuşdur.

## MƏHƏMMƏD HADİYƏ

*Torpağın altında axtarmayın siz,*
*Onu üfüqlərdə dəfn elədilər.*
*Məzarına torpaq yerinə,*
*Ovuc-ovuc günəş ələdilər.*

*Bu torpaq, bu dəniz, bu ocaq baxar,*
*Səma dənizində üzən qayığa,*
*Baxar zəlillərin*
*göz yaşlarından*
*qara günlərin kölgəsi.*
*Baxar şer bazarı,*

*Baxar bu dünya da üzü yuxarı.*
*Göy üzü ayna tək göstərər hər gün,*
*Mənə o şairin məzarını da...*
*Çevirib üzümü üfüqə sarı,*
*Soruşaram onun güzəranın da.*

*Mavi üfüqlərdə üzən məzarın,*
*Günəş baş daşımı, ay baş daşımı?*
*Gecələr dənizə yağan yağışlar,*
*Uzaq ulduzların göz yaşlarımı?*

*Torpağın altında axtarmayın siz,*
*Onu üfüqlərdə dəfn elədilər,*
*Məzarına torpaq yerinə -*
*Ovuc-ovuc günəş ələdilər.*

* * *

*Sənin göz yaşında yuyuldu dünya,*
*Baharı əyninə geyindi bu gün.*
*Axdı göz yaşların telefon telində,*
*Görüm o tellərə düşəydi düyün.*

*Sənin göz yaşında yuyuldu dünya,*
*Uçdun üfüqlərdə ağ göyərçin tək.*
*Sənin göz yaşına qonmuşdu dünya,*
*Göz yaşın yağırdı hey ləçək-ləçək...*

*Sənin göz yaşında yuyuldu dünya,*
*Keçdi günahların iynə gözündən.*
*Ağlama, əzizim, mən də keçmişəm,*
*Küləklər yalayan sevgi düzündən,*

*Sənin göz yaşında yuyuldu dünya,*
*Yağışdan sonrakı üfüqə döndü.*
*Mənim qəzəbim də, kinim də, gülüm,*
*Sahilə çırpılmış dalğa tək söndü.*

*Sənin göz yaşında yuyuldu dünya,*
*Fırlandı yenə də öz məhvərində.*
*Təzədən doğacaq sevgi günəşi,*
*Bizim ömrümüzün səhərlərində...*

*Sənin göz yaşında yuyuldu dünya,*
*Yox oldu onun da kədəri, qəmi.*
*Sənin o gözlərin parlaq bir mayak,*
*Mən isə sahildən uzaq bir gəmi...*

## NAZİM VƏLİSOY



Nazim Əlimövsüm oğlu Vəliyev 1954-cü ildə Nərimankənd kəndində anadan olub. O, həm klassik, həm də xalq şeri üsduunda şerlər yazır. Nazim Vəlisoyun **"Həyat oyunmuş deme"** adlı şerlər kitabı 2002-ci ildə işıq üzü görmüşdür.

### ALLAHA PƏNAH

***Kəlbəcərli dostum Əlövsətə***

*Vətəndə yaşadıq vətənsiz kimi,*
*Sığındıq illərə, Allaha pənah...*
*Dərd-sər bizim oldu, sərvət özgənin,*
*Əl açdıq göylərə, Allaha pənah...*

*İstiqlal, Azadlıq deyib çıxandan,*
*Meydan, küçələrə seltək axandan,*
*Bu işlərə oyun kimi baxandan,*
*Düşmüşük sellərə, Allaha pənah...*

*Qarabağ satılıb əldən gedəndən,*
*Yaddaşdan silinib, dildən gedəndən,*
*Çox igid obadan-eldən gedəndən,*
*Büründük güllərə, Allaha pənah...*

*Vətən, Vətən deyib sızlama, qardaş,*
*Tək sənə yağmayıb göylərdən bu daş,*
*Milyondan yuxarı vətənsiz soydaş,*
*Dağılıb çöllərə, Allaha pənah...*

*Nazimməm, Əlövsət, dərdin bəllidir,*
*Bu dünya həmişə gedli-gəllidir,*

*Vətənə qayıtmaq işin həllidir,*
*Deyirəm ellərə, Allaha pənah...*

* * *

*Gözəlim, gözlərinin sehrinə qurban mən olum,*
*Çıx çəmənzar seyrinə, sünbülü-reyhan mən olum.*

*Dər məni, tax qılınctək tiğələrin həlqəsinə,*
*Qönçəsi parçalanıb, sinəsi al qan mən olum,*

*Baxsan əğyarə sarı, didələrim parçalanar,*
*Nazını eylə mənə, Məcnuni-dövran mən olum.*

*Sevgimin gülzarında açılmış bir tər çiçəksən,*
*İzin ver, eşqin ilə bülbülü-nalan mən olum.*

*Nazimə m, gül üzünün eşqiylə yanmaqdı peşəm,*
*Razıyam bu sevdayla dillərdə dastan mən olum.*

## MİRZAĞA XANKİŞİYEV



Xankişiyev Mirzağa (Mirzə Qobustanlı) 1954-cü ildə Şamaxı (indiki Qobustan) rayonunun Qurbançı kəndində doğulmuşdur. O, 1965-ci ildə Bakıda görməyən uşaqlara məxsus orta internat məktəbinə qəbul olmuş, həm də məktəbin nəzdindəki musiqi məktəbinin qarmon sinfini bitirmişdir. İlk əvvəl Qurbançı kənd mədəniyyət evində, 1983-2003-cü ilə qədər R.Behbudov adına Mərəzə qəsəbə yeddiillik uşaq musiqi məktəbində müəllim işləmişdir. O, həm də klassik üslubda şerlər yazır.

*Əqlim çıxdı başımdan, məhi-təbanı görüncə,*
*Məftun oldum gözəlliyə, o mehribanı görüncə.*

*Bir qədər etdik ixtilat, sevinib şad oldu qəlbim,*
*Halal olsun dedim sənə, ədəb-ərkanı görüncə.*

*Nə qədər səbirsiz olsam, dözərəm hər cəfaya mən,*
*Qurbanlığın qəbul etsin, ona qurbanı görüncə.*

*Ulu Tanrım, sevənləri sən özün kamına çatdır!*
*Qızların şadlığı artar, sevən oğlanı görüncə.*

*Mirzə, qoy şad olsun ürək daha küsmə bir kimsədən,*
*Sevərək canı fəda qıl, sən o cananı görüncə.*

## ÇİNGİZ NURYUSİF OĞLU



Çingiz Əmirov 1955-ci ildə Qobustan rayonunun Nabur kəndində anadan olub. Orta məktəbdə VII sinifə qədər oxuyub. Hal-hazırda evlidir. Dörd övladı var.

### BİLMƏZ

*Qəm yemə, ey könül, nadan sözündən,*
*Gədada şirinlik dil ola bilməz.*
*Namərdlər min desə, vallah özündən,*
*Əjdadı tülküdü, fil ola bilməz.*

*Dəvətsiz, təklifsiz hər yerə varma,*
*Məclisdə yer tanı, yersiz oturma,*
*Şöhrətə şan deməz hər buğuburma,*
*Paxıllıq kor olar, şil ola bilməz.*

*Cavandan ad qazan, uludan yolu,*
*Saymaza ağa ol, sayanın qulu,*
*İnan ki, olmasa cibinin pulu,*
*Dost nədi, qardaş da bil ola bilməz.*

*Yan keçmə, Çingiz də arifdir sözə,*
*Can qurban verəndi doğruya, düzə,*
*Deməsək yalanın, hər sözün üzə,*
*Ürəyə xal olar, çil ola bilməz.*

# FƏXRƏDDİN ORXAN

Fəxrəddin Məmmədəli oğlu 1956-cı ildə anadan olub. Şerləri və hekayələri "Azərbaycan", "Ulduz", "Gənclik" jurnallarında, "Ədəbiyyat və incəsənət" qəzeti və digər mətbuat orqanlarında vaxtaşırı dərc olunmuşdur. Uzun illər "Yeni şirvan", "Şirvan" qəzetində ədəbi işçi, müxbir, redaktor və s. vəzifələrdə işləmişdir.

## DAĞ ÇAYI

*Səsə salıb, küyə basıb dağları,*
*Nərildəyə-nərildəyə gəlirsən.*
*Əldən iti, dildən kasıb dağları,*
*Göy yerindən bir oynada bilirsən?*

*Kim böyüdüb səni belə ərköyün,*
*Yerdən ayır bərk daşları, bərk öyün...*
*Buludunu gilə-gilə dər göyün,*
*Torpağı ki, çörək kimi bölürsən.*

*A dağ çayı, indi elə yaşındı,*
*Çağlamağa öz əlindi, başındı,*
*Rastındakı hər daş elçi daşındı,*
*Butan kimdi, a bəxtəvər, gülürsən?..*

*Qayıdıram sən getdiyin yolu mən,*
*Bir vaxt çaydım, bir vaxt leysan, dolu mən,*
*İndi kiməm? Gəncliyimin dulu mən,*
*Xatirəmin nə bağrını dəlirsən?*

*Neynək, neynək, a dağ çayı, çağla, get,*
*Öz vaxtında dolacaqsan ağla, get!*
*Amma, qardaş, dərələri yoxla, get,*
*Yoxsa bir gün dara düşüb mələrsən.*

## ... İNCİMƏZ Kİ

*Gedən ömürdəndi, qalan ömürdən,*
*Çoxunu, azını saf-çürük etsəm.*
*Bir çarıq, bir əsa tapıb dəmirdən,*
*Bu daşlı yolları tərsinə getsəm,*
*Ömür inciməz ki, yol inciməz ki?*

*Bu daşlı yolları tərsinə getsəm,*
*Bir tozlu beşikdə üstümü örtsəm,*
*Südlənə-südlənə ömrü böyütsəm,*
*Ömür inciməz ki, yol inciməz ki?*

*O südün tamını unutdum necə,*
*Bəlkə də qəbrimin nəmində tapdım,*
*Bəlkə də... qəbrimi ot bürüyüncə,*
*Ruhumu bir özgə beşiyə çapdım,*
*Və sonra o beşik özümün oldu.*
*Körpəykən içdiyim südün tamı tək,*
*Ötən ömürlərim yadıma düşməz.*
*Ruhum bir sərgərdən çöl adamı tək,*
*Bir yol gördüyüylə bir də görüşməz.*

*Bu daşlı yolları tərsinə getsəm,*
*Bir tozlu beşikdə üstümü örtsəm,*
*Ruhumun yaddaşı silinib bir az,*
*Bir qədim taleyə məni bağlasa,*
*Təzə bəbəyimi yaşardıb bir az,*
*Pozuq yaddaşımı yuyub ağlasam,*
*Ömür inciməz ki, yol inciməz ki?*

## TAHİR ZAHİD
## (1956-1988)



Zahidov Tahir Xanış oğlu 1956-cı ildə Mərəzə rayonunun Nərimankənd kəndində anadan olmuşdu. Orta məktəbi qızıl medalla bitirəndən sonra Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Ali məktəbə daxil olan gündən şerləri Universitetin "Leninçi" qəzetində vaxtaşırı çap olunub. Əla qiymətlə oxuyub, bir təsadüf üzündən üçüncü kursda həbsə düşmüşdür. Uzaq Kemerova vilayətində türmə mühitinə dözə bilməyib, 21 oktyabr 1988-ci ildə vəfat etmişdir. 100-dən artıq şerləri vardır.

## HAYIF SƏNƏ

*Qış üzü hicrana - payıza getdi.*
*Payız, hayıf sənə, qış, hayıf sənə!*
*Ağlaya-ağlaya o qız da getdi,*
*Yanaq, hayıf sənə, yaş, hayıf sənə!*

*Zər də tək atılmaz, oynamaz nərd də,*
*El dərdi çəkənə şərəfdir dərd də,*
*Namərd də yeriyir üstündə, mərd də,*
*Torpaq, hayıf sənə, daş, hayıf sənə!*

*Tahir, öyrən adamların içini,*
*Qəlb ki var, heç nədən sınar bu çini,*
*Torpağa çəkəndə sən öz köçünü,*
*Bir deyən tapıla kaş, hayıf sənə!..*

## DÜNYANIN

*Başından qovğası əskik olmadı,*
*Bəlalar çəksə də başı dünyanın.*
*Daşı torbalarda daşındı, fəqət,*
*Qalmadı heç kəsə daşı dünyanın.*

*Neçə yol doğranıb çəkildi şişə,*
*Dəydi quyruq kimi hey dişdən-dişə,*
*Qanmaz öz yaşını saydı həmişə,*
*Qanana dərd oldu yaşı dünyanın.*

*Kösöyü üfürüb köz eylədilər,*
*Hər sözü böyüdüb söz eylədilər,*
*Elə ki, qaş altdan göz eylədilər,*
*Oynadı göz üstdən qaşı dünyanın.*

*Tahir, yatıb qalma sən ayaq üstə,*
*Baş qoy doğulduğun bu torpaq üstə,*
*Yüz il buğlansa da yad ocaq üstə,*
*Dadı zəhər olar aşı dünyanın.*

## YAŞAR ŞİRVANİ



Kərimov Yaşar 1958-ci il iyun ayının 5-də Şamaxı rayonunun Təklə kəndində anadan olub. M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı institutunu bitirib. Bədii yaradıcılığa 1977-ci ildən başlayıb. Şerləri dövrü mətbuatda dərc olunur.

### KİMƏ QUYRUQ, KİMƏ YUMRUQ

*Kim nə yeyir, məmləkətdə,*
*Böyük şəhər, xırda kənddə,*
*Ya aşkarda, ya xəlvətdə,*
*Kimə quyruq, kimə yumruq.*

*Tamarzılar, dada düşüb,*
*Qismətsizlər yada düşüb,*
*Yemək bu cür moda düşüb,*
*Kimə quyruq, kimə yumruq.*

*Nə xeyri var, bizə yadın,*
*Odur bilən ağız dadın,*
*Kim nə yeyir, sorma adın,*
*Kimə quyruq, kimə yumruq.*

*Eşidilmir hay-haraylar,*
*Yan-yanadı şah saraylar,*
*Tanrı nədən, belə paylar?!*
*Kimə quyruq, kimə yumruq.*

*Möcüzədir, həyat düzü,*
*Mat qoyubdur, astar üzü,*
*Başa vurduq, ömrümüzü,*
*Kimə quyruq, kimə yumruq.*

## ƏJDƏR OL

Əjdər Ol (Cəbiyev Əjdər Feyzulla oğlu) 1958-ci ildə Əli-Bayramlı rayonunun Muğan qəsəbəsində anadan olub. H.Zərdabi adına

Pedaqoji İnstitutunun "Azərbaycan dili və ədəbiyyatı" fakültəsini bitirib (1975-1979). Ədəbi mühitdə şair kimi tanınır. **"Gələcəkdə yaşayıram"** ("Yazıçı", 1987), **"Alın yazıma düzəliş"** ("Gənclik", 1990), **"Səsindən tanınan"** ("Şur", 1994), **"İndidən"** ("Təbriz" 1996), **"Əjdər Olun kitabı"** ("Şirvannəşr", 1997), **"Müdriklik"** ("Azərbaycan", 1998) kitabları çap olunmuşdur. Bundan əlavə, onun latışcadan çevirdiyi "Latış xalq nağılları"("Azərnəşr", 1990) və "Latın daynları" ("Şirvannəşr", 1998) kitabları da işıq üzü görmüşdür. Hal-hazırda Maliyyə Nazirliyinin "Protokol və Mətbuat xidməti" bölməsinin rəisidir.



## KÜDRÜNÜN DÜZÜ

*Yal yamaclar üzə düşüb,*
*Naxışları özündəndi.*
*Adda-budda laləlləri,*
*Quzuların dizindəndi.*

*Çox da yeri boldu, gendi,*
*Ömürləri beş-on gündü,*
*Olan budur neynim indi,*
*Hamısı su üzündəndi.*

*Bu, Küdrünün quşotudur,*
*Həm quru, həm yaş otudur,*
*Yaz otudur, qış otudur,*
*Dadındandı, duzundandı.*

*Yer şorandı, çatdaq atır,*
*Toxum asan itir-batır,*
*Dərələri qotur-qotur,*
*Təpələri bozundandı.*

*Qaçır alağa dovşanı,*
*Arıq, balaca dovşanı,*
*Utanma, al bu yovşanı,*
*Bizim Küdrü düzündəndi.*

## MƏN

*Əzabı mən elə gözəl çəkirəm,*
*Çəkdiyim əzabdan heç kəs usanmır.*
*Özüm öz başıma sığal çəkirəm,*
*Məndən söz düşəndə söhbət uzanmır.*

*Dərd məndən əlini büsbütün çəkib,*
*Dərdi sonalayıb, qəmi seçirəm.*
*Əzabın altından pis tütün çəkib,*
*Üstündən bulanıq su da içirəm.*

*Ağrıya, əzaba qənim ürəyim,*
*Hamını yatırdıb gecə ağrıyır.*
*Bircə mən bilirəm mənim ürəyim,*
*Hərdən həzin-həzin necə ağrıyır.*

*Təmkinin elə tez pozulmaz, atam,*
*Çox da iş pozulur, saç yelən salır.*
*Xoşbəxt günlərində quduran adam,*
*Dərdə düşən kimi vay-şivən salır.*

*Başdan eləyirəm, başdan əkirəm,*
*Kim doğan səhərə şükür eləmir?*
*Əzabı mən elə gözəl çəkirəm,*
*Bir kimsə dərdimdən fikir eləmir.*

# HACI FÜZULİ ƏLİSOLTAN OĞLU

Soltanov Füzuli 1959-cu ildə Ərəbqədim kəndində anadan olub, Ərəbqədim kənd səkkizillik və Nərimankənd orta məktəbini bitirib. O, 1986-cı ildə M.F.Axundov adına APRDƏİ-ni bitirmişdir. Əvvəl Göydərə kənd əsas məktəbində, sonra doğma Ərəbqədim kənd orta məktəbində pedaqoji fəaliyyətini davam etdirmişdir.

O, 2000-ci ildə müqəddəs Həcc ziyarətində olmuşdur.

Gənc yaşlarından şer yazmağa başlayan Hacı Füzuli məktəbdə təşkil etdiyi "**M.Ə.Sabir ədəbi məclisi**"nin rəhbəridir.



## MƏNƏ LAYLA ÇAL...

*Körpə olduğumu eylərəm xəyal,*
*Layla çal, can ana, mənə layla çal.*

*Xəyalım könlümü oyuda bilmir,*
*Laylalı çağlarım yadıma gəlir,*
*Nə olar, arada yadıma gəl gir,*
*Sübhüm açılınca sən mənimlə qal,*
*Layla çal, can ana, mənə layla çal.*

*Zaman da deyəsən, bir az tələsib,*
*Son payız ömrümün qapısın kəsib,*
*Deyirəm, bir xəfif meh kimi əsib,*
*Dən düşən saçıma bir də çək sığal,*
*Layla çal, can ana, mənə layla çal.*

*Sevincim ələnib qəmim qalıbdı,*
*Zildən səsim gəlmir, bəmim qalıbdı,*
*Bir yuxu yarımçıq mənim qalıbdı,*
*Bir layla da sənin-şirin, şəkər, bal...*
*Layla çal, can ana, mənə layla çal.*

*Yatıb şirin yuxulardan doyanda,*
*Mən ağlayım, sən yuxudan oyan da,*
*O güllü beşiyim qaldı hayanda?*
*Didir ürəyimi min qəmli sual,*
*Layla çal, can ana, mənə layla çal.*

*İstərəm ömrümün ahıl çağında,*
*Körpə tək uyuyum mən qucağında,*
*Gözlərim bir uşaq oyuncağında,*
*Bilmirəm hardandı bu istək, bu hal,*
*Layla çal, can ana, mənə layla çal.*

## ÖMÜR KİTABIMI YAZIRAM HƏLƏ

*Gündə bir səhifə, gündə bir fəsil,*
*Ömür kitabımı yazıram hələ.*
*Bir-birini qovan gün, həftə, ay, il,*
*Tələsmə mənzilə, tələsmə belə,*
*Ömür kitabımı yazıram hələ.*

*Gah tələm-tələsik, gah yavaş-yavaş,*
*Bir üzümdə fərəh, birində təlaş,*
*Bir gözümdə sevinc, bir gözümdə yaş,*
*Ağlaya-ağlaya, gah gülə-gülə,*
*Ömür kitabımı yazıram hələ.*

*Bir tale, bir qədər yazdığım kitab,*
*Bir gün sona yetər yazdığım kitab,*
*Axır çapa gedər yazdığım kitab,*
*Bu acı gerçəyi mən bilə-bilə,*
*Ömür kitabımı yazıram hələ.*

*Günəş günortadır, adlayıb daha,*
*Ölüm özün salıb bu gün-sabaha,*
*Yıxıla-yıxıla, Allah-Allaha,*
*Çiynimdə kədərdən bir ağır şələ,*
*Ömür kitabımı yazıram hələ.*

*Ömrüm ağ vərəqlər, mürəkkəbim qəm,*
*Mövzum sirli aləm, əməlim qələm,*
*Beş vərəq ləkəsiz yaza bilmişəm,*
*Beşini-onunu versəm də yelə,*
*Ömür kitabımı yazıram hələ.*

*Yox, kitab yazmıram düzünü desəm,*
*Alnımın yazısın köçürürəm mən,*
*Ya bəxti güclüyəm, ya taleyi qəm,*
*Məni də bir cığır çəkir mənzilə,*
*Ömür kitabımı yazıram hələ.*

## AKİF MUSAYEV

Akif Ramazan oğlu 1959-cu ildə Qobustan rayonunun Təklə-Mirzəbaba kəndində anadan olmuşdur. O, 1977-ci ildə orta məktəbi bitirmiş və Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olmuşdur. Akif 1982-ci ildə institutu bitirərək inşaat mühəndisi ixtisasına yiyələnmişdir.

Musayev Akif hal-hazırda 50 saylı Siyəzən-Qobustan-Xızı dairə seçki komissiyasının katibi işləyir.

## DÖRD YARPAQLI YONCA



*Onda uşaq idim – on beş yaşında,*
*Hər şeyə inanan, sadəlövh idim.*
*Bir qızın sevdası gəzir başımda,*
*Mən onu hamıdan çox istəyirdim.*

*Üzümə gülsəydi əgər haçansa,*
*Gözlərim bir həftə gülərdi onda,*
*Yanımdan keçəndə mənə baxmasa,*
*Nələr ürəyimə gələrdi onda.*

*Deyirlər, dördyarpaq yonca tapıb kim,*
*Bir qızın üstünə atarsa əgər.*
*Olacaq o qızın qəlbinə hakim,*
*Kim belə fürsəti əlindən verər?*

*Kim buna inanmır, bu öz işidi,*
*Ancaq nəyə isə inanır hamı.*
*Mənim də inamım o yonca idi,*
*Başladım gəzməyə mən o yoncanı.*

*Əllərim, dizlərim otun içində,*
*Gəzirdim hər yerdə mən ancaq onu.*
*Qorxurdum kim isə günün birində,*
*Məndən tez axtarıb tapacaq onu.*

*Bilmirəm, dördyarpaq yonca varmı heç,*
*Bəlkə də başqası tapıb haçandı.*
*O qız gəlin köçüb, olsa da çox gec,*
*Hələ axtarıram mən o yoncanı.*

## NAMƏRDLİK

*Bir zaman sükutlu məzarlıqda mən,*
*Kəsilmiş baş gördüm, çıxmış məzardan.*
*Soruşdum, ey kəllə, bu günündə sən,*
*Keçmiş günlərindən nə danışarsan?*

*Kəllə dilə gəldi: "Sormayaydın kaş,*
*Mən haqqı gəzirdim əli nizəli.*

*Ayırdım bədəndən neçə-neçə baş-*
*Sayını bilmirəm, nə yüz, nə əlli.*

*Atardım torpağa kəsik başları,*
*Dərs olsun deyərdim qoy namərdlərə.*
*Ancaq mən ömrümü etməmiş yarı,*
*Kəsdilər başımı, atdılar yerə.*

*Kəsdilər başımı mərd bildiklərim,*
*Demə, dostum imiş ən qəddar yağı.*
*Çıxıb yaddaşımdan hər gördüklərim,*
*Çıxmayır olmağım namərd tapdağı.*

*Baxıb qəhqəhəylə gülürdü yağı,*
*Ayaqlar altında qaldım bir qədər.*
*Sonra kimlər isə qazıb torpağı,*
*Məni bu məzarda dəfn elədilər.*

*Bilirəm, o döyüş gedir bu gün də,*
*Kimlərsə vuruşur mənim adımdan.*
*Dünyadan namərdlik kəsilməyincə,*
*Mənim o namərdlik çıxmaz yadımdan".*

*Ayrıldım kəllədən dərd-qəm sinəmdə,*
*Ayrıldım, ürəyim ağrıyır hələ.*
*Namərdlik görəndə, haqsız görəndə,*
*Nədənsə yadıma düşür o kəllə.*

## HACI ƏZİZXAN RİZVAN OĞLU

Əzizxan Fərhadov 1960-cı il mart ayının 11-də Ərəbşalbaş kəndində anadan olub. O, 1977-ci ildə Bakı şəhəri Əzizbəyov rayonu A.S.Makaranko adına orta məktəbi bitirib, N.Nərimanov adına ADTİ -nin müalicə profilaktika fakültəsinə daxil olur. 1983-cü ildə həmin fakültəni fərqlənmə doplomu ilə bitirir. 1984-cü ildən bu günə kimi Şamaxı rayonu mərkəzi xəstəxanasında burun-boğaz-qulaq həkimi işləyir. Bacarıqlı həkim, xeyirxah insan 1993-cü ildə Həcc, 1994-cü ildə isə Kərbəla və Məşhəd ziyarətində olmuşdur. Sadə, təvəzzökar, əli şəfalı həkim həm də orta məktəb illərindən şer yazır.

# İLK MƏHƏBBƏTİM

*(Həyat yoldaşıma - orta məktəb illərində ithaf etmişəm)*



*İlk dəfə evinizə qədəm qoyanda,*
*Titrədi telləri kövrək qəlbimin.*
*Haçan səni gördüm, səni tanıdım,*
*Hakimi cən oldun uşaq qəlbimin.*

*Məhəbbət nə olduğun bilmirdim hələ,*
*Onu baxışlarla öyrətdin mənə.*
*İnan bir otağda dərs oxuyanda,*
*Gizlincə-gizlincə baxırdım sənə.*

*Gulübən oynardıq səninlə o vaxt,*
*Heç mane olmazdı atan, anan da.*
*Səndən çox uzağam, dözə bilmirəm,*
*Kaş indiki ağlım olaydı onda.*

*O qara, cılızca uşaqlığımda,*
*Sevərək vuruldum sən tək xilqətə.*
*Ey uşaq yaşımın pak məhəbbəti,*
*Valehəm səndəki sonsuz hikmətə.*

**1975-ci il.**

# ƏLİRZA BABAŞOV

Əlirza Hacı Əliheydər oğlu 1960-cı ildə Qobustan rayonunun Təklə kəndində anadan olub. Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. Orta məktəbdən şer yazmağa başlamışdır. 1976-cı ildən isə dövrü mətbuatda çıxış edir. O, Azərbaycan EA-nın dissertantıdır. Ə.Babaşov üç kitabın müəllifidir.

## ANAMA MƏKTUB

*Bu gecə yuxuma girmişdin, ana,*
*Bir az fikirliydin, bir az da yorğun.*
*Heyrətdən az qaldı ürəyim dona,*
*Baxdım ağ saçına mən oğrun-oğrun.*

*Nədənsə darıxdım zirvədə qarçın,*
*Çox sirrin mənasın bildim bir anda.*
*İlk dəfə görürdüm ağarıb saçın,*
*Duydum ağrısını ağ saçların da.*

*Yanında günahım varsa bağışla,*
*Qanımla yumağa belə hazıram.*
*Dünənki çaldığın laylalar üstə,*
*Bu gün nəğmə qoşub, şer yazıram.*

*Deyirsən: "Bir şer yazmadın mənə",*
*Sonra da baxırsan öz əllərinə.*
*Ana, əllərinlə dastan yazmısan,*
*Sanki şerləşmiş əməllərinə.*

## MƏMMƏD AĞALAR OĞLU

Məmməd Quliyev 1965-ci ildə Mərəzə qəsəbəsində anadan olub. Mərəzə qəsəbə orta məktəbini bitirib, texniki-peşə məktəbində oxumuşdur.

### QƏZƏL

*Sonu yox dərdin-qəmin yenə narahatdı ürək,*
*O qədər dərdə dözüb yəqin ki, çat-çatdı ürək.*

*Əvvəldə xəbər verir başa gələn bəlaları,*
*Kim deyir hiss eləmir, sözdü, xürafatdı ürək?*

*Dincəlir yorulanda göz də, beyin də, bədən də,*
*Yoxdu asudə vaxtı, daima sərvaxtdı ürək.*

*Çırpınır, gah sıxılır, gah qayıdır öz halına,*
*Dözməyib soruşuram de bu nə halətdi, ürək?*

*Məmməd, yazmaqla qurtarmaz ürəyin əzabları,*
*Özü yumruq boydadı, bir dünya fəryaddı ürək.*

# RƏHMAN ÇOVUŞ OĞLU



Abdullayev Rəhman 1967-ci ildə Şamaxı (indiki Qobustan) rayonunun Yekəxana kəndində anadan olmuşdur. O, Bakı Plan-Uçot texnikumunun mühasibat uçotu fakültəsini bitirmişdir. R.Abdullayev rayonun bir çox müəssisələrində mühasib vəzifəsində çalışmışdır. Hal-hazırda Yekəxana poçt şöbəsinin rəisidir. Orta məktəb illərindən şer yazan Rəhman Xəyalın şerləri bəzi qəzetlərdə işıq üzü görmüşdür.

## OLMASA

*"Əl mərddir – göz namərd", – atalar deyər,*
*Mənasız görünər göz, əl olmasa.*
*Həyata baxmağa göz də inciyər,*
*Gözəllik yaradan gözəl olmasa.*

*Duyub-düşünməkçün yaranıb insan,*
*Hər incə mətləbi gərək duyasan,*
*Baharın gəlişi duyulmaz asan,*
*Payızda yarpaqlar xəzəl olmasa.*

*Bütün canlılara ulu yaradan,*
*Seçməyə göz verib, ağı-qaradan,*
*Rəhman da mənasız köçər dünyadan,*
*Şeriyyat olmasa, qəzəl olmasa.*

## QİSMƏTİM

*Bu fani dünyanın ömür yolunda,*
*Bilmirəm əllidir-yüzdü qismətim.*
*Təmənna aldılar sağım, solum da,*
*Tək qayğı çəkməyə dözdü qismətim.*

*Təsəlli verdilər böyük – uşaq da,*
*Dedilər, qəm çəkir ən uca dağ da,*

*Xəyallar içində tək yaşamaqda,*
*Demirəm yoruldu, bezdi qismətim.*

*Ümidlər doğulur hər yeni gündə,*
*"Ümidsiz şeytandır" - xalq deyimində,*
*Yalanlar, riyalar, şərlər içində,*
*Deyirəm, nə yaxşı, düzdü qismətim.*

*Rəhman söz axtarmaz düşsə çətində,*
*Bir başqa zövqü var şeriyyətin də,*
*Qobustan elinin söz sənətində,*
*Mənim də beş-altı sözdü qismətim.*

## MEHMAN MECİD OĞLU



Məmmədov Mehman 1970-ci ilin yanvar ayının 6-da Qobustan rayonunun Nərimankənd kəndində anadan olmuşdur. 1987-ci ildə Nərimankənd orta məktəbi bitirmişdir. 1988-1990-cı illərdə hərbi xidmətdə olmuşdur. O, 1992-ci ildən 1993-cü ilə qədər Qarabağ uğrundakı döyüşlərdə iştirak etmişdir. Ailəlidir, 3 övladı var.

### HƏYAT DƏYİRMAN DAŞIDIR

*Düzdən uca dağa qədər,*
*Səddələr gördüm nə qədər,*
*Gözlərimə doldu kədər,*
*Həm altında, həm üstündə.*

*Dünyanı kim vaxtda qanar?*
*Gec oyanıb hamı yanar,*
*Torpaqda min möcüzə var,*
*Həm altında, həm üstündə.*

*Sinəm olub bir qəmli tar,*
*Həzin-həzin daim çalar,*

*Zilə qalxsam dağ-daş yanar,*
*Köklənmişəm bəm üstündə.*

*Könül mülküm hey talandı,*
*Sinəmdə odlar qalandı,*
*Fikrim dəryalar dolandı,*
*Qərar tutdum qəm üstündə.*

*Deməyin Mehman naşıdır,*
*Kipriydə göz yaşıdır,*
*Həyat dəyirman daşıdır,*
*Kim altında, kim üstündə.*

## BİR DƏRVİŞƏM

*Demirəm ki, mən aliyəm,*
*Demirəm ki, şeşəm, beşəm,*
*Bu aləmin varlığında,*
*Kəlam yayan bir dərvişəm.*

*Sinələrin taxçasında,*
*Nənələrin boğçasında,*
*Şerin, sözün bağçasında,*
*Gül əkmişəm, gül dərmişəm.*

*Bu dünyanı etdim nəzər,*
*Axtarmadım mən simuzər,*
*Qismətimə versə də zər,*
*"Sə"-"bir" payım, səbir peşəm.*

*Mehman, gülü dərmək üçün,*
*Sinələrə girmək üçün,*
*Sözdən çələg hörmək üçün,*
*Alovlarda gərək bişəm.*

## MEHMAN RƏCƏBOV

Mehman Ağəli oğlu 1972-ci ildə Ərəbqədim kəndində anadan olub. O, 1987-ci ildə VIII sinfi bitirdikdən sonra Bakı şəhəri bir saylı fizika-riyaziyyat təmayüllü məktəbdə oxumuşdur. M.Rəsulov 1990-cı ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə (qiya-

bi) qəbul olmuşdur. O, 1994-cü ildən Ərəbqədim kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləyir. Məktəbdəki "M.Ə.Sabir" ədəbi məclisinin üzvüdür.

## AXTARIRAM MƏN



*Böyüyün, kiçiyin bilinmir yeri,*
*Mərifət dünyasın axtarıram mən.*
*Mayası ələmdən yoğrulan dünyam,*
*Səadət dünyasın axtarıram mən.*

*Yollara bir yaxşı nəzər sal barı,*
*Xəyanət bağlayıb bütün yolları,*
*İnsanın insana yox etibarı,*
*Sədaqət dünyasın axtarıram mən.*

*Baxarmı vaxt sevincə, ya ah-ufa?*
*Məcnun tək çəkirəm eşqimdə cəfa,*
*Bil ki, gözəllərdə qalmayıb vəfa,*
*Məhəbbət dünyasın axtarıram mən.*

*Bezmişəm dövranın qeylü-qalından,*
*Mehman xəbərdardır mənim halımdan,*
*Çıxmam ərkanımdan, qalmam yolumdan,*
*Həqiqət dünyasın axtarıram mən.*

## TƏCNİS

*Göz deyər mənə var axan yaşımda,*
*Özümə tən gəlmir indi yaşım da,*
*Mənim bu vədəmdə, bu gənc yaşımda,*
*Qəm mənə verilən ilahi dərddi.*

*Çürük tel satılır misin yerinə,*
*Bilinmir yaxşının, pisin yeri nə?*
*Göndərib dərgaha səs-ün yerinə,*
*Səcdəli, inamlı, ilahi dərddi.*

*Ömrünün yolunda kam ala insan,*
*Bağlana idraka, amala insan,*
*Yetər o vədə ki, kamala insan,*
*Düşünüb dərk edər ilahi dərddi.*

*Haqsız bilməz nə axşamdı, nə dandı,*
*Nə elədi, nə danışdı, nə dandı?*
*Mehmanı göynədən neçə nadandı,*
*Ondan gen gəzsinmi, ilahi dərddi.*

# İMAN ƏLİŞAH OĞLU

Dəmirov İman 1977-ci ildə Ərəbqədim kəndində anadan olub. O, 1999-cu ildə Azərbaycan Beynəlxalq Universitetinin Hüquq fakültəsini bitirmişdir. Kənddə fəaliyyət göstərən "M.Ə.Sabir ədəbi məclisi"nin üzvüdür.

## ALLAH

*Sevgidən çağlayan dağ şəlaləsi,*
*Dağları vəfasız görməsin Allah!*
*Gəlinə bənzəyən yaşıl meşələr,*
*Tacını mamırdan hörməsin, Allah!*

*Ömrün öz yeri var, yaşın öz yeri,*
*Kipriyin öz yeri, qaşın öz yeri,*
*Payızın öz yeri, qışın öz yeri,*
*Bahar baharını dərməsin, Allah!*

*Qoşa bulaq kimi axsın cavanlar,*
*Göydə şimşək olub çaxsın cavanlar,*
*Sevərək üz-üzə baxsın cavanlar,*
*Kədər qanadını sərməsin, Allah!*

*Mənim də sevdiyim bir sevgilim var,*
*Yenicə gəlibdir könlümə bahar,*
*İman deyər, küssə, incisə də, yar,*
*İlqarı əlindən verməsin, Allah.*

## EY GÜL

*Eşqin sevdasına düşəndən bəri,*
*Aləmi görməyə kor oldum, ey gül.*
*Sevda ocağında bişəndən bəri,*
*Alışdım, sovruldum qor oldum, ey gül.*

*Düşsəm də borana, çovğuna, qara,*
*Əzablı həyata, çətin yollara,*
*Çırpılsam qayaya, ildırımlara,*
*Demərəm, usandım, yoruldum, ey gül.*

*Göylərdən ucadır qəlbimdə sevdan,*
*Sanıram qopacaq köksümdəki can,*
*Sandım mənim üçün yaranıb cahan,*
*Çünki camalına vuruldum, ey gül.*

## QƏNDALI ƏMİRŞAHLI

O, Qurbançı kəndində anadan olub. Orta məktəbdə oxuduğu illərdən şer yazmağa başlayıb. Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirib. Doğma kəndində müəllim işləyir. Həm də ADPU-nun dissertantıdır. Q.Əmirşahlının şerləri bir neçə kitabda işıq üzü görmüşdür.

### GƏLƏR

*Qobustan çölündə tək bitən, söyüd,*
*Nə hayan olanın, nə sayanın var?!*
*Gedən sərnişinlər uzaqdan keçir,*
*Payız, qış ayları, görüşənin var.*

*Uzunlu ayları tək yaşayırsız,*
*Çəkilən bulaqlar silindi getdi.*
*Beləcə dərdləri daşıyırsınız,*
*Sizin tək söyüdlər torpağı sevdi.*

*Susuz yerdə sizlə bəhsə girən yox,*
*Demək, qeyrət var ki, buna dözürsüz.*
*Toxların hələ də qəlbinə yol yox,*
*Həyatı bizdən də yaxşı görürsüz.*

*Tək söyüd, sən yaşa, gəl getmə bada,*
*Torpaq qan ağlayar, ah-nalə tökər.*
*Sirrini heç zaman sən vermə yada,*
*Sənin görüşünə çobanlar gələr.*

# PÜNHAN HƏMİDULLA OĞLU

O, 1980-ci ildə Mərəzə qəsəbəsində anadan olub. Mərəzə qəsəbə orta məktəbində oxumuşdur. Məktəb illərindən şer yazır.

## ŞİRVAN

*Yaz vaxtı çıxırsan dağlara hərdən,*
*Görürsən necə gülür üzü Şirvanın.*
*Təbiət naxışın çəkir çiçəkdən,*
*Bəzənir xalı tək düzü Şirvanın.*

*Bu gözəl Vətənim, gözəl diyardı,*
*Yayda da dağları borandı, qardı,*
*Yaşıl bağlarında bəhrəsi vardı,*
*Təbiət bəxşişi özü Şirvanın.*

*Gözəldir bu elin qışıyla yazı,*
*Aşıq sinəsində sədəfli sazı,*
*Oxuduqca yayılır şirin avazı,*
*Deyirlər, parlayır gözü Şirvanın.*

*Şairlər yurdudur sevimli diyar,*
*Aşıqlar hər zaman sözün oxuyar,*
*Nəğməylə, mahnıyla xalı toxuyar,*
*Şerdi, qəzəldi sözü Şirvanın.*

*Pünhana vətəni böyük dayağdı,*
*O, vətən ucadı, əyilməz dağdı,*
*Müqəddəs qaladı, pirdi, ocağdı,*
*Yanır məşəlləri, közü Şirvanın.*

# KƏNAN ƏLİŞAH OĞLU

Dəmirov Kənan 1980-ci ildə Ərəbqədim kəndində anadan olub. Ərəbqədim kənd orta məktəbində oxuyub. O, Bakı Plan-İqtisad texnikumunu bitirmişdir. Kənddəki "M.Ə.Sabir ədəbi məclisi"nin üzvüdür.

## ZAMAN-ZAMAN



*İllərin həsrəti, illərin qəmi,*
*Salıbdır saçıma dən zaman-zaman.*
*Vəfasız dostların vəfa həsrəti,*
*Yedirdib qəlbimə qəm zaman-zaman.*

*Gülə nəğmə deyən bülbülü sevdim,*
*Dostluğa səsləyən hər dili sevdim,*
*Obanı istədim, dost eli sevdim,*
*Qocaltdım ürəyi mən zaman-zaman.*

*Çəkdim həsrətini nazlı dilbərin,*
*Qəlbimin başında ayırdım yerin,*
*Düşündüm hər şeyi hey dərin-dərin,*
*Olmadım hər dəfə şən zaman-zaman.*

*Dedim, dost yolunda keçərəm candan,*
*Dostu yüksək tutdum mən həydən-xandan,*
*Dostları vəfasız gördüyüm andan,*
*Olmadım kimsəyə tən zaman-zaman.*

## DÜNYA

*Bilmirəm nədəndir, ay insan oğlu?*
*Gizlədir həmişə düzünü dünya.*
*Yalanlar dolaşır diyarbadiyar,*
*Açıb ağartmayır üzünü dünya.*

*Kimiyə bolluca şan-şöhrət verir,*
*Kimiyə tükənməz mal-dövlət verir,*
*Kimiyə əbədi məhəbbət verir,*
*Car edir onların sözünü dünya.*

*Nadanlar, gədalar pulla baş kəsir,*
*Kişi nakişiyə olubdur əsr,*
*Bitib-tükənməyir indi kəm-kəsir,*
*Böyüdüb fil edir quzunu dünya.*

*İndi qalmayıbdır böyüyə hörmət,*
*Övladdan ataya sonsuz məhəbbət,*
*Ölçülür pul ilə doğru-həqiqət,*
*İtirib doğrunun izini dünya.*

# MÜŞFİQ ƏLİSAHİB OĞLU

Müşfiq Cənnətov 1982-ci ildə Qobustan rayonunun Ərəbqədim kəndində anadan olub. Kənd orta məktəbini bitirib. O, kəndə fəaliyyət göstərən "M.Ə.Sabir" ədəbi məclisinin üzvüdür.

## ... SEVƏYDİN MƏNİ

*O zaman etmişdim mən sənə vərdiş,*
*Fələk eləyirdi səbr ilə gərdiş,*
*Birdən öz axarın dəyişdi bu iş,*
*Bir yada, əğyara sən satdın məni,*
*Tək mən sevən qədər sevəydin məni.*

*Nə böyük eşq ilə sevərmiş insan,*
*Məni lap sənpərəst etmişdi sevdan,*
*Onda nə biləydim çox çəkməz vəfan,*
*"Sevgi", unudarsan sən bu kəlməni,*
*Tək mən sevən qədər sevəydin məni.*

*Nə mən Məcnun idim, nə də sən Leyli,*
*Sadədən sadəcə sevişdik xeyli,*
*Xidmətdən qayıtdım gördüm nə xeyri?*
*Döndərməz heç qüvvə zaman çərxini,*
*Tək mən sevən qədər sevəydin məni.*

*Bu sənin qismətin, bu mənim bəxtim,*
*Sənə çatmaq idi həyatda qəsdim,*
*Sevgi sarayında uçdu şah təxtim,*
*İndisə, əzizim, sev qismətini,*
*Tək mən sevən qədər sevəydin məni.*

*Gedib başqasıyla ülfət eylədin,*
*Məni bu sevgiyə həsrət eylədin,*
*O vaxtı sən mənə nifrət eylədin,*
*Müşfiqin azalmaz qəzəbi, kini,*
*Tək mən sevən qədər sevəydin məni.*

# 3. SİNƏDƏFTƏR QADINLAR

*"...Tam cəsarətlə demək olar ki, dünyanın heç bir məmləkətində, Azərbaycanda olduğu qədər qadın şair – sinədəftər yoxdur..."*
*Ə.Cəfərzadə*

Azərbaycan ədəbiyyat tarixində qadın şairlərin öz yeri vardır. Bu sahədə ciddi tədqiqatlar aparmış mərhum professor Ə.Cəfərzadə özünün toplayıb, tərtib etdiyi "Azərbaycanın aşıq və şair qadınları" əsərində yazır: "**Xalqımız qadın-ana ilə bağlı gözəl şer inciləri düzən onlarla qadın aşıq və şairlər yetirmişdir. Hər şeydən artıq diqqəti cəlb edən də burasıdır ki, məhz Azərbaycanda, qadınlığın heç bir bəşəri hüququ olmadığı feodalizm və dini əsarətin hökm sürdüyü bir ölkədə vaxtilə, başqa məmləkətlərə nisbətən daha çox qadın aşıq və şair yetişmişdir**"[1].

Bəli, Şirvan regionunun folkloru, ərəbi mühiti, toponimləri ilə bağlı tədqiqatlar apardığımız otuz ilə yaxın bir müddətdə qırx nəfərdən artıq qadın şairlər-sinədəftərlər barədə məlumat əldə etmiş, onların şerlərindən nümunələr toplamışıq. Həmin materialların bir qismi əsasında vaxtilə, "**Şirvanın qadın şairləri**"[2] adlı kitab hazırlayıb, çap etdirmişik.

Həmin vaxtdan sonra tədqiqatımızı ardıcıl davam etdirmişik. Nəticədə əlavə olaraq iyirmi nəfərə yaxın sinədəftər qadınlar barədə məlumatlar və əsərlərindən nümunələr əldə etmişik. İşin maraqlı tərəfi ondadır ki, həmin el şairlərinin bir çoxu indiyə qədər mütəxəssislərə, eləcə də oxucu kütləsinə o qədər də bəlli deyildir. Bu vaxta qədər haqqında bilgilər, şerlərindən nümunələr topladığımız qadın şairlər arasında Qobustan torpağında doğulub boya-başa çatmış, vaxtilə gizlində və ya aşkarda şer yazmış qadınlar-xanımlar da vardır. **Məsmə Nağı qızı, Əsbət Dadaş qızı, Zeynəb Zərbəli qızı, Nazlı Paşa qızı, Badam Müslüm qızı, Ağca Gülağa qızı, Narxanım Bəybala qızı, Narınc Miri qızı, Gülnisə Piralı qızı, Telli Baba qızı, Səlmi Talıb qızı, Çöpçü Səlmi, Salatın Cavad qızı, Çimnaz Həsənalı qızı, Püstə Şikar qızı, Gülümsoltan Həmidalı qəzə, Naburlu Dəryaxanım və Yaxşıxanım, Asudə Xanış** qızı və başqaları bu qədim diya-

[1] Azərbaycanın aşıq və şair qadınları. (Tər. edən Ə.Cəfərzadə), Bakı, 1991, səh. 277-279.
[2] Şirvanın qadın şairləri. (top. tərtib edən. Ə.Cəfərzadə, S.Qəniyev). Bakı, 1997.

rın müxtəlif oba, elat, kəndlərində yaşamış, bədahət düzdüyü şerləri ilə gah həmyerlilərinin dərd-sərinə məlhəm, gah el-obaya kəc baxanlara ox olmağa, toy-düyünlərə sevinc qatmağa çalışmışlar. Həmin el şairlərinin bir qismi ilə oxucuları tanış edirik.

## ZEYNƏB ZƏRBƏLİ QIZI
### (1860/62 – 1942)

Sinədəftər el sənətkarı haqqında müfəssəl məlumatı professor Ə.Cəfərzadə vermiş, şerlərinin bir qismini ilk dəfə çap etdirmişdir. Son araşdırmalar, Zeynəbin uzaq qohumları ilə görüşlərimiz zamanı bir çox məsələləri də dəqiqləşdirdik.

Yaşlıların dediyinə görə, el nəğməkarı 80 yaşa qədər ömür sürmüşdür. Onun ölüm tarixi dəqiqdir - 1942-ci il. Deməli, Zərbəli qızı təxminən 1862– ci ildə Şirvan mahalının Dağ-Kolanı elatının Goran tayfasında dünyaya göz açmışdır. O, tərəkəmə ailəsində anadan olmuşdur. Zeynəb ağlı söz kəsəndən təxminən, 10-12 yaşlarından Çürük təxəllüsü ilə şer qoşan babası İsmayılın himayəsində yaşamışdır. Deyilənlərə görə, şer qoşmasında babası Çürük İsmayılın təsiri az olmamışdır.Belə deyirlər ki, bir dəfə Kolanı obası yaylağa köçməyə hazırlaşır. Köç hazır olur. Çürük İsmayıl nəvəsi ilə qabaqdakı arabaya minirlər. Babası deyir, hə, bala, köçümüzə bir şer de. Balaca Zeynəb bədahətən deyir:

***Kolanının obası,***  
***Gəlir yaylaq havası,***  
***Zeynəb nəğmə oxuyur,***  
***Fikrə gedir babası.***

Zeynəb saf məhəbbəti, təbiətin gözəlliklərini, bəylərin elə-obaya zülmünü bədahətən düzdüyü şerlərdə əks etdirə bilmişdir. Zəmanəsinə görə açıq fikirli qadın olmuşdur. Varlı ailədən olmasına baxmayaraq, atasının İsmayıl adlı çobanını sevmişdir. Valideynləri bu sevgiyə qarşı çıxmışdır. Zeynəb öz doğmalarına çox yalvarmış, lakin heç bir əlac olmamışdır. Odur ki, İsmayıla onu götürüb qaçmağı təklif etmiş və bu münasibətlə düzdüyü bir gəraylı şahiddir o pak sevgiyə...

Sinədəftər el şairi 1942-ci ildə vəfat etmişdir. Onun qəbri Dağ-Kolanı elatının Küdrü düzündəki qəbirstanlığındadır.

*Mən aşıq avaz ilə,*
*Saz ilə, avaz ilə,*
*Zeynəb dərdi-sərini,*
*Sən oxu avaz ilə.*
*Üzərliyi bağlaram,*
*Dəstə tutub bağlaram,*
*Sən məndən ayrılalı,*
*Şamu-səhər ağlaram.*

*Üzərlik dəstə-dəstə,*
*Yığ bağla dəstə-dəstə,*
*Mən səndən əvvəl ölsəm,*
*Hər gün gəl qəbrim üstə.*

**İSMAYIL**

*Nə müddətdi yol gözlərəm,*
*Nə durmusan, qoç İsmayıl?*
*Atam salıb məni bəstə,*
*Gəl qapımı aç, İsmayıl!*

*Dağlar başı duman olar,*
*Əlif qəddim kaman olar,*
*Mənim halım yaman olar,*
*Tez ağarar saç, İsmayıl!*

*Gəl eşit Zeynəb sözünü,*
*Yoldan yığ yarın gözünü,*
*Çox da incitmə özünü,*
*Götür məni qaç, İsmayıl.*

## BADAM MÜSLÜM QIZI
### (1880-1962)

Sinədəftər el şairi Badam Müslüm qızı, təxminən, on doqquzuncu yüzilliyin 80-cı ilində Şamaxı qəzasının Nabur kəndində anadan olmuşdur. Yaşlıların dediyinə görə, o, kiçik yaşlarından "söz düzməyə" başlamışdır. Bir vaxt keçəndən sonra kənd hampaları Badam "həcvlərinə" "tuş gəlməkdən" qorxmuşlar.

Badam 24-25 yaşlarında Ələsgər adlı bir nəfərə ərə getmiş, onun ilk ailə həyatı uğursuz olmuşdur. O, ikinci dəfə Şorsulu kəndindən olan, Əhməd adlı bir nəfərlə ailə qurmuşdur. Badam 1962-ci ildə həmin kənddə vəfat etmişdir.

El sənətkarı o dövrdə Şirvanın bir çox ustad aşıqları **Aşıq Canəli, Aşıq Hümmət, Aşıq İbrahim, Aşıq Bilal, Aşıq Nizam, Aşıq Şamil,** ixtiyar yaşında isə 1956-cı ildə isə Aşıq Şakirlə deyişmişdir. Həmin şerlərin hələlik hamısını əldə edə bilməmişik.

## DEYİŞMƏ

**Aşıq Bilal:**
*Biləydin sevgilin, nişanlın kimdir?*
*Yaraşırmı sən tək zənənə Badam?*
*Zamanın qəhrindən, bəd adətlərdən,*
*Yoxsa satılmısan yamana Badam?*

**Badam:**
*Çalış xoş söz söylə, könül şad elə,*
*Eyham söz nə lazım qanana, Bilal.*
*Bu gün həcv də desən bizə qəbuldur,*
*Çün bizdə hörmət var mehmana, Bilal!*

**Aşıq Bilal:**
*Sənin sorağını almışam eldən,*
*Şikayətin çoxdur dövrün əlindən,*
*Duyan bilər əhli-halı dərindən,*
*Mən olmuşam elçin, yanan, a Badam!*

**Badam:**
*Gəl göynətmə yaralarım birbəbir,*
*Kotan nə bilir ki, qayış nə çəkir,*
*Xan, bəy, koxa, molla harə bir əmir,*
*Qara gəlsin belə zamana, Bilal!*

**Aşıq Bilal:**
*Bilalın qəlbini sən etdin şan-şan,*
*Ayılar bu ellər qalxar uyğudan,*
*Şad gün gələr qəmli günün dalıycan,*
*Bu sözlərim haqdır, inan, a Badam!*

**Badam:**
*Bizləri heç yerdə saymırlar insan,*
*Kasıbca bir qızam özüm Nabırdan,*
*El ağsaqqalısan, elə atasan,*
*Yetir dərdlərimi hər yana, Bilal.*

### OLMADI

***Üzdüm qəvvas kimi söz dəryasında,***
***İqbalım arzumla heç tən olmadı.***
***Min-min könül tikdim abad eylədim,***
***Könül sarayımı tikən olmadı.***

***Mənə qismət oldu belə bil dövran,***
***Nə insaf yox, nə ədalət, nə divan,***
***Haqqı gördüm getdi nahaqqa qurban,***
***Durub hesabını çəkən olmadı.***

***Pulu namus bildi azğın ağlar,***
***Peysəri piylilər, qarın yoğunlar,***
***Din-imandan gop eyləyən mollalar,***
***Özlərində iman nədən olmadı?***

***Yordu eli cavuşların cır səsi,***
***Beşaçılandı kənxudanın silləsi,***
***Necə yandı kasıb-kusub dədəsi,***
***Ərşə çıxdı, ayırd edən olmadı.***

***Qərib sayılsam da doğma elimdə,***
***Aydındı aləmin siri gözümdə,***
***El dərdini çəkdim mən öz sinəmdə,***
***Badam, heyif, aşkar bilən olmadı.***

## AĞCA GÜLAĞA QIZI
## (1890-1971)

Ağca Gülağa qızı Şirvan mahalının Kolanı elatının Qaroğlanlı tayfasında dünyaya göz açmışdır. Çadra altında ömürlərini kül edən, bacıları kimi "qara" tanımamışdır. Gözəl şer düzə bilmək təbii və səsi olmuşdur.

Yaşlılar indi də danışırlar ki, Ağca mərsiyə deyəndə "kafər də olsa idi, ağlayırdı".

Ağca Gülağa qızı 1971-ci ildə vəfat etmişdir. Qəbri Kolanı elatının Girdə qəbristanındadır...

## GƏLİR

*Söz demək hamının qisməti deyil,*
*Allah vergisidir, pünhandan gəlir.*
*Ayə tək vəhy ilə sirayət edir,*
*Çeşmə ayağıdır, "Quran"dan gəlir.*

*Tək-tək insanlarda olar o peyda,*
*Ondan küllü bəşər qazanar fayda,*
*Gölməçə deyil ki, günəş quruda,*
*Mayası dəryadan, ümmandan gəlir.*

*Övlada mərifət keçər anadan,*
*Qulluq bağbanındır, qida mayadan,*
*Gəzdiyimiz yeri, göyü yaradan,*
*O qüdrət sahibi Allahdan gəlir.*

*Xudaya pay verib ilhamı bizə,*
*Sözün köhlənilə çıxırıq düzə,*
*Ağca əyriyə bəd, halaldır düzə,*
*Təb coşur ürəkdə, bu candan gəlir.*

## KÜDRÜDƏ

*Neçə elin yurddaşı var,*
*Anam Küdrüdə, Küdrüdə.*
*Ormanları var-dövlətdi,*
*İnan Küdrüdə, Küdrüdə.*

*Baş çıxarmaz ondan naşı,*
*Bir tarixdi ocaq daşı,*
*Bizim elin can sirdaşı,*
*Aran Küdrüdə, Küdrüdə.*

*Acı yovşan, tər qarağan,*
*Havasıdı dərdə dərman,*
*Ağca deyər, ara loğman,*
*Hər an Küdrüdə, Küdrüdə.*

## BAYATILAR

*Ağcanın işi naşı,*
*Tutubdu işi naşı,*
*İş biləndə can qurban*
*Bilməzin işi naşı.*
* * *
*Qışlaqda zağa çoxdu,*
*Qalmağa zağa çoxdu,*
*Qaroğlanlı elində*
*Yoxsula ağa çoxdu.*
* * *
*Mən aşiq həsrət oldu,*
*Həsrətdən həsrət oldu,*
*Bir övlada tamarzı*
*Alışdım, həsrət oldu.*
* * *
*Ağca deyər, belə yaz,*
*Belə oxu, belə yaz,*
*Məni elmdən etdin,*
*Gəlməyəydin belə yaz.*
* * *
*Mən aşiq belə sinə,*
*Belə boy, belə sinə,*
*Canımı qurban verrəm,*
*Oğulun beləsinə.*

# SALATIN CAVAD QIZI
## (XIX-XX əsr)

Salatın Cavad qızı XIX əsrin ortalarında Şirvan mahalının Nabır kəndində anadan olmuşdur. Gənc yaşlarından bədahətən söz düzə bilməyi ilə kənd camaatı içərisində ad çıxarmışdır. O, heç kəsdən söz çəkməyən, açıq-saçıq söz deyə bilməyi bacaran sinədəftər, həm də gözəl səsi olan bir qadın olmuşdur. Yaşlıların dediyinə görə, kənddə yas mərasimində düzdüyü ağıları avazla oxuyanda bütün məclis kövrələrdi. Salatın Cəbi adlı bir nəfərə ərə getmiş, onların Məhəmməd adlı bir oğlu olmuşdur. Məhəmmədin nəvə-nəticələri indi də kənddə

yaşayırlar. Nabır kəndinin camaatın qış aylarında Göyçayın Ləki, Mırtı, Alpout və s. kəndlərində qışlayırdılar. Elə ona görə də köçəri həyat tərzinin, təbiətin füsunkar gözəllikləri Salatın şerinin canına-qanına hopmuşdur.

**Aşıq Canalı:**
*Ala gözlü, qələm qaşlı, Salatın,*
*Elə baxma həsrətində olan var.*
*Nə qaydadı gözəllərdə işvə, naz?*
*Belə yalqız gəzmə cana ziyan var.*

**Salatın:**
*Cavan aşıq, coşub aşma həddini,*
*Gözləginən mərifətin səddini,*
*Elə söz deyərəm əyər qəddini,*
*Mənə qayğı çəkən, həmdəm, həyan var.*

**Aşıq Canalı:**
*Deyirlər, tərifin düşüb ellərə,*
*Qızıl şanə xub yaraşır tellərə,*
*Qorxu olar, yalqız düşmə göllərə,*
*Qafil ovçu bərələrdə hər an var.*

**Salatın:**
*İlqar, iman gərək aşıq olana,*
*Dürüst gəzə, meyli haqqa dolana,*
*Qulluq edə şəriətə, "Qurana",*
*Anlaya ki, xeyri-şərin yazan var.*

**Aşıq Canalı:**
*Dərk edirəm ömrə yazı yazanı,*
*Əzrayılı, qıl körpünü, qazanı,*
*Canalıyam, qannam yolu azanı,*
*Gördüm onu, məndən yaxşı qanan var.*

**Salatın:**
*Rəhmət olsun ustadların pirinə,*
*Öyrədib ki, sözün düşə yerinə,*
*Salatınam, çəkmərəm çox dərinə,*
*Aşıq xiridarsan, səndə iman var.*

## NABIR KƏNDİ

*Üzü dönmüş ehtiyacın əlindən,*
*Olmuşuq didərgin, lal Nabır kəndi.*
*Yaman edib bizi yollar yorğunu,*
*Belə əndazalı hal, Nabır kəndi.*

*Minib gəcəvəyə ər, oğul, uşaq,*
*Sevinc misqal-misqal, qəm qalaq-qalaq,*
*İnan dilə gəlib su, hava, torpaq,*
*Deyir, hicran sazın çal, Nabır kəndi.*

*Yenə qəhərlənib Salatın ağlar,*
*Bizə vida söylər bu doğma dağlar,*
*Cana vəfa yoxdur, ömrə etibar,*
*Bağışla, salamat qal, Nabır kəndi.*

## BAYATILAR

*Mən aşığam Kür kalam,*
*Səni çalsın Kür kalam,*
*Nə soyuğa tabım var*
*Nə pulum var kürk alam.*

*Mən aşığam giləvar,*
*Ağ üzündə gilə var,*
*Aran evli qışlağın*
*Yaylağıdır Giləvar.*

*Mən aşıq al yorğanı,*
*Al döşək, al yorğanı,*
*Gələn əcəl təridir*
*Üstümdən al yorğanı.*

# ÇİMNAZ HƏSƏNALI QIZI

O, təxminən, XIX əsrin sonunda Şirvan qəzasının Ərəbqədim obasında doğulmuşdur. Yaşlı kənd sakinlərinin dediyi görə, o bədahətən düzdüyü şerləri ilə ad çıxarmışdır. Obada baş verən hadisələrə baməzə şerlər də düzərmiş. Həmin satrik şerlərin bəzi bəndləri indi də yaşlıların yaddaşındadır.



Ərəbqədim ərazisində (Çay) pir

*Sizə kimdən söz açım?*
*Yalançı – bizim Qaradan.*
*Gah şər deyir, gah da yaman,*
*Utanmayır el-obadan.*

El şairi ötən əsrin əllinci illərində vəfat etmişdir. Filologiya elmləri doktoru Ə.Cəfərzadənin şəxsi arxivindən onun iki tam şeri və bir neçə yarımçıq qoşmasını əldə etmişik.

## DÜŞMÜŞƏM

*Zillənib gözlərim uzun yollara,*
*Gəlmir gedən, mən nə günə düşmüşəm.*
*Bu ayrılıq xal salıbdı canıma,*
*Olub zədə, mən nə günə düşmüşəm.*

*Nə vaxt ki, keçirdi, şadiman ay, il,*
*Boynuma taxardım qızıl həmayıl,*
*Fələyin əlindən olmuşam zail,*
*Bilməm nədən, mən bu günə düşmüşəm.*

*Talanıb bostanım, saralıb tağım,*
*Viranəyə dönüb meyvəli bağım,*
*Çimnaz, qan ağlayıb əlvan otağım,*
*Susub bədən, mən nə günə düşmüşəm.*

# PÜSTƏ ŞİKAR QIZI
## (1880-1947)

Püstə Şikar qızı 1880-ci ildə Şamaxı qəzasının Peyvənd Təklə kəndinin Muradlı tayfasında anadan olmuşdur. Bayatılarının birində bu barədə belə deyir:

*Mən aşıq şah budağı,*
*Xoşlamaz şah bu dağı.*
*Təklə bir cahandı bil,*
*Muradlı şah budağı.*

O, 1947-ci il fevralın 17-də Göyçay rayonunun Müskürlü kəndində vəfat etmişdir.

Deyirlər ki, bir səhər Püstə inəyi sağmaq üçün tövləyə girir. Görür ki, dana açılıb inəyi əmmişdi. Boş sərniclə evə qayıdır. Əri Süleyman kişi Püstəyə məzəmmət edir. Deyir ki, axşam gərək dananın ipini yoxlayaydın. Püstə bayatı ilə cavab verir:

*Mizrab vurdun simə di,*
*Bu eyhamın kimədi?*
*Mən əppək bişirənəm*
*Dana nə eynimədi!*

Süleyman deyir ki, dananı bağlamaq arvad işidir, kişi işi deyil. Püstə bədahətən sözbəti belə yekunlaşdırır:

*Çağır gəlsin qananı,*
*Görsün evdə xananı,*
*Mənim işim bax budur*
*Neyləyirəm dananı?*

Püstənin həyat və yaradıcılığı haqqında professor Ə.Cəfərzadə "Azərbaycan aşıq və şair qadınları" kitabında məlumat vermişdir. Biz isə el şairinin həyat və yaradıcılığı haqqında monoqrafiya yazmış, şerlərini çap etdirmişdik.

*Anam Şirvan, ay Vətən,*
*Varmı sənə tay, Vətən?*
*Təkcə bircə canım var*
*Olsun sənə pay, Vətən.*

*Ağdaşda mehman mənəm,*
*Göyçayda mehman mənəm,*
*Şamaxıyam, Ağsuyam-*
*Başa-başa Şirvan, mənəm.*

*Bülbülün nəğməsi var,*
*Qartalın qıy səsi var,*
*Hamısı Vətən səsi*
*Kim deyər özgəsi var?*

*Ələsgər söz şahıdı,*
*Sözünün düz şahıdı,*
*Mən nəçiyəm bu haqqa*
*Var onun yüz şahıdı.*

*Qəşəng olmağa nə var?*
*Cəfəng olmağa nə var?*
*Kişi odur haqq ola*
*Pərsəng olmağa nə var?*

## ŞÜŞƏXANIM ŞƏRBƏTALI QIZI



Zahidova Şüşəxanım 1912-ci ildə Şamaxı qəzasının Nabur kəndində anadan olmuşdur. Kiçik yaşlarında anadan yetim qalan Şüşəxanım həyatın bütün çətinliklərini dadmış, ona sinə gərmişdir. Doğmalarının dediyinə görə, onların nəsilində bədahətən söz deyən, gözəl səsi olan insanlar çox olmuşdur. Elə atası Şərbətalı sinədəftər bir insan olubmuş. Onun şerlərdən kiçik hissələr, müəyyən bəndlər yaddaşlarda indi də qərar tutur.

*Şərbətalı, ömrü verdin yelə sən,*
*Yaşın ötüb, qocalıbsan biləsən,*
*Zəhmət çəkib bu yerlərə gələsən,*
*Hə zamandı intizarda qalmışıq.*

Şüşəxanımın qardaşı Cabbarın da gözəl səsi olmuşdur. O, uzun

illər Şirvan aşıqları xüsusən, Aşıq Abbas ansamblında xanəndəlik etmişdir. Əfsus ki, istedadlı sənətkar, 1937-ci ildə günahsız yerə həbs olunmuş və Sibirə sürgün edilmişdir... Doğmaları, qocaman aşıq və xanəndələrin yaddaşından Şüşəxanımın on beş şerini toplamışıq.

*Əynimdə oddan çuxa,*
*Qoymaram tüstün çıxa,*
*Əylən, a Karvanqıran,*
*Bəlkə yar gəlib çıxa.*

*Gedib o gözəl çağlar,*
*Qalıb viranə bağlar,*
*Ağlama, dəli könlüm*
*Düşmən gülər, dost ağlar.*

*Nə bağbanam, bağım var,*
*Nə əlvan otağım var,*
*İtkin qardaş ucudan,*
*"37" [1] dağım var.*

## DEYİLSƏNMİ?

*Cümlə bəşər şahid sənə,*
*Yaman dünya deyilsənmi?*
*Yüz-yüz şahı, ya kədanı,*
*Alan dünya deyilsənmi?*

*Yaradıb insan övladın,*
*Yandırıb şöhrətin, adın,*
*Sonra qırıb qol-qanadın,*
*Kalan dünya deyilsənmi?*

*Ağlar gülər – ikiüzlü,*
*Gah doğru, gah cəhəl sözlü,*
*Qızıl dişli, gəlin gözlü,*
*İlan dünya deyilsənmi?*

*Qeyrətsizlər kama yetər,*
*Qeyrətlilər qəmə yetər,*
*Aqibəddən həddən betər,*
*"Filan" dünya deyilsənmi?*

[1] 1937-ci il nəzərdə tutulur.

*Yaltaqların uzun dili,*
*Dolanıb aldadır elli,*
*Hakim kəsib fitnə-feli,*
*Talan dünya deyilsənmi?*

*Bülbülə od olur haram,*
*Qarğa deyir, – sənətkaram,*
*Odur sənlə yoxdur aram,*
*Yalan dünya deyilsənmi?*

*Əyər səndə var həqiqət,*
*Şəhman yarat, etmə qələt,*
*Üzü qara, a kəmfürsət,*
*Nalan dünya deyilsənmi?*

*Həqiqəti sən etmə lal,*
*Şərdən, xaindən qisas al,*
*Ömrü püxtə, əməli kal,*
*Olan dünya deyilsənmi?*

*Həyan durma qəlbi daşa,*
*Ya yıxıl öl, ya mərd yaşa,*
*Şüşəxanım ömrün başa,*
*Vuran dünya deyilsənmi?*

## GÜLÜMSOLTAN



Gülümsoltan Həmidalı qızı XIX əsrin axırlarında indiki Qobustan rayonunun Ərəbşalbaş kəndində anadan olmuşdur. Daima köçəri həyat keçirən, xalı-çalça toxumaqla məşğul olan Gülümsoltan qadınların hüquqsuzluğu, zamanın, ədalətsizliyin tənqidi, saf məhəbbətin tərənnümü və s. mövzularda çoxlu bayatı, gəraylı və qoşmalar düzmüşdür.

*A həndi-həndi, cəhrə,*
*Ayağımın bəndi, cəhrə,*
*Vurub səni sındırram,*
*Gəzərəm kəndi, cəhrə.*

*Aşıq yüz il başacan,*
*Yaşa yüz il başacan,*
*Bu dostluq, bu təntənə*
*Getsin yüz il başacan.*

*Dağıstanın dağı var,*
*Yola çıxma, yağı var.*
*İnsafsız, mənə dəymə*
*Məndə əsgər dağı var.*

*Mən aşıq dəndədəndir,*
*Yonulmaz Dəndədəndir.*
*Aləminki Allahdan,*
*Bizimki bəndədəndir.*

*Aşıq cəzanə gələr,*
*Dərdi cəzanə gələr,*
*Sən çəkəni fil çəksə*
*Yenə cəzanə gələr.*

## ... O YANA ELƏ

*Dərdli canım arzu-kama yetməmiş,*
*Vəfasız mollad, o yana elə.*
*Görüm baislərin evi dağılsın,*
*Məni yandıranlar, a yana belə.*

*Anadan olalı bir gün görmədim,*
*Göz yaşlarım çaya döndü, gülmədim,*
*Heç də bu dünyaya mən gəlməyəydim,*
*Kaş ki, doğmayaydı, ay ana belə.*

*Gülümsoltan, zədəndi tən yarım,*
*Loğman lazım deyil, qoy özüm yarım,*
*O yaddan çıxardan bimürvət yarım,*
*Nola, insaf edə, ay ana, belə.*

## ВЕРА ФЕДОРОВНА

Xalıkova Vera Mərəzədə doğulub boya-başa çatıb. Bu qədim diyarın ahu-havasını udub, neməti ilə böyüyüb. Qəlbində Mərəzəyə dərin sevgi və məhəbbət hakim olub. Məlum hadisələrdən sonra ailəsi ilə birlikdə Stavropolun Aleksandrovsk kəndinə köçüb... Ürəyində bu torpağa olan sevgi onu şair edib. Unuda bilmir doğma Mərəzəni...

### МАЛАЯ РОДИНА

*Нет прекрасней ностальгии,*
*Чем о Родине своей,*
*В мире места нет красивей*
МАРАЗЫ *- их нет милей!*

*Хоть дороги все измерь,*
*Проплыви хоть сто морей*
*Не найдешь ты край милей*
МАРАЗЫ *- их нет родней!*

*Пусть живешь ты как у Бога,*
*Море - цвета бирюзы,*
*Все равно хоть и немного,*
*Все же тянет в* МАРАЗЫ.

*Когда на сердце тревога,*
*И на праздничные дни*
*Собираюсь я в дорогу*
*В* МАРАЗЫ, *нас ждут они.*

*В горы тянется дорога,*
*Вот Джанги, Джейранкечмаз,*
*Нариманкенд, еще немного,*
*И встречайте* - МАРАЗЫ.

*Кругом горы как пороги,*
*Виноградные лозы,*
*Здесь у главной, у дороги,*
*Село наше* - МАРАЗЫ.

*В селе этом лишь представьте,*
*У меня родни не счесть.*
*Говорить всем только, "Здрасьте",*
*И то хватит дней на шесть.*

*Здесь сама природа лечит,*
*Прочь тревоги все ушли,*
*Словно в церкви ставишь свечи*
*"Ко спасению души".*

*Здесь знакомо все до боли,*
*Все тропинки, родники.*
*Вот на этом жал я поле,*
*И вон там паслись быки.*

*А вот здесь мы без печали,*
*Жгли костры в ночной тиши,*
*А вон там весну встречали,*
*Песни пели от души.*

*На Май весело гуляли,*
*Были свадьбы на селе!*
*Мы тюльпаны собирали,*
*На Сланцах и Халтаве.*

*Собирались на поляне,*
*Или в клуб на танцы шли.*
*Приходили на свидание*
*И гуляли до зари.*

*Как из дома выходили,*
*С первым выстрелом кнута.*
*Косить сено мы спешили,*
*На всю зиму для скота.*

*Рано в горы поднимались,*
*На высокие кручи.*
*Восход солнца мы встречали,*
*Ждали первые лучи.*

*В село нашем нету речки,*
*И лесных там нет чащей.*
*Но пленил нас русской печки*
*Запах хлеба или щей.*

*Как молились?! Уповая,*
*Словно став под Образы.*
*Это все - Земля родная!*
*Это - наши* МАРАЗЫ.

*В мире все пусть интересно,*
*Леса, реки и шлюзы.*
*Если есть прекрасней место,*
*Это наши -* МАРАЗЫ*!*

*Если скажут, обещая,*
*"Все забудь - живи в Раю".*
*Я скажу - "Не надо Рая,*
*Дайте Родину мою!".*

*Времена теперь другие,*
*Президенты - как тузы.*
*И остались за горою*
*Моя радость -* МАРАЗЫ*!*

*Понаставили границы,*
*И таможни, и посты.*
*И вот стали за границей*
МАРАЗЫ *- ты нас прости.*

*Хоть живут здесь веселее,*
*Не могу сдержать слезы.*
*Для меня все же нет милее,*
*Чем родные* МАРАЗЫ.

*Хоть не можешь ты гордится,*
*Ни березкой, ни рекой.*
*Край родной мне часто снится,*
*Буду я навеки твой!*

*Иногда найдет такое -*
*Подступает к горлу ком.*
*И мне кажется порою,*
*Я б ушел туда пешком.*

*Хоть закрыты все границы,*
*Сквозь таможни и лазы.*
*Улетел бы я к вам птицей,*
*Дорогие* МАРАЗЫ.

*Буду я молить, стеная:*
*"Господи! Ты нас спаси.*
*Милостью покрой вниманье,*
*В* МАРАЗЫ *нас перенеси!".*

*Чему бы жизнь нас не учила,*
*Но в чудеса все ж верю я.*
*Когда неведомая сила,*
*В родные всех вернет края.*

*Не надо мне златые горы,*
*И реки полные вина.*
*Забудьте все народы ссоры,*
*Пусть будет вновь одна страна!*

*Пусть границы все сотрутся,*
*И чтоб не было грозы.*
*Чтобы все могли вернуться,*
*Вновь в родные* МАРАЗЫ.

# YAXŞIXANIM QOCAKİŞİ QIZI



Əhlimanova Yaxşıxanım 1926-cı ildə Şamaxı qəzasının Şıxlar kəndində doğulmuşdur. İti hafizə və yaddaşa malik olan Yaxşıxanım Azərbaycan dastanlarının Şirvan variantını əzbərdən bildiyi kimi, bədahətən şerlər də düzə bilirdi. Düzdüyü şerlərində tərəkəmə mühitinin acılı-şirinli, dağlı-aranlı çağları poetik bir dillə ifadə olunmuşdur. Onun yaradıcılığında bayatıları da xüsusi yer tutur.

*Quzuçuyam quzu məndə,*
*Quzunu tökdüm kəndə,*
*Ərəb oğlu, tat qızı*
*Yaylığın qaldı məndə.*

*Çoban, qoyun kimindi?*
*Sana, gör neçə mindi?*
*Ortadakı boz evdə*
*Nişanlı qız kimindi?*

*Qoyun desən, gedərəm,*
*Quzu desən, güdərəm,*
*Ayı bitmiş çobanam*
*Haqqımı ver gedərəm.*

*Mən aşıq qara qaldı,*
*Ağ getdi, qara qaldı,*
*Dağlar lalə boyandı*
*Yamanlıq qara qaldı.*

*Mən aşiq dolu bağlar,*
*Meyvəli dolu bağlar,*
*Keçən günü yad etdim*
*Gözlərim dolub, ağlar.*

*Bulaqda daş olaydım,*
*Su dəyib yaş olaydım,*
*Qəriblərə bacıyam*
*Təkə qardaş olaydım.*

*Döşək aldım yatasız,*
*Demədim ki, satasız,*
*Hitlerin beli sınsın*
*Bizi qoydu atasız.*

## ASUDƏ XANIŞ QIZI

Məmmədova Asudə Xanış qızı 1958-ci ildə Mərəzə rayonunun Nərimankənd kəndində anadanr olub. Hal-hazırda Nərimankənddə yaşayır, evdar qadındır.



### KÖNLÜM

*Çoxu ağlın çaş salanda,*
*Mənə arxa duran, könlüm.*
*Ürəyimə qan dolanda,*
*Coşub dalğalanan, könlüm.*

*Nə eşitdin, nələr gördün,*
*Sevinc, qəmdən qala hördün,*
*Dəryadan gövhər götürdün,*
*Səməndər tək yanan, könlüm.*

*Nə almışdın, nə satıldın,*
*Haram mala nə qatıldın?*
*Hax qoyan yola tutuldun,*
*Olmadın bədgüman, könlüm.*

*Yüz qoşuna sinə gərdin,*
*Hər çəməndən çiçək dərdin,*
*Heç ömrü bada vermədin,*
*Qəmə qəmxar olan, könlüm.*

*Nə yaxşı ki, bol varımsan,*
*Sən ilhamım, vüqarımsan,*
*Son sözüm, son qərarımsan,*
*Asudaya həyan, könlüm.*

## BAYATILAR

*Mən aşığam halala,*
*Dağda bitər ha lala,*
*Haramdan gen dolandım,*
*Qayil oldum halala.*

*Yolum bu dağlar ilə,*
*Yandım bu dağlar ilə,*
*Bir kökdən pöhrə verdim*
*Şümşad budaqlar ilə.*

*Mən aşığam oyandım,*
*Yatmış idim oyandım,*
*Sənə sadiq kəsildim*
*Ölənəcən bu andım.*

*Mən aşığam çəpəri,*
*Neynirəm bu çəp əri,*
*Qonşu paxıl olmasa*
*Bağ istəməz çəpəri.*

*Mən aşığam alacığ,*
*Ala keçə, ala çığ,*
*Alma canımı gizli*
*Alırsansa, al açığ.*

# GÜLNAR XANIŞ QIZI

Gülnar Xanış qızı Zaidova 1961-ci ildə Şamaxı rayonunun Nərimankənd kəndində anadan olub. Orta məktəbi bitirib, ailəlidir. İki övladı var. Lökbatan qəsəbəsində yaşayır.

## OLAR

*Hər kəs öz zatından qətrə artırmaz,*
*Hərə öz kökündən götürən olar.*
*Qanqala qızılgül calasan olmaz,*
*Tikan-tikan, gül-gül bitirən olar.*

*İnsanı paltalra tanımaz insan,*
*İnsanı vicdanla gərək sayasan,*
*Vecsiz itə qızıl zəncir bağlasan,*
*Zatı puçdur "qonaq ötürən" olar.*

*Adamlar görmüşəm modalı geyər,*
*Başında da yoxdur zərrəycə dəyər,*
*Sən Allah deyərsən, o gəllah deyər,*
*Hörməti, izzəti itirən olar.*

*Yoxsa vəhə çıxıb haqqın hesabı,*
*Köhlən keçə bilməz hər arıq yabı,*
*Deyirəm: a Gülnar, çəkmə əzabı,*
*Səbir, mənzil başa yetirən olar.*

## ARASINDA

*Acı sözdən qəlb qırılar,*
*Qısa bir an arasında.*
*Zəhərdə var, şəkər də var,*
*"Çor" ilə, "can" arasında.*

*Bir şəxs çörək basan olsa,*
*Kobud, ürək yıxan olsa,*
*Küyçü, qara yaxan olsa,*
*Kordur insan arasında.*

*Gülnar seçdi haqqı, qandı,*
*Düz yolu tutdu, inandı,*
*Elin gözündə sınandı,*
*İlqar, iman arasında.*

# 4. QOBUSTAN XANƏNDƏLƏRİ

*"Sənətdə hər kəsin öz yeri var.*
*Heç kəs kiminsə yerini almır..."*
*Heydər Əliyev*

Azərbaycanda xanəndəlik sənətinin çox qədim tarixi vardır. Respublikamızın böyük bir bölgəsi olan Şirvanda da eləcə. Adicə bir nümunə – minildən artıq ömür sürmüş Şirvanşahlar dövlətində – sa-



rayda yaşamış, fəaliyyət göstərmiş **aşıq, xanəndə, şairlərin** sayı yüzlərlə olmuşdur. Mənbələrdə Şirvanşahlar sarayında yaşamış şairlər haqqında müəyyən məlumatlar verilsə də, aşıq və xanəndələr barədə o qədər də geniş bilgilər yoxdur. Amma XVIII əsrdən sonra Şirvanda fəaliyyət göstərmiş xanəndələr barədə cünc və bəyazlardan ümumi məlumatlar əldə edilmişdir. XVIII əsrin sonu, XIX əsr və XX

əsrin əvvəllərində Şamaxı qəzasında məşhur olmuş xanəndələr – **Məşədi Kərim, Qoçu Zakir, Solaxay Mürşüd, Şikəstə Qasım, Xanəndə Sahab, Məşədi Əkbər, Uzun İsmayıl, Zilxan Alı, Mirzə Məhəmmədhəsən (Nalə), Soltan, Həsən Çəp, Xiləli Qasım, Quşçu Məmməd, Mirzə Tağı, Mehdi Nağı oğlu, Məbud, Şükür İsa oğlu, Mirzə Güllər, Sarənc Zeynal, Şamlı Nurməmməd, Məşədi Tapdıq, İbrahim Babaş oğlu** və b. haqqında arxiv sənədləri və yaddaşlardan məlumat toplaya bilmişik.

Adlarını yuxarıda qeyd etdiyimiz istedadlı sənətkarlar arasında Qobustan torpağının yetirmələri də vardır. Düzdür, onlar əsasın Şamaxı xanlığı və Şamaxı qəzasının baş şəhəri Şamaxıda yaşamışlar. **Qoçu Zakir (Sündü elatı), Şikəstə Qasım, Xiləli Oruc (Xilə elatı), Mirzə Tağı (Cəyirli elatı), Mehdi Dadaş oğlu, Baba Ağakişi oğlu (Şıxzərli obası)** indiki Qobustan regionunun övladları olmuşdur. Ötən əsrin 50-ci illərindən günümüzə kimi bu bölgədə **Şamlı Soltan, Cəyirli Həbib, Kolanı Atamoğlan, Əliyusif Süleyman oğlu, Tofiq Babayev, Murad Sənəmoğlu** kimi el arasında böyük ad-san qazanmış xanəndə və aşıq xanəndələri[1] yetişmişdir.

Ümumiyyətlə, Azərbaycanımızın bir neçə bölgəsində, əsasən, Qarabağ, Şirvanda muğam sənəti daha çox inkişaf etmişdir. Muğam sənətinin bilicisi, muğam təşnələrinin həyat və yaradıcılıqlarının öyrənilməsi ilə bağlı ciddi tədqiqatlar aparmış F.Şuşinski. Şirvan muğam mühitinə yüksək qiymət verərək yazırdı: **"... Əgər Qarabağ Qafqazın konservatoriyasına, Şamaxı Qafqazın akademiyasıdır"**[2].

Bəli, hazırda bu akademiyanın onlarla sənət fədailəri - **Alim Qasımov, Əvəzxan Xankişiyev, Nemət Ərəboğlu, Zabit Nəbizadə, Nazpəri Dostəliyeva, Zeynəb Dostəliyeva, Maşallah Bəkirov, Elnarə Abdullayeva, Məmmədəli, Elburus Mirağa oğlu** və başqalarının səsi-sorağı artıq respublikamızın hüdudlarını da aşmışdır. Əminik bu istedadlar Şirvan muğam məktəbinin tarixi adət-ənənəsinin yaşaması, təbliği, genişlənməsi üçün əllərindən gələnləri əsirgəməyəcəklər... Qoy həmişə səsiniz yerində, kökündə olsun, Qobustan övladları...

[1] Şirvan aşıq mühitinin özəlliklərindən biri də aşığın məclisi ansanbIna idarə etməsidir. Ansanblın tərkibində xanəndə də olur. Aşıq xanəndəsinin, əsas vəzifələrindən biri aşıq dastan söyləyəndə ona ayaq verməkdir.

[2] F.Şuşinski. Azərbaycan xalq musiqiçiləri, Bakı, 1995, səh. 27.

# BALAQARDAŞ ŞİRİN OĞLU
# (1900-1987)

Yaxşı yadımdadır. Şirvan aşıq mühiti ilə bağlı 1980-1990-cı illərdə apardığım tədqiqat zamanı regionun onlarla yaşlı sənətkarları – aşıq, xanəndə, balabançı, dəmkeş və başqaları ilə görüşmüşəm. Həmin sənətkarlardan biri də cəyirli Balaqardaş kişi olmuşdur. O zaman Balaqardaş kişi 82 yaşında idi...

**Balaqardaşın dediklərindən:** "Mən gənc yaşlarından oxumağa başlamışam. Toylarda ağsaqqalların xahişi ilə çox oxumuşam. Mən Aşıq Abbasdan yaşca böyük idim. Amma sənətə həmişəlik bağlanmağımda o kişinin zəhməti çox olmuşdur. Onun da ustadı Aşıq Bilal olub. Mən özüm Aşıq Bilalın Şamaxıda keçirdiyi bir neçə toyunda iştirak etmişəm. O ustadın səsi-avazı, danışığı, yerişini sözlə ifadə mümkün deyil. Gərək gözlərinlə görəydin. O, kişininki həqiqətən Allah vergisi idi. 1920-ci illərdən bu günə kimi – altmış il ərzində Şirvan çox aşıqlar yetirib. Aşıq Bilal yol-yolacağını yaşadanlar çox olsa da, Aşıq Bilala tay olanını görməmişəm... İxtiyar yaşlı sənətkar kövrəldi... Tutqun səslə "Şikəstə" ifa etdi və dedi:

– Ustadım Abbas Aşıq Bilaldan, mən də ustadım Abbasdan öyrənmişdim... Hərəsi də özü kimi oxuyurdu"...[1]

Kərimov Balaqardaş 1900-cu ildə Cəyirli kəndində anadan olub. Gənc yaşlarından bağlanıb aşıq sənətinə. Həmyerlisi Aşıq Abbasa şagird durub. Sonra illərlə onun ansamblında Şirvan regionunda toylar yaraşığı olub. Özünün dediyi kimi, Şirvan aşıqlarının ifa etdiyi havaları və nağılların hamısını yerli-yerində öyrənmişdi. Şikəstələri oxumaq şakəri olub. Qırx ildən artıq xanəndəlik edib.

Balaqardaş Şirin oğlu 1987-ci ildə vəfat etmişdir.

# XANƏNDƏ HƏBİB
# (1916-1970)

Aslanov Həbib Abduləli oğlu 1916-cı ildə Cəyirli obasında anadan olub. Əvvəl ibtidai məktəbdə oxuyub, sonra isə yeddillik təhsil alıb.

Doğmalarının bir çoxu kimi atası Abduləli Zülfüqar oğlu da sinədəftər, hazırcavab və aşıq sənətinə qəlbən bağlı bir insan olmuşdu.

[1] B.Kərimovun xatirəsi şəxsi arxivimizdədir.



Aşıq Bilalın yaxın dostlarından idi. Çox zaman məclislərdə Aşıq Bilal Abduləliyə "Şikəstə" oxutdurardı. İnsafən Abduləli bu aşıq havasını ayrı cür oxuyarmış. Yaddaşlarda el şairinin təkcə bir qoşmasının möhür bəndi yurd sala bilmişdir:

***Abduləli düşüb eşqin felinə,***
***Fürsət düşüb nainsafın əlinə,***
***Gəl sən çıxma söz-söhbətin zilinə,***
***Bəxt oyaqsa, arzulara yetərsən.***

Aşıq sənətinə, saza, saz havalarına dərindən bələd olan Abduləli Aşıq Bilaldan saz kökləməyi və çalmağı da öyrənmişdir.

Belə bir ailədə doğulan Həbib atasına çəkmiş, lap uşaqlıqdan gözəl səsi olmuşdur. Elə Həbibin ilk ustadı da atası olmuşdur. Onu deyək ki, Həbibin anası Sürəyya Salman qızının da yanıqlı səsi olmuşdur. Deyilənə görə, yas məclislərində elə bayatı çəkərdi ki, səs adamın yeddi qatından keçərdi.

Canında-qanında musiqiyə dərin məhəbbət olan Həbib 16-18 yaşlarında artıq eldə ad-san çıxarmış, toy məclislərində el ağsaqqallarının məsləhəti ilə oxuyarmış. Məqsədi sənətə əməlli-başlı yiyələnmək idi. Bir dəfə fikrini Aşıq Abbasa açır...

Bir neçə il sonra müharibə başladı. Həbib davaya getdi. Müharibədən dönəndə Həbibin yaşı otuza çatmışdır. Ailələrini dolandırmaq üçün sürücülük sənətinə yiyələndi.

Artıq bu zaman Aşıq Abbas yenə Şirvan məclislərinin yaraşığı olmuşdu. Bu mühitdə öz yolu, öz dəsti-xətti, öz danışıq şirinliyi, nağıl söyləməsi, bir ayaq ritmi ilə bütün ansamblı hərəkətə gətirən Aşıq Abbasın sorağı bütün Azərbaycana yayılmışdır. Ansamblın üzvlərini say-seçmə sənətkarlarla çoxaltmağı özünə adət edən Aşıq Abbas Həbibin səsinin şirinliyini və bənzərsizliyini yaxşı bilirdi. Odur ki, Həbibi yanına çağırıb fikrini bildirir:

Həbib, mənim yaşım keçib, – deyə etiraz edir. Aşıq Abbas isə deyir:

– Həbib, sənətkara əsas səs lazımdır. O da səndə. Yol-yolacağa da bələdsən. Qalanları da mənim boynuma.

1952-ci ildən Həbib Aşıq Abbasın yanında xanəndə kimi fəaliyyətə başladı. O, 1960-cı ilə kimi xanəndəlik etdi.

El sənətkarı Həbib 1961-63-cü illərdə Poladlı kəndində yaşamış, sonra Əli-Bayramlının Muğan qəsəbəsində məskunlaşmışdır. Ömrünün sonuna kimi orada yaşamışdır. Aslanov Həbib 1970-ci il may ayının 19-da vəfat etmişdir.

## ATAMOĞLAN FƏTİYEV



Şirvan mahalında oxumaları ilə ad çıxaran istedadlardan biri də Atamoğlan Fətiyev olmuşdur.

Atamoğlan haqqında çox yazılıb. Mən də vaxtilə "Şamaxı" kitabına Atamoğlan dünyasından damla qədər xəbər verən bir məlumatı daxil etmişəm. Kitabın həcminə görə o zaman sənət fədaisindən ətraflı bəhs edə bilməmişdim. Amma sonrakı "Sənətdə yaşayan ömürlər"[1] kitabımda Atamoğlandan ətraflı söz aça bilmişəm...

**Haşiyə:** Atamoğlan Eynulla oğlu Fətiyev 1932-ci ildə Şamaxı rayonunun Dağ Kolanı kəndində anadan olmuşdur. Tərəkəmə ailəsində anadan olan Atamoğlan deyilənə görə, uşaqlıq illərində Girdə axtarmasında qoyun-quzu otaranda lap böyüklər kimi ağaca dirsəklənər, asta-asta zümzümə edərdi. Sonradan bu zümzümələr elə "faş" oldu. Yeri düşəndə, o, tay-tuşlarının sözündən çıxa bilmədi. Həzin səsi ilə onların könlünü oxşadı... Özü də ilk əvvəllər həmişə aşıq mahnılarını oxuyardı... O, 1949-cu ildə ailələri ilə birlikdə Sabirabad rayonunun Kolanı kəndinə köçdü. Atamoğlan orada bir müddət fəhlə işlədi.

**Gördüklərimdən:** Mən, Atamoğlanı toyda cəmi bir dəfə görmüşəm. İnstitutun axırıncı kursunda oxuyurdum... Xeyli qulaq asdım onun oxumalarına. Gördüm ki, Atamoğlan muğamlardan "Yetim Segah"ı oxuyanda ayrı cür coşur, sanki bütün varlığı təlatümə gəlir, səsi insan vücudunu lərzəyə gətirə bilən dərəcəyə çatır. Və muğama qulaq asdıqca dinləyici elə hesab edir ki, dərd-sər içində boğulan hansısa bir insan, asta-asta nəfəsini dərib imdad axtarır və ya doğmasını

[1] S.Qəniyev. "Sənətdə yaşayan ömürlər", Bakı, 1996.

itirən ana fələyi ittiham edir. Guya bununla dərdinə əlac tapacaqdır... Bu sehirli səs insanı Atamoğlan dünyasının ağuşuna alırdı. Onu əsrlərin keşməkeşlərinə səyahətə aparır – oradakı düzlük, doğruluq məmləkətini gəzdirərdi. Bir sözlə, o səs insan qəlbində olan kin, küdurət və paxıllıq hisslərinin üstündən xətt çəkər, məhv edərdi. İnsana yaxşı əhval-ruhiyyə, xeyirxahlıq kimi ülvi əməllər bəxş edərdi. İnsan o səsin sehrindən, daha doğrusu, Atamoğlan dünyasından ayrılandan sonra özündə bir yüngüllük, paklıq, təmizlik hiss edərdi. Bax, budur, Allah-təalanın insana bəxş etdiyi əvəzsiz səsin qüdrəti, hökmü!.. Belə bir səs sahibi idi Atamoğlan!..

O, bir müddət Sabirabad rayon mədəniyyət evində fəaliyyət göstərən ansambla daxil olur. İlk dəfə həmin ansamblın bir üzvü kimi 1957-ci ildə Bakıda keçirilən gənclərin ikinci festivalında çıxış edir. Münsiflər heyəti Ə.Bədəlbəyli, Ş.Ələkbərova, Ə.Sadıqov və b. onun oxuduqları mahnıları – "Cavan aşıq", "Bala nərgiz", "Ceyran" və s. bəyənirlər. Həmin mahnılar tezliklə lentə alınır!.. Nə yaxşı ki, yaxşılar var imiş!.. O, rəhmətliklərin xeyirxahlığıdır ki, iyirmi beş yaşlı Atamoğlanın bənzərsiz səsi günümüzə yadigar qalıb!. Radionun qızıl fondunda qalan bu lent yazıları Atamoğlan dünyasından günümüzə soraq verir!..

Atamoğlan 1960-cı ildə ailəsi ilə birlikdə Əli Bayramlı şəhərinə köçür. Orada da mədəniyyət evində çalışır. Həm də öz bənzərsiz səsi ilə el məclislərinin bəzəyi olur, Atamoğlan!... Bir qədər sonra Əli Bayramlıda da ara mahnıları "meydan oxuyanda Atamoğlan öz qərarını verir"... **Mən sənət meydanına gələn gündən sevilmişəm, ta bu günə kimi!... Adım el arasında həmişə hörmətlə çəkilib. İndi mən bu "uşaqlara" qoşulub bir tikə çörək xatirinə ara mahnıları oxuya bilmərəm. Axı mənim təkcə "Bala nərgizim", "Ceyran"la respublikaya səs salmışdı... İstəmirəm sənəti qurban verməklə qazanılan çörəyi! Sənət, sənətin qədrini bilənlər üçün müqəddəs olub və bundan sonra da müqəddəs olacaq. Yadınızda qalsın, hər hansı bir müsiqi alətində çala bilən, əlinə mikrofon alıb oxuya bilənlərin hamısına sənətkar deməyin... Həqiqi sənətkarlardan Mirzə Məhəmmədhəsən, Cabbar, Seyyid, Xan iyi** gəlməlidir!.." *(Bu yazını Atamoğlanın arxivindən mənə rəhmətlik Hüseyn müəllim vermişdir... Qəbri nurla dolsun –* **S.Q.***)*. Bəli, o gündən də Atamoğlan sənət dünyasına əlvida deyir!. Doğmalarının dediyinə görə, ondan sonra Atamoğlanı heç arayıb axtaranlar da olmur. Qədirbilməzlik isə bizim qanımızdadır!..

# TOFİQ AĞAXAN OĞLU
## (1932-2003)



**Tofiqin dediklərindən:** "Sənət aləmində qazandığım uğurlara görə üç nəfərə – gözəl, əvəzolunmaz xanəndə Əliyusif Qəniyev, istdadlı balabançı İzzətalı Zülfüqarov və qardaşım, Şirvan aşıq məktəbinin inkişafında xüsusi xidməti olan Aşıq Məmmədağaya ömrüm boyu borcluyam. İlk dəfə qardaşım da, mən də muğam aləminin sirlərini Əliyusifdən öyrəndik... Gözəl oxuyurdu, Əliyusif muğmlarımızı... Son dərəcə yanıqlı, nisgilli, təsirli muğam olan "Zəmin-xarəni", "Zabul-segah"ı Əliyusif kimi oxuyana hələ rast gəlməmişəm. Rəhmətlik Məmmədağanın "Segah"ında Əliyusif oxumağına bir yaxınlıq vardı...

İzzətalı Zülfüqarov qardaşımla gedirdi sənətə. Onu deyim ki, İzzətalı da ayrı cür çalırdı. Düzdür, indi o da mənim kimi sənətdən ayrılıb. Amma Şirvan aşıq sənətində ustadın ayrıca yeri var... Neçə il yoldaşlıq etmişik. Şahidi olmuşam, muğamlarımızı balabanda, zurnada elə ifa edirdi ki, şirinliyindən doymaq olmurdu. Deyəsən, mətləbdən uzaqlaşdım. İlk dəfə məni oxutdu, qulaq asdı, bəyəndi"...

Babayev Tofiq Ağaxan oğlu 1932-ci ildə Şirvanın musiqi beşiklərindən biri olan Cəyirli kəndində anadan olub. Orta məktəbi bitirib əsgəri xidmətdə olmuş və 1958-ci ildən ömrünü sənətə bağlayıb. Uğurları da çox olub Tofiqin... Neçə-neçə fəxri fərman, diplomlarla təltif olunub. O dövrdə respublikada keçirilən tədbirlərin fəal iştirakçısı olub. Moskvada, Orta Asiya, Leninqradda müxtəlif festivallarda iştirak edib.

**Tofiqin dediklərindən:** Təxminən, 4-5 ildir ki, sənətdən uzaqlaşmışam. Bəlkə fikirləşirsiniz ki, səsim yerində deyil. Yox, elə deyil. Bir qulaq asın, – deyib əlini qulağına atdı Tofiq, oxudu, bir "Mirzə Hüseyn Segah"ı elədi. Doğrudan da, səsi kökündə idi... Sonra sözə başladı:

– Məni sənətdən zaman, dövr uzaqlaşırdı. Biz aşıq, xalq mahnı-

[1] Tofiqin xatirələri arxivimizdədir.

ları, muğam oxuyan (əlbəttə, hərəmiz öz imkanı qədər) sənətkarlarla olmuşuq məclislərdə və sənəti də müqəddəs bilmişik. İndi toylara getmək üçün ara mahnıları, türk mahnıları bilmək vacib şərtdir. Yoxsa, toya gedə bilməzsən. Odur ki, mən o yolla sənəti ayağa verib çörək qazanmağı özümə sığışdıra bilmədim. Allah bir parça çörəyini əsigəməz. Odur ki, sənətdən uzaqlaşdım"...

Tofiq Babayev 2003-cü ildə – 61 yaşında dünyasını dəyişdi.

## AĞAƏLİ ƏRƏBOĞLU


Sağdan birinci

Ağaəli Əjdər oğlu 1947-ci ildə Ərəbqədim kəndində anadan olub. O, kənd səkkizillik və Nərimankənd kənd orta məktəbini bitirmişdir. Uşaqlıqdan musiqiyə böyük həvəsi və yaxşı səsi olan Ağaəli 1970-ci ildən sonra ömrünü musiqiyə bağlayır. Fikrini məlhəmli Aşıq Şahpələngə açır. Şahpələng onun səsini bəyənir və özünə şagird-xanəndə götürür.

Ağaəli ta 1976-cı ilə kimi Aşıq Şahpələnglə birlikdə el məclislərində, toylarda olur. O, həm də dövlət tədbirlərində yaxından iştirak edir, müxtəlif fəxri fərmanlarla təltif olunur. 1976-cı ildən sonra o el məclislərinə sərbəst-xanəndə kimi ayaq açır. Şamaxı regionunun bir çox kəndlərində yüzlərlə pərəstişkarlar qazanır, xalqın sevimlisi olur... A.Rəcəbov 1973-cü ildən bu günə kimi Ərəbqədim kənd klubunun müdiridir.

## MAŞALLAH BƏKİROV

Maşallahın oxumalarını ilk dəfə televiziyada, "Muğam axşamı" verilişində eşitmişəm. Özünəmxsus boğazı, səsi vardı. Heç kimə bənzəmək istəmir. "Segah"da yaratdığı şirinlikdən isə olmazdı...

Maşallahı toy məclislərində də görmüşəm, eşitmişəm. Sadə, təvazökar olduğu kimi də ciddidir. Hər hansı dəsgah sifariş veriləndə çətin bir səfərə hazırlaşan döyüşçü kimi ciddi olurdu. Oxuduğu zaman tamaşaçıların rəğbətini hiss edəndə, alqışlananda qələbə ilə qayıdan

əsgər kimi məğrur görünürdü. Özünün dediyi kimi, əgər oxuduğum muğam tamaşaçı zövqünü oxşaya bilirsə, bax onda sevinirəm ki, bu sənətin layiqli nümayəndəsi olacağam. Axı tamaşaçı gözündən sərraf ikinci bir tərəzi yoxdur sənətkarçın. Ən düzgün meyar el gözü, el sözüdür. Bu söz, göz isə el məclislərində qazandığın alqışlarla ifadə olunur.

Bəkirov Maşallah Sadıq oğlu 1959-cu ildə anadan olub. Orta məktəbi bitirəndən sonra A.Zeynallı adına musiqi məktəbini bitirmişdir. Sənətdə isə uğuru 12 yaşında olmuşdur. O vaxtı yerli mətbuatda "12 yaşlı müğənni" adlı bir yazı da dərc olunmuşdu... O, musiqi məktəbində muğam dünyasının sirlərini muğam ustadları Nəriman Əliyev və Hacıbaba Hüseynovdan öyrənmişdir.

Ustad xeyir-duasından sonra o, el məclislərinə sərbəst ayaq açmış, sevilmişdir... Və indi də sevilir və əminik ki, seviləcəkdir. Ona görə ki, Maşallahın heç kəsə bənzəməyən yolu, avazı və izi vardır muğam aləmində...

## QAYIT BİR EVİNƏ GƏL...

**(1952-1990)**



Şamaxı-Qobustanda 1980-90-cı illər arasında bir sənətkarın adı həmişə hörmətlə çəkilərdi. Balayar... Çox sevirdi muğamları, xalq mahnıları, bir də şikəstələri... Onun ifasında "Qobustan"ı, "Döymə Kərəmi", "Peşrev"lərin öz şirinliyi vardı. Aşıq olmasa da, aşıq mahnıları ilə ovsunlayırdı dinləyiciləri. Amma muğam və təsnifləri də yerli-yerində oxuyardı Balayar. Dinləyici alqışı isə ən böyük mükafatı idi. Yaxşı yadımdadı, toylarda görüşəndə həmişə deyərdi.

– Dinləyici alqışı mənim üçün hər şeydi. İnanın ki, onda həm məsuliyyətim artır, həm sənətə məhəbbətim çoxalır, həm də məni qınamayın, inanın ki, cavanlaşıram, səsim də kökündə olur...

Bəli, belə bir musiqi fədaisinin sorağı indi xatirələrdən gəlir. Deyəsən, heç səsi yazılan bir kaseti də qalmayıb. Bəlkə də haradasa

var. Amma kim soraqlasın... Şıxzərlidə onun ailəsi ilə – Bahar xanımla görüşdüm. Cavan olmasına baxmayaraq, saçları düm ağdı. Heç çox danışmaqla da arası yoxdu. Suallara kəlmə-kəlmə cavab verdi. Soruşmadım, amma hiss etdim ki, bu düm saçlar ürək ağrıları, Balayar dərdinin, Balayarsız günlərin həsrət yadigarıdır... 1990-cı ildə neçə-neçə məclislər yola vermiş, yüzlərlə pərəstişkarları olan, balalarının boyuna doyunca tamaşa edə bilməyən Balayar qəflətən vəfat etdi... Dörd qız balası olsa da, oğul həsrəti ilə getdi son mənzilə... Ölümündən bir neçə ay sonra oğlu oldu... Çoxları təəssüfləndi belə taleyə. Ən çox qovrulan isə ömür-gün yoldaşı oldu...

– Balayar, bizi vaxtsız tərk elədin. Bəlkə çarəsiz də olsa, buna dözə bildim. Oğluna ad qoymadan ölməyin isə son nəfəsimədək məni diri-diri yandıracaq...

***Su üzündə həsirəm,***
***Şələ deyil, həsirəm,***
***Qayıt bir evinə gəl***
***Sənsiz çox tələsirəm.***

Bəli, qismət beləymiş! Müğənni Balayar 38 yaşında dəyişdi dünyasını. Allah bilən məsləhətdi. Şükür birliyinə, böyüklüyünə...

## ...XANƏNDƏ ƏVƏZXAN – AŞIQ ƏVƏZXAN...

Mənim fikrimcə, aşıq səsi ilə xanəndə səsi eyni deyildir. Allahtəala bu xoş qisməti qıydığı insanların səs, avazında müəyyən fərq qoymuşdur. Məncə, aşıq sənətində dolu (qalın), bütöv, tavar səs əsasdırsa, xanəndəlik sənətində isə bir qədər açıq (nazik), uzanan səs əsas hesab olunur. Şirvan regionunda çox vaxt belə ifadə işlədilir, " səsi aşıq səsi üçün yoğrulub". Bu ifadə nə vaxtsa səslərdə olan fərqləri ayırd edə bilən bilicilər tərəfindən söylənmişdir. Rəhmətlik Şakirin ifasında həm aşıq havalarını, həm də muğamlarımızı dəfələrlə dinləmişəm. Hər iki sahəyə dərindən bələd olan sənətkarın oxumaları aşıq havalarında daha tutumlu olurdu.

Əvəzxanın avazı xanəndəlik səsi (belə demək mümkünsə) ilə aşıq səsinin sintezidir, – desəm səhv etmərəm. Bu səsdə həm doluluq, tutumluluq, həm də açıqlıq, yumşaqlıq vardır...

Eşitmisinizmi, Əvəzxanın ifasında "Cahargah" muğamını və ya "Şirvan şikəstəsi"ni? Görürsünüzmü, bu oxumalarla səs bir-birinə nə qədər oxşayırsa, bir o qədər də fərqlənir. Oxunuşdakı fərq xanəndə səsi ilə aşıq səsi arasındakı fərqlərdir... Ona görə də xanəndə kimi sevilən Əvəzxana aşıq kimi hörmət olunur... Fikir vermisinizmi "Cahargah"dakı "Bəstə-nigar"la, "Şirvan şikəstəsi"nin arasında ayaq verilən "Bəstə-nigar"ı elə bil ki, ayrı-ayrı sənətkar ifa edir...


Əvəzxan kitabın müəllifi ilə

**Haşiyə:** Xankişiyev Əvəzxan 1949-cu il sentyabr ayının 22-də anadan olub. Orta məktəbi bitirəndən sonra Bakıdakı on iki saylı TPM-də təhsil almışdır.

**Əvəzxanın dediklərindən:** "Bu illərdə texniki peşə məktəbi şagirdlərinin musiqi baxışı keçirilirdi. Mən də həmin yarışda çıxış etməli oldum. Yaxşı yadımdadı. Yarışın sədri Əminə Dilbazi idi. Orada "Mirzə Hüseyn" segahı oxudum. Çıxışım alqışlarla qarşılandı. Nəticədə Əminə xanım birinci dərəcəli diplomu mənə verib təbrik etdi. Bu uğurum musiqiyə olan diqqətimi daha da artırdı...

...1968-ci ildə Şakirə yenidən "imtahan" verdim. Xoşuna gəldim. Məni öz dəstəsinə xanəndə kimi qəbul etdi. Bu müddətdə Aşıq Şakirdən çox şey öyrəndim – sənətin müqəddəsliyi, aşıq sənətinin böyüklüyü, adət-ənənələrimizə hörməti, səhnə mədəniyyəti, toyxana oturuşu-duruşunu, bir də Şakir sənətinin əlçatmazlığını. Onun səsi ayrı səs idi. Elə ki, Şakir toyxanada 3-4 dəfə cövlan vurdu, oğul deyirəm ki, onun səsinə, səs çatdırasan. Onda mənim ürəyimə dammışdı ki, belə bir sənətkar çox yaşamaz. Çünki o səs qibtə olunan, nəzər tutan, çoxlarının isə həsrətində olduğu səs idi...

Nə isə, ustad sənətkardan 1970-ci ildən ayrıldım"...

Bəli o gündən sonra Əvəzxan həm konsertlərdə, həm toy məclislərində öz səsi, avazı, zəngulələri ilə ad-san qazandı. Soraq əldən-ələ yayıldı. Respublikamızda məşhurlaşdı...

Ən böyük uğurlarını isə "İrs" folklor ansamblında qazandı. Za-

qafqaziya xalq folklor festivalının qalibi oldu. Orta Asiyada, Moskva, İsveçrədəki çıxışları isə yaradıcılığının qızıl payızını təşkil edir...

Əvəzxan neçə illərdir ki, Şirvan aşıq havalarına tez-tez müraciət edir. Sazda elə havalar çalır ki, gəl görəsən. Bu istək mərhum Aşıq Şakir sənətinə məhəbbətdən yaranmışdı. Sən demə, Şakirlə sənətə gedəndə, bu sənətin alovundan Əvəzxanın qəlbinə bir zərrə qığılcım düşübmüş. Həmin qığılcım böyümüş, ən nəhayət, onun varlığını aşıq sənəti alovuna bürümüşdür. Bəli, indi Əvəzxan vücudunda iki alov şölələnir; xanəndə və aşıq sənəti alovu. Deyəsən, son vaxtlarda aşıq sənətinin rəmzi olan alov daha bərk şölələnir. El məclislərində Əvəzxan daha çox oxuyur, Bilal, Şakir, Abbas yadigarlı Şirvan havalarını. Mən də istərdim ki, bu ustadların yaratdığı məktəb Əvəzxan səsi, avazı, sənəti və hünəri ilə yeni uğurlar qazansın...

## ŞİRVAN BÜLBÜLÜ



Mirzə Məhəmmədhəsən yadigarlı bir səs neçə illərdir ki, muğam dünyasında yeni-yeni zirvələr fəth edir, heç kimin aşa bilmədiyi aşırımları keçir, sıldırım əngillikləri fəth edir. Bu səsin sehrinə kimlər qibtə etməyib? Bu möcüzəli səs kimləri muğam dünyasına baş vurmaqdan çəkindirməyib? Bu sirli-sehirli avaz neçə-neçə unudulmaqda olan muğam şöbələrinə can-qan verib?! Ümumiyyətlə, bu səsin qüdrəti təkcə Azərbaycanımızda deyil, dünyanın bir çox – **Fransa, Almaniya, Fransa, Amerika, Türkiyə, Orta Asiya, İran, Ərəb ölkələrində** neçə-neçə musiqişünasları mat qoymuşdur. Dünya şöhrətli musiqişünaslar çox vaxt çaş qalıb – "insan oğlunda da bu gücdə, bu məlahətdə, bu qüdrətdə səs ola bilməz", – deyiblər.

Bu bir həqiqətdir ki, Alim muğamlarımızı elə-belə oxumur. Necə deyərlər, o, ecazkar səsi ilə hər muğam dünyasını səyahətə çıxır, gəzir-dolanır, o sirli-sehirli aləmi yaşayır, həm də özünəməxsus ifa tərzi, bənzərsiz səsi ilə o aləmdən söz açır muğam təşnələrinə,

özü də yana-yana. Daha doğrusu, Alim sanki "Mənsuriyyə" harayı ilə cövlana çıxır, "Segah" fəryadı ilə ağı deyir, "Şur" cəhcəhi ilə gözəlləri tərifləyir, "Rast" təmkini ilə məsləhət verir, "Hümayun" nəvazişi ilə qəlbləri ovsunlayır…

Alim Qasımov Qurbançı kəndində dünyaya göz açmışdır. Uşaq yaşlarından zümzüməni özünə adət etmişdi. Səsindəki yanğını, məlahəti görən valideynləri onun musiqi təhsili almasını məsləhət bilirlər. O, A.Zeynallı adına musiqi məktəbində məşhur xanəndə Ağaxan Abdullayevin sinfində oxuyur. Özünün dediyi kimi, Ağaxanın məsləhətləri ilə kifayətlənmir. Ustad Hacıbaba Hüseynov, tarzən Bəhram Mansurov, xanəndə Yaqub Məmmədovdan da məsləhətlər alır. Onların oxuma və çalğıları cavan Alimi çox mətləblərdən xəbərdar edir… Uğurlarını saymaqla qurtarmaq olmaz Alim Qasımovun… 1983-cü ildə Səmərqənddə keçirilən Şərq musiqisi üzrə Beynəlxalq Simpoziumu… "Fransada qazandığı uğurlar… Amerikalıları heyrətə salan zəngulələr... İran, Ərəb ölkələri, Türkiyədə gül-çiçək çələngində qərq olması" və s...

...Alimin məclislərində çox olmuşam. Şamaxının Göylər kəndindəki bir məclisi heç yadımdan çıxmaz. Təxminən, iyirmi il əvvəlin söhbətidir. Alim Göylər kəndinə Əlövsət kişinin oğlunun toyuna gəlmişdi… Bu o zaman idi ki, Alim hər gün bir eldə, bir regionda toyda olurdu. (Artıq o, toylara getmir…). İstər Bakıda, istərsə başqa regionda yaşayan adlı-sanlı xanəndələr də etiraf edirlər ki, Göylər kəndində hər sənətkar baş çıxara bilməz. Bu kəndin insanları muğam təşnəsidir. Xanəndəni dinləməklərindən də olmaz! Həmin məclisdə azı 300-400 nəfər iştirak edirdi.

…Alim məclisi "Cahargah" muğamı ilə başladı. Nə başladı. Hamı kimi mən də düşünürdüm… İlahi, şükür böyüklüyünə, bu balaca bədəndə belə zil səs hardandır? Ən maraqlısı o idi ki, zilə qalxanda üzündə, boğazında bir əziyyət, çətinlik çəkdiyi hiss olunmurdu... Bir azdan Alim ötən əsrin əvvəllərində yaşamış, muğam ustası Mirzə Məhəmməd Həsənin şakəri olan "Şur" muğamını başladı… Onu da deyim ki, məclis əhli inanın ki, süfrəyə əlini uzatmamış. Hamını Alim "Şur"u ilə sanki möcüzəli bir aləmə səyahətə aparmış, zil səsinin sehri ilə onları ovsunlamışdır... Şur"un mayəsi, **"Səlmək", "Hacı Yuni"** bir-birini əvəz etdi. **"Şuri-Şahnaz"** başladı, İlahi, şükür böyüklüyünə! Necə möcüzələrin var!.. Alimin bu şöbədə vurduğu zəngulələr, etdiyi xırdalıqlar mənim yaddaşımı lap uzaqlara apardı… Sufi dərvişlərinin çal-çağırlı bir aləminə. Mənə elə gəlir ki, Alimin səsindəki zillik,

*məlahətli avaz, oxunuş tərzi, coşması sufi dərvişlərinin dünyasından* soraq verir. Ola bilsin ki, sufi, dərviş sözləri oxuculara bir təhər görünsün. Amma, unutmaq olmaz ki, sufi dərvişi olan kəs – Şərq ədəbbiyyatı, fəlsəfəsi, dini, klassik muğamları, ədəbiyyatı, bütün incəlikləri ilə bilməlidir. Belə bilikli insanda zilxanlıq da əsas şərtdir... Bax, saydığım bu keyfiyyətlərin hamısı Alim dünyasında bir-birini tamamlayır... Bəli, Alim oxuyurdu, yana-yana oxuduğu üçün məclis əhlin də odsuz-ocaqsız, nəfəsinin alovu ilə yandırdı. Yaxşı yadımdadır, musiqi duyumu olub alışanların ürəyini ixtiyarsız olaraq gözlərindən süzülən göz yaşları bir az sərinlədirdi. Məclisdəki ixtiyar yaşlılar, "Buxara" papaqlılar da muğamın **"Zil Bayatı-Qacar"** və **"Şikəsteyi-fars"** şöbələrində Alimin zil səsi ilə ifa etdiyi İsmayıl peyğəmbərin şəninə düzülmüş mərsiyəni eşidəndə özlərini saxlaya bilmədilər, dodaqları səyridi, alın qırışları düyünləndi, yorulmuş gözlərindən yaş süzülməyə başladı... Bu o an idi ki, Alim oxuduğu şerdə (mərsiyyədə) atası İsmayılı kəsmək istəyəndə, qurbanlıq qoç hazır olur. Əhli-məclis o vaxt dərindən nəfəs aldı ki, Alimin kövrək səsinin ritmi bir qədər dəyişdi, şerin məzmumuna uyğun səsləndi...

***Ağlar ikən gülüşdülər,***
***Göz yaşını silişdilər...***

Məclisin belə bir təlatümlü yerində Alimin ürək kövrəldən, insanın bütün duyğularına təsir edən zəngulәsi "Simayi-şəmsdə" cövlan vurdu, **"Zəmin-xara"**da alışıb-yandı, **"Hicaz"**, **"Sarəng"**də pərvazlandı. Ustad Mirzə Məhəmmədhəsəni xatırlatdı dinləyicilərə... Şirvan bülbülü Mirzəni -Naləni deyirəm.

Bəli, bu o zamanlar idi ki, hələ Azərbaycanımız müstəqillik qazanmamışdır. İndi isə artıq xalq artisti Alim Qasımov öz bənzərsiz səsi və məlahəti avazı ilə bütün dünyada məşhur olmuşdur. Amerika, Avropa, Ərəb ölkələri, Türkiyə, İran, Rusiya və b. məmləkətlərdə Alim yaxşı tanındığı kimi sevilir, təbliğ olunur. Onun haqqında kitablar yazılmış, dünya mətbuat səhifələrində yüzlərlə məqalə, müsahibələr dərc olunmuşdur. Özü də adlı-sanlı alimlər, musiqi biliciləri tərəfindən... Həmin ölkələrdə aldığı mükafat, təltiflərin sayını isə saymaqla qurtarmaq olmaz...

# MƏHƏMMƏDƏLİ ƏLİQULU OĞLU

Dostum, şair Ramazan Musayev təxminən, on beş il əvvəl məni Təklə kəndinə, oğlunun toyuna dəvət etmişdi. Toyxanaya çatanda "Mirzə Hüseyn Segah"ında yanıqlı bir səsin cövlan vurduğunu eşitdim. "Zalım balası" özü də şair Ramazanın tanışlarının dilinin əzbəri olan kövrək bir şerini oxuyurdu...

***Ramazanın bəxti yatıb haçaqdı,***
***Beş gün o da bu dünyada qonaqdı,***
***Tale döndü, qovuşmadıq o vaxtı,***
***Yollarımız ikiləndi, bağışla.***

Həmsöhbətimlə toyxanaya daxil olduq. Məclisdə əyləşdik. Masabəyi – söz sərrafı, bacarıqlı pedaqoq Heybət Şikarov idi. Mənim fikrim xanəndənin ürək ovlayan səsində idi. Səs doğrudan da, "Segah" üçün yaranmışdı. O, **"Mübərriğə"dən "Ərağa"** keçəndə məclisdən alqış səsləri qopdu. Doğrudan da, halal idi alqış səsləri ona. "Əraq"da xanəndənin yanıqlı səsinə mağardan çöldə müəyyən işlərlə məşğul olanlar da yığılmışdı... Heç kəs, əlini süfrəyə uzatmırdı. Dinləyicilər məlahətli səslə ovsunlanmışdılar... Ən nəhayət, o, özünəməxsus avazla **"Aşiqi-guş"** ilə muğama ayaq verdi. Dinləyicilərin alqışı toyxananı silkələyirdi...

**Haşiyə:** Şahverdiyev Məhəmmədəli Əliqulu oğlu 1951-ci ildə Şamaxı rayonunun Qurbançı kəndində anadan olmuşdu... Öz səsi-avazı ilə orta məktəbdə oxuduğu illərdən tanınmışdı doğma kəndlərində... Musiqiyə bağlılığı 1973-cü ildə onu Bakıdakı Asəf Zeynallı adına musiqi məktəbinin muğam şöbəsinə gətirib çıxartdı. Özü də Hacıbaba Hüseynovun sinfinə... Dörd il müddətində o, Hacıbaba kimi muğam sərrafından çox mətləbləri öyrəndi...

İlk uğuru isə həmin məktəbdə oxuduğu zaman – "Oxu bülbül" müsabiqəsində iştirakında olmuşdur. Müsabiqədə münsiflər heyəti ona I dərəcəli diplom verdilər. Bundan sonra neçə-neçə festivallarda fəxri fərman və mükafatlara layiq görülmüşdü Məhəmmədəli... Bəli, musiqi məktəbini bitirəndən sonra el məclislərinə ayaq açmaqla yüzlərlə pəristişkar qazandı, sevildi və indi də sevilir...

Hazırda Məhəmmədəli Azərkonsert Birliyində işləyir. Yeri gəldikcə öz bilik və təcrubəsini cavan müğənnilərə aşılayır, onlara dəyərli məsləhətlər verir...

**Məhəmmədəlinin dediklərindən:** "Uşaqlıqdan sevmişəm musiqini. Bilirsiniz ki, səs Allah vergisidir. Xoşbəxt o kəslərdir bu Allahın qıydığı nemətin qədrini bilir, onu qoruyur. Ondan öz xalqı, eli üçün istifadə edir. Cabbarın ixtiyar yaşında muğamları necə ifa etdiyinin televizorda yəqin ki,

siz də şahidi olmusunuz. Bax o kişiyə halaldır. Mən də cavan xanəndələrə həmişə iki şeyi – əvvəla, Allahın qıydığı o nemətli – səsi qorumağı, bir də başqa xalqların musiqisinə aludə olmamağı tövsiyə edirəm"...

## CAMAL KAMAL OĞLU



Camal Kamal oğlu Dadaşov 1951-ci ildə Mərəzə rayonunun Şıxzərli kəndində anadan olmuşdu.

Bələd olanlar bilir ki, Allah-təala bu kəndə neçə-neçə gözəl səsi-avazı olan insanlar-sənət təşnələri bəxş etmişdir. Havasından, suyundan və ya soyadlarındandır, bilmirəm?! Bir onu bilirəm ki, bu kənddən olan aşıq, xanəndə, müxtəlif musiqi alətlərini ifa edən istedadların sayı **otuz nəfərdən** artıqdır. Maraqlısı odur ki, bu kənddə elə adam tapılmaz ki, xalq mahnıları, muğamların bir çox şöbələrini öz yerində, öz kökündə ifa edə bilməsinlər. Vay o sənətkarın halına ki, kəndə gələ, səsi kökündə olmaya. Onda sənə oğul deyərəm ki, Şıxzərlidə toy edəsən. (Halbuki, bir çox yerlərdə səs yerindədir, yerində deyil, heç əhəmiyyət verən də olmur). Şair Rəfi, balabançı Musa, Aşıq Mahmud, Aşıq Əvəz, Aşıq Abbas, xanəndə Zabit, Balayar, Elburus, balabançı Mirağa bu kəndin istedadlarındandır.

Bax, xanəndə Camal da bu kənddə boya-başa çatmışdı. Uşaqlıqdan vurulmuşdu sənətə. Dediyi kimi, 7-8 yaşında kənddə olan toylarda aşıqların çənəsinin altını kəsdirib gecə yarısına kimi oturarmış. Bir qədər sonralar musiqi aşiqi əmisi oğlu Qasxanın aldığı plastinkaları oxutmaqdan yorulmazdı.

Onun sənətə gəlişi aşıq musiqisinə olan məhəbbətindən doğmuşdu. Orta məktəbi qurtarandan sonra bir müddət Şirvanın ustad sənətkarları – Aşıq Əliağa, Aşıq Əvəz, Aşıq Mahmud ilə yoldaşlıq etmiş, musiqiyə daha da bələd olmuşdur. Aşıq sənətinə bələd olması bu gün oxuduğu "Şikəstə", "Peşrev"lərdə çox aydın görünür. İnsan doymur onuni oxuduğu "Şikəstə"lərdən...

Camalın iştirak etdiyi toy məclislərində çox olmuşam. Hiss eləmişəm ki, o, el məclislərində həmişə xalq mahnıları, muğamları ifa etməkdən özü də ləzzət alır. Ara mahnıları ilə arası yoxdur. Elə ona

görədir ki, Şamaxı-Qobustanda Camalın öz pərəstişkarları vardır – hamısı da aşıq və muğam sənətinə heyran olan, məhəbbət bəsləyən insanlar. Həmişə də o, insanların məsləhəti ilə məclislərə dəvət olunur. O, Azərbaycan muğamlarının bir çoxunu – **"Cahargah", "Şur", "Bayatı-Şiraz", "Heyratı"** və s. özünküləşdirə bilir. Özü də Xaqani, Nəsimi, Füzuli, Nişat, Seyid, Bixud, Vahid, Hacıbaba qəzəlləri ilə...

İnsafən deməkn lazımdır ki, Camal həmişə mənim iştirak etdiyim məclislərdə muğamları daha şirin oxuyur. Belə hallarda xanəndənin bənzərsiz, saqraq və məlahətli səsi insanın iliyinə qədər işləyirdi. Adəti idi muğamı qurtarandan sonra həmişə mənə baxır... Mən isə sözümün üstündə dururam... İlk tanışlığımız zamanı (təxminən on beş il əvvəl) mənim sifarişimlə oxuduğu "Heyratı" ürəyimdə elə yuva salıb ki, təsirindən indi də qurtara bilmirəm. Ona görə də onun mənə baxışına – "hə necədir" deməsinə, – asta səslə cavab verirəm; *"Heyrat"ın başqa aləmdir. "Heyratı"ndan olmaz, Camal!* "Heyratı"nı oxumursan, qardaş, o aləmdə inan ki, yaşayırsan, sanki dara düşürsən, nədənsə imtahan verirsən, el-obanı harayına çağırırsan...

***Mən aşiq dərdə qani,***
***Ariflər dərdə qani,***
***İçmişəm qəm şərbətini***
***Olmuşam dərdə qani.***

**Haşiyə:** Camal 1979-cu ildə A.Zeynallı adına musiqi məktəbinin muğam şöbəsinə daxil olmuş və 1984-cü ildə muğam sənətinin gözəl bilicisi Hacıbaba Hüseynovun sinfini bitirmişdi. Düzdür, bu vaxta qədər onun qazandığı uğurlar çox olmuşdu. 1961-ci ildə Şamaxıda keçirilən müsabiqədə iştirak edir və birinci yeri tutur. Özü də "Muğana ceyran" xalq mahnısı ilə... 1972-ci ildə rayonlararası keçirilən müsabiqədə yenə də birinci yeri Şamaxılılar tutur; Camal və Məleykə xanım (xanəndə Mələkxanım Əyyubovanın bacısı – **S.Q.**).

Onun ən böyük uğurlarından biri də 1981-ci ildə Gəncə şəhərində keçirilən respublika gənclərinin festivalında olur. Bu böyük baxışda Camal yenə öz sözünü deyir, – yarışın qalibi olur.

Ümumiyyətlə, muğam biliciləri – H.Hüseynov, H.Məmmədov, A.Abdullayev, A.Babayev, A.Qasımov Camal sənətinə yüksək qiymət vermişlər... Əlli yaşa əlvida deyib, altımışın behini almış Camal bu gün də el məclislərinin bəzəyidir...

# NAZPƏRİ ƏHMƏDALI QIZI



Respublikanın əməkdar artisti Nazpəri Şirvan aşıq mühitinin istedadlı sənətkarı Aşıq Əhmədalının ailəsində dünyaya göz açmışdı.

Atası, Şirvan aşıq mühitinin qüdrətli ustadı Aşıq Mirzə Bilaldan sənət dünyasının sirlərini əxz etmiş Aşıq Abbasdan dərs almışdı. El arasında sevilmiş, bəyənilmiş və ad-san qazanmışdı Aşıq Əhmədalı... Odur ki, Nazpəri ağlı söz kəsəndən özünü sirli-sehirli, çal-çağırlı Şirvan aşıq mühitinin ağuşunda görmüşdür. Uşaqlıq illərində atasının oxuduğu havaları ilk əvvəl yamsılamış, bir az sonra həmin nəğmələri gənclik eşqi, gənclik şövgü ilə oxumuş, daha sonra isə həmin mahnıları təkcə oxumamışdır, yaşamışdır və nəhayət, özünküləşdirmişdir...

Hazırda Nazpərinin repertuarını müxtəlif səpkili nəğmələr çələngi bəziyir. Amma cəsarətlə demək olar ki, Nazpəri xanım hansı sitildə oxuyur-oxusun, fərqi yoxdur. Onun məlahətli səsində – boğazında: xırdalıqlarında, bəmində, zilində, döndərmələrində bir məqam yerindədir – atası Aşıq Əhmədalıdan öyrəndiyi Şirvan aşıq mühitinin tamı, duzu, bir də şikəstələrin yanğısı, şirinliyi, bənzərsizliyi...

# ƏLİDADAŞ ƏLİMUSTAFA OĞLU



Çələbiyev Əlidadaş 1960-cı ildə Şamaxı rayonunun Ərəbşalbaş kəndində anadan olmuşdur. O, 1977-ci ildə kənd məktəbini bitirmiş, sovxozda fəhlə işləmişdir. Bu illərdə kənddə olan toy məclislərində həmyerlilərinin xahişi ilə oxuyar, dinləyiciləri feyziyab edərdi. O, 1979-1981-ci ildə hərbi xidmətdə olur. Hərbi xidmətdən qayıtdıqdan sonra o, Sabir adına sovxozun mədəniyyət evində dərnək rəhbəri və s. vəzifələrdə çalışır. Həm də xanəndəlik sənətini

davam etdirir. Rayonda keçirilən tədbirlərdə müntəzəm çıxış edir. Rayonun Təklə kəndində musiqi məktəbi təşkil ediləndə gözəl ifaçı sənətkar olduğu üçün onu məktəbə müəllim götürürlər. ... Bu illər Əlidadaş xalq musiqisi, muğamlarımız və aşıq havacatlarını böyük həvəslə gənc nəslə mənimsətməyə çalışmış, özü də böyük təcrübə qazanmışdır. Gözəl sənətkar, aşıq xanəndəsi Əlidadaş 2000-ci ildə avtomobil qəzasına düşür. Ondan sonra işdən çıxır, bir neçə müddət məclislərdən uzaq düşür.

**Haşiyə:** Əlidadaşın oxumalarını çox dinləmişəm. Gözəl və məlahətli səsə, avaza malik bir xanəndədir. Düzü, Şirvan saz havalarını daha yaxşı oxuyur, dinləyiciyə yaxşı çatdıra bilir.... Sənətdən uzaqlaşması məni də məyyus etdi... Bu il doğma Poladlı kəndində toya dəvət olunmuşdum. Nizam müəllimin oğlunun toyuna. Toyxanaya çatar-çatmaz valehedici bir səslə oxunan "Şirvan şikəstəsi" məni tutdu. Mağara daxil olanda Əldadaşın oxuduğunu görüb sevindim... Məni görən kimi daha da məsuliyyətli və yanıqlı oxumağa başladı... Səsi-avazı elə əvvəlki kimi idi...

– Əlidadaş səsin yerindədir. Sənətdən ayrılma, – dedim.

Kövrək səslə:

– Ayrılmaram, Hacı, indi yaxşıyam.

– Onda bir "Qobustani" oxu.

– Baş üstə...

Daha məsuliyyətlə girişdi "Qobustanı"ya. Onun yanıqlı səsi, şirin avazına qulaq asa-asa fikirləşirdim... Əlidadaşdan yaxşı aşıq olardı... Əfsus ki...

## ELNARƏ TAPDIQ QIZI

Elnarə ilə görüşməyi qərara aldım. Onu müşayiət edən tarzən Mehmangilə getdim. Pilləkənləri qalxmaq istəyəndə yanılqı bir təsnif məni ayaq saxlamağa vadar etdi. Səs mənə tanış idi. Elnarə oxuyurdu.

***Ay sona boylum, tər fidanım, tərlanım gəl,***
***Çəmənim, gülüm, dağ çiçəyim, reyhanım gəl.***

Özünəməxsus ifa tərzi ilə təsnifdən "Segaha" ayaq verdi Elnarə. Səsdəki tamlıq, yanıqlıq, saflıq, insan qəlbini ovsunlaya bilən sözlərlə yoğruldu. "Fələk" rədifli qəzəl bir anlığa insan fikrini lap uzaqlara,

dünyanın nağıllı, əfsanəli, sehirli bir aləminə apardı. Həmin aləmdə haqsızlığa, ədalətsizliyə, zülmə qarşı bir etiraz eşidilirdi. Özü də bu etiraz fələyə xitabən deyilsə də, əslində fürsətsiz adamlara qarşı idi...

***Neyləmişdim sənə, etdin məni biçarə, fələk,***
***Yaralı qəlbimə vurdun yenə bir yarə, fələk...***

Məlahətli səs, əsrarəngiz çalğı məni elə ovsunlamışdı ki, Aşıq Ağamuradın yanımda nə vaxt dayandığını hiss etməmişdim. Musiqi qurtaranda o əlini çiynimə qoyub dedi:

– Hacı, musiqiyə aludə olduğunu görüb, səni xəyaldan ayırmadım. Elnarə ayrı təbdə, ayrı ritmdə və ayrı cür oxuyur...

– Elədir, bayaqdan onun səsini, ləhcəsini heç kəsə oxşada bilmirəm. Bu səsin bənzəri yoxdur, aşıq...

Qapını döyüb içəri girdim. Nə görsəm yaxşıdır. Sən demə, burada "Beytüs-Səfa" məclisi üzvləri məşq edirlərmiş. Bizə də elə bu lazım idi.

**Haşiyə:** Abdullayeva Elnarə Tapdıq qızı 1972-ci ildə Şamaxının Çuxanlı kəndində anadan olub. Orta məktəbdə oxuyub, məktəbdə keçirilən tədbirlərdə, nəğmə dərslərində öz səsi ilə ad-san qazanıb. İstəyi onu 1990-cı ildə A.Zeynallı adına orta musiqi məktəbinə gətirib çıxarır...

Azərbaycan musiqisinin, muğam dünyasının bilicilərindən biri Ağaxan Abdullayevin sinfində oxuyub. Muğamın sirlərini ondan əxz edib. Bununla yanaşı Hacıbaba Hüseynov, Alim Qasımov kimi sənət korifeylərindən də çox mətləbləri öyrənib.

Elnarə xanımla görüşəndə ondan musiqiyə bağlılığı, vurğunluğu haqqında danışmasını xahiş etdim. O, bir az fikirləşəndən sonra dedi:

– Qadın üçün müğənni olmaq heç də asan deyil. O qədər söz-söhbət eşidirsən ki... Amma mən belə hesab edlirəm ki, yaxşı səs Allah vergisidir. Onu gizlətmək isə məğbul deyil...

Görəsən, məndən əvvəl yaşamış Mirzə Güllər, Minəbəyim və başqaları bu yolda hansı əziyyətləri çəkmişlər?

Bir az fikirləşəndən sonra Elnarə xanım dedi:

– Bütün muğamları ifa etmək mənim üçün xoşdur. Amma mənim üçün **"Şüştər"** muğamının öz hüsnü var. İlk əvvəllər bu muğamı ifa edəndə nəsə özümdə bir həyəcan, bir təlatüm hiss edirdim. Sonralar muğama tam bələd olanda hər şey mənə aydın oldu. Bildim ki,

"Şüştər" muğamının hay-harayla doluluğu, bir də oradakı haqsızlıqdan şikayət, ədalətsizliyə qarşı bir üsyan olması məni ovsunlayıbmış...

Bir qədər fikirləşəndən sonra mən də yəqin etdim ki, Elnarə xanım fikrində haqlıdır. "Şüştər" muğamında ifa olunan şöbələrdən biri **"Tərkibi-bidad"**dır. *Bu şöbədə həzin kədər, şikayət motivləri insan* ruhunu ehtizaza gətirir. Bir də ki, elə "bidad" sözünün lüğəti mənası **"haqsızlıqdan şikayət"** deməkdir. Elə muğamın o biri "Əmiri", "Şüştər" şöbələri də fikrimizə söykək durur.

Söhbətimizin bu məqamında Elnarə xanımdan "Şüştər"dən bir şöbəni oxumağı xahiş etdim. Elnarə başladı, nə başladı. Sanki o, bütün bədəni, vücudu ilə qovuşmaq istəyirdi "Şüştər"ə. Sanki məşuqindən cida düşmüş aşiq idi Elnarə. Onu muradından ayrı salanlara sanki yalvarırdı, bəzən də qəzəbini, nifrətini bildirirdi onlara...

***Getdi yarınan-səfa, bir qəmküsarım qalmadı,***
***Bu bütün dünyada qəmdi qeyri yarım qalmadı.***

Bəli, Elnarə xanım "Şüştər"lə bizi özümüzdən ayrı salmışdı. Muğam sona yetdi. Hamımız bir ağızdan "sağ ol", "yaşa" dedik.

Ən nəhayət, Elnarə xanımla görüşüb ayrıldım. Sanki bu 3-4 saat müddətində möcüzəli, nağıllı, dastanlı, bir adaya səfər etmişdim. Bu səfərdən hələ də qulağımda Elnarənin səsi, yaddaşımdakı hansı muğamın şöbələri arasında ifa etdiyi bir bayatının ürək kövrəldən sözləri qalmışdı...

***Mən aşiqəm yazı var,***
***Baharı var, yazı var,***
***İkimizin bəxtində***
***Qaranlıq bir yazı var.***

## ZABİT NƏBİZADƏ

Şirvanda xanəndəlik sənəti ilə bağlı apardığım araşdırmalar zamanı Azərbaycanımızın bir çox qüdrətli sənətkarları – C.Əkbərov, A.Babayev, A.Fətiyev, N.Dostəliyeva, M.Eyyubova, E.Abdullayeva, E.Cəbrayılov, S.Məmmədov, A.Qasımov, Ə.Xankişiyev, Z.Nəbizadə kimi bənzərsiz səs sahibləri, muğam təşnələri ilə çoxdan tanış olmuşam, bir çoxu ilə dostlaşmışam və indi də dostuq.

Bunların arasında mənə yaxın – sənətinə, insanlığına, ziyalılığına, bir də sadəliyinə hörmət bəslədiyim sənətkarlardan biri də **Zabit**



**Nəbizadədir**. Zabiti çoxdan, təxminən, 1990-cı illərdən tanıyarım. O zamanlar Zabit lap gənc idi. El məclislərinə sərbəst şəkildə təzəcə ayaq açırdı. Onunla ilk dəfə təsadüfən Şamaxıda muğam, aşıq sənətinə xüsusi hörmət bəsləyən Göylər kəndində bir toyda görüşdüm. İndiki kimi yadımdadır. O, məclisə daxil oldu, salamlaşdı. Məclis əhlinin çoxu tanımadı bu cavan xanəndəni. Zabit məclisi "Zabul segah"la açdı. Mənə belə gəldi ki, o, Göylər kəndinə birinci dəfə gəlsə də, Göylər dinləyiciləri barədə kimdənsə məlumat toplayıbmış. Çünki o, muğamın əzəmətli şöbəsi sayılan "Əraq" şöbəsində elə bir zilxanlıq etdi ki, dinləyicilərin alqışı toyxananı silkələdi. İkinci nömrədə Zabit "Bayatı-Kürd" oxudu. Məlumdur ki, bu muğama bir çox ustadlar – S.Şuşinski, Ə.Məmmədov özlərinə məxsus möhürlərini vurmuşlar. Özü də əsasən tarın zil pərdəsində. Məclisi tez ələ aldığına sevinən gənc xanəndə dinləyiciləri bir daha ovsunlamaq üçün muğamın şöbələri arasında **"Şur" köklü "Bayatı-əcəmə" ("Bayatı-türkə")** baş vurdu – "Şikəstə", "Dügah"ın "Dilruba", "Zəngi-şötör"unda elə bir oxumaq oxudu, gəzişmə etdi ki, məclis əhli tam ayağa durub Zabiti alqışlamağa başladılar... Həmin toyu öz oxumaları ilə muğam məclisinə döndərdi Zabit Nəbizadə... O gündən indiyə kimi dostluğumuz davam edir.

**Haşiyə:** Zabit Gülxan oğlu 1965-ci ildə Şıxzərli kəndində anadan olub. Orta məktəbi bitirəndən sonra görkəmli Şirvan sənətkarları ilə el məclislərində xanəndə kimi iştirak edir. Ən nəhayət, Zabit 1991-ci ildə öz arzusuna çatır – A.Zeynallı adına musiqi məktəbinə daxil olur. Görkəmli muğam ustaları – H.Hüseynov, C.Əkbərovdan dərs alır, muğamlarımızın sirlərinə daha da dərindən bələd olur. Dünya şöhrətli xanəndə Alim Qasımovdan aldığı məsləhətlər Zabitin kamil sənətkar kimi püxtələşməsinə əvəzsiz təkan verir.

İstedadlı xanəndə respublikamızda keçirilən bir çox müsabiqələrin laureatı, qalibi, eləcə də **İran, Türkiyə, Hollandiya, İsveç, Rusiya, Orta Asiya** və b. dövlətlərdə keçirdiyi konsert və qastrol səfərlərdə də müxtəlif mükafatlara layiq görülmüşdür.

Z.Nəbizadə hal-hazırda A.Zeynallı adına musiqi məktəbində

müəllim işləyir. Əminik ki, o, yeni-yeni uğurları ilə həmyerlilərimi – Qobustanlıları daha çox sevindirəcək...

## NEMƏT ƏRƏBOĞLU



Nemət Süleymanov 1966-cı ildə Şamaxı rayonunun Ərəbşalbaş kəndində anadan olmuşdur. Orta məktəbi bitirmişdir. Gözəl səsi ilə orta məktəb illərində müxtəlif tədbirlərdə iştirak edir. Sonra isə yavaş-yavaş toylara ayaq açır, tanınır, sevilir...

O, 1990-cı ildə musuqi məktəbinə daxil olur. Ondan imtahan götürən görkəmli sənətkarlar İ.Rzayev, Ş.Ələkbərova onun səsini bəyənirlər. Nəriman Əliyevin sinfinə qəbul olunan Nemət muğamlarımıza daha da dərindən bələd olur. Alim Qasımovla tanışlığı onu sənətini daha da kamilləşdirir.

**Haşiyə:** Neməti yaxşı tanıyıram. Məclislərində çox olmuşam. Oxumalarına çox qulaq asmışam. Nemətin özünəməxsus səsi var. Bu səsi-avazı tez ayırd etmək olur. Muğam tariximizdə "Kürdi-Şahnaz" muğamını Xan Şuşinski ifası ilə möhürlənmişdir. Ondan sonra bir çox istedadlı xanəndələr bu muğamı çox ifa etmişlər... Nemət də bu muğamı ifa edir. "Şur" kökündə ifa edilən bu muğam **"Şahnaz"**, **"Şəddi-şahnaz"**, **"Tərkib"** və s. şöbələrdən ibarətdir. Nemət məclislərdə bu şöbələri həmişə özünəməxsus həvəs, şövq və sevgili ilə ifa edir. Çalışır ki, muğamı ustad sənətkarlar səviyyəsində dinləyicilərə təqdim etsin... Ötən illər ərzində o bir çox müsabiqələrin qalibi olmuşdur.

Xalq mahnılarımızın gözəl ifaçısı Nemət Ərəboğlu bu gün də el məclislərinin bəzəyidir.

## ELBRUS MİRAĞA OĞLU

Elbrus Abdullazadə 1974-cü ildə Şamaxı rayonunun Şıxzərli kəndində anadan olub. Bu nəslin musiqiyə bağlı insanları çox olmuşdur. Odur ki, Elbrus gözünü açandan evlərində musiqi səsi eşitmişdir. Necə deyərlər – musiqi ilə yatıb, musiqi ilə oyanmışdır. Atasının – is-



tedadlı balabançı Mirağanın balabanda ifa etdiyi havalar, əmisi-ustad sənətkar Aşıq Mahmudun məlahətli səsi balaca Elbrus uşaq qəlbini ovsunlamış, onu musiqiyə bağlamışdır.

O, orta məktəbi bitirəndən sonra A.Zeynallı adına musiqi kolleci̇nə daxil olmuş və Zabit Nəbizadədən muğamların sirrini öyrənmişdir. Məktəbi müvəffəqiyyətlə bitirən Elbrus 2002-ci ildə Azərbaycan Milli Konservatoriyasına daxil olmuşdur. Burada da o, məlahətli səsi ilə təkcə respublikamızda deyil, dünyanın bir çox ölkələrində muğamlarımızı, xalq musiqimizi təbliğ edən, xalq artisti Alim Qasımovdan dərs alır. Konservatoriyanın ikinci kurs tələbəsi, 30 yaşlı Elbrus özünəməxsus ifa tərzi, səsi, avazı musiqi biliciləri tərəfindən bəyənilmiş, sevilmişdir...

**Haşiyə:** Ötən il respublika Aşıqlar Birliyi Bakıda "Şirvan aşıqları"nın konsertini təşkil etmişdir. Konsertin aparıcısı mən idim. Şirvanın bir çox dəyərli sənətkarları – **Aşıq Yanvar, Aşıq Abbas, Aşıq Əhliman, Aşıq Ağamurad, Aşıq Vüqar,** ustad balabançılardan Rasim, Natiq, Fərman, xanəndələprdən Ağapaşa Xəlilov, bir də Elbrus Mirağa oğlu dəvət olunmuşdu konsertə. İlk dəfə Elbrus həmin məclisdə dinlədim: səsi bal kimi, zili zilində, xırdalıqlar da qaydasında. Oxuduğu muğamlar və xalq mahnıları ilə ovsunlaya bildi tamaşaçıları. Alqışlardan zalın tavanı əks-səda verirdi. Gənc xanəndə bir neçə dəfə alqış sədaları altında yeni mahnılar oxumalı oldu... Elbrusun alnından, yanaqlarından süzülən tər damarları onun məsuliyyətindən, bir də içərisində sənətə olan yanğısından xəbər verirdi... Əminik ki, Elbrus Şirvan xanəndəlik sənətinin keşiyində həmişə ayıq-sayıq duracaq, öz sələfləri – Mirzə Tağı, Həsən Çəp, Mirzə Məhəmmədhəsən, Alim Qasımov məktəbinin layiqli davaçılarından olacaqdır.

## ÇİNGİZ CANMƏMMƏD OĞLU

Çingiz 1978-ci ildə Şamaxı rayonunun Yekəxana kəndində anadan olub. Uşaqlıqdan xoş avazı ilə tay-tuşlarının sevimlisinə çevrilmişdi. Yaşlı kənd sakinləri o səsi dinləyəndə həmişə deyərdilər:



– Torpağı sanı yaşasın. Babası Təfəkkülün səsidir ki, keçib nəvəsinin qanına, canına. O, 1988-ci ildə Bakı İncəsənət gimnaziyasının V sinfinə daxil olur. Həm də istedadlı sənətkar Tükəzban İsmayılovanın "Muğam" sinfində sənətin sirlərini öyrənir... Uğurları da bu vaxtdan başlayır...

Çingiz 1990-cı ildə bəstəkar O.Rəcəbovun "Göyçək Fatma" tamaşasında xoruz rolu ilə ilk sözünü dedi. İki il sonra – 1992-ci ildə o, "Yeni adlar" konsert-müsabiqəsində iştirak etmək üçün Moskvaya göndərildi. 16 müsəlman ölkəsi nümayəndələrinin iştirak etdiyi bu müsabiqədə 14 yaşlı Çingiz müsabiqənin qalibi, laureatı olur. Özü də bu uğuru "Heyratı" muğamı ilə qazanır. Elə "Səhər" qəzetinin 10 iyun 1992-ci il tarixli sayında "Həmyerlimiz qalib gəlmişdir" məqaləsində də Çingizin Moskvadakı uğurlarından bəhs olunur. Məqalədən məlum olur ki, bu müvəffəqiyyətə görə ona birillik - ayda 200 manat təqaüd təyin etmişdir.

Çingiz ən böyük uğurlarının birini də 1993-cü ildə Türkiyədə bir ay qastrolda olduğu vaxt qazanır. Qastrolda oxuduğu zərb muğamlar – "Heyratı", "Qatar", "Simayi-şəms" dinləyiciləri məftun edir. Dinləyicilərin çoxu 15 yaşlı "cocuğun" belə zil səsə sahib olmasına mat qalır... Ötən illər ərzində Çingiz sənət aləmində neçə-neçə uğurlar qazanmışdır.

Hal-hazırda Mərəzə qəsəbə musiqi məktəbində istedadlı gənclərin tərbiyyəsi ilə məşğul olan sənətkar həm də vaxtaşırı el məclislərində, konsertlərdə, musiqi müsabiqələrində iştirak edir. Əldə etdiyi uğurlara təkcə doğmaları deyil, bütün qobustanlılar sevinir.

# 5. MƏN AŞIQ BALABANI...

*"Balaban səsində olan həzinlik onu deməyə əsas verir ki, aqil babalarımız xalqın qəm-kədəri, ah-naləsini ifa etmək üçün icad etmişlər bu aləti..."*
*Aşıq Əhməd Rüstəmov*

... Heç yaz aylarında şəfəq söküləndə ömründə bircə dəfə də olsa, qara zurna "ilan dili" çıxarıb öz səsilə aləmi başına götürəndə ona qulaq asmısanmı? O səsi eşitməminsənsə, çox heyif!.. Səhərin təmiz havasını uda-uda xəyal insanı o musiqi sədaları altında haralara aparır, bilirsənmi? İnan ki, dərd-sərin "belin qıran" qara zurnanın şaqraq səsini dinlədikcə insanın ürək döyüntüsü, hətta damarında çırpınan qanının da səsi eşidilir. Təbii ki, bu zaman qulaqlarında Koroğlu nərəsi, Qırat kişnərtisi "cövlan etməmiş" olmaz!

Görəsən zurna sədası bu aləmdə niyə belə haray-həşirlidir? Nədir qara zurnanı fəğanə çəkən?! Mənə görə, bu haray aləmin yox, mənsub olduğu xalqın əsrlər boyu azadlığı uğrunda apardığı mübarizənin, döyüşlərin harayı-həşiridir! Belə olmasaydı, xalq yadellilərə qarşı mübarizədə, qara zurnanı özünə ilahi qüvvə hesab etməzdi. Axı, igidlərimiz, ərənlərimiz qara zurnada çalınan "Cəngi" sədalarında güc-qüvvət alıb döyüş meydanlarına atılmışlar...

***Hoydu, dəlilərim, hoydu,***
***Yeriyin düşmən üstünə.***
***Havadakı laçın kimi,***
***Tökülün al qan üstünə.***

***Qoyun bədövlər kişnəsin,***
***Misri qılınclar işləsin,***
***Kimi tənab qılınclasın,***
***Kiminiz bir xan üstünə!***

Məncə, qara zurna öz fikrini, sözünü şerdən daha zil deyə bilir "Cəngi" sədalarında! Yəqin ki, şübhə yeri də qalmır! Çünki çox zildir "Cəngi"nin sədası! Bu zilliyə ancaq qılınc, əmud, toppuz toqquşmaları nəfəs çatdıra bilər. Bir də ki, döyüşdə yaralıların hay-harayı, çığırtısı! Bir də ki, "oğul vay", – deyən anaların ürək kövrəldən qışqırıqla-

rı, bədahətən çəkdiyi ağılar! Ya da ki, cıdır meydanında köhlənlərin ayaqlarında par-par parıldayan gümüşü nalların arabir daşlara toxunduğu zaman çıxardığı səs yarada bilər o zilliyi! Bir də dəmirçilərin zindan üstündə yola gətirmək istədikləri sərt polad verə bilər o səsi!

Öz-özümə çox düşünüb, belə suallarla çox müraciət etmişəm. Görəsən, o səsi, o zilliyi ilk dəfə kim yaratmış, kim ifa etmişdir? "Cəngi" görəsən hansı əsrdə, hansı döyüş himni kimi yaradılmış və ya hansı döyüş üçün nəzərdə tutulmuşdur?! Müşkül və çətindir ki, belə ağır suallara dəqiq cavab vermək. Ona görə ki, neçə-neçə əsrlərdəki savaş meydanı, güləş meydanının şahidi olmuşdur "Cəngi" sədası! Bir həqiqət var ki, savaş da, güləş də, cıdır meydanı da insan oğlu yarandan yaranmışdı. Bəlkə də ilk dəfə Qobustandakı qaval daşında ifa etmişlər bu sədanı, harayı! Nə isə bilmək çətindir "Cəngi" harayının yaşını, yaranışını... Bir onu bilirik ki, tarixi mənbələrdə bu havanın sorağı lap uzaqlara gedib çıxır. Fərəhlənirik ona görə ki, öz soyadımız yaratmışdı o çalğını! Şükürlər olsun ki, ata-babalarımız günümüzə qədər yaşada bilmişlər zurna sədalı "Cəngi"mizi. Hansı alətdə çalınırsa çalınsın, məncə, **"Cəngi" zurnanın boyuna biçilib.** Təkcə zurnada yaratmaq olur o hay-harayı!..

XIX əsrdən Şirvanda **Mürsəl İbad oğlu, Məşədi Nuru, Əli Kərimov, Tapdıq Sadıq oğlu, Qara Soltan, Solaxay Sadıq, Allahverən Şıxı oğlu kimi ustadların ifasında çalınan** "Cəngi" XX əsrin son rübündə Qobustanda **İzzətalı Zülfüqarov, Musaxan Güləliyev, Ağaverdi Babayev, Mirbaba, Mirağa, Sədi Seyidov** və başqalarının çalğısı, nəfəsi ilə günümüzə çatmışdır. Və bundan sonra da el soraqlı ustadların şagirdləri yaşadacaqlar onların yadigarlarını. Zurnanın da neçə-neçə növləri olmuşdu: **asəfi zurna, ərəbi zurna, əcəmi zurna, qara zurna, cürə zurna** və s. Hər birinin oxşar cəhətləri ilə yanaşı fərqi də vardır. Bizə daha doğma olanı **qara zurnadı...**

**Bəs balaban necə?!** Yastı balabanı deyirəm. Doyunca eşitmisənmi onun səsini?! Çətin ki, hamı eşitsin də. Gitaranın, ionikanın meydana atıldığı bir zamanda az eşidərsən yastı balabanı. Eşitməmisənsə, heyif!.. Yox, əgər eşitmisənsə, o zaman səndə fikir yaranmayıb ki, nə deyir bu yastı balaban?! Və səndə belə hiss yaranmayıb ki, bu həzin səs ilk dəfə görüşə gələn aşiqin pıçıltısı, yaxud istəklisinin görüşə gec gəldiyi üçün inciyən bir gözəlin nazlı səsi deyilmi?..

*Mən aşiq göz də qara,*
*Kababım közdə qara,*

*Yollarına baxmaqdan*
*Qalmayıb gözdə qara.*

Qoyun ovşarının səsini xatırlayırsanmı? Süd sərincə tökülən zaman çıxardığı səsə "qardaş" deyilmi yastı balabanın səsi?!

*Nənəm qoyun gəlini,*
*Oşara gəlməz yelini,*
*Səni sağan gəlinin*
*Qucum incə belini.*

Gecə yarısına qədər beşik başında yorğun ananın mürgü vuran kiprikləri qapana-qapana zümzümələrini eşitmisənmi? Necə üst-üstə düşür bu zümzümə yastı balabanın səsi ilə…

*A lay-lay, butam, lay-lay,*
*Qardaşım, atam, lay-lay,*
*İntizaram, yatasan,*
*Mən də bir yatam, lay-lay.*

Gecənin lal sükutunda çayın sakit axarının, həzin səhər yelində ağacların yarpaqlarının pıçıltısı, ilan ağızlı dəryazın yaşıl otların arası ilə şütüyərək çıxardığı səs yastı balabanın səsi deyilmi?! Görürsən, bu aləti icad edən, onda kövrəklik hissi yaradan babalarımız hansı qüdrətin sahibi olublar?!

Xalqımızın istedadlı övladları bu alətlərdə musiqi sərvətimizi ifa etmiş, qorumuş, yaşatmış və günümüzə qədər çıxartmışlar… Ustadlara min rəhmət!.. Ötən əsrdən gürümüzə qədər **Şirvanda yaşamış balaban çalanlarının sayı yüz əlli nəfərdən artıqdır.** Əfsus ki, bu sənət təşnələrinin hamısı haqqında məlumat yoxdur. **O da həqiqətdir ki, XIX yüzilliyin sonundan günümüzə qədər Şirvan zurna-balabançıların hamısı, demək olar ki, ustad Əli Kərimovun "çalğısından çıxmış", ondan xeyir-dua alıb el məclislərinə ayaq basmışlar. Odur ki, hazırda bu ulu sənəti Şirvanda yaşadanların hamısının çalğısında Əli dayı yanğısı, nəfəsi, xalları duyulur, seçilir və vardır…**

Qobustan regilnunda da belə istedadlar çox olmuş və indi də vardır. Hər birinin də sənəti bir aləm…

Bəli, əziz dostum, yolun Qobustana düşsə, haqqında bəhs etdiyim sənətkarların heç olmasa sağ olanlarını axtar tap, qulaq as çalğıla-

rına. Tək onda biləcəksən ki, yazdıqlarım o ifalar, çalğıların heç yüzdə birini də demir. Və ondan sonra vurulacaqsan zurna-balaban səsinə, avazına... Dostum Höccət Paşa gör nə yaxşı deyib:

*Səndə bu cür haray salmaq,*
*Nə adətdir, qara zurna?*
*Quş dilini duya bilmək,*
*Səadətdir, qara zurna.*

*Səsin göyə milləlndə,*
*Bəmlənəndə, zillənəndə,*
*Dilə gəlib dillənəndə,*
*Dəyanətdir, qara zurna.*

*Nəfəs alar o insandan,*
*Çox cuş etsə, olluq candan,*
*Nuh Nəbidən, Süleymandan,*
*Əmanətdir, qara zurna.*

*Dərya kimi aşıb-daşan,*
*Gözəlliyi görüb coşan,*
*Bu nəğməni sənə qoşan,*
*Bil Höccətdir, qara zurna.*

## MİRBABA ŞİRALI OĞLU (1910-1977)



Bəhrəmov Mirbaba 1910-cu ildə Bədəlli elatında anadan olmuşdur. Köçəri elatda doğulub boya-başa çatan Mirbaba ailələri ilə yayda allı-güllü yaylaq, payız girəndən ta yazın ortalarına kimi qışlaq həyatının qoyununda yaşayırdı. Doğmalarının dediyinə görə, uşaqlıqda qarğı-qamışıdan düzəltdiyi alətdə aşıq havalarını "əyri-üyrü" çalan Mirbaba bir müddət sonra atasının Şamaxı bazarından alıb gətirdiyi tütəkdə bu havaları daha yaxşı çalmağı öyrənir. Obalarında toy olanda balabançıların

çənələrinin altını kəsdirib, onları toy qurtarana kimi dinləyirdi... Bir dəfə Hacı Müseyibin oğlunun toyunda Əli Kərimovdan xahiş edirlər ki, Mirbabanı dinləsin. Mirbaba əvvəl öz atasının aldığı tütəkdə, sonra isə ustad Əli kişinin yastı balabanında bir neçə hava çalır. Əli kişi onun çalğısını bəyənir. Həmin vaxtdan sonra Mirbaba balaban əldə edib, sənəti dərindən öyrənir. Ötən əsrin 30-cu illərində Aşıq Abbasla tanışlığı onu ömürlük sənətə bağlayır...

Böyük Vətən müharibəsində iştirak edir. Yaralanıb geri qayıdır. Böyük Vətən müharibəsi qurtarandan sonra yenidən sənətə gedir. Cəyirli Aşıq Abbas, Naburlu Aşıq Şirsoltan, Aşıq Əliağa, Aşıq Əhmədalı, Aşıq Barat, Məlhəmli Aşıq Şakir və b. ilə yoldaşlıq etmişdir. Onu tanıyanların dediyinə görə, Kalvalı Əli ilə dost olduğu üçün ustadın repertuarını tamamilə mənimsəmişdir. Klassik havaların bir çoxunu - **"Zil gəraylı", "Şikəstə"lər, "Peşrev"lərlə yanaşı, "Segah"** muğamını da balabanda ayrı cür ifa edirmiş.

İstedadlı sənətkar Mirbaba Şiralı oğlu 1977-ci ildə vəfat etmişdir.

## ƏMİRXAN ƏHMƏD OĞLU
## (1916-1978)

Ömərov Əmirxan 1916-cı ildə Şamaxı qəzasının Nabur kəndində doğulmuşdur. O, kənddə böyük ziyarətgah olan Sarı pirin nəslindəndir. Uşaq yaşlarında əldə düzəltdiyi tütəkdə aşıq havalarını çalmağı öyrənir. Gənc yaşlarında atasının aldığı balabanda sənətini təkmilləşdirir. İlk əvvəl həmyerlisi Aşıq Hümbətlə məclislərə ayaq açır. Sənətin sirlərinə yiyələnir. Demək olar ki, uzun bir müddət Nabur kəndində olan toyları Əmirxan çalır. Bundan əlavə, Şirvan aşıq sənətinin Aşıq Bilaldan sonra - XX əsrin 40-60-cı illərində ustad sənətkarı sayılan cəyirli Aşıq Abbasla yoldaşlığı onun sənətini daha da təkmilləşdirir. Əmirxan Əhmədoğlu **Aşıq Soltanmurad, Aşıq Şirsoltan, Aşıq Əhmədalı** ilə vaxtaşırı el məclislərində iştirak etmişdir. Bir çox gənc balabançalanların yetişməsində Əmirxan Əh-



məd oğlunun böyük əməyi olmuşdur. O, indi də ustad sənətkarlar tərəfindən hörmətlə xatırlanır.

## ŞAMLI YANĞISI VAR ÜRƏYİMDƏ... (1925-1999)



...Müəllim, deyəsən, insan qocalanda lap kövrək olur. Nəyə görəsə, ixtiyar yaşında insan harada olursa-olsun doğma yurdundan ötrü burnunun ucu göynəyir. Bizi müharibədən sonra "başbilənlərin" məsləhəti ilə ata-baba yurdumuzdan – Şamlı kəndindən uzaqlaşdırdılar. Poladlı, Qubalı kəndindən bir insan görəndə doğma ata-baba ocağının iyini alıram. Sən çox uşaqsan. Mənim o yerlərdə neçə-neçə xatirələrim vardı. Uşaqlıqda kəndimizin yuxarı tərəfində olan dağa çıxardım. Qamışdan düzəltdiyim tütəkdə hər hansı bir havanı çalanda elə bilirdim ki, göyün yeddi qatına çıxmışam... Bizim ata-babalarımızın qəbri də ordadır. Əvvəllər tez-tez gedərdim o yerlərin ziyarətinə, indi isə qocalıq əl vermir. Yaman darıxıram o yerlər üçün... Çalğımda olan Şamlı niskili deyəsən, bir az da çoxalıb. Bir qulaq as... Ustad "Zarıncı" başladı. Gözünü yumdu, inan ki, balaban dil açıb, Aşıq Xanmusanın yurd istəyi ilə yana-yana düzdüyü şerləri ağlaya-ağlaya ifa edirdi, "söyləyirdi"...

*Mən aşığam yurd ağlar,*
*Dayan dağlar, dur dağlar,*
*Köçüb yurdun yiyəsi,*
*Torpaq küsüb, yurd ağlar.*

*Mən aşıq girdə sinə,*
*Ağ buxaq, girdə sinə,*
*Qoy baxım Şamlı taydan,*
*Kolanı Girdəsinə.*

Ustadın yanaqlarına süzülən yaş çox əlavələr edirdi çalğısına... Fikirləşirdim, görəsən bu yanğıdan o balaban və qəmişdən olan dili niyə alışmır, yanmır? Sualın cavabı ustadın çalğısı ilə mənə çatırdı.

Niyə dəmiri əridən kürrə özü yanmır, alışmır? Ona görə ki, o alışdırandı, yandırandı. Balaban da belədir. Onu duya bilənlərin qəlbini alışdırır, yandırır... Ən nəhayət, ustad çalğısına ara verdi:

– Siz Allah, məni qınamayın, deyəsən, sizi də kövrəltdim. Yəqin ata-babalarımla qonşu olduğuna görədir. Hiss edirəm ki, ixtiyar yaşımda Şamlı yanğısı ürəyimi daha çox yandırır. O yanğını ancaq balabanın dili ilə yaxşı deyə bilirəm...

Ustadı daldığı aləmdən ayırmaq məqsədi ilə onu xoşbəxt, qayğısız, uşaqlıq, cavanlıq günlərinə qaytarmağı qərara aldım:

– İzzətalı əmi, Şamlı sənətkarları haqqında danışın:

– Bilirsiniz ki, Şamlıda neçə-neçə aşıq, xanəndə, balabançalanlar olmuşdu: **Xanbala, Rəhim, Cabbar, Cənnətalı, Nurməmməd və başqaları...**

Mən də aşıq havalarını ilk əvvəl ağzımla, sonra tütək, zurnada çalmağı öyrəndim. Atam əvvəl razılıq verməsə də, sonra özü məni ustad balabançı **Cənnətalıya** təqdim etdi. Onun yanında balaban sənətinin sirlərinə yiyələndim. Daha sonra **Ucarlı Kor İbaddan** çox şeyləri öyrəndim...

Bu illərdə çox məclislərdə dinləmişəm Əli kişinin çalğılarını. Belə qərara gəldim ki, ondan öyrənməsəm kamil sənətkar olmayacağam. Əli kişi məni şagird qəbul etdi. Bir daha yəqin etdim ki, bu kişi zurna-balaban sənətinin Fərhadıdır. Biz cavanlarla söhbəti zamanı həmişə ustadına – Allahverən Şıxı oğluna rəhmət oxuyardı. Əli kişidən çox şeyləri əxz etdim. Xüsusilə, muğam dünyasına onun vasitəsi ilə bələd olurdum. Mənim yaşda olanlar "Zabul"uma qulaq asanda deyirlər, – Əli kişinin nəfəsi duyulur çalğında. Ümumiyyətlə, biz Şirvan sənətkarlarının hamısı – **Həsrət Hüseynov, Mansur Rüstəmov, Qələmşah Quliyev, Ağasəf Seyidov, Manaf Məmmədov, Ağaverdi Babayev, Sədi Seyidov** və hətta bizim şagirdlərimizin də hamısı Əli kişiyə, onun yoluna, qoyub-getdiyi irsə ömrümüz boyu minnətdarıq...

**Haşiyə:** İzzətalı Zülfüqarov 1925-ci ildə Şamaxı qəzasının Şamlı kəndində anadan olub. 50 ildən artıq sənətə gedib. Özü də Şirvanın adlı-sanlı aşıqlarının hamısı – **Aşıq Şakir, Aşıq Pənah, Aşıq Şamil, Aşıq Məmmədağa, Aşıq Xanmusa, Aşıq Barat** və başqaları ilə. Bu sənətkarlar haqqında onlarla xatirələri vardır, İzzətalının. Özünün dediyi kimi, o istedadların hər biri məktəb idi. Sənət də, sənətkara hörmət də deyərdim ki, onlarla getdi. Bu günkü sənətkarlar məndən inciməsinlər, onların davranışı, oturuşu-duruşu və məclisi ələ almasında

*bir ağayanalıq vardır... Allah ölənlərinə rəhmət eləsin...*

Görüşümüzün sonunda ustad sənətkar üzünü mənə tutub dedi:

– Seyfəddin, ömrün uzun olsun bizləri arayıb-axtarırsan. Sənin üçün Əli kişinin çaldığı bir "Zabul"u çalmağa çalışacağam... Əvəzində sizdən bir xahişim var. Şamaxıya – Poladlıya gedəndlə bizim yurd yerlərini ziyarət eylə, qədim qəbiristanlığımızda uyuyanların ruhuna bir "Fatihə" oxuyarsan. Çalışacağam ki, Əli dayının dili ilə ürəyimdə olan Şamlı yanğısını, göynərtisini sizinlə bölüşüm, sizə çatdırım. Bəli, ustad "Zabul"u başladı. Yenə "Zarıncı" da olduğu kimi bu muğamda da mən bir həsrət, haray, yanğın gördüm. Bu yanğını ata-baba torpağından ayrı düşənlər, bir də balaban sənətinə ayrıca hörməti olanlar duya bilərdilər...

Çalğıya qulaq asa-asa ürəyimdə isə İzzətalının 20 ildən artıq sənətə birgə getdiyi dostu Aşıq Xanmusanın şerlərinin misralarını təkrar edirdim.

***Çəkməyənlər hardan bilər?***
***Cəfasını ayrılığın?***
***Axtaranlar tapaydılar,***
***Dəvasını ayrılığın.***

İstedadlı sənətkar 1999-cu ildə vəfat etmişdir.

## USDAD MUSAXAN
## (1934-1983)

Yaxşı xatırlayıram, 60-70-ci illərdə Şirvan kəndlərinin hər birinin özünün sevdiyi, nağıl söyləməsi, avazı və sənətinə rəğbət bəslədiyi aşıqları var idi. Bir-birinə qonşu olan – Poladlı, Udulu, Quşçu, Yekəxana kəndləri Aşıq Bəylər, Aşıq Barat, Aşıq Şakir, Aşıq Xanmusa və başqalarına xüsusi rəğbət bəsləyirdi. Poladlı kəndində isə Aşıq Xanmusanın xüsusi hörməti vardı. Ona görə ki, o nağılçı aşıq idi. Poladlı camaatı da nağıl vurğunu. Bu o zamanlar idi ki, Poladlıda Şirvan dastanlarını sözbəsöz əzbər bilən, Əliyusif, Rəhim, Tapdıq Əlpənah, Hüseynbaba kişi hələ dünyalarını dəyişməmişdi. Aşıq Xanmusa kəndə gələndə bu kişilərin gözləri gülürdü... Xanmusanın isə istedadlı balabançalanı Musaxan (bizim eldə hamı ona Musa dayı deyərdi) idi. Aşıq Xanmusanın nağıl dediyi vaxt bənzərsiz oyunu, bircə



barmağının işarəsi ilə ansamblı hərəkətə gətirməsi, Tufarqanlı Abbas kimi "zar-zar" sızıldaması, Kərəm kimi yanması, Ərəbzəngi kimi cövlana çıxması Musaxan çalğısı ilə birləşəndə ayrı bir aləm yaranırdı toyxanada. Sanki Musa çalğısı da ağlayırdı. Aşıq Xanmusanın yaratdığı obrazların halına, dərdinə. El ağsaqqallarının "sağ ol"unun, alqışlarının qədəri yox idi...

O vaxt Musaxanın Aşıq Xanmusa ilə dastanlarımızı belə söyləməsinin səbəbini bəlkə də dəqiq yoza bilmirdim. Bir qədər keçəndən sonra mənə aydın oldu ki, Musaxanın sənətə olan istəyi, yanğısı çaldığı balabanın fəryadı ilə ifadə olunurmuş. Sən demə o, çala-çala içərində həm özü yanır, həm də pərəstişkarlarını yandırırmış... Elə ona görə də məclislərin birində - "Şirvan şikəstəsini" ifa edərkən dayandı ürəyi ustad sənətkarın...

Məclisdə aşığı müşayiət edəndə Musaxan dəyişir, anbaan başqalaşırdı. Çalğısının da ritmi, ahəngi ayrı cür olurdu. Sən demə, o özünü dastanın qəhrəmanı yerində bilirmiş.

Özü də nəyə görəsə, balabanda "Zarıncı"nı çalanda həmişə gözlərini yumar, necə deyərlər, öz dünyasına qapanırdı. Şirvanın balabançı sənətkarları indi də etiraf edirlər ki, Musaxan "Zarıncı"sını hamı çala bilməzdi, "Zarıncı" ancaq o kişinin şakəri idi... "İnsanı odsuz-ocaqsız yandırırdı o kişi "Zarıncı"da"...

**Haşiyə:** Güləliyev Musaxan 1934-cü ildə Şıxzərli kəndində anadan olub. İlk dəfə qarğıdan düzəltdiyi tütəkləri çalmaq, yavaş-yavaş zümzümə eləməklə yiyələnmişdi sənətinə... Musa dayının İzzətalı ilə tanışlığı sənətini daha da kamilləşdirir. Tez bir zamanda el məclislərinin bəzəyi olur... Özü də Aşıq Abbas, Aşıq Barat, Aşıq Xanmusa kimi qüdrətli aşıqlarla Respublikada, İttifaqda keçirilən çox tədbirlərdə iştirak edir. 1976-cı ildə Moskvada keçirilən mədəniyyət ongünlüyündən qızıl medalla dönür Azərbaycana... Sənətdə qazandığı uğurlara görə neçə-neçə mükafat, fəxri fərman və diplomlara layiq görülmüşdü Musaxan Güləliyev...

İstedadlı sənətkarın övladlarının bir neçəsi bacarıqlı sənətkar kimi hazırda Şamaxı – Qobustanda ad-san qazanmış, el məclislərinin yaraşığı olmuşdur.

Daha dəqiq desək, Musaxan yadigarlı Aşıq Abbas, Əlzaman, Abuzər kimi sənət fədailəri indi bütün şirvanlıların sevimlisinə çevrilmişlər...

# ALXAN ŞAHQULU OĞLU (1935-1991)

Alxan Şahqulu oğlu Vəliyev 1935-ci ildə Cəyirli obasında anadan olub. Atası Şahqulunun özü üçün düzəltdiyi tütək və balabanda çaldığı havalar Alxanın qəlbini lap uşaqlıqdan ovsunlamışdır... Sənətin sirlərini ilk dəfə atasından öyrənən Alxan sonralar balaban-zurna sənətinin tacı, Şirvan bülbülü Həsrət Hüseynova şagird durur. Daha dərindən öyrənir sevdiyi sənətin sirlərini.

Alxan Vəliyev Cəyirli kəndindən Muğan qəsəbəsinə köçmüş, sonra Hacıqabulda yaşamışdır. O, Şirvanın bir çox ünlü sənətkarları – **Aşıq Abbas, Aşıq Barat, Aşıq Şakir, Aşıq Məmmədağa**, eləcə də **Aşıq Xanmusa, Aşıq Cəlal, Aşıq Bəybala** ilə uzun illər yoldaşlıq etmiş, toy-mağaraların bəzəyi olmuşdur. 1964-cü ildə Azərbaycan aşıqları qurultayının nümayəndəsi olan Alxanın zəhməti-ifası müxtəlif mükafat, fəxri fərmanlara layiq görülmüşdür. Festival laureatı, klassik balaban-zurna havalarının mahir ifaçısı özü də neçə-neçə rəqslər (**"Rəsmiyyə", "Durdanə"** və s.) bəstələmişdir. Onun ifasında lentə alınmış bir çox havalar radionun qızıl fondunun əvəzsiz incilərindəndir. A.Vəliyev uzun illər Hacıqabul və Əlibayramlı mədəniyyət evində işləmiş, rayonda keçirilən bir çox tədbirlərin fəal iştirakçısı olmuşdur. Əvəzsiz çalğısı ilə sənət yoldaşları arasında xüsusi hörmət sahibi olan A.Vəliyev sənətinin kamil çağında, ifa etdiyi çalğılarından özünün də doymadığı bir zamanda – 1991-ci ildə dəyişdi dünyasını. Özü ilə neçə-neçə bəstələnməmiş havacatlar, sənət dolu xatirələr apardı Alxan. Yazıya isə pozu yoxdur...

# AĞAVERDİ ŞIXVERDİ OĞLU

Onunla ilk tanışlığım 20 ildən artıqdır... Cavan vaxtım idi. Ali məktəbi təzəcə qurtarmışdım... Ürəyim uşaqlıqdan vurğunu olduğu aşıq sənətini, musiqini öyrənmək, tədqiq etmək eşqi ilə alışıb-yanırdı. Kəndimizə toya aşıq gələndə (onda xanəndələr kəndlərə hələ ayağ açılmamışdır) hansı işim olurdusa təxirə salırdım. Hətta hökümət işi də olsa idi. Şifahi xalq ədəbiyyatı ilə məşğul olduğuma görə kəndimizin ağsaqqalları iştirak etdiyim toylarda məni danışdır-



mağa çalışırdılar. İndiki kimi xatırlayıram:

...Aşıq Barat günorta məclisini başladı. Balabanın çalğısı ilk anda məni valeh etdi. Balabançını tanımırdım. Həmsöhbətimdən onun kimliyini soruşdum:

– Ağaverdidi, yaxşı sənətkardı, özü də İzzətalı Zülfüqarovdan dərs alıb... Aşıq Baratın oxumaları ilə Ağaverdinin çalğısı inan ki, camaatı yuxuya vermişdi. Kim idi belə halda ağsaqqalların "qorxusundan" (bu qorxu deyildi, böyüyə hörmət, izzət idi) səsini çıxardan. Aşıq Baratın oxumaları ilə yanaşı Ağaverdi yanğısı, harayı məni də çox valeh etmişdi...

**Kiçik bir haşiyə:** Babayev Ağaverdi Şıxverdi oğlu 1935-ci ildə Mərəzə rayonunun Cəyirli kəndində anadan olmuşdur. 1956-cı ildən sənətə başlamışdır. O, öz çalğısını indiyə kimi neçə-neçə cavanlara mənimsədə bilmişdir. Ağaverdi Şıxverdi oğlu dəfələrlə festivallarda, respublika tədbirlərində iştirak etmiş, mükafatlara layiq görülmüşdür. Belə ki, o, həm də Azərbaycan aşıqlarının III qurultayının nümayəndəsi olmuşdur...

Bundan əlavə o, vaxtilə SSRİ-nin yaradılmsının 50 illiyinə həsr olunmuş festivalda birinci dərəcəli diplom, fəxri fərmanla təltif olunmuş, Böyük Vətən müharibəsi qələbəsinin 30 illiyinə həsr olunan zona-baxış müsabiqəsində də fəxri fərmana layiq görülmüşdü.

Ağaverdi indi də öz sənəti ilə el-obaya xidmət edir, öz çalğısı, öz yanğısı ilə...

## MİRAĞA ƏLƏSGƏR OĞLU...[1]

İstedadlı sənətkar Mirağanı da yaxşı tanıyıram. Çalğısındakı özünəməxsus ifa tərzi, yanğı, şirinlik insanı valeh edir. Kitabı hazırlayanda görüşməyi qərara aldım Mirağa ilə. Bir təsadüf nəticəsində Şıxzərli kəndinin istedadlı övladı, xanəndə Camalla görüşdüm. Birlikdə Mirağanın görüşünə getdik. Əvvəlcə qardaşı Aşıq Mahmudgilə gəldik. Məqsədimiz aşıqla bir yerdə dinləmək idi Mirağanı... Aydın oldu ki, o neçə vaxtdır Bakıda xəstə yatır... Allahdan şəfa arzulayıb Aşıq Mah-

[1] S.Qəniyev. Sənətdə yaşayan ömürlər. Bakı, 1996.

mudla söhbətə başladım, gəlişim məqsədini açdım... Bayaqdan fikirli



görünən Aşıq Mahmud hər şeyi unudub cəld ayağa durdu. Bizi bir toydakı videokasetə baxmağı təklif etdi... Mirağa çalırdı. Özü də "Vağzalı" çalırdı... Mənə elə gəldi ki, Mirağa "Vağzalı"nı yanımızda canlı çalır. Kaset Poladlı kəndində toyda yazılmışdı. O zaman kəndə elə yaşlı kişilər var idi ki, Azərbaycan dastanlarının çoxusunu əzbər bilirdilər. Aşıq Mahmudun axşam məclisi yazılmışdı kasetə. Aşıq Mahmud aşıqların az bələd olduğu bir nağılı (Şirvanda aşığa dastan əvəzinə nağıl söylə, deyirlər – **S.Q.**) – "İrvahimi"ni söyləyirdi. Diqqətlə qulaq asdım Mirağanın aşığı müşayiətinə... Dastanın o yeri idi ki, İbrahimin haramıya yalvarmasını dinləyicilərə çatdıranda Aşıq Mahmud Mirağaya müraciətlə:

– Ustad balabançı, görək İbrahim haramılara necə yalvarır. Bu arada mən elə hiss etdim ki, Mirağanın çalğısından fəryad, ah qopdu. Yastı balaban "Zarıncı" ilə inan ki, birlikdə alışırdı. Mənə elə gəldi ki, Mirağa da İbrahimin əvəzindən haramılara yalvarır – onların kininin, qəzəbinin qabağını çalğısı ilə soyutmağa çalışırdı. Bu arada dastan eşitməkdən ömürləri boyu zövq alan məclis ağsaqqalları – Mirzəxan, Allahyar, Həmzə, Ağadayı, Səlim kişinin "Sağ ol", "min yaşa", – deməsi Mirağanı daha da coşdururdu. Elə bil Mahmud yatmışdı, yuxudan ayıldı. "Şur" kökündə oxuduğu şerlə Mirağa harayına inan ki, köməyə gəldi, o da yalvardı haramılara...

***...İrvahiməm, bu dəryaya adayam,***
***Adım çıxıb, Alosmanda sədayam,***
***Zülal şah oğluyam, bil şahzadəyəm,***
***Öldürmə, Allaha bağışla məni.***

İnan ki, Mirağa çalğısı, Aşıq Mahmud səsi ilə İbrahimin özünə çevrilmişdilər. Bu ah-fəryad məclis əhlini də dondurmuşdu... İki saatlıq kasetə axıra qədər baxdıq. Mirağa çalğısı, istedadı, sənətə bağlılığının bir daha şahidi olduq...

**Haşiyə:** Niftalıyev Mirağa Ələsgər oğlu 1940-cı ildə Şıxzərli kəndində anadan olub. Mirağa da balaban sənətinə ilk əvvəl sərbəst yiyələnmiş, sonra Şirvanın istedadlı sənətkarı İzzətalı Zülfüqarov, Mir-

baba Qarayevin yanında şagird durmuşdu. Məclislərə sərbəst ayaq açmamış gedib Əli Kərimovun yanında iki ay şagird durmuş və ona imtahan vermişdi. O vaxtdan – 1957-ci ildən bu günə kimi Mirağa el məclislərinin bəzəyidir.

Bəli, Mirağa xoşbəxt sənətkarlardandır. Üç övladı artıq sənətə gedir. Deməli, Mirağa ocağı həmişə sənət beşiyi olaraq yaşayacaqdır...

## BAXIŞ SƏXAVƏT OĞLU



Binyətov Baxış 1988-ci ildə Qobustan rayonunun Bədəlli kəndində anadan olub. Uşaq yaşlarından onu atasının – gözəl nağara ustasının çalğısı özünə valeh etmişdir... Nəhayət o, atasının məsləhəti ilə 12 yaşında Mərəzə qəsəbə yedillik uşaq-musiqi məktəbinin nağara sinifinə daxil olur. Baxış məktəbdə oxuduğu illərdə nəfəs alətlərinə, xüsusilə, balaban-zurna sənətinə də böyük həvəs göstərir. Bu qədim sənətin öyrənilməsində ona məktəbin tar müəllimi Malik Quliyev, qarmon müəllimi Mirzağa Xankişiyev və balabançı Əbilxan Şahalıyev yol göstərmiş, dəyərli məsləhətlər vermişdir. Bunun nəticəsidir ki, Baxış 2003-cü ildə Salyan şəhərində "Zərb və nəfəs alətləri" üzrə keçirilən ümumirespublika müsabiqəsinin "Fəxri fərmanı" ilə təltif olunmuşdur. O, 2003-cü ildə R.Behbudov adına Mərəzə qəsəbə yedillik uşaq musiqi məktəbini bitirmişdir. Okean Baday oğlu adına Bədəlli kənd orta məktəbinin onuncu sinf şagirdi Baxış Səxavət oğlu Qobustan rayonunda keçirilən tədbirlərdə vaxtaşırı çıxış edir. Uğurları isə hələ irəlidədir Baxışın... Təki sağlıq olsun...





# V FƏSİL

*"...Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir"...*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı" haqqında 26 mart 1998-ci il tarixli fərmanından...**

# 1918-Cİ İL QOBUSTAN SOYQIRIMI[1]

Tarixin müxtəlif çağlarında xalqımız yadelli işğalçılarla dəfələrlə üz-üzə gəlmiş, qanlı-qadalı müharibələrə düçar olmuşdur. Kimlər göz dikməmiş bu cənnət misallı diyara? Monqollar, ərəblər, farslar, ruslar, ermənilər, inglislər daha kimlər... kimlər... Vətənin igid oğullarının qanı-canı bahasına yağı düşmən susdurulmuş, torpaqlarımız azad edilmişdir.

Ana torpağımıza qənim kəsilmiş erməni daşnaqları da XIX-XX əsrlərdə xalqımıza qarşı bilərəkdən dəfələrlə soyqırımı təşkil etmişdir. 1918-ci ildə erməni daşnaklarının bolşeviklərlə birlikdə respublikamızın bir çox – Zəngəzur, Naxçıvan, Qarabağ, Bakı, Quba, Lənkəran, Şamaxı və s. regionlarda törətdikləri qırğının, soyqırımın demək olar ki, dünyada analoqu olmamışdır. Erməni cəlladları tərəfindən sadə, günahsız insanlara qarşı törədilən – hamilə qadınların diri-diri qarnını cırmaq, qundağda olan uşaqların başını kəsmək, qaşıqla göz çıxarmaq, qulaq, burun kəsmək, insanları bir-birinə bağlayıb güllənin keçmə gücünü yoxlamaq, qaynar samovarı çılpaq insanın kürəyinə sarımaq və s. kimi cəza üsulları heç bir vaxt dünyanın heç bir ərazisində dinc əhaliyə qarşı tətbiq edilməmişdir.

O zaman belə işgəncələrə Şamaxı qəzasına aid olunan – İsmayıllı, Ağsu, Kürdəmir, Qobustan regionunun kənd, qəsəbə və obaları başdan-başa məruz qalmışdır.

[1] Bu fəsildə "1918-ci il Şamaxı soyqırımı" kitabımızda olan müvafiq materiallardan istifadə etmişik.

Bu ərazilərdə baş verən qırğınlar o dövrün sənəd, qəzet və jurnallarında əsasən, Şamaxı qəzası faciəsi adı altında qeyd olunmuşdur.

İndiki Qobustan rayonu ərazisində də erməni cəlladları ağlasığmaz cinayətlər törətmiş, kənd, qəsəbə və obaları tar-mar etmiş, dəhşətli soyqırımı törətmişlər. Biz bu fəsildə Şamaxı qəzasında törədilmiş soyqırımının ancaq indiki Qobustan ərazisində həyata keçirilən faciələrini barədə oxuculara məlumat verəcəyik.

## ŞAMAXI QƏZASI ERMƏNİ TERRORUNDAN AZAD OLUNDU

..."Daşnaksütyun" təşkilatının terrorçuluq siyasəti 1912-1914-cü ildən sonra daha da genişlənməyə başladı. Bu illərdə İrəvan-Zəngəzur ərazilərində meydan oxuyan qatı millətçi Andranikin başçılıq etdiyi terrorçu dəstə ağlasığmaz cinayətlər törətməklə yanaşı, minlərlə azərbaycanlıları öz dədə-baba yurdlarından didərgin salmış, neçə-neçə kənd-şəhərləri xarabazara çevirmiş, yüzlərlə tarixi abidələrimizi məhv etmişlər. "Azərbaycanlılara qarşı mütəşəkkil soyqırımını, etnik təmizlənmə əməliyyatını ermənilər geniş miqyasda I Dünya müharibəsinin başladığı 1914-cü ildən etibarən daha da genişləndirirdilər... Təkcə onu qeyd etmək kifayətdər ki, Andranik Ozaniyanın başçılıq etdiyi erməni hərbçiləri 1914-1916-cı illərdə Azərbaycanın cənubunda – Xoy, Salmas, Dilman əyalətlərində **150 min,** Şərqi Anadoluda, tarixən həmişə Azərbaycan türklərinin yaşadığı Qars, Sarıqamış, Ərdəhan, Kazıman, Ərzurum bölgələrində isə **120 min** azərbaycanlı məhv etmişdilər".[1]

1917-ci il oktyabr inqilabından sonra V.İ.Leninin göstərişi ilə "Daşnaksütyun" təşkilatının ən fəal üzvü, millətçi S.Şaumyan Qafqaz işləri üzrə müvəqqəti Fövqalədə Vəziyyət Komissarı təyin edildi. "Bakını ələ keçirməyə, burada Sovet hakimiyyətini qurmağa və qeydsiz-şərtsiz olaraq onun sərhədlərindən Rusiyanın mənafeyi üçün istifadə etməyə çalışırdı. Elə bu məqsədlə də Rusiya dövlətinin başçısı V.İ.Lenin bolşevizm maskası altında gizlənmiş Stepan Şaumyanı Bakıya xüsusi tapşırıqla göndərmiş və ona çox böyük səlahiyyət vermişdir.[2]

[1] V.Quliyev. Azərbaycanda erməni zülmü. Bakı, 1996, səh.14
[2] V.Həbiboğlu. Azərbaycanın soyqırımının təşkili. Bakı, 2001, səh.46

Çoxdan belə bir fürsət axtaran Şaumyan gizli şəkildə işə başladı. İlk əvvəl Bolşevik Ordusunun tərkibinə erməni millətçilərini daha çox cəlb etdi. Mənbələrdən artıq bəllidir ki, Şaumyanın Bakıda yaratdığı **üç mindən artıq** ordunun tərkibini əsasən, terrorçu ermənilər təşkil edirdi. Bundan əvvəl o, bölgələrdə "bolşevik ideyaları uğrunda mübarizəyə qoşulan" daha bir çox erməniləri silahlandıra bilmişdir. Bakıda yaradılan bu ordunun əsgərləri elə ilk vaxtlardan müsəlmanlara qənim kəsilməyə başladılar. "...1918-ci ilin yanvar-fevral aylarında özlərinə çox arxayın olan daşnak zabit və əsgərləri Bakının küçələrində belə bir mahnı oxuya-oxuya gəzirlərmiş:

***Bir-iki, Qafqaz oldu bizimki.***
***Bir-iki Bakı oldu, bizimki.***
***Dənizdən-dənizə,***
***Qara dəniz, Aralıq dənizi,***
***Üstəlik Kirit adası,***
***Şimal sərhədimiz Voronej şəhəri,***
***Paytaxtımız Tiflis şəhəri,***
***Yaşa, çox yaşa, Andranik paşa...***
***Andranik paşa, səni çox yaşa...***[1]

Bakıda çox güclü bir terrorçu ordu yaratmış Şaumyan müxtəlif bölgələrdə yaşayan dindaşları ilə əlaqələrini daha da möhkəmləndirməyə başlayır. İlk əvvəl, "sağ əli olan" A.Əmiryanın redaktoru olduğu "Bakinski raboçi" qəzeti vasitəsilə, həmfikirlərinə "bolşeviklərin sözünü" çatdırmağa başladı. Bu proseslər 1918-ci ilin əvvəllərində Şamaxı ərazisində də həyata keçirilməyə başladı.

1917-ci ilin fevral-burjua demokratik inqilabından sonra Azərbaycanın bəzi yerlərində, eləcə də Şamaxıda Fəhlə və Əsgər Deputatları Soveti yaradıldı. Sovetin Sədri "Hümmət" təşkilatının üzvü Əliheydər Qarayev seçildi. Bununla öz siyasətini ört-basdır etmək istəyən S.Şaumyan sədri müsəlman təyin etsə də, Sovetə yerli ermənilərdən xeyli üzvlər daxil etmişdi. Tarixi sənədlər bir daha təsdiq edir ki, təkcə Fəhlə Əsgər Deputatları Sovetində deyil, Şaumyanın göstərişi ilə Şamaxıda olan bir çox aparıcı idarələrdə vəzifələr ermənilərə həvalə olunmuşdu. **Qavril Qaraoğlanov** Şamaxı qəza rəisinin köməkçisi, **Arşak Gülbəndov** Şamaxı poçt-teleqraf kontorunun rəisi, **Mı-**

[1] V.Arzumanlı, N.Mustafa. Tarixin qara səhifələri. Bakı, 1998, səh.81

**kırtıçyan** rəisin müavini, **Saturyan və Qaroryan** Şamaxı qəza İcraiyyə Komitəsinin üzvü, **Ağamyan** (əslən Qarabağ ermənisi) təlimatçı, **Mikayıl Arzumanov** şəhər aptek mağazasının sahibkarı, **Suren Mıkırtıçyan** (Bakı ermənisi) qəza rəisinin köməkçisi, **Petrosyan** Qırmızı küçədə yerləşən ən böyük baqqaliyyə mağazasının sahibi, **Arakelyan-cuhud** məhəlləsində çaxır mağazasının sahibi, **İvanov** (ata), **İvanov** (oğul) gön-dəri mağazasının sahibi, **Tarasyan, Artunyan, Axel Mirzoyan** məhkəmədə icraçılar, **Samvel Arşak, Martrel Şabanov, Uşakyan** dövlət məktəblərində direktor, direktor köməkçiləri və müəllimi idilər.

Bu zaman Azərbaycanın bir çox bölgələri kimi, Şamaxıda aclıq başladı. Bakı quberniya komitəsinin göstərişi ilə Şamaxıya xüsusi yardım edilməyə başladı. Yenə quberniyada oturanların göstərişi ilə Şamaxıda bu işin icrası qatı millətçi, Şaumyanın əqidə dostu Aqambekyana həvalə olunur. Daha dəqiq desək, o Şamaxıya, "ərzaq komissarı" təyin edilir. Aqambekyan göndərilən ərzağı "bənzəri olmayan bir bölgü ilə" paylayır: Yəni göndərilən ərzağın bir payının müsəlmanlara, beş payını ermənilərə verir və ya çox zaman, "ərzağın yolunu kəsir", "Zira ki, bədbəxtanə Şamaxı ərzaq komitəsinə quberniya komitəsi tərəfindən komissar təyin olunmuş Aqambekyan Şamaxıya gələr-gəlməz sabiqdə az-çox Bakıdan gələn ərzağın da yolunu kəsdi"...[1]

1917-ci ilin sonu 1918-ci ilin əvvəllərindən başlayaraq S.Şaumyanın tapşırıqları əsasında Şamaxıda böyük mülk, var-dövlət sahibi olan Stepan Lalayev (1905-ci ildə atası və əmisi törətdikləri əməllərin qurbanları olmuşlar) gizlincə Şamaxıda yaşayan ermənilərə və eləcə də, Mədrəsə, Kərkənc, Saqiyan, Zarxı, Meysəri kəndlərinə, həmçinin də rus kəndinə - Xilmilli, Qızmeydan, Çuxuryurda gizlincə silah-sursat paylatmış, onları başdan-ayağa silahlandıra bilmişdir: "S.Şaumyan Azərbaycanın müstəqilliyinə yol verməmək məqsədilə hər şey etməyə, hətta xalqı kütləvi şəkildə qırmağa belə razı idi. O, 1918-ci ilin əvvəllərindən başlayaraq, belə bir qırğının həyata keçirilməsi üçün hazırlığın aparılmasına başladı. Ermənilər gizlincə silahlanır, aralarında təbliğat işi aparırdı. Rusiyadan gəlmiş erməni silahlı qüvvələri müxtəlif bəhanələr adı altında Bakıda saxlanılırdı".[2]

Ermənilərin gec-tez qırğın törədəcəklərini Şamaxı ziyalıları, idarələrdə çalışan, mal-mülk və dövlət sahibləri – **Mahmudbəy**

[1] A.Səhhət. Əsərləri, II cild, Bakı, 1975, səh.69
[2] V.Həbiboğlu. Azərbaycan soyqırımı təşkilatçısı. Bakı, 2001, səh.42

**Mahmudbəyov, Abbas Səhhət, Camo Cəbrayılbəyli, Hacı İsmayıl Veyisov, Əliheydər Qarayev, Abutalıb bəy Fəttahbəyov, Hacı Tağı Mirzəquliyev, Vahab bəy Rəhimbəyov, Osman bəy Hacı Tağı oğlu, Məmmədtağı Əlizadə, Azad bəy Qocamanbəyov, Xankişi bəy Qafarbekov, Müfti Mustafa Əfəndi, Mürsəl Hacı Soltan oğlu, Şeyx Hacı Axund, Həqqi Veyisov və Mirzə Rza, Mirzə Müşfiq** və başqaları qabaqcadan hiss etmişdilər.

1918-ci ildə Bakı şəhərini bolşevik-daşnak birləşmələrinin törətdikləri qırğınlar hesabına ələ alan S.Şaumyan, necə deyərlər, fürsəti fövtə verməmiş, müsəlmanlara qarşı soyqırımı bütün Azərbaycanda keçirməyə başlamışdır. "Müsavat" partiyası Şaumyanın daşnak ordusuna qarşı imkanı daxilində müqavimət göstərsə də, heç bir nəticə hasil olmamışdır.

1918-ci ilin yazı üçün bolşeviklər Bakını hərbi qalaya çevirmək yolunda qətiyyətlə irəliləyirdilər. Qafqaz üzrə hərbi inqilab komitəsi Bakıda yerləşdirildi. Sədri milliyətcə erməni Q.N.Korqanov idi. Qırmızı Qvardiya və Xəzər Donanması Bakı Sovetinə tabe etdirildi. Cəbhədən qayıdan 8 min erməni əsgərinin Bakıda saxlanması ilə yanaşı, daşnakların hərbi qüdrətini öz sərəncamına almağa nail olan Şaumyan mart ayı üçün 20 min silahlı qüvvəyə arxalanırdı. Bakı bolşevikləri ilə erməni millətlərinin müştərək mübarizəsində hədəf eyni idi: "Azərbaycan milli fikrini boğmaq, millətçi hərəkatı dəf etmək".[1]

Həmin illərin hadisələri ilə əlaqədar M.Ə.Rəsulzadə yazırdı: ***"Əvət bolşeviklər sözlərini tutmuş daşnaklara birləşmiş. Müsavata elani-hərb edərək Azərbaycanlarla muxtariyyat əvəzinə xarabazar vermək istəmişlərdi. Hər vasitə ilə hərbin önünə keçmək istəmiş olan Müsavat bir əmri-vaqe qarşısında qalınca, istər-istəməz mübarizə edən millətdən ayrıla bilməmiş, haman səngərə yatmış, bacara bildiyi qədər müdafiə etmişdir. Fəqət, burjualara elani-hərb edən qatillər füqarayinası və münhəsirən müsəlman füqarasını üç günün müddətində mərhəmətsizcəsinə qılıncdan keçirdikdən sonra sülh bağlamış, "İsmailliyə" binasındakı idarənizdən apardıqları Müsavat bayrağını salaraq "Türkiyənin Bakı cəbhəsi yarıldı"***, – demişdilər.[2]

Terrorçu S.Şaumyanın cinayətkar ordusu həmin üç gündə, ağır faciələr törətmişdir: "İslamiyyə" deyilən böyük və gözəl milli saray

[1] F.Əhmədova. Unudulmamalı faciə, "Azərbaycan" qəzeti, 3.III.2000
[2] "Elm" qəzeti, 17.01.1992, №3

yandırıldı. "Təzəpir" və s. camelər də bombardman edildi. Şəhidlərin miqdarı 15 minə qədər təxmin edilməkdədir. Qatillərdən qurtulan müsəlmanlar ətraf göylərə və dağlara çəkildilər.[1]

Bundan sonra S.Şaumyan və Avakyan Azərbaycanın digər bölgələrini də qan içində boğmaq üçün Amazaspin komandanlığı altında böyük bir dəstənin Qubaya, Lalayevin rəhbərliyi altında isə digər bir qoşun birləşməsinin Şamaxıya hücum etməsi barədə əmr verdilər...

**Mənbələrdən:** *"Martın birinci yarısında Şamaxıdan məlumat alındı ki, Bakıdan Şamaxıya top, pulemyot və böyük miqdarda hərbi sursatla iki mindən üç minədək erməni qoşun dəstəsi gəlir. Şamaxıdan dəstənin qabağına müsəlman və erməni ictimai xadimlərindən ibarət nümayəndə heyəti göndərilir. Onlar bütün silahı, topları, pulemyotları Şamaxı qarnizonuna təhvil verməyi dəstəyə təklif etməli və ümumiyyətlə, dəstənin nə məqsədlə gəldiyini öyrənməli imiş. Nümayəndə heyətinin dəstə ilə görüşü molokan kəndi Qozluçayda (Xilmilli) olmuşdur. Dəstə silahı, topları, pulemyotları Şamaxı qarnizonuna verməkdən imtina etmiş və bildirmişdir ki, onların məqsədi Şamaxı qəzasını quldur dəstələrindən təmizləyib, qəzada anarxiyaya son qoyub, normal həyatı bərpa etməkdir. Dəstə Mədrəsə kəndinə Şamaxının yanından keçib gedəcəyinə söz vermişdir".*

**Bəxtiyar Məmmədtağı oğlunun dediklərindən:** "Silahlı dəstəni qarşılamağa gedənlər arasında **Vahab bəy, Azad bəy Qocamanbəyov, Udulu Üşüddü İbad, atam Məmmədtağı Hacı Ağacəfər oğlu, gənc zabit Tərlan bəy Əlyarbəyov, Məmmədtağı Əlizadə** də olmuşdur. Onlar Xilmilliyə daxil olan ordunu və silahları görəndə, hamısı məəttəl qalır. Rus-Yapon müharibəsinin iştirakçısı olan Azad bəy nümayəndə heyətinin "Şamaxıdan quldur dəstəsinin təmizləyəcəyik", deməsinə rişxəndlə cavab verdi:

– Bu silahla bütün Azərbaycanda olan qaçaq-quldur dəstəsini təmizləmək olar. Şamaxıda isə siz fikirləşdiyiniz qədər quldur dəstəsi yoxdur.

Görüşdən geri qayıdan kimi, **Vahab bəy, Azad bəy, Tərlan bəy, Məmmədtağı Əlizadə** bütün etibar etdikləri insanları – ziyalı, varlı-karlı millət təəssübü çəkənləri bir yerə cəm etdilər. Şamaxıya göndərilən ordunun qırğın törədəcəklərini götür-qoy etdilər. Hazırlıq işləri görməyə başladılar. Öz qohum-qardaş, dostlarını silahlandırdılar. Gizli şəkildə yeddi könüllü dəstəsi yarada bildilər.

[1] Z.Vəfa. Keçmişini unudan, gələcəyini itirə bilər. "Azərbaycan" qəzeti, 30.III.2000

**Mənbələrdən:** "Martın 15-də sübh çağı adı çəkilən dəstə Şamaxının yanından keçəndə şəhərin kənarında öz evlərini qoruyan müsəlmanlar dəstənin şəhərə hücumunu güman edib bir neçə atəş açmışlar. Dəstə də onlarla atəş açmışdır. Atışma başlanıb bütün şəhəri əhatə etmişdir. Lakin müsəlman könüllü dəstəsi rəisinin səyi ilə anlaşılmazlıq aradan götürülübmüş və atışma dayandırmışdır. Bu atışma nəticəsində həm müsəlmanlar, həm də ermənilər tərəfindən bir neçə təlafət oldu. Axşama qədər şəhərdə tam qayda və sakitlik yarandı. Elə həmin gün erməni yepiskopunun təşəbbüsü ilə Şamaxının bütün xanları və ruhanilərin də nümayəndələri yığışaraq and içdilər ki, sülh şəraitində yaşayıb qayda-qanunu nizamlayacaqlar. Bu hadisə ilə əlaqədar ertəsi gün şəhərdə təntənəli yürüş təşkil edilmişdir. Beləliklə, Şamaxı mart hadisələrinin ilk mərhələsi belə sovuşdu".

**Xalq artisti Ağasadıq Gəraybəyli (1897-1991):** *"Mən özüm 1897-ci il mart ayının 15-də Şamaxıda anadan olmuşam. 1918-ci ildə artıq 5-6 il idi ki, Bakıda yaşayırdım.*



*Fikrim vardı ki, Şamaxıya gedib, ad günümü və Novruz bayramını doğmalarımla keçirim. Amma martın əvvəllərində Bakıda qarışıqlıq başlamışdı. Şəhərdə tez-tez müsəlmanlara qəsd edilirdi. Odur ki, martın 10-da Şamaxıya getdim, ziyalı dostlarımla görüşdüm. Onlar hər şeyi mənə çatdırdılar. Aydın oldu ki, S.Şaumyanın göstərişi ilə Şamaxıda çoxlu silah yerləşdirilibdir. Ermənilər faciə törətməyə tam hazırdılar... Ziyalılar, din nümayəndələri Bakıya xəbər çatdırdılar. Şamaxıda Lalayevin məhəlləsində yaman canlanma vardı. Bəzi varlı ailələr artıq arvad-uşaqlarını Şamaxıdan çıxarıb müəyyən kəndlərdə yerləşdirmişdilər. Mənim ad günüm yadımdan çıxdı. Bir çoxumuz şəhər rəisi, eləcə də Axund Əbdülxalıq Əfəndi ilə görüşdük. Onların heç biri bizə konkret söz deyə bilmədilər... Mən qohumlarımı məsələdən agah etdim. Heç birimizdə bir dənə silah yox idi. Ayın 16-da Şamaxıda güclü atışma oldu. Erməni keşişi bildirdi ki, bundan sonra belə iş olmayacaq. Bunu deməklə müsəlmanların başının altına yastıq qoydular. Elə həmin gün mən bir neçə qohumumla Kürdəmir yolu ilə Bakıya qayıtdım. Ayın 19-da Şa-*

*maxıda törədilən cinayətlər haqqında Bakıya xəbər çatdı. Mən 1918-ci ilin oktyabr ayının əvvəlində qardaşımla Şamaxıya gəldim. Günorta idi. Şəhəri görəndə dəhşət bizi bürüdü. Şamaxı başdan-başa kül olmuşdu, xarabalığa çevrilmişdi. Lap cəhənnəmi xatırladırdı. Bizim məhəllə – Yuxarı Qala yerlə-yeskan edilmiş, gözəl memarlıq abidəsi olan bənzərsiz məscid yandırılmış, dağıdılmışdır, daş qalığı ilə örtülmüşdü. Tanıdığım evlərinin hamısı yerlə-yeksan olmuş, mülklərdən isə əsər-əlamət qalmamışdı. Küçələrdə adamlar xarabalıqlarda eşələnirdi. Yanmış daşlardan başlarını salmaq üçün daxmalar tikirdilər. Abbas Səhhət, M.Ə.Sabir, S.M.Qənizadə, C.Cəbrayılbəyli, Müslüm bəyin, Hacı Qulamın, Məmmədtağı Əlizadənin, Nurunun, Vahab bəyin, Murad Əfəndinin, Məşədi Əsədin (şair-müəllim Gövhər xanımın atası), Həqqi Veyisovun, Həbib bəy Mahmudbəyovun, Hacı Məmməd Əfəndinin, Nəcməddin Şirindilbəyli və başqalarının evləri yandırılmışdı.*

*Bu evləri, mülkləri yandırmaqla erməni daşnakları Azərbaycan elminə, maarifinə, ədəbiyyatına, incəsənətinə, tarixinə əlacı heç zaman mümkün olmayan yara vurdu. Belə ki, o evlərdə elə sənədlər, elə kitablar, elə əlyazmalar məhv edilmişdir ki, onları nə tapmaq, nə bərpa etmək, nə də yenidən yaratmaq mümkün deyildi... Şamaxı tarixinə aid çox sənədləri də məhv etdi erməni daşnakları... Bir həftədən sonra Bakıya qayıtdıq".*

Yeri gəlmişkən onu da deyim ki, vaxtilə 60-cı illərdə Şamaxı arxivi yenidən yandırılanda 1918-ci il qırğınına aid az-çox qalan sənədlər də məhv edildi... "Onda hamı bildi ki, arxivi ermənilər yandırmışdılar. Özlərini təmizliyə çıxartmaq üçün... Bunu hamı, eləcə də dövlət orqanları da bildi. Amma üstünü vurmadılar. Biz də qorxudan susduq"...

**Mənbələrdən:** *"Müsəlmanlar erməni yepiskopundan ermənilərin onlara qarşı hücum etməyəcəyi barədə andı eşidib sakitləşir və inanırlar ki, bədbəxtçiliyin qarşısı alınıb. Şamaxıda olan kəndli müsəlman könüllüləri evlərinə dağılışırlar. Erməni yepiskopu martın 17-də Şamaxı şəhəri müsəlmanları ilə ermənilərin arasında bağlanmış sülh haqqında erməni rəhbərlərinə məlumat vermək üçün Mədrəsə kəndinə gedir".*

**Xatirələrdən:** Bu barədə həmin faciələri gözləri ilə görmüş 42 yaşlı **Cəbrayılbəy Cəbrayılbəyov** 1918-ci ilin noyabr ayının 11-12-

də F.İ.K.-ya verdiyi məlumatda yazır: "1918-ci ilin mart ayında şəhər başçısı Teymur bəy Xudaverdiyev və müsəlman milli komitəsi tərəfindən məlumat almışdır ki, Bakıdan Kürdəmir istiqamətinə 400 nəfər Şamaxı ermənilər ordudan tərxis olunub gəlir. Bakı müsəlman komitəsi xahiş edib ki, onları qara fikirlərindən çəkindirsinlər. Müsəlman komitəsi Ağsu şəhərinə nümayəndələr göndərdi, lakin səhərisi gün Şamaxıda eşitdik ki, həmin dəstə bölünüb ayrı-ayrı kəndlərə hücum ediblər. Bicov və Ləngəbiz kəndlərini tamamilə yandırıblar. Bunu eşidən yaxın kəndlərdən müsəlman zərərçəkənlərinə köməyə gediblər. Ermənilərlə atışma Bico dağlarında başlayıb. Ermənilər və müsəlmanlar tərəfindən adamlar öldürülüb. Hirslənmiş ermənilər bu barədə Bakı erməni komitəsinə məlumat çatdırıblar. Qısa müddətdən sonra 3 minə qədər erməni gətirildi. Bundan xəbər tutan yerli müsəlman İcraiyyə Komitəsi, Şamaxı uyezdinin rəisi Hacımalıbəyov və uyezd qazisi Abdulxalıq Əfəndi Əfəndiyev erməni yepiskopunun yanına göndərildi ki, yaraqlıları geri qaytarsın. Lakin erməni yepiskopunun savabı qəti oldu. Biz gəlmişik ki, bütün müsəlmanları qılıncdan keçirək. Nümayəndələr belə bir xəbəri eşidib kor-peşiman Şamaxıya qayıtdılar. Lakin o biri gün erməni yepiskopu müsəlman komitəsinə gəlib dedi ki, dəstə ilə danışıb, heç bir müsəlmana zərər dəyməyəcək. Bunu deyən yepsikop Mədərəsə kəndinə getdi... Səhəri gün, yəni, martın 18-də saat 6-da Şamaxı şəhərini mühasirəyə alıb atəşə başladılar... Günortaya yaxın şəhərin ən yaxşı məhəllələri yandırılıb külə döndərilmişdi. Həmin axşam müsəlmanlar təslim oldular. Təslimdən sonra müsəlmanlar tərkislah edildilər. Şəhərdə qarət və talan başlandı. Zorakılıq və vəhşiliklər şamaxılıları qaçmağa məcbur etdi. Mən də qaçdım" ...[1]

S.Lalayev və eləcə də bir çox erməni varlılarının mülkləri də şəhərin yuxarı hissəsində yerləşirdi. Cinayətin başçılarından olan Lalayev qabaqcadan mülkünün zirzəmisini silah-sursatla doldurulmuşdur. Həmin yerdən şəhərin müsəlman məhəllələri əl içi kimi görünürdü. Oradan atılan top düz cümə məscidinin həyətini vururdu. Mədrəsə tərəfdən atılan topların vahiməsindən pərən-pərən olan əhali küçələrə axışırdı, başlarını itirmiş insanlar nə edəcəklərini bilmirdilər. Lalayevin evindəki pulemyotlardan atılan güllələr insanları

[1] Az.R.MDA. İ.İ. F. 1061, q 3. vər. 19

yerindəcə məhv edirdi. Namərd düşmənin heç kəsə – qadına, qocaya, uşağa belə rəhmi gəlmirdi. Soyqırımı həyata keçirən S.Lalayev müsəlmanlardan 1905-1907-ci illərin qisasını alırdı. Şamaxının müsəlman məhəllələrində cəsəd əlindən yerimək mümkün deyildi. Müsəlmanların heç bir müqavimətini hiss etməyən erməni daşnakları və molokanlar yavaş-yavaş şəhərə yaxınlaşmağa başladılar...

**Mənbələrdən:** ***"Axşama yaxın onlar şəhərin ən varlı hissəsi, "Piran-Şirvan"a daxil oldular. Evlər yandırıldı. Yanan evlərdən qaçan kişilər, qadınlar, uşaqlar və ümumiyyətlə, küçələrdə görünən hər kəs güllələnirdi. Bundan başqa evlərə soxulur, sakinlərini öldürüb, qarət etdilər, şəhərin küçələrində meyitlərdən qalaqlar yaranır. Gecə müsəlmanlar təslim olmaları barədə qalib ermənilərin yanına nümayəndə göndərirlər. Lakin atəş dayandırılmırdı. "Piran-Şirvan"ın ən varlı müsəlmanlar yaşayan hissələri yanırdı. Səhərisi gün ermənilər və molokanlar müsəlmanların bütün silahlarını alırlar. Buna baxmayaraq müsəlmanların öldürülməsi və qarət edilməsini dayandırmır, kişilər, qadınlar və uşaqları məhv edir və ya onları ölüm və evlərini yandırmaqla hədələyərək pullarını əllərindən alırlarmış. Küçələrdə döşləri kəsilmiş, qarınları doğranmış qadınların meyitləri atılıb qalmışdı. Talan edilmiş əmlak araba və furqonlarla erməni və molokan kəndlərinə göndərilmişdi"...***

**Mənbələrdən:** "Şamaxı əhalisinin təhlükəsizliyini qoruya biləcək bir silahlı dəstə belə yox idi. Əhalinin bir hissəsi qorxudan meşələrin dərinliklərinə çəkilmiş, qalanları isə Allah evi olan məscidlərdə sığınacaq tapmışdı. Daşnaklar şəhərdə bütün kişiləri qılıncdan keçirdilər. Onlar cavan qızları soyunduraraq öz atalarının və qardaşlarının cəsədləri üstündə oynamağa məcbur edir, sonra isə güllə yağışına tuturdular. Şamaxı məscidlərini mühasirəyə alan vəhşi Lalayevin dəstəsi həmin müqəddəs səcdəgahları içəridə sığınacaq tapmış şəhər sakinləri ilə birgə yandırıb külə döndərdilər. Şamaxı özü boyda nəhəng bir tonqala bənzəyirdi"...[1]

... Bolşevik bayrağı altında bir araya gələn erməni – molokan birləşmələri 1918-ci ildə Şamaxıda bəşər övladı yaranandan bəri dinc əhaliyə qarşı görülməyən, analoqu olmayan faciələr törətmişlər. "Quduzlaşmış ermənilər on üç məhəllə məscidini və məşhur ocaq sayılan

[1] Z.Vəfa. Keçmişini unudan, gələcəyini itirə bilər. "Azərbaycan" qəzeti, 30.III.2000

Cümə məscidini də yandırmışlar. Bu yırtıcılar 1000 yaşlı olan cümə məscidində Axund Cəfərqulunun saqqalını bir-bir yolub, sonra dişlərini kökündən çıxarıb əzabla öldürmüşlər"[1].

Şamaxı soyqırımının sorağı hər tərəfə yayılmağa başladı. Bu ara İsmayılxan Ziyadxanovun dəstəsi şamaxılıların "köməyinə" gəlir. "Gəncə atlıları"nın sorağını eşidən erməni – molokan birləşmələri qorxularından Şamaxını tərk edir. Yağı düşmən Qozluçayda qərar tutur. Ermənilərin şəhəri tərk etdiyini eşidən yaxın kənd, meşə, dağ və dərələrdə gizlənən əhali şəhərə qayıdır. Onlar gördüklərinə inana bilmirlər. Küçə, yol, həyətlərdə olan insan cəsədləri – kəsilmiş başlar, qol-qıçlar, əl-ayaqlar, parça-parça edilmiş uşaq – körpə meyitləri onları heyrətə gətirir. Doğmalarının faciə və müsbətlərirnin şahidi olan qadınların bir çoxunun başına hava gəldi, dəli oldular... Müsibət müsibətə qarışdı. Ev-eşiklər külə dönmüşdü. Bir sözlə, şəhər böyük bir tonqalın külünü xatırladırdı...

Erməni cəlladları tez cinayətkar S.Şaumyana "Gəncə atlıları" haqqında məlumatı çatdırırlar. Cəllad Şaumyanın əlinə yenidən fürsət düşür. Odur ki, hamısı millətçi ermənilərdən təşkil olunmuş böyük bir ordunu əksinqilab qüvvəni – İsmayılxan Ziyadxanovu məhv etmək üçün Şamaxıya göndərir. Bu xəbəri eşidən İsmayılxan geri çəkilir. Ermənilərin yenidən soyqırımı törədəcəyi xəbərini eşidən şəhərə qayıtmış sakinlər yenidən Şamaxını tərk etdilər...

İkinci dəfə boz ayın sazağında, dumanında öz eşiklərindən ayaqyalın-başaçıq, aclıq-səfalət içində çöllərə düşən insanların çoxu yollarda ölür, sağalmaz xəstəliklərə tutulur və yaxud taqətsiz halda yollarda qalır, qurd-quşa yem olurlar.

"Şirvanlı mülkədar İsmayıl xan Ziyadxanovun başçılıq etdiyi əksinqilabı qüvvələrdən təmizləmək" bəhanəsi ilə erməni daşnakları bolşevik bayrağı altında Şamaxıda daha dəhşətli soyqırımı aktı törədirlər. "Mən Şamaxıdan çıxıb Göylər kəndinə gəldim. Lakin "xan dəstəsi" **(İsmayıl bəy Ziyadxanov – S.Q.)** Şamaxıya gələndən sonra, 28 mart 1918-ci ildə mən Şamaxıya qayıtdım. Ermənilər Qozluçay

[1] H.Nacıyev. Ermənilərin dəhşətli vəhşiliyinə əyani "Azərbaycan" qəzeti, 31.III.2000

kəndinə yığılmışdılar. İsmayılxan molokanlara müraciət etdi ki, ermənilləri ona versinlər ya da kənddən çıxarsınlar. Molokonlar iki gün möhlət istədilər. İki gündən sonra molokanlar xəbər göndərdilər ki, erməniləri verməyəcəklər. İsmayılxan Qozluya yaxınlaşanda, atışma başlandı. Molokan və erməni birləşmələrinin sayca çox olmasını görən İsmayılxan Şamaxıya qayıdır və səhəri gün şəhəri tərk edir. Müsəlman dəstəsinin getməsindən üç saat sonra mən də Şamaxını tərk etdim... Ermənilərin müsəlmanlara qarşı etdikləri hərəkətlər, mənim fikrimcə, milli xarakter daşıyırdı. Onlar guya bolşeviklərə qarşı çıxan müsəlmanlara qarşı mübarizə aparırdılar. Əslində isə bu şüar altında minlərlə müsəlman – uşaq, qadın, qoca və daha kimləri qılıncdan keçirdilər... Bu amansız soyqırımının başında Stepan Lalayev durub. Təşkilatçılıq işlərinə isə Mixail Arzumanov, qəza rəisinin köməkçisi Qaroğlanov, poçt-teleqraf kontorunun rəisi Gülbəndov və familiyalarının bilmədiyim qeyri ermənilər başçılıq ediblər. Birinci qaçqın zamanı 400 min man. məbləğində, mənə ziyan dəymişdir"[1]...

* * *

Bolşevik bayrağı altında üçüncü dəfə Şamaxıya daxil olan erməni yaraqlıları şəhəri yenidən ələk-vələk elədilər. Şəhərdə az-çox salamat qalmış tikililər yenidən oda qalandı. Şəhərin yaxınlığında olan qəbristanlıqlar təhqir edildi. Bolşevik ordusu Ağsu-Göyçay tərəfə istiqamət aldı. "Şamaxı şəhərinin və onun ətraf kəndlərini viran qoyan, müsəlman əhalisinin ucdantutma qıran vəhşi daşnaklar Gəncə istiqamətində irəliləməyə başlayırlar. Erməni silahlı qüvvələri əgər Bakıdan Şamaxıya üç günə gəlib çıxmışlarsa, onlar iki gün ərzində Ağsu və Göyçayı da zəbt etməyə imkan tapdılar"[2] .

Ən nəhayət, erməni daşnakları İsmayıl bəy Ziyadxanovun dəstəsi ilə qarşılaşırlar. Bu döyüşdə S.Şaumyanın "erməni-bolşevik" ordusu qələbə çaldı. Bu qələbə münasibəti ilə S.Şaumyan, Moskvaya V.İ.Leninə müjdə teleqramı göndərdi. Professor V.Quliyevin yazdığı kimi "tarixçilərin tədqiqatlarında" oxuyuruq: "1918-ci ilin yazıda Ba-

[1] Az.R.DA. İl. Fon. 1061, d 105 v-17-20. Şamaxı sakini Mövsüm bəy Sadıqbəyov, 24.IX.1918
[2] V.Arzumanlı, N.Mustafa. Göstərilən əsərlər, səh.91

kı proletariatının yardımı və zəhmətkeş kütlələrin fəal iştirakı ilə Azərbaycanın şərq qəzalarında Sovet qoşun dəstələri (oxu: erməni-daşnak qəza dəstələri – V.Q.) aprelin 14-də Lənkəranı azad etdi, aprelin 17-19-da Şamaxı sovet şəhərinə çevrildi" [1]...

Bəli, bu "böyük qələbə" Şamaxıda 4 minə yaxın dinc əhalinin qəsdən qətli (o cümlədən, 1653 qadın, 965 uşağın, qəzada yandırılan, talan edilən 58 kənddə isə 3204 nəfər kişi, 1979 nəfər qadın, 959 nəfər uşağın məhv edilməsi) hesabına başa gəldi... Bundan əlavə, "Şaumyan cəlladları Şamaxı uyezdində qanlı faciələr törətdi. Şamaxı şəhərindən yalnız xarabalıqlar qalmışdı. 15 minlik əhalisi qılıncdan keçirildi. Az bir hissəsi bu faciədən qaçqınlıqla başını qurtara bildi"[2].

... Şamaxı, Ağsu, Qobustan, İsmayıllı, Göyçay əraziləri bolşevik-daşnak ordusunun əlinə keçəndən sonra azərbaycanlılara qənim kəsilmiş Şamyan və onun əlaltıları – S.Lalayev və A.Əmiryan 20-25 mindən artıq, çoxusu da erməni cəlladlarından təşkil olunmuş "bolşevik" ordusunun Gəncəyə hücum planını hazırladılar.

Beləliklə, Azərbaycan ərazisinin çox hissəsi günü-gündən erməni-daşnak ordusu tərəfindən işğal edilməyə başlandı. Nəticədə, əhali qətlə yetirilir, kəndlər, şəhərlər xarabalıqlara çevrilir, xalqın maddi-mədəniyyət abidələri yer üzündən silinir, əhali qaçqın-köçkün vəziyyətinə düşür, bir sözlə, ölkə qan içində üzürdü...

Azərbaycanlılara kömək etmək, xalqı qandan-qadadan, daşnak-bolşevik zülmündən xilas etmək, bu bəladan, faciədən qurtarmaq üçün Türkiyə hökümətinin hərbi naziri Ənvər Paşa Qafqaz İslam Ordusu yaradılmasını məsləhət bilir. Odur ki, ilk öncə ögey qardaşı general Nuru Paşanı təlimatlandırır. Bundan sonra o, Qafqaz İslam Ordusunun məqsəd və vəzifələri haqqında məsləkdaşlarına izahat verir. Bu müqəddəs təşəbbüs nazirin məsləkdaşları tərəfindən alqışlanır.

**"Ənvər Paşanın əsas məqsədi Türkiyə nizamı qoşunlarının köməyi ilə Təbrizdən Dağıstana, Tehrandan Türkistana qədər olan bütün əraziləri nəzarət altına almaq, onları yadelli işğalçıların əlindən qoparmaq, imkan daxilində bu yerlərdə milli hökümətlərin yaradılması üçün ictimai-siyasi zəminə nail olmaqdan ibarət idi"...**

Odur ki, Nuru Paşa 1918-ci il aprel ayının 8-də öz ordusu ilə

[1] V.Quliyev. Göstərilən əsəri, səh.27
[2] Салех бек. Армянского... Баку, 1994, ст.329

Azərbaycana yola düşür və may ayının 25-də Gəncəyə çatır, fəaliyyətə başlayır. Bir neçə gün sonra, yəni, 1918-ci ilin may ayının 28-də Azərbaycan Demokratik Cümhuriyyəti öz müstəqilliyini elan edir. Cümhuriyyətin təşkil etdiyi Milli Məclisdə Məmməd Əmin Rəsulzadə sədr seçilir. Hökümətin ilk Baş naziri Fətəli xan Xoyski (səkkiz nəfər üzv təyin olunmuşdur) olur...[1]

Bu zaman Azərbaycanın bir çox bölgələri kimi Bakı da S.Şaumyanın tərəfdarlarının əlində olduğu üçün paytaxt Gəncə şəhəri seçilmişdir.

1950-ci il aprel ayının 28-də M.Ə.Rəsulzadə Atatürk Xalq evində oxuduğu məruzəsində həmin illəri xatırlayaraq deyirdi: "...Cümhuriyyət qurulan zaman silahlı rus qüvvələrinə arxalanan bolşeviklər Azərbaycanın paytaxtı Bakını zəbt etdilər, türk-müsəlman əhalisini qırğına verdilər və Gəncədəki Milli Azərbaycan qüvvələrini də hədələməyə başladılar. Bu təhlükə qarşısında 1918-ci il 4 iyunda Batumda o zamankı Osmanlı höküməti nümayəndələri ilə bir müqavilə imzalandı və bu müqaviləyə görə, türk ordusu azərbaycanlı qardaşlarının köməyinə gəldi və 1918-ci ilin 15 sentyabrında birləşmiş qüvvələr Bakını qəsbkar əllərdən xilas etdilər..."[2]

Gəncədə və Gəncə ətrafında mövqe tutmuş düşmən ünsürləri susdurduqdan sonra Qafqaz İslam Ordusu Şərqə doğru hərəkət etməyə başladı. Ən böyük və ağır döyüşlərdən biri Göyçayda oldu. Artıq bu zaman "...Şimal yolu ilə Göyçay qəsəbəsinə yaxınlaşan bolşevik-rus və erməni qüvvələri keçdikləri erməni yaşayış məntəqələrindən canlı qüvvə və təminat toplayaraq 28-30 minlik orduya çevrilmişdilər..."[3]

Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu bu döyüşdə bolşevik-daşnak hissəsinin burnunu ovdu və müzəffər türk ordusu Bakı səmtə yol aldı. Belə bir qələbədən sonra erməni terrorçularının zülmündən cana doymuş Azərbaycan xalqının igid övladları, könüllü dəstələr nizami türk ordusuna daxil olmağa başladılar.

Nuru Paşanın ordusuna könüllü qoşulanlar arasında erməni qatillərindən həmyerlilərinin intiqamını almağa hər cür, hər vaxt hazır olan şamaxılılar da var idi. "Şamaxıda cavanlardan ibarət təşkil etdiyi dəstəyə gecəli-gündüzlü təlim keçən Osman Əfəndi az bir zamanda onlar-

[1] V.Arzumanlı. Qafqaz İslam Ordusu və Azərbaycanın erməni-rus işğalından təmizlənməsi. "Elturan" jurnalı, Bakı, 1999, №1-2, səh.9
[2] M.Ə.Rəsulzadə. Əsrimizin Səyavuşu... Bakı, 1991, səh.90
[3] Birinci Dünya müharibəsində Osmanlı Ordusunun Qafqaz hərəkatı... Bakı, 1998, səh.25

dan sərrast atıcılar yetişdirməyə müvəffəq olmuşdu. Bu dəstə ermənilərlə aparılan döyüşlərdə ermənilərin bir çox hücumlarının qarşısını ala bilmişdi. Osman Əfəndi Göyçaya gəldiyi iki günün içərisində orduya 60 nəfər könüllü cəlb etmişdi. Göyçaya varid olan müzəffər türk-osmanlı ordusunun tərkibinə qatıla bilmələri üçün hazırlanmışdı..."[1]

Qafqaz İslam Ordusunun zərbi-dəstinə davam gətirə bilməyən 25-30 mindən artıq olan bolşevik-daşnak ordusu ən nəhayət, geri çəkilməyə başladı. Kürdəmir, Ağsu azad edildi... İşin dəhşəti onda idi ki, yağı düşmən geri çəkildikdə – məğlub olduqları üçün daha çox və dəhşətli faciələr törədirdilər, yaşayış məntəqələrində adda-budda salamat qalmış tikililəri yandırır, heç kimə, heç nəyə rəhm etmirdilər. Məğlubiyyətlərindən daha da vəhşiləşən erməni daşnakları təsadüfən rast gəldikləri azərbaycanlılara ağlasığmaz işgəncələr verir, sonra da yerindəcə güllələyirdilər.

Müzəffər Nuru Paşa ordusu **iyul ayının 20-də Şamaxını** azad etdi. Təxminən, dörd ay ərzində Şamaxı şəhəri yerlə-yeksan olmuş, şəhərin quruca adı qalmışdı. Erməni daşnaklarının ayağı dəydiyi müsəlman kənd və obaları isə tamamilə yox edilmişdi... Şəhər azad edildikdən sonra müxtəlif yerlərdə gizlənmiş insanlar türk ordusunun pişvazına çıxırdılar...

Uzun bir müddət qorxu, həyəcan, aclıq, səfalət içində yaşamış bu insanların üzündə artıq kiçik də olsa ümid, sevinc işığı sezilirdi...

**Mənbələrdən:** "Türk ordusu Şamaxıya, demək olar ki, küçələrdə, həyətlərdə yüzlərlə yandırılmış, tüstüsü göyə qalxmış mülklərin, binaların, evlərin və dalanların, eləcə də, içərisində, kömürə-külə dönmüş, vaxtın istisinin təsirindən, şişib dağılmış, çürüməkdə olan çoxlu insan cəsədləri ilə dolu olan vaxtda gəlib çıxmışdı. Yandırılmış binaların alovu artıq sönmüş olsa da, əmələ gəlmiş xarabalıqlardan həm də yüksələn tüstünün və kül tozlarının təsirindən nəfəs almaq çətinləşirdi"...[2]

"Şamaxı məhəllələrində ondan artıq məscid var idi. Şəhər azad ediləndən bir az sonra Şamaxıya – xaraba və hüzn içində olan bir diyara qayıtdıq. Yanmış daş, divarın iyi, meyitlərin iyinə qarışmışdı. Məscidlər yandırılmışdı. "Cümə" məscidi yansa da, nisbətən salamat qala bilmişdi. Məscidin içində bir aya yaxın iş getdi. Məscidin içində-

[1] S.Ələsgərova, İ.Məmmədli. Şəhid türk zabiti məzarı, "Vışka" qəzeti, 28.1.2000

[2] Yenə orada, 21.VI.2000

ki külün arasından tamamilə kösövə dönmüş insan sümükləri, yanmış paltar, palaz, papaq qırıqları, saç çəngələri çıxırdı. Ağsaqqalların məsləhəti ilə bütün məscidlərin içində olan külləri yığıb dəfn etdilər. Doğmalarını tapmayan insanlar o kül qəbrləri ziyarətgah bilirdilər. Özü də uzun illər "Cümə günlərində hamı o kül qəbrlərin yanında dayanıb ağı deyən, ağlayan övlad, qardaş, ata dağlı o qədər insanlar tanıyırdım ki,... **Molla Nərgiz, Məşədi Suğra, Kərbəlayi Tubu, Dadaş Məşədi Əli oğlu, Misirxan Nəsirxan oğlu, Qulu Məşədi Alı oğlu, Cənnət Məşədi Soltan qızı, Tükəzban Molla İsmayıl qızı, Yetər, Fərrux Hacı Nağı qızı, Məşədi Xeyri Məşədi Usub qızı..."**

Nuru Paşa igidlərinin erməni-bolşevik cəlladları ilə ən ağır döyüşlərindən biri də Şamaxı və Mərəzə əraziləri arasında Acıdərə adlı yerdə baş vermişdi. Bu ağır döyüşdə düşmənin böyük bir qismi məhv edildiyi kimi, Şamaxı könüllüləri və müzəffər türk əsgərlərindən də xeyli döyüşçü şəhid olmuşdur. Həmin ərazidə həlak olanlar arasında bir türk zabiti də vardı. Həmin şəhidin məzarı düz 84 ildir ki, Şamaxı-Qobustanlılar tərəfindən ziyarət olunur.

## ŞƏHİD TÜRK ZABİTİNİN MƏZARI – İZZƏT ƏFƏNDİ

Bu məzar Şamaxı-Bakı şosse yolunun kənarında, Acıdərə adlı bir yerdə – iki dərənin qovuşuğunda, kiçik bir təpənin üstündə yerləşir. Şəhid, şəhid olduğu yerdə dəfn olunmalıdır, – adətinə əsasən türk zabiti öldüyü yerdə dəfn edilir. Ən nəhayət, "üzərində əhəng daşından sənduqə formalı abidə qoyulmuş (1,25x0,155x0,37 metr) tək bir məzar vardır. Sənduqənin ayaq tərəfində "Allah, Məhəmməd" sözləri, baş tərəfində ay-ulduz, nəsx xəttilə ərəbcə, azərbaycanca, türkcə kitabələr həkk olunmuşdur:

***Bir türk oğlu qəhrəmanındır bu məzar,***
***Gör necə yer ilə yeksan eyləmişdir xakizar,***
***Qafqaz islam yolunda eyləyib zinhar canın,***
***Ərseyi-hərb içrə bir əslanındır bu məzar!***

Bu qəbir osmanlı alayı qoşunlarından olan zabitin qəbridir. Qafqaza gəldi, müharibə etdi və şəhid oldu. 1336 (1918)-ci ildə şərəfli şəhadəti daddı, ilqarını seçdi.

"Xoda rebbim benim haqqa. Mehemmeddir Resulallah". [1]

Qəbrin üzərində türk zabitinin adı, soyadı yazılmayıb. Uzun illər bu məzarda dəfn olunan şəhidin adının **Qədir Əfəndi** olduğu söyləmiş və yazmışlar. Müəlliflər şəhidin adının

Qədir Əfəndi olduğunu hansı sənədə əsasən söylədiklərini və yazdıqlarını göstərməmişlər.

Son tədqiqatlarda həmin vuruşda həlak olan zabitin adının **İzzət Əfəndi** olduğunu göstərirlər. Bu barədə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinin 1998-ci ildə "Göytürk" mətbəəsində çap etdirdiyi "I Dünya Müharibəsində Osmanlı ordusunun Qafqaz hərəkatı, Azərbaycan Milli Ordusunun yaradılması və Azərbaycan istiqlalının qazanılması" adlı kitabçanın 31-ci səhifəsində oxuyuruq: **"Döyüşlər 20 iyul gecəsi də davam etdi. Türk birləşmələrinin təqibi ilə Mərəzə istiqamətinə geri çəkilən düşmən 21 iyuldakı döyüşdən sonra buradan da çıxarıldı və Bakıya doğru qaçmağa başladı. Bu döyüşdə 28-ci tabur komandiri mayor İzzət Əfəndi şəhid oldu".** (Seçmələr bizimdir – **S.Q.**).



**Heybət Şikarovun dediklərindən:** "Atam deyirdi ki, əgər türk əsgərləri bir az da gec gəlsə idi, həm Azərbaycan, həm də Şamaxı bütövlükdə erməni cəlladlarının əlinə keçəcəkdi. Rəhmətlik atam həmin faciələrin hamısını öz gözləri ilə görmüşdür. Əsrlərin şahidi, qədim mədəniyyət mərkəzi olan Şamaxının talan edilməsi, yüzlərlə qədim tarixi abidələrin – məscid, hamam, mədrəsə, eləcə də xan, bəy və tacirlərin bənzərsiz, qədim Şərq üslubunda tikilən mülklərinin yerlə-

[1] M.Nemət. Azərbaycanda pirlər. Bakı, 1993, səh.83-84

yeksan olmasının, yandırılmasının canlı şahidi olmuşdur... Dini bayramlar olanda atam Qədir Əfəndinin ruhuna yasin oxutdurardı. Bununla yanaşı, türk şəhidinin məzarının üzərinə ilk dəfə daş saldırmış Məlikməmməd Məlik oğlu Tağıyevin də adını hörmətlə çəkər və ona rəhmət diləyərdi. Atam deyərdi ki, o kişi öz canı bahasına türk zabitinin adını əbədiləşdirdi. Belə ki, Məlikməmməd 30-cu illərdə Şamaxıda yüksək vəzifəli ermənilərin yuxarılara verdikləri "donoslar" əsasında, 30-cu ildə qardaşı və iki oğlu ilə həbs edildi. Sonralar bəlli oldu ki, 1937-ci ilin ortalarında Məlikməmməd Şamaxıda Dövlət Təhlükəsizlik İdarəsində işləyən "Qavriloviç" adlı ermənin göstərişi ilə "türkçülüyü yaymaq və müdafiə etmək" adı ilə yenidən həbs edildi və o, "xalq düşməni" adı ilə güllələndi.

İllər keçdikcə güclü yağışlar zamanı dağlardan axan sellər həmin təpəni yavaş-yavaş ovurdu. Məzar təhlükə qarşısında idi. Məlikməmmədin vaxtilə məzara himayədarlıq etdiyi üçün nələr çəkdiyini Babaxan da eşitmişdir. Məlikməmməd kişi isə heç nədən qorxmadan, heç nəyi fikirləşmədən qolunu çırmalayıb işə başladı.

**Haşiyə:** Babaxan Qara oğlu Rzaxanov 1928-ci ildə Şamaxı rayonunun Qaracüzlü kəndində anadan olub. Ailələri ilə Bakıya köçüb. Razin (Bakıxanov) qəsəbəsində yaşayıblar. Babaxan isə Suraxınadakı qarajda sürücü işləmişdir. "O zaman "Zil"i varmış. Qırmızı rəngli "Zil" ancaq Babaxanda idi. "Əhməd haradadır" filmindəki Əhmədin "Zil"i onun maşını olub...

**Gülnaz Babaxan qızının dediklərindən:** Atam 1954-cü ildə qəbri abadlaşdırmağı qərara alır. Bunun üçün fəhlə, usta tutmaq istəyir. Çoxları hökümətin qorxusundan razılıq vermir. Ən nəhayət, Kazım Süleymanov, Teymur Haqverdiyev, Əliheydər Xasayev işə başlayır. Onlar qəbrin ətrafını daşla hörür, dəmir çərçivəyə alırlar. Babaxan Qara oğlu şəhərdən savadlı molla gətirir. Qəbir daşının üstündə olan yazının pozulanlarını da bərpa edirlər. Bu iş hüquq mühafizə orqanlarına çatdırılır. Vəzifədə olan ermənilərin şeytanlığı ilə atam müxtəlif təzyiqlərə məruz qalır. Sorğuya tutulur. Ona düzəltdiklərini sökməyi tələb edirlər. Atam isə həbs olunmağına razı olur, ziyarətgaha əl vurulmağına yox... Bu



ara Türkiyə dövləti ilə SSRİ arasında yaranan yaxşı münasibət atamı bəladan xilas edir... Biz hər il mart ayında atamla Şamaxıya gedir, şəhid türk məzarını ziyarət edər, üstünə tər çiçəklər düzərdik. O da yadımdadır ki, atam bizi orada qoyub Şamaxıya molla dalınca gedərdi. Gətirdiyi mollaya Qədir Əfəndinin ruhuna "Yasin" oxutdurardı.

Atam 1994-cü ildə dünyasını dəyişdi. Vəsiyyətlərinin biri də "şəhid türk məzarına ziyarətə getməyi unutmayın", oldu. Ta bu günə kimi atamın vəsiyyətinə əməl edirik".

Azərbaycan soyqırımının 75 illiyi münasibətilə 1993-cü ildə məzarın yanında Şamaxı və Qobustan rayonlarının rəhbərlərinin məsləhəti ilə mitinq təşkil edilmişdir. Mitinqdə Türkiyənin ölkəmizdəki səfiri Altan Karamanoğlu, səfirliyin işçiləri və səfirin atası da iştirak etdi. Belə qərara aldılar ki, həmyerlimiz, bacarıqlı memar Cəfər Qiyasinin hazırladığı layihə əsasında türkün qəbrinin ətrafında məqbərə ucaldılsın. Bu məqsədlə Qobustan rayon bankında 712 saylı hesab açıldı, imkanlı adamların xeyirxah işə kömək etmələri arzu edildi.

Çox əfsus ki, istedadlı memar C.Qiyasinin yaratdığı abidə elə kağız üzərində qaldı. Amma 2000-ci ildə Qobustan rayon İcra Hakimiyyətinin səyi ilə türkün qəbri təmir edildi və məzardan 30 metr kənarda, şosse yolunun üstündə 1918-ci ildə döyüşlərdə həlak olmuş insanların adına abidə kompleksi ucaldıldı.

* * *

Qafqaz İslam Ordusu Şamaxını azad edəndən sonra, Bakı uğrunda mübarizəyə başladı. Avqust ayında türk ordusu şəhəri mühasirəyə aldı. Bu zaman düşmən qüvvələrinin – Şaumyanın tərəfdarlarının sayı xeyli güclənmişdi. Bakıda olan ingilis əsgərləri də erməni-bolşevik qüvvələrinin tərəfinə keçmişdilər. Odur ki, Nuru Paşa Qafqaz İslam Ordusunun Bakı Komissarının 5-ci Qafqaz Diviziyasına belə bir tapşırıq verdi: "...Bakıda yerləşən ingilislər Azərbaycanın çox hissəsini ermənilərə verərək onların üstünlüyünü yaratmağa, istər Qafqaz, istərsə də Gürcüstan müstəqil hökümətinə hədə-qorxu gəlməyə çalışacaqlar. Bu vəziyyəti nəzərə alaraq, Bakıya hücum edilməli, ingilislər və erməni bolşevikləri şəhərdən çıxarılmalıdır". [1]

Düşmən qüvvələrinin gücünün artdığını görən Nuru Paşa "Azərbaycanda olan Osmanlı birləşmələrini möhkəmləndirmək və Azərbaycan Milli ordusunun təməlini qoymaq məqsədilə Azərbaycan korpusu təşkil etmək üçün 13 avqust 1918-ci ildə bir əmr verdi... Nuru Paşanın bu korpusunu qurmaqda məqsədi osman birlikləri Azər-

[1] "Zaman" qəzeti, 16 may, 1998-ci il

baycandan getdikdən sonra yaranacaq boşluğun bu korpus tərəfindən doldurulması və Azərbaycan Cümhuriyyətinin təhlükəsizliyinin qorunması idi..."

...Müzəffər Qafqaz İslam Ordusunun uğurlu döyüşü nəticəsində sentyabr ayının 15-də Bakı şəhəri düşmənlərdən tamamilə azad olundu. Ordunun başçısı Azərbaycan Cümhuriyyətinə – Gəncəyə təbrik teleqramı göndərdi. Şübhəsiz ki, bu uğurlu döyüşdə Qafqaz İslam Ordusu da xeyli itki vermişdi... Avqust ayının əvvəllərindən başlayaraq, Bakı cəbhəsində olan 5-ci Qafqaz Diviziyasının 15 sentyabra qədər verdiyi itki isə 30-u zabit olmaqla, 1130-a yaxın idi. Bakı hücumunda azərbaycanlı dəstələrdən meydana gələn qarnizonun 11 şəhidi və 44 yaralısı vardır.[1]

"Bakının azad olunması mübarək bir gün olan Qurban bayramına təsadüf etmişdi. Azərbaycan türkləri ikiqat bayramı bir aləmdə yaşayırdı".[2]

Azərbaycanın erməni-bolşevik bəlasından xilas edilməsində qardaş türk xalqının qəhrəman döyüşçüləri ilə yanaşı – **Nuru Paşa, Musa Paşa, İzzət Paşa, Cəlil Cahid bəy (Toydəmir bəy), Halim Perənev bəy, Mürik Paşa və Ənvər Paşanın misilsiz xidmətləri olmuşdur.**

* * *

Bir sözlə, türk qardaşlarımız xalqımızı bu müdhiş bəladan böyük itkilər bahasına xilas etdikləri kimi, erməni terrorçularına da əməlli-başlı dərs verdilər. Amma S.Şaumyan və onun əlatlarının təşkil etdiyi və qəsdən törətdiyi 1918-ci il soyqırımı nəticəsində Azərbaycan başdan-başa dağıdılmış, yandırılmış, xalqımızın əsrlərin sınaqlarından keçmiş yüzlərlə memarlıq abidələri, tariximizi, adət-ənənələrimizi özündə yaşadan qədim əlyazmalar, kitabələr, sənədlər biləkdən məhv edilmişdir. Odur ki, Fövqəladə İstintaq Komissiyası Şamaxıya və onun kəndlərinə dəymiş maddi ziyanın miqdarını, təxmini də olsa, müəyyən etmişdir. Belə ki, "hesablamalara görə, Şamaxı qəzasının müsəlman əhalisinə dəyən **ziyan bir milyard manatdan çox olmuşdur"**. Amma Şamaxıya dəymiş mənəvi ziyanı isə heç cür dəqiqləşdirmək mümkün deyildir...

"Şamaxı ərazisini darmadağın etmiş və yandırmış terrorçuların əsas ideyası: "öldürmək və qarət etmək, qarət etmək və öldürmək" olmuşdur. Şamaxı şəhərinə hücum, kütləvi dağıntılar və qətllər millətçi S.Şaumyanın rəhbərliyi və yerli ermənilərin əli ilə hazırlanmış və

[1] Birinci Dünya Müharibəsində Osmanlı Ordusunun Qafqaz hərəkatı - Bakı, 1998, səh.42
[2] Yenə orada, səh.51

əsasən, **Stepan Lalayev, Qavril Qaraoğlanov, Arşak Gülbəndov, Mixail Arzumanov, Karapet Aramanov, şuşalı Ağamalov, Sedrak Vlaysov, Samvel Doliyev, Petrosyants, ata və oğul İvanovlar, dəllək Ovanes** və başqaları tərəfindən həyata keçirilmişdir, icra edilmişdir. Bütün bu erməni quldur başçıları öz bandaları ilə birlikdə Şamaxı və onun ətrafında kütləvi yanğınlar və qətllər təşkil etmişlər.

Ümumiyyətlə, yuxarıda göstərilən cinayətlər, kifayət qədər dəlil və sübutlarla təsdiq olunmuş, aşağıda adları qeyd olunan zərərdidə şahidlər tərəfindən təsdiq olunmuşdur:

**1. Stepan Lalayev** – *aşağıdakı şahidlərin verdikləri ifadələrə əsasən ittiham olunur: 1) Mövsüm bəy Sadıqbəyov; 2) Əbdülhüseyn Əliyev; 3) Hacı Kərim Əziz oğlu; 4) Məhyəddin Əfəndi oğlu; 5) Nəsrulla Hacı Süleyman oğlu; 6) Məhəmməd Əbdülrəhim oğlu Abdullazadə; 7) Hacı Heydər Hacı Yusif oğlu; 8) Abdulla Abdullayev; 9) Məlik Nemət oğlu Məlikov; 10) Kərbəlayi Yusif Məmmədov; 11) Alixan bəy Əyyubbəyov; 12) Cavad bəy Məmmədov; 13) Hüseyn Baba Məşədi Əbdüləli oğlu; 14) Siracəddin Əfəndiyev.*

**2. Qavril Qaraoğlanov** – *Şamaxı qəza rəisinin keçmiş köməkçisi, aşağıdakı şahidlərin verdikləri ifadələrə əsasən, ittiham olunur: 1) Mövsüm bəy Sadıqbəyov; 2) Əbdülhüseyn Əliyev; 3) Hacı Kərim Əziz oğlu; 4) Cəlal Molla Fətti oğlu; 5) Sadıq bəy Ağalarov; 6) Məhyəddin Əfəndi oğlu; 7) Məşədi Rəsulhüseyn Əli oğlu; 8) Nəsrulla Hacı Sultan oğlu; 9) Məhəmməd Əbdül Rəhim oğlu Abdullazadə; 10) Abdulla Abdullayev; 11) Məşədi Ələkbər Kərim oğlu; 12) Məlik Nemət oğlu Məlikov; 13) Ağasəlim Hacı Əliyev; 14) Əli Heydər Tağıyev, 15) Alıxan bəy Əyyubov; 16) Cavad bəy Məmmədov.*

**3. Arşak Gülbəndov** – *Şamaxı poçt-teleqraf kontorunun keçmiş rəisi, yuxarıdakı şahidlərin ifadəsi ilə ittiham olunur və əlavə: 17) Panteleymanov İvanoviç Puqaçov, 18) Asif bəy Şıxəliyev, 19) Siracəddin Əfəndiyev.*

**4. Mixail Arzumanov** – *Şamaxı aptek mağazasının sahibkarı, həmin şahidlərin ifadəsi ilə ittiham olunur.*

**5. Karapet Karamanov** – *Hacı Kərim Əfəndi oğlunun və Məhyəddin Əfəndi oğlunun ifadələri ilə ittiham olunur.*

**6. Ağamalov** – *Qarabağ ermənisi, Şamaxıda təlimatçı, həmin şahidlərin ifadələri ilə ittiham olunur.*

**7. Sedrak Vlasov** – *Sadıq bəy Ağalarovun ifadəsi ilə ittiham olunur.*

**8. Samvel Doliyev** – *dəllək, yuxarıdakı şahidlərin ifadəsi ilə ittiham olunur.*

**9. Petrosyants** – *Şamaxıda Qırmızı küçədəki baqaliyyə mağazasının sahibi, Hacı Kərim Əziz oğlunun ifadəsi ilə ittiham olunur.*

**10. Ata İvanov** – *Şamaxıda gön-dəri mağazasının sahibi, Alıxan bəy Əyyubovun və Asif bəy Şıxəlibəyovun ifadəsi ilə ittiham olunur.*

**11. Oğul İvanov** – *yuxarıdakı şahidlərin ifadəsi ilə ittiham olunur.*

**12. Ovanes** – *Şamaxıda dəllək, yuxarıdakı şahidlərin ifadəsi ilə ittiham olunur.*

**13. Sandrik Aqrayev** – *dəllək, yuxarıdakı şahidlərin ifadəsi ilə ittiham olunur.*

**14. Artyom Ter-Matevosyans** – *Sadıq bəy Ağalarovun ifadəsi ilə ittiham olunur.*

**15. Yaqub Martirosyants** – *dəllək, Süleyman Məşədi Rəhim oğlunun ifadəsi ilə ittiham olunur.*

**16. Armenak Yaquboviç Martirosyants** – *həmin şahidlərin ifadəsi ilə ittiham olunur.*

**17. Aleksandr Xaçaturov** – *çəkməçi.*

**18. Mixail Xaçaturov** – ***çəkməçi.***

**19. Dyuni bəy** – *çəkməçi (pinəçi).*

**20. David** – *(soyadı bilinmir).*

**21. Qaspar** – *Saqiyan kənd sakini, Abdulla Abdullayevin şahidliyi ilə ittiham olunur.*

**22. Gerasim Aqriyev** – *Mədrəsə sakini, Məlik Nemət oğlu Məlikovun şahidliyi ilə ittiham olunur.*

**23. Mixail Karabanov** – *molakan, Şamaxı xəzinədarlığın işçisi – Cəlil bəy Cəbrayılov və Tərlan bəy Əliyarbəyovun şahidliyi ilə ittiham olunur.*

**24. Gülbəndov** – *Zabit, Arşak Gülbəndovun oğlu, keçmiş poçt-teleqraf kontorunun rəisi, 1) həkim Vladimir Pavloviç Sazanov; 2) Əliheydər Tağıyev; 3) Asif bəy Şıxəlibəyovun; 4) Tərlan bəy Əliyarbəyovun şahidliyi ilə ittiham olunur.*

**25. Xaçanov** – *Şamaxının keçmiş pristavı.*

**26. Şabanov** – *Şamaxı şəhər sakini həkim Sazanovun şahidliyi ilə ittiham olunur.*

**27. Mixail Ter-Qriqoryev** – *Şamaxı şəhər sakini.*

**28. Arşak Tarasov** – *Şamaxı şəhər sakini.*

**29. Artamanov** – *rus, Cabanıda müəllim.*

**30. Boris Polovşekin**

**31. Semyon Polovşekin**

**32. Vladimir Domiev**

**33. Mamikon Doliv** *və s. 47 nəfər Çuxuryurd kənd sakinləri.*

**34. Babacan Maçekislov** – *Şamaxı sakini Əliheydər Hacı Ağa oğlunun şahidliyi ilə ittiham olunur.*

**35. Atabəyov** – *Şamaxının keçmiş komissarı Siracəddin Əfəndiyevin şahidliyi ilə ittiham olunur.*

**36. Serebriyakov** – *Şamaxı şəhər sakini*

**37. Artur Xaçaturov** – *bənna*

**38. Kolye (Nikolay)** – *erməni, Şamaxıda silah ustası – Məşədi Heydər Sultanovun şahidliyi ilə ittham olunur.*

**39. Tumas** – *Şamaxı şəhər sakini.*

**40. Marazyants** – *Şamaxı uyezdinin Saqiyan kənd sakini.*

**41. Matras** – *dəmirçi.*

**42. Nikitov Camiran oğlu** – *Şamaxı sakini Hacı Hüseyn Salamovun şahidliyi ilə ittiham olunur.*

Yuxarıda göstərilənlərə əsaslanaraq mən hesab edirəm ki, adları çəkilən cinayətkarlar cəzalandırmalı və Baş Məclisin 13, 129, 927, 1633, 1607, 1153 maddələri ilə ittiham olunmalıdırlar.

**Qeyd:** *Adları göstərilməyən cinayətkarlar Şamaxı şəhərində yaşamış və tədqiqat zamanı iştirak edə bilməmişlər.*

***Komissiya üzvü: A.Novatski*** [1]

**Həmin cinayətkarların bir çoxu haqqında vaxtilə qəbul edilmiş qərarda isə oxuyuruq:**

*"1919-cu il iyul ayının 12-də Azərbaycan fövqəladə İstintaq Komissiyası, həmin komissiyanın üzvü Novatskinin məruzəsini dinləyərək, Bakı şəhər sakini Stepan Lalayev, Şamaxı şəhər sakinləri Qavril Qaraoğlanov, Arşak Gülbəndov, Mixail Arzumanov, Karapet Karamanov, Simvel Doliyev, Petrosyans (adı məlum deyil), İvanov-oğul (zabit, adı məlum deyil), Ovanes (dərzi, familiyası naməlum), Armenak Yaqubov Martirosyans, Yaqub Martirosyans – Aleksandr Xaçaturov, Mixail Xaçaturov, Allahverdi Minasov, Krikor (dəmirçi, familiyası bilinmir), Karabanov (adı bilinmir – keçmiş Şamaxı Xəzinədarlıq işçisi), Gülbəndov (Arşak Gülbəndovun oğlu), Xaçanov (keçmiş ristav, adı bilinmir), Şabanov (keçmiş zabit, adı bilinmir). Vladimir Doliyev, Momikon Doliyev, Babağan Mikakiyev, Nikolay (silah ustası, familiyası bilinmir), Arutyun Xaçaturov (bənna), Artamanov (Cabani-rus kəndinin keçmiş müəllimi), Gerasim Ağrıyev (Mədrəsə kənd sakini, Sandrik Ağrıyev (Saqiyan kənd sakini), Qaspar və Ağamusalovu (Qarabağ ermənisi, üzüm istehsalı üzrə instruktor) Şamaxı şəhəri və Şamaxı qəzasının yüzlərlə kəndlərində düşünülmüş surətdə, əvvəlcədən, bir neçə minlik güclü silahlanmış dəstələr yaradaraq, dini köklərə əsaslanaraq, 18 mart 1918-ci ildən başlayaraq bir neçə gün ərzində, minlərlə günahsız insanları – uşağı, qadını, qocanı, kişini vəhşicəsinə məhv etdikləri üçün təqsirli bilir. Bu faciə törədilər-*

[1] Az. R.DA f. 1061, 1. iş. 87, v 6-8

*kən, həmin cəlladlar, qeyri-insani vəhşiliklərə əl atmışlar – insanların qulaqlarını, burunlarını kəsmiş, gözlərini çıxartmış, qadınların qarınlarını yırtmış, körpə uşaqları süngiyə keçirmişlər. Silahlar əsasən, toplardan, pulemyotlardan, tüfənglərdən, tapançalardan, qılınclardan ibarət olub. Basqın zamanı yüzlərlə zorlama hadisələri qeydə alınmışdır. Daşınan əmlakın talan edilməsi, bir milyard manatdan çox hesablanır.*

*Şamaxı şəhərinin müsəlman yaşayan hissələri tamamilə yandırılmış və ya məhv edilmişdir. Şamaxı və onun qəzasında 13 məscid xarabaza çevrilmişdir. Bütün bunlara əsaslanaraq, Azərbaycan Respublikasının 21 mart 1919-cu il tarixli qərarı və Azərbaycan Ədliyyə Nazirliyinin 25 iyun 1918-ci il tarixli 3166 №li sərəncamına əsasən qərara alır:*

**Adları yuxarıda göstərilən müqəssirlər Cinayət Məcəlləsinin 13, 129, 922, 927, 1630, 1633, 1637, 1453 və 1607 maddələri ilə ittiham olunsunlar.**

***Komissiyanın sədri: (imzası)***
***Komissiyanın üzvləri: (4 üzvün imzaları)*** [1]

* * *

İlk dəfə Azərbaycan Demokratik Cümhuriyyəti tərəfindən hər il mart ayının 31-i soyqırımı – matəm günü kimi qeyd olunmuşdur. Respublikamız müstəqillik əldə edəndən sonra, **Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənabları** 26 mart 1998-ci il fərmanında bu faciyəyə xüsusi qiymət verərək yazır: "Azərbaycan Demokratik Cümhuriyyəti yaranandan sonra, 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqalədə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, iki ilkin mərhələdə – Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i ilk dəfə Azərbaycan Demokratik Cümhuriyyəti tərəfindən

[1] ARDA fond 1061 siy. 1, iş 108, səh.15

ümummilli matəm günü kimi qeyd edilmişdir".[1]

* * *

Bu komissiya Şamaxıda soyqırımı törədən cinayətkarları müəyyən edəndən sonra xeyli müddət istintaq aparılmışdır. Komissiya ilk əvvəl Şamaxıda bu işə rəhbərlik edən Stepan Lalayevin mühakiməsi ilə bağlı 14 mart 1919-cu il tarixdə cinayət işi başlamışdır. Erməni terrorçusunun törətdiyi bütün cinayətlər, şahidlərin ifadəsi ilə sübuta yetirilmişdir. S.Lalayevin cinayətləri barədə məhkəmə müstəntiqi Komarovskinin tərtib etdiyi bir çox sənədlər mövcuddur.

**İş №22. Əlahiddə işlər üzrə, məhkəmə müstəntiqi Komarovski, 13 1453 №li 1525-1606 maddələr üzrə, ittiham olunan Stepan Lalayevin işi** – Baş: 20/II-1919-cu il.

**İttifaq hərbçilərinin Bakı şəhərində yerləşən cənab Komandanına:**

***Əlahəzrət komandan!*** *Zati-aliləri! Məlumat verirəm ki, Fövqəladə İstintaq Komissiyasında Stepan Lalayevin işi haqqında apardığım sorğulara şahidlərin tutarlı cavabları olmuşdur.*

*"...Şamaxı şəhərinə gələn Stepan Lalayev, Samson Aspirov və Sayatsazbəyov özləri ilə birlikdə güclü erməni dəstələri gətirmişdilər. O, adları çəkilən ermənilərlə, habelə yerli ermənilərlə – Arzumanov və Gülbəndovla birləşərək, müsəlman qaydasına görə, məscidlərdə gizlənən qadın və qızlara, habelə qocalara və uşaqlara işgəncələr verməyə başlamışdır. Şəhərdə olan bütün məscidlərə onun təhriki ilə od vurulmuşdur. Oradan çıxıb, canını qurtarmaq istəyənlərin hamısını vəhşicəsinə qətlə yetirilmişdir. Məsciddə qalanlar isə zəbanə çəkən odda yanıb məhv oldular. Beləliklə, Şamaxı şəhərində müsəlmanlar yaşayan məhəllələri tamamilə xarabazara çevirdilər.*

*Lalayevin əmrinə əsasən, gənc müsəlman qızlarını erməni əsgərləri Şamaxıda yerləşən xüsusi evlərinə aparıb, məcburən içki içirərək, sərxoş vəziyyətdə zurna sədaları altında rəqs etdirirdilər. Sonra isə onları zorlayırdılar. Bu əməliyyatlardan sonra bəzilərini yerindəcə doğrayıb, bəzilərini isə hündür balkonlardan küçəyə atıb öldürürdülər. Yalnız türk ordusunun Şamaxıya gəlişindən sonra, cəmi-cümlətanı 7 nəfər qız uşağını xilas etmək mümkün olmuşdur".*[2]

* * *

***Çaparidzenin adına. İcraiyyə Komitəsinin üzvü İ.Boqomolov tərəfindən göndərilmiş gizlin xəbərin surəti:***

[1] Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, "Xalq" qəzeti, 26.III.1998

[2] ARDA. f. 1061, s.1. iş 92, v.99

*"Bir daha sizdən xahiş edirəm ki, cəllad Lalayevi həbs edəsiniz. O, çoxlu sayda qadın və uşaq öldürmüş, evlər qarət etmişdir. Əmirov onu həbs etmək istədikdə, qaçıb gizlənmişdir. Hamı təsdiq edir ki, o, məscidi yandırmış və orada çoxlu qadın qətlə yetirmişdir. Növbəti xəbərləri əldə edən kimi sizə göndərəcəyəm.*

***İcraiyyə Komitəsinin üzvü: İ.Boqomolov.***

**Şamaxıda rus dini rəhbərinin, Lalayev haqqında verdiyi ifadə:**
*Düzgün və halal adamların məlumatlarına görə, S.Lalayev məsciddə qadın və uşaqları öldürmüş və yandırmışdır. Belə açıq vəhşilikləri Allah özü bağışlasın!*

***Şamaxı, yerli rus dini rəhbəri***
***İoani Fyodroviç Boqomolov*** [1]

Çox əfsus ki, erməni daşnaklarının Şamaxı qəzasında törətdikləri soyqırımı, faciə-terror aktına "yuxarılar" xüsusi don geydirdilər. Belə ki, bu, "siyasi-sinfi mübarizə və ya vətəndaş müharibəsi" adı altında istintaqa təqdim edildi... Və bolşeviklər hakimiyyətə gəldikdən sonra minlərlə insan qatili olmuş S.Lalayev və onun silahdaşları törətdikləri qanlı cinayətdən yaxalarını asanlıqla qurtara bildilər. İşə xitam verildi...

**Bu barədə Azər. SSR MDAİ-də saxlanılan (f. 1061, q. 1 və ya 99) sənəddə oxuyuruq:**

Şamaxı İstintaq Komissiyasının Stepan Lalayevin mühakiməsi barədə işi:

***(Baş: 14.III.1919-cu il, qur: 29.XI.1920)***
***Mühüm işlər üzrə müstəntiq Komarovskinin***
***22 № li işi Stepan Lalayevin mühakiməsi***
***üzrə (maddə; 1525-106: □ 131453).***

## QƏRAR

*1920-ci il 23 noyabr tarixdə Şamaxı İstintaq Komissiyası Stepan Lalayev və digərlərinin mühakiməsi ilə əlaqədar işə baxaraq bildirir ki, onların Şamaxıda törətdikləri zorakılıqlar və ağır cinayətlər 1918-ci ildə – vətəndaş müharibəsi günlərinə təsadüf etmişdir. Bu cinayət-*

[1] ARDA. f.1061, s.1, iş 99 və 11

*lər milli düşmənçilik zəminində baş vermişdir. Xalq Ədliyyə Komissarlığı sərəncamının 2 fevral 1920-ci ildə verilmiş amnistiya haqqında qanuna əsasən bu işə xitam verilmişdir.*

*Qərara alınmışdır: Stepan Lalayev haqqında qaldırılmış istintaq işinə xitam verilsin və həmin iş Şamaxı uyezdinin mühüm işlər üzrə xalq məhkəməsinə göndərilsin.*

**İstintaq Komissiyasının sədri**

* * *

Ermənilər tərəfindən 1918-ci il soyqırımı Şamaxıda daha dəhşətli şəkildə həyata keçirildi. Əfsus ki, Şamaxı qəzasında soyqırımı və qırğın törətmiş erməni-daşnak cəlladları cəzasız qaldılar. Bundan əlavə, qəsdən qırğın və hadisələr haqqında İstintaq Komissiyasının min bir əziyyətlə topladığı sənədlərin çoxusu məhv edildi. Qalanlar isə "arxivlərdə həbs olundu". Erməni soyqırımından danışmaq isə tam yasaq edildi. "Dili uzun" olanlar "xalq düşməni" adı ilə uzaq Sibirə göndərildi. Özü də ömürlük...

* * *

Bundan əlavə, sənədlərdə Şamaxı qəzasından qaçqın düşənlərin sayı 18 mindən artıq qeyd olunmuşdur. Apardığımız araşdırmalar, topladığımız xatirələrdən bəlli olur ki, Şamaxının bəzi kəndlərində qətlə yetirmələrin sayı Fövqəladə İstintaq Komissiyası protokoluna ya düşməmiş və yaxud nədənsə (bəlkədə araşdırmalar başa çatmadığı üçün) qətlə yetirilənlərin sayı az göstərilmişdir.

**Mənbələrdən:** "Şamaxı şəhərində təqribən, 8-12 min, bütövlükdə Şamaxı qəzasında isə 40 min nəfərə qədər insan qətlə yetirilmişdir. Çox təəssüf ki, onların yalnız 12 min nəfəri qeydə alınmışdır"[1].

## QOBUSTANIN KƏNDLƏRİNDƏ TÖRƏDİLƏN SOYQIRIM

1918-ci ildə Şamaxı qəzasına indiki Ağsu, İsmayıllı, Hacıqabul, Kürdəmir, Qobustan rayonunun bir çox əraziləri də daxil idi. Erməni daşnak-bolşevik birləşmələri tərəfindən ərazilərdə ağlasığmaz faciələr törədilmiş, şəhər və kəndlər xarabalığa çevrilmiş, uzaq əsrlərdən həmin dövrə qədər salamat qalmış minlərlə memarlıq abidələri yox

[1] Soyqırımı. Xalq qəzeti. Bakı. 27 mart. 2001

həmin dövrə qədər salamat qalmış minlərlə memarlıq abidələri yox edilmiş, xalqın var-dövləti talanmış, mənimsənilmişdir.

Nəhayət, Azərbaycan Demokratik Cümhuriyyəti hakimiyyəti ələ alandan az sonra 1918-ci il soyqırımını araşdırmaqdan ötrü Fövqəladə İstintaq Komissiyası yaradılması haqqında Xarici İşlər Naziri M.Hacinski hökumətə müraciət etdi: **"Artıq dörd aydır ki, Azərbaycan ərazisinin bəzi yerlərində bolşevik adı altında, özbaşına erməni hərbi dəstələri dinc müsəlman əhalisinin başına misli görünməmiş vəhşiliklər açır. Belə ki, bu dəstələrin təşkilatçıları verilən məlumatları – Avropaya yalan çatdırırlar və ya onları yalana inandırırlar. Ümumdövlət və zərərçəkən əhalinin bir qrupunun marağını nəzərə alaraq təcili olaraq, aşağıdakı işləri həyata keçirmək üçün təşkilat yaranmalıdır: 1) Zor gücümə edilmiş bütün hadisələrin dəqiq qeydiyyata alınması; 2) Zor işlədilmiş yerin şəraitini təyin etmək; 3) Günahkarların üzə çıxarılması və dəymiş ziyanın təyin edilməsi.**

Yaradılmış təşkilat Fövqəladə İstintaq Komissiyası xarakteri daşımalıdır. Komissiyanın məlumatları əsas Avropa dillərində (rus, fransız, alman və əlbəttə ki, türk dillərində) yazılmalı və geniş yayılmalıdır... Əgər, hökumət razılaşarsa, mən xahiş edərdim ki, bu Komissiya yaradılandan sonra Nazirliyin hesabına müvəqqəti istifadə üçün 50.000 manat vəsait köçürüm"[1].

Nəhayət, 1918-ci ilin iyul ayının 15-də Fövqəladə İstintaq Komissiyası yaradıldı. Həmin komissiyanın sədri **Ələkbər bəy Xasməmmədov** təyin edildi. Komissiyanın üzvləri isə **İsmayıl bəy Şahmalıyev, Andrey Fomiç Novatsk, Nəsrəddin bəy Səfikürdski, Nikolay Mixayloviç Qubvil, Mirzə Cavad Axundzadə** seçildi. Komissiya respubliamızın başqa bölgələri ilə yanaşı, Şamaxı və onun kəndlərində törədilən dəhşətli qırğınlar barədə məlumat əldə etmək üçün yerlərdə olmuş, faciəni gözləri ilə görənlər, şahidləri – ziyalılar, dövlət adamları, kənd mollaları, starşınaları, mülk sahibləri ilə görüşmüş və əldə etdikləri məlumatları rəsmiləşdirmişdir. Hadisələrdən 84 ildən artıq vaxt ötməsinə baxmayaraq, həmin sənədlərin bir qismi Azərbaycan Mərkəzi Dövlət Arxivində saxlanılmışdır. Amma onu da etiraf etmək lazımdır ki, bir çox sənədlər Sovetlər Birliyi zamanı hansı yollarlasa ermənilər tərəfindən aradan çıxarılmış və ya məhv edilmişdir.

**Haşiyə:** Bu da həqiqətdir ki, soyqırımı barədə dövri mətbuatda 1920-ci il aprel ayının 28-nə kimi müxtəlif yazılar çap olunmuşdur.

[1] ARDA. f. 1061, s. 1. iş, 95, və 1.

Belə ki, "Müsavat" yönümlü qəzetlər hadisələri olduğu kimi qələmə aldığı halda, bolşevik-daşnak əqidəli qəzet və jurnallarda isə hadisələr onların baxışı kimi – səhv şəkildə əhalinin nəzərinə çatdırıldı. Bu illərdə Bakıda çap olunan qəzetlərdən biri də "Bakinskiy raboçiy" idi. Qəzetə S.Şaumyanın "sağ əli" – A.Əmiryan redaktorluq edirdi. Bu qəzet vasitəsi ilə, onlar musavat partiyasının ünvanına yalanlar söyləyir, bolşevik adı altında öz siyasətlərini həmfikirlərinə çatdırırdılar.

Şaumyan Bakıda güclü bir ordu yarada bilmişdi. "Bakı Kommunası ordusunun 70 faizi ermənilərdən ibarət idi. Onlar, guya, bolşeviklərin yaratdığı Qızıl Ordunu təşkil edirdilər. Ümumiyyətlə isə, bu orduda 18 min nəfər silahlı var idi ki, onlar Şaumyanın əmrini gözləyirdilər. Lakin bu dövrdə Şaumyanın qarşısını bir məsələ kəsirdi. Lənkəranda yaradılmış müsəlman diviziyasını tərki-silah etmədən əməliyyata başlamaq olmazdı"[1].

Bu ordunun köməyi ilə qanlar tökən daşnaklar Bakıda "Novruz", "Kaspi", "Turan" mətbəələrini qəsdən yandırılmışdı. Bunun nəticəsi idi ki, bir çox mətbuat orqanlarının nəşri dayandırılmışdı. Amma qələm sahibləri hadisələrə biganə də qalmırdılar. Faciələr barədə məqalələr, şerlər, məlumatlar hazırlayır, çap etdirmək üçün məqam gözləyirdilər. 1918-ci il soyqırımı ilə bağlı yazılan əsərlərin bir qismini Azərbaycan Xalq Cümhuriyyəti məğlubiyyətə uğradıqdan sonra müəlliflər özləri qorxudan məhv etmişlər. Bəzlərini də 1920-ci ildə müxtəlif vəzifələrdə çalışan erməni məmurları məhv etmişdir.

Fövqəladə İstintaq Komissiyası əldə etdiyi məlumat əsasında Şamaxı uyezdində qətlə yetirilmiş, yaralanmış insanlar barədə məlumatları aşağıdakı kimi ümumiləşdirmişdir[2].

| Sıra | Kənd | Kişi | Qadın | Uşaq | Yaralı |
|---|---|---|---|---|---|
| 1 | Cəyirli | 40 | 20 | 15 | 4 |
| 2 | Ərəbqədim | 200 | 100 | 78 | yox |
| 3 | Cəmcəmli | 15 | 5 | 6 | yox |
| 4 | Mırtı | 4 | - | 1 | - |
| 5 | Talış-Məlik | 11 | 4 | 1 | yox |
| 6 | Mirikənd | 8 | 9 | 2 | yox |
| 7 | Şərədil | 10 | 5 | 5 | yox |
| 8 | Quşçu | 192 | 115 | 25 | yox |
| 9 | Şıxməzid | 10 | 5 | 3 | yox |

[1] V.Həbiboğlu. Azərbaycanda 1918-ci il soqırımının əsas təşkilatçısı S.Şaumyan olmuşdur. "Respublika" qəzeti, 31.III. N

[2] ARDA. fon. 10, 61ı, iş 1, vər 85.

| Sıra | Kənd | Kişi | Qadın | Uşaq | Yaralı |
|---|---|---|---|---|---|
| 10 | Yux. Çağan | 1 | - | - | - |
| 11 | Ağabəyli | 7 | 3 | 4 | Yox |
| 12 | Qaravəlli | 40 | 50 | 30 | Yox |
| 13 | Barbar Navahı | 15 | 10 | 5 | Yox |
| 14 | Goruş-Çaparlı | 10 | 15 | 10 | 1 |
| 15 | Kürdəmir | 25 | - | - | - |
| 16 | Qonaqkənd | 25 | 5 | 4 | Yox |
| 17 | Ovculu | 5 | 10 | 12 | yox |
| 18 | Bağırlı | 80 | 150 | 140 | yox |
| 19 | Təkəli | 360 | 412 | 150 | yox |
| 20 | Hacılı | 40 | 60 | 30 | yox |
| 21 | Dilman | 300 | 235 | 50 | yox |
| 22 | Kalva | 250 | 150 | 100 | - |
| 23 | Xatian | 60 | 40 | 20 | yox |
| 24 | Suraxanı | 11 | 3 | 6 | yox |
| 25 | Xəsiqara | 46 | 20 | 16 | yox |
| 26 | Tircan | 300 | 40 | 20 | yox |
| 27 | Talışnuru | 20 | 5 | - | - |
| 28 | Sərdakar | 8 | 12 | 8 | yox |
| 29 | Zərqəva | 40 | 4 | 5 | yox |
| 30 | Xankəndi | 12 | 8 | - | yox |
| 31 | Təbiyə | 12 | 3 | 2 | yox |
| 32 | Makahı | 6 | 1 | 1 | yox |
| 33 | Tağlabiyan | 7 | 22 | 7 | yox |
| 34 | Gürcüyan | 10 | 5 | 7 | yox |
| 35 | Kələrağ | 1 | - | - | - |
| 36 | Bizlən | 50 | 30 | 20 | yox |
| 37 | Müci | 150 | 55 | 25 | yox |
| 38 | Qıratan | 30 | 20 | 21 | yox |
| 39 | Pir qaraçuxa | 4 | 3 | 5 | yox |
| 40 | Sulut | 38 | 1 | 4 | - |
| 41 | Zeyvə | 30 | 20 | 32 | yox |
| 42 | Nuran | 30 | 50 | 37 | yox |
| 43 | Nüydi | 40 | 7 | 10 | yox |
| 44 | Qəşəd | 50 | 40 | 27 | yox |
| 45 | Sündi | 250 | - | - | - |
| 46 | Şıxlar | 4 | - | - | - |

| Sıra | Kənd | Kişi | Qadın | Uşaq | Yaralı |
|---|---|---|---|---|---|
| 47 | Bəlkə | 16 | - | - | - |
| 48 | Ağsu | 200 | - | - | - |
| 49 | Qəməli | 9 | 18 | 16 | - |
| 50 | Məlikçobanı | 10 | - | - | - |
| 51 | Çuxanlı | 52 | - | - | - |
| 52 | Qurbançı | 93 | - | - | - |
| 53 | Mərəzə | 300 | - | - | - |
| 54 | Nabur | 60 | - | - | - |
| 55 | Qaracüzlü | 8 | - | - | - |
| 56 | Ərəbşahverdi | 22 | - | - | - |
| 57 | Çaylı Vahidbəyli | 5 | - | - | - |
| 58 | Şıxzərli | ? | - | - | - |
| | **Cəmi** | **3632** | **1771** | **956** | **7** |

**NABUR SOYQIRIMI.** Qozlu kəndinə daha yaxın olan Naburda erməni və malakanların törətdikləri vəhşiliklər barədə də müxtəlif sənədlər, rəsmi məlumatlar vardır. 23 noyabr Nabur kənd sakinlərindən bir qrupu Fövqəladə İstintaq Komissiyasına yazdıqları ərizədə erməni vəhşilərini bu cür göstərmişlər: "Erməni basqınına kimi bizim kənddə evlərin **sayı 280**, əhalinin sayı **isə 1486 nəfər idi**... Ermənilər kəndə basqın edərkən, təxminən, 200 evi yandırmış, 60 nəfər kənd sakinini öldürmüşdülər" [1]...

Nabur kəndində törədilən cinayəti həmin ilin 13 noyabrında kənd sakinlərinin bir qrupunun dindirmə protokolunda daha aydın ifadə olunur. O, zaman kənd sakini Sunalı Novruz oğlu hökumət nümayəndələrinə belə məlumat vermişdir: "Mənim adım Sunalı Novruz oğludur. 70 yaşım var. Müsəlmanam, savadsızam... Ermənilər bizim kəndə axşama yaxın hücum etdilər. Biz müdafiə olunmaqda aciz idik. Buna görə də dağlar arasında yerləşən "Qarayazı" adlanan yerə tərəf qaçdıq. "Qarayazı" da bir ay qalmalı olduq... Türklər gələnə kimi orada gözlədik. Ermənilər bizim kənddən 60 nəfər öldürmüş, 200-ə yaxın ev, bütünlüklə dağıtmışlar"[2].

**Yaddaşlardan:** Nabur kəndinin 20-yə yaxın 70-80 yaşlı sakinlərilə görüşmüşük. Onların bəziləri 10-12 yaşlarında olarkən ermənilərin törətdikləri dəhşətləri gözləri ilə görmüşdülər. Dedikləri kimi,

[1] ADPA. f. 1061, s. 1. iş. 6, vər. 138.
[2] ADPA. f. 1061, s. 1. iş. 6, vər. 137.

uşaq yaddaşlarına həkk olunmuş o dəhşətlər "indinin özündə də yaddaşlardan silinməmişdir".

**Məhəmməd Nuruş oğlunun (100 yaş) dediklərindən:** *"Səhv etmirəmsə, 1918-ci ilin yazı idi. Xəbər çıxdı ki, ermənilər Şamaxını yandırmış, yüzlərlə əhalini qətlə yetirmişlər. Artıq ermənilərin bir hissəsi gəlib indiki Xilmillidə qərar tutmuşdur. Bizim ərazilərin yolunu ermənilərə lənət gəlmiş "urus" göstərir. Həmin urusun birinin adı yadımdadır. Ona Mirzə Pevil (yəqin ki, Pavel –* **S.Q***) deyirdilər. Camaat bilmədi neyləsin. Kənd ağsaqqallarının məsləhəti ilə adamlar dağlara çəkilməyə başladılar. Kənddə düşkün qoca və xəstələr qaldı. Gecə qaranlıq düşəndə, kənd sakinlərindən bir qrup adam kəndə gəlir, taxıl quyularından buğda götürüb dağda qalan əhaliyə çatdırırdı. Biz də qorğa qovurub birtəhər yaşayırdıq. Bizim kənd sakinlərindən bir qrupunu ermənilər ələ keçirə bilmişdilər. Həmin adamları Qozlu çayda olan "Nikolay dəyirmanı"na yığmışdılar... Bu zaman səs çıxdı ki, türklər gəlirlər. Ermənilər kəndi yandırıb Xilmilliyə çəkildilər... Kəndə qayıtdıq. Gördük ki, kənd yanmış, xarabazara çevrilmişdir. Taxıl quyularının arpa-buğdasını aparmış, qalanlarını isə yandırmışlar. Kənddə onlarla meyit var idi. Kəndin mollası Molla Əhməd qoca və xəstə olduğu üçün dağa gedə bilməmişdir. Onun böyük qızı Sitarə camaatla dağlara çəkilmiş, kiçik qızı Fatma isə, kənddə atasının yanında qalmışdı... Onların hər ikisinin yandırılmış meyidini evlərinin yanından tapdıq... Bütün qətlə yetirilənlərin cəsədləri yandırılmış və ya qılıncla doğranmışdı. Allah-təala türklərin dadına çatsın, yoxsa, əhalinin hamısı dağlarda, dərələrdə məhv olacaqdılar"...*

**SÜNDÜ SOYQIRIMI.** Soyqırıma məruz qalan Qobustan kəndlərindən biri də Sündü olmuşdur. Mənbələrdə bu kəndin 250 sakini erməni daşnakları tərəfindən qətlə yetirildiyi göstərilir. Amma bu fakt o qədər də dəqiq deyildir.

**Fövqəlada İstintaq Komissiyasının sənədlərində Sündü kəndində tərtib olunmuş aktda oxuyuruq:** *"Biz aşağıda imza edən Şamaxı uyezdinin Sündü kəndinin sakinləri 1918-ci il noyabrın 8-də keçirilən iclasda aşağıdakı qərara gəlmişik:*

*1. Ermənilərin bizim kəndə basqınına qədər evlərin sayı* ***433 və əhalinin sayı 2553 nəfərdən ibarət olmuşdur.***

***2. Ermənilərin basqını zamanı 198 ev yandırılmış və 295 nəfər öldürülmüşdür"*** [1].

[1] ADPA. f. 1061, s. 1. iş. 6, vər. 48.

Həmin aktda öldürülən kənd sakinlərinin adı və soyadı da göstərilmişdir. Amma bizim yaşlı kənd sakinlərindən öyrəndiklərimizdən aydın olur ki, Sündü kəndində qətlə yetirilənlərin sayı 250 nəfərdən çox olmuşdur.

**Hacı Molla Səbzalı:** *"Ermənilər bizim kəndə yaman divan tutublar. Mən onda uşaq olmuşam... Amma yadımda qalanlar və eşitdiklərim çoxdur. Əvvəla, onu deyim ki, ermənilərin Qozludan gəldiklərini eşidən camaat kəndi tərk edir. Kəndə çatanda onlar ilk əvvəl yaşlı kişi Qocalı Cəbi oğlu və Töhfə qarını haxlayırlar. Onları əzab-əziyyətlə qətlə yetirirlər. Kənddə əllərinə keçənləri bir yerə cəm edirlər. Sonra onları kəndin aşağısına – Şakirli bağı deyilən yerə aparıb orada öldürür və cəsədlərini dərəyə töküb üstünü örtürlər. Anam deyirdi ki, Fatma qarını kəndin içindəki iydə ağacından asıb diri-diri od vurub yandırmışlar. Bir də deyirdi ki, gavurlar, ananın gözləri qarşısında iki uşağını öldürüb, atın ayağı altına atıblar. Ana uşaqlarına cumanda güllə ilə vurub öldürürlər. Kənddə əllərinə keçən mal-qaranı Qozlu kəndinə aparırlar...*

*Yaşım çoxdur. Alman savaşında da olmuşam, ermənilərin dinc əhaliyə qarşı törətdikləri vəhşiliyin isə oxşarını görməmişəm. Bu yaşda da həmin hadisələri xatırlayanda tüklərim biz-biz olur, üşənirəm. Bizi erməni bəlasından türk ordusu xilas etdi. Yoxsa, bu torpaqda bir dənə də olsun azərbaycanlı qalmayacaqdı!.. Sonralar biz uşaqlar xilaskar türk ordusunun adına yazılmış şer də əzbərləmişdik. Bircə parça yadımda qalıb:*

***Xaçpərəstlər tez Qozluya doldular,***
***Xaç çəkdilər, başlarını yoldular,***
***Türk ki, gəldi, saman kimi soldular,***
***Bir də gördüm, qoşun sanbasan gəlir.***

***Donuz otarmaq kafirlər peşəsi,***
***Nə başladı erməninin vay səsi,***
***Türklərin ala gözlü paşası,***
***Düzülüb dalbadal, yanbayan gəlir."***

**Babazahid Əbilqasım oğlunun dediklərindən:** *"Atam deyərdi ki, ermənilərin kəndimizə hücum sorağını eşidən kimi, ayağı yol tutan qaçıb başını qurtardı. Kənddə qalanların hamısı qətlə yetirildi. Bir müddət sonra geri qayıtdıq. Hamının taxıl quyuları vardı. Kafirlər taxılları götürüb, quyuları öldürdükləri insanların meyitləri ilə doldur-*

*muşdular. Camaat quyuda olan meyitləri çıxarıb dəfn etdilər. O meyit yox idi ki, ermənilər onun bədənində onlarla dəlmə-deşik açmasın, gözünü çıxarmasın, qulaqlarını kəsməsin, alnına xaç çəkməsin"...*

**Aşıq İsmi Məmmədnəbi oğlu.** 1860-cı ildə Sündü kəndində anadan olmuşdur. Gözəl səsə və təbə malik olmuşdur. Gənc yaşlarından aşıqlaq sənətinə yiyələnən Aşıq İsmi Şirvan ərazisində məşhur olmuşdur. O, Aşıq Daşdəmir, Aşıq Nurəddin, Aşıq Bilal, Aşıq Şamılla dost olmuşdur. Erməni-molakan cəlladları Sündü kəndini odlara qalayıb, əhalini kütləvi sürətdə məhv etmişlər. Aşıq İsmi də həmin faciənin qurbanlarından olmuşdur. Aşığın şerindən nümunələr əldə edə bilmişik.

***Hər insandan lələ olmaz,***
***Sən Kərəm lələsinə bax.***
***Dillə ürək düz olmasa,***
***Duy ürəyin səsinə bax.***

***Nadan gəlib keçə başa,***
***Bir vicdan ki, dönə daşa,***
***Döz belə gərdişə, yaşa,***
***Onda işin tərsinə bax.***

***Dost tutanda, yar seçəndə,***
***İsmi, gəl yanılma sən də,***
***Bir adamla yol gedəndə,***
***Kök-soyuna, irsinə bax.***

**CƏYİRLİ SOYQIRIMI.** Şamaxı qəzasında ermənilərin yandırıb talan etdiyi kəndlərdən biri də Cəyirli olmuşdur. Arxiv sənədlərində bu kənddə ermənilərin 75 nəfəri (40 kişi, 20 qadın və uşaq) qətlə yetirildiyi bildirilir. *Bu barədə kənd starşınası **Molla Mirzəlinin** tərtib etdikləri aktda oxuyuruq:* **"Mən Cəyirli kəndinin starşinası (kənd 165 evdən ibarətdir) və kəndin hörmətli adamlarından ibarət komissiya 1919-cu ilin aprel ayının 3-də tərtib edirik, həmin aktı ondan ötəri ki, 1918-ci ilin mart ayında ermənilərin bizim kəndə basqını zamanı aşağıdakı qaydada ziyan dəymişdir:**

**1. Öldürülənlər: 40 kişi, 20 qadın, 15 uşaq.**

**2. Yaralananlar 2 kişi, 2 uşaq.**

**3. Evlər və binalar dağıdılmış və 500.000 manat dəyərində.**

**4. Aparılış və öldürülmüş mal-qara, 500 baş, 27000.00 man dəyərində maddi ziyan dəymişdir.**

**5. Xırda baş heyvan – 700 baş, – 700.00 manat dəyərində.**

**6. Taxıl məhsulları aparılmış – 2 milyon manat dəyərində.**

**7. Ümumi ziyanı – 9720.000 manat dəyərində ziyan dəymişdir [1].**"

**Aşıq Barat Əhməd bəy oğlunun (1916-1994) xatirələrindən:** Bizim kəndimiz malakan kəndlərindən Mərəzə və Xilmilliyə yaxındır. 1918-cı ildə bizim kəndə ilk Xilmilli malakanları hücum edib, sonra da Mərəzə malakanları gəliblər. Camaat xəyanətdən 2-3 gün qabaq xəbər tutan kimi kənddən çıxmağa başlayıblar. Özü də Küdrü düzündən Cəyirli qışlağına. Kənd sakinlərindən qocalar, xəstələr, eləcə də, imkanı olmayanlar çıxa bilməmişlər. Camaatın mal-qarasının çoxusu da Cəyirlidə qalmışdır. Erməni-molokan dəstəsi kəndi talan edib, əhalini müxtəlif üsullarla qətlə yetiriblər. Anam deyərdi ki, baba kişi xəstə olduğu üçün kənddən çıxa bilmir. Oğlanlarından ikisi və anaları ataları ilə kənddə qalırlar. Qardaşlar ermənilərin gəldiyini görüb, quyuda gizlənirlər. Görürlər ki, cəlladlar xəstə kişini və qoca qarını sürüyə-sürüyə evdən çıxartdılar. Qardaşlar bu mənzərəyə tab gətirə bilməyib, quyudan çıxır və ermənilərlə əlbəyaxa olurlar. Əllərindəki xəncərlə hərəsi bir ermənini cəhənnəmə vasil edir. Bundan qızışan o biri ermənilər qardaşları güllə ilə vurur, sonra ata-ananın gözü qarşısında başlarını kəsirlər. Bu mənzərəni görən ata-ana yerlərindəcə donub qalırlar, dilləri tutulur. Ermənilər ata-ananı da gətirib övladlarının yanında öldürürlər...

Ümumiyyətlə, yağı düşmən Cəyirlidə yüzdən çox insanı faciəli şəkildə qətlə yetirmişdir, Səlyan, Hacıqabul ərazisinə pənah aparanlar bir daha geri – Cəyirliyə qayıtmayıblar"...

**Mirzə Assan oğlu** – Həmin ildə Cəyirlidən Salyanın Qarabağlı kəndinə köçənlərdən olmuşdur. El şairi gördüyü müsibətləri şerlərində bəyan etmiş, ermənilərə öz nifrətini bildirmişdir. Əfsus ki, el şairinin bu səpgili şerləri 1920-ci ildən sonra məhv edilmişdir. El şairinin on beş şerini əldə etmişik.

*Ay ağalar, sizə tərif eyləim,*
*Bahar olcaq açır gülü, Şirvanın.*
*Bu yaz qara gəlib millət "ah" çəkir,*
*Düşübdür tapırğa eli, Şirvanın.*

[1] ADPA. f. 1061, s. 1. iş. 85, vər. 4.

***Dörd tərəfdən düşmən axıb gəlibdi,***
***Axıb göz yaşımız selə dönübdü,***
***Eşitmişəm Azad bəy də ölübdü,***
***İndi bildim sınıb beli Şirvanın.***

***Yalan olsun, qurban kəsim adına,***
***Beş kimsənə özü yetsin dadına,***
***Hərdən-hərdən düşür, mənim yadıma,***
***Soyuq bulaqları, seli Şirvanın.***

**DAĞ KOLANI SOYQIRIMI.** Fövqəladə İstintaq Komissiyasının üzvü A.F.Novatsinin məruzəsində göstərilir ki, erməni "banditləri" Şamaxı qəzasının köçəri Dağ-Kolanı elatını yandırmış, silahsız əhalisini qətlə yetirmişdi. Dağlara qaçan əhali yollarda müxtəlif işgəncələrlə vəhşicəsinə öldürülmüşdür. **Öldürülnlər arasında 15 kişi, üç qadın və beş uşaq olmuşdur"** [1].

**CƏMCƏMLİ SOYQIRIMI.**. "Güclü silahlanmış erməni "Daşnakustun" terrorçuları odsaçan silahla Azərbaycan kəndi olan Cəmcəmliyə hücum etmişlər. Kənd yandırılmışdır. Kənddə 15 kişi, beş qadın, altı uşağa divan tutulmuş və öldürülmüşdür"[2].

**ƏRƏBQƏDİM SOYQIRIMI.** Qobustanın ən çox ziyan çəkmiş, qarət edilmiş, sakinləri müsibətlərə, faciələrə düçar olmuş kəndlərindən biri də Ərəbqədim olmuşdur. Fövqəladə İstintaq Komissiyasının protokolunda bu **kənddə 378** nəfərin qətlə yetirildiyi qeyd olunsa da, əslində, bu kənddə öldürülənlərin sayı **500 nəfərdən** çox olmuşdur. Özü də qətlə yetirilənlər arasında uşaqlar daha çoxdur. Siyahıya düşən uşaqların sayı 78 nəfərdirlər. Bu kənddə qətlə yetirilənlər haqqında vaxtilə tərtib edilmiş aktda oxuyuruq: *"Mən Ərəbqədim kəndinin starişinası (kəndə 358 evdən ibarətdir) və kəndən nümayəndə seçilmiş hörmətli sakinlərlə 1919-cu ilin aprel ayının 4-də tərtib edirik həmin aktı ondan ötrü ki, erməni yaraqlılarının 1918-ci il mart ayında bizim kəndə basqını zamanı aşağıdakı göstərilən qaydada ziyan dəymişdir":*

*1. Öldürülənlər: 200 kişi, 100 qadın, 78 uşaq.*

[1] Преступления Армянских террористических и бандитских формирован против Человечества (XIX-XXI вв). Баку, 2002, стр. 89.
[2] Azərbaycan bölgələrində erməni sorunu 1918-2001. Bakı, 2001.

*4. Evlər və binalar yandırılmışdır.*
*5. Mal-qara aparılmışdır – 308 baş, 9240000 manat məbləğində.*
*6. Xırdabuynuzlu heyvan aparılmışdır – 15000 baş.*
*7. Buğda, arpa və s. ərzaq oğurlanmışdır – 1 milyon manat dəyərində.*
*8. Ümumi ziyan – 6,474.000 manat, dəyərində.*

**Kənd starşinası: Əcəlgül Əli oğlu**
**Kənd mollası: Molla Fətəli Əbdürrəhim oğlu**
**Kənd sakinləri: İmza 9 nəfər.** [1]

## DİNDİRİLMƏ PROTOKOLU

*"Alıxan bəy Eyyubbəyov, 36 yaşlı, savadlı, Şamaxı qəzasının Ərəbqədim kənd sakini, müsəlman".*



Dindirilmə protokolunun surəti

**"Şamaxı faciəsindən üç gün sonra məni, Şamaxı İcraiyyə Komitəsinin üzvü kimi, şəhərə dəvət etdilər. Məqsəd isə, törədilən faciə, dağıdılan əmlak, öldürülən adamlar haqqında məlumatlar toplamaq idi. Mən şəhərə girəndə, şəhər yanmış tonqalın külünə bənzəyirdi. Cinsi ayırd edilə bilməyən meyitlər üst-üstə qalaqlanmışdı. Şəhərin müsəlmanlar yaşayan hissəsindən əsər-əlamət qalmamışdı. Erməni və malakan silahlı dəstələri, şəhəri darmadağın etmişdilər. Dağıntılardan hiss olunurdu ki, şəhərin dörd tərəfindən toplarla güclü atəşə tutulmuşdur. Bizə məlum oldu ki, güclü silahlanmış ermənilər, əvvəlcə ermənilər yaşayan Mədrəsə kəndinə toplaşmış, sonra isə şimal-şərq istiqamətindən malakanlarla birləşərək şəhərə eyni vaxtda atəş açmışlar. Onlar evlərə soxulmuş, uşaq,**

[1] ADPA, f. 1061, s. 1, iş. 85, vər. 14.

**malakanlarla birləşərək şəhərə eyni vaxtda atəş açmışlar. Onlar evlərə soxulmuş, uşaq, qoca, xəstələrə aman vermədən, gülllədən keçirmiş, əmlaklarını isə sakitcə daşıyıb aparmışlar. Əvvəlcə onlar şəhərin aşağı hissəsini yandırmağa başlayıblar. İşi belə görən müsəlmanlar ağ bayraq götürüb ermənilərə tərəf gedib. Lakin heç bir şərt qəbul etməyən erməni silahlı cəlladları, onları atəşlə qarşılayıb... Bir qədər sakitlik yaranandan sonra şəhərdən çıxmış sakinlər öz yurdlarına qayıtmağa başladılar. Bu o vaxtlar idi ki, türk-islam qoşunu artıq Şamaxıya gəlmişdi. Lakin çox keçmədən, türk əsgərləri gedən kimi, ermənilər yenidən Şamaxıya soxulmuş, ikinci dəfə daha dəhşətli faciələr törətmişlər. Şübhəsiz, bunların başında Stepan Lalayev durmuşdu. Samvel Dolqeyev, zabit İvanov, dəllək Ovanes, şamaxılı ermənilər – Qevorqi Karaoğlanov, Gülbəndov, təlimatçı (Şuşa qəzasından) Ağamalov, Mixail Artumanov, İvanov (zabitin atası) və qeyriləri törədilən faciənin rəhbərlərindən idilər. Faciədən bir neçə gün sonra Şamaxı qəzasını "Acıdərə" adlanan kəndini də ermənilər darmadağın etmişlər. Dəymiş ziyan milyon manatlarla hesablanır".**

**MƏRƏZƏ-TATAR SOYQIRIMI.** Erməni silahlı dəstələrinin qırğın törətdikləri kəndlərdən biri də vaxtilə Mərəzə-tatar (**Nərimankənd kəndi – S.Q.**) olmuşdur. Bu barədə Fövqəladə İstintaq Komissiyasının tərtib etdiyi protokolda kəndin starşinası **İbrahimxəlil Tapdıq oğlu** məlumat verməlidir: ***"Mərəzəli kəndinin starşinasıyam, 55 yaşım var. Savadsızam. Bizim Mərəzəli kəndi malakanlar yaşayan eyni adlı Mərəzəli kəndinin bir verstliyində yerləşir. Şamaxı şəhərinə birinci basqından sonra Gəncə-müsəlman dəstələri Qaziya kəndinə – geriyə qayıtdıqdan sonra bir malakan Mərəzəlisinə yad adamların gəldiklərini müşahidə etdik. Bu yad adamların böyük hissəsi ermənilərdən ibarət idi. Bu zaman Bakıdan qayıdan iki malakan İvan Koreev və Vitali Popov bir neçə şəxslə bizim kəndə gəldilər və kənd ağsaqqallarından tələb etdilər ki, kənddə olan tüfənglər yığışdırılmalıdır və bolşeviklərə təslim olmaq lazımdır. Onlar bir də dedilər ki, əsas rəisləri tezliklə Bakıdan Mərəzəliyə gələcəkdir. Biz həmin adamlardan möhlət istədik, vəziyyətimizi götür-qoy etdik. Bizlərdən bəziləri təklif etdi ki, onların sözlərinə inanmaq lazım deyildir. Və qarşıdurmadan qorxub bizim qışlağa – Qəbristan (Qobustan – S.Q) deyilən yerə getdilər. Çoxları isə, kənddə qalıb hadisələrin nə ilə nəticələnməsini gözlədilər. İki gündən sonra bizim ağsaqqalları malakan kəndinə çağırdılar. Biz***

*isə, oturub onların geri qayıtmasını gözlədik. Qəflətən malakanlarla bərabər ermənilər kəndimizə hücum çəkdilər. Malakanlar xain çıxdılar və bizi ermənilərə satdılar. Onda bizim sakinlərin 300 nəfərini öldürdülər və 400 evi də yandırdılar. Kəndimizə dəymiş ziyan haqqında akt tərtib olunmuş və hökumətə təqdim edilmişdir" (İmzalar)*[1]. **(Seçmələr bizimdir – S.Q)** *Bununla yanaşı, kənd sakinləri 1918-ci ildə kəndə dəymiş ziyan haqqında aşağıdakı məzmunda akt tərtib etmişlər:*

*Biz Mərəzəli – Tatar kəndinin sakinləri 1918-ci ildə aşağıdakı qaydada akt tərtib etdik:*

***1. Erməni talanına qədər bizim kənddə evlərin sayı 900, sakinlərin sayı 8317 nəfər olmuşdur.***

***2. Erməni talanından sonra 400 ev dağıdılmış və 300 nəfər öldürülmüşdür"*** [2].

"Anam deyərdi ki, bir çox insanın qorxudan ürəyi partlayıb öldü, bir qismi isə, yorulub yolda qaldı və ermənilər tərəfindən qətlə yetirildilər. O da yadımdadır ki, Bədəl adlı bir kişidə tüfəng var idi. Biz qaçanda, o, hərdən dayanıb ermənilər tərəfə bir güllə atırdı. Ermənilər silahdan ehtiyat edib yavaşıyırdılar.

Biz bir qisim əhali gedib Sündi qışlağına çatdıq. Orada ancaq qarovulçular var idi. Onlar kişi və qadınların köməyilə iki batman unun çörəyini bişirdilər. Əlli nəfərə yaxın idik. Hərəyə bir az yeyib qışlaq zağalarında yatdıq. Səhər obaşdan durub öz qışlağımıza getdik. Türklər gələndən sonra kəndə qayıtdıq. Kənd tam yanmış və məhv edilmişdi. Uçurulmuş, yanmış evlərdə kənd sakinlərinin cəza ilə qətlə yetirilmiş meyidləri var idi. Bir çox insan cəsədi isə yanıb kömürə dönmüşdü. Ermənilərin törətdiyi müsibət yerə-göyə sığmırdı. Bəzi insanların dərdinin çarəsi yox idi. Çoxları kənddə qoyub getdiyi qohum-əqrabasının heç meyidini tapa bilmirdi. Ya yanıb külə qarışmış, ya da qurd-quşa yem olmuşdu. Türklər gələndən sonra xeyli müddət bizim kənddə qaldılr. Sonrakı döyşlərə hazırlıq gördülər. Bu müddətdə onları ərzaqla bizim kənd, Nabur, Qurbancı və Cəmcəmli kəndi təmin edirdilər. Türklər bir az da gec gəlsəydilər, bizim ərazidə bir nəfər də olsa müsəlman sağ qalmayacaqdı" **(Güllü Qurbanova, 1920).**

**Hacı Arif Ağasəlim oğlunun dediklərindən:** *"Kəndimiz Mərə-*

[1] ARDA. f. 1061, s. 1. iş. 6, vər.129-131.
[2] ARDA. f. 1061, s. 1. iş. 1, vər. 133.

*zə kəndi ilə qonşudur. Yaxşı yadmdadır, 50-60-cı illərdə atam Mərəzəyə gedib-qayıdandan sonra həmişə əsəbləşirdi. Səbəbi də o idi ki, atam Mərəzədə olanda, 1918-ci ildə ermənilərə yardım etmiş yaşlı malakanlarla qarşılaşardı. Həmin cinayətkarların həm də cəzasız qaldıqlarına görə heyfslənirdi. Anam isə, atamı sakitləşdirərək deyərdi", – Gec-tez başımıza iş açacaqsan, kişi, dilini dinc qoy.*

*Atam 1918-ci ildə ermənilərin törətdikləri cinayətlərdən bizə çox danışardı. Erməni millətçiləri o zaman Tatar – Mərəzəsinə qonşu olan beş kənddə – Nərimankənd (Gəmüstü), Dərəkənd (Gəmaltı), Damlamaca, Şorsulu, İlanlı kəndlərindən 300 nəfər dinc əhali qətlə yetirilmişdir. Bir qrup insanları erməni-malakan millətçiləri aldadıb Mərəzəyə aparmış, sonra onları Mərəzənin qərbində yerləşən dərədə qətlə yetirmişlər. Öldürülənlər arasında bizim nəsildən 13 nəfər olmuşdur. Bizim nəsil on dördüncü şəhidini isə Qarabağ savaşında vermişdir – Malik Səlimli!*

*Bu kəndlərdən ermənilər tərəfindən qətlə yetirilən şəhidlərin ancaq iyirmi doqquzunun adı məlumdur:*

*1. Şahverdi Səlim oğlu*
*2. Abdulxalq Şahverdi oğlu*
*3. Gülbəs Molla Murad qızı*
*4. Bikə Abdullaxalıq qızı*
*5. Məcid Abdullaxalıq oğlu*
*6. Kazım Abdullaxalıq oğlu*
*7. Körpə oğlan uşağı*
*8. Abdulla Daşdəmir oğlu*
*9. Əsəd Daşdəmir oğlu*
*10. Şaməmməd mamedov*
*11. Ədis Şahbaz oğlu*
*12. Zaman Kazım oğlu*
*13. Qələm Ağababa oğlu*
*14. Muxtar Həmid oğlu*
*15. Ağabala Şaməmməd oğlu*
*16. Möhlət............*
*17. Səfərxan Ədil oğlu*
*18. Sənayi İbrahim qızı*
*19. Cəfər Əsəd oğlu*
*20. Səmidxan Əsəd oğlu*
*21. Xəlgüllah Əsəd oğlu*
*22. Seyid İbrahim oğlu*
*23. Əmir Abdulla oğlu*
*24. Süleyman Baloğlan oğlu*
*25. Ədilxan Ədil oğlu*
*26. Qərib Zülfiqar oğlu*
*27. Gülüstan Qəribli*
*28. Hətəm Əziz oğlu (Dərəkənd)*
*29. Şahsuvar Hacı Niftalı oğlu (Dərəkənd)"*

**Haşiyə:** Azərbaycanımızın müxtəlif şəhər və kəndlərində 1918-ci il soyqırımını əbədiləşdirmək üçün xeyli işlər görülmüşdür. Bu baxımdan Nərimkənd kəndində qətlə yetirilən insanların adına

yetirilmiş insanların adına ucaldılmış abidə gənc nəslin vətənpərvərlik tərbiyəsində xüsusi əhəmiyyət kəsb etməklə yanaşı, yaddaşımızın bərpasında mühüm rola malikdir. Biz əminik ki, Qobustan ziyalıları, bütün kənd bələdiyyələri belə xeyirxah işdən nümunə götürəcək, 1918-ci il soyqırımında qətlə yetirilən həmyerlilərinin adını əbədiləşdirəcəklər. Şəhidlər adına qoyulacaq xatirə lövhələri və ya abidələr yaddaşımızı bərpa etdiyi kimi, gələcək nəsillərə də çox söz deyəcəkdir!..

**Böyük Atatürk təbrincə desək: *"Millətin istiqlaliyyətini həmişə onun əzm və qərarı təmin edəcəkdir."***

**ƏRƏBŞAHVERDİ SOYQIRIMI.** Erməni daşnaklarının soyqırımı törətdiyi, viranə qoyduğu kəndlərdən biri də Ərəbşahverdidir. Vaxtilə Fövqəladə İstintaq Komissiyası 1918-ci il noyabr ayının 13-də Ərəbşahverdi kəndində olmuş və kənd sakini **Mirzəli Mədət oğlundan** qırğın barədə izahat almışdır.

**"Mən, Ərəbşahverdi kəndinin sakini Mirzəli Mədət oğlu, müsəlman, 45 yaşlı, savadzıs verirəm həmin ifadəni ona görə ki, erməni yaraqlıları bizim kəndə basqın edərkən mən qışlaqda olmuşam. Əlbəttə, bunu eşidəndə biz kəndə gedə bilməzdik. Ona görə də dağlarda gizlənməyə məcbur olduq (Şıxzərli ətrafında). Türklər gələnə kimi biz mağaralarda qaldıq. Biz kəndə qayıtdıqda gördük ki, kəndimizin çox hissəsi dağıdılmış və yandırlmışdır. Miqdarın mən deyə bilmərəm, amma kənd sakinlərinin bir hissəsi ermənilər tərəfindən öldürülmüşdür"[1].** (Seçmələr bizimdir – **S.Q)**

Bundan əlavə, arxivdə kənd sakinlərinin 1918-ci il 13 noyabrda verdikləri izahatda onlara dəyən ümumi ziyanın qədəri də göstərilmişdir:

*1. Ərəbşahverdi kəndində 206 ev və 1350 sakin olmuşdur.*

*2. Erməni zorakılığı zamanı 112 ev yandırılmış və 22 nəfər öldürülmüşdür".*[2]

**Xatirələrdən:** "Atam danışırdı ki, biz tərəkəmə camaatı olmuşuq. Odur ki, payız aylarında mal-qarası olan insanların əksəriyyəti köçdü-külfətli qışlağa yığışardıq. Qırğın zamanı kəndimizdə çox evlər yandırılsa da, ölüm nisbətən az olmuşdur. Çünki mart-aprel ayında camaat Qobustanda yerləşən qışlaqlarda olmuşlar. Bu xəbər qışlaq əhalisinə çatdırılsa da, heç kəs qorxusundan kəndə getmədi. Əksinə, kənddə ermənilərdən yaxasını qurtara bilənlər, qışlağa gəlmişdilər. Xəbəri eşidən kimi ailəmizi aparıb dağlarda yerləşdirdik. Biz kişilər

[1] ARDA. f. 1061, s. 1, iş. 6, vər, 148-149.
[2] ARDA. f. 1061, s. 1, iş. 6, vər. 159.

Xəbəri eşidən kimi ailəmizi aparıb dağlarda yerləşdirdik. Biz kişilər isə, qışlağa qayıtdıq. Səhər mal-qaramızı da götürüb qışlağı tərk etdik"... (Zərbəliyev Camo)

**ACIDƏRƏ SOYQIRIMI.** Bu kəndin talan edilməsi, dağılması və erməni cəlladlarının qanlı əməllərini Hacı Həmidpaşa bəy Şeyx Eyyubbəyovun 1918-ci il 6 oktyabrda verdiyi izahatdan aydınca görmək olur...

## DİNDİRİLMƏ PROTOKOLU

1918-Cİ İL OKTYABR, Şamaxı şəhəri, Hacı Həmidpaşabəy Şeyx Eyyubbəyov, 58 yaşlı, Şamaxı qəzasının kənd sakini.

*"Mən, Şamaxı şəhərinin bir neçə verstliyində yerləşən "Acıdərə" adlanan kənddə yaşayıram. Bizim evimiz müsəlmanların müqəddəs yeri olmuşdur. Həmçinin, mən müsəlmanlar arasında hörmət-izzət sahibiyəm. Bir nəfər də olsun, müsəlman mənim sözümdən çıxmaz.*

*Ermənilərin müsəlmanlara qarşı düşmənçilik ədavəti başlayanda, mən ermənilərin dini rəhbərlərinə xəbər göndərdim ki, əminlik yaratsınlar. Dəfələrlə xəbər göndərməyimə baxmayaraq, heç bir nəticə hasil olmadı. Belə bir ədavət 1905-ci ildə də olmuşdu. Biz, şamaxılı ermənilərinin silahlandığını eşitmişdik, lakin o qədər də inanmırdıq ki, ermənilər bizə qarşı silah işlətsinlər. Bütün bu işlərə, qış boyunca rəhbərlik edən Stepan Lalayev olub. Bir dəfə məni, müftini, erməni yepiskopu Baqratı və bir neçə müsəlmanı danışığa dəvət etdilər. Danışıqda ermənilər bizi arxayın etdilər ki, bizdən sizə heç vaxt ziyan gəlməz. Biz dostuq. Biz də onlara inandıq.*

*Lakin açıq-aydın görürdük ki, furqonlarla Şamaxıya silah daşınır. Bir vaxt eşitdik ki, Sündü kəndi ətrafında minlərlə molakan dəstə halında toplaşıb; Şamaxı istiqamətinə gəlir. Bu ərəfədə ermənilərlə müsəlmanların toqqaşması baş verdi. Mən Şamaxıya gəlmək istədikdə, eştdim ki, şəhər dörd tərəfdən erməni və molokonlar tərəfindən mühasirəyə alınıb. Toplardan-tüfənglərdən güclü atəş açılır, hər yan alova bürünür. Əngəxaran kəndi tamamilə yandırılmış, əhalisi isə güllədən keçirilmişdi. Çarhan kəndini də həmin kökə salmışlar. Şamaxı qəzasının demək olar ki, bütün kəndləri, o cümlədən "Acıdərəni" də talan etmiş və yandırmışlar. Bütün anbarlarımızı dağıtmış, ev əşyalarımızı, qızıllarımızı, hətta belə qab-qacaqlarımızı da yığıb aparmışlar. Hər birimizə dəyən ziyan on min manatla hesablanır. Şa-*

*maxıda mənə məxsus olan iki evimi də yandırmışlar. Ümumilikdə mənə dəymiş ziyan 300 min manat təşkil edir. Bütün bunları erməni və molokan silahlı dəstələri törətmişlər"...*



Bəli, terrorçu "Daşnaqsütyun" partiyası tərəfdarlarının Şamaxıda törətdiyi faciənin bəlkədə, heç bir ölkədə analoqu olmamışdır. Bu isə partiyanın məram və məqsədindən irəli gəlir və hələ də davam edir.

Vaxtilə, 1918-ci il soyqırımının təşkilatçılarından biri olmuş A.Əmiryan 1917-ci il dekabrın 6 (19)-da "Cinayətkar siyasət" adlı məqaləsində yazırdı: "Daşnaksütyun"nə deməkdir? Bu ifrat erməni millətçilərinin partiyasıdır. Bu partiya öz 25 ili ərzində sosializmə qarşı, inqilabi ideyaların erməni xalq kütlələri içərisində yayılmasına qarşı mübarizə aparmışdır, bu partiya bütün qanşu xalqlara qarşı təcavüzkar, həyasız siasət yeritmişdir .

**Haşiyə:** Aylar, ilər dolandı, dünya çalxalandı -- SSRİ adlanan nəhəng dövlət dağıldı, parçalandı. Başqa xalqlar kimi Azərbaycan da müstəqillik əldə etdi. Tariximiz, soy kökümüz yenidən araşdırılmağa başlandı. Eləcə də xalqımızın həyatında ən ağır müsibət olmuş 1918-ci il faciəsi... Faciəni törətmiş erməni terrorçuları yenidən adbaad dəqiqləşdirildi və arxiv sənədləri ilə bir daha təsdiqləndi.

Xalqımızın başına gətirilmiş soyqırımı ümumilli liderimiz H.Əliyev cənablarının vaxtilə vermiş olduğu fərmanlarla dünya ictimaiyyətinə çatdırıldı. Prezidentin fərmanından sonra həmin tarix – 31 Mart yenidən soyqırımı günü kimi hər il qeyd olunur. Bu fərmandan sonra 1918-ci il şəhidlərinin adı, xatirəsi respublikamızın hər bir bölgəsində əbədiləşdirilməyə başlamışdır...

# VI FƏSİL




*"... Represiyalar zamanı Azərbaycan xalqının milli-mənəvi sərvətlərinə, adət-ənənələrinə, dilinə, dininə çox ciddi zərbələr vurulmuş, xalqın düşünən başları bolşevik gülləsinə hədəf seçilmiş, bir çoxu isə vətəndən didərgin salınmış və sürgün edilmişdir..."*

**Bəxtiyar Vahabzadə.**
**Xalq şairi.**

# 1937-Cİ İL REPRESSİYASI VƏ QOBUSTAN

Keçmiş Sovetlər birliyi zamanı Stalin, Yemenyanov, Yetov, Beriya, Bağırov və başqaları tərəfindən həyata keçirilən 1937-ci il faciəsi zamanı müxtəlif işgəncələrdən sonra "günahlarını boynuna alıb" qətlə yetirilmiş insanlar barədə o qədər də əlimizdə müfəssəl məlumat yoxdur. Ona görə ki, bu faciə haqqında məlumat, bizim nəsil ancaq vaxtilə yaşlı insanların qorxa-qorxa söylədikləri xatirələrdən əldə etmişik. Yazılanlar, sənədlər ömürlük respublika MTN-nın arxivində "həbs edilmişdir". Respublikamız müstəqillik əldə etdikdən sonra həmin sənədlərlə tanış olmağa icazə verildi. Bu keçən müddət ərzində bir çox alimlər – M.Cəfərli, C.Qasımov, E.İsayev və başqaları 1937-ci il represiya illərinin öyrənilməsi, tədqiqi ilə ciddi məşğul olmuş və maraqlı tədqiqat əsərləri yaratmışlar. Təbii ki, bu sahədə daha ciddi iş görülməli, həmin faciənin qurbanlarının ömür yolu, aqibəti haqqında oxuculara geniş məlumat verilməlidir. Repressiya illərinin tədqiqi ilə məşğul olan gənc alim C.Qasımovun bu barədə gəldiyi qənaət daha məntiqlidir: **"... bizə belə gəlir ki, Azərbaycan Sovet siyasi repressiya ensiklopediyası yaradılmayana qədər güllələnlərin də tam, mükəmməl siyahısını hazırlamaq mümkün olmayacaq".**

* * *

Təbii ki, dövlət rəhbəri ölkənin hər bir vətəndaşı üçün məsuliyyət daşımalıdır; istər Stalin olsun, istər Bağırov olsun, istərsə də baş-

etibar etmişlər. Yerlərdəki məmurlar isə bu etibardan öz mənafeyləri üçün sui – istifadə etmişlər. Rayonda olan yaşlı sakinlərlə görüşlərimiz zamanı və arxiv sənədlərindən yəqin etmişik ki, 1937-ci ildə tutulanlatın bir qismi yerlərdə şəxsi intiriqaların qurbanları olmuşlar. Belə ki, kənd sovetləri, kolxoz sədirləri nəyə görəsə acığları gələn və ya sadəcə olaraq aralarında kiçik mübahisələr baş verən "dikbaş", çox vaxt sözün düzünü deyən, el arasında hörməti olan adamları "xalq düşməni" damğası ilə yuxarıların caynağlarına vermişlər. Burada ataların müdrik bir kəlamı yada düşür: **"Ağacı içindən qurd yeyər"...**

Şübhəsiz ki, 1937-ci il "təmizlənmə" siyasətini həyata keçirmək, düşünülmüş, planlaşdırılmış bir dövlət siyasəti idi. Dövlət həmin vaxtlar qarşısına xalqın gələcəyini düşünən, yaratmağı bacaran, "xalqın qaymağlarını" bir sözlə, bilikli, səriştəli insanları məhv etmək siyasətini həyata keçirirdi... Bu zaman "özümüz-özümüzə" daha çox qənim kəsilmişdik. Əsl faciə də bunda idi... Belə olan təqdirdə yerlərdə olan vəzifə sahibləri xalqımızın övladlarının "cinayətlərini" məcburən, və ya müxtəlif cəza üsulları ilə boyunlarına qoyan erməni, rus çinovnikləri ilə tay tutulmalıdır.

Vaxtilə 1937-ci il hadisələrindən açıq-aşkar danışmaq, söz açmaq o qədər də asan deyildir. Ən nəhayət, respublikamız müstəqillik əldə etdikdən sonra repressiya haqqında dövri mətbuatlarda daha çox yazıldığı kimi, geniş tədqiqat aparılmasına da imkan və şərait yaradıldı. İllərlə bağlı qalan arxivlər açılmağa başladı... Bu baxımdan **Respublika Milli Təhlükəsizlik Nazirliyinin orqanı olan "Sərhəd" qəzetinin (2001-ci il № 1) "Yaddaşın bərpası"** adlı xüsusi buraxılışında verilən adlı siyahı çox dəyərlidir. Çünki ümumi oxucu kütləsinə ilk dəfə təqdim olunan həmin siyahı günümüzə çox söz deyir... "Repressiyalar zamanı Azərbaycanda xalqın milli-mənəvi sərvətlərinə, adət-ənənələrinə, dilinə, dininə çox ciddi zərbələr vurulmuş, xalqın düşünən başları bolşevik gülləsinə hədəf seçilmiş, bir çoxu isə vətənindən didərgin salınmış, sürgün edilmişdir". **(Bəxtiyar Vahabzadə)**

Həmin qətlə yetirilənlər arasında demək olar ki, Azərbaycanımızın bütün bölgələrindən insanlar olmuşdur. İ.V.Stalinin vəfatından sonra hökumət özü təsdiq etdi ki, 1937-ci ildə qətlə yetirilən insanların çoxusu günahsız yerə cəzalandırılmışdır. Ona görə də hökumət həmin insanlara ölümlərindən sonra da olsa onlara tam bəraət verdi.

1937-ci il repressiya Qobustan bölgəsindən də yan keçməmişdir. O zaman indiki Qobustan ərazisi yeni təşkil edilmiş Şamaxı rayo-

dir. O zaman indiki Qobustan ərazisi yeni təşkil edilmiş Şamaxı rayonuna aid idi. Odur ki, Qobustan rayonundan faciyəyə qurban gedənlərin siyahısı tam bəlli deyildir. Təkcə o bəllidir ki, bu tələ millətini sevən, onun adən-ənənələrini, dini-mənəvi dəyərlərini qoruyan, təbliğ edən, xalqın işıqlı gələcəyi haqqında düşünən, mübarizə aparan insanlar üçün qurulmuşdur. "Bəzən bir gündə üç-dörd ölüm siyahısı gerçəyə kevrilib, hərəsində yüz, yüz əlli ad və tale! Və onların tərkibində beş yad millətdən nümayəndə olanda, beş yüz də Azərbaycan türkü olub! Təxminən, eyni tənasüb ziyalılarla qeyri – ziyalılar arasında nisbətdə də özünü göstərib". **(Yaşar Qarayev).**

Doğurdan da, Qobustan rayonundan repressiyaya məruz qalanların çoxusu o zaman kəndlərdə az-çox "qara" tanıyan, oxumaqı bacaran – molla, hacı, seyid, əfəndi, müəllim, bəy və ya bəy uşqları, müəyyən vəzifə sahibləri olmuşlar. Araşdırmalar nəticəsində və arxiv materiallarından Qobustan rayonundan qətlə yetirilən insanların hamısının deyil, ancaq bir qisiminin adlı siyahını tərtib edə bilmişik. Siyahıda quruca adın özü vaxtilə "bolşevik rejiminin" – Stalin – Bağırov siyasətinin iç üzü haqqında bu günkü və eləcə də gələcək nəsillərə çox söz deyə bilir.

Əminik ki, Azərbaycanın tarixçi alimləri gec-tez 1937-ci il faciəsinin qurbanları haqqında geniş və ətraflı şəkildə tətqiqat aparacaq, hər bir regionun şəhidləri bardə onların doğmaları, həmyerliləri və ümumən oxucu kütləsinə ətraflı məlumatlar çatdıracağdır.

Biz də uzun illər ərzində regionda apardığımız tədqiqat, arxiv və mətbuat materialları əsasında bu ərazidə faciənin qurbanları barədə siyahı tərtib etmiş, doğmalarından müəyyən məlumat, fakt və şəkillər ala bilmişik. İlk təşəbbüs olaraq, Qobustan rayonunun 1937-ci il qurbanları barədə əldə etdiyimiz məlumatları kitaba daxil etmişik.

## MOLLA ALMAZ ƏFƏNDİ

Molla Almaz Fərhad oğlu 1870-ci ildə Şamaxı qəzasının Ərəbşalbaş kəndində anadan olmuşdur. Atası Almaz Əfəndi haqqında oğlu Rizvan kişinin dediklərindən:

– Atam əsil din nümayəndəsi olmuşdur. Ömrünün ilahiyyat elmlərini öyrənməyə həsr etmişdi. Elə ona görə də gec evlənmişdir. Atam həbs olunanda biz çox uşaq olmuşuq. Atam haqqında qohumla-

Axı uşağın yaddaşından heç nə çıxmaz. Rəhmətlik dayım deyərdi:

– "Atan dini elmləri Qurbanın Qələkəli kəndində məşhur üləma, Həmidulla Əfəndidən almışdır. "Qurani-Kərim"in surə və ayələrini, ilahi kitabın müddəa və şərhlərini, hədisləri, İslamın qayda və qanunlarını mükəmməl mənimsəyən Molla Almaz Əfəndi XX əsrin əvvəllərində artıq Şirvan elatında dini mübahisələri yoluna qoyan bir alim, ağsaqqal kimi tanınmışdır. Əfsus ki, 37-ci il faciəsi onu da əlimizdən aldı. Rayonda tutatut başlamışdı. Almaz Əfəndinin ürəyi səksəkədə idi. Ən nəhayət, onun da tutulacağını əl altından öyrənmişdik".

– Günlər ötür. Bir dəfə atam ikindi namazını qılanda həyətə dörd atlı daxil olur. "Qonaqlar" salam verir. Atam başının işarəsi ilə salamı alır və namazına davam edir... Molla Almaz atlılar arasında Şamaxının "**inkəvedi naçalniki**" Şamanbəyovu, onu yoldaşları Pararov və Kraxkinskini tanıyır. Məsələ aydın olur. Əfəndinin anadan yetim qalan altı uşağı onun qıçlarını qucaqlayıb qışdırırlar. Bu mənzərə hökumət adamlarına da təsir edir. Şəmanbəyov Əfəndiyə müraciətlə:

– Bu balaca uşaqları başsız qoyma, yazıqdırlar, Molla Almaz.

– Narahat olma, balalarımı yaradan özü hifz edəcəkdir.

Həmin gündən molla Almaz həbs edilir və birbaşa uzaq Sibirə sürgün edilir. Böyük dini bilik sahibi molla Almaz Əfəndi ixtiyar yaşında sürgündə vəfat edir.

## MÜRŞÜD SOLTAN OĞLU

Osmanov Mürşüd 1871-ci ildə Şamaxı qəzasının Nardərən kəndində molla ailəsində anadan olmuşdur. Atası Molla Soltan Şamaxı mədrəsəsində dini təhsil almışdır. Zəmanəsinin din alimlərinin çoxusu ilə dost olmuş, birlikdə ibadət etmiş, yoxsul balalarına təmənnasız yazı-pozu, "Quran" oxumağı öyrətmişlər. Mürşüd də yazıb-oxumağı atasından öyrənmişdir. Ötən əsrin 30-cu illərində Nardərən kəndində Kirov adına kolxozun təşkil edilməsində fəal iştirak etmiş, kolxoza bir at, bir araba, bir ton toxum, bir cüt öküz və bir kotan vermişdir. Ömrü boyu xeyirxah əməl sahibi olan Mürşüd kişi, üzə söz deməkdən də heç vaxt çəkinməmişdir. Bütün bu cəhədlərinə görə yerli məmurların ondan xoşu gəlməyirdi. Odur ki, Mürşüd kişi həmin məmurların "qara siyahısına" düşür və 1938-ci ildə həbs edilir. Yalançı şahidlər "üzünə durduqdan" sonra güllələnmə cəzası-

edilir. Yalançı şahidlər "üzünə durduqdan" sonra güllələnmə cəzasına layiq görülür. M.Osmanov ancaq Stalinin vəfatından sonra bəraət qazanır. Onun üç oğlu və üç qızı olmuşdur. Nəvə-nəticələrin hazırda Ərəbqədim kəndində yaşayırlar. Nəvəsi Hacı Füzuli babasının adını əbədiləşdirməkdən ötürü kənd ərazisində – Qara qaya deyilən yerdə bulaq asmışdır. Kənd camaatı Mürşüd bulağının suyundan istifadə edib, ona rəhmət diləyirlər.

## MÜRŞÜD BƏY HACI OĞLU

1937-ci ildə ən çox zərər çəkən kəndlərdən biri də İlanlı olmuşdur. Bu kənddə yaşayan bəylərin var-dövlətləri əllərindən alındığı kimi, bir çoxu da güdaza getmişdir. Deyilənə görə, kənddə 15 nəfər bəy tutulmuşdur. Onların ancaq bir neçəsi barədə məlumat əldə edə bildik. Mürşüd bəy Hacı bəy oğlu 1890-cı ildə anadan olmuşdur.

Mürşüd bəy varlı-karlı, təkcə obada, qonşu kəndlərdə deyil, Şamaxı "idarələrində" də hörmətli bir şəxs olmuşdur. Həmin dövrdə böyük nüfuz sahibi olduğu üçün 1937-ci ildə həbs edilmiş, evi "dolk olmuşdur". Deyilənə görə, Sibirdə ölmüşdür.

## ŞAHMUR BƏY FƏRƏC BƏY OĞLU

Əmiraslan bəyin titulu rus padşahı tərəfindən təsdiq olunmuşdur. Sonra oğlu Zeynal bəy rus ordusunda olmuş və rütbə (çin) almışdır. Zeynala Çinli bəy deyirdilər. Zeynal bəyin oğlu Fərəc bəy atasından sonra mal-dövlətə sahib olmuş və öz xeyirxahlığı ilə ad-san qazanmışdır... Şahmur bəy Fərəc bəy oğlu 1894-cü ildə Dağ Kolanı elatında anadan olmuşdur. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra bəylərə o qədər də yaxşı baxmadılar. Başqaları kimi 30-cu illərdə Şahmur bəyin də var-dövləti əlindən alındı. Ona görə də həmişə ötkəmliyi ilə seçilən Şahmur bəy dövlət adamları ilə yaxşı münasibətdə olmur...

Doğmalarının dediyinə görə, dövlət adamları yaxalarını Şahmur bəydən qurtarmaq üçün 1937-ci ildə fürsət tapdılar... Ona yeni hökumətin əleyhinə olan bir insan kimi şər atdılar, üzünə durmaq üçün şeytan xislətli adamlar da tapıldı. Şahmur bəy 1937-ci ildə tutulub Sibirə sürgün edildi.

1845-ci ildə Şamaxı qəzasının Kolanı elatının Goran obasında anadan olmuşdur.

Hacı İsmailın üç övladı (Hacı Rüstəm, Hacı Cəbrayıl və Kərbəlayi Rəhim) olmuşdur. O, öz dövrünə görə Şamaxı qəzasında ad-san sahibi olmuşdur. Hacı İsmayıl dünyasını tez dəyişir. Ailənin ağırlığı, mal-dövləti saxlamaq kimi ağır bir yük böyük oğul – Hacı Rüstəmin üstünə düşür. O, cavan olmasına baxmayaraq, tez bir zamanda el içində məşhurlaşır. 1918-ci ildə ermənilər Şamaxıya hücum edən vaxtı o, camaatı ermənilərdən qorumaq üçün Girdə yaylasında xüsusi müdafiə dəstəsi təşkil edir. Öz pulu ilə çoxlu silah alır. Ermənilər hacının böyük silahı olduğunu xəbərini eşidirlər. Onu aradan götürməyə çalışırlar. Hacıya xəbər göndərirlər ki, filan vaxtı Mərəzəyə gəlsin. Orada el ağsaqqallarının iclası olacaq. Hacı dəvəti rədd edir. Bir neçə gün sonra məlum olur ki, erməni və malakanlar kəndlərdə olan igid adamları, ağsaqqalları "iclas" adı ilə Mərəzəyə dəvət ediblər. Onları bir binaya yığıb, gizlicə qapıları bağlayıb və binaya od vurublar. Qobustanın neçə-neçə ağsaqqalı, igid adamları orada həlak olur.

Hacının el-oba içərisində olan ad-sanından, hörmətindən dövlət orqanları da ehtiyat edirdilər. Elə ona görə də 1937-ci ildə Hacı Rüstəmi yaxın qohumları ilə birlikdə həbs edirlər. Əmlakının müsadirə edir, özlərini Orta Asiyaya sürgün edirlər. Axırıncı məlumata görə Hacı Rüstəm 1942-ci ildə orada vəfat etmişdir...

## NURU BƏY GƏRAY BƏY OĞLU

Nuru bəyin qardaşı Qulu bəy yaxın adamları ilə 1918-ci ildə erməni quldurlarına qarşı vuruşmuş, onlara xeyli itki vermişdir. Nuru bəy 1880-ci ildə İlanlı obasında anadan olmuşdur. Atasının məsləhəti ilə Şamaxıda oxumuşdur. El-obada hünəri ilə ad-san qazanmışdır. Xeyirxah və əlaçıq bir insan olmuşdur... Kolxoz quruluşu ilə barışmamış. Odur ki, var-dövləti əlindən alınmış və özü də həbs edilmişdir.

## SEYFƏLİ İMAMVERDİ OĞLU

1915-ci ildə Şamaxı qəzasının Dağ Kolanı elatında anadan olub. Atası – İmamverdi Əsəd oğlu 1937-ci ilin avqust ayının 23-də güllələnmişdir... İmamverdiyə bəraət 1958-ci ildə verilmişdir.

Atası güllələnəndən sonra onun oğlu – Seyfəlinin də "xalq düş-

Atası güllələnəndən sonra onun oğlu – Seyfəlinin də "xalq düşməni" adı altında həbs edirlər. O, Komiyə sürgün edilmişdir. Bütün əziyyət, məşəqqətlərə dözən Seyfəli on il həbs cəzasını çəkəndən sonra – 1947-ci ildə Vətənə qayıdır... Seyfəli İmamverdi oğlu SSRİ Ali Məhkəməsinin 1947-cü il 15 avqust qərarı ilə bəraət qazanmışdır...

## MOLLA MURADƏLİ ZÜLFƏLİ OĞLU

Baxşıyev Molla Muradəli 1892-ci ildə Təklə kəndində anadan olmuşdur. Kənd mollasından təhsil almışdır. Sonra Şamaxıda dini məktəbdə oxumuşdur. Dərin dini bilik sahibi olduğu üçün təkcə Təklə kəndində deyil, qonşu kəndlərdə də məşhur olmuşdur. Deyilənə görə, kənd uşaqlarına təmənnasız "Quran" oxumağı öyrədərdi.

Molla Muradəli "dini təbliğ etdiyinə görə" həbs edilir. Başqa günahsızlar kimi 1937-ci ildə güllələnir.

## KAMİL HACI MƏNSİM OĞLU

1893-cü ildə Şamaxı qəzasının Dağ Kolanı elatında anadan olub. Onların da ailəsi varlı-karlı olmuşdur. Bu ailə həmişə yoxsullara dayaq durmuşdur, Kamil dini bilgiləri atasından öyrənmişdir. Dağ Kolanıda kolxoz qurulanda mal-qarası əlindən alınmışdır. 1937-ci ildə tutulmuş və Sibirə sürgün edilmişdir. Ailələri köçüb Əli-Bayramlı rayonuna getmişdir. Xeyirxah əməl sahibi olduğu üçün Kamil Hacı Mənsim oğlu Sibir sürgünündən sağ-salamat qurtarıb gələ bilmişdir. O, Əli Bayramlı regionunda da böyük hörmət sahibi idi. Bir ağsaqqal kimi həmişə kolanıların məsləhət yeri olmuşdur. Həmin regionda Kolanı Kamil kimi tanınmışdır. Kamil Hacı Mənsim oğlu 1977-ci ildə vəfat etmişdir.

## MOLLA HEYBƏT ƏHMƏD OĞLU

Molla Heybət 1890-cı ildə Şamaxı qəzasının Nabur kəndində doğulmuşdur. Ailələri dini adətlərə əməl etdiklərinə görə, uşaq yaşlarından "Quran" oxumağı öyrətmişdir. Şamaxıda Cümə məscidində təhsil almışdır. Dərin biliyə malik el mollası olmuşdur. Deyilənə görə, "dini təbliğ etdiyi" üçün 1937-ci ildə həbs edilmiş və Sibirə göndərilmişdir.

## BƏDƏL TALIB OĞLU

Talıbov Bədəl 1900-cu ildə Şamaxı qəzasının Dərəkənd obasında anadan olub. Kənddə həmişə açıq söz deməkdən çəkinməzmiş. Ötən əsrin 30-cu illərində kənddə kolxoz quruculuğu başlayanda bəzi adamları aradan götürmək üçün yerli vəzifə sahiblərinin əlinə fürsət düşür. Odur ki, o, "kolxoz quruluşuna etiraz edən adam kimi" 1935-ci ildə həbs edilir. Bir ildən sonra o, həbsxanadan buraxılır. 1937-ci ildə Bədəl Talıb oğlu "xalq düşməni" adı altında yenidən günahlandırılıb, Sibrə sürgün edilir. Doğmalarının dediyinə görə, B.Talıbov Komi Muxtar Respublikası ərazisində güllələnmişdir.

## AĞASADIQ MÖSÜM OĞLU

Ağasadıq Axundov 1902-ci ildə Şamaxı qəzasının Cəyirli kəndində doğulmuşdur. O, ilk əvvəl kənd mollasından dərs almış, sonra Şamaxıda oxumuşdur. Təhsili olduğuna görə, 1928-30-cu illərdə müxtəlif vəzifələrdə çalışmışdır. Ötən əsrin 30-cu illərində Dəvəçi, Quba, Ağsu rayonu və Hacıqabul qəsəbə Sovetinin sədri vəzifələrində işləmişdir. O, 1937-ci ildə həbs edilmişdir. "Günahları" sübuta yetirildikdən sonra, 1938-ci ilin əvvəllərində güllələnmişdir. Ağasadığın bacısı oğlu Mürsəlin dediyinə görə, dayısına 1956-cı ildə bərət verilmişdir. Həmyerlisi Höccət Paşa Ağasadığın adına yazdığı şerlə ona ehtiramını belə ifadə etmişdir...

***Deməsək də görüb yer də, fəza da,***
***Rəhbər olub bu mahalda, qəzada,***
***Məclislərdə, toyda, yasda, əzada,***
***Bir anlığa gəlin, ruhun şad edək,***
***Ağasadıq Axundovu yad edək.***

***Tribunadan yayılardı gur səsi,***
***Dinləyərdi onu Şirvan bölgəsi,***
***Susdurubdur 37 gülləsi,***
***Bülbül kimi bu gülşəndə dad edək,***
***Ağasadıq Axundovu yad edək.***

*Dayı deyə Mürsəl haray salıbdır,*
*Alla adlı qız övladı qalıbdır,*
*Görən harda o, sükuta dalıbdır,*
*Nəvəsini indi kimə ad edək?*
*Ağasadıq Axundovu yad edək.*

*Üç nanəcib ona güllə kəsibdir,*
*Höccət yenə kükrəyibdir, əsibdir,*
*Baba qəlbi bəlkə bizdən küsübdür,*
*Düşmənlərin hər əməyin bad edək,*
*Ağasadıq Axundovu yad edək.*

## MƏHƏMMƏDRZA MOLLA MAHMUD OĞLU



Səmədov Məhəmmədrza 1909-cu ildə Şamaxı qəzasının Çuxanlı kəndində anadan olmuşdur. Atası Səmədov Mahmud əslən Şamaxılı olmuşdur. Dörd qardaşı hamısı Şamaxıda dini təhsil alandan sonra, Cümə məscidinin göstərişi ilə hər qardaş bir kəndə baş molla təyin edilmişdir. Molla Mahmud Çuxanlıya göndərilmiş və həmişəlik orada yaşamışdır.

Məmmədrza atasından dini təhsil almış, sonra Şamaxıda oxumuşdur. O, Sovet hakimiyyəti illərində kənddə uşaqlara yazıb-oxumaq öyrətmiş, camaatın hörmətini qazanmışdır. Məhəmmədrza 1936-cı ildə Şamaxı kənd təsərrüfatı texnikumunun baytarlıq şöbəsini bitirmişdir. Mütəxəssisə ehtiyac böyük olduğuna görə o, üç kolxozda baytarlıq xidməti göstərmişdir. 1937-ci ildə SSRİ Ali Sovetinə keçirilən seçkilərdə komissiya üzvü kimi böyük fəallıq göstərmişdir. Seçki dekabr ayının 12-də yekunlaşmış, bir gün sonra – dekabrın 13-də onu həbs etmişlər. Onu ruhani ailəsindən olduğuna və eləcə də "pantürkis" adı ilə məsuliyyətə cəlb etmişlər. Nəticədə o, on il Sibrə sürgün edilmiş, sonra Karel-Fin respublikasına gətirilmişdir. Böyük Vətən müharibəsi başlanan kimi isə onlar Şimal Buzlu Okeanındakı Vayqaç adasına aparırlar. İki ildən sonra Norolsk şəhərində filizsaflaşdırma sahəsində işlədirlər. O, 1948-ci ildə cəzasını başa vurub qayıdır. Elə həmin ildə ailə qurur,

1950-ci ildə "anti-sovet" təşkilatının üzvü olduğu üçün yenidən həbs edilir və Kraspoyarsk vilayətinə göndərilir. O, 1955-ci il Beriyanın ifşasına qədər həbsxanada qalır. 1955-ci ildə azad olunan Məhəmmədrza kişi 1958-ci ildə yenidən bəraət qazanır. İki dəfə günahsız yerə həbs edilən Məhəmmədrza kişi 1999-cu ildə vəfat etmişdir.

## ABDULXALIQ ƏFƏNDİ

Ərəb-fars dillərinə, dini elmlərə, klassik poeziyaya dərindən bələd olan Abdulxalq Əfəndi 1890-cı ildə anadan olmuşdur. Atsı Hacı Allahverdi də din əhli olub. "Quranı" sərbəst oxuyub, tərcümə edə bilirmiş. Odur ki, 1907-ci ildə oğlunu Şamaxı məscidinin nəzdində fəaliyyət göstərən ruhani məktəbinə qoyur. Dini elmlərə əvvəldən də bələd olan Abdulxalıq Əfəndi ruhani məktəbini müvəffəqiyyətlə başa vurur. 1909-1913-cü illərdə öz evində məktəb açır. Onun məktəbində qonşu kəndlərdən də uşaqlar oxumağa gələrdilər. O, nücum elminə də dərindən bələd idi. Böyük dini alim, məktəbdar, el ağsaqqalı Abdulxalıq Əfəndi 1937-ci ildə həbs edilmişdir.

## EYYUB YAQUBOV

XIX yüzilliyin 70-ci illərində anadan olub. Ömrü boyu bənnalıqla məşğul olub. Doğmalarının dediyinə görə, kənddə onu "əliqızıl Eyyub" adlandırırdılar. Hətta Şamaxıda varlılar öz mülklərini "əliqızıl Eyyuba" tikdirərdilər. 1902-ci il zəlzələsindən sonra Şamaxı Cümə məscidi yenidən qurulanda Eyyub da orada işləmişdir. Əməksevərliyi, işgüzarlığına, camaat arasında hörmətinə görə, "yerli insafsızların göstərişi ilə 1937-ci ilin yayında həbs olunur və bir daha qayıtmır".

## QARA BƏDƏLOV

1895-ci ildə doğulmuşdur. Sənəti qəssablıq olub. Mal-qara alır və kəsib satarmış. Bəzən aldığı mal-qaranı aparıb Bakıda kənd əhalisinə lazım olan əşyalarla dəyişərmiş. Sonra həmin malları kəndə yağa-pendirə verərmiş. Hünərli, xeyirxah, kasıb-kusub qədri bilən, yeri gələndə onları müdafiə edən bir insan olub Qara kişi. Onun belə hərəkətləri kəndin "böyüklərinin" çox da xoşuna gəlmirdi. Odur ki, yu-

xarılara verilən "danoslar" nəticəsində, 1937-ci ildə həbs edilir, və o gedən olur"...

# QAÇAQ SEYİDQULU

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan – 1920-ci il aprel ayın 28-dən sonra ölkəmizin bir çox guşələrində bu quruluşa qarşı çıxan, onun qayda-qanunları ilə barışmayan, kasıbların təəssübünü çəkən, hökumətlə, Sovet sədrləri ilə mübarizə aparan insanlar çox olmuşdur. Qaçaq adı ilə qalın meşə, sıldırım və keçilməz dərələrdə yaşayan belə insanlar Şirvan regionunun müxtəlif kənd və obalarında da olmuşdur.



Qaçaq Sadıq

**Qaçaq Zahid, Qaçaq Məhəmməd (Göyçay), Qaçaq Ağacan (Kalva kəndi), Qaçaq Soltan (Gəgəli kəndi), Qaçaq Mayı, Qaçaq Osmanqardaşları (Quba), Qaçaq Əlif (Ağsu, Keçmədin kəndi), Qaçaq Sadıq (Avaxıl kəndi), Qaçaq Heybətalı (Quşçu kəndi)** və başqaları ötən əsrin 20-30-cu illərində öz əqidələri uğrunda vurulmuşlar.

Həmin qaçaqlardan biri də Seyidqulu olmuşdur. Keçmiş Gəmüstü kəndində (indiki Nərimankənd kəndində) deyilənə görə o, XIX əsrin 80-90-cı illərində doğulmuşdur. Onun Həşim, Babaxan, Qərib adlı üç qardaşı, Gülzadə adlı bacısı olmuşdur. Sovet hökumətinə qarşı çıxan müsavatçılara tərəfdar olduğu üçün təqib olunur. Başına 40-50 nəfər toplayan Seyidqulunun dəstəsi (Kürüstündən Qaçaq Fərhad, Xaldandan Qaçaq Aslan, Ağdərəli Əhməd, Qaracüzlü Urşan, təkləli Alı, cəyirli Sərdar, şamaxılı Musa və Sadıq qardaşları və b.) Qozluçay, Ağdərə Çayqovuşan ərazilərində məskunlaşırlar. Ara-sıra kənd və obalara gedir, sovet sədrlərinin yığdıqları vergiləri alıb camaata paylayırlar.

Vaxtilə bacarıqlı pedaqoq Heybət Şikarov mənə Qaçaq Seyidqulu haqqında belə bir məlumat göndərmişdir"... Atam Məzi Qəni oğlu 1919-cu ildən 1925-ci ilə qədər qaçaqlara qarşı vuruşan hökumət

dəstəsinin tərkibində olmuşdur. Bir dəfə onlara Seyidqulunu öz qaçaq dostları Qaçaq Fərhad, Qaçaq Aslanı Bakıdan Şamaxıya gətirməyi tapşırırlar. Onlar Cəngidə gecələməli olurlar. Axşam atam onları qaranlıq zirzəmidə deyil, öz qaldıqları otaqda saxlayır. Səhər onları Şamaxıya gətirirlər... Atam ömrü boyu deyərdi ki, Seyidqulu mənim bu kiçik yaxşılığımı unutmur. Həbsxanadan qaçandan sonra bir gün axşam Təkləyə – atamın yanına gəlib deyir:

– Məzi, gəl qoşul bizə, Sovet hökuməti bu yaxınlarda yıxılacaq"...

Qaçaq Seyidqulu və onun dəstəsi təxminən, 1930-1932-ci ilə kimi Sovet dövlətinə qarşı mübarizə aparır. Onların dəstəsinin ləğv edilməsi barədə belə bir fikir mövcuddur. Hökumət adamlarının "agentləri" xəbər gətirirlər ki, Seyidqulugilin dəstəsi Ağdərə kəndindədir. Çayqovuşan adlı ərazidə böyük vuruşma olur. Hər iki tərəf itki verir. Seyidqulunun dəstəsinin çoxusu öldürülür. Deyilənə görə, qaçanlar da olur. Bütün ölən qaçaqların meydini Şamaxıya gətirirlər. Qaçaq Seyidqulunun anası Xanımı da ora aparırlar ki, oğlunun meydini görsün və tanısın. Ana meyidlərə baxıb deyir:

– Narahat olmayın, oğlumun meydi burada yoxdur. Onu mən doğmuşamsa, onu heç kəs öldürə bilməz... Qaçaq Seyidquluya görə onun doğmaları – qardaşları incidilir. Qardaşının biri müharibədə həlak olsa da, Qərib cəbhədən salamat qayıdır... Əfsus ki, heç kəs **Qobustan Sərdarı** haqqında geniş məlumatı vaxtında qardaşı Qəribdən yazıya almamışdır...

## QAÇAQ SEYİDQULU

***Nərimankənd sakini Seyidqulu 1918-1920-cu illərdə qaçaq düşmüş, Sündü kənd sakini Alını, Cəyirli kənd sakini Sərdar Ağayevi başına yığıb dağlara çəkilmiş, ədalətsizliklərə qarşı mübarizə aparmışdır...***

*Otuz il keçibmiş min doqquz yüzdən,*
*Aşaraq dağlardan, dərədən, düzdən,*
*Xalqı incidəni çıxarıb küzdən,*
*Qaçaq Seyidqulu divan tutarmış.*

*Pul verib zor ilə böyük olana,*
*Kasıbı, fağırı zülmə salana,*
*Xalqı aldadana, rüşvət alana,*
*Qaçaq Seyidqulu divan tutarmış.*

*Onda nə pulemyot, nə top var idi,*
*İgidə təpələr, dağlar yar idi,*
*Mahalda hansı kəs günahkar idi,*
*Qaçaq Seyidqulu divan tutarmış.*

## QOBUSTANIN 1937-Cİ İL QURBANLARI[1]

| Soyadı, adı, atasının adı | Anadan olduğu il | Anadan olduğu yer |
|---|---|---|
| 1 | 2 | 3 |
| Ağayev Cabbar Şərbətalı oğlu | 1864 | Nabur kəndi |
| Abdullayev Xanqulu Hacədil oğlu | 1896 | Cəmcəmli kəndi |
| Abdullayev Bilal Hacədil oğlu | 1900 | Cəmcəmli kəndi |
| Abdullayev Yaqub Hacədil oğlu | 1902 | Cəmcəmli kəndi |
| Aslanov Əlövsət İsfəndiyar oğlu | 1900 | Cəyirli kəndi |
| Abbasov Eynulla Fəti oğlu | 1890 | Dab-kolanı kəndi |
| Axundov Ağasadıq Yusif oğlu | 1900 | Cəyirli kəndi |
| Ağayev Ağabəy Rəsul oğlu | 1894 | Təklə kəndi |
| Abdullayev İsabəy Mahmudbəy | 1898 | Təklə kəndi |
| Ağayev Balarza | ------- | Təklə kəndi |
| Aslanov Babaş Aslan oğlu | 1892 | Təklə kəndi |
| ----- Ayət | -------- | Təklə kəndi |
| Abdiyev Səbzalı Abdulla oğlu | 1894 | Sündü kəndi |

[1] *1937-ci il qurbanları, tam əhatə olunmayıb. Tədqiqatımız davam edir.*

| | | |
|---|---|---|
| ……….. Alsəft | -------- | Təklə kəndi |
| Baxşıyev Molla Muradəli Zülfəli oğlu | 1890 | Təklə kəndi |
| Babayev Xanbaba Hacıbaba oğlu | 1895 | Təklə kəndi |
| -------- Bəxtiyar | | Təklə kəndi |
| Bədəlov Qara Abdulla oğlu | 1898 | Çuxanlı kəndi |
| Babayev Albaba Baba oğlu | 1890 | Təklə kəndi |
| Cəbrayılov Zəkəriyyə Nağdalı oğlu | 1900 | Təklə kəndi |
| Cəbrayılov İbad Atalı oğlu | 1890 | Təklə kəndi |
| Cəbrayılov Məmməd Köçəri oğlu | 1894 | Təklə kəndi |
| -------- Cavadalı | ------- | Təklə kəndi |
| Dadaşov Qulu İbad oğlu | 1880 | Cəyirli kəndi |
| Dadaşov Ağadadaş Ağakişi oğlu | 1899 | Cəyirli kəndi |
| Eyyubov Əli Fətulla oğlu | 1898 | Çuxanlı kəndi |
| Əliyev Veysəl | 1897 | Ərəbşalbaş kəndi |
| Əhmədov Əhməd Alış oğlu | 1889 | Təklə kəndi |
| Əhmədov Nurəhməd Turab oğlu | 1889 | Təklə kəndi |
| Əli Qismət oğlu | 1889 | Nabur kəndi |
| Fərzalıyev Feyzulla Hacıqulu | 1889 | Sündü kəndi |
| Fərhadov Almaz Fərhad oğlu | 1900 | Ərəbşalbaş kəndi |
| Həsənov Mirzə Səfər oğlu | 1894 | Sündü kəndi |
| Həsənov Bəkir Həsən oğlu | 1901 | Çuxanlı kənd |
| Hüseynbəyov Mehdibəy Qabur | 1892 | Təklə kəndi |
| Hüseynbəyov Həsənbəy Qabur bəy o. | 1894 | Təklə kəndi |
| Hacıyev Molla Abdulxalıq Allahverdi o. | 1898 | Sündü kəndi |
| Hüseynov Gülmirzə Şirəhməd o. | 1899 | Cəbirli kəndi |
| Xəlilov Molla Xəlil İbrahim Xəlil o. | 1899 | Təklə-Mirzəbaba k. |

| | | |
|---|---|---|
| İsayev Əhməd Xankişi oğlu | 1898 | Təklə kəndi |
| İskəndərov Hacı Rustəm İsmayıl o. | 1845 | Dağ-Kolanı kəndi |
| Qayıbov Qayıbali Qayıb oğlu | 1896 | Təklə-Mirzəbaba k. |
| Qarayev Miri Gəray oğlu | 1900 | Sündü kəndi |
| Qədirov Ağamirzə Mirzə oğlu | 1894 | Təklə kəndi |
| Qurbanov Saday | -------- | Təklə kəndi |
| Qəhrəmanov Balaqardaş Vəlxan oğlu | 1896 | Cəyirli kəndi |
| Məmmədov Ağaqasım Məmmədqasım o. | 1900 | Yekəxana kəndi |
| Maqsudov Məşədi Əli Abdulla o. | 1894 | Cəyirli kəndi |
| Maqsudov Böyükağa Abdulla | 1896 | Cəyirli kəndi |
| Manafov Veyis Xanməmməd | 1900 | Cəyirli kəndi |
| Məcidov Abdulla Məcid oğlu | 1897 | Cəyirli kəndi |
| Məlikbəyov Məhəmmədbəy Xələfbəy o. | 1889 | Təklə kəndi |
| Mehdiyev Dadaşbala Həsənalı o. | 1903 | Təklə-Mirzəbaba k. |
| ---------- Məhəmməd ---- | -------- | Təklə kəndi |
| Məhərrəmov Abış Polad oğlu | 1904 | Təklə-Mirzəbaba k. |
| Məlikov Məmmədəli Məlikməmməd o. | 1898 | Təklə kəndi |
| Məmmədov Həsən Məmməd oğlu | 1900 | Sündü kəndi |
| Molla Heybət Molla Əhməd oğlu | 1890 | Nabur kəndi |
| Muradov Nəriman Tağı oğlu | 1889 | Dağ-Kolanı kəndi |
| Nəsirov Abdulla Dövlət oğlu | 1902 | Təklə kəndi |
| Nəbiyev Hacı Musa oğlu | 1906 | Təklə kəndi |
| Orucov Ağarəhim Nəcəf oğlu | 1904 | Dağ-Kolanı kəndi |
| Poladov Əbil Məlik oğlu | 1910 | Təklə kəndi |
| Rəsilov Şıxbaba Məmmədzayıd oğlu | 1901 | Nabur kəndi |
| Rəhimov Əlsafa Zülfiqar oğlu | 1896 | Cəyirli kəndi |

| | | |
|---|---|---|
Yüksək bacarığı, yaxşı işinə görə zavod rəhbərliyi Ö.Ağayevi 1970-ci ildə hopdurucular briqadasının başçısı təyin edir. Həmin gündən onun briqadası bütün göstəriş və tapşırıqları artıqlaması ilə yerinə yetirir. Onun iş təcrübəsi başqa briqadalara örpək olur. Əmək cəbhəsində belə uğurlarına görə Ö.Ağayev və onun iş yoldaşları müxtəlif mükafatlara layiq görülür. Bir az sonra briqadasının uğurlarına görə Ö.Ağayev Azərbaycan KPMK-nın üzvü seçilir. Bir neçə dəfə Sov. İKP qurultayına nümayəndə seçilən istehsalat qabaqcılı Ö.Ağayev 1974-cü ildə o dövrün ən ali mükafatı – **Sosialist Əməyi Qəhrəmanı** adı ilə təltif olunmuşdur. Belə mükafatlar əmək bahadırını daha yaxşı işləməyə ruhlandırmış və çalışdığı maşınqayırma zavodunun adı o zamanlar bütün İttifaqda məşhur olmuşdur. Ö.Ağayev 1976-cı ildə **Azərbaycan SSRİ Dövlət Mükafatı laureatı** adına layiq görülmüşdür. İki dəfə **Lenin, Oktyabr İnqilabi** ordeni və müxtəlif medallarla təltif olunmuşdur. Özünün dediyi kimi, o, ömrünün əlli ilindən çoxunu Azərbaycanımıza, onun çiçəklənməsinə həsr etmişdir.

## ƏLİ MİRƏLİ OĞLU
## (1930-1989)



Əli Əmirəliyev 1930-cu ildə Şamaxı rayonunun Sündü kəndində anadan olmuşdur. Kənd məktəbini bitirdikdən sonra o, Şamaxı pedaqoji məktəbində təhsil almışdır. Ə.Əmirəliyev 1948-ci ildə Ağdaş rayonunun Orta Ləki kəndində köçmüşdür. İlk əmək fəaliyyətinə oradakı "1 May" kolxozunda başlamışdır. Bir müddət – 1955-1959-cu illərdə Orta Ləki ZDSİK-nin katibi çalışmışdır. Sonra dəfələrlə Orta Ləki və Ağdaş rayon ZDSİK-nin deputatı olmuşdur. Ə.Əmrəliyev 1969-cu ildə

S.Ağamalıoğlu adına Gəncə KTİ-nı bitirmişdir. O, 1965-ci ildə ömrünün sonuna kimi Ləki Pambıqtəmizləmə zavodunda müxtəlif vəzifələrdə çalışmışdır. Bu illər ərzində kəndin abadlaşması, tərəqqisinə xeyli kömək etmiş, pambıq zavodunun yeniləşməsi, eləcə də rayonda pambıqçılığın inkişaf etdirilməsində bacarıqlı mütəxəssis kimi onun xüsusi xidmətləri olmuşdur.

Xeyirxah, təbiətcə humanist, el-oba üçün dəyərli insan olan Ə.Əmrəliyev 1989-cu il avqust ayının 10-da vəfat etmişdir. Vəsiyyətinə görə, Sündü kənd qəbristanlığında dəfn edilmişdir. Onun adı həmyerliləri tərəfindən həmişə hörmətlə xatırlanır.

## MƏMMƏDƏLİ NASİR

Nəsirov Məmmədəli Məhəmməd oğlu 1931-ci ildə Şamaxı rayonunun Cəmcəmli kəndində anadan olmuşdur. "O, Şirvan dağlarında, Xaltan istisuyuna gedən yaylaq yolunun üstündə müqəddəs məzarı ziyarətgaha çevrilən Pir Şeyx Alı babanın nəslindəndir. Babası Xəlfə Nəsir və atası Xəlfə Məhəmməd Şirvan – Qobustan elatında tanınmış ocaq – etiqad sahibi olmuşdur" [1]...

Orta məktəbi bitirəndən sonra o, ali məktəbə daxil olmuşdur. Təhsil aldığı illərdə şerləri müxtəlif mətbuat səhifələrində çap olmuşdur. O bir çox – pedaqoji, komsomol, partiya, jurnalistika və s. sahələrdə çalışmışdır.

M.Nasir təkcə şerlər deyil, eyni zamanda, hekayə, poema və dram əsərləri də yazmışdır. O Şota Rustavelinin "Pələng dərisi geyinmiş pəhləvan" əsərinin təsiri ilə "Tariel" adlı mənzum dram əsəri yazmış. Əsər C.Cabbarlı adına Gəncə Dövlət Teatrında tamaşaya qoyulmuşdur.

O, uzun illər "Yeni Şirvan" qəzeti redaksiyasında müxtəlif vəzifələrdə çalışmışdır. Bacarıqlı jurnalist, kamil qələm sahibi kimi şöhrət qazanmış M.Ə.Nasir, 1991-ci ildə "Loğman" qəzetinin baş redaktoru təyin edilir. "Xalq təbabəti" sahəsinin öyrənilməsi, təbliği ilə məşğul olan ədib həmkarı, əqidə dostu S.Quliyevlə birlikdə yazdıqları **"Əbədi şəfa xəzinəsi"** əsəri ilə vaxtilə dədə-babalarımızın hazırladıqları "reseptləri" insanlara təqdim etmişdir. Ədibin "Şəfa peyğəmbəri" adlı kitabı nəşriyyatdadır. Qocaman jurnalist, şair M.Ə.Nasirin xidmətləri onlara fəxri fərman, diplom və eləcə də

[1] M.Ə.Nasir, S.Quliyev. Ədəbi şəfa xəzinəsi. Sağlamlıq reseptləri. Bakı, 1999, səh. 5.

**"Qızıl qələm"**, (1970), Mariya Ulyanova (Krupskaya) adına **Ümumittifaq mükafatına** (1972) layiq görülmüşdür.

M.Ə.Nasir indi də gənclik həvəsi ilə yazıb-yaradır.

## FİRİDUN HƏSƏN OĞLU (1937-2001)



Firidun Hüseynov 1937-ci ildə Şamaxı rayonunun Təklə kəndində doğulmuşdur. O, 1950-ci ildə kənd yeddillik məktəbini bitirib, Şamaxı kənd təsərrüfatı texnikumuna daxil olur. Texnikumu bitirəndən sonra o, bir müddət kolxozda çalışır. 1958-ci ildə isə Kənd Təsərrüfatı İnstitutunu bitirərək Şamaxı Toxumçuluq Təsərrüfatında baş baytar-həkim vəzifəsinə irəli çəkilir. Bir müddət – 1966-1974-cü illərdə o, Şamaxı kənd təsərrüfatı texnikumunda müəllim işləmişdir. Bacarıqlı mütəxəssis olduğu üçün rayon rəhbərliyi onu 1974-cü ildə həmin texnikuma direktor təyin edir. O bu vəzifədə üç il çalışır.

F.Hüseynov on il – 1982-1992-ci illərdə Şamaxı rayonunun Kökəltmə müəssisəsinin direktoru işləmişdir. Qobustan rayonu təşkil edildikdə o, 50 saylı baytarlıq əczazxanasının müdiri, 1999-cu ildən ömrünün sonuna kimi rayon baytarlıq idarəsinin rəhbəri olmuşdur. Təsərrüfat sahəsində çalışdığı əlli il ərzində o, özünü bacarığlı mütəxəssis kimi göstərə bilmiş, zəhməti müxtəlif orden, medal və fəxri fərmanlara layiq görülmüşdür. F.Hüseynov 2001-ci ildə vəfat etmişdir.

## AĞAŞ HƏTƏM OĞLU

Baxışov Ağaş 1938-ci ildə Nərimankənd kəndində anadan olmuşdur. 1956-cı ildə orta məktəbi bitirib, K.Marks adına kolxozda mühasib köməkçisi – hesabdar işləmişdir. Sonra Azərbaycan Kənd Təsərrüfatı İstitutuna daxil olmuş və 1963-cü ildə oranı müvəffəqiyyətlə bitirmişdir. O, əmək fəaliyyətinə Kənd Təsərrüfatı Nazirliyində başlamışdır... Bacarıqlı, əməksevər bir işçi olduğu üçün nazirlikdə onu Köçəri Otlaqlar idarəsinə rəis təyin edirlər. Bu illər ərzində o,



həm də boya-başa çatdığı bölgənin müxtəlif problemlərinin həllinə öz köməyini əsirgəməmişdir. A.Baxışov 1971-ci il noyabr ayından Azərbaycan Respublikası Nazirlər Sovetində əvvəl referent, baş referent, bölmə müdiri, şöbə müdirinin müavini vəzifələrində çalışmışdır. Rəhbərlik tərəfindən onun əməyi hər zaman yüksək qiymətləndirilmişdir. Elə ona görə də A.Baxışova 1980-cı ildə xüsusi etimad göstərilmiş – O, Azərbaycan KPMK-da bölmə müdiri vəzifəsinə irəli çəkilmişdir. Bütün səyi, qabiliyyəti ilə ona tapşırılan vəzifənin öhdəsindən bacarığla gələn A.Baxışov 1982-ci ildə Ağdaş rayon Partiya Komitəsinin birinci katibi təyin edilir. Ağdaşda çalışdığı 5-6-il ərzində o, rayonda yeni məişət binaları, yaşayış evlərinin tikilməsi, iş yerlərinin təşkili, zəhmətkeşlərin rihafının yaxşılaşması üçün əlindən gələni əsirgəməmişdir. Rayonun bir çox kəndlərində Böyük Vətən müharibəsində həlak olan insanların adının əbədiləşdirilməsi üçün abidələrin – **"Naməlum əsgər"** komplekslərinin yaradılması A.Baxışovun əməli işlərindəndir. Rayonun bir çox kəndlərinə şosse yollarının çəkilməsi, yaşıllıqların salınması onun şəxsi təşəbbüsü əsasında yaradılmışdır. Həmin illərdə Ağaş Baxışov rayon ərazisində yerləşən bir çox ziyarətgahlar – Veysəl Qara (Üveyis Qərani), qədim mədəniyyət abidələri – Hacı Osman məscidini əsaslı şəkildə təmir etdirmiş, onların qorunub – saxlanması üçün lazımi təşkilatlara xüsusi göstəriş vermişdir.

Elmə, məktəbə, müəllimə, sənət adamlarına ümumiyyətlə, ziyalılara yüksək qiymət verən A.Baxışov rayonda adət-ənənələrimizlə bağlı tədbirlərin keçirilməsinə həmişə xüsusi diqqət yetirmişdir. A.Baxışov 1988-ci ildən – təqaüdə çıxana kimi, Respublika Kənd Təsərrüfatı Nazirliyində müxtəlif vəzifələrdə işləmişdir. XI çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuş A.Baxışovun şərəfli əməyi müxtəlif fəxri fərman və medallara layiq görülmüşdür.

Uşaqlıqdan atası Hətəm və qardaşı Əlveyisdən əməyə hörmət, halallıq, bir də dini-qayda qanunları mükəmməl öyrənən Ağaş ömrünün 60 yaşında – 1998-ci ildə ürəyində bəslədiyi ən ülvi arzuya da yetişir – Həcc ziyarətində olur.

Həmin vaxtdan bəri Hacı Ağaş el-obaya, əlsiz-ayaqsızlara, köç-kün-qaçqınlara kömək etməyi, onlara əl tutmağı özünə şərəf işi bilir.

## BALAƏMİ SƏFTƏROV



Rəhmətlik Balaəmi Səfərovla ötən əsrin 90-cı illərində "Şamaxı" kitabını hazırlayarkən bir neçə dəfə görüşmüşdüm. O zaman ömür yolu, əmək fəaliyyəti barədə mənə ətraflı danışmış və yazılı məlumat vermişdir. Mən də el ağsaqqalının dediklərı əsasında kiçik bir – "Tikdim ki, izim qala" adlı yazını kitaba daxil etdim... Rəhmətliyə kitabı oxumaq nəsib olmadı... Həmin vaxtdan on ildən artıq bir zaman ötüb... Amma indii cəsarətlə demək olar ki, xalq mahnısının son misrasının bir cümləsini – "tikdim ki, izim qala"nı, özünə deviz seçməkdə o, necə də haqlı imiş...

...Yaşının altmışı ötməsinə baxmayaraq hərəktləri, danışığı, görkəmi onu cavan göstərirdi. Haqqında çox oxumuş və çox eşitmişdim. Amma hömsöhtəb olmamışdım... Söhbətini dinlədim, ömür kitabını vərəqlədim, əmək fəaliyyətində qazandığı uğurlarla tanış oldum... Qırmızı **Əmək Bayrağı, Xalqlar Dostluğu** ordeni, onlarla mükafatlar, fəxri fərmanlar və s... Qazandıqları uğurlarla, gördüyü işlərlə müqayisə etsək, çox azdır...

**Haşiyə:** Balaəmi Səftərov 1977-82-ci illərdə Nəsimi, M.Ə.Sabir adına sovxozda direktor işləmişdi. Bu təsərrüfatlarda gördüyü xeyirxah, abadlıq işləri, eləcə də dövlət plan və tapşırıqlarının yerinə yetirilməsi onu rayonun sevimlisi etmişdi. Elə ona görədir ki, o, 1982-ci ildə rayonun ən iri təsərrüfatlarından birinə – M.Hüseynzadı adına toxumçuluq sovxozuna direktor təyin olundu. O zaman sevinə-sevinə deyirdi:

- Bu təsərrüfatda da xeyli işlər görmüşəm. Öz adətimə sadiq qalaraq birincisi, qəsəbənin abadlaşmasından başlamışam. Qəsəbə sakinləri üçün mədəniyyət evi, istirahət parkı, çörək zavodu, aptek binası, yeni idarə binası, qaçqınlar üçün üç yaşayış evləri və s. tikmişəm. Bildiyiniz kimi, sovxozumuzun taxılı ilə yanaşı mal-qarası

da vardır. Müasir tələblərə cavab verən ictimai tövlə mən işlədiyim dövrdə tikilmişdi. Dünyamızın belə bir vaxtında təsərrüfatımızın pul gəliri 230 milyon rubl olmuşdur...

Qədim bir xalq mahnısının sözləri isə mənim devizimdir:

*Mən aşıq bizim qala,*
*Həmişə bizim qala,*
*Tikmədim özüm qalam,*
*Tikdim ki, izim qala!"*

Bəli, B.Səftərov neçə ildir ki, axirət dünyasına qovuşmuşdur. Amma onun adı Qobustan torpağında hörmətlə çəkilir, anılır. Hansı dahininsə dediyi müdrik bir kəlam Balaəmi kimi insanların boyuna biçilib: "Əbədiyyətə qovuşandan sonra səni hörmətlə xatırlayırlarsa, deməli, ölməmisən, əbədiyaşarsan"...

## MƏMMƏD HƏTƏM OĞLU



Baxışov Məmməd 1940-cı ildə Şamaxı rayonunun Nərimankənd kəndində anadan olmuş və doğma kənd məktəbinin onuncu sinfini bitirmişdir... O, 1957-ci ildə ADU-nun (indiki BDU) mexanika-riyaziyyat fakültəsinə daxil olmuş və 1963-cü ildə həmin fakültəni qurtarmışdır. Məmməd müəllim əmək fəaliyyətinə doğma Nərimankənd kənd məktəbində başlamışdır... İlk gündən öz müəllimləri ilə bir məktəbdə işləməsi onun məsuliyyətini daha da artırır. Odur ki, o, məktəbin bütün tədbirlərində yaxından iştirak etməklə yanaşı, özü də gənc müəllim kimi tez-tez müxtəlif tədbirlərin hazırlanmasının təşəbbüskarı olur. Belə bir təşkilatçılıq bacarığına görə onu Nərimankənd orta məktəbinin tədris işləri üzrə direktor müavini təyin edirlər... O, öz vəzifəsini icra etməklə yanaşı, elmi fəaliyyətini davam etdirir, müxtəlif səpkili məqalələrlə dövri mətbuatda çıxış edir. O dövrdəki uğurlarından biri də 1973-cü ildə olur. Belə ki, o, həmin ildə Moskvada keçirilən gənc riyaziyyatçıların

elmi-praktik konfransında iştirak etmiş və yüksək mükafata layiq görülmüşdür...

Məmməd müəllim 1975-78-ci illərdə M.Hüseynov adına sovxozun ilk partiya təşkilatının katibi seçilmişdir. Sonra o, 1978-80-ci illərdə Bakı Ali Partiya məktəbinin dinləyicisi olmuşdur. Həmin vaxtdan etibarən M.Baxışov bir müddət müəllimlik sənətindən ayrılıb Şamaxı rayon partiya komitəsində təlimatçı, təşkilat şöbəsinin müdiri vəzifəsində çalışmışdır... Elmi savadı, pedaqoji səriştəsi və təşkilatçılıq bacarığını nəzərə alan rayon rəhbərliyi 1987-ci ildə onu Şamaxı rayon Maarif Şöbəsinin müdiri vəzifəsinə irəli çəkmişdir... O, bu vəzifədə işlədiyi müddətdə Şamaxı maarifində olan bəzi problemlərin həllinə nail olmuşdur... Məsələn, rayonun bir çox qabaqcıl müəllimləri öz zəhmətinin bəhrəsinə – müxtəlif fərxi adlara Məmməd müəllimin müdir işlədiyi dövrdə nail olmuşdur... Müvafiq təşkilatlar Məmməd müəllimin pedaqoji ustalıq, elmi potensialı və təşkilatçılıq bacarığını nəzərə alıb onu **"Qabaqcıl maarif xadimi"** döş nişanı, **"Fəxri fərman"**, **"Əmək şöhrəti"** medalı ilə təltif etmişdir.

Qobustan rayonu təşkil edildikdən sonra o, yenə də pedaqoji sahədən ayrılır. Məmməd müəllim 1991-93-cü illərdə Qobustan rayon Aqrar – Sənaye Komitəsi Həmkarlar İttifaqının sədri işləmişdir. M.Baxışov hal-hazırda Qobustan rayon Dövlət Sosial Müdafiə Fondunun müdiri vəzifəsində çalışır... Yetirmələrinin sorağı dünyanın müxtəlif ölkələrindən gələn Məmməd müəllim harda olursa-olsun, hansı vəzifədə işləyirsə-işləsin, məktəblə, maariflə nəfəs alan, elmə, alimə qiymət verən ziyalılarımızdandır...

## SEYFƏLİ EYNULLA OĞLU
## (1951-1998)

Məmmədov Seyfəli 1951-ci ildə Qobustan rayonunun Cəyirli kəndində doğulmuşdur. O, əvvəlcə Cəyirli kənd səkizillik, sonra isə Nərimankənd orta məktəbini bitirmişdir. Atasını vaxtsız itirdiyi üçün təhsilini davam etdirə bilməmiş, kənd kitabxanasında işləmişdir. Bir neçə il sonra BDU-nun (keçmiş S.M.Kirov adına ADU) kitabxanaçılıq fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur.

S.Məmmədov Qobustan rayon mədəniyyət şöbəsinin müdiri,



sonra Şamaxı rayon mədəniyyət şöbəsinin müdir müavini vəzifələrində çalışmışdır. Bacarıqlı mütəxəssis olduğu üçün Şamaxı rayon rəhbərliyi onu rayon kitabxana birliyinin direktoru təyin etmişdir. Bu illər ərzində o, həm də Şamaxı pedaqoji texnikumda müəllim kimi də fəaliyyət göstərmişdir.

Sadə insan, bacarıqlı mütəxəssis, gözəl ziyalı Seyfəli Eynulla oğlu cavan - 47 yaşında faciəli şəkildə həlak oldu. Onun adı həmkarlarının yaddaşında həmişə yaşayacaqdır.

## AĞASEYİD CAMALOV



Camalov Ağaseyid 1950-ci ildə mart ayının 10-da Ərəbqədim kəndində anadan olub. O, 1967-ci ildə Ərəbqədim kənd orta məktəbini bitirmişdir. Bir il sora – 1968-ci ildə N.Nərimanov adına AMİ-nin cərrahiyyə şöbəsinə daxil olmuşdur. 1975-ci ildə hərbi xidmətini leytenant rütbəsi ilə başa vurmuşdur. Elə həmin ildə də Mərəzə qəsəbə xəstəxanasında cərrah kimi əmək fəaliyyətinə başlamışdır. O, 1979-cu ildən isə Şamaxı Mərkəzi xəstəxanasında anestezoloq-reanimotoloq vəzifəsinə təyin edilmişdir. Şamaxı xəstəxanasında ilk bacarıqlı anestezoloq olan həkim öz şəfalı əlləri ilə neçə-neçə xəstəyə həyat vermişdir. 1980-ci ildə bu vəzifə ilə yanaşı, həm də qulaq-burun-boğaz həkimi işləyir. A.Camalovun tibb sahəsindəki xidmətləri rəhbərlik tərəfindən həmişə qiymətləndirilmişdir. Ailəlidir, beş övladı var.

**Haşiyə:** Ağaseyid bacarıqlı həkim olmaqla yanaşı, doğma torpağı, ata-baba yurdunu ürəkdən sevən bir ziyalıdır. Məlumdur ki, Ərəbqədim kəndi qədim tarixə malikdir. Kənd ərazisində qədim yaşayış yerləri, övliyalar, qəbristanlıqlar günümüzə uzaq keçmişdən

çox söz deyir. Bu ərazidə olan tarixi abidələr haqqında məlumatların əldə edilməsi, onların qeydə alınmasında Ağaseyid bir vətəndaş, bir ziyalı kimi bizə yardımçı olmuşdur. Onun vasitəsi ilə kəndin yaşlı sakinlərindən Ərəbqədim ərazisindəki övliya, taponimlər barədə xeyli rəvayətlər də əldə edə bilmişik...

Bəli, bacarıqlı həkim, sadə insan Ağaseyid elmizin-obamızın qədrini bilən ziyalılarındandır.

## BALAƏHMƏD AĞAQARDAŞ OĞLU



Səlimov Balaəhməd 1940-cı ildə Şamaxı rayonunun Nərimankənd kəndində anadan olmuşdur. O, 1960-cı ildə Mərəzə orta məktəbini (rus dilində) bitirmişdir. 1960-cı ildə Şamaxı rayon hərbi komissarlığı tərəfindən Tiflis şəhərindəki Artilleriya məktəbinə göndərilmişdir. 1963-cü ildə həmin məktəbi leytenant rütbəsi ilə bitirən Balaəhməd tağım komandiri vəzifəsində qulluğa başlamışdır.

B.Səlimov 1964-cü ildən tağım komandiri kimi ADR-da xidmət etməyə başlamışdır: 1969-cu ildəı vətənə dönən komandir beş il bateriya komandiri, artilleriye diviziyonunun qərargah rəisi kimi Gəncə şəhərindəki hərbi hissədə **(54121)**, 1974-1979-cu illərdə isə Port-İliçq şəhərində divizion komandiri **(№ 32053)**, 1979-1981-ci illərdə Bakı şəhərindəki Zaqafqaziya Hərbi dairəsində, 1986-1987-ci illərdə yenidən ADR-da qulluq etmişdir.

O, 1987-ci ildə ordudan tərxis olduqdan sonra, 1991-ci ilə kimi BDU-da Mülkü Müdafiə sahəsində qərargah rəisi və kafedra müdiri vəzifəsində çalışmışdır. B.Səlimov 1988-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsinin qiyabi şöbəsinə daxil olmuş və 1994-cü ildə həmin fakültəni bitirmişdir.

Polkovnik B.Səlimov 1994-cü ildən 1996-cı ilə kimi Azərbaycan Texniki Universitetində hərbi kafedranın rəis müavini işləmişdir. Polkovnik B.Səlimov hərbi sahədə çalışdığı qırx ilə yaxın bir müddətində dövlət tərəfindən bir çox mükafat və təltiflərə layiq görülmüşdür. Ailəlidir, iki övladı var.

## MÜRSƏL TEYMUR OĞLU



Ağamirzəyev Mürsəl 1952-ci ildə Nərimankənd kəndində doğulmuşdur. O, 1969-cı ildə kənd orta məktəbini tərifnamə ilə bitirmişdir.

**Haşiyə:** Mürsəllə orta məktəbi bir yerdə oxumuşam. Gözəl insan, bacarıqlı pedaqoq Nəfəc Nəcəfov (filologiya elmləri namizədi N.Nəcəfov hazırda Təhsil Nazirliyində rəhbər vəzifədə çalışır – **S.Q.**) ədəbiyyat müəllimimiz idi. Onun rəhbərliyi ilə məktəbdə **"Ədəbiyyat dərnəyi"** fəaliyyət göstərirdi. Dərnəyin on beş nəfər üzvü var idi. Dərnək məşğələləri çox maraqlı keçərdi. N.Nəcəfov əsasən, klassik şairlərin yaradıcılığını bizə öyrədirdi. Xaqani, Nəsimi, Füzuli, Ş.İ.Xətayi şerlərinin oxu müsabiqəsini təşkil edərdi. Mürsəlin ifasında söylənən şerlər daha çox alqışlanırdı...

Ağamirzəyev orta məktəbi bitirib Azərbaycan Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinə daxil olur. O, institututda keçirilən bütün ədəbi-bədii tədbirlərdə yaxından iştirak edilir. Və ən nəhayət, şer oxusunda olan ustalıq, səs fərqi, deyim tərzi onu radio və televiziyanın müxtəlif verlişlərinə aparıb çıxarır.

O, institutu bitirib, doğma Nərimankənd kənd orta məktəbinə qayıdır. Orada ingilis dili müəllimi işləyir. Pedaqoji fəaliyyəti ilə yanaşı Mürsəl müəllim rayonda keçirilən tədbirlərdə yaxından iştirak edir. Belə ki, o bayram şənlikləri, dövlət xadimləri, yazıçı və şairlərin yubleyləri ilə bağlı bütün tədbirlərin əvəzsiz aparıcısı olur...

Gözəl insan, bacarığlı pedaqoq, istedadlı natiq Mürsəl müəllim ömrünün çiçəklənən, yaradıcılıq zirvəsinə bircə addım qalmış çağında dünyasını dəyişdi... Onun xatirəsi dostları, həmkarları tərəfindən indi də hörmətlə yad edilir.

## PÜSTƏ ABASXAN QIZI

...Bir dəfə respublika kitabxanasında dövri mətbuatı nəzərdən keçirəndə "Ədəbiyyat və incəsənət" qəzetindəki gənc rəssamın çəkdiyi şəkillər diqqətimi cəlb etdi. Qəzetdə onun Sabir əsərlərinə



çəkdiyi illüstrasiyalarla bərabər öz şəkli də verilmişdi. Adı Püstə idi... İllər keçdi, həmkarım, filologiya elmlər namizədi A.Allahverdiyevin **"İdrakdır müsibətə mizan"** romanının birinci cildi işıq üzü gördü. Kitabla yaxından tanış oldum. Kitabdakı şəkillər məni tutdu. Şəkillərin rəssamının Püstə olduğu yazılmışdır. "Ədəbiyyat incəsənət" qəzetindəki şəkillər yadına düşdü. Müəllifdən rəssam Püstənin kimliyini soruşanda təbəssümlə: "Qızımdır", – dedi.

Püstə Abasxan qızı 1967-ci ilin mayında Şamaxıda ziyalı ailəsində anadan olub. Şamaxı 6 saylı orta məktəbi və Ə.Əzimzadə adına Rəssamlıq məktəbində təhsil almışdır.

Şamaxıda əsərlərinin sərgisi təşkil olunmuş, "Hophonnamə", "İdrakdır müsibətə mizan" əsərlərinə verdiyi rəsmlər orijinal cizgiləri, məna dərinliyinə görə mütəxəssislərin diqqəti cəlb etməkdədir.

Rəssamın fresuaları, portretləri, peyzajları da maraq doğurur...

## BÖYÜKAĞA CANƏLİ OĞLU



Həsənov Böyükağa 1960-cı ildə Şamaxı rayonunun Qaracüzlü kəndində anadan olub. Orta məktəbi bitirəndən sonra, hərbi xidmətə yollanır. Hərbi xidməti başa vurub vətənə dönür və müxtəlif sahələrdə fəaliyyət göstərmişdir. Ən nəhayət, Böyükağa öz istəyinə qovuşur – ali məktəbə daxil olur, hüquqşünas ixtisasına yiyələnir. Bakı Şəhər İcra Hakimiyyəti strukturunda çalışır. Sadəliyi, işgüzarlığı, bacarığı ilə böyük kollektiv arasında ad qazanır. Böyükağa əvvəldə olduğu kimi, vəzifəyə seçiləndən sonra da öz xeyriyyəçilik missiyasını davam etdirir. Onlarla şəhid, köçkün ailələrinə köməklik göstərir, bir çoxlarını işlə təmin edir.

Özünün dediyi kimi, lap gənclik illərindən aşıq sənətinin, muğam dünyasının aşiqidir, vurğunudur. Respublikamızın sənət adamlarının çoxsu ilə dostluq edir, onların problemlərinin həllinə, kitab və disklərinin işıq üzü görməsinə öz maddi köməyini heç vaxt əsirgəmir... Xeyirxah işlərin, əməllərin sahibi kimi Böyükağa müəllim ilk dəfə 1997-ci ildə Respublika Qızıl Aypara Cəmiyyətinin İcraiyyə Komitəsinin "Fəxri fərmanı"na layiq görülmüşdür.

Xeyriyyəçi insan kimi Böyükağa müəllim təkcə Güzdək qəsəbəsində deyil, Qobustan, Şamaxı rayonu və Bakının bir çox kəndində böyük hörmət və izzət qazanmışdır.

Xeyirxahlığı özünə böyük şərəf işi hesab edən Böyükağa müəllim ailəlidir, iki övladı var...

## FÜZULİ QƏRİB OĞLU



Güləliyev Füzuli 1961-ci ildə Ərəbqədim kəndində anadan olmuşdur. O, Ərəbqədim kənd orta məktəbini bitirmiş və 1978-80-ci illərdə məktəbdə PBDR-i işləmişdir. 1981-ci ildə BDU-nun (keçmiş S.M.Kirov adına ADU) tarix fakültəsinə daxil olmuş və 1987-ci ildə həmin fakültəni bitirmişdir. Hərbi xidməti başa vurduqdan sonra, o, "Bakı" kolxozunda əvvəl kolxozçu, 1983-cü ildən isə komsomol komitəsinin, 1985-ci ildən kolxoz partiya komitəsinin katibi işləmişdir. F.Güləliyev 1986-1990-cı illərdə Göydərə kənd məktəbində tarix müəllimi işləmişdir.

Qobustan rayonu təşkil edildikdə, rayon rəhbərliyi Füzuli Qərib oğlunun səriştə, bacarığını nəzərə alıb onu rayon komsomol komitəsinin birinci katibi vəzifəsinə irəli çəkir.

Yeni Azərbaycan Partiyasının üzvü F.Güləliyev 1993-cü ildə rayon XDS-nin sədri seçilmiş və 1995-ci ilin dekabr ayına kimi həmin vəzifədə qalmışdır. O, 1996-1998-ci illərdə DƏK-in Qobustan rayon Özəlləşdirmə şöbəsinin, sonra Şamaxı bölgə Özəlləşdirmə şöbəsinin baş mütəxəssisi, 1999-2000-ci ildə "Azərpoçt" DM Qobustan "Poçtamtı"nın rəisi vəzifəsində işləmişdir.

Rayonun ictimai-siyasi həyatında yaxından iştirak edən bacarıqlı mütəxəssis, sadə insan, gözəl ziyalı F.Güləliyev hal-hazırda rayon İcra Hakimiyyəti başçısının Təhsil, Səhiyyə və Mədəniyyət üzrə müavini vəzifəsində işləyir. Ailəlidir, dörd övladı var.

## RAMİZ MƏMMƏDŞAH OĞLU



Ağamalıyev Ramiz 13 may 1967-ci ildə Təklə kəndində anadan olmuşdur. O, 1984-cü ildə kənd orta məktəbini bitirib, Bakı İqtisad Universitetinin (keçmiş Az. XTİ) "Mühasibat uçotu, nəzarət və təsərrüfat fəaliyyətinin təhlili" fakültəsinin iqtisad şöbəsinə daxil olmuşdur. İnstitutu müvəffəqiyyətlə başa vuran R.Ağamalıyev 1990-cı ildə Sabunçu rayonu ticarət idarəsində mühasib kimi əmək fəaliyyətinə başlamışdır. Həmin müəssisədə özünü yaxşı mütəxəssis kimi göstərdiyi üçün onu baş mühasibin müavini vəzifəsinə irəli çəkirlər. İki il bu müəssisədə çalışdıqdan sonra, Ağamalıyev 2002-ci ilin oktyabr ayına kimi Bakı şəhərində müxtəlif vergi orqanlarında işləmişdir. O, 2002-ci ildən "BAYVA-enerji" şirkətinin maliyyə direktoru vəzifəsinə təyin edilmişdir. Onun çalışdığı müəssisə 44 rayon və iki şəhəri əhatə edir. Müəssisədə altı min nəfərdən artı işçi çalışır.

**Haşiyə:** Ramiz müəllim sadə, xeyirxah bir insan olmaqla yanaşı yurd, torpaq, el-oba qədri bilən əsl vətəndaşdır. Dediyindən aydın olur ki, torpaqlarımızın bir qisminin yağı tapdağı altında qalması və həmyerlilərimizin qaçqın-köçkün kimi yaşaması onu hər an narahat edir. Əlindən təkcə o gəlir ki, imkanı daxilində yurd-yuvasından qovulan həmyerlilərinə maddi köməklik göstərsin, onlara həyan olsun. Ramiz inanır ki, gec-tez torpaqlarımızın sahibi özümüz olacayıq. *Ramiz həmin gün qurban da kəsəcək...*

Müxtəlif vəzifələrdə çalışdığı on dörd il ərzində A.Ağamalıyevin şərəfli əməyi müxtəlif mükafat, "Fəxri fərman"lara layiq görülmüşdür. Ailəlidir, bir övladı var.

## ADİL MİRZƏ OĞLU



Rəfiyev Adil 1968-ci il fevral ayının 18-də Şamaxı rayonunun (indiki Qobustan rayonu) Yekəxana kəndində anadan olub. 1985-ci ildə orta məktəbi bitirib Bakı Energetika Texnikumuna daxil olmuşdur. Bir il sonra hərbi xidmətə çağırılmışdır. 1986-cı ildən 1989-cu ilə kimi Almaniya Demokratik Respublikasında hərbi xidmətdə olmuşdur. Əsgəri xidmətdə yaxşı qulluq etdiyinə görə komandirləri tərəfindən ailələrinə – Mirzə kişinin adına bir neçə dəfə minnətdarlıq məktubu gəlmişdir. Hərbi xidmətdən qayıtdıqdan sonra həmin texnikumda təhsilini davam etdirmişdir. 1990-cı ildə təhsilini başa vuran Adil Abşeron rayonunda elektrik mantyoru kimi əmək fəaliyyətinə başlamışdır. 1990-1997-ci illərdə o, şəbəkədə mantyor, növbə rəisi, usta, sahə rəisi, mühəndis və s. vəzifələrdə çalışmış, özü də həmişə vəzifəsinin öhdəsindən bacarıqla gəlmişdir. Dəfələrlə idarənin fəxri fərmanı və mükafatları ilə təltif olunmuşdur. Bacarıq və qabiliyyətini nəzərə alan rəhbərlik onu 1997-ci ildə Fatmayi Şəbəkə rayonunun rəisi vəzifəsinə təyin edilmişdir. Çalışqanlığı ilə seçilən, vəzifəsinin öhdəsindən bacarıqla gələn Adil 2000-ci ildə Xırdalan Elektrik Şəbəkəsinin direktoru müavini, 2002-ci ildən isə baş direktor vəzifəsinə məsləhət görülmüşdür. Bu illər ərzində o, sənətinin kamil bilicisi olduğu və tapşırılan işin öhdəsindən bacarıqla gəldiyini nümayiş etdirmişdir. Odur ki, 2003-cü ilin yanvar ayında ona daha məsul – Şirvan bölgəsi (Şamaxı, Qobustan, Ağsu və İsmayıllı rayonları) regional Elektrik Şöbəsinin baş direktoru vəzifəsini etibar edirlər. Bir il sonra Rəfiyev Sabirabad Elektrik Şəbəkəsinin direktoru təyin edilir. 2004-cü ilin may ayının 10-da Rəfiyevi 22 rayonu əhatə edən BAYVA Cənub Enerji Şirkətinin Baş Meneceri vəzifəsində fəaliyyət göstərir. 3000 nəfər işçini özündə birləşdirən belə böyük bir müəssisədə A.Rəfşyev tez bir zaman ərzində bütün işləri nizama sala bilir, kollektivin, eləcə də rəhbərliyin hörmətini qazanır.

On dörd il ərzində bu çətin sahədə çalışan Rəfiyevin aldığı

mükafat, fəxri fərman, tərifnamələrin sayı əliyyə yaxındır. Ailəlidir, iki övladı var.

**Haşiyə:** *Yerişində-duruşunda bir sadəlik, salqarlıq, üz-gözündən* nur yağan həmyerlimizlə kabinetində görüşdük. İki saata yaxın poeziya, musiqi, elm, təhsil barədə söhbət etdik. İlk görüşümüzdən yəqin etdim ki, Adil müəllim şer-musiqi təşnəsi olan həqiqi Şirvanlıdır. Elliklə Azərbaycanımıza vurğun olan bu insanın qəlbində Qobustanın ayrıca yeri var. Söhbət əsasında dedi: "Bir elektrik enerji işçisi kimi, bütövlükdə Azərbaycanıma, onun vətəndaşlarına işıqlı günlər arzulayıram. Şirvan bölgəsi regional Elektrik Şəbəkəsinin rəhbəri işlədiyim müddətdə doğma Qobustanıma hər hansı bir xeyri verə bilirəmsə, özümü xoşbəxt sayıram. Axı uşaqlığımın acılı-şirinli xatirələri Qobustanın qədim bir diyarı – Yekəxanadadır"...

# 1. QOBUSTAN MAARİFİ

*"Mənim üçün müəllim adı həmişə ən ülvi, ən şərəfli bir məfhum olub. Mən bu gün müəllimim qarşısında baş əyirəm, müəllimə hörmət və ehtiramımı bildirirəm".*

*H.Ə.Əliyev*

XIX yüzilliyin 30-cu illərindən başlayaraq Azərbaycanın bir neçə əsas şəhərində qəza məktəbləri təşkil edilməyə başladı. Məktəb yaradılması nəzərdə tutulan şəhərləridən biri də Şamaxı oldu. Qəza mərkəzində belə xeyirxah işin təşkili üçün dövlət xeyriyyəçi insanlara mürajiət etdi. Tez bir zamanda xeyli pul toplandı. Əfsus ki, bu zaman baş verən zəlzələ işi yarımçıq qoydu...



**Azərbaycan müəllimlərinin VIII qurultayı. Şamaxı, Qobustan rayonlarının nümayəndələri. Bakı, 1997.**

Ən nəhayət, 1838-ci ildə məktəb binası tam hazır oldu. Odur ki, may ayında Şamaxıda qəza məktəbi açıldı. Bir müddət sonra qəza məktəbi dörd sinifli ali ibtidai məktəbə çevrildi. Bu məktəbdə tədris işi 1859-cu il zəlzələsinə kimi davam etdi. Məktəbdə azərbaycanlı

uşaqlarla yanaşı başqa millətlərin uşaqları da təhsil alırdı. Pullu olduğu üçün məktəbdə ancaq varlıların balaları oxuya bilirdi.

...Bütün bunlarla yanaşı Azərbaycanın başqa bölgələri kimi Şamaxıda da müsəlman məktəbi ilk dəfə 1849-cu ildə açıldı. Bu təhsil ocaqlarında oxuyan gənclər gələcəkdə Şirvan qəzasında maarif-mədəniyyətin inkişafında xüsusi rol oynamışlar.

...XIX əsrdə Şamaxı qəzasında yaradılan rus dilli məktəblərdə varlı ailələrdən olan azərbaycanlı gənclər də təhsil almağa başladılar [1]...

İndiki Qobustan regionunda dövlət tərəfindən ilk məktəb rus kəndləri – Mərəzə və Xilmillidə fəaliyyət göstərmişdir.

Mərəzədə ilk məktəbin yaradılmasında "Azərbaycanlılar arasında böyümüş, onların dilini öyrənmiş, adət-ənənələrinə, həyat şəraitinə bələd olmuş" pedaqoq **A.O.Çernyayevskinin (1840-1894)** xüsusi əməyi, zəhməti və xidməti olmuşdur. Şamaxıda qəza məktəbində oxuyub Mərəzə kəndində poçt idarəsinin stansiya nəzarətçiçi işləyən A.O.Çernyayevski kənddə təşkil edilən xalq məktəbinə müəllim təyin edilir...

Azərbaycan kəndlərində dünyəvi təhsilin yayılmasında təlimin rus dilində aparıldığı xalq məktəbləri çox böyük rol oynamışdır. Azərbaycan kəndlərində ilk xalq məktəblərinin meydana gəlməsi XIX əsrin 60-cı illərinə təsadüf edir. Belə məktəblər ilk dəfə Lənkəran qəzasının rus kəndləri olan I Andreyevka (1857), I Astraxanka (1857), Şamaxı qəzasının Xilmilli (1860) və Mərəzə (1866) kəndlərində açıldı[2].

Mənbələrdən bəlli olur ki, Çerniyayevski bu məktəbdə rus və müsəlman uşaqlarına birgə dərs vermişdir. "Oğlan və qızların, rus və azərbaycanlıların, kəndli və bəy uşaqlarının pulsuz təhsil aldıqları Mərəzə məktəbi üçün səciyyəvi cəhətlər ondan ibarət idi ki, burada zorakılıq və uşağın şəxsiyyətini əzən vasitələr yox idi, uşaqlara insanpərvərliklə yanaşılır, dərslərin maraqlı, aydın olmasına səy göstərilirdi... Qəza məktəblərində oxuyanların sayına nisbətən Mərəzə məktəblərində şagirdlərin sayı xeyli çox idi. 81 nəfər şagird oxuyan bu məktəbin üç şöbəsi vardı"[3].

Ümumiyyətlə, A.O.Çernyayevskinin Mərəzədə təşkil etdiyi məktəbdə yaxın kəndlərin varlı müsəlman ailələrinin uşaqları da təhsil almışdır.

[1] Bax. S.Qəniyev, M.İsmayılova. Şamaxı maarifi və maarif fədailəri, Bakı, 1999.
[2] H.Əhmədov, XIX əsr məktəbləri, Bakı, 1980, s.10.
[3] Z.Mehdizadə. A.O.Çernyayevski. Həyatı və pedaqoji fəaliyyəti, Bakı, 1983, s.10.

* * *

Tədqiqatlar göstərir ki, bütün müsəllman dünyasında ilk əvvəl mollaxanalar əsas təhsil ocaqları sayılırdı. Sonralar isə mədrəsələr yaranmağa başladı. Bütün Şərq dünyasının, eləcə də Azərbaycanın qədim Bağdad, Nəcəf, Şam, Təbriz, Naxçıvan, Dərbənd, Şamaxı, Bakı və s. şəhərlərində uzun illər mədrəsələr fəaliyyət göstərmişdir **"Odur ki, xalqımızın istedadlı övladları IX-XIX əsrlərdə əsasən, elmlərin sirlərinə anjaq həmin təhsil müəssələrində yiyələnmişlər..."**



Qurultay nümayəndələri

Azərbaycanın qədim şəhərləri ilə yanaşı, bir çox oturaq kəndlərində və ya obalarında dini bilik sahibi olan mollalar şəxsi məktəblər təşkil etmiş, həmyerlilərinə müəyyən savad verməyə çalışmışlar. Araşdırmalar nəticəsində öyrənmişik ki, Qobustan regionunun bir çox kənd və obalarında da belə xeyirxah insanlar olmuşdur. Rayonun **Dağ-Kolanı** obasında Məşədi Nuh, Məşədi Qəni, **Poladlı kəndində** Məşədi Molla Əvəz, Molla Hacı Həsənalı, **Sündü kəndində** Hacı Nəsirulla, Molla Mirzə, Molla Mövsüm, **Cəyirli kəndində** Hacı Qara Baba oğlu, **Ərəbqədim** kəndində Molla Zərbəli, Hacı Zülfüqar, **Nabur kəndində** Molla Qaroğlan, Molla Zahid, **Şamlı obasında** Molla Alış, Molla Alı, Molla Heybət, **Ərəbşalbaş kəndində** Hacı Süleyman, Hacı Molla Vəli, Almaz Əfəndi, **Nərimankənd kəndində** Molla Nuru, **Yekəxana kəndində** Molla Məlik, **Bəklə**

**kəndində** Hacı Əbdürrəhim, Hacı Rəsul və başqaları öz həmyerlilərinə "qara tanıtmış", "Quran" oxumağı öyrətmişdir. Ona görə də indiyə kimi həmin xeyirxah insanların adı unudulmamış, hörmətlə xatırlanırlar. Bu arada böyük bilik sahibi Əli Əleyhissəlamın dəyərli bir hikməti yada düşür: **"Mənə bir hərf öyrədənə qul olaram".**

1920-ci illərin əvvəlində ölkədə savadsızlığı aradan qaldırmaq üçün ibtidai məktəblərin yaradılması, ümumi – icbari təhsilin həyata keçrilməsi, qızların təhsilə cəlb edilməsi haqqında dövlət tərəfindən qərar və dekretlər verilmişdir. Və bundan sonra müxtəlif kənd və şəhərlərin məscidlərində, varlıların müsadirə olunmuş evlərində məktəblərin təşkili günü-gündən artmağa başladı. Amma müəllimlər azlıq edirdi. Ölkədə olan bu kadr çatışmamazlığını aradan qaldırmaqdan ötrü ibtidai məktəblər üçün müəllimlər hazırlayan pedaqoji məktəb, texnikumlar yaradılması dövrün başlıca problemlərindən biri oldu. Odur ki, pedaqoji texnikumlar təşkil edilməyə Pedaqoji texnikumların yaradılmasında dövlətin əsas məqsədi **"...ümumtəhsil məktəblərinin ibtidai sinifləri üçün tərbiyəçilər, həmçinin bədən tərbiyəsi, musiqi, tətbiqi sənət müəllimləri və pioner baş dəstə rəhbəri hazırlamaq idi".** Bu tipli məktəblər ilk dəfə Rusiyada 1920-ci ildə fəaliyyətə başladı... Ölkəmizdə ilk ali məktəb Azərbaycan Cümhuriyyəti dövründə (1919) yaradılsa da, pedaqoji kadrlar hazırlayan ilk və ən böyük ali məktəb – Azərbaycan kişi Pedaqoji İnstitutu 1921-ci ildə təsis edilmişdi...

1922-ci ildən sonra SSRİ dövləti tərəfindən maarif, məktəb, təhsilə aid verilən dəyərli qərarlar Azərbaycanda da həyata keçrilməyə başladı... Respublikamızın o dövrdəki maarif naziri D.Bünyadzadə bu sahədə xeyli işlər görmüş, qərarlar vermişdir. Həmin dövrdə Azərbaycanda məktəb, təhsillə bağlı verilən qərarlar içində qızların təhsilə cəlb olunması, savadsızlığın ləğvi də xüsusi yer tuturdu.

**Faktlardan:** 1920-ci il mart ayının 12-də köhnə məktəb tipinin yeni məktəblə əvəz edilməsi haqqında Azərbaycan hökuməti dekret qəbul etdi. Həmin dekretdə deyilirdi: **"Yeni məktəb iki dərəcəli olmalıdır. Birinci dərəcəli məktəblər beş illik, ikinci dərəcəli məktəblər dörd illik olmalıdır. Tədris ana dilində aparılacaq, qızlar və oğlanlar imkan daxilində bir yerdə oxuyacaqlar".**

...1921-ci il iyulun 3-də Azərbaycan XKS tərəfində binalarının hərbi-mülki idarələrdən azad edilməsi barədə də dekret qəbul edildi. Bu dövrdə məktəblərdə müəllimlər azlıq təşkil edirdi. Odur ki, hökumət bu

çatışmamazlığı aradan qaldırmaqdan ötrü respublikanın müxtəlif bölgələrində pedaqoji kurslarla yanaşı, "...Bakıda, Şuşada, Gəncədə qız, Nuxada, Şuşada, Şamaxıda oğlan seminariyaları" təşkil edirdi...

...1925-ci ilin may ayında Azərbaycan müəllimlərinin I qurultayı çağırıldı. Qurultayda respublikada məktəblərin təşkili, tipləri və ibtidai icbari təhsilin həyata keçirilməsi və s. məsələlər haqqında qərarlar qəbul edildi.

...Azərbaycan KP VIII qurultayında məktəb və maarif haqqında xüsusi qərar qəbul edildi. Qərarda deyilirdi ki, "ümumi ibtidai icbari pulsuz təhsili 1927-1928-ci dərs ilindən həyata keçirmək üçün əməli hazırlıq işləri görülməyə başlansın və bu işlərə dair qəbul olunmuş plan 10 il ərzində yerinə yetirilsin"...

Bunlardan əlavə, 1925-1930-cu illərdən sonra respublikamızın müxtəlif guşələrində pedaqoji məktəblərin-texnikumların yaradılması ilə bağlı olan göstərişlər də həyata keçirilməyə başladı. Odur ki, Azərbaycanın Bakı, Naxçıvan, Quba, Şuşa, Göyçay, Qazax və s. şəhərlərində pedaqoji məktəblər açıldı. Qədim mədəniyyət mərkəzi olan **Şamaxıda isə pedaqoji məktəb 1932-ci ildə təşkil olundu.**

**Mənbələrdən:** "1932-1935-ci illərdə M.Ə.Sabir adına Şamaxı texnikumunu 57 nəfər bitirmişdi. Onlardan iki nəfəri qadın idi".

1920-ci ildən sonra Şamaxının demək olar ki, bütün oturaq kəndlərində ibtidai məktəblərin təşkili və savadsızlığın ləğvi başlandı. Şamaxının **Sündü, Avaxıl, Məlhəm, Göylər, Əngəxaran, Mədrəsə, Çarhan, Bağırlı, Udulu, Poladlı, Çağan, Şərbaçı, Quşçu, Cəyirli, Qurbançı, Cəmcəmli, Təklə, Nabur, Ərçiman, Dəmirçi, Qaravəlli** və s. kəndlərində Aprel inqilabından sonra təşkil edilən ilk məktəblər yuxarıda qeyd etdiyimiz kimi şəxsi ev və məscidlərdə təşkil olunmuşdu. Məktəblərin çoxunda müəllimlərlə yanaşı, mirzə, molla, əfəndilər də yeni üsulla dərs deyirdilər...

Arxiv sənədləri, ziyalıların gündəliyi və yaşlı pedaqoqların xatirələrindən müəyyənləşdirə bilmişik ki, Şamaxıda ilk məktəb binalarının tikintisinə əsasən, 1922-1930-cu illərdən başlanmış və bu tədbir Böyük Vətən müharibəsi başlanana kimi mütamadi olaraq davam etmişdir. Nərimankənd, Sündü, Göylər, Bağırlı və s. kəndlərdə ilk məktəblər bu dövrdə tikilmişdir.

**Mənbələrdən:** "1925-ci il **yanvarın 1-də Şamaxı qəzasında 67 məktəb fəaliyyət göstərirdi ki, bu da hər 1407 nəfər əhaliyə bir məktəb düşməsi demək idi".**

Qeyd edildiyi kimi, 1943-cü ildə indiki Qobustan ərazisi Mərəzə rayonu kimi təşkil edilmişdir. Azərbaycanın bir rayonu kimi fəaliyyət göstərən Mərəzədə başqa inzibati idarələrlə yanaşı Rayon Maarif Şöbəsi də yaradıldı. 1960-cı ilə kimi fəaliyyət göstərən Mərəzə rayonunun Maarif Şöbəsində onlarla bacarıqlı, dəyərli, pedaqoji sahəyə yerli-yataqlı bələd olan insanlar çalışmışlar. İyirmi ilə yaxın Mərəzə rayon Təhsil Şöbəsinə rəhbərlik edən bir çox pedaqoqlar haqqında arxivdən və xatirələrdən müəyyən məlumatlar əldə etmişik. Maarif şöbəsini müdirləri: **Qafar Murad oğlu (Şamaxı), Qaçay Hacıyev (Qarabağlı), İmaməli Xalıqov (Nabur kəndi, general-mayor Xalıqovun əmisi oğlu), Davud Orucov (Mərəzə), Nizam Qədirov (Nərimankənd kəndi), Yusif Məmmədov (Gədəbəy rayonu), təhsil şöbəsinin işçiləri – Musa Həsənov, İsbat Babayev, Zümrüd Tağıyeva (Bakı, mühasib), Nizami Əzizov,** bu insanlar Mərəzədə pedaqoji mühitin inkişafına genişlənməsinə, tərəqqisinə xidmət etmişlər.

1960-cı ildən sonra Mərəzə rayonu yenidən Şamaxı rayonuna qatıldı. Adlarını qeyd etdiyimiz insanların səyi sayəsində Mərəzə maarifi 1950-1960-cı illər ərzində böyük uğurlar qazanmışdır. Rayonun bir çox kəndlərində məktəb binaları tikilmiş, yeddillik məktəb orta məktəbə, ibtidai məktəblərin bir çoxu yeddillik məktəbə çevrilmişdir. Respublikanın ali məktəblərinə qəbul olan gənjlər arasında vaxtilə Mərəzə rayonu xüsusi yer tuturdu. Respublika fənn olimpiadalarında bu rayonun şagirdləri daha çox uğur qazanırdılar.

Rayon təhsil şöbəsinin uğurları barədə o dövrün mətbuat səhifələrində istənilən qədər oçerk, məqalələr çap olunmuş, qabaqjıl müəllimlər haqqında geniş və hərtərəfli yazılar verilmişdir. Günümüz üçün, çox dəyərli olan həmin yazıların hər biri həm də bir tarixdir. Mərəzə pedaqoqlarının şərəfli əməyindən, zəhmətindən günümüzə çox söz deyə bilən bir tarix! Mərəzə rayon Maarif Şöbəsinin uğurları barədə o dövrdə rayonda çap olunan "Mərəzə kolxozçusu" qəzetinin demək olar ki, hər nömrəsində məlumat dərc olunurdu. Bu baxımdan "Mərəzə koxozçusu" qəzetinin 17 dekabr 1958-ci il nömrəsində "Moskvadan məktub" başlıqlı yazı çox maraqlıdır. Məktubu redaksiyaya Moskva şəhərindən **ÜİLKGİ MK-nına Uşaq sərgisi şöbəsindən rəssam Balentina Braykovskaya** göndərmişdir. Məktubdan aydın olur ki, Mərəzə rayonunun Çalov kənd yeddillik məktəbinin şagirdi Xanım Novruzova sərgiyə kiçik bir xalça göndərmişdir.

Xalça sərgi iştirakçıları tərəfindən maraqla qarşılanır. Odur ki, redaksiyaya Moskvadan "Sağ ol, Xanım" adlı məktub göndərilir: "**...Azərbaycan xalqının milli naxışlarını özündə əks etdirən bu xalça sərginin minlərlə iştirakçısı olan moskvalıları-yaşlıları və uşaqları hədsiz dərəcədə sevindirmişdir. Sağ ol, Xanım! Sərgi iştirakçıları Sizin rayonun bütün uşaqlarını qarşıdakı Yeni il bayramı münasibəti ilə təbrik edir və onlara təhsildə yaxşı müvəffəqiyyət arzulayırlar"...**

***Moskva şəhəri, B.Xmelinski küçəsi, № 3***

* * *

Rayonun məktəblərində 1920-ci ildən günümüzə qədər pedaqoji sahədə qazandığı uğurlar, müvəffəqiyyətlərə görə əməyi dövlətimiz tərəfindən müxtəlif fəxri ad, mükafat, təltiflərə layiq görülmüş yüzlərlə müəllim olmuşdur. Belə qabaqcıl maarif fədailəri **Mövsün Nəsrulla oğlu, Məhəmməd Əfəndiyev, Müseyib Məmmədov, Abdulla Hacıyev, Nuru Paşa oğlu, Məşədiməlik Baloğlan oğlu, Üzeyir Əhmədov, Müşfiq Əfəndiyev, Babaş Hasilov, Gülməmməd Pirverdiyev, Gülməmməd Abdullayev, Tapdıq Əkbərov, Gülmərdan Yolçuyev, Mürşid Xasıyev, Paşa İsayev, Miri Soltan oğlu, Mariya Fyodrovna, Nadejda Vasilyevna, Məşədi Səftər oğlu, Gülsüm Əfəndiyev, Əşrəf Tağı oğlu, Misir Abdulla oğlu, Ceyhun İbrahimov, Əli Babayev, Ağakişi Sülyeman oğlu, Sabir Qurbanov, Ağasəf Qayıblı, Bəhlul Alıcanov, Davud Orucov, Cəbrayıl Ağayev, Abdulla Rəcəbov, Nizam Qədirov, Kənan Axundov, Zivər Əbdürrəhimova, Heybət Şikarov, Məhərrəm Əliyev, Gülbala Novruz oğlu, Nəcəf Nəcəfov, Məmməd Baxışov, Höccət Məmmədov, Əziz Məlikov, Baxış Məmmədov, Hacı Həqiqət, Ələkbər Əliyev, İmran Sabirov, İzzət Şərifov, Əhməd Seyidməmmədov, Gülmurad Poladov, Sabir Həmzəyev, Ənvər Qayıbov, Musasoltan Eyyubov, Əbil Qasımov, Elimxan Baxşəliyev** və b. öz ömürlərini yüzlərlə insanların ömrünə köçürmüş, onların həqiqi vətəndaş kimi yetişməsinə nail olmuşlar. Biz inanırıq ki, aylar, illər, əsrlər dolanacaq həmin maarif fədailərinin adı bir xatirələrdə, bir də əməllərinə, ömür yollarına biçdiyimiz bu kitabda yaşayacaqdır.

XX əsrin 50-ci illərindən sonra Mərəzə rayonunun bacarıqlı pedaqoqlarının səyi, fəaliyyəti nəticəsində bir çox məktəblərin önəmli iş təcrübəsi təkcə respublikamızda deyil, keçmiş sovetlər birliyində də məşhur olmuşdur.

Rayonun belə qabaqcıl məktəblərinə Mərəzə qəsəbə, Çalov, Nərimankənd, Sündü, Təklə, Poladlı, Cəmcəmli, Cəyirli, Xilmilli və s. kənd məktəblərini nümunə göstərmək olar.



Sündü kənd orta məktəbi

Yuxarıda qeyd etdiyimiz kimi, vaxtilə rayonun qabaqcıl məktəblərdən biri də Nərimankənd kənd orta məktəbi olmuşdur. Ötən əsrin altımışıncı illərində bir sıra – Quşçu, Poladlı, Yekəxana, Təsi, Cəmcəmli, Sədəf, Bəklə, Qurbançı, Şıxzərli, Ərəbqədim, Ərəbşalbaş, Qaracüzlü və s. kəndlərdə orta məktəb olmadığı üçün həmin kəndlərdən səkkizinci sinif məzunları orta təhsillərini Nərimankənd orta məktəbində alırdılar. Ümumiyyətlə, ötən əsrin 50-ci illərindən 70-ci illərinə kimi, Şamaxı rayonunun maariflənməsində Nərimankənd orta məktəbinin əvəzsiz xidmətləri olmuşdur. Bu illərdə həmin məktəbdə qabaqcıl, bacarıqlı, təcrübəli və ən savadlı müəllimlər çalışırdılar. Məktəbdə pedaqoji kollektiv arasında xüsusi intizam mövcud idi. Məktəbə qabaqcıl pedaqoq, ömrünün çox hissəsini məktəbə həsr etmiş, respublikamızın Əməkdar müəllimi Davud Orucov rəhbərlik edirdi. Onun məktəbinin qabaqcıl iş təcrübəsi, şöhrəti keçmiş SSRİ-nin demək olar ki, bir çox bölgələrində geniş yayılmışdır. Bu məktəbin məzunları ölkəmizdə müxtəlif vəzifələrdə çalışmış, eləcə də əlli nəfərdən çoxu elmlər namizədi və elmlər doktoru dərəcəsinə yüksəlmişlər.

Vaxtilə mətbuat səhifələrində bu məktəbin uğurları, yetirmələri haqqında çox saylı yazılar dərc olunmuşdur. Eləcə də məktəbin direktoru D.Orucov mətbuatda məktəbin qabaqcıl iş təcrübəsi və

məzunların uğurlarından vaxtaşırı söz açmağı özünə şərəf işi bilmişdir. "Azərbaycan təbiəti" jurnalının 1973-cü il sayının birində D.Orucovun "İkinci ana" adlı məqaləsi dərc olunmuşdur. Həmin yazıda oxuyuruq: "Kamal attestatı alıb ölkəmizin müxtəlif institututlarında oxuyan, fabrik və zavodlarında çalışan keçmiş məzunlarımızdan məktəbimizə tez-tez məktublar gəlir. Məktublar hamısı ürək açandır. Məsələn, məktəbimizin yetirməsi, indi V.İ.Lenin adına APİ-nin ikinci kurs tələbəsi Seyfəddin Qəniyev müəllimi Bəhlul Əlicanova göndərdiyi məktubda yazır: "Unudulmaz Bəhlul müəllim, salam. Bu məktubu mənə yazdıran sizin və başqa müəllimlərimin mənə göstərdiyi qayğıdır. Budur, birinci kursun son imtahan günü. Müəllim uşaqlara müraciətlə deyir: - "Kim bilet çəkib fikirləşmədən danışar?" Mən əlimi qaldırıram. Artıq bilet əlimdədir. Bütün suallar aydındır... Sullara cavab verirəm. Müəllim qiymət kitabçama "əla" yazır. Sevinirəm. Bu sevincdə Sizin də əməyiniz, payınız vardır"...

Bir sözlə, ötən əsrin 60-80-cı illərində Azərbaycanımız üçün dəyərli ziyalı, kamil mütəxəssislərin və eləcə də dövlət xadimləri və elm fədailərinin yetişməsində Nərimankənd kənd orta məktəbinin əvəzsiz xidmətləri olmuşdur...

* * *

Hal-hazırda da Qobustan rayonu öz qədim adətlərinə sadiqdir. Rayonda qabaqcıl məktəblərin sayı çox olduğu kimi, böyük pedaqoji təcrübəyə, səriştəyə malik maarif fədailərinin də sayı çoxdur. Bunun nəticəsidir ki, 2004-2005-ci tədris ilində respublikamızın Prezidenti İlham Əliyev cənablarının ən ali mükafata – **"Respublikanın Əməkdar müəllimi"** adına layiq gördüyü pedaqoqlar arasında Qobustan rayon Mərəzə qəsəbə orta məktəbinin qabaqcıl müəllimi Eyyubov Musasoltan da vardır...

* * *

**Heybət müəllimin dediklərindən:** 1990-cı ildə Qobustan rayonu təşkil edilərkən, rayon **Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin 17 iyul 1990-cı il tarixli təqdimatı ilə Xalq Təhsil Şöbəsi yaradılmışdır. Azərbaycan Respublikası Xalq Təhsil Nazirliyinin 25.07.90-cı il tarixli əmri ilə Qayıbov Ənvər Kərəm oğlu Qobustan rayon** Xalq Təhsil Şöbəsinin müdiri təyin edilmişdir.

Rayon yaradılarkən rayonda **16 orta, 10 əsas, 2 ibtidai** məktəb və **1 məktəbəqədər** tərbiyə müəssisəsi var idi. Ümumtəhsil məktəblərində 520 pedaqoji işçi şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. Ə.Qayıbovun rəhbərliyi vaxtında Bəklə və Çuxanlı kənd əsas məktəbləri orta məktəbə çevrilmiş, Çalov və Cəyirli əsas məktəbləri yaradılmışdır. Uşaq bağçalarının sayı isə 7-yə çatdırılmışdır. Qayıbov Ənvər 1998-ci ilin fevral ayına qədər rayon Xalq Təhsil Şöbəsinə rəhbərlik etmişdir. **1998-ci ilin fevral ayından 2001-ci ilin may ayına kimi Əlisəfa Cəbiyev, (hal-hazırda Qobustan rayon İH-nin başçısı işləyir) 2001-ci ilin may ayından 2002-ci ilin iyun ayına kimi Bəxşəliyev Elimxan Qobustan rayon Təhsil Şöbəsinə rəhbərlik etmişlər. 2002-ci il iyun ayının 27-də Təhsil Nazirliyinin əmri ilə mən Qobustan rayon Təhsil Şöbəsinə müdir təyin edilib.**

Hal-hazırda rayonda **18 orta, 10 əsas, 2 ibtidai məktəb və 6 məktəbəqədər** tərbiyə müəssisəsi fəaliyyətdədir. 2003/2004-cü dərs ilində rayonun ümumtəhsil məktəblərində **6447 şagirdin təlim-tərbiyyəsi ilə 580 nəfərə yaxın** müəllim məşğuldur.

2003-2004-cü dərs ili təhsil sistemində müasir yanaşmaların təşəkkülü ili elan edilmişdir. İl çərçivəsində tədbirlər planında nəzərdə tutulmuş bir sıra məsələlər həyata keçrilmişdir. Belə ki, dərs ilinin əvvəlində pedaqoji ictimaiyyət arasında ilin məqsəd və mahiyyəti barədə rəy sorğusu keçirilmiş, bunun əsasında geniş müzakirələr aparılaraq təkliflər hazırlanmışdır. Ümumtəhsil məktəblərin IX-XI sinif şagirdləri arasında **"Mən öz rayonumun tarixi, coğrafiyası, təbiəti haqqında nələri bilirəm"** mövzusunda inşa müsabiqəsi keçirilmişdir. Müsabiqənin qalibi Nərimankənd kənd orta məktəbinin XI sinif şagirdi Tarverdiyeva Ərkinaz olmuş və təhsil şöbəsi tərəfindən diplom və xatirə hədiyyəsi ilə təltif edilmişdir. Rayonda **"İlin ən yaxşı müəllimi"** müsibiqəsi keçirilmiş, müsabiqədə pedaqoji işçilər fəal iştirak etmişdir. Səmədova Bəturə rayon mərhələsinin qalibi kimi, respublika mərhələsində iştirak etmişdir.

Rayonun məktəb rəhbərlərinin və pedaqoji işçilərin iştirakı ilə müxtəlif – "Dəyirmi masa"lar təhsil sistemində yeni yanaşma və baxışların təşəkkülünün rolu və əhəmiyyəti", "Təhsil prosesinin şagirdlərin meyl və maraqları əsasında qurulması, təhsil fəaliyyətinə yeni yanaşmanın təzahürü kimi", "Şagirdlərin, müəllimlərin məktəbin fəaliyyətinin qiymətləndirilməsinə müasir baxış, reallıqlar, problemlər, yeni yanaşma yolları - gözlənilən nəticələr" kimi möv-

zularda müsabiqələr təşkil edilmişdir.

Tədris ili ərzində görülmüş tədbirlərdən biri də **"Naxçıvanın-80 illiyi"** olmuşdur. Rayon mədəniyyət evində yüksək səviyyədə keçirilmiş tədbirdə rayon ziyalıları, pedaqoji ictimaiyyət və s. iştirak etmişdir. Tədbirdə TİAHİ Qobustan rayon komitəsnin sədri Ə.Qayıbov, Cəmcəmli kənd orta məktəbinin tarix müəllimi E.Baxşəliyev, Sündü kənd orta məktəbinin tarix müəllimi İ.Alıcanov Naxçıvanın tarixi, mədəniyyəti və ədəbiyyatı haqqında maraqlı məruzələrlə çıxış etmişlər. Məruzələr dinləyicilər tərəfindən müzakirə olunmuşdur.

2002-2003-cü dərs ilində də bir sıra uğurlarımız olmuşdur. Belə ki, Respublika olimpiadasında tarix üzrə Elvin Alıcanov II yerə layiq görülmüş və yüksək balla Sumqayıt Dövlət Universitetinin tarix fakültəsinə qəbul olmuşdur. Mərəzə orta məktəbinin məzunu Daşdəmirov Fərid 626 balla Bakı Dövlət Universitetinin tətbiqi - riyaziyyat fakultəsinə qəbul olmuşdur.

2003-2004-cü tədris ilində XI sinifi bitirmiş 486 nəfərdən 171 nəfəri ali məktəblərə qəbul üçün sənəd vermişdir.

Son iki ildə ümumtəhsil və məktəbəqədər müəssisələrinin təmiri və tikintisi rayon Təhsil Şöbəsinin diqqət mərkəzində olmuşdur... Əminik ki, növbəti tədris ilində Qobustanın maarif fədailəri, pedeqoqları ümumtəhsil məktəblərində daha yaxşı çalışacaq, müstəqil respublikamız üçün dəyərli, vətənini, torpağını, xalqın adət-ənənələrini – mənəvi dəyərlərini sevən, qoruyan vətəndaşlar yetirdirəcəklər... Axı, Məhəmməd peyğəmbər (s.ə.v.s.) da buyurmuşdur: **"Vətəni sevmək imandandır"...**

**Haşiyə:** Heybət Mirzə oğlu Rəfiyev 1955-ci ildə Şamaxı rayonunun Yekəxana kəndində anadan olmuşdur. O, Yekəxana kənd səkkizillik məktəbini bitirmişdir. H.Rəfiyev 1973-1975-ci illərdə M.Ə.Sabir adına Şamaxı pedaqoji məktəbində oxumuşdur. Pedaqoji məktəbi başa vurub, Yekəxana kənd məktəbinə sinif müəllimi təyin edilmişdir. Bir il müəllim işləyəndən sonra o, hərbi xidmətə çağırılır. Hərbi xidməti başa vurub geri qayıdır və həmin ildə H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutun riyaziyyat fakültəsinə daxil olmuşdur. O, 1983-cü ildə institutu qurtarıb, yenidən Yekəxana kənd orta məktəbində sinifdənxaric və məkdəbdənkənar işlər üzrə direktor müavini təyin edilmişdir. Həmin gündən Heybət müəllim həmyerlilərinin dərin biliklərə yiyələnməsi, onların dünyagörüşünün formalaşması, sərbəst düşünməsi, fikir yürütməsi üçün şərait yaratmış və



bir sözlə, gənc nəslin elmin bir çox sahələrinə bələd olmaları üçün əlindən gələni əsirgəməmişdir...

Onun təşəbbüsü ilə məktəbdə müxtəlif tədbirlərin keçirilməsi, görüşlərin təşkilinin sayı günü-gündən artmağa başladı. Məlumdur ki, belə tədbirlərin təşkili gənc nəslin mənəvi tərbiyəsində, eləcə də onlara bir çox ülvi – düzlük, doğruçuluq, vətənpərvərlik, qədirbilənlik, böyüyə hörmət və s. kimi hisslərin aşılmasında xüsusi əhəmiyyət kəsb edir...

Heybət müəllimin bu zəhmətləri hədər getmədi. Belə ki, keçirdiyi tədbirlərin nəticələri, təşkilatçılıq bacarığı maarif şöbəsi rəhbərliyi tərəfindən xüsusi qeyd olundu, qiymətləndirildi. Ən nəhayət, o, 1984-cü ildə Yekəxana kənd orta məktəbinə direktor təyin edildi.

Bundan sonra qolunu çırmayıb daha ciddi şəkildə işə başlayan Heybət müəllim məktəbdə təlim-tərbiyənin yenidən qurulmasına nail olur. Məktəbin məzunlarının sorağı respublikamızın müxtəlif ali məktəblərindən gəlməyə başlayır. Yekəxana kənd orta məktəbi rayonun qabaqcıl məktəbləri sırasına çıxır. Məktəb rayonun bütün tədbirlərində yaxından iştirak edir. Rayon rəhbərliyinin bir neçə fəxri fərmanına layiq görülür... Düz on səkkiz il məktəb direktoru vəzifəsndə çalışır. Rayon rəhbərliyi H.Rəfiyevin pedaqoji səriştəsi, işgüzarlığı və s. təşkilatçılıq bacarığını nəzərə alıb 2002-ci ildə onu rayon təhsil şöbəsinin müdiri vəzifəsinə məsləhət bilir. Artıq o, iki ildir ki, bu vəzifədə çalışır. Ailəlidir, beş övladı var.

* * *

Qobustan rayonunda ömrünü gənc nəsili təlim-tərbiyəsinə həsr etmiş, şam tək əritmiş, şəvə, qara saçlarını məktəbdə-siniflərdə qar kimi ağartmış, elin-obanın yaddaşında maarif fədaisi, cəfakeş insan, dəyərli ziyalı kimi qalmış, dövlətimiz tərəfindən zəhməti, şərəfli əməyi müxtəlif təltiflərə layiq görülmüş və vaxtilə haqqında bir çox mətbuat səhifələrində, xoş sözlər söylənilmiş, xatirələr yazılmış pedaqoqların sayı ötən əsrin **otuzuncu illərindən günümüzə kimi min nəfərə yaxındır**. Kitabda onların ancaq bir qisminin ömür səhifəsini vərəqləyə bildik...

# 2. MAARİF FƏDAİLƏRİ

*"Ən xeyirxah əməl odur ki,*
*bir müsəlman elm öyrənə və sonra onu*
*öz müsəlman qardaşına öyrədə"...*

*Məhəmməd Peyğəmbər (s.ə.s.)*

## MOLLA MÖVSÜN NƏSRULLA OĞLU
## (1878-1935)

Mövsün Əfəndiyev Şamaxı qəzasının Sündu kəndində anadan olmuşdur. O, ilk təhsilini atası Molla Nəsrulladan almış, sonra Şamaxıdakı "Üsuli-cədid" məktəbində oxumuşdur. Atasının dostu şair M.Ə.Sabirlə də yaxından tanış olmuşdur...

Sonra o, atasının məsləhəti ilə İsmayıllının Diyallı kəndində böyük dini bilik sahibi olan insanlardan təhsil almışdır (Mövsün Əfəndi orada Şamaxının sayılıb-seçilən din nümayəndəsi, böyük ziyalısı Möhüb Əfəndi ilə birlikdə oxumuşdur) Mövsün Əfəndi təhsilini başa vurub doğma kəndinə gəlir. 1920-ci ilə kimi Sündü məsjidində çalışmış, təkcə öz kəndlərinin deyil, qonşu kəndlərin də uşaqlarına savad öyrətmiş, dini elmləri mənimsətmişdir...

O, 1920-ci ildən sonra Sündü məktəbinin yaranmasında, təşkilində fəal iştirak etmiş, 30-cu illərdə isə Nabur, Təklə kənd məktəblərində də işləmişdir.

**Haşiyə:** Hacı Səbzalı Abdulla oğlu Mövsün Əfəndini belə xatırlayır: "O, ağır təbiətli, bilikli, savadlı bir şəxs idi. Bizim təhsilə cəlb olunmamızda rəhmətlik Babaşla Əfnədinin zəhməti çox olmuşdur. Əfəndi ərəb, fars, rus dillərini təmiz bilirdi, "Quran"ı sətirbəsətir tərcümə edirdi. Allah ona rəhmət eləsin".

Mövsün Nəsrulla oğlu Əfəndiyev 1935-ci ildə vəfat etmişdir.

## MƏHƏMMƏD NƏSRULLA OĞLU
## (1882-1971)

Əfəndiyev Məhəmməd Şamaxı qəzasının Sündü kəndində anadan olmuşdur. O da qardaşı kimi ilk təhsilini atasından almış, sonra Şamaxıda "Üsuli-cədid" məktəbində və mədrəsədə oxumuşdur.

Özünün xatirələrindən bəlli olur ki, o, 1902-ci il zəlzələsini gözləri ilə görmüş və zəlzələdən sonra, Şamaxıda qalmamış və kəndə qayıtmışdır. O, kənddə həm əkinçiliklə məşğul olmuş, həm də atasının yolunu davam etdirmişdir.

Məhəmməd Əfəndiyev 1920-ci ildən sonra şəxsi evlərdə təşkil olunmuş məktəblərdə işləmiş, sonra Sündü kəndində tikilən yeni məktəbdə çalışmışdır. Şamaxı qəzasının bir çox kəndlərində – Bicov, Nabur, Ərəbşalbaş, Bəklə, Çuxanlı, Təklə kənd məktəblərinin təşkili və fəaliyyətində Məhəmməd müəllimin zəhməti çox olmuşdur. O, 1939-cu ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirmişdir... Şamaxı maarifinin inkişafı, yeni kadrların yetişməsində bu böyük pedaqoqun zəhməti əvəzsiz olmuşdur. Müəllimin uzun illik pedaqoji, ictimai fəaliyyəti o zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, o, **1952-ci ildə "Lenin" ordeni** ilə təltif olunmuşdur...

**Haşiyə:** Məhəmməd müəllimin xatirələrindən o da bəlli olur ki, ataları Molla Nəsrulla böyük şair M.Ə.Sabirlə dost olmuşdur. Şamaxıda oxuduqları illərdə (üç qardaş – Mövsün, Məhəmməd və Rəhmət) atalarının məkbunu həmişə Sabirə çatdırırdılar. Hətta bəzən Sabirin dükanına gələr, onun duzlu-məzəli söhbətlərinə qulaq asardılar... Məhəmməd Əfəndiyev 1971-ci ildə Sumqayıt şəhərində vəfat etmişdir.

Təqdirəlayiq haldır ki, qədirbilən Təklə camaatı kənd məktəbinə uzun müddət orada dərs demiş Məhəmməd müəllimin adını veriblər...

## BABAŞ ŞAHMURAD OĞLU
## (1890-1928)

Hasilov Babaş 1890-cı ildə Şamaxı qəzasının Sündü kəndində anadan olmuşdur. Azərbaycanda Sovet Hakimiyyəti qurulandan sonra da, kənddə maarifin, məktəbin inkişafına öz köməyini heç vaxt əsirgəməmişdir. O, Sündü kəndində ilk məktəb binasının tikilməsində fəal iştirak edənlərdən biri olub. Özü də 1924-cü ildə tikilib fəaliyyətə başlayan məktəbdə rus dili və riaziyyat fənlərindən dərs demişdir. Babaş müəllim bir neçə il Qalağayının (Sabirabadın) Abdulyan kəndində də müəllim işləmişdir. B.Hasilov 1928-ci ildə Sündü kəndində qaragürhçular tərəfindən öldürülmüşdür...

## MÜSEYİB CƏRULLA OĞLU
## (1910-1985)

Məmmədov Müsyeib Şamaxı qəzasının Sündü kəndində anadan olmuşdur. Kiçik yaşlarında atası vəfat etmiş, əmisi Əli Canməmməd oğlunun himayəsində yaşamış, oxumuşdur. Sündü kənd məktəbini qurtarandan sonra o, Quba pedaqoji məktəbinə daxil olmuşdur. Pedaqoji məktəbi bitirib Şamaxının Ərəbşalbaş, Təklə və Çuxanlı kənd məktəblərində müəllim işləmişdir. Qızların təhsilə cəlb olunması, savadsızlığın ləğv edilməsində Müseyib müəllimin xidmətləri əvəzsiz olmuşdur. O, 1939-cu ildən 1945-ci ilə kimi Böyük Vətən müharibəsində iştirak etmişdir.

Cəbhədən qayıtdandan sonra o, ömrünü həmişəlik sevdiyi müəllimlik sənətinə bağlamışdır. 1950-ci illərə kimi qonşu kəndlərdə, sonra isə doğma Sündü kəndi məktəbində çalışmışdır...

Müseyib müəllim 1985-ci ildə vəfat etmişdir.

## GÜLMƏRDAN BARAT OĞLU
## (1912-1990)

Yolçuyev Gülmərdan Şamaxı qəzasının Cəmcəmli kəndində anadan olmuşdur. Yeddillik təhsil alandan sonra pedaqoji məktəb bitirmiş və 1930-cu ildən müəllimlik fəaliyyətinə başlamışdır. O, 1930-1940-cı illər ərizində rayonun Qaracüzlü, Ərəbqədim, Poladlı, Yekəxana, Nərimankənd, Dərəkənd məktəblərində müəllimlik etmişdir. O, 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində iştirak etmişdir. İkinci qrup müharibə əlili kimi doğma kəndinə qayıtmışdır. Həmin vaxtdan o, Cəmcəmli kənd məktəbinin təşkili; həmyerlilərinin oxuması, savadzıslıların təhsilə cəlb olunması yolunda öz bacarıq və qüvvəsini əsirgəməmişdir. Məktəbdə əvvəl müəllim, sonra direktor müavini, direktor, ən nəhayət, yenə müəllim işləmişdir... Gülmərdan müəllim müharibədən qayıdandan sonra Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində oxumuşdur...

Mənalı ömrünün 60 ilini müəllimlik peşəsinə həsr edən Gülmərdan müəllimin əməyi müxtəlif fəxri fərman, "Əməkdə fərqləməyə görə" medalları ilə qiymətləndirilmişdir. Onun ən böyük mükafatı isə el-obanın ona olan hörməti, bir də S.Dəmirqayayev, K.Bədə-

lov, M.Ə.Nasir, X.Nuriyev, B.Əhlimanov, Y.Baxşiyev, A.Şahverdiyev kimi yüzlərlə yetirmələrinin uğurları və müvəfəqiyyətləri olmuşdur. 78 illik mənalı ömrünün 60 ilindən çoxunu xalq maarifinə bağışlayan Gülmərdan Barat oğlu Yolçiyev 1990-cı ildə vəfat etmişdir.

## AĞASƏF SƏRXAN OĞLU
## (1913-1986)



Qayıblı Ağasəf 1913-cü ildə Şamaxı qəzasının Nərimankənd kəndində anadan olmuşdur. İlk təhsilini kənddə almış, daha sonra Bakı şəhərindəki İnternasional texnikumuna daxil olmuş və 1932-ci ildə həmin məktəbi bitirib, doğma kəndlərində müəllimlik fəaliyyətinə başlamışdır. Ağasəf müəllim bir ziyalı kimi həmin vaxtdan rayonda savadsızlığın ləğvi, məktəblərin təşkilində böyük rol oynamışdır. Nərimankənd kənd orta məktəbinin uğurlar qazanması, pedaqoji kadrların yetişməsində Ağasəf müəllimin ömür yolu həmişə bir örnək olmuşdur...

**Haşiyə:** Yaxşı yadımdadır, 1960-1975-ci illər Nərimankənd məktəbinin sorağının SSRİ-nin müxtəlif mətbuat orqanlarından gələn vaxtı idi. Qurbançı, Çalov, Poladlı, Cəmcəmli, Şıxzərli, Sədəf, Cəyirli, Ərəbqədim və s. kəndlərinin uşaqları IX-X sinifləri Nərimankənd məktəbində oxuyardılar. Mən, Ağasəf müəllimi IX sinifdə oxuyandan tanımışam. O, dərsdə nə qədər ciddi, tələbkar, ağayana idisə, adi həyatda bir o qədər səmimi, zarafatcıl, mehriban idi...

Ağasəf Qayıblı həm də ADU-nun riyaziyyat fakültəsini bitirmişdir. Adlarını yuxarıda qeyd etdiyimiz kəndlərdə 1960-1975-ci illərdə onlarla riyaziyyatçıların yetişməsində, onlrın uğurlar qazanmasında Ağasəf müəllimin xüsusi zəhməti olmuşdur... Bütün ömrünü Şamaxı maarifi, təhsilinin müvəffəqiyyətinə həsr etmiş Ağasəf müəllimin dərs dediyi şagirdlərin hal-hazırda ən azı əlli nəfəri fizika-riyaziyyat elmləri doktoru və namizədidir...

İstedadalı pedaqoqun əməyi dövlətimiz tərəfindən vaxtında qiymətləndirilmişdir. Belə ki, o, dəfələrlə keçmiş ittifaqın, eləcə də

Azərbaycanın müvafiq orqanlarının fəxri fərmanları, müxtəlif orden və medalları ilə təltif olunmuşdur. Ən başlıcası odur ki, Ağasəf müəllimin pedaqoci sahələrdəki uğurları o dövrdə çox yüksək mükafat sayılan **"xüsusi imtiyazlara malik" "Lenin"** ordeni ilə qiymətləndirilmişdir...

Mənalı ömrünün 54 illini Şamaxı maarifinə, onun inkişafına, *müxtəlif sənət sahiblərinin yetişməsinə həsr etmiş Ağasəf Qayıblı* 1986-cı ildə son mənzilə köçdü... Həmyerliləri onun adını əziz tutaraq Nərimankənd kənd orta məktəbinə Ağasəf müəllimin adını verdi...

## MƏHƏRRƏM ƏLİF OĞLU
## (1913-1986)



Əsədov Məhərrəm 1913-cü ildə Şamaxı qəzasının Ərəbşahverdi obasında anadan olmuşdur. O, yedillik məktəbi Bakı şəhərində bitirib, 1932-ci ildə İkillik ali-orta (natamam ali) pedaqoci instituta daxil olub, 1934-cü ildə isə oranı başa vurmuşdur. O, keçmiş Qonaqkənd rayonunun (Quba rayonu) Yelfi kənd ibtidai məktəbində əmək fəaliyyətinə başlayır. Sonra Xızı kəndində müəllim, 1940-cı ildə isə Qobustanın Nabur kənd məktəbinə direktor təyin edilir. 1942-ci ildə cəbhəyə yollanır. Ta Yapon müharibəsi qurtarana – 1946-cı ilə kimi cəbhədə olur. Bu illərdə onun döyüşlərdə göstərdiyi şücaətləri neçə-neçə medallarla qiymətləndirilir.

Müharibədən qayıdandan sonra Mərəzə rayon Maarif şöbəsinə inspektor təyin edilir. 1947-ci ildə Mərəzə rayon İcraiyyə Komitəsində mədəniyyət işləri üzrə şöbə müdiri vəzifəsində çalışır. Partiya sahəsində özünü əsl kommunist kimi göstərdiyinə görə rayon rəhbərliyi tərəfindən 1950-ci ildə o, İkiillik Ali Partiya məktəbinə oxumağa göndərilir. Məktəbi bitirəndən sonra o, Mərəzə rayon İcraiyyə Komitəsinin sədri təyin edilir. Bacarıqlı mütəxəssis o zaman Mərəzə qəsəbəsinin abadlığı sahəsində xeyli iş görmüş **(Mərkəzi kitabxananın binası həmin dövrdə tikilmişdir),** rayonun kəndlərində də tikinti işlərinin aparılmasına səy göstərmişdir.

1954-cü ildən sonra Mərəzə qəsəbəsində, Nərimankənd kənd orta məktəblərində müəllimlik etmiş, 1955-1963-ci illərdə Qurbançı kənd məktəbinin direktoru işləmişdir. Bu müddət ərzində o, həm də Ərəbşahverdi kənd məktəbinə rəhbərlik etmişdir. 1974-cü ildə səhhətinə görə – ərizəsinə əsasən, vəzifədən azad edilmişdir. Buna baxmayaraq o, bir müəllim kimi də məktəbin bütün tədbirlərində yaxından iştirak edir, öz təcrübəsi, biliyini gənc mütəxəssislərdən əsirgəmir. Məhərrəm müəllimin əməyi müxtəlif mükafat, – fəxri fərman, tərifnamə və medallara layiq görülmüşdür. Mənalı ömrünün əlli ilindən çoxunu, el-obanın maariflənməsi, xalqın həyatının, rihafının yaxşılaşmasına həsr edən Məhərrəm müəllim onu tanıyanların yaddaşında el ağsaqqalı, sadə, mehriban insan, prinsipal, tələbkar, ciddi, əsl kommunist kimi qalmışdır.

## MƏHƏMMƏD MİRZƏQULU OĞLU
## (1913 – 1999)



Kərimov Məhəmməd 1913-cü ildə Şamaxı qəzasının Nabur kəndində anadan olmuşdur. Yeddilik təhsil alandan sonra Quba pedaqoci texnikumuna daxil olmuşdur. Texnikumu bitirəndən sonra Şamaxının bir çox kəndlərində müəllimlik etmişdir. O, 1941-ci ildə cəbhəyə çağırılmışdır. Böyük Vətən müharibəsi qurtarana qədər cəbhədə vuruşmuş, şərəfli döyüş yolu keçmişdir. Onun cəbhədəki şücaətləri bir çox orden və medallara layiq görülmüşdür.

M.Kərimov 1946-ci ildən pedaqoji fəaliyyətini davam etdirmişdir. Keçmiş Mərəzə rayonunun Cəyirli, Bəklə kəndlərində müəllimlik etmişdir. Ötən əsrin 50-ci illərindən Nabur kənd məktəbində müəllim işləmişdir. Ömrünün əlli ilindən çoxusunu pedaqoji sahəyə bağlayan Məhəmməd müəllimin əməyi bir neçə dəfə müxtəlif fəxri fərmana layiq görülmüşdür. Müharibə veteranı, qocaman pedaqoq 1999-cu ildə vəfat etmişdir. Onun adı həmyerliləri tərəfindən bu gün də hörmət və ehtiramla yad edilir...

## TAPDIQ İBAD OĞLU (1919-1983)

Əkbərov Tapdıq Şamaxı qəzasının Sündü kəndində doğulmuşdur. Sündü kənd məktəbini bitirib, Şamaxı pedaqoji məktəbinə daxil olur. 1940-cı ildə pedaqoji məktəbi qurtaran T.Əkbərov Cəyirli kənd məktəbinə müəllim təyin olunur. Böyük Vətən müharibəsi başlanan kimi o da cəbhəyə yola düşür. 1946-cı ilə kimi müharibədə iştirak edir. Müharibədə serjant rütbəsi qazanan Tapdıq müəllim "İgidliyə görə", "Yaponiya üzərində qələyə görə" medalları ilə də təltif edilmişdir. O, müharibədən sonra yenə də müəllimlik fəaliyyətini davam etdirir... Tapdıq müəllim 1950-1951-ci illərdə Ali Partiya məktəbində, sonra Gürcüstanın Qori şəhərindəki hərbi məktəbdə oxuyur. O, məktəbi qurtarıb Azərbaycan diviziyasında çalışmaqla yanaşı, "**Şərqin qapısı**" adlı qəzetin redaktoru işləyir. T.Əkbərov 1956-cı ildə ordudan təxris olunur. Doğma kəndinə qayıdır və yenidən müəllim kimi fəaliyyətə başlayır... Tapdıq müəllim 1962-ci ildə APİ-nin tarix fakültəsinə daxil olur və 1967-ci ildə ali təhslini başa vurur....

Sündü məktəbinin şan-şöhrət qazanmasında Tapdıq müəllimin də böyük zəhmətləri olmuşdur. O, həmin məktəbdə müəllim, dərs *hissə müdiri işləmişdir. Prinsipial bir insan, bajarıqlı pedaqoq,* səriştəli müəllim olan T.Əkbərov bu vəzifənin öhdəsindən asanlıqla gəlir.

Həmin dövrdə Sündü kənd məktəbinin adı respublikamızın qabaqcıl məktəbləri sırasına daxil olur. Bu müvəffəqiyyətin qazanılmasında həm dərs hissə müdiri, həm də bir müəllim kimi onun rolu az olmamışdır. Pedaqoji sahədəki uğurlarına görə o, 1981-ci ildə Azərbaycan Ali Sovetinin "Fəxri fərman"ına layiq görülür... T.Əkbərov 1983-cü ildə vəfat etmişdir. Hazırda həmyerliləri Tapdıq müəllimin adını böyük hörmət və ehtiramla xatırlayırlar...

## ZİVƏR ƏBDÜRRƏHİM QIZI

İbrahimova Zivər 1920-ci ildə Şamaxı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Şamaxıda orta məktəbi bitirib pedaqoji texnikuma daxil olur. O, 1938-ci ildə Şamaxı pedaqoji məktəbini bitirib, Nərimankənd kənd məktəbinə müəllim təyin olunur.

**Zivər müəlliminin dediklərindən:** "Mən kənddə müəllim işləyəndə 18-19 yaşım olardı. Biz o zamanlar təkcə şagirdlərə yox, yaşlı qadın və kişilərə də savad kurslarında dərs deyirdik. Daha doğrusu, savadsızlığın ləğvi işində o zaman hamımız yaxından iştirak edirdik. Bəzən yaşlı qadın və kişilər tapşırığı düzgün yerinə yetirməyəndə onlara söz deməyə çəkinirdik. Axı, onların çoxu atam, anam yaşdaydılar..."

Zivər müəllimənin pedaqoji fəaliyyəti "Əməydə fərqlənməyə görə", "Qələbənin 40 illiyinə görə" medalı, Respublika Təhsil Nazirliyinin "Fəxri fərman"ı, "Xalq təhsili əlaçısı" nişanı ilə qiymətləndirilmişdir. O, respublika müəllimlərinin V qurultayının nümayəndəsi olmuşdur.

**Haşiyə:** Zivər müəllimə ömrünün 60 ilindən çoxunu məktəbə, maarifə həsr etmişdir. Bu müddət ərzində ömrünü şam kimi əridib, yetirmələrinin ömrünə necə deyərlər, calaq etmişdir. Ən maraqlısı odur ki, Zivər müəllimənin 60 illik ömrü təkcə bir məktəbdə-vaxtilə respublikamızda böyük ad-san, şöhrət qazanmış Nərimankənd məktəbində keçmişdir. Əmək kitabçasında da bu 60 ildə bircə əmr yazılmışdır: "İbrahimova Zivər Əbdürrəhəim qızı Şamaxı rayonunun Nərimankənd məktəbinə ixtisası üzrə müəllim təyin edilsin". Bu bir cümlə özündə Zivər müəllimənin 60 illik pedaqoci dünyasını yaşadır... O, bu gün də gənc nəslin təlim-tərbiyəsi ilə daha ciddi məşğul olur.

## DAVUD HƏMZƏ OĞLU
## (1922-1992)

Orucov Davud Şamaxı qəzasının Dərəkənd kəndində anadan olmuşdur. O, 1931-ci ildə Atbulaq dəmiryol məktəbinin birinci sinfinə daxil olmuş və 1937-ci ildə məktəbin yeddinci sinfini bitirmişdir. Davud Orucov elə həmin ildə Şamaxı pedaqoji məktəbinə daxil olmuşdur. O, pedaqoji fəaliyyətə 1941-ci ildə Kürdəmir rayonunda başlamış, sonra isə Ağsu rayonunun müxtəlif kəndlərində müəllimlik etmişdir. Davud müəllim 1944-cü ildə Mərəzə rayonunun Nərimankənd kənd məktəbinə müəllim təyin olunur. Bir müddətdən sonra isə dərs hissə müdiri vəzifəsinə irəli çəkilir. Rayon rəhbərlyi Davud müəllimin təşkilatçılıq qabiliyyəti, maarifə, təhsilə ürəkdən bağlılığını nəzərə alıb onun Mərəzə RXMŞ-də rəhbər vəzifəyə məsləhət bilir.



D.Orucov 1951-ci ildə ADU-nun (keçmiş M.S.Kirov adına ADU) filalogiya fakültəsinə daxil olmuş və 1956-cı ildə həmin fakültəni bitirmişdir. Bacarıqlı pedaqoq 1952-ci ildə Nərimankənd kənd orta məktəbinə direktor təyin edilir. Məktəb üçün yeni və yardımçı binaların tikilməsindən ötrü neçə-neçə "qapıları döyməli" olur və çətinliklə olsa da, istəyinə çatır. Tez bir zamanda bu məktəbin uğurları, sorağı keçmiş ittifaqın müxtəlif guşələrindən gəlir. Məktəb tezliklə ən qabaqcıl, ən istedadlı pedaqoq – müəllimlərlə təmin olunur...

**Haşiyə:** Davud müəllim haqqında yazanda xəyal məni uzaqlara apardı... Hansı ki, o vaxtlar – 1960-1975-ci illərdə Şamaxı rayonunda orta məktəblər az idi. O zamanlar Nərimankənd orta məktəbində oxumaq çətin olduğu qədər də məsuliyyətli və şərəfli idi. Çətinlik onda idi ki, burada işləyən müəllimlər – **Ağasəf Qayıblı, Kənan Axundov, İlyas Qurbanov, Abasxan Allahverdiyev, Osman Nəbiyev, Cəlal Musayev, Bəhlul Əlıcanov, Məcnun Adıgözəlov, Nəcəf Nəcəfov, Məmməd Baxışov, Nizam Qədirov, İmran Sabirov** kimi öz fənlərini bütün dərinliyi ilə gənclərə öyrətməkdən xüsusi zövq alan əsl pedaqoqları razı salıb, onlardan yaxşı və əla qiymət almaq hər oğulun işi deyildi... Bu məktəbdə oxumaq biri də ona görə məsuliyyətli idi ki, məktəbdə ciddi intizam, qayda-qanun var idi... Odur ki, "Davüd müəllimin məktəbi"ndə (o zamanlar Nərimankənd məktəbini qonşu kəndlərdə belə adlandırırdılar – **S.Q**) oxuyan hər kəs yaxşı və əla qiymətlər almalıydı...

Əvvəldə qeyd etdiyimiz kimi, həmin illər Qurbançı, Çalov, Nabur, Cəyirli, Şıxzərli, Ərəbqədim, Cəmcəmli, Yekəxana, Poladlı, Təsi, Quşçu və s. kənd natamam orta məktəbini bitirən şagrdlərin çoxu bu məktəbdə orta təhsil almışlar. Məktəbin xüsusi yataqxanası və internatı vardı. Burada da xüsusi qayda-qanun və intizam var idi. Demək olar ki, hər gecə saat 10-11 radələrində Davud müəllim yataqxanalara mütləq baş çəkməli idi. O, məktəbə nə qədər hökmlü, tələbkar idisə, belə vaxtlarda çox səmimi idi. Şirin söhbətlərindən doymaq olmurdu... Davud müəllimin hazırlıqlı pedaqoq, bacarıqlı müəllim, cəfakeş rəhbər olduğu üçün təkcə rayon təhsil şöbəsində deyil, Maarif Nazirliyində də xüsusi hörməti vardı.

Bu yüksək keyfiyyətlərinə görə, Davud müəllim "Respublikanın Əməkdar müəllimi", "Qabaqcıl maarif xadimi" adına, "Əməkdə fərqlənməyə görə" medalına, müxtəlif "Fəxri fərman"lara layiq görülmüş, rəhbərlik etdiyi məktəb SSRİ XTNS-nin iştirakçısı, özü isə Azərbaycan müəllimləri qurultayının nümayəndəsi olmuşdur...

O, 1976-1983-cü illərdə Mərəzə məktəblərarası tədris istehsalat kombinatı, 1983-1992-ci illərdə 185 saylı Mərəzə orta texniki-peşə məktəbinin direktoru vəzifəsində çalışmışdır. Şamaxı maarifinin uğurlarına ömrünün 50 ilini həsr edən, dəyərli, ustad pedaqoq, səmimi, mehriban insan, müdrik ağsaqqal Davud Həmzə oğlu 1992-ci ildə vəfat etmişdir. Yetirmələri arasında yüzlərlə alim, müəllim, həkim, vəzifə sahibləri olan Davud müəllimin adını bu gün də Şamaxı-Qobustan ziyalıları hörmətlə yad edirlər...

## NURƏHMƏD GÜLƏHMƏD OĞLU
## (1922-1993)

Əhmədov Nurəhməd Şamaxı rayonunun Cəmcəmli kəndində doğulmuşdur. O, kənd məktəbini bitirib, Şamaxı pedaqoji məktəbinə daxil olur. Pedaqoji məktəbi qurtarıb doğma kəndində əmək fəaliyyətinə başlayan Nurəhməd müəllim 1940-cı ildə Bakı şəhərindəki Hüquq məktəbinə daxil olur.

Böyük Vətən müharibəsi başlayanda Nurəhməd müəllim də müharibəyə göndərilir. Beş il cəbhədə düşmənə qarşı vuruşan Nurəhməd ancaq 1946-cı ildə geri dönür. Bu müddət ərzində o, neçə-neçə döyüş medallarına layiq görülmüşdür... O, 1946-cı ildə Mərəzə rayon komsomal komitəsinin sədri vəzifəsinə irəli çəkilir. Bakı hüquq məktəbində təhsilini başa çatdırdıqdan sonra – 1952-ci ildə kənd məktəbinə direktor təyin olunur... 1956-cı ilə kimi bu vəzifədə çalışan Nurəhməd müəllim 1962-cı ilə kimi peadqoji sahədən uzaqlaşıb – rayon partiya komitəsi, ət tədarükü məntəqəsi, "Xaqani" adına sovxozda şöbə müdiri və s. vəzifələrdə çalışır. Bu müddət ərzində N.Əhmədov kənd təsərrüfatı texnikumunu və APİ-nin filologiya fakültəsini də bitirmişdir...

Nurəhməd müəllim 1968-ci ildə yenidən müəllimlik fəaliyyətinə başlayır. Cəmcəmli kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləyir. Öz savad və biliyini həmyerlilərindən əsirgəmədiyi kimi, pedaqoji ustalığını da gənc həmkarlarına öyrətməyi özü üçün ən şərəfli iş hesab edir. Bununla yanaşı, Nurəhməd müəllim uzun illər rayonda

keçirilən elmi-praktik konfranslarda həmişə yaxından iştirak etmişdir. Rayon maarif şöbəsi təcrübəli müəllim N.Əhmədovun pedaqoji ustalığını nəzərə alıb onu "Qabaqcıl maarif xadimi" döş nişanı və neçəneçə "Fəxri fərman"lara mükafatlandırmışdır.

Sadə insan, gözəl pedaqoq Nurəhməd Güləhməd oğlu Əhmədov 1993-cü ildə vəfat etmişdir.

## ABDULLA GÖYÜŞ OĞLU (1923-1999)



Rəcəbov Abdulla 1923-cü ildə Şamaxı qəzasının Çalov kəndində doğulmuşdur. Orta təhsil alandan sonra, o, Salyan şəhərindəki pedaqoji məktəbə daxil olur. Abdulla müəllim 1941-ci ildə həmin məktəbi bitirir... Və Böyük Vətən müharibəsi cəbhəsinə yola düşür. O, müharibədəki fəaliyyətinə görə bir çox orden, medal və fəxri fərmanlarla təltif olunur. Döyüşdə yaralandığına görə ordudan təxris olunur...

Abdulla müəllim 1943-cü ildən Şamaxı rayonunun Yekəxana kənd natamam orta məktəbində direktor kimi əmək fəaliyyətinə başlayır... Maraqlıdır ki, Abdulla müəllim düz qırx il Mərəzə və Şamaxı rayonunun müxtəlif məktəblərində **ancaq direktor** vəzifəsində çalışmışdır.... O, həm də qiyabi yolla təhsilini davam etdirmiş, belə ki, ADU-nun (indiki BDU) tarix fakültəsini bitirmişdir. Abdulla müəllim həm tədqiqatçı, həm pedaqoq, həm də istedadlı təşkilatçı və təsərrüfatçı olmuşdur. Belə ki, direktor işlədiyi müddətdə yaratdığı məktəbyanı sahənin gəliri ilə Çalov kəndində "12 otaqdan ibarət səkkizillik məktəb binası tikdirmişdir"...

**Haşiyə:** Əlli ildən artıq pedaqoji staja malik olan A.Rəcəbov yaradıcı, tədqiqatçı müəllimlərimizdəndir. İndiyə kimi onun yüz əllidən artıq elmi-publisist məqaləsi müxtəlif qəzet və curnal səhifələrində çap olunmuşdur... Bununla yanaşı, onun yeddi kitabı işıq üzü görmüşdür. Abdulla müəllimin bu maraqlı, dəyərli kitabları (**"Azərbaycan xalq təbabətindən", "Yuxuyozma, istixarə, bürclər,**

**talelər", "Tale duaları, bəxt ulduzları", "Məhəmməd peyğəmbərin "40 suala 40 cavabı", "İncilər mücrüsü", "Qədim eranın xalq təbabətindən", "İslam risaləsindən qeydlərim – 400 suala, 400 cavab"**) özünə minlərlə oxucu qazana bilmişdir...

"Yunesko" alimləri ilə əməkdaşlıq edən maarif fəadaisi, əmək veteranı A.Rəcəbov kitabından əldə etdiyi gəlirinin çox hissəsini qaçqın və köçkün ailələrinə paylamışdır...

A.Rəcəbov pedaqoji fəaliyyəti həm rayon təhsil şöbəsi, həm də Təhsil Nazirliyi tərəfindən müxtəlif titullara layiq görülmüşdür... İstedadlı pedaqoq, geniş dini biliklərə malik, gözəl ziyalı A.Rəcəbov 1999-cu ildə vəfat etmişdir.

## NİZAM ƏBİLHƏSƏN OĞLU



Qədirov Nizam 1922-ci ildə Şamaxı qəzasının Nərimankənd kəndində anadan olmuşdur. 1937-ci ildə kənd natamam orta məktəbi bitirib, Şamaxı pedaqoji texnikumuna daxil olur. Pedaqoji texnikumu bitirib, Qurbançı kənd ibtidai məktəbinə müəllim təyin edilir . N.Qədirov 1942-ci ildə cəbhəyə yola düşür. Şərəfli döyüş yolu keçmiş və göstərdiyi şücaətlərə görə neçə-neçə mükafatlara, təltiflərə layiq görülən N.Qədirov 1946-cı ilə kimi SSRi Daxili İşlər Nazirliyinin Sərhəd Qoşunları tərkibində xidmət etmişdir. Ordudan tərxis olunduqdan sonra Mərəzə rayon PK-da təbliğatçı vəzifəsində işləmişdir. O, 1949-cu ildən 1952-ci ilə kimi Mərəzə rayon kənd təsərrüfatı şöbəsinin müdiri, 1952-ci ildən 1954-cü ilə kimi Mərəzə rayon Nərmankənd orta məktəbində təlim-tərbiyə işləri üzrə direktor müavini, 1957-ci ildən 1960-cı ilə kimi Mərəzə rayon komitəsində təlimatçı, 1957-ci ildən 1963-cü ilə kimi Şamaxı rayon PK-da təlimatçı, 1963-cü ildən, 1965-cı ilə kimi Mərəzə İstehlak Cəmiyyətinin sədri, 1965-1966-cı illərdə Mərəzə Mehdi Hüseynzadə adına sovxoz partiya təşkilatının katibi olmuşdur. O, 1966-cü ildə ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) tarix fakültəsinə (qiyabi şöbəyə) daxil olmuşdur. N.Qədirov 1966-cı ildən 1992-ci ilə kimi isə Nərimankənd kənd orta məktəbində tərbiyə işləri üzrə direktor müavini işləmişdir.

Səksən illik şərəfli, dəyərli ömrünün əlli ildən çoxunu gənc nəslin təlim-tərbiyəsinə həsr edən Nizam müəllimin pedaqoji sahədəki fəaliyyəti neçə-neçə mükafat, tərifnamə və fəxri fərmanlara layiq görülmüşdür. Qobustan regionu barədə geniş məlumata malik, ömrünü-gününü gənc nəsildən ayrı təsəvvür edə bilməyən bacarıqlı pedaqoq, öz bilik, pedaqoji təcrübəsini bir vaxt şagirdi olmuş, indi isə onunla çiyin-çiyinə çalışan müəllim həmkarlarından əsirgəmir...

## FEYRUZ MÖVSÜM OĞLU



Əfəndiyev Feyruz 1927-ci ildə Şamaxı rayonunun Sündü kəndində anadan olmuşdur. O, 1945-ci ildə Sündü kənd məktəbini bitirib, M.Ə.Sabir adına Şamaxı pedaqoji məktəbinin qiyabi şöbəsinə daxil olur. Yerlərdə müəllimə ehtiyacı olduğu üçün Mərəzə rayon maarif şöbəsi onu Qurbançı kənd məktəbinə sinif müəllimi təyin edir... Feyruz müəllim məktəbdə işləyə-işləyə, 1952-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsinin qiyabi şöbəsinə daxil olur. Rayon maarif şöbəsi onun bacarıq, qabiliyyət və pedaqoji səriştəsini nəzərə alıb 1958-ci ildə Sündü kənd orta məktəbinə direktor təyin edir. Feyruz müəllim həmin məktəbdə 1970-ci ilə qədər direktor işləyir. O, direktor işlədiyi müddətdə bu qədim məktəbin qeydinə qalmağı özünə şərəfli iş hesab edir. Odur ki, məktəbdə lazım olan qayda-qanun, səliqə-səhman yaradır, yardımçı binalar tikilməsi üçün xeyli zəhmət çəkir... Ona görə də məktəb həmin vaxtlarda bütün göstəricilərinə görə rayonda, eləcə də respublikamızda ad-san qazana bilmişdir... "Məlumdur ki, XIX əsrin 60-cı illərdə Şamaxı qəzasında birinci kənd" məktəbi (Mərəzə kəndi – **S.Q**) açan və "bu məktəbdə tatar" (Azərbaycan – Z.M) dilini bilən, həm rus, həm də tatar uşaqlarına "birgə dərs verən "məşhur pedaqoq Çerniyayevski dərs dediyi məktəb" üçün tikilən yeni bina Mərəzə qəsəbəsində 1970-ci ilin avqustunda istifadəyə verildi... Rayon partiya komitəsinin sərəncamı ilə həmin məktəbə direktor qabaqcıl təşkilatçı, təcrübəli pedaqoq Feyruz müəllim məsləhət görüldü... Və

həmin ildən 1990-cı ilə kimi Feyruz müəllim bu adlı-sanlı, respublikamızda məşhur məktəbin direktoru oldu[1]...

Müəllim üçün onun əməyinə, zəhmətinə vaxtında qiymət verilməsi hər şey deməkdir...

Feyruz müəllim 1990-cı ildən Qobustan rayon təhsil şöbəsində inspektor işləyir. Onun əlli ildən artıq pedaqoji zəhməti "Respublikanın Əməkdar müəllimi" fəxri adı, "SSRİ maarif əlaçsı" döş nişanı, "Əmək veteranı" medalı, müxtəlif fəxri fərmanlarla qiymətləndirilmişdir. O, Azərbaycan müəllimləri qurultayının nümayəndəsi olmuşdur... Feyruz Mövsüm oğlu Əfəndiyev bu gün də öz pedaqoji fəaliyyətini davam etdirir...

## BAXIŞ MƏHƏMMƏD OĞLU



Məmmədov Baxış 1930-cu ildə Şamaxı rayonunun Göydərə kəndində anadan olub. O, 1945-ci ildə Göydərə kənd ibtidai, 1949-cu ildə Ərəbqədim yeddillik məktəbini tərifnamə ilə bitirmişdir. Ona görə o, M.Ə.Sabir adına Şamaxı pedaqoji məktəbinə imtahansız qəbul olmuşdur. B.Məmmədov ailə vəziyyətinə görə pedaqoji məktəbi bitirə bilməmmişdir. O, bir müddət Ərəbqədim kənd sovetində katib işləmişdir. B.Məməmdov 1953-1956-cı illərdə hərbi xidmətdə olmuşdur... Sonra o, M.Ə.Sabir adına pedaqoji məktəbə bərpa olunmuş və 1958-ci ildə həmin məktəbi bitirmişdir.

B.Məmmədov müəllimlik fəaliyyətinə Göydərə kənd məktəbində başlayır... O, təkcə sinif müəllimi işləməklə kifayətlənmir, kənddə yaşlı qadın və kişilərin gecə kurslarına cəlb edilməsinə də çox köməklik göstərmişdir. Baxış müəllim məktəbdə müxtəlif tədbirlərin keçirilməsində həmişə fəallıq göstərmişdir. Onun təşkitlatçılıq bacarığını görən rayon rəhbərliyi Baxış müəllimi 1960-cı ildə "Telman" adına kolxozun ilk partiya təşkilatı katibi vəzifəsinə irəli çəkmişdir... Baxış müəllim bu vəzifədə 1975-ci ilə kimi çalışmışdır... Eyni

[1] "S.Qəniyev, M.İsmayılova. Şamaxı maarifi və maarif fədailəri", Bakı, 2000

zamanda o, 1970-1978-ci illərdə Göydərə kənd məktəbində sinif müəllimi işləyir... Baxış müəllimin pedaqoji və eləcə də ictimai işlərdə göstərdiyi fəaliyyət müxtəlif mükafatlara layiq görülmüşdür. Belə ki, onun fəaliyyəti "Fəxri fərman", diplomlarla qiymətləndirilmişdir. O, dəfələrlə kənd sovetinin deputatı seçilmişdir...

Ömrünün qırx ilindən çoxunu maarifə, məktəbə həsr edən Baxış müəllimin yetirmələri yüzlərlədir... Ən əsası odur ki, qocaman pedaqoqun yetirmələri arasında müəllimlik peşəsinə yiyələnənlər daha çoxdur... Hansı ki, o insanlar Baxış müəllimin şərəfli yolunu bu gün də davam etdirirlər...

**Baxış müəllim deyir:** Allah-təalanın qismətimə qıydığı ən uğurlu paylardan biri də müqəddəs Həcc və Kərbəla ziyarətləridir... Bu xoşbəxtlik mənə 1996-cı ildə qismət olmuşdur...Yaxşı haldır ki, bu ziyarətə avtobusla getdik. Odur ki, Şərqin – İran, İraq, İordaniya, Səudiyyə Ərəbistanının bir çox müqəddəs yerləri və qədim şəhələrini də gördük.

İlk dəfə əilndən tutub hərf öyrətdiyi şagirdlərini alim, müəllim, dövlət xadimi görəndə Baxış müəllim özünü nə qədər xoşbəxt insan sayırsa, o, Həcc və Kərbala ziyarətində olandan sonra özünü yüz qat, min qat xoşbəxt hesab edir...

## NƏSİRBABA VƏZİR OĞLU
## (1930-1975)

Qoçalıyev Nəsirbaba Mərəzə rayonunun Sündü kəndində doğulmuşdur. O, 1948-ci ildə Mərəzə rayonu Stalinkənd (indiki Nərimankənd) orta məktəbini bitirmişdir. Müəllimlik sənətini ürəkdən sevən Nəsirbaba orta məktəbi bitirəndən sonra, Qubadakı İkillik müəllimlər institutuna daxil olur və 1952-ci ildə oranı qurtarır. O, əmək fəaliyyətinə Cəyirli kənd yeddillik məktəbində müəllim kimi başlayır. Bir il sonra həmin məktəbdə dərs hissə müdiri işləyir. O, 1956-cı ilə kimi həmin vəzifədə çalışır və bu müddətdə pedaqoji ustalığı ilə həmkarlarının hörmətini qazanır... Və 1956-cı ildə Təklə kənd yeddillik məktəbinə direktor təyin edilir... Bir il həmin vəzifədə çalışandan sonra doğma Sündü kənd məktəbində müəllim işləməyə başlayır... Nəsirbaba müəllim 1962-ci ildə ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) tarix fakültəsinin qiyabi şöbəsinə daxil olur...

Doğma kəndində ziyalılar ordusunun yetişməsində Nəsirbaba

müəllimin böyük zəhməti olmuşdur... Nəsirbaba müəllimin 1960-1970-ci illlərdə dərs dediyi şagrdlərin çoxu demək olar ki, müxtəlif ali məktəbləri bitirmişdir. Bir çoxları isə ustadlarının yolunu davam etdirir, Sündü kənd orta məktəbində həmyerlilərinin təlim-tərbiyəsi ilə məşğul olurlar... Özləri də Nəsirbaba müəllimdən dərs almaları ilə həmişə fəxr edirlər...

Ürəyi məktəb, maarif eşqi ilə alışıb-yanan Nəsirbaba müəllim pedaqoji fəaliyyətinin çiçəkləndiyi bir vaxtda – 45 yaşında dünyasını dəyişdi... Qırx beş yaş insan ömrünün yarı yaşıdı deyiblər... Amma Allah bilən məsləhətdir... Nəsirbaba müəllim bu yaşın, bu ömrün təxminən, yarısını – iyirmi iki ilini Şamaxı maarifinə, məktəbinə, el-obasına həsr etmişdir... 22 il həvəslə, vicdanla bütün bilik və bacarığı ilə xalqına xidmət etmək hamıya nəsib olmayan xoşbəxtlikdir. Bu xoşbəxtlik qismətinə tuş olduğu üçün Nəsirbaba müəllimin adı indi də hörmətlə xatırlanır...

## MƏCNUN CANƏLİ OĞLU
## (1930-1987)



Adgözəlov Məcnun 1930-cu ildə Nərimankənd kəndində anadan olmuşdur. 1948-ci ildə o, kənd orta məktəbini bitirib ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) kimya-biologiya fakültəsinə daxil olmuşdur. Həmin fakültəni uğurla başa vuran Məcnun müəllim ilk əmək fəaliyyətini Çalov kənd məktəbində direktor kimi başlamışdır. İki il sonra - 1954-cü ildə Nərimankənd kənd orta məktəbinə dərs hissə müdiri təyin edilir. Qabaqcıl pedaqoq bu vəzifədə iyirmi ildən artıq – 1975-ci ilə kimi çalışmışdır. Pedaqoji səriştəsi, ustalığını, elmi savadını nəzərə alan rayon rəhbərliyi elə həmin ildə onu təkçə rayonda deyil, Azərbaycanda böyük nüfuzu olan Nərimankənd kənd orta məktəbinə direktor təyin edir. İstedadlı peadqoq, müdirik insan M.Adgözəlov ömrünün sonuna kimi bu vəzifədə çalışır. Onun rəhbərlik etdiyi məktəbin şagirdləri dəfələrlə fənn olimpiada və yarışlarının qalibi olmuşdur. Sadə insan, istedadlı pedaqoq, məktəbdar M.Adıgözəlovun əmə-

yi fəxri fərman, tərifnamə və müxtəlif mükafatlara layiq görülmüşdür.

Rayon pedaqoq və ziyalıları arasında böyük hörmət sahibi olan Məcnun müəllim 1987-ci ildə dünyasını dəyişdi. Onun adı indi də xalq arasında ehtiramla çəkilir.

## BƏHLUL KƏRİM OĞLU

Əlicanov Bəhlul 1932-ci ildə Şamaxı rayonunun Sündü kəndində doğulmuşdur. O, Nərimankənd kənd orta məktəbini əla qiymətlə bitirdikdən sonra Quba İkiillik Müəllimlər İnstitutunun tarix fakültəsinə daxil olmuş və oranı fərqlənmə diplomu ilə bitirmişdir. Müəllimlik sənətinə bağlı olan gənc pedaqoq ali təhsil almağı qarşısına məqsəd qoyur. Gecə-gündüz yorulmadan çalışır. Nəticədə Gəncə Pedaqoji İnstitutunun tarix fakültəsinə daxil olur. İnstitutda oxuduğu müddətdə özünü hazırlıqlı, bacarıqlı, çalışqan tələbə kimi göstərə bilir. Ona görə də tez bir zamanda müəllim və tələbə kollektivinin dərin hörmət və ehtiramını qazanır. Ali məktəbi fərqlənmə diplomu ilə başa vuran Bəhlul Əlicanov Nərimankənd kənd orta məktəbində pedaqoji fəaliyyətini davam etdirir.

**Haşiyə:** "Nərimankənd kənd orta məktəbini IX-X siniflərində oxuduğum illərdə Bəhlul müəllim mənə də tarix fənnindən dərs demişdir. O zamanlar Nərimankənd kənd orta məktəbi respublikamızın ən adlı-sanlı tədris müəssisələrindən biri idi. Belə bir məktəbdə Bəhlul müəllimin xüsusi nüfuzu və hörməti vardır. O məktəbdə tarix dərnəyi təşkil etmişdir. Dərnəyin üzvlərinin sayı qırx nəfərə yaxın idi. Yaxşı yadımdadır, Bəhlul müəllim həmin dərnəkdə şagirdlərə əsasən tariximizin qaranlıq səhifələri barədə məlumat verirdi; **Babək üsyanı, Şah İsmayıl Xətainin dövlətçilik siyasəti, Şirvan xanı Mustafa xanın** ruslarla vuruşmalarından və s. Həmin illərdə tarix dərsliklərində olmayan belə məlumatlar hamımızın marağına səbəb olurdu. Sonralar yəqin etdim ki, həmin dövrdə belə məlumatları şagirdlərə demək hər ziyalının işi deyilmiş... Bəhlul müəllim bu məlumatlarla bizi torpağı, qədim tarixə malik Azərbaycanımızı sevən gənclər kimi tərbiyə etməyə çalışırmış"...

Müəllimlik peşəsinə bütün varlığı ilə bağlı olan Bəhlul müəllim respublikamızda keçirilən elmi-pedaqoji konfranslarda vaxtaşırı iştirak edirdi. Müəllimin pedaqoji sahədə qazandığı uğurları **"Şərəf**

**nişanı ordeni", "Əmək igidliyinə görə medalı"** və müxtəlif fəxri fərmanlara layiq görülmüşdür. Bəhlul müəllimin yetirmələrinin sayı yüzlərlədir. Gözəl pedaqoq, sadə və xeyirxah insan Bəhlul Əlicanov 1993-cü il sentyabr ayının 11-də - 61 yaşında dünyasını dəyişdi. Onun xatirəsi şagirdlərinin qəlbində həmişə yaşayacaqdır.

## QASIM ALI OĞLU



Musayev Qasım 1937-ci ildə Şamaxı rayonunun Təklə-Mirzəbaba kəndində doğulmuşdur. Orta məktəbi Sündü kəndində bitirib, bir il Ərəbşalbaş kəndində kitabxanada işləyir. O, 1956-cı ildə BDU (keçmiş S.M.Kirov adına ADU) filologiya fakültəsinə daxil olur. Universiteti bitirib, təyinatla Salyan rayonunun Atbulaq kənd məktəbinə müəllim göndərilir. Tez bir zamanda dərin biliyi, insanlara münasibəti, tədbirlərdə fəallığı, işgüzarlığı ilə məktəbdə həmkarlarının rəğbətini qazanır. Tələbəlik illərində elmi yaradıcılıqla məşğul olan Q.Musayev müəllim işlədiyi illər ərzində öz elmi məqalələri ilə bir çox mətbuat orqanlarında vaxtaşırı çıxış edir. Elmə olan həvəsi onu Azərbaycan MEA-nın Nizami adına Ədəbiyyat İnstitutuna gətirir. Professor M.Quluzadənin rəhbərliyi altında böyük Azərbaycan şairi N.Gəncəvinin yaradıcılığı ilə bağlı tədqiqat aparır. Böyük həvəs, məhəbbət, tədqiqatçı yanğısı ilə işə başlayan Qasım müəllim bir ilin ərzində namizədlik dissersatiyasının ilk variantını hazırlayır. Ərəb, fars və rus dillərini mükəmməl bilən Qasım müəllimin elmi məqalələri keçmiş sovetlər birliyinin müxtəlif şəhərlərində işıq üzü görür.

O, 1966-cı ildən Təklə-Mizəbaba kəndində müəllim işləməyə başlayır. Pedaqoji sahədə qazandığı uğurlar müxtəlif mükafatlara layiq görülür. Xalq yazıçısı M.İbrahimov "Kəndçi qızı" əsəri haqqında Moskvada nəşr olunan "Literaturnaya qazeta"da çap etdirdiyi elmi məqaləsi, həmkarlarının və həm də mütəxəssislərin rəğbətinə səbəb olur. Qəlbi yaşamaq, yazmaq, yaratmaq eşqi ilə döyünən pedaqoq-alimin arzularını vaxtsız əcəl yarımçıq qoyur...

# NİZAM MİSİR OĞLU



Həsənov Nizam 1936-cı ildə Şamaxı rayonunun Dağ Kolanı kəndində doğulmuşdur. O, Dağ Kolanı kənd yeddiillik, 1953-cü ildə isə Göylər kənd orta məktəbini bitirmişdir.

N.Həsənov 1954-cü ildə ADU-nun fizika-riyaziyyat fakültəsinin fizika-riyaziyyat şöbəsinə daxil olur. Çox əfsus ki, ailə vəziyyəti ağır olduğu üçün o, təhsilini davam etdirə bilmir... Öz məqsədindən dönməyən Nizam müəllim 1958-ci ildə yenidən BDU-nun (keçmiş ADU-nun) həmin fakültəsinin qiyabi şöbəsinə qəbul olunur. Elə həmin ildə onu hərbi xidmətə çağırırlar.

N.Həsənov belə qərara gəlir ki, hərbi akademiyada oxusun. Odur ki, sənədlərini BDU-dan geri alır. Amma təəssüf olsun ki, onun arzusu baş tutmur. Nizam müəllim isə ruhdan düşmür, öz üzərində daha ciddi məşğul olur və 1962-ci ildə AzPİ-nin ümumtexniki fakültəsinin maşınqayırma texnologiyası şöbəsinə (qiyabi) qəbul olunur. Nə isə N.Həsənov bu fakültədə də oxumur. Sənədlərini geri alır. Müxtəlif illərdə dörd dəfə ayrı-ayrı ali məktəblərə yüksək balla girən Nizam müəllim növbəti qəbul zamanı sənədlərini yenidən BDU-nun mexanika-riyaziyyat fakültəsinə (qiyabi) verir və qəbul olunur. Eyni zamanda o, Salyan kənd təsərrüfatı texnikumunun aqronomiya şöbəsində (qiyabi) oxuyur... Ən nəhayət, N.Həsənov 1969-cu ildə BDU-nun mexanika-riyaziyyat fakültəsinin müvəffəqiyyətlə başa vurur.

N.Həsənov 1955-ci ildən 1969-cu ilə kimi kənd təsərrüfatının müxtəlif sahələrində çalışmışdır. O, 1970-ci ildən isə ömrünü müəllimlik sənətinə həsr etmişdir. Otuz ildən artıq pedaqoji sahədə çalışan N.Həsənov özünü həqiqi, ustad pedaqoq kimi göstərə bilmişdir. O, rayonun ən qabaqcıl riyaziyyat müəllimlərindən biridir. Rayon təhsil şöbəsi Nizam müəllimin əməyini də vaxtında qiymətləndirmişdir. Belə ki o, "Baş müəllim" adına layiq görülmüşdür. Nizam müəllimin yetirmələrinin sayı yüzlərlədir. Qabaqcıl pedaqoq, istedadlı müəllim,

səmimi və sadə bir insan olan Nizam müəllim hal-hazırda öz yetirmələri ilə Poladlı kənd orta məktəbində çiyin-çiyinə çalışır...

## MƏHƏRRƏM ƏLİHÜSYEN OĞLU (1937-2004)

Əliyev Məhərrəm 1937-ci il iyun ayının 25-də Poladlı kəndində doğulmuşdur. Atası 1942-ci ildə müharibədə yaralanıb qayıdandan sonra ailələri ilə Tovuz şəhərinə köçür. Məhərrəm də ilk təhsilini Tovuzda almışdır. Bir neçə ildən sonra onlar doğma kəndlərinə qayıdırlar. Məhərrəm təhsilini Yekəxana kənd məktəbində davam etdirir.

O, 1950-ci ildə Şamaxı pedaqoci texnikumuna daxil olur və 1954-cü ildə oranı müvəffəqiyyətlə bitirir. Məhərrəm elə həmin ildə Poladlı kənd yeddillik məktəbinə müəllim təyin olunur. Həmin vaxtdan o, ömrünü öz həmyerlilərinin maariflənməsinə həsr etmişdir... Kənddə savadsızlığın ləğv edilməsi, yeni məktəb binasının tikilməsində onun xüsusi xidmətləri olmuşdur.

Ali təhsil almaq həvəsi ilə yaşayan Məhərrəm müəllim 1956-ci ildə M.F.Axundov adına ADPİ-nin rus dili və ədəbiyyatı fakültəsinin qiyabi şöbəsinə daxil olur. Ali təhsilini başa vurandan sonra onu Poladlı kənd orta məktəbinə direktor təyin edirlər. O, bir müddətdən sonra öz xahişi ilə vəzifəsindən azad edilir. Mənalı ömrünün 50 ilini gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş Məhərrəm müəllim sözün həqiqi mənasında böyük pedaqoq idi. Müəllim olduğu, yaxşı tanıdığım, əməllərinə bələd olduğum kimi cəsarətlə deyə bilərəm ki, bütün yerişi-duruşu, bacarığı ilə o, dünyaya müəllim kimi gəlmişdi... Elə müəllim-pedaqoq kimi də yaşadı, ömür sürdü... Həqiqi və əsl müəllim kimi də köçdü dünyadan... Buna görə də həmyerliləri həmişə ona hörmət və ehtiram bəsləmişlər. Sadə insan, ciddi və tələbkar müəllim, gözəl ziyalı Məhərrəm müəllim 2004-cü ildə dəyişdi dünyasını...

## HƏQİQƏT ƏHMƏDALI OĞLU

Rəcəbov Həqiqət 1939-cu ildə Şamaxı rayonunun Çalov kəndində anadan olub. O, Çalov kənd yeddillik və Nərimankənd orta məktəbini bitirmişdir. Orta məktəbi bitirəndən sonra o, M.Ə.Sabir



adına pedaqoji texnikumun rus dili şöbəsinə daxil olur. Texnikumu qurtarıb doğma Çalov kənd məktəbində əmək fəaliyyətinə başlayır. H.Rəcəbov bir neçə il sonra M.F.Axundov adına APİ-nin rus dili və ədəbiyyatı fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur... Həqiqət müəllim ömrünün qırx ildən çoxunu gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir. Onun yetirmələrinin sırasında yüzlərlə müxtəlif peşə və vəzifə sahibləri vardır.

Atasından ərəb əlifbasını mükəmməl öyrənən Həqiqət müəllim müqəddəs kitabımız "Quran"ı oxuyub tərcümə edə bilir. Peşəsinə ürəkdən yanan, dərin elmi-pedaqoji səriştəyə malik olan müəllimin əməyi bir neçə dəfə fəxri fərman və müxtəlif mükafatlara layiq görülmüşdür.

Həqiqət müəllim 1996-cı ildə müqəddəs Həcc və Kərbala ziyarətlərində olmuşdur. Səriştəli pedaqoq, gözəl ziyalı Hacı Həqiqət Qobustan rayonu və eləcə də doğma Çalov kəndinin tarixi ilə bağlı zəngin məlumata malik olduğu üçün el-oba arasında böyük hörmət və nüfuz sahibidir.

## ƏLİHEYDƏR YADİGAR OĞLU



Aslanov Əliheydər 1939-cu ildə Şamaxı rayonunun Cəyirli kəndində doğulmuşdur. Muğan stansiyası yeddillik və Hacıqabul qəsəbə orta məktəbini bitirmişdir. O, 1956-cı ildə M.Ə.Sabir adına Şamaxı pedaqoji texnikumuna daxil olmuş və 1958-ci ildə texnikumu bitirib, Çalov kənd məktəbində əmək fəaliyyətinə başlamışdır. Bir il sonra isə Cəyirli kənd məktəbində işləməyə başlamışdır. 1960-cı ildə isə ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) riyaziyyat fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. O, 1964-1969-cu illərdə Sabirabad rayonunun Azadkənd məktəbində riyaziyyat müəllimi işləmişdir.

1969-cu ildən yenidən doğma Cəyirli kənd orta məktəbində çalışan *Əliheydər müəllimin əməyi müxtəlif* **fəxri fərmanlara** və **"Qabaqcıl maarif xadimi"** nişanına layiq görülmüşdür.

Öz peşəsinin vurğunu, müəllimlik sənətini şərəf işi hesab edən Əliheydər müəllim doğma sənətini gənclərə də sevdirə bilmişdir. Neçə illərdir ki, bacarıqlı pedaqoq öz yetişdirmələri ilə bir məktəbdə çiyin-çiyinə çalışır. Yenə də onlardan öz qayğısı və məsləhətlərini əsirgəmir.

## BALDADAŞ MƏNSİMALI OĞLU (1940-1993)



Surxayev Baldadaş 1940-cı il may ayının 5-də Şamaxı rayonunun Dağ Kolanı kəndində doğulmuşdur. İbtidai təhsilini Dağ Kolanı məktəbində alıb. O, yeddillik məktəbi qurtarandan sonra – 1961-ci ildə Şamaxı pedaqoji məktəbə daxil olur. Pedaqoji texnikumu bitirib bir müddət müəllim işləyir. Elmə olan həvəsi onu ali məktəbə aparır. B.Surxayev 1965-ci ildə ADPU-nun (V.İ.Lenin adına APİ) riyaziyyat fakültəsinə daxil olur. Elə həmin ildə onu Poladlı kənd 8 illik məktəbinə direktor təyin edirlər. İki il həmin vəzifədə çalışır. Sonra ailəsi ilə birlikdə Şamaxıya köçür. Şamaxıda 5 saylı orta məktəbdə tədris işləri üzrə direktor müavini işləyir. B.Surxayev bu vəzifədə işləyəndə özünü əsl pedaqoq, ictimaiyyətçi, təşkilatçı kimi göstərə bilir. Ona görə də o, dəfələrlə fəxri fərman, **Sosializm yarışının qalibi döş nişanı** ilə təltif olunur. 1977-ci ildə müəllimin qabaqcıl iş təcrübəsi öyrənilir, rayon məktəblərində yayılması məsləhət bilinir. Elə həmin ilin attestasiyasına görə B.Surxayevi **"Qabaqcıl maarif xadimi"** adına layiq görürlər. Bundan sonra rayon rəhbərliyi ona məsul vəzifələrdə işləməyi məsələhət bilir. Odur ki, o, 1979-80-ci illərdə **rayon tədris istehsalat kombinatının** direktoru, 1980-83-cü ildə **qiyabi məktəb**in direktoru, 1983-cü ildən 1991-ci ilə kimi **119 №-li peşə məktəbi**nin direktoru, 1991-ci ildən ömrünün sonuna kimi isə **Meysəri kənd orta məktəbi**nin direktoru vəzifəsində çalışmışdır. Səriştəli ictimaiyyətçi və əsl pedaqoq ona

göstərilən etimadların hamısını doğruldur. Bunun nəticələridir ki, həmin dövrlərdə başçılıq etdiyi kollektivlər neçə-neçə uğurlar qazanır... Gözəl insan, görkəmli pedaqoq 1993-cü ildə vəfat etdi... Səmimi, xeyirxah insan Baldadaş müəllimin xatirəsi onu tanıyanların yadından heç vaxt çıxmayacaqdar...

## BƏHRAM MƏRİFƏT OĞLU



Bağıyev Bəhram 1939-cu ildə Dağ Kolanı kəndində anadan olub. O, yeri düşəndə uşaqlıq illəri haqqında belə deyir: "Böyük Vətən müharibəsinin gətirdiyi aclıq, səfalət çox yaşıdlarımın sonuna çıxdı. Lakin anamın zəhməti və dayılarımın himayəsi bizi həmin aclıq illərindən xilas etdi"...

O, orta məktəbi bitirəndən sonra – 1953-cü ildə M.Ə.Sabir adına Şamaxı pedaqoji məktəbə daxil olmuş, 1957-ci ildə həmin məktəbi qurtarmışdır. B.Bağıyev bir il Poladlı kənd məktəbində müəllim işləyəndən sonra hərbi xidmətə çağırılır. Hərbi xidmətdən qayıtdıqdan sonra elmə olan həvəsi onu ali məktəbə aparır. O, 1962-ci ildə ADU-nun (keçmiş S.M.Kirov adına ADU) filologiya fakültəsinə daxil olur və 1968-cu ilə kimi Poladlı kənd məktəbində, 1971-1973-cü illərdə Şamaxı qiyabi orta məktəbdə müəllim, 1973-cü ildən 1977-ci ilə kimi şəhər 6 saylı məktəbdə direktor işləmişdir. Həmin ildən sonra o, taleyini şəhər 9 saylı məktəbə bağlamışdır.

B.Bağıyevin qabaqcıl iş təcrübəsi öyrənilmiş və ona **"metodist müəllim"** adı verilmişdir. Təcrübəli pedaqoq həm də yaradıcı ziyalılarımızdandır. Onun elmi-publisist məqalələri müxtəlif qəzet və curnal səhifələrində vaxtaşırı işıq üzü görmüşdür... O, Azərbaycan MEA-nın Nəsimi adına Dilçilik institutunun dissertantıdır. B.Bağıyev hazırda AMİ-nin Şamaxı filialının müəllimidir. İndiyə kimi onun iyirmiyə qədər elmi məqaləsi və tezisi işıq üzü görmüşdür. B.Bağıyev artıq namizədlik dissertasiyasını tamamlamışdır. Dessertasiya işi ilk müzakirədən keçmişdir...

## HÜSEYN SAHİBCAN OĞLU
## (1946-1994)

Əsədov Hüseyn 1946-cı ildə Dağ Kolanı kəndində doğulmuşdur. O, Quşçu kənd yeddillik və Göylər kənd orta məktəbini bitirmişdir. Bir il istehsalatda çalışandan sonra – 1965-ci ildə BDU-nun (keçmiş M.S.Kirov adına ADU) mexanika-riyaziyyat fakültəsinin qiyabi şöbəsinə daxil olur. İlk əvvəl Şamaxının Kərimbəyli, sonra isə Quşçu kənd səkkizillik məktəbində riyaziyyat müəllimi işləmişdir. Hüseyn müəllim 1974-cü ildə Quşçu kənd orta məktəbinə direktor təyin olunur.

1976-cı ildə Dağ Kolanı kəndində ibtidai məktəb təşkil edilən-də o, həmin məktəbə direktor göndərilir. Hüseyn müəllimin pedaqoji sahədə olan uğurları müxtəlif mükafatlara, **"Metodist müəllim"**, **"Xalq təhsili əlaçısı"** adına layiq görülmüşdür.

Qobustan rayonu təşkil olunandan sonra qabaqcıl iş təcrübəsini, pedaqoji ustalığını nəzərə alaraq onu rayon təhsil şöbəsində metod - kabinetin müdiri vəzifəsinə irəli çəkirlər. Yeni rayonun təhsil şöbəsinin təşkilinə Hüseyn müəllim böyük əmək sərf edir... El-obanı ürəkdən sevən, pedaqoji aləmə canı-qanı ilə bağlı olan Hüseyn müəllim 1994-cü ildə cavan – 48 yaşında vəfat etmişdir...

## TƏRİFƏ MƏMMƏD QIZI



Tərifə Məmməd qızı Məmmədova 1941-ci ildə Qərbi Azərbaycanın (indi "Ermənistan" adlandırılan) Dərləyəz bölgəsində dünyaya gəlib.

Dədə-baba torpaqlarından deportasiya olunan minlərlə dərələyəzli ailələri kimi onlar da doğma torpaqlarından Azərbaycana – Şamaxı rayonuna köçmək məcburiyyətində qalmışlar. Onda Tərifə səkkiz illik məktəbi yenicə bitirmişdi.

1 saylı Şamaxı şəhər orta məktəbini qurtardıqdan sonra o, 1961-ci ildə M.Ə.Sabir adına Şamaxı pedaqoji texnikumunun rus dili şöbəsinə daxil olmuşdur. Həmin texnikumu bitirib, başa vuran

Tərifə Cəyirli kəndi məktəbində əmək fəaliyyətinə başlamışdır və ömrünün qırx ilini müqəddəs peşəyə – müəllimliyə həsr etmişdir. Bu illər ərzində Tərifə xanım yorulmaq bilmədən gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuş və həmişə adı qabaqcıllar sırasında olmuşdur.

O, 1979-cu ildən Cəyirli kənd sovetinin **Qadınlar Şurasının** sədri seçilmişdir. Tərifə müəllimənin əməyi müxtəlif fəxri fərmanlara layiq görülmüşdür.

Sadə insan, qayğıkeş ana, bacarıqlı müəllim Tərifə Məhəmməd qızının yetirmələrinin çoxu hal-hazırda müxtəlif vəzifələrdə çalışır.

## İBADULLA NURALI OĞLU



Güləliyev İbadulla 1942-ci ildə Şıxzərli kəndində anadan olub. O, 1956-cı ildə kənd yeddillik, 1959-cu ildə isə Nərimankənd kənd orta məktəbini bitirmişdir. Sonra o, M.Ə.Sabir adına Şamaxı pedaqoji texnikumunun rus dili bölməsinə daxil olmuş, texnikumu bitirəndən sonra iki il Quba rayonunda müəllimlik etmişdir. İ.Güləliyev 1962-ci ildə M.F.Axundov adına APRƏİ-nin qiyabi şöbəsinə daxil olur...

İ.Güləliyev 1966-1967-ci illərdə rayonun Dərəkənd, 1967-1971-ci illərdə isə doğma Şıxzərli kəndində müəllim işləmişdir. Sonra o, rayon rəhbərliyi tərəfindən məsul vəzifəyə irəli çəkilmiş, belə ki 1971-ci ildə Dərəkənd kənd XDSİK-nin sədri seçilmişdir. İbadulla müəllim bu vəzifədə 1978-ci ilə kimi həqiqi kommunist kimi işləmiş, uğurlar qazanmışdır.

Onun yaxşı işi, uğurları bir neçə fəxri fərmanlara layiq görülmüşdür. İ.Güləliyev 1978-ci ildən sonra yenidən Şıxzərli kənd məktəbində müəllim işləməyə başlamışdır... Bu illər ərzində özünü yaxşı təşkilatçı kimi göstərə bilən İbadulla müəllimə yenidən etimad göstərilmiş və Şıxzərli kənd məktəbinə direktor təyin edilmişdir...

# ƏHMƏD CƏBİ OĞLU



Seyidəhmədov Əhməd 1942-ci ildə Şamaxı rayonunun Sündü kəndində anadan olmuşdur. Yeddillik təhsil alandan sonra o, Ağdaş kənd təsərrüfatı texnikumuna daxil olmuşdur. Əhməd Seyidəhmədov texnikumu bitirəndən sonra 1962-ci ilə kimi doğma kəndində bağ briqadiri işləmişdir. O, 1962-ci ildən Sündü kənd orta məktəbində istehsalat təlimi ustası işləməklə ömrünü pedaqoji aləmə bağlamışdır... Ona görə də o, 1965-ci ildə M.Ə.Rəsulzadə adına BDU-nun biologiya fakültəsinə daxil olmuş və 1971-ci ildə həmin fakültəni müvəffəqiyyətlə bitirmişdir. Pedaqoji sahəyə bütün varlığı ilə bağlanan Ə.Seyidəhmədov tezliklə işlədiyi məktəbdə müasir tələblərə cavab verən biologiya kabinəsi təşkil edir və həmin vaxtdan dərslərində əyanliyə xüsusi yer verir. Onun "**Təlimin texniki vasitələrindən kompleks istifadə**" mövzusunda qabaqcıl iş təcrübəsi Azərbaycan Xalq Təhsil Nazirliyi tərəfindən öyrənilmiş və respublika məktəblərində yayılması tövsiyə olunmuşdur. O, respublikamızda, eləcə də keçmiş Sovetlər Birliyinin bir çox şəhərlərində keçirilən elmi-praktik konfranslarda maraqlı məruzələri ilə çıxış etmiş və müxtəlif mükaftlara layiq görülmüşdür...

Ə.Seyidəhmədov həm də yaradıcı müəllimdir. Belə ki, o, indiyə kimi otuzdan artıq elmi məqalə, iki tövsiyənin müəllifidir. Bacarıqlı pedaqoq "**Qobustan florasındakı endemlərinin coğrafiyası və ekotopologiyası**" adlı tədqiqat əsərini artıq tamamlamışdır. Yaradıcı müəllimin qabaqcıl iş təcrübəsi neçə-neçə "fəxri fərman"larla təltif olunmuş, uğurlarına görə o, **"Metodist-müəllim"**, **"SSRİ maarif əlaçısı"** adı və **"III dərəcəli Əmək Şöhrəti" ordeni**, **"Sosializm yarışının qalibi"** döş nişanı, "**N.Krupskaya mükafatı laureatı**" adına layiq görülmüşdür. O, respublika müəllimlərinin VII-VIII qurultayının nümayəndəsi və 1991-ci və 1998-ci ildə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olmuşdur. Ali dərəcəli müəllim Ə.Seyidəhmədov indi də yorulmadan gənc nəsilin təlim-tərbiyəsi ilə ciddi məşğul olur...

## FƏDAİ RƏFİ OĞLU
## (1942-1999)



Fədai Aslanov 1942-ci ildə Şamaxı rayonunun Cəyirli kəndində doğulmuşdur. O, Cəyirli kənd yeddillik və Sündü kənd orta məktəbini bitirmişdir. 1960-cı ildə M.Ə.Sabir adına Şamaxı pedaqoji texnikumuna daxil olmuş və 1962-ci ildə oranı müvəffəqiyyətlə başa vurmuşdur. O, ilk pedaqoji fəaliyyətinə Əli Bayramlı rayonunun Qızılburun kənd məktəbində başlamışdır.

F.Aslanov 1985-ci ildə Şamaxıya qayıtmışdır. Şamaxı rayon təhsil şöbəsi onu doğma Cəyirli kəndinə sinif müəlimi təyin etmişdir. Pedaqoji sahədəki müvəffəqiyyətlərini nəzərə alan rayon təhsil şöbəsi 1971-ci ildə onu kənd ibtidai məktəbinə direktor təyin edir. O, bu vəzifədə 1992-ci ilə kimi çalışır. Qabaqcıl müəllimin əməyi müxtəlif mükaftlara layiq görülmüşdür. F.Aslanov rayon mətbuatında elmi-metodiki məqalələri ilə çıxış etmişdir. Fədai Aslanov 1999-cü ildə vəfat etmişdir.

## GÜLMURAD ŞAHMURAD OĞLU



Poladov Gülmurad 1945-ci ildə Mərəzə rayonunun Qurbançı kəndində doğulmuşdur. O, 1959-cu ildə Qurbançı kənd yeddillik, 1964-cü ildə isə Nərimankənd kənd orta məktəbini bitirmişdir. O, 1966-cı ildə APİ-nin (indiki ADPU) riyaziyyat fakültəsinin axşam şöbəsinə daxil olmuş, ailə vəziyyətinə görə 1968-ci ildə həmin fakültənin qiyabi şöbəsinə dəyişilmişdir. G.Poladov elə həmin ildən Qurbançı kənd orta məktəbinə riyaziyyat müəllimi təyin edilmişdir. Düz otuz ildir ki, o, doğma Qurbançı kəndində riyaziyyat müəllimi işləyir...

**Haşiyə:** Gülmurad müəllimi yaxşı tanıyıram. Gözəl və təcrübəli

müəllim, hazırlıqlı ziyalı olmaqla yanaşı, elm və ziyalı qədrini bilən bir insandır. Özünün dediyi kimi, ziyalıya xor baxan, el-obaya xor baxar. Müəllimsiz, məktəbsiz, alimsiz heç bir tərəqqi olmadığı kimi, heç bir ölkə də yaşaya bilməz. Müəllimi, həkimi savadsız olan məmləkətin isə sonu yoxdur…

Gülmurad müəllimin otuz illik pedaqoji fəaliyyəti müxtəlif təltiflərə layiq görülmüşdür. Belə ki, o, 1978-ci ildə Azərbaycan müəllimlərinin VI qurultayının nümayəndəsi olmuş, "**Metodist müəllim**" adı, "**Xalq təhsili əlaçısı**" döş nişanı ilə təltif edilmişdir… Bu mükafatlar Gülmurad müəllimi daha da yaxşı işləməyə ruhlandırmışdır. Odur ki, o, Qurbançı kənd orta məktəbində müasir tələblərə cavab verə bilən "**Diferensiallaşdırılmış riyaziyyat**" kabinəsi yaratmışdır. Müəllimin böyük səyi, bacarığı nəticəsində yaradılmış bu kabinə 1996-cı ildə fənn kabinetlərinin Respublika baxış müsabiqəsində ikinci yeri tutmuşdur. Təcrübəli müəllim, ustad pedaqoq, səmimi insan Gülmurad Şahmurad oğlu Poladov bu gün də öz bilik və bacarığını şagirdlərdən əsirgəmir…

## VAQİF ALI OĞLU



Alıyev Vaqif 1945-ci ildə Tovuz rayonunun Aşağı Əyyublu kəndində anadan olmuşdur. Orta məktəbi bitirib ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) kimya-biologiya fakültəsinə daxil olmuşdur. 1969-cu ildə həmin fakültəni bitirib təyinatla Şamaxı rayonuna göndərilmişdir... Maarif şöbəsi onu Nərimankənd kənd orta məktəbinə ixtisası üzrə müəllim təyin edir. İki il işlədikdən sonra o, ordu sıralarında xidmət edir. Hərbi xidməti başa vurub, o yenidən Şamaxı rayonuna qayıdır və Qurbançı kənd məktəbində əvvəl müəllim, sonra isə direktor müavini işləyir. O, 1973-cü ildə həmin məktəbə direktor təyin edilir. On üç il bu vəzifədə çalışır. Həmin illərdə Qurbançı kənd məktəbi rayonun sayılıb-seçilən tədris müəssisələrindən biri olur. Ona görə də V.Alıyev rayon təhsil şöbəsinin fəxri fərmanına, "**Qabaqcıl maarif xadimi**" döş nişanına layiq görülmüşdür. Həmin vaxtdan sonra hər il

məktəbin onlarla məzunları ali və ya orta ixtisas məktəblərinə daxil olur... 1986-cı ildə vəzifədən azad edilən Vaqif müəllim bir müddət həmin məktəbdə müəllim, sonra isə direktor müavini işləyir.

O, 2003-cü ildə yenidən Qurbançı kənd orta məktəbinə direktor təyin edilir. Vaqif müəllim deyir ki, keçən bir il müddətində məktəbdə müəyyən irəliləyişə nail olmuşuq. Bu isə azdır... Çalışacayıq ki, Qurbançı məktəbinin şərəfli günlərini özünə qaytaraq... Ailəlidir, dörd övladı var.

## AĞAMAHMUD AĞABABA OĞLU



İsmayılov Ağamahmud 1946-cı ildə Mərəzə rayonunun Dağ Kolanı kəndində doğulmuşdur. O, 1969-cu ildə Poladlı kənd orta məktəbini qurtarıb, Salyan kənd təsərrüfatı texnikumuna daxil olmuşdur. A.İsmayılov texnikumu bitirib, Şamaxı rayonunun Ə.Qarayev adına sovxozunda əvvəl briqadir, sonra isə aqronom işləmişdir...

**Ağamahmud müəllimin dediklərindən:** "Uşaqlıqdan tarix fənnini sevirdim. Nə isə, yeddinci sinifi qurtaranda valideynlərimin istəyindən çıxa bilmədim. Onlar məni kənd təsərrüfatı mütəxəssisi görmək istəyirdilər... Elə də oldu. Mən aqronom işlədiyim müddətdə belə qərara gəldim ki, mütləq tarix fakültəsinə daxil olmalıyam. Odur ki, 1967-ci ildə sənədlərimi H.Zərdabi adına Gəncə Pedaqoji İnstitutunun tarix fakültəsinin qiyabi şöbəsinə verdim. Və qəbul da olundum. Elə institutun ikinci kursunu qurtaran kimi, Poladlı kənd məktəbinə tarix müəllimi göndərildim... 1969-cu ildə öz arzuma çatdım, müəllim kimi sinifə daxil oldum"... Ağamahmud müəllim həmin vaxtlardan öz üzərində ciddi çalışmağa başladı. Bu şərəfli peşənin incəliklərinə bələd oldu, ona dərs deyən müəllimlərin təcrübəsinə yiyələndi və kollektivin sevimlisinə çevrildi...

1985-ci ildə Poladlı məktəbinə direktor təyin edildi... Həmin vaxtdan iyirmi ilə yaxın bir dövr keçir. Bu illər ərzində Ağamahmud müəllim Poladlı kənd məktəbində təlim-tərbiyənin günün tələbləri

səviyyəsində qurulmasına nail olmuşdur. Bunun nəticəsidir ki, son illərdə Poladlı kənd orta məktəbi ali təhsil ocaqlarına qəbul olunan şagirdlərin sayına görə rayon məktəbləri arasında fərqlənir. Rayon təhsil şöbəsi Ağamahmud müəllimin zəhmətini müxtəlif "Fəxri fərman"lar və "Baş müəllim" adı ilə qiymətləndirilmişdir. Bu mükafatlar Ağamahmud müəllimi daha yaxşı işləməyə ruhlandırmışdır... Öz peşəsini dərindən sevən, vəzifəsini layiqincə yerinə yetirən, ali kateqoriyalı Ağamahmud müəllim ötən il respublika müəllimlərinin VIII qurultayının nümayəndəsi olmuşdur.

Ağamahmud Ağababa oğlu müqəddəs Həcc ziyarətində olmuşdur. O, rayon seçki komissiyasının sədridir.

## SOLMAZ MƏHƏMMƏD QIZI



Abdullayeva Solmaz 1946-cı ildə Mərəzə rayonunun Nərimankənd kəndində doğulmuşdur. O, 1964-cü ildə Nərimankənd kənd orta məktəbini bitirib və elə həmin ildən də məktəbdə katibə vəzifəsində işləməyə başlamışdır. S.Abdullayeva 1968-ci ildə ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) pedaqoji fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. 1971-ci ildə müəllim kimi sinfə daxil olan Solmaz müəllimə həmin vaxtdan indiyə qədər Nərimankənd kənd orta məktəbində çalışır... Məktəbin qayda-qanunlarına xeyli əvvəl – məktəb illərindən bələd olan Solmaz müəlliməyə dərs demək bir o qədər də çətin gəlmədi... Tez bir zamanda şagirdlərin, həmkarlarının sevilmlisinə çevrildi...

**Haşiyə:** Həyatının təxminən, otuz ilini bu müqəddəs müəllimlik peşəsinə həsr etmiş Solmaz müəllimə bu gün də gənclik həvəsi ilə öz fənnini şagirdlərinə həvəslə mənimsədir. Özünün dediyi kimi, çalışır ki, ibtidai sinifdə dərs dediyi şagirdlər əsasən, iki cəhəti – düzgün yazıb-oxumağı və riyazi əməlləri yaxşı mənimsəsinlər. Solmaz müəlliməyə görə, düzgün yazı yazmayan, rəvan kitabı oxuya bilməyən, riyazi əməlləri yerinə yetirməyi bacarmayan şagird yuxarı siniflərdə heç bir fənni yaxşı öyrənə, mənimsəyə bilməz... Bir sözlə, indi

də məktəbin gənc sinif müəllimləri həmişə Solmaz Məhəmməd qızından faydalanır, onun dəyərli məsləhətlərinə əməl edir və onu özlərinə örnək bilirlər...

## İMRAN BULUD OĞLU



Sabirov İmran 1947-ci il yanvar ayının 7-də Nərimankənd kəndində anadan olmuşdur. 1964-cü ildə orta məktəbi bitirmiş, bir il sonra BDU-nun (keçmiş S.M.Kirov adına ADU-nu) filologiya fakültəsinə (qiyabı şöbə) daxil olmuşdur. O, əmək fəaliyyətinə 1965-ci ildə Təklə-Mirzəbaba kənd məktəbində başlamışdır. Bir il sonra isə doğma Nərimankənd kənd orta məktəbində pedaqoji fəaliyyətini davam etdirmişdir. İ.Sabirov 1971-ci ildə buraxılış işini əla qiymətlə müdafiə edib, universiteti fərqlənmə diplomu ilə başa vurmuşdur. 1981-ci ilə kimi müəllim işləmişdir. Rayon rəhbərliyinin məsləhəti ilə həmin ildən o, Udulu sovxozuna direktor təyin edilmişdir. Dörd il bu vəziəfədə işlədikdən sonra yenidən pedaqoji fəaliyyətini davam etdirmişdir...

İ.Sabirov pedaqoji sahədə çalışdığı müddətdə – 1965-1981-ci illər ərzində özünü təkcə rayonda deyil, respublikamızda da əsl, səriştəli pedaqoq, təcrübəli müəllim kimi göstərə bilmişdir. Belə ki, onun dərs dediyi şagirdlərin bir çoxu dalbadal – dörd il (1972, 1973, 1974, 1975) ərzində **"Ümumiittifaq inşa yarışları"**nın qalibi olmuşlar. Təhsil Nazirliyi bunun nəticəsi olaraq gənc müəllimi **"Qabaqcıl maarif xadimi"** adına layiq görmüşdür. Ümumiyyətlə, pedaqoji sahədə əldə etdiyi uğurlar, müvəffəqiyyətlərə görə müəllim onlarla "Fəxri fərman", diplom və qeyri mükafatlara layiq görülmüşdür.

Yenicə təşkil edilmiş Qobustan İcra Hakimiyyətinin başçısı İmran müəllimin siyasi hazırlıq, təşkilatçılıq bacarığını nəzərə alıb onu 1991-ci ildə rayon Kombinatına direktor təyin etmişdir.

Bütün varlığı ilə pedaqoji aləmə bağlı olan İmran müəllim 2002-ci ildə yenidən məktəbə qayıtmış – Mərəzə qəsəbə əsas məktəbinə direktor təyin edilmişdir.

**Haşiyə:** İmran müəllimi Nərimankənd kənd orta məktəbində

oxuduğum illərdən tanıyıram. Gənc müəllim o zaman məktəbdə "Füzulisevərlər" dərnəyi təşkil etmişdir. Məktəbdə poeziyaya bağlı olan şagirdlərin çoxusu həmin dərnəyə üzv yazılmışlar. Məktəbdə yuxarı siniflərin sayı çox olduğu üçün dərnək üzvlərinin də sayı otuz nəfərdən artıq idi. Canı-qanı şerlə, xüsusilə Füzuli poeziyası ilə yoğurulmuş İmran müəllim şairin qəzəllərinin hər birinin açılışına, izahına saatlarla vaxt ayırardı. O, qəzəlin təhlili ilə yanaşı əruz vəzininin məktəblilər üçün çətin olan qayda-qanunları, xüsusiyyətləri və növləri ilə bizi yaxından tanış etməyə çalışardı. Məktəbdə, eləcə də rayonda keçirilən kütləvi tədbirlərdə İmran müəllimin şagirdləri həmişə fərqlənər və müxtəlif təltiflərə layiq görülərdi...

İ.Sabirov həm də elmi yaradıcılıqla məşğul olan bir müəllimdir. Uzun illər ərzində onun elmi məqalələri dövrü mətbuatda vaxtaşırı işıq üzü görmüşdür. Sadə insan, qabaqcıl ziyalı, istedadlı pedaqoq İmran müəllim milli dəyərlərimizə bağlı olan bir insandır. O, Qobustan regionu ilə bağlı bütün tarixi yerlər, ziyarətgahlar və toponimlər haqqında dərin biliyə malikdir. Dediyi kimi, yaxın vaxtlarda o bilgilər bir topluda işıq üzü görəcəkdir. Bizcə bu İmran müəllimin qobustanlılara dəyərsiz hədiyyəsi olar... Hal-hazırda o, təzəcə təşkil edilmiş, rəhbəri olduğu məktəbin uğurlar qazanması üçün gecəli-gündüzlü çalışır...

Ailəlidir, dörd övladı var. Qızı Ülviyyə atasının yolunu davam etdirir – Mərəzə qəsəbə orta məktəbində ədəbiyyat müəllimi işləyir.

## HAXVERDİ BABA OĞLU

Qabulov Haxverdi 1947-ci ildə Şamaxı raoynunun Yekəxana kəndində doğulmuşdur. 1962-ci ildə Yekəxana kənd səkkizillik məktəbini bitirib, Şamaxı M.Ə.Sabir adına pedaqoji məktəbinə qəbul olunmuşdur. O, 1966-cı ildə pedaqoji məktəbi qurtarıb doğma Yekəxana kəndində sinif müəllimi kimi əmək fəaliyyətinə başlayır. Bir il sonra ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) tarix fakültəsinin qiyabi şöbəsinə daxil olur və arzusuna qovuşur. H.Qabulov 1972-ci ildən 1985-ci ilə kimi məktəbdə tarix müəllimi işləyir. Bacarıqlı təşkilatçı, ictimaiyyətçi olduğu üçün, o, 1985-ci ildən 1990-cı ilə kimi Bədəlli kənd XDS-in sədri vəzifəsində çalışmışdır. Qobustan rayonu təşkil olunanda gözəl mütəxəssis kimi onu rayon sovetində şöbə müdiri vəzifəsinə irəli çəkirlər. O, həm də rayon İcra Hakimiy-



yətində baş məsləhətçi işləmişdir. H.Qabulov həmin vəzifələrdə çalışdığı müddətdə vəsifəsinin öhdəsindən bacarıqla gəldiyi üçün dəfələrlə müxtəlif mükafat, tərifnamə və fəxri fərmanlarla təltif olunmuşdur... 1997-ci ildən Yekəxana kənd orta məktəbində tarix müəllimi işləyən H.Qabulov öz elmi-pedaqoji məqaqələri ilə dövrü mətbuatda vaxtaşrı çıxış edir. Müəllim hazırda Qobustan rayonu, həm də doğma Yekəxana kəndi ərazisində olan və uzaq keçmişdən günümüzə soraq verən qədim abidələr, övliya-ziyarətgahlarla bağlı araşdırmalar aparır. Bununla o, dərs dediyi şagirdləri vətənə, torpağa məhəbbət, sevgi ruhunda tərbiyə etməyə çalışır.

Haxverdi müəllimdəki sadəlik, məsuliyyət hissi, peşəsinə bağlılıq, şagirdlərinə və pedaqoci kollektivə səmimi münasibət və s. kimi insani keyfiyyətlər onu el-obaya və eləcə də rayon müəllimləri, ziyalılarına sevdirmişdir. Ailəlidir, yeddi övladı var.

## İZZƏT TAHİR OĞLU

Şərifov İzzət 1947-ci ildə Mərəzə rayonunun Dərəkənd kəndində anadan olub. O, əvvəl Dərəkənd ibtidai, sonra isə Nərimankənd kənd orta məktəbini qurtarmışdır. O, orta məktəbi bitirib ADPU-nin (keçmiş V.İ.Lenin adına APİ) fizika fakültəsinə daxil olmuşdur. O, 1970-ci ildə həmin fakültəni bitirib Dərəkənd natamam orta məktəbinə müəllim təyin edilmişdir. İzzət müəllim ilk gündən dərs dediyi uşaqlara öz fənnini sevdirə bilmiş, şagirdlərin köməyi ilə məktəbdə müasir tələblərə cavab verə bilən fizika kabineti təşkil etmişdir. Məktəbdə keçirilən tədbirlərin demək olar ki, hamısının əsas təşkilatçılarından biri olmuşdur. Bütün bu keyfiyyətlərini nəzərə alan rayon maarif şöbəsi 1975-ci ildə ona etimad göstərmiş və onu məktəbə direktor təyin etmişdir. 1978-ci ilə kimi bu vəzifəni ləyaqətlə icra edən İzzət müəllimə rayon rəhbərliyi yenidən etimad göstərmiş və onun partiya, Sovet təşkilatlarında işləməsini məsləhət bilmişdir... İzzət Şərifov beş il müəllimlikdən uzaqlaşmış, kənd təsərrüfatı sahəsində çalışmış və bu sahədə də böyük uğurlar qazanmışdır...



O, 1983-cü ildə yenidən Dərəkənd məktəbində müəllim işləməyə başlamışdır. İzzət müəllim əvvəllər olduğu kimi, yenə də məktəbdə öz işi, qabaqcıl təcrübəsi ilə seçilmişdir. Qobustan rayonu təşkil ediləndə rəhbərlik onu ictimai işə cəlb etmişdir. Belə ki o, 1990-1991-ci ildə Qobustan rayon partiya komitəsində təlimatçı işləmişdir. 1991-ci ildə isə o, yenidən Dərəkənd məktəbinə direktor təyin edilmişdir. Həmin ildən bu günə kimi Dərəkənd məktəbinin qazandığı uğurlar əsasən, İzzət müəllimin adı ilə bağlıdır...

Bacarıqlı ictimaiyyətçi, gözəl müəllim, sadə insan İzzət Şərifov bu gün də Dərəkəndin gələcəyi olan şagirdlərin yaxşı təhsil alması, biliklərə dərindən yiyələnməsi üçün əlindən gələni əsirgəmir və həmkarları ilə birlikdə yorulmadan çalışır, səy göstərir.

## ƏLİFAĞA ŞAMI OĞLU



Osmanov Əlifağa 1947-ci ildə Qobustan rayonun Çalov kəndində doğulmuşdur. O, orta məktəbi bitirib, bir il istehsalatda çalışmışdır. 1964-cü ildə H.Zərdabi adına KDPİ-nin fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. O, 1968-ci ildə İnstitutu bitirib Çalov kənd səkizillik məktəbində əmək fəaliyyətinə başlamışdır. Rayon təhsil şöbəsi pedaqoji ustalıq və təşkilatçılıq səriştəsini nəzərə alıb onu həmin məktəbə direktor təyin etmişdir. O, 1986-cı ildən pedaqoji sahədən uzaqlaşmış, belə ki, ilk əvvəl **"Qırmızı Azərbaycan"** sovxozunda ilk partiya təşkilatına katib seçilmiş, sonra isə Cəyirli kənd sovetinin sədri, bir neçə il sonra isə sovxozun rəhbəri təyin edilmişdir.

Ə.Osmanov 1991-ci ildən yenidən pedaqoji sahəyə qayıtmış və Cəyirli kənd orta məktəbinə təlim-tərbiyə işləri üzrə direktor müavini işləməyə başlamışdır. Bir müddət sonra A.Quliyev adına Cəyirli kənd

orta məktəbinə direktor təyin edilən Əlifağa müəllim qolunu çirmayıb işə başlayır. İlk əvvəl məktəbdə olan nöqsanların aradan qaldırılmasına tez bir zamanda müvəffəq olur. Nəticədə, Cəyirli kənd orta məktəbi əldə etdiyi uğurlara görə rayonunun qabaqcıl məktəblərindən biri olur. Təcrübəli müəllim, səriştəli məktəb rəhbərinin həm təsərrüfatda, həm də pedaqoji sahədə qazandığı uğurlar müxtəlif təltifə və fəxri fərmanlara layiq görülmüşdür. Altmış ilə yaxın ömrünün otuz ilindən çoxunu gənc nəslin – tərbiyəsinə həsr edən müəllim öz maraqlı məqalələri ilə respublika və rayon mətbuatında çıxış edir.

Pedaqoci sahədə qazandığı uğurlardan söz düşəndə Əlisəfa müəllim deyir:

- Bağban özünü o zaman xoşbəxt sanır ki, yetişdirdiyi bağın barını dərir. Bu mənada mən də özümü xoşbəxt bir insan sanıram. Ona görə ki, hal-hazırda vaxtilə dərs dediyim şagirdlərimlə bir məktəbdə çiyin-çiyinə çalışıram...

## MURADXAN HACIMURAD OĞLU



Muradov Muradxan 1950-ci ildə Mərəzə rayonunun Nərimankənd kəndində anadan olub. O, 1967-ci ildə Nərimankənd kənd orta məktəbini bitirmişdir. Elə həmin ildə ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) fizika-riyaziyyat fakültəsinə daxil olmuş və 1971-ci ildə həmin fakültəni bitirmişdir. M.Muradov əmək fəaliyyətinə doğma Nərimankənd orta məktəbində başlamışdır. Ona dərs demiş müəllimləri ilə bir yerdə çalışması Muradxan müəllimi daha da məsuliyyətlə işləməyə ruhlandırmışdır. Müəllimlərinin məsləhəti, pedaqoji səriştələrindən bəhrələnməsi onun əsl bir pedaqoq kimi yetişməsinə xeyli kömək etmişdi. Bütün bunların nəticəsidir ki, o, öz fənnini şagirdlərə sevdirə bilmiş və məktəbin qabaqcıl müəllimlərindən biri olmuşdur. Belə bir işin nəticəsidir ki, dərs dediyi şagirdlərin bir çoxu müxtəlif vaxtlarda rayonda keçirilən riyaziyyat olimpiadalarında yüksək yerlər tuta bilmiş və ya ali məktəblərin riyaziyyat fakültəsinə daxil olmuşlar. Bu uğur və nailiyyətlərinə görə Muradxan

müəllim "Baş müəllim" adına layiq görülmüşdür...

**Haşiyə:** Ali kateqoriyalı müəllim, həm də şahmat kompozisiyası ilə məşğul olur. O, şahmat sahəsində yaratdığı kompozisiyalar, şahmat etüdləri ilə Fransada çap olunan "Qet – 64", Ruminiyada çap olunan "Revista de sax" və Macarıstanda çıxan "Magyaz şakkelet" jurnallarında dəfələrlə çıxış etmiş və yaradıcı müsabiqələrdə mükafatlara layiq görülmüşdür. M.Muradov şahmat kompozisiyası üzrə Azərbaycan yığma komandasının üzvüdür. Və dünya çempionatında dünyanın tanınmış şahmat "bəstəkarlarına" qalib gəlmiş və Azərbaycan komandasına zaçot xalı qazandırmışdır. Muradxan müəllim bu gün də şagirdlərinə riyaziyyatla yanaşı, şahmat kompozisiyasının da sirlərini öyrədir, aşılayır...

## ƏNVƏR KƏRƏM OĞLU



Qayıbov Ənvər 1951-ci ildə Qobustan rayonunun Şıxlar kəndində anadan olub. O, 1967-ci ildə Nərimankənd kənd orta məktəbini əla qiyəmtlərlə başa vurub və bir il istehsalatda çalışmışdır. Ə.Qayıbov 1969-cu ildə ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) filologiya fakültəsinə daxil olmuş və 1973-cü ildə həmin fakültəni bitirmişdir. Elə həmin ildə o, Şamaxı rayonunun Dərəkənd kənd orta məktəbinə ixtisası üzrə müəllim göndərilmişdir. Bir neçə il sonra, yəni 1975-ci ildən 1990-cı ilə kimi A.O.Çerniyayevski adına Mərəzə qəsəbə orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir...

**Haşiyə:** Ənvər müəllimlə bir institutda oxumuşam. O, məndən bir kurs yuxarıda oxuyurdu. Odur ki, biliyinə, bacarığına yaxşı bələdəm. Özünün də hələ tələbə vaxtından elmi işə böyük həvəsi olmuşdur. TEC-də həmişə bir yerdə olmuş, elmi-praktik konfranslarda birgə çıxış etmiş, neçə-neçə uğurlar qazanmışdıq. Müəllim işlədiyimiz vaxtlarda da bir həmkar kimi bir-birimizdən məsləhətlərimizi əsirgəməmişik...

Bundan əlavə, o, həm də həssas qəlbli, poetik duyumlu, şair

ruhlu bir ziyalıdır. Elə bu keyfiyyətlərinə görə müəllim işlədiyi ilk illərdə təkcə məktəb kollektivinin deyil, Şamaxının Azərbaycan dili və ədəbiyyatı müəllimləri arasında böyük hörmət qazana bilmişdir... Elmi-praktik konfrans, bölmə iclasları, müxtəlif tədbirlərdə öz məzmunlu, məntiqli, dəyərli, həm də poeziya dili ilə yoğrulmuş çıxışlarını dinləyicilər, həmkarları alqışlarla qarşılayıblar. Ənvər müəllimin ilk uğuru 1979-cu ildə **"İlin ən yaxşı müəllimi"** döş nişanına layiq görülməsi ilə başladı. Bundan sonra məktəbdə açıq dərslər təşkil etdi, şagirdləri olimpiadaların qalibi oldu, qabaqcıl iş təcrübəsi öyrənildi və nəhayət, 1983-cü ildə **"Metodist müəllim"**, 1987-ci ildə **"Respublikanın təhsil əlaçısı"** adına layiq görüldü. Bütün bu uğurlarına görə Qobustan rayonu təşkil olunanda təhsil şöbəsinin rəhbərliyini Ənvər müəllimə etibar etdilər...

**Ənvər müəllimin dediklərindən:** Mənə vaxtilə orta məktəbdə oxuyanda Şamaxının Davud Orucov, Bəhlul Əlicanov, Abasxan Allahverdiyev, İlyas Qurbanov kimi ustad pedaqoqları dərs demişlər. Onlar bu müqəddəs peşənin alovunu, atəşini həmişəlik ürəyimə salmışlar. Elə ona görə də müəllimlik sənətini çox sevmişəm. Mərhum professor Ə.Əfəndizadə mənim elmi yazılarımı oxuyandan sonra dəfələrlə mənə elm dalınca getməyi təklif etmişdir. Müəllimlik sənətinə olan rəğbətim bu təklifləri üstələmişdi. Bütün varlığımla müəllimlik sənətinə və poeziyaya bağlıyam. Şagirdlərimə həmişə gələcəyin, bu yurdun sahibləri kimi baxmışam. Onlara ömrüm boyu ədəbiyyatımızı, dilimizi, torpağımızı sevməyi öyrətməyə, aşılamağa çalışmışam.

Ali kateqoriyalı Ənvər Qayıbov səhhətinə görə (ərizəsinə əsasən) Qobustan rayon təhsil şöbəsinin müdiri vəzifəsindən azad edilmişdir. O, indi rayon Təhsil İşçiləri Azad Həmkarlar Təşkilatının sədri işləyir... və müəllimlərin problemləri, qayğılarına hər vasitə ilə kömək etməyə çalışır...

## İDRİS XANCAN OĞLU

Alıcanov İdris 1954-cü il iyul ayının 18-də Qobustan rayonunun Sündü kəndində doğulmuşdur. 1971-ci ildə kənd orta məktəbini bitirib ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) tarix fakültəsinə daxil olur. O, 1975-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə ba-



şa vurur. İnstitutun Elmi Şurasının qərarı ilə Moskvaya məqsədli aspiranturaya məsləhət bilinsə də, ailə vəziyyəti buna imkan vermir. Təyinatla doğma Sündü kəndinə gəlir və tarix müəllimi işləyir. Tez bir zamanda dərin biliyi, bacarığı ilə müəllim və şagird kollektivinin sevimlisinə çevrilir. Məktəbdə keçirilən bütün tədbirlərdə fəal iştirak edir. Elmi, pedaqoji, təşkilatçılıq qabiliyyətinə görə o, 1988-ci ildə məktəbin direktoru təyin edilir. 1990-cı ildə Sündü kənd XDS İK-nin sədri seçildiyi üçün vəzifəsindən azad edilir. Amma məktblə əlaqəsini kəsmir. Üç il bu vəzifədə işlədikdən sonra – 1993-cü ildə ərizəsinə əsasən, kənd sovetinin sədri vəzifəsindən azad edilir.

İ.Alıcanov artıq otuz ilə yaxındır ki, gənc nəslinin təlim-tərbiyəsi ilə məşğul olur, onlara vətənimizin şərəfli və keşməkeşli tarixini müxtəlif üsul və vasitlərlə mənimsətməyə çalışır. Azadlıq carçısı Xiyabanının dediyi kimi "...Millət xadimləri xalq və vətən yolunda fəda olmalıdır." İdris müəllim də pedaqoji sahədə çalışdığı müddətdə beləcə bir cəfakeş olmuşdur. Ona görə də ali dərəcəli müəllimin əməyi rayon İcra hakimiyyəti, təhsil şöbəsi tərəfindən dəfələrlə fəxri fərman, tərifnamə, mükafatlara layiq görülmüş, kənd və rayon sovetinin deputatı seçilmişdir. Qobustan rayon "ziyalılar cəmiyyəti"nin sədri İ.Alıcanov elmi-metodiki məqalələri ilə dövrü mətbuatda vaxtaşrı çıxış edir.

Ailəlidir, üç övladı var.

## MUSASOLTAN MUSTAFA OĞLU

Eyyubov Musasoltan 1954-cü ildə Şamaxı raoynunun Dərəkənd kəndində anadan olub. O, ilk əvvəl Göylər kənd ibtidai, sonra Mərəzə qəsəbə orta məktəbini bitirmişdir. M.Eyyubov ADU-nun şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsinə daxil olmuşdur. Universiteti bitirəndən sonra o, ilk əmək fəaliyyətinə 1977-ci ildə Mərəzə qəsəbə orta məktəbində başlamışdır.

M.Eyyubov üç il həmin məktəbdə Azərbaycan dili və



ədəbiyyatı fənnini tədris etmişdir. Sonra – 1980-1982-ci illərdə isə Liviya Ərəb Respublikasında tərcüməçi işləmişdir. O, vətənə dönəndən sonra yenə doğma Mərəzə qəsəbə orta məktəbində müəllimlik fəaliyyətini davam etdirmişdir. Hardasa oxumuşam, müəllim əməyi insan təbiətini çiçəkləndirir, insanın könül dünyasını abadlaşdırır. Daha doğrusu, insan müəllim zəhməti ilə daha çox ucala bilir. Bu mənada 20 illik pedaqoji fəaliyyəti dövründə Musasoltan müəllim yuxarıda qeyd etdiyimiz amal uğrunda yorulmadan çalışmışdır. O, təlim-tərbiyə prosesində həmişə yeknəsəklikdən qaçmış, tədrisdə yaradıcı fəaliyyətə geniş yer vermiş, hər bir dərsinə ciddi hazırlaşmış, metodik ustalığını artırdığı kimi, qabaqcıl müəllimlərin iş təcrübəsindən də bəhrələnmişdir... O, dərs dediyi şagirdlərə Azərbaycan dilinin qayda-qanunlarını, ədəbiyyatımızı dərindən mənimsətdiyi kimi, onların dünyagörüşünün genişlənməsi, istedad və qabiliyyətlərinin üzə çıxarılması üçün əlindən gələni əsirgəməmişdir. Onun məktəbdə şair və yazıçıların yubileyləri, eləcə də müxtəlif bayramlarla bağlı təşkil etdiyi mərasimlər yuxarıda dediyimiz fikirləri bir daha təsdiqləyir... Bütün bu yüksək müəllimlik bacarığı, pedaqoji səriştəsinə görə onun iş təcrübəsi rayonda öyrənilmiş, pedaqoji ustalığı "**Baş müəllim**" adına layiq görülmüşdür... Musasoltan müəllim Azərbaycan müəllimlərinin VII qurultayının nümayəndəsi olmuşdur.

**Haşiyə:** Şirvanda insanların əsrlərlə pənah apardığı, səcdə qıldığı bir övliya var – Şeyx Eyyub Baba! Neçə-neçə insanlara şəfa verən, müşkül işlərini asan edən, arzularına yol açan Şeyx Eyyub Baba!...

***Dəvələr asta gedər,***
***Çıxıb dağ üstə gedər,***
***Hər müşkülü olanlar -***
***Şeyx Eyyub üstə gedər...***

Belə müqəddəs ocağda böyümüş, atası Şeyx Mustafa babadan öyüd-nəsihət almış Musasoltan yaşının az olmasına baxmayaraq, ağsaqqal misallıdır. Odur ki, bu səmimi insan, islam dini qayda-

qanunlarını dərindən bilən, istedadlı pedaqoq, şərqşünas şagirdlərinin də milli adət-ənənələrimiz və islam dəyərlərinə bağlı ruhda böyümələrinə səy göstərir. Bir sözlə, gəncləri insan mənəviyyatını ucaldan düzlük, doğruluq, halallıq, "Vətəni sevmək imandandır" (**Məhəmməd Peyğəmbər s.**) , ruhunda tərbiyə etmək üçün Musasoltan Şeyx Mustafa oğlu Eyyubov bu gün də məktəbdə yorulmadan çalışır, işləyir...

**II haşiyə:** "Qobustan" kitabı mətbəədə yığılanda şad bir xəbər – hörmətli Prezidentimiz İlham Əliyev cənablarının bir çox qabaqcıl pedaqoqlara **"Respublikanın Əməkdar müəllimi"** fəxri adı verilməsi haqqında fərmanı Qobustan əhalisi – ziyallılarını ikiqat sevindirmişdir. Ona görə ki, fəxri ada layiq görülənlər sırasında Mərəzə qəsəbə orta məktəbinin qabaqcıl müəllimi **Musasoltan Eyyubov da vardır...**

## İSLAM BAYRAM OĞLU



Abuzərov İslam 1954-cü il may ayının 26-da Sündü kəndində doğulmuşdur. O, 1970-ci ildə kənd orta məktəbini bitirib, ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) riyaziyyat fakültəsinə daxil olmuşdur. 1974-cü ildə həmin fakültəni bitirən İslam doğma Sündü kəndində əmək fəaliyyətinə başlayır. Məktəbdə ilk əvvəl riyaziyyyat müəllimi, sonra tərbiyə, daha sonra isə tədris işləri üzrə direktor müavini vəzifələrində çalışmışdır. 30 illik pedaqoji fəaliyyəti dövründə o, özünü hazırlıqlı, savadlı müəllim, təvəzökar və sadə bir insan kimi göstərə bilmişdir.

Pedaqoji ustalıq, bacarıq və təlim-tərbiyə sahəsindəki səmərəli fəaliyyətini nəzərə alan rayon təhsil şöbəsi 2001-ci ildə onu məktədə direktor təyin edir.

Direktor seçiləndən sonra məktəbdə olan problemlərin həllinə çalışan İslam müəllim ilk əvvəl rayon rəhbərliyinin köməyi və qayğısı sayəsində 80 il əvvəl tikilmiş, bərbad vəziyyətdə olan məktəb binasının dam örtüyünün tamamilə dəyişdirilməsinə və sinif otaqlarının əsaslı təmirinə nail ola bilmişdir. Özünün dediyi kimi, bu

hələ başlanğıcdır. Görüləsi işlərimiz isə hələ qabaqdadır.

İ.Abuzərov məktəbdə təlim-tərbiyə işinin müasir tələblərə cavab verməsi üçün əlindən gələni əsirgəmir. Məktəbdə vaxtaşrı müxtəlif tədbirlər – kitab müzakirələri, alim – şairlərlə görüş və disputların keçirilməsi artıq ənənə halını almışdır. İ.Abuzərov məktəbin qabaqcıl müəllimlərin iş təcrübəsinin yayılması və rayon təhsili şöbəsi tərəfindən öyrənilməsi üçün həmişə təşəbbüs göstərir. Onun fikrincə, müəllimə verilən fəxri ad, mükafat həm də məktəbə verilən yüksək qiymətdir. Ona görə də, məktəbin qabaqcıl müəllimləri öz zəhmətlərinin bəhrəsini görməlidirlər. Məktəbimizdə isə belə pedaqoqlar çoxdur...

Ailəlidir, beş övladı var.

## AĞAKƏRİM ŞİRİN OĞLU



Şirinov Ağakərim 1954-cü ildə Şamaxı rayonunun Cəyirli kəndində anadan olmuşdur. O, 1971-ci ildə kənd orta məktəbini əla qiymətlərlə başa vurub, Bakı Dövlət Universitetinin mexanika – riyaziyyat fakültəsinə daxil olmuşdur.

1976-cı ildə həmin fakültəni müvəffəqiyyətlə başa vuran Ağakərim rayonun qabaqcıl məktəblərindən birinə – Mərəzə qəsəbə orta məktəbinə ixtisası üzrə müəllim təyin edilir. Səkkiz il bu məktəbdə çalışdığı müddətdə o, özünü bilikli, savadlı, işgüzar və yenilikçi müəllim kimi şagirdlərə sevdirə bilmişdir. A.Şirinovun yetirmələri respublikamızın müxtəlif ali məktəblərinə yüksək balla qəbul olunurlar... 1984-cü ildə ailə vəziyyəti ilə əlaqədar olaraq o, Cəyirli kənd orta məktəbinə müəllim təyin edilir. Ağakərim müəllimin işgüzarlığı, qabiliyyət və pedaqoji ustalığını nəzərə alan rayon rəhbərliyi onu yeni yaradılmış kənd orta məktəbinə direktor təyin edilməsini məsləhət bilir. Bu etimad Ağakərim müəllimin daha da yaxşı işləməyə ruhlandırır...

Əlli ilə yaxın ömrünün otuz ilini müqəddəs müəllimlik sənətinə, pedaqoji sahəyə həsr edən maarif fədaisi Ağakərim müəllimin vaxtilə dərs dediyi şagirdlərinin bir qismi artıq müqəddəs

müəllimlik sənətinə yiyələnmişdir. Fərəhli haldır ki, həmin məzunların bir çoxu da onunla eyni məktəbdə çiyin-çiyinə çalışır. Müəllim üçün bundan da böyük xoşbəxtlik olarmı?..

## RÜSXƏT QUBAT OĞLU



Vəzirov Rüsxət 1954-cü ildə Ərəbqədim kəndində dünyay göz açmışdır. O, 1970-ci ildə Nərimankənd kənd orta məktəbini bitirib, M.F.Axundov adına APRDƏ-yə qəbul olunmuşdur. 1974-cü ildə institutu bitirb doğma Ərəbqədim kənd 8 illik məktəbində əmək fəaliyyətinə başlayır. Həmin dövrlərdə rus dilinə tələbatın nə dərəcədə olduğu yaşlı nəslin yaddaşındadır. Rüsxət müəllim rus dilini həmyerlilərinə mənimsətməklə yanaşı, məktəbin, kəndin ictimai işlərdə də fəal iştirak edir. Odur ki, o, 1977-ci ildə məktəbə direktor təyin edilir. R.Vəzirov düz 27 ildir ki, həmin vəzifədə çalışır. Bu müddət ərzində kənddə müasir tipli məktəb binasının tikilib istifadəyə verilməsində kollektivlə birlikdə o da böyük fəallıq göstərmişdir. Kənd səkkizillik məktəbinin orta məktəbə çevrilməsində Rüsxət müəllimin böyük təşəbbüsü, zəhməti və xüsusi əməyi olmuşdur. Ərəbqədim kənd orta məktəbin yetirmələrinin sorağı respublikamızın müxtəlif müəssisə və idarələrindən gəlir.

Həmin məzunların həyatda yüksək yer tutmalarında, elə-obaya şərəf gətirmələrində R.Vəzirovun həm direktor, həm peşəsini sevən bir müəllim, ziyalı həm də bir vətəndaş kimi böyük zəhməti olmuşdur...

## ƏBİL GÖYÇƏ OĞLU

Qasımov Əbil 1955-ci ildə Şamaxı rayonunun Nərimankənd kəndində doğulmuşdur. O, 1971-ci ildə Nərimankənd kənd orta məktəbini bitirib, ADU-nun (indiki M.Ə.Rəsulzadə adına BDU) fizika fakültəsinə daxil olmuşdur. Ə.Qasımov 1976-cı ildə həmin fakültəni bitirib Nərimankənd kənd orta məktəbinə ixtisası üzrə müəllim təyin edilmişdir...



Az vaxt ərzində o, bir ictimaiyyətçi kimi irəli çəkilmiş və 1977-1987-ci illərdə Şamaxı rayon komsomaol komitəsinin katibi vəzifəsində çalışmışdır... Əbil müəllim komsomol katibi işlədiyi müddətdə həmişə gənclərin qayğısına qalmış, onlara ən gözəl, ən dəyərli insani keyfiyyətlərin - öz keçmişinə, milli adət-ənənələrimizə hörmət, doğruluq, düzlük, halallıq və s. kimi nəcib əxlaqi sifətlərin aşılanması üçün vaxtaşırı keçirilən tədbirldərin təşkilatçılarından biri olmuşdur. Təşkilatçılıq bacarığını nəzərə alan rayon rəhbərliyi onu daha yüksək vəzifəyə - RPK-də təlimatçı vəzifəsinə irəli çəkmişdir. Nəticədə, onun bu təşkilatdakı on illik fəaliyyəti bir neçə "Fəxri fərman"a layiq görülmüşdür... Əbil müəllimin təşkilatçılıq və işgüzarlığını nəzərə alan rayon rəhbərliyi 1987-ci ildə onu Nərimankənd orta məktəbinə direktor təyin edir. O, ilk gündən kollegial rəhbərliyin təmin edilməsi - müəllimlərdə öz işlərinə məsuliyyət hisslərinin yüksəldilməsi üçün ardıcıl tədbirləri həyata keçirməyə başlayır. Belə tədbirlər, nəhayət, öz bəhrəsini verir. Və odur ki, 1989-cu ilə kimi məktəbdə olan xeyli problemlər öz həllini tapır... İki il sonra ona yenidən etimad göstərilir - o, K.Marks adına sovxozun direktoru təyin edilir.

O, 1992-ci ildən hal-hazıra kimi Nərimankənd orta məktəbinə rəhbərlik edir. Cəmiyyətimizdə olan dəyişikliklər məktəblərimizə öz təsirini göstərmişdir. Buna baxmayaraq gözəl adətləri, böyük uğurları olmuş Nərimankənd kənd orta məktəbində bu gün işlər öz axarında gedir. Elə ona görədir ki, daim öyrənməyə can atan, təşkilatçılıq qabiliyyətinə malik olan Əbil müəllimin rəhbərlik etdiyi məktəb bu gün Qobustan rayonunun sayılıb-seçilən məktəblərindəndir. Müəllimlik sənətinə, peşəsinə olan sonsuz həvəs, təşkilatçılıq fəaliyyəti Əbil müəllimi pedaqoji, şagird kollektivi və valideyinlərin də sevimlisi etmişdir...

## GÜLNAZ NƏSİB QIZI

İsakova Gülnaz 1956-cı ildə Bakı şəhərində anadan olmuşdur. O, 1973-cü ildə orta məkətəbi bitirib ADXDİ-nin ingilis dili



fakültəsinə daxil olur. 1978-ci ildə həmin fakültəni bitirib təyinatla Şamaxı rayonuna gələn Gülnaz əmək fəaliyyətinə Təklə kənd (keçmiş Leninabad) orta məktəbində başlamışdır. 1980-ci ildə o, rayon təhsil şöbəsinin məsləhəti ilə Çuxanlı kənd məktəbinə köçürülür. Öz peşəsini ürəkdən sevən, zəngin pedaqoji təcrübəyə, geniş dünyagörüşə malik, ingilis dilini gənc nəslə böyük məhəbbət və həvəslə mənimsətməyi bacaran Gülnaz müəllimə tez bir zaman kəsiyində insanpərvərliyi, sadəliyi ilə kənd zəhmətkeşlərinin rəğbətini qazanmışdır. İyirmi beş ildən artıq öz vəzifəsinin öhdəsindən bacarıqla gələn müəllimin əməyi bir çox mükaftlara layiq görülmüşdür. Belə ki, rayon təhsil şöbəsi tərəfindən ilk əvvəl onun qabaqcıl iş təcrübəsinin rayon məktəblərində yayılması məsləhət görülmüşdür. Nəhayət, qabaqcıl müəllim 2002-ci ildə respublikada keçirilən "**İlin ən yaxşı müəllimi**" müsabiqəsinin qalibi olmuş və həmin ildə rayon təhsil şöbəsi tərəfindən "Fəxri fərman"la təltif edilmişdir...

Bu gün işlədiyi kolektivin uğurlarında böyük əməyi olan Gülnaz müəllimə daim axtarışda, yenilik sorağındadır. Bizə belə gəlir ki, maarif fədaisini qarşıda yeni-yeni uğurlar gözləyir...

Ailəlidir, üç övladı var.

## VİDADİ AĞAYAR OĞLU

Qabulov Vidadi 1956-cı ildə Şamaxı rayonunun Yekəxana kəndində anadan olmuşdur. 1970-ci ildə kənd səkkizillik məktəbini bitirib, Şamaxıdakı M.Ə.Sabir adına pedaqoji məktəbə daxil olur. Texnikumu bitirəndən sonra o, Qusar rayonunda əmək fəaliyyətinə başlayır. Bir il işlədikdən sonra hərbi xidmətə çağırılır. Hərbi xidməti başa vurduqdan sonra yenə müəllimlik sənətini davam etdirir. V.Qabulov 1987-ci ildə uzun müddət ürəyində baş qaldıran arzusuna – ali təhsil almağa çatır. O, ADPU-ya (keçmiş V.İ.Lenin adına APİ) daxil olur. 1992-ci ildə ali təhsilini başa vurur. Elə həmin ildə məktəbdə təşkilatçı müavin vəzifəsinə irəli çəkilir. Bu vəzifədə o, özünü səriştəli,



işgüzar bir təşkilatçı kimi göstərdiyi üçün 1994-cü ildə o, daha böyük vəzifəyə – məktəb təlim-tərbiyə işləri üzrə direktor müavini təyin edilir. 2002-ci ilə kimi bu vəzifənin öhdəsindən bacarıqla gələn Vidadi müəllim nəhayət, məktəb direktoru təyin edilir.

Həmin vaxtdan bəri V.Qabulov rəhbərlik etdiyi kollektivdə səmimi münasibət, ciddi intizam və sağlam mühit kimi müsbət ənənələrini qoruya bilmişdir. Odur ki, həmişə rayonda öz qabaqcıllığı, təlim-tərbiyə sahəsində uğurları ilə seçilən Yekəxana kənd orta məktəbi yenə də öncülər sırasındadır... Ailəlidir, dörd övladı var.

## ELİMXAN ŞAHBABA OĞLU



Baxışəliyev Elimxan 1957-ci ildə Şamaxı rayonunun Cəmcəmli kəndində doğulub. O, 1975-ci ildə Cəmcəmli kənd orta məktəbini bitirmişdir. O, 1979-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə daxil olmuş, 1985-ci ildə həmin fakültəni qurtarmışdır. E.Baxşəliyev ilk əmək fəaliyyətinə 1982-ci ildə doğma kəndində başlamışdır. Vaxtilə ona dərs demiş müəllimləri ilə çiyin-çiyinə işləmək Elimxan müəllimin məsuliyyətini birə-on artırmışdır. Belə ki, məktəbdə tarix fənninə aid bir çox tədbirləri isə həmişə şagirdlərinin köməyi ilə şəxsən özü həyata keçirmişdir... Bununla yanaşı, o, dərs dediyi şagirdlərin milli zəminlər üzərində tərbiyə olunması, böyüməsi üçün bütün bilik və bacarığından səmərəli istifadə etmişdir. İşgüzar müəllim çalışır ki, vətənimizi sevmək, torpağımızı can-başla qorumaq, el-obanın qədrini bilmək, adət-ənənələrimizi yaşatmaq kimi ülvi hisslər şagirdlərə orta məktəbdən aşılasın, öyrədilsin!... Bütün bu pedaqoji ustalığı və təşkilatçılığına görə Qobustan rayon təhsil şöbəsi Elimxan müəllimə etimad göstərib,

onu 1994-cü ildə Cəmcəmli kənd orta məktəbinə direktor məsləhət bilmişdir. Bundan sonra o, təkcə öz fənnini şagirdlərə mənimsətməklə kifayətlənməmiş, həm də böyüyüb boya-başa çatdığı kəndin ictimai işlərində, keçirilən tədbirlərdə fəallıq göstərmişdir...

Qabaqcıl, işgüzar pedaqoq 2002-ci ildə Qobustan rayon Təhsil Şöbəsinə müdir təyin edilir. Bir il sonra ərizəsinə əsasən həmin vəzifədən azad edilir və yenidən doğma Cəmcəmli kənd orta məktəbinə direktor göndərilir.

O, 1993-cü ildən YAP-ın, üzvü, 1996-cı ildən isə YAP-ın Cəmcəmli təşkilat komitəsinin sədri vəzifəsində çalışır. Elimxan müəllim bu gün də Cəmcəmli kənd məktəbinin müvəffəqiyyət, uğurlar qazanması, məktəblilərin dərin biliklərə yiyələnməsi üçün əlindən gələni əsirgəmir. Bizcə, günlər keçəcək, aylar ötəcək, illər dolanacaq, bu gün Cəmcəmli kənd məktəbində oxuyan şagirdlər öz ustadlarını əvəz edəcəklər. Bax, onda – bu günkü yetirmələri ilə bir yerdə işləyəndə Elimxan müəllim və onun kollektivinin sevincinin həddi-hüdudu olmayacaqdır...

## ƏMİRAĞA BÖYÜKAĞA OĞLU



Eyyubov Əmirağa 1957-ci ildə Çuxanlı kəndində anadan olmuşdur. O, 1972-ci ildə Çuxanlı kənd məktəbinin səkkizinci sinfini, 1974-cü ildə Təklə (keçmiş Leninabad) kənd orta məktəbini bitirmişdir. Bir neçə il sonra – 1975-ci ildə ADPU-nun (keçmiş, V.İ.Lenin adına APİ) riyaziyyat fakültəsinə daxil olmuşdur. 1979-cı ildə həmin fakültəni bitirən Əmirağa müəllim əmək fəaliyyətinə Şamaxı rayon qiyabi orta məktəbin Çuxanlı tədris-konsultasiya məntəqəsində başlamışdır. Ə.Eyyubov 1980-cı ildən 2003-cü ilə kimi isə Ərəbşalbaş kənd orta məktəbində əvvəl riyaziyyat müəllimi, sonra isə təlim-tərbiyə işləri üzrə direktor müavin vəzifəsində çalışmışdır. Bu illər ərzində pedaqoji sahədə qazandığı uğurlarını, təşkilatçılıq bacarığını nəzərə alan rayon təhsil şöbəsi onu Çuxanlı kənd orta məkətəbinə direktor təyin edir. Az bir vaxt ərzində məktəbdə olan canlanma özünü aydınca göstərir... Əmin ki,

Əmirağa müəllim məktəbin özünəməxsus adət-ənənəsini yaşadacaq, keçirdiyi müxtəlif səpkili tədbirlərlə məktəbin uğurlarına yeni uğurlar əlavə edəcəkdir. Özü də səsi-sorağı ali məclislərdən gələn uğurlar...

Ailəlidir, dörd övladı var.

## MİRZAMAN MİRZAĞA OĞLU



Musayev Mirzaman 1958-ci ildə Nərimankənd kəndində anadan olmuşdur. 1976-cı ildə kənd orta məktəbini müvəffəqiyyətlə bitirəndən sonra o, hərbi xidmətə yollanır. Hərbi xidmətdə qulluq etdiyi müddətdə özünü intizamlı əsgər kimi göstərə bilir. Ona görə də komandirləri tərəfindən onun ailəsinə bir neçə dəfə minnətdarlıq məktubu göndərilir. M.Musayev hərbi xidməti başa vurduqdan sonra – 1980-cı ildə V.İ.Lenin adına APİ-nin (indiki ADPU) coğrafiya fakültəsinə daxil olur. 1985-ci il həmin fakültəni bitirən Mirzaman rayonun Ərəbqədim kənd orta məktəbində əmək fəaliyyətinə başlayır. Müəllim işlədiyi müddətdə o, şagird və müəllim kollektivinin hörmətini qazana bilmiş, məktəbin ictimai həyatında fəal iştirak etmişdir. M.Musayev 2001-ci ildə A.O.Çernyayevski adına Mərəzə qəsəbə orta məktəbinə direktor təyin edilmişdir. Ötən illər ərzində o, məktəbdə olan geriliyi aradan qaldırmış, təlim-tərbiyə sahəsində irəliləyişi təmin edə bilmişdir. Nəticədə son iki ildə orta məktəbi bitirən şagirdlərinin səkkiz nəfəri yüksək balla respublikamızın müxtəlif ali məktəblərinə daxil olmuşdur... Mirzaman müəllimin söhbətindən yəqin etdik ki, məktəbdə təlim-tərbiyə işlərinin bu cür yüksək, keyfiyyətli təşkili Mərəzə qəsəbə orta məktəbinin keçmiş şöhrətini mütləq özünə qaytaracaqdır. Məktəbin adı yenə respublikamızın qabaqcıl məktəbləri sırasında çəkiləcəkdir... Mirzaman müəllim ailəlidir, üç övladı vardır.

## ELDAR BABASƏN OĞLU



İsrafilov Eldar 1958-ci ildə Qaradağ rayonunun Duvannı qəsəbəsində doğulmuşdur. O, əvvəlcə Dərəkənd səkkizillik məktəbini, sonra isə Nərimankənd kənd orta məktəbini bitirmişdir. Bir il istehsalatda çalışdıqdan sonra o, BDU-nun (keçmiş S.Kirov adına ADU) mexanika-riyaziyyat fakültəsinə daxil olmuşdur. 1981-ci ildə həmin fakültəni bitirən Eldar Dərəkənd səkkizillik məktəbinə riyaziyyat müəllimi göndərilir. Öz sadəliyi, pedaqoci ustalığı, insanlara münasibətinə görə tez bir zamanda o, müəllim-şagird kolektivi və eləcə də kənd sakinlərinin hörmət və rəğbətini qazanır. E.İsrafilov 1992-1993-cü illərdə Qobustan rayon XDS-nın sədri işləmişdir.

E.İsrafilov həmin vaxtdan indiyə kimi Dərəkənd orta məktəbində müəllim işləyir. O, müstəqil Azərbaycanımızın gələcək sahibləri olan bu günün şagirdlərinin təlim-tərbiyəsi ilə daha ciddi, daha yaxşı məşğul olur; öz fənnini onlara dərindən mənimsətməklə yanaşı, gənclərin həqiqi vətəndaş kimi yetişmələri üçün yorulmadan səy göstərir, çalışır. Bunu isə Eldar müəllim özü üçün şərəf işi bilir.

## ELÇİN BÖYÜKAĞA OĞLU

Orucov Elçin 1966-cı ildə Şamaxı rayonunun Ərəbşalbaş kəndində anadan olmuşdur. O, 1983-cü ildə Ərəbşalbaş kənd orta məktəbini bitirmişdir. Hərbi xidmətdən sonra -1988-ci ildə BDU-nun (keçmiş S.M.Kirov adına ADU) filologiya fakültəsinin qiyabi şöbəsinə daxil olmuş, 1994-cü ildə isə həmin fakültəni müvəffəqiyyətlə bitirmişdir. E.Orucov əmək fəaliyyətinə 1990-cı ildə Ərəbşalbaş kənd orta məktəbində kitabxanaçı kimi başlamışdır.

Bir müddət sonra o, məktəbdə ixtisası üzrə müəllim işləmişdir.



Pedaqoji sahədə işlədiyi bu illər ərzində o, öz bilik-bacarığını şagirdlərindən əsirgəmir, onların həqiqi vətəndaş, milli-mənəvi dəyərlərimizin sahibi kimi böyüməələri üçün gecəli-gündüzlü çalışır. Belə ki, onun məktəbdə təşkil etdiyi şair və yazıçıların yubileyləri ilə bağlı tədbirlər, kitab müzakirələri şagirdlərin mənəvi tərbiyəsində xüsusi rol oynayır. Ona görə də o, kənd əhalisi, məktəb və şagird kollektivinin dərin hörmətini qazanmışdır. Bütün bu keyfmiyyətlərinə görə rayon təhsil şöbəsi onu 2003-cü ilin dekabr ayında Ərəbşalbaş kənd orta məktəbinə direktor təyin edilmişdir. Əminik ki, bu etimad Elçin müəllimi daha səylə işləməyə ruhlandıracaq. Nəticədə Ərəbşalbaş kənd orta məktəbinin uğurları daha yüksək tribunalardan eşidiləcəkdir...

Ailəlidir, üç övladı var.

# 3. QOBUSTAN ALİMLƏRİ

*"Alimlərə hörmət edən şəxs elə bil mənə hörmət edib".*

*Məhəmməd peyğəmbər (s.ə.s.)*

Ulu Azərbaycanımızın qədim tarixə malik bölgələrindən biri də Şirvan və onun döyünən ürəyi Şamaxı şəhəri olmuşdur. Min ilə yaxın Şirvanşahlar dövlətinin paytaxtı olmuş, on bir dəfə dağıdıcı zəlzələyə məruz qalmış, bütün Şərq dünyasında tanınan Şamaxı əsrlərlə elm, mədəniyyət, poeziya, ticarət mərkəzi kimi də məşhur olmuşdur. Hətta Azərbaycanda ilk akademiya da burada yaradılmışdır.

Şamaxı akademiyası haqqında mənbələrdə istənilən qədər məlumatlar vardır: "1953-cü ildə Parisdə nəşr olunan "Elm tarixi ensiklopediyasında "Şərqdə elmin inkişafna həsr olunmuş məqalədə XI əsrdə Şirvan Elmlər Akademiyası haqqında məlumat verilir. Oradakı məlumatdan aydın olur ki, bu Akademiyada bir çox elmlər – tibb, astronomiya, riyaziyyat, musiqi, sərf-nəhv, məntiq, fəlsəfə inkişaf etdirilirdi"[1].

Bütün belə faktlar təsdiqləyir ki, üç min ildən artıq yaşı olan Şamaxı əsrlər boyu elm-mədəniyyət mərkəzi kimi də tanınmışdır.

Uzun illər apardığımız ardıcıl, sistemli araşdırmalar nəticəsində müəyyən etmişik ki, Şamaxı regionunda yaşayıb-yaradan **mömin, alim, şair, aşıq, xanəndə, el sənətkarlarının sayı iki min nəfərdən artıq** olmuşdur. Bu barədə böyük ədəbiyyatşünas F.Köçərli vaxtilə yazmışdı: "Şirvan vilayəti, və xüsusən, Şamaxı şəhəri qədimdən **mərkəzi üləma və Füzuli və məskəni Üdəba və şühəda olub,** (seçmələr bizimdir - S.Q.) onda çox kamil vücudlar və arif şəxslər dünyaya gəlmişdir. Əgər Şirvan şairlərinin məhz adlarını burada zikir etməli olsaq, məcmuənin bir neçə səhifələrini yalnız onlar ilə doldurmaq lazım gəlir[2].

Vaxtilə çap etdirdiyimiz **"Şamaxı alimləri, elm fədailəri" (Bakı, "Ozan", 1997)** kitabında bu ərazidə boya-başa çatmış elm fədailəri haqqında müəyyən məlumat vermişik. Keçən müddət ərzində

[1] Mehrəliyev E. Şirvan elmlər akademiyası, Bakı, 2000, s.5

[2] F.Köçərli. Azərbaycan ədəbiyyatı, I cild, Bakı, 1978, s.136-137

həm Şamaxı, həm də Qobustan regionundan olan bir çox alimlər barədə yeni məlumatlar toplamışıq. Odur ki, bu kitaba ancaq Qobustan ərazisinin yetirmələri barədə əldə etdiyimiz bilgiləri daxil etmişik.

Böyük həzrəti-Məhəmməd peyğəmbər (s.ə.v.s.) "bir alimin qələminin mürəkkəbi bir şəhidin qanından daha müqəddəsdir" buyurmuşdur.

Elə ona görədir ki, dövrünün bütün elmsevər hökmdarları – padşahlar, xanlar, xaqanlar da alimləri öz saraylarına cəm etmiş, onlara hörmətlə yanaşmış və qayğı göstərmişlər...

Ümummilli liderimiz, mərhum Heydər Əliyev cənabları ömrü boyu alim adına böyük ehtiram göstərmiş, onların əməyinə yüksək qiymət verərək demişdir: **"...Hər bir alim qiymətlidir. Hər bir alimin *yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır.* Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini təbliğ edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda verən insanlar, alimlərin sırasında xüsusi yer tutur".**

Ona görə də alimlər haqqında nə qədər çox yazsaq, onların dəyərli ömür yolunu işıqlandırsaq, gənclərə örnək göstərsək, deməli, böyük savab etmiş oluruq... **Axı, "elm axtarmaq xatirinə evini tərk edən adam Allaha sarı yol gedir...". (Məhəmməd peyğəmbər s)...**

Qobustan torpağı qucağında yüzlərlə belə insanlar böyütmüşdür...

## ADGÖZƏL MAHMUD OĞLU
## (1926-1996)

Qənbərov Adıgözəl 1926-cı ildə Şamaxı qəzasının Cəyirli kəndində anadan olmuşdur. Onların ailəsi 1932-ci ildə Salyanın Bankə qəsəbəsinə köçür. O, Bankə qəsəbəsində yeddillik təhsil alımış, sonra Bakı şəhərinə köçmüş, həm işləmiş, həm də təhsilini davam etdirmişdir. Belə ki, o, BDU-nun (keçmiş S.M.Kirov adına ADU) coğrafiya fakültəsinə daxil olmuşdur. Universiteti bitirib, müxtəlif sahələrdə işləmişdir... Azərbaycan MEA aspiranturasında oxuyur. Əvvəl Azərnəşrdə, sonra "İşıq" nəşriyyatında məsul vəzifələrdə işləyir. Bir müddət "Maarif" nəşriyatının direktoru olur.

Coğrafiya elmləri namizədi A.Qənbərov bir neçə kitab və əllidən artıq məqalənin müəllifidir.

Gözəl insan, yaxşı tərcüməçi, bacarıqlı alim, A.Qəmbərov 1996-cı ildə vəfat etmişdir.

## VƏLİ KƏRBƏLAYI AĞASI OĞLU (1934-1996)

Əliyev Vəli 1934-cü ildə Şamaxı rayonunun Cəyirli kəndində doğlumuşdur. O, Cəyirli kənd yeddillik və Hacıqabul şəhər orta məktəbini bitirmişdir. O, 1952-ci ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstituna daxil olmuş, 1957-ci ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir. Əvvəlcə Bayıl neft mədənlərində operator, sonra sahə rəisi, baş mühəndis vəzifələrində işləmişdir.

1959-cu ildə həmin institutun aspiranturasına daxil olmuş və tez bir zamanda namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir.

Texnika elmləri namizədi V.Əliyev 1962-1963-cü illərdə doğma institutda Neyt-Mədən fakültəsində müəllim və axşam şöbəsinin dekanı olmuşdur.

O, 1977-1981-ci illərdə Əlcəzair respublikasında Neft İnstitunda müəllim işləmişdir. Vətənə qayıtdıqdan sonra yenə Azərbaycan Neft-Kimya institunda çalışmışdır.

V.Əliyev 1996-cı ilin avqust ayında vəfat etmişdir.

## ABASXAN GÜLAĞA OĞLU



Allahverdiyev Abasxan 1935-ci ildə Şamaxı rayonunun Sündü kəndində doğulmuşdur. Sünüdü kənd orta məktəbinin yeddinci sinfini bitirdikdən sonra Şamaxıdakı M.Ə.Sabir adına Pedoqoji Texnikumda oxumuşdur. O, pedoqoji fəaliyyətə 1953-cü ildə Təklə-Mirzəbaba kəndindən başlamışdır.

Abasxan müəllim 1955-ci ildə S.M.Kirov adına ADU-nun filologiya fakultəsinə daxil olmuş, 1960-cı ildə həmin fakultəni bitirmişdir. O, bir müddət Cəyirli, Nərimankənd, şəhər 6 saylı məktəblərində müəllim, RXTŞ-da metodist və Respublika Müəllimləri Təkmilləşdirmə İnstitutunda

müəllim işləmişdir. O, Azərbaycan EA Nizami adına ədəbiyyat İnstitutunun dissertantı olmuşdur.

Abasxan Allahverdiyev yazdığı dissertasiyasını 1981-ci ildə müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Onun məqalələri ADU-nun "Elmi əsərləri", "Elm və həyat" jurnallarında, müxtəlif qəzetlərdə çap olunmuşdur. Alim əllidən çox elmi məqalənin, dörd kitabın müəllifidir. A.Allahverdiyev həm də bədii yaradıcılıqla məşğuldur. Onun ilk romanı işıq üzü görmüşdür.

Abasxan Allahverdiyev 1991-ci ildən N.Tusi adına ADPU-nin Şamaxı filialında müəllim (sonra AMİ-nin Şamaxı filialında) işləyir.

## QƏNDƏLİ HƏMZALI OĞLU



Nağıyev Qəndəli 1937-ci ildə Şamaxı rayonunun Cəyirli kəndində anadan olmuşdur. O, 1956-cı ildə Nərimankənd kənd orta məktəbini bitirib, Azərbaycan Sənaye İnstitutuna daxil olmuşdur, 1958-ci ildə Bauman adına Moskva Ali Texniki məktəbində təhsilini davam etdirir, mühəndis-mexanik ixtisasına yiyələnmişdir.

O, 1966-cı ildə Bakı elektrik maşınqayırma zavodunda əmək fəaliyyətinə başlayır; usta köməkçisi, usta, mühəndis-konstruktor bürosunun rəisi, sex rəisi və s. vəzifələrdə çalışır.

Q.Nağıyev Moskva VNNİ-də aspiranturada oxuyur. Aspiranturanı qurtarandan bir neçə il sonra yazdığı dissertasiyanı da Moskvada müdafiə edib, texnika elmələri namizədi alimlik dərəcəsi adı alır. O, 1971-ci ildən METLTN – neftmaşda bölmə laboratoriyasının müdiri, elmi işlər üzrə direktor müavini və nəhayət, direktor vəzifəsində işləyir. Bacarıqlı alim, texnika elmələri doktoru, Q.Nağıyev iyirmidən artıq elmi əsərin, otuz beş elmi ixtiranın müəllifi olmuşdur. O, bir neçə dəfə SSRİ Kimya Nazirliyinin "Fəxri fərman"ı ilə təltif edilmişdir.

## MƏMMƏD NURU OĞLU



Abdullayev Məmməd 1937-ci ildə Şamaxı rayonunun Sündü kəndində anadan olub. O, Sündü kənd səkkizillik və Nərimankənd kənd orta məktəbini bitirmişdir. Sonra S.M.Kirov adına ADU-nun fizika fakultəsinə daxil olmuşdur. Universiteti əla qiymətlərlə qurtarandan sonra, Azərbaycan EA-nın Fizika institutunda əmək fəaliyyətinə başlayır.

M.Abdullayev 1970-ci ildə **"Maqnit nizamlı kristalların ortik nəzəriyyəsinə dair"** namizədlik dissertasiyasını müdafiə edib, fizika-riyaziyyat elmələri namizədi alimlik dərəcəsi adı almışdır. Alim bundan sonra fizika sahəsində yeni-yeni uğurlar qazanır. Alimin **"Antiferromaqnit kristalların optik xassələrinin tədqiqatına dair"** adlı əsəri 1986-cı ildə respublika Dövlət mükafatına layiq görülmüşdür.

M.Abdullayev 1993-cü ildə gərgin əməyinin nəticəsi olan **"Maqnit nizamlı kristalların optik xassələri"** mövzusunda yazdığı doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. O, qırxdan artıq elmi əsərin, o cümlədən, bir neçə kitab və metodik tövsiyənin müəllifidir. Elmi kadrların hazırlanmasında alimin xidmətləri əvəzsizdir. M.Abdullayev hal-hazırda EA-nın Fizika institutunda baş elmi işçi vəzifəsində çalışır.

## İZAYƏDDİN CANI OĞLU

Nəzərov İzayəddin 1938-ci ildə Şamaxı rayonunun Sündü kəndində anadan olmuşdur. Sündü kənd orta məktəbini bitirəndən sonra o, üç il ordu sıralarında xidmət etmişdir. O, 1962-ci ildə S.M.Kirov adına ADU-nun (indiki BDU) filologiya fakultəsitnə daxil olmuşdur. Nəzərov həmin fakultəni bitirib, doğma kəndində pedaqoji fəaliyyətə başlamışdır. Pedaqoji sahədə qazandığı uğurlar müxtəlif fəxri fərmanlara layiq görülmüşdür.

İzayəddin müəllim pedaqoji sahədə çalışmaqla yanaşı, elmi işini də davam etdirmişdir. Belə ki, o, görkəmli dilçi alim

Ə.Abdullayevin elmi rəhbərliyi altında tədqiqat aparır. Nəticədə o, "Azərbaycan dilində qarışıq tipli tabesiz mürəkkəb cümlələr" mövzusunda yazdığı dissertasiyasını uğurla müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. O, iyirmidən artıq elmi məqalənin, bir metodik tövsiyənin müəllifidir.

İzayəddin Nəzərov 1993-cü ildən N.Tusi adına ADPU-nun Şamaxı filialında (indi isə AMİ-nin filialıdır) dosent vəzifəsində çalışır.

## MİRABBAS GÖYCƏ OĞLU



Qasımov Mirabbas 1939-cu ildə Şamaxı rayonunun Nərimankənd kəndində anadan olmuşdur. 1956-cı ildə Nərimankənd orta məktəbini bitirmiş və BDU-nun (keçmiş S.M.Kirov adına ADU) mexanika-riyaziyyat fakultəsinə daxil olmuşdur. Mərhum akademik Ə.İ.Hüseynovun təklifi və məsləhəti ilə M.Qasımov M.V.Lomonosov adına MDU-nun müvafiq fakultəsinə köçürülmüşdür. O, 1961-ci ildə MDU-nu riyaziyyat ixtisası üzrə bitirib, orada aspiranturada saxlanılır.

Qasımov 1964-cü ildə M.V.Lomonosov adına MDU-nun Elmi Şurasında namizədlik dissertasiyası uğurla müdafiə etmişdir. Elmi Şuranın xüsusi qərarına görə dissertasiya işi "ən dəyərli əsər" hesab edilmişdir. Həmin ildən o, Moskva Fizika-Texniki institutunda assistent vəzifəsinə qəbul edlimiş, 1965-ci ildən isə müsabiqə yolu ilə F.E.Dzerjinski adına Hərbi-Mühəndislik Akademiyasının riyaziyyat kafedrasına baş müəllim seçilmişdir.

O, fizika-riyaziyyat elmləri doktoru - alimlik dərəcəsini almaq üçün **"Öz-özünə qoşma olan və öz-özünə qoşma olmayan diferensial operatorlar nəzəriyyəsinin bəzi məsələləri"** mövzusunda yazdığı dissertasiyanı 1967-ci ildə MDU-da müdafiə etmişdir. Alimin bu dəyərli əsəri ABŞ-da ingilis dilinə tərcümə edilmişdir.

1968-ci ilin sentyabrından S.M.Kirov adına ADU-nun (indiki BDU) professoru vəzifəsini tutur. 1969-70-ci tədris ilində mexanika-

riyaziyyat fakultəsinin dekanı vəzifəsində çalışmış, 1972-ci ilin sentyabr ayından bu günə kimi tətbiqi-riyaziyyat kafedrasının müdiridir... 1970-ci ildən 1976-cı ilə kimi Azərbaycan EA Riyaziyyat və Mexanika institutunun xüsusi törəməli diferensial tənliklər şöbəsinin müdiri olmuşdur. Qasımov 1980-ci ildə Azərbaycan EA-na **müxbir üzvü**, 1989-cü ildə isə **həqiqi üzvü** (akademik) seçilmişdir.

Akademik M.G.Qasımov 100-ə qədər elmi əsər çap etdirmişdir. Onun əsərlərinin elmi nəticələri mühüm işlər kimi SSRİ EA Riyaziyyat Bölməsinin sessiyalarında və Azərbaycan EA-nın Rəyasət Heyətində yüksək qiymətləndirilmişdir... M.G.Qasımov 1990-1992-ci illərdə M.Ə.Rəsulzadə adına BDU-nun rektoru işləmişdir.

Onun elmi rəhbərliyi ilə 70-ə yaxın namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmişidir. M.G.Qasımov keçmiş ittifaq miqyasında 60-dan artıq doktorluq və namizədlik dissertasiyalarına da opponentlik etmişdir... O, riyaziyyatçıların üç Beynəlxalq konqresində (**Moskva-1966, Fransa-1970, Kanada-1974**) iştirak edərək iki dəfə məruzə ilə çıxış etmişdir...

M.G.Qasımov bir neçə il sonra Varşava (Polşa-1977) şəhərində S.Banax adına Beynəlxalq riyaziyyat mərkəzində silsilə məruzələrlə çıxış etmişdir. M.G.Qasımovun bir sıra əsərlərinin elmi nəticələri rus dilinə tərcümə edilmişdir. Görkəmli alim, həm də 5-cildlik **"Математическая енсиклопедия"**, **"Diferensial operatorların spektral nəzəriyyəsi"** bölməsinin müəllifidir.

Riyaziyyat elmin inkişafında görkəmli xidmətlərinə görə akademik M.G.Qasımov M.V.Keldış adına qızıl medala layiq görülmüşdür...

## AZADXAN SƏFƏRXAN OĞLU

Adgözəlov Azadxan 1940-cı il dekabr ayının 20-də Şamaxı rayonunun Bəklə kəndində doğulmuşdur. O, yeddiillik təhsilini Nabur kəndində, orta təhsilini isə Nərimankənd kənd məktəbində almışdır. Orta məktəbi bitirəndən sonra V.İ.Lenin adına APİ-nin (indiki ADPU) fizika-riyaziyyat fakultəsinə daxil olur. O, institutu bitirib, Şamaxı rayonunda müəllim, rayon təhsil şöbəsində metodist vəzivəsində çalışmışdır. O, 1968-ci ildə müsabiqə yolu ilə V.İ.Lenin adına APİ-nin riyaziyyat və onun tədrisi metodikası kafedrasına müəllim qəbul olunmuşdur. Azadxan müəllim 1979-cu ildə **"Orta**



**məktəbdə həndəsinin rəsmxətlə qarşılıqlı əlaqəsi"** mövzusunda yazdığı dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib, pedaqoji elmlər namizədi alimlik dərəcəsi alır.

Alim keçmiş SSRİ-nin bir çox – Moskva, Leninqrad, Düşənbə və s. şəhərlərində keçirilən elmi konfranslarda vaxtaşırı iştirak etmişdir. Onun elmi yaradıcılığı Rusiyanın bir çox görkəmli alimləri – *Q.D.Qleyzer, A.M.Pişkalo, V.A.Qusev* tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1992-ci ildə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir. Görkəmli pedaqoq universitetin elmi şurası və müdafiə şurasının üzvüdür.

Professor A.Adgözəlov hal-hazırda ADPU-nun riyaziyyat və onun tədrisi metodikası kafedrasının müdiridir.

## SABİR SAQİ OĞLU

İlxaszadə Sabir 1940-cı il may ayının birində Şamaxı rayonunun Damlamaca kəndində anadan olmuşdur.

1954-cü ildə Nərimankənd kənd orta məktəbinin yeddinci sinfini bitirib, Bakı Plan-Uçot texnikumunun yerquruluşu şöbəsinə qəbul olunmuşdur. Texnikumu bitirib, bir neçə il istehsalatda çalışmışdır. O, 1960-cı ildə M.V.Lomonosov adına MDU-ya daxil olur. 1965-ci ildə isə oranı müvəffəqiyyətlə bitirib, doğma vətənə – Bakıya dönür.

BDU-ya (keçmiş S.M.Kirov adına ADU) göndərilən S.İlxaszadə 1966-cı ildə müsabiqə yolu ilə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunun siyasi-iqtisad kafedrasının baş müəllimi vəzifəsinə seçilir. 1968-ci ildə SSRİ EA-nın İqtisad İnstitutunun aspiranturasına qəbul olunur. Və tez bir zamanda **"Müttəfiq respublikaların beynəlxalq əmək bölgüsündə rolu"** mövzusunda namizədlik dissertasiyasını müdafiə edir. Azərbaycan EA-da baş elmi işçi vəzifəsində çalışır.

S.İlxaszadə 1971-1974-cü illərdə SSRİ hökuməti tərəfindən Türkiyə Respublikasına ezamiyyətə göndərilir. Ezamiyyətin müddəti sona çatandan sonra vətənə dönən Sabir Azərbaycan EA Rəyasət Heyətində elmi katib vəzifəsinə seçilir. S.İlxaszadə 35 yaşında



Azərbaycan Reklam Agentliyinə rəhbər təyin edilir. Düz 28 ildir ki, o, bu vəzifədə şərəflə çalışır. Nəhayət, 1990-cı il sentyabr ayının 2-dən etibarən Azərbaycan Reklam Agentliyi kollektivinin xahişi ilə Ümumittifaq Reklam Birliyi tərəfindən Səhmdar şirkət kimi fəaliyyət göstərməyə başlayan və **"Günelreklam"** Aksioner Şirkəti adı ilə qeydə alınan müəssisənin rəhbəri yenə də S.İlxaszadə seçilir.

Bundan sonra "Günelreklam" Agentliyi kimi tanınan bu müəssisənin çiçəklənmə dövrü başlandı və qısa müddətdə Azərbaycanda necə deyərlər, reklam dərk edildi. Əvvəllər respublikada ancaq və ancaq ayrı-ayrı ticarət sahələrinin adı (nadir hallarda bədii tərtibatla) reklam olunurdu. Sabir İlxaszadənin xarici ölkələrdə qazandığı iş təcrübəsi, görüb-götürdükləri sayəsində "Günelreklam" Agentliyi nəzdində "**Qəzet-curnal redaksiyası**", "**Teleradio reklam redaksiyası**", "**Reklam-çap şöbəsi**" və SSRİ-də yeganə olan müqəvva (maniken) istehsal edən müəssisə işə başladı. Bu, ticarət müəssisəlrinin vitrin və sərgi salonlarının bədii tərtibatı üçün avadanlıq istehsal edən yeganə müəssisə oldu. İllər keçir, uğur uğura calanır. Sabir İlxaszadənin yuxusuz gecələri, narahat günləri öz bəhrəsini verir. Belə ki, artıq Azərbaycan reklam agentliyi çəkdiyi reklam-filmlər, müxtəlif mövzuları reklam edən plakatlar beynəlxalq, ümumittifaq müsabiqələrində yüksək yer tutur, dəyərli mükafatlara layiq görülür. Onun fəaliyyəti ilə Azərbaycan Reklam Agentliyi Beynəlxalq və Ümumittifaq reklam konfranslarının, simpoziumların mərkəzinə çevrilir. Şöhrəti sərhədləri aşan bu agentliyin işçiləri artıq müxtəlif ölkələrdə bədii tərtibat işləri üçün dəvət olunurlar.

Ömrü boyu xeyirxah əməllər sahibi olan, dəyərli insan, görkəmli alim S.İlxaszadə əllidən artıq elmi əsərin müəllifidir.

Ailəlidir. İki övladı, dörd nəvəsi var.

## ŞAHVAR QARA OĞLU
## (1940-1998)



Dəmirqayayev Şahvar 1940-cı ildə Şamaxı (indiki Qobustan) rayonunun Cəmcəmli kəndində anadan olmuşdur. O, 1953-cü ildə Cəmcəmli kənd yeddillik məktəbini bitirmiş, 1954-cü ildə Bakı şəhərindəki kənd təsərrüfatı texnikumunun yer quruluşu şöbəsinə daxil olmuşdur. Texnikumu bitirəndən sonra (1959-cu il) BDU-nun (keçmiş S.M.Kirov adına ADU) coğrafiya-geologiya fakultəsinə daxil olmuş, 1965-ci ildə həmin fakultəni bitirmişdir.

Ş.Dəmirqayayev 1986-cı ildə Azərbaycan MEA-nın Coğrafiya İnstitutunun aspiranturasına daxil olmuşdur. 1972-ci ildə **"Azərbaycan SSR-in Quba-Xaçmaz iqtisadi rayonu əhalisi coğrafiyasının problemləri"** mövzusunda yazdığı namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. O, 1959-1984-cü illərdə Azərbaycan MEA-nın Coğrafiya İnstitutunda elmi işçi kimi fəaliyyət göstərmişdir, 1984-cü ildən isə BDU-nun coğrafiya fakultəsində baş müəllim vəzifəsində işləmişdir. Dosent Ş.Dəmirqayayev doktoluq dissertasiyasını müdafiə sovetinə təqdim etməyə hazırlaşdığı bir vaxtda, 1998-ci il mart ayının 17-də dünyasını dəyişdi. O, yüzlərlə məqalə və bir neçə kitabın müəllifidir.

## MALİK SADAY OĞLU

Cəbrayılov Malik 1945-ci ildə Hacıqabul rayonunun Qızılburun kəndində anadan olmuşdur. (Bu kəndin əhalisi ötən əsrin 30-cu illərində Şamaxı qəzasının Dərəkənd və digər qonşu kəndlərdən suvarılan torpaqlara köçürülmüşdür).

O, 1961-ci ildə Atbulaq kənd orta məktəbini bitirmiş, 1962-ci ildə ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) riyaziyyat fakultəsinə daxil olmuşdur. O, institutun ictimai işlərində fəal iştirak etdiyi üçün 1966-1970-ci illərdə institut komsomol komitəsinin katibi işləmişdir. İnstitutda Lenin təqaüdlə oxumuşdur. İnstitutu fərqlənmə diplomu ilə



bitirdiyi üçün o, riyazi analiz kafedrasında assistent vəzifəsində saxlanılmışdır. M.Cəbrayılov 1974-cü ildə namizədlik dissertasiyasını müdafiə etmiş və riyaziyyat fakultəsinin dekan müavini seçilmişdir. O, 1989-1991-ci və 1994-1996-cı illərdə institutun qiyabi şöbə üzrə prorektoru işləmişdir. M.Cəbrayılov 1997-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. Professor M.Cəbrayılov 1996-cı ildən bu günədək ADPU-nun tədris işləri üzrə prorektorudur.

Professor səkkiz tədris vəsaiti, bir monoqrafiya və doxsandan artıq məqalə, tezisin müəllifidir. Onun elmi rəhbərliyi altında üç nəfər tələbəsi namizədlik dissertasiyası müdafiə etmişdir.

Ailəlidir, beş övladı, yeddi nəvəsi vardır.

## SEYİDƏLİ İFDİ OĞLU



*Əmrahov Seyidəli 1945-ci ildə Dağ* Kolanı kəndində anadan olub. Orta məktəbi qurtarıb ADU-nun coğrafiya fakultəsinə qəbul olunmuşdur. O, 1970-ci ildə həmin fakultəni bitirib, keçmiş D.Bünyadzadə adına AXTİ-nin iqtisadi coğrafiya kafedrasında əmək fəaliyyətinə başlamışdır. S.Əmrahov 1987-ci ildə **"Azərbaycan Respublikasının Qərb rayonlarında təbii sərvətlərdən səmərəli istifadə və ətraf mühitin müdafiəsi"** adlı dissertasiyasını müdafiə edib, coğrafiya elmləri namizədi adına layiq görülmüşdür. S.Əmrahov 1988-ci ildən Azərbaycan İqtisad Universitetində "İqtisadi Coğrafiya və Təbiətdən istifadənin iqtisadiyyatı" kafedrasının dosentidir. Dosent S.Əmrahov indiyə kimi dörd dərslik, iki monoqrafiya, yüzdən artıq məqalə və tezisin müəllifidir. Alim doktorluq dissertasiyasını başa çatdırmışdır...

## SEYİDƏLİ SEYDİ OĞLU



Haxıyev Seyidəli 1946-cı ildə Dağ Kolanı kəndində doğulmuşdur. O, kənd yeddillik məktəbini bitirmişdir. Sonra Nərimankənd kənd orta məktəbini qızıl medalla başa vurmuşdur. BDU-nun (S.M.Kirov adına ADU) mexanika-riyaziyyat fakultəsinə daxil olan Seyidəli həmin fakultəni fərqlənmə diplomu ilə bitirdiyi üçün universitetin aspiranturasında saxlanılır. O, 1973-cü ildə **"Optimal idarəetmə nəzəriyyəsinin bəzi məsələləri"** mövzusunda yazdığı dissertasiyanı müvəffəqiyyətlə müdafiə edib fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi adı alır. Bundan sonra o, universitetdə əvvəl müəllim, sonra baş müəllim, dosent və s. vəzifələrdə işləmişdir. İstedadlı alim 1985-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. Uzun illər universitetdə kafedra müdiri işləmiş, neçə-neçə aspirantlara elmi rəhbərlik etmişdir.

Həmyerlimiz, görkəmli alim 1995-ci ildən İstanbul Texniki Unversitetində çalışırdı. Orada bir çox gənc alimlərin yetişməsində xüsusi rolu olmuşdur. Həmin universitetdə işlədiyi illərdə müxtəlif elmi konfranslardakı məruzələri həmkarları tərəfindən bəyənilmiş və müxtəlif mükafatlara layiq görülmüşdür. Professorun elmi əsərləri keçmiş Sovetlər Birliyi və eləcə də dünyanın bir çox ölkələrində işıq üzü görmüşdür. S.Haxıyev onlarla kitab, dərslik, proqram və yüzdən artıq məqalənin, tezisin müəllifidir.

Görkəmli alim, bacarıqlı pedaqoq, xeirxah və sadə insan Seyidəli Haxıyev ömrünün kamil çağında – 58 yaşında dünyasını dəyişdi.

## FEYRUZ MİSİR OĞLU

Həsənov Feyruz 1946-cı il aprel ayının 10-da Şamaxı rayonunun Dağ Kolanı kəndində anadan olmuşdur. O, orta məktəbi bitirəndən sonra S.M.Kirov adına ADU-nun (indiki BDU) mexanika-riyaziyyat fakultəsinə daxil olur. F.Həsənov unisersitetin V kursunda oxuyarkən diplom işi hazırlamaq üçün Moskva Dövlət Universitetinə



göndərilir. O, görkəmli professor A.Q.Sveşnikovun rəhbərliyi altında diplom işini hazırlayıb uğurla müdafiə edir.

F.Həsənov universiteti bitirib hərbi xidmətə yollanır. Ordudan təxris olunduqdan sonra Azərbaycan Kibernetika İnstitutunun aspirantı kimi MDU-ya göndərilir. Respublika üçün yeni elmi istiqamət olan **"Şəffaf dövrü strukturlarda lokal mənbəyin difraksiya məsələsinin ədədi həllinə inteqral tənliklər üsulunun tətbiqi"** mövzusunda yazdığı dissertasiya mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir. Feyruz Həsənov tezliklə həmin əsərini müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi adı alır.

O, otuza qədər elmi, metodik məqalə və bir neçə tövsiyənin müəllifidir. Feyruz Həsənov hal-hazırda BDU-nun fizika-riyaziyyat fakultəsinin riyaziyyat kafedrasının dosentidir.

## ŞAHBAZ GƏNCALI OĞLU



Baimov Şahbaz 1946-cı ildə Şamaxı rayonunun Cəyirli kəndində doğulmuşdur. O, 1964-cü ildə Nərimankənd kənd orta məktəbini qızıl medalla bitirib S.M.Kirov adına ADU-nun (indiki BDU) mexanika-riyaziyyat fakultəsinə daxil olmuşdur. O, həmin fakultəni fərqlənmə diplomu ilə bitirib, Azərbaycan Respublikası Mexanika-Riyaziyyat İnstitutunun aspiranturasında oxumuşdur.

Şahbaz Baimov 1973-cü ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. O, əmək fəaliyyətinə 1974-cü ildə BDU-dan başlamışdır. Bir il müəllim işlədikdən sonra o, universitetin riyaziyyat və kibernetika fakultəsinə dekan müavini vəzifəsinə təyin edilmişdir. 1990-cı ilə kimi həmin vəzifədə işləmişdir. Şahbaz Baimov 1990-cı ildən 1994-cü ilə kimi həmin kafedranın müdiri vəzifəsində çalışmışdır.

İstedadlı alim qırxdan çox elmi əsərin, o cümlədən dörd metodiki vəsaitin müəllifidir. Əsərləri keçmiş SSRİ-nin bir çox respublikalarında çap olunmuşdur. Onun elmi rəhbərliyi altında beş nəfər elmlər namizədi yetişmişdir.

Şahbaz Baimov hal-hazırda BDU-nun tətbiqi riyaziyyat və kibernetika fakultəsinin dosentidir. O, doktorluq dissertasiyasını başa çatdırmışdır.

## ƏLİŞAH ƏLİRZA OĞLU



Qərayev Əlişah 1947-ci ildə Bəklə kəndində anadan olmuşdur. Bəklə kənd ibtidai və Nərimankənd orta məktəbini bitirmişdir. O, 1964-cü ildə ADPU-nun (V.İ.Lenin adlı APİ) fizika fakültəsinə daxil olmuş, 1969-cu ildə həmin fakültəni müvəffəqiyyətlə başa vurmuşdur. Ə.Qərayev əmək fəaliyyətinə Nərimankənd kənd orta məktəbində başlamış və 1975-ci ildə isə Bakı şəhəri Biləcəri 5 saylı dəmir yolu məktəbində dərs hissə müdiri kimi pedaqoji fəaliyyətini davam etdirmişdir. 1981-ci ildə AETPEİ-nin aspiranturasına qəbul olmuşdur. O, 1988-ci ildə **"Fizikanın tədrisində şagirdlərin müstəqil işlərinin kompleksi təşkili metodikası"** adlı namizədlik dissertasiyasın müdafiə etmişdir. (Leninqrad şəhəri) Həmin vaxtdan bu günə kimi Əlişah müəllim həmin institutda elmi-pedaqoji fəaliyyətini davam etdirir. O, **"Orta məktəbdə fizikadakı məsələ həllinin öyrədilməsi metodikası"** adlı doktorluq dissertasiyasını başa vurmuş və müzakirə üçün elmi sovetə təqdim etmişdir. Ə.Qərayev indiyə kimi otuzdan artıq elmi əsərin müəllifidir.

## SARA GÖYCƏ QIZI

Qasımova Sara 1947-ci il avqust ayının 25-də Şamaxı rayonunun Nərimankənd kəndində doğulmuşdur. O, 1967-ci ildə orta məktəbi bitirib, S.M.Kirov adına ADU-nu (indiki BDU) mexanika-



riyaziyyat fakültəsinə daxil olmuş və 1972-ci ildə həmin fakültəni bitirmişdir. O 1991-ci ildə **"İnteqral və differensial tənliklər üçün momentlər və kollokasiya, üsullarının yığılması haqqında"** adlı dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi adı almışdır. S.Qasımova 1992-ci ildən 1997-ci ilə kimi AMEA-nın Kibernetika İnstitutunda baş laborant və mühəndis - riyaziyyatçı - proqramist vəzifələrində çalışmışdır. O 1997-ci ilin mart ayında Azərbaycan Politexnik İnstitutunu "Tətbiqi və hesablama riyaziyyatı" kafedrasında əvvəl baş laborant, sonra assistent, baş müəllim və nəhayət, dosent vəzifəsini tutmuşdur. Hal-hazırda Azərbaycan Texniki Universitetinin Riyaziyyat kafedrasında dosent vəzifəsində çalışır. S.Qasımova indiyə kimi otuzdan artıq elmi əsərin müəllifidir. Bir sıra respublika və beynəlxalq konfransların iştirakçısı olan alimin elmi məqalələri müxtəlif ölkələrin mötəbər elmi jurnallarında çap edilmişdir. Ailəlidir, iki oğlu var.

## ƏLSAHİB ABI OĞLU

Abdiyev Əlsahib 1948-ci ildə Şamaxı rayonunun Nərimankənd kəndində anadan olmuşdur. O, 1965-ci ildə orta məktəbi gümüş medalla bitirmişdir. O, orta məktəbdə daha çox riyaziyyatı sevdiyi üçün sənədlərini də universitetin riyaziyyat fakultəsinə verir. Və ADU-nun mexanika-riyaziyyat fakultəsinə daxil olur. Universiteti qurtaranda fakultə elmi şurasının qərarı ilə o, Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitutunun aspiranturasına daxil olur. Aspiranturanı müvəffəqiyyətlə bitirəndən sonra o, həmin institutda əmək fəaliyyətinə başlayır.

Əlsahib Abdiyev 1983-cü ildə **"Yüksək tərtibli operatorlu diferensial ifadələrin və ikinci tərtib xüsusi törəməli diferensial operatorların bəzi spektral xassələrinin tədqiqi"** mövzusunda yazdığı dissertasiyasını müdafiə edib, fizika-riyaziyyat elmləri namizədi adı alır.

O, əlliyə yaxın elmi əsərin müəllifidir. Dosent Əlsahib Abdiyev 1992-ci ildən Azərbaycan Texniki Universitetində çalışır.

## CƏMALƏDDİN CAMO OĞLU



Zərbəliyev Cəmaləddin 1948-ci ildə Mərəzə rayonunun Ərəbşahverdi kəndində anadan olmuşdur. Kənd 8 illik məktəbi qurtarandan sonra Bakı şəhər 31 saylı məktəbdə orta təhsilini başa vurmuşdur. Elə həmin ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Uçot-iqtisad" fakultəsinə qəbul olunmuşdur. 1970-ci ildə institutu bitirib, "İqtisadi – təhlil" kafedrasında laborant saxlanılır. Bir il sonra isə hərbi xidmətə çağrılır.

C.Zərbəliyev hərbi xidməti başa vurduqdan sonra doğma institutda - həmin kafedrada müəllim kimi əmək fəaliyyətinə başlayır.

O, 1985-ci ildə **"Müttəfiq respublikanın əmtəə tədavülü rentabelliyinin yüksəldilməsi problemləri"** adlı namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir.

İqtisadi-təhlil kafedrasının dosenti C.Zərbəliyev indiyə kimi bir proqram, üç metodik göstərici, otuza yaxın elmi məqalə və tezisin müəllifidir. Ailəlidir, dörd övladı vardır.

## RAMİZ MİRAĞA OĞLU

Əhlimanov Ramiz 1949-cu ildə Mərəzə rayonunun Cəmcəmli kəndində doğulmuşdur. 1955-ci ildə Cəmcəmli kənd səkizillik məktəbinin birinci sinfinə getmişdir. Ailələri Şamaxı şəhərinə köçdüyünə görə o, üçüncü sinifdən Şamaxı şəhərindəki 1 saylı orta məktəbdə oxumuşdur. 1966-cı ildə orta məktəbi bitirən Ramiz BDU-nun (keçmiş S.M.Kirov adına ADU) geoloci-coğrafiya fakultəsinə daxil olmuşdur. 1971-ci ildə həmin fakultəni fərqlənmə diplomu ilə bitirən Ramiz fakultə Elmi Şurasının qərarı ilə Azərbaycan EA Coğrafiya İnsititutunda "Kartoqrafiya" ixtisası üzrə aspiranturaya qəbul olunur.



Və orada da əmək fəaliyyətinə başlayır. R.Əhlimanov 1980-ci ildə **"Landşaftın kartoqrafik-riyazi metodla tədqiqi (Azərbaycanın ərazisi üzrə)"** mövzusunda yazdığı disertasiyanı müdafiə edib, coğrafiya elmləri namizədi alimlik dərəcəsi adı alır.

R.Əhlimanov 1991-ci ildən bu günə kimi BDU-nin coğrafiya fakultəsinin dekan müavinidir. O, həm də fakultə Elmi Şurası və tədris-metodik şurasının üzvüdür. Dosent R.Əhlimanov doktorluq dissertasiyasını müdafiə şurasına təqdim etmişdir. O, indiyə qədər altmışa qədər metodik tövsiyə, elmi məqalə və tezisin müəllifidir.

Ailəlidir, iki oğlu, bir qızı vardır.

**Ramizin ürəyindən keçənlərdən:** *"Doğma kəndim Cəmcəmli hər gün yadıma düşür. Hərdən qayıdıb uşaq olmaq, kəndimizin tozlu-torpaqlı yolları (küçələri) ilə qaçmaq, oynamaq istəyirəm"...*

## HƏMZƏAĞA DAVUD OĞLU

Orucov Həmzəağa 1949-cu il fevral ayının 1-də Qobustan rayonunun Dərəkənd kəndində anadan olmuşdur. Həmin il ailələri Nərimankənd kəndinə köçür. Həmzəağa 1967-ci ildə Nərimankənd kənd orta məktəbini bitirib, BDU-nun (keçmiş S.M.Kirov adına ADU) mexanika-riyaziyyat fakultəsinə daxil olmuşdur. O, 1972-ci ildə həmin fakultəni bitirib Azərbaycan MEA Riyaziyyat və Mexanika İnstitutunun əyani aspiranturasına "Funksional analiz və funksiyalar nəzəriyyəsi" ixtisası üzrə daxil olmuşdur. Aspiranturanı başa vurub, həmin institutda elmi işçi vəzifəsində çalışır. O, 1976-cı ildə **"Yüksək tərtib operator-diferensial ifadələrin öz-özünə qoşma genişlənmələrinin tədqiqi"** mövzusunda yazdığı namizədlik dissertasiyasını müdafiə edir.

H.Orucov 1979-cu ildə Riyaziyyat və Mexanika İnstitutunda baş elmi işçi, 1980-ci ildə ADU-nun (indiki BDU) "Tətbiqi riyaziyyat" kafedrasına baş müəllim, 1986-cı ildə isə dosent vəzifəsinə seçilmişdir. O, 1995-ci ildə **"Operator-diferensial tənliklər üçün**



**sərhəd məsələləri"** mövzusunda yazdığı dişertasiyanı müdafiə edib fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi adı almışdır. H.Orucov həmin ildən "Tətbiqi-riyaziyat" kafedrasında professor və ÇAĞ öyrətim işləmələri şirkətinin "Qafqaz" Universitetində Mühəndislik fakultəsinin dekanı işləyir.

H.Orucovun elmi əsərləri "ДАН России", "Успехи математических наук", "ДАН Украины", "Украинский математический журнал", "Известия АН Аз.ССР", "ДАН Аз. ССР" və s. kimi nüfuzlu curnallarda çap edilmişdir. O, dəfələrlə beynəlxalq və ümuittifaq konfranslarda **(Novqorod-1976, Novosibirsk-1980, Çernovtsi-1989, Lvov-1992, Moskva-1993, Kiyev-1992, Hamburq-1995, Şiraz-1996, Təbriz-1997, Bakı-1989, Kiyev-2001)** elmi məruzələrlə çıxış etmişdir. Professor operator əmsallı dıferensial tənliklər sahəsində tanınmış mütəxəssisdir. Onun əsərlərində gəldiyi elmi nəticələrə bir çox namizədlik və doktorluq dissertasiyalarında istinad edilmiş, V.İ.Qorbaçuk və M.L.Qorbaçukun "Граничные задачи для диференсиално-операторных уравнений" (Киев "Найкова думка", 1984) monoqrafiyasında yüksək qiymət verilmişdir. Həmin kitab Hollandiyada (1991) ingilis diliinə tərcümə olunmuşdur.

H.Orucov 35-dən çox (xaricdə və respublikada) elmi məqalənin və universitet tələbələri üçün yazılmış iki dərs vəsaitinin müəllifidir.

## ƏLABBAS SEYDİ OĞLU

Haxıyev Əlabbas 1950-ci ildə Şamaxı rayonunun Dağ Kolanı kəndində anadan olub. O, orta məktəbi bitirəndən sonra indiki BDU-nun tətbiqi riyaziyyat fakultəsinə daxil olmuşdur. Universiteti bitirib Azərbaycan EA Kibernetika İnsitutunda əmək fəaliyyətinə başlayır. Ə.Naxıyev 1978-ci ildə Azərbaycan EA Riyaziyyat İnstitutunun qiyabi aspiranturasına daxil olur. O, elə həmin ildə müsabiqə yolu ilə Azərbaycan Politexnik İnstitutuna müəllim seçilir.

Əlabbas Haxıyev 1983-cü ildə Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitutunun ixtisasılaşdırılmış elmi şurasında **"Tempera-**



**turun və xarici qüvvələrin təsiri altında çatlı çoxqat mühitlərin dağılma mexanikasının bəzi məsələləri"** mövzusunda yazdığı namizədlik dissertasiyanı müvəffəqiyyətlə müdafiə edir. Tez bir zamanda Moskvadan gələn xoş xəbər - fizika-riyaziyyat elmləri namizədi adının təsdiqi təkcə Əlabbası deyil, bütün qohum, dost və *tanışlarının sevincinə səbəb olur...*

Fizika-riyaziyyat elmləri namizədi, dosent Ə.Haxıyev indiyə kimi bir ədəd dərs vaəsaiti (**"Diskret riyaziyyatın əsasları"**), beş ədəd metodik tövsiyə, otuzdan artıq elmi məqalə və tezisin müəllifidir. 1986-cı ildən Azərbaycan Texniki Universitetinin "Tətbiqi riyaziyyat" kafedrasının dosenti Ə.Haxıyev artıq doktorluq dissertasiyasını tamamlamışdır.

## MƏZAHİR ƏMİRCAN OĞLU

Alıcanov Məzahir 1950-ci il iyul ayının 6-da Şamaxı rayonunun Çalov kəndində doğulmuşdur. O, Nərimankənd kənd orta məktəbini əla qimətlərlə bitirəndən sonra, ADU-nun fizika fakultəsinə daxil olmuşdur. O, universiteti fərqlənmə diplomu ilə başa vurandan sonra Azərbaycan Respublikası EA Fizika İnstitutunun aspiranturasına daxil olur və 1978-ci ildə namizədlik dissertasiyasını uğurla müdafiə edir.

M.Alıcanov bir neçə kitab, 80-dən çox elmi məqalənin müəllifidir. Alimin məqalələrinin bir çoxu **ABŞ, İngiltərə, Fransa, Polşa, Türkiyə** və s. ölkələrdə çap olunmuşdur. Eləcə də, alim bir çox mötəbər məclislərdə, simpoziumlarda maraqlı məruzələrlə çıxış etmişdir. O, 1990-cı ildə yuxusuz gecələrinin bəhrəsi olan doktorluq dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi adı almışdır. Alimin elmi rəhbərliyi altında 3 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir.

M.Alıcanov hazırda Azərbaycan EA Fizika İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır.

# HƏMDULLA İSRAFİL OĞLU



Aslanov Həmdulla 1950-ci il fevral ayının 16-da Cəyirli kəndində anadan olmuşdur. Cəyirli kənd 8 illik və Nərimankənd kənd orta məktəbini əla qiymətlə başa vuran H.Aslanov 1967-ci ildə BDU-nun (keçmiş S.M.Kirov adına ADU-nun) mexanika-riyaziyyat fakültəsinə daxil olur, 1972-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirir. O, təyinatla Şamaxı rayonuna göndərilir. Əmək fəaliyyətinə oxuduğu doğma Nərimankənd kənd orta məktəbində başlayır. İki ay işlədikdən sonra Azərbaycan SSR EA Riyaziyyat və Mexanika İnstitutunun aspiranturasına qəbul olunur. O, akademik M.Qasımovun elmi rəhbərliyi altında yazdığı **"Bəzi özü-özünə qoşma olmayan diferensial operatorların məxsus ədədlərin paylanması"** adlı namizədlik dissertasını 1976-cı ildə müvəffəqiyyətlə müdafiə etmişdir. H.Aslanovun bu dissertasiyası barədə bir çox görkəmli riyaziyyatçılar-professor **F.Liee (Avstriya), A.Kostyiçepko, B.Levitan (Moskva), M.Qorbaçux (Kiyev)** və b. dəyərli fikirlər söyləmişlər. Gənc alim 1975-78-ci illərdə Riyaziyyat və Mexanika İnstitutunda elmi işçi, 1978-88-ci illərdə Stepanakert Pedaqoji İnstitutunda baş müəllim, dosent və kafedra müdiri vəzifələrində çalışmışdır.

O, 1988-ci ildən sonra bir müddət APİ-nin "Ali riyaziyyat" kafedrasında çalışmışdır.

Həmdulla Aslanov 2000-ci ildə doktorluq dissertasiyasını müdafiə edib, fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi adı almışdır. Aslanov bir neçə dərslik, altmışdan artıq elmi və elmi-metodiki məqalənin müəllifidir. Alimin məqalələrinin bir çoxu ABŞ-da çap olunmuşdur. O, 1994-95-ci illərdə Təbriz Universitetinə dəvət olunmuş və orada mühazirələr oxumuşdur.

O, 1998-ci ildə Azərbaycan MEA və ADU nəzdində elmlər doktoru dərəcəsi verən Elmi Şuranın üzvüdür. Alim beş doktorluq, on namizədlik dissertasiyasının rəsmi oppopenti olmuşdur.

Professor hal-hazırda Azərbaycan Texniki Universitetinin ali riyaziyyat kafedrası və Bakı Qızlar Seminariyasında çalışır.

Ailəlidir, üç övladı var.

## ELMAĞA AĞAQASIM OĞLU



Qasımov Elmağa 1951-ci ilin dekabrın 8-də Yekəxana kənd səkizillik və Nərimankənd kənd orta məktəbini bitirib. BDU-nun (keçmiş S.M.Kirov adına ADU) fizika-riyaziyyat fakültəsinə daxil olur. O, 1973-cü ildə unisertiteti başa vurub Azərbaycan EA-nın Riyaziyyat İnstitutunda əmək fəaliyyətinə başlayır. İki il sonra – 1975-ci ildə BDU-nun əyani aspiranturasına qəbul olunur. 1984-cü ildə M.V.Lomonosov adına MDU-da üstündə illərlə çalışdığı namizədlik dissertasiyasının müvəffəqiyyətlə müdafiə edib fizika-riyaziyyat elmləri namizədi alimlik adı almışdır.

İndiyə qədər alimin əsərləri təkcə Azərbaycanda deyil, bir çox xarici ölkələrdə də çap olunmuşdur. E.Qasımov hazırda BDU-da mexanika-riyaziyyat fakültəsini riyaziyyat və onun tədrisi metodikası kafedrasının dosentidir.

## QİSMƏT YUNİS OĞLU



Xanbabayev Qismət 1953-cü ildə Mərəzə rayonunun Cəmcəmli kəndində anadan olub. 1970-ci ildə Nərimankənd kənd orta məktəbini bitirmiş və ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) coğrafiya fakultəsinə daxil olmuşdur. O, coğrafiya fakultəsini bitirib Azərbaycan MEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun aspiranturasına daxil olur. Müxtəlif tərkibli üzvi birləşmələrin (xusu-silə, torf və yanar şistlərin) torpağın bioloji xüsusiyyətlərinə və kənd təsərrüfatı bitkilərinin (pambığın) məhsuldarlığına təsirinin öyrənilməsinə həsr etdiyi dissertasiyasını 1982-ci ildə müdafiə edib, kənd təsərrüfatı elmləri namizədi alimlik adı almışdır.

O, 1992-ci ildən respublika Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində (əvvəllər Dövlət Torpaq Komitəsi adlanırdı) işləyir. Q.Xanbabayev indiyə kimi onlarca elmi, elmi-publisistik və eləcə də ədəbi yazıların müəllifidir.

## BALƏMİ QASIM OĞLU



İsmayılov Baləmi 1953-ü ildə Şamaxı rayonunun Dağ Kolanı kəndində anadan olub. O, Poladlı kənd səkkizillik və Nərimankənd kənd orta məktəbini bitirmişdir. Baləmi İsmayılov 1970-ci ildə S.M.Kirov adına ADU-nun mexanika-riyaziyyat fakultəsinə daxil olur. O, universiteti qurtarandan sonra Sumqayıt şəhərindəki Neft və Kimya sənayesində kompleksli avtomatlaşdırma üzrə Elmi-Tədqiqat və Layihə İnstitutunda müxtəlif vəzifələrdə çalışmışdır. Həmin institutun aspiranturasını bitirmiş və elmi işini uğurla müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsini adı almışdır. Alimin elmi əsərləri keçmiş SSRİ-nin Riqa, Moskva, Kiyev, Qroznı şəhərlərində nəşr olunan jurnallarda çap edilmişdir.

Baləmi İsmayılov həm də M.Əzizbəyov adına Neft və Kimya İnstitutunda pedaqoji fəaliyyətini davam etdirir.

## ƏLİKRAM NURBALA OĞLU

Əliyev Əlikram 1954-cü ildə Şamaxı rayonunun Çalov kəndində doğulmuşdur. Orta təhsilini başa vurduqdan sonra o, M.V.Lomonosov adına MDU-nun fizika fakultəsinə daxil olmuşdur. Ali təhsilini bitirdikdən sonra Ə.Əliyev 1980-ci ildə elə həmin universitetin aspiranturasına qəbul olunur. 1983-cü ildə o, nəzəri fizika bölməsi üzrə yazdığı namizədlik dissertasiyasını uğurla müdafiə edir.

Əlikram Əliyev M.V.Lomonosov adına MDU-da doktorluq dissertasiyasını tamamlamış və 1991-ci ildə müdafiə etmiş, fizika-riyaziyyat elmləri doktoru adına layiq görülmüşdür. Görkəmli alim ondan artıq kitab və altmışdan çox elmi məqalənin müəllifidir.

Alimin məqalələri təkcə respublikamızda deyil, həm də dünyanın bir çox ölkələrində çap olunmuşdur. Alimin altmışdan artıq elmi əsəri vardır. Əlikram Əliyev 1993-cü ildən Türkiyə EA-da professor vəzifəsində çalışır.

## TƏRXAN HÜMUSİ OĞLU



Cəbrayılov Tərxan 1954-cü ilin yanvar ayının 25-də Çalov kəndində anadan olmuşdur. O, rayonun Çalov kənd səkizillik və Nərimankənd kənd orta məktəbini bitirmişdir. O, 1970-ci ildə ADBU-nun (keçmiş V.İ.Lenin adına APİ) fizika fakültəsinin fərqlənmə diplomu ilə bitirmişdir. T.Cəbrayılov əmək fəaliyyətinə Şamaxı rayonunun Ərəbşalbaş kənd orta məktəbində başlamışdır. İki il həmin məktəbdə çalışdıqdan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun aspiranturasına daxil olmuşdur. O, yuxusuz gecələrinin, gərgin əməyinin nəticəsi olan **"Yarımkeçiricilər fizikası" ixtisası üzrə "Sİ8 MIV X6VI" yarımkeçiricilərində elektron və fonon prosesləri"** *mövzusunda yazdığı namizədlik dissertasiyasını* 1986-cı ildə müdafiə etmişdir. Fizika-riyaziyyat elmləri namizədi, dosent T.Cəbrayılov 1984-cü ildən hal-hazıra kimi Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Fizika" kafedrasında çalışır. Alim iki kitab, otuza yaxın elmi məqalə və tezisin müəllifidir.

## RAFİQ BALAQARDAŞ OĞLU

Alıyev Rafiq 1955-ci ildə Şamaxı rayonunun Dağ Kolanı kəndində anadan olmuşdur. O, 1972-ci ildə Poladlı kənd otra məktəbini bitirmişdir.

O, 1973-cü ildə H.Zərdabi adına Gəncə Pedoqoji İnstitutunun riyaziyyat fakultəsinə daxil olmuşdur. İnstitutu fərqlənmə diplomu ilə bitirimiş, əvvəl Şamaxı rayonunda, sonra isə Bakı dəmiryol texnikumunda müəllim işləmişdir. Elmə olan həvəsi Rafiqi 1991-ci ildən N.Tusi adına ADPU-nun riyaziyyat və onun ibtidai kursunun tədrisi

metodikası kafedrasına gətirmiş, oranın dissertantı olmuşdur... Rafiq Alıyev ondan artıq elmi məqalə və tezisin müəllifidir. O, hal-hazırda həmin kafedrada və Beynəlxalq Universitetdə müəllim işləyir.

## TAHİR İSRAFİL OĞLU



Aslanov Tahir 1956-cı il dekabr ayının 10-da Şamaxı rayonunun Cəyirli kəndində anadan olmuşdur. O, Cəyirli kənd orta məktəbini bitirəndən sonra, V.İ.Lenin adına APİ-nin (indiki ADPU) filologiya fakultəsinə daxil olur. İnstitutu fərqlənmə diplomu ilə bitirən Tahir doğma kənd məktəbində pedoqoji fəaliyyətə başlayır. Orta məktəbdə işlədiyi müddətdə o, həm elmi, həm də bədii yaradıcılıqla məşğul olur. Odur ki, Tahir Aslanov V.İ.Lenin adına APİ-in aspiranturasına daxil olur. O, 1992-ci ildə **"Azərbaycan şerlərində M.Ə.Sabir satira ənənələri (1906-1920-ci illər)"** adlı namizədlik dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alır.

Tahir Aslanov ona qədər elmi məqalənin müəllifidir. T.Aslanovun bədii əsərləri müxtəlif mətbuat səhifələrində işıq üzü görmüşdür.

## ƏŞRƏF DAVUD OĞLU

Orucov Əşrəf 20 fevral 1956-cı ildə Qobustan rayonunun Nərimankənd kəndində müəllim ailəsində anadan olmuşdur. 1972-ci ildə Nərimankənd kənd orta məktəbini bitirmişdir. O, həmin ildə Azərbaycan Dövlət Universitetinin Mexanika-Riyaziyyat fakultəsinə daxil olmuş, 1977-ci ildə universiteti bitirib Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutuna təyinat almışdır. Bir il orada çalışdıqdan sonra ADU-nun Mexanika – Riyaziyyat fakultəsinin əyani aspiranturasına "Diferensial tənliklər" ixtisası üzrə qəbul olmuşdur. 1978-1981-ci illərdə aspiranturada oxumuş, sonra göndərişlə Azərbaycan Politexnik İnstitutunun Riyaziyyat kafedrasında assistent olaraq işə başlamışdır. 1984-cü ilin iyun ayında namizədlik dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmləri namizəd alimlik



dərəcəsi adı almışdır. 1991-ci ildən 1999-cu ilədək riyaziyyat kafedrasında dosent vəzifəsində çalışmışdır.

1999-cu ildən Türkiyə Respublikasının Sivas şəhərindəki Cumhuriyyət Universitetində dosent vəzifəsində çalışır.

Ə.D.Orucovun məqalələri vaxtilə "SSRİ Elmlər Akademiyasının Məruzələri", "Az. SSR Elmlər Akademiyasının Məruzələri", BDU və Az. SSR Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunun "Əsərlərin"də çap olunmuşdur. O, dəfələrlə beynəlxalq və ümumittifaq konfranslarda **(Minsk-1982, Təbriz-1997, Kiyev-2001, Bakı-1981, 1982, 1984, 1987, 1990, 1999, 2002, Türkiyə-Mersin-2002)** maraqlı elmi məruzələrlə çıxış etmişdir. Ə.Orucov 15-dən çox elmi əsərin və iki dərs vəsaitinin müəllifidir.

## VƏZİRXAN ALLAHVERDİ OĞLU (1965-1994)



Zərbəliyev Vəzirxan 1956-cı ildə Şamaxı rayonunun Nərimankənd kəndində dünyaya göz açmışdır. Nərimankənd kənd orta məktəbi bitirdikdən sonra V.İ.Lenin adına APİ-nin (indiki ADPU) filologiya fakultəsinə daxil olur. O, 1979-cu ildə inistitutu fərqlənmə diplomu ilə bitirib, Şamaxı rayonu Dərəkənd kənd məktəbinə Azərbaycan dili və ədəbiyyat müəllimi təyin olunur.

Vəzirxan Zərbəliyev 1982-ci ildə N.Tusi adına ADPU-nun əyani aspiranturasına daxil olur. O, **"Azərbaycan bolşevik mətbuatı xalq maarifinin demokratikləşməsi uğrunda mübarizədə (1905-1920-ci illər)"** adlı dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib, pedaqoji elmlər namizədi alimlik dərəcəsi adı alır. Bundan sonra o, institutun pedoqogika kafedrasına müəllim təyin olunur.

V.Zərbəliyev onlarla elmi məqalənin müəllifi idi. Sadə insan, qayğıkeş ailə başçısı, bacarıqlı alim Vəzirxan Zərbəliyev ömrünün və yaradıcılığının çiçəkləndiyi bir dövrdə – 1994-cü ildə 38 yaşında vəfat etmişdir...

## MEHMAN BULUD OĞLU



Rəsulov Mehman 1956-cı ildə Şamaxı (Qobustan) rayonunun Nərimankənd kəndində anadan olub, 1974-cü ildə məktəblilərin respublika riyaziyyat olimpiadasında I yeri tutur. Orta məktəbi bitirib BDU-nun (keçmiş S.M.Kirov adına ADU) mexanika-riyaziyyat fakultəsinə daxil olmuşdur. Həmin fakültəni bitib, Azərbaycan EA Riyaziyyat və Mexanika institutunda Xüsusi Konstruktor bürosunda əmək fəaliyyətinə başlamış, sonra müxtəlif vəzifələrdə çalışmışdır. O, 1982-1986-cı ildə həmin institutun əyani aspirantı olmuşdur. 1990-cı ildə illərlə üzərində çalışdığı dissertasiyasını müdafiə edib fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi adı almışdır.

M.Rəsulov 1992-ci ildən Mingəçevir Politexnik İnstitutunun Riyaziyyat və İnformatika kafedrasında baş müəllim vəzifəsində çalışır.

İki dərs vəsiti, iyirmiyə yaxın elmi məqalənin müəllifi olan Mehman müəllim həm də gözəl şair və publisisdir. Şerləri və publisist yazıları vaxtaşırı dövrü mətbuatda çap olunur. Alimin tarixlər şahidi olan Diri Baba türbəsi haqqında silsilə yazıları daha maraqlıdır, tutumludur... Ailəlidir, bir övladı var.

## OQTAY YUSİF OĞLU

Rəfiyev Oqtay 1956-cı ildə Şamaxı rayonunun Cəyirli kəndində doğulmuşdur. O, 1971-ci ildə orta məktəbi bitirib, S.M.Kirov adına ADU-nun (indiki BDU) fizika fakultəsinə daxil olmuşdur. O, 1976-cı ildə həmin fakültəni bitirir və əmək fəaliyyətinə başlamışdır. Elmə olan marağı onu Moskvadakı İ.P.Bardin adına Qara Metallurgiya İnstitutunun metal fizikası bölməsinin aspiranturasına aparıb



çıxarmışdır. Sonra yazdığı elmi əsərini uğurla müdafiə edib, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi adı almışdır.

Oqtay Rəfiyev iyirmiyə yaxın elmi əsərin müəllifidir. Onun əsərləri həm respublikamızda, həm də Moskvada aparıcı elmi məcmuələrdə çap olunmuşdur. Oqtay Rəfiyev hal-hazırda Neft Maşınqayırma İnstitutunun metalşünaslıq şöbəsində müdir müavini vəzifəsində işləyir.

## MİRBABA QASIM OĞLU

Qasımov Mirbaba 1956-cı ildə Şamaxı rayonunun Nərimankənd kəndində anadan olub. 1973-cü ildə Nərimankənd kənd orta məktəbini bitirib BDU-nun (keçmiş S.M.Kirov adına ADU) tətbiqi riyaziyyat fakultəsinə qəbul olunmuşdur.

Universiteti bitirdikdən sonra Azərbaycan MEA Riyaziyyat İnstitutunda çalışmışdır. 1980-ci ildən Xalq Təsərrüfatı İnstitutunun riyaziyyat kafedrasında müəllim, sonra baş müəllim işləmişdir.

Riyaziyyat elmləri namizədi M.Qasımov on beşdən artıq elmi məqalə və tezisin müəllifidir. O, ömrünün cavan çağında, yaradıcılığının çiçəkləndiyi bir vaxtda – 45 yaşında vəfat etmişdir.

## MANAF CABBAR OĞLU

Manafov Manaf 1957-ci ildə Şamaxı rayonunun Cəyirli kəndində doğulmuşdur. O, 1974-cü ildə kənd orta məktəbini bitirmişdir. Orta məktəbdə oxuduğu illərdə o, həm rayon, həm də respublika olimpiadalarının da qalibi olmuşdur. Manaf Manafov 1975-ci ildə S.M.Kirov adına ADU-nun (indiki BDU) mexanika-riyaziyyat fakultəsinə daxil olur. 1980-ci ildə həmin fakultəni fərqlənmə diplomu ilə bitirir. Həmin ildən Azərbaycan EA Mexanika-riyaziyyat İnstitutunda əmək fəaliyyətinə başlayır. O, akademik M.G.Qasımovun elmi rəhbərliyi altında **"Ümumiləşmiş funksiya əmsallı bir sinif adi diferensial operatorların spektral analizi"** mövzusunda yazdığı



dissertasiyasını 1987-ci ildə müvəffəqiyyətlə müdafiə edib, fizika-riyaziyyat elmlər namizədi alimlik dərəcəsi adı almışdır.

Manaf Manafov otuzdan artıq elmi əsərin müəllifidir. Əsərləri xarici və yerli mətbuat orqanlarında dərc olunmuşdur. Alim bir sıra beynəlxalq konfranslarda maraqlı elmi məruzələrlə çıxış etmiş, 1995-ci ildə İran İslam Respublikasında keçirilən riyaziyyatçıların beynəlxalq konfransında Azərbaycanımızı uğurla təmsil etmişdir.

Alim hal-halzırda EA Riyaziyyat və Mexanika İnstitutunun baş elmi işçisi olmaqla yanaşı, həm də BDU-da öz pedaqoji fəaliyyətini davam etdirir.

## ATABƏY AĞASOLTAN OĞLU

Cahangirov Atabəy 1958-ci ildə Şamaxı rayonunun Çalov kəndində anadan olmuşdur. O, Çalov kənd səkkizillik məktəbini bitirəndən sonra Bakı şəhər 5 saylı kimya-biologiya təmayüllü məktəbdə təhsilini davam etdirmişdir. O, həmin məktəbi bitirib, ADU-nun kimya fakültəsinə qəbul olunmuşdur. A.Cahangirov 1980-ci ildə həmin fakultəni qurtarıb Elmi-Tədqiqat Əkinçilik İnstitutunun aspiranturasına daxil olmuşdur. Akademik C.Əliyevin rəhbərliyi altında **"Müxtəlif məhsuldarlıqlı buğda bitkilərində fotosintezli məhsullar və onların utilizasiyasının xüsusiyyətləri"** mövzusunda yazdığı dissertasiyanı müdafiə edib, kimya elmləri namizədi alimlik dərəcəsi adı almışdır.

Atabəy Cahangirov iyirmidən çox elmi məqalənin müəllifidir. O, artıq doktorluq dissertasiyasını tamamlamışdır.

## ZAKİR AĞASOLTAN OĞLU

Cahangirov Zakir 1961-ci ildə Şamaxı rayonunun Çalov kəndində doğulmuşdur. O, 1976-cı ildə Çalov kənd səkkizillik məktəbini bitirib. Bakı şəhər 5 saylı kimya-biologiya təmayüllü məktəbə daxil olur. Sonra o, təhsilini Moskva Dövlət Universitetində davam etdirir.

Zakir Cahangirov 1984-cü ildə həmin universitetin fizika fakultəsini bitirib, SSRİ EA Fizika İnistitutunda Təbii Ehtiyatların Kosmosdan Tədqiqi Elmi-İstehsalat birliyində əmək fəaliyyətinə başlayır. O, həm də öz elmi axtarışlarını davam etdirir. Nəticədə, 1991-ci ildə üzərində böyük səylə çalışdığı dissertasiyasını müdafiə edib, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi adı almışdır.

Zakir Cahangirov iyirmidən artıq elmi əsərin müəllifidir. Alimin məqalələri keçmiş SSRİ-nin bir çox regionlarında çap olunmuşdur. O, hal-hazırda Təbii Ehtiyatların Kosmosdan Tədqiqi Elmi-İstehsalat birliyində aparıcı elmi işçi vəzifəsində çalışır.

## ZAHİD MİRABBAS OĞLU



Qasımov Zahid Mirabbas oğlu 1968-ci il fevral ayının 27-də Moskva şəhərində anadan olmuşdur. O orta məktəb illərində riyaziyyat üzrə olimpiadalarda iştirak etmiş, dəfələrlə respublika olimpiadasının qalibi olmuşdur. Bununla yanaşı o, həm də vaxtilə İttifaq üzrə keçirilən riyaziyyat olimpiadalarında da həmişə müvəffəqiyyətlə çıxış etmişdir. O, 1985-ci ildə S.M.Kirov adına ADU-nun (indiki BDU) mexanika-riyaziyyat fakültəsinə daxil olmuş, 1986-1988-ci illərdə isə ordu sıralarında qulluq etmişdir. Zahid 1992-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmiş və universitetdə müəllim-stajor vəzifəsində saxlanılmışdır.

Z.Qasımov 1992-ci ildə **"Sinqulyar şturm-Liuvill tənliyi üçün iki spektrə görə tərs məsələnin həlli"** mövzusunda namizədlik dissertasiyasını AMEA-nın Riyaziyyat və Mexanika institutunun nəzdində olan İxtisaslaşdırılmış Şuranın iclasında uğurla müdafiə etmişdir. O 1992-1995-ci illərdə BDU-nun "Riyazi fizika tənlikləri", "Riyaziyyat və ümumi informatika" və "İnformatika" kafedrasında işləmişdir. O, 2000-ci ildə BDU-nun dosenti vəzifəsini tutmuşdur. Gənc alimin "Lebed inteqralı nəzəriyyəsində mülahizələr" adlı əsəri rus dilində dərs vəsaiti kimi çap olunmuşdur. Bundan əlavə, onun qırxdan artıq

elmi məqalələri işıq üzü görmüşdür. Alimin elmi məqalələrinin bir qismi isə Rusiya, ABŞ və digər xarici ölkələrinin məşhur elmi statuslu jurnallarında çap edilmişdir. Z.Qasımov bir çox beynəlxalq elmi konfranslarda **(Rusiyada-Moskva, Sankt-Peterburq, Novosibirski və s; Yaponiyada-Fukuoka; Fransada-Lion; Yunanıstanda-Afina; Bolqarıstanda-Sofia)** dəyərli məruzələrlə çıxış etmişdir. İstedadlı alim, ömrünün və elmi yaradıcılığının çiçəkləndiyi çağında - 37 yaşında, 2005-ci ildə dünyasını dəyişdi.

## QOBUSTAN ALİMLƏRİ HAQQINDA ÜMUMİ MƏLUMAT

| № | Soyadı adı və atasının adı | Doğulduğu yer | Elmi dər., vəzifəsi |
|---|---|---|---|
| 1 | Abdullayev Bəxtiyar Gülməmməd oğlu | Sündü kəndi | Fiz-riy.e.n. |
| 2 | Abdullayev Məhəmməd Nuru oğlu | Sündü kəndi | Fiz-riy.e.n. prof. |
| 3 | Abdllayev Nurəhməd Gülməmməd oğlu | Sündü kəndi | Fiz-riy.e.n. dos. |
| 4 | Abdullayev Fəxrəddin Gülməmməd oğlu | Sündü kəndi | Fiz-riy.e.n. dos. |
| 5 | Abdiyev Əlisahib Abı oğlu | Nərimankənd k. | Fiz-riy.e.n. |
| 6 | Adgözəlov Azadxan Səfərxan oğlu | Bəklə kəndi | Pedaqoji elmlər dok. |
| 7 | Adgözəlov Ağakərim Canəli oğlu | Nərimankənd k. | Fiz-riy.e.n.dos. |
| 8 | Allahverdiyev Abasxan Gülağa oğlu | Sündü kəndi | F.e.n. dos. |
| 9 | Alıcanov Fuad Bəhlul oğlu | Sündü kəndi | Texnika e.n. |
| 10 | Alıcanov Məzahir Əmircan oğlu | Çalov kəndi | Fiz-riy.e.n. prof. |
| 11 | Aslanov Tahir İsrafil oğlu | Cəyirli kəndi | F.e.n. |
| 12 | Aslanov Həmdulla İsrafil oğlu | Cəyirli kəndi | Fiz-riy., e.d., prof. |
| 13 | Babaşov Əlirza Əlheydər oğlu | Təklə kəndi | Kimya e.n. |
| 14 | Babayev Əliheydər Xanbaba oğlu | Təklə kəndi | Geolog-minrolog e.n. |
| 15 | Babayev Mayıs Sərğar oğlu | Təklə kəndi | Geolog-minrolog. e.n. |
| 16 | Bayımov Şahbaz Gəncalı oğlu | Cəyrli kəndi | Fiz-riy.e.n. dos. |
| 17 | Bəndəliyev Nurəddin Səməndar oğlu | Dağ Kolanı k. | Coğrafiya e.n. |
| 18 | Qarayev Dəmir Şahlar oğlu | Cəmcəmli kəndi | Coğrafiya e.n. |
| 20 | Qasımov Mirabbas Göycə oğlu | Nərimankənd k. | Akademik |
| 21 | Qənbərov Adgözəl Mahmud oğlu | Cəyirli kəndi | Coğrafiya e.n. |
| 22 | Qasımov Mirbala Qasım oğlu | Nərimankənd k. | Fiz-riy.e.n.. |
| 23 | Qəniyev Seyfəddin Həmzə oğlu | Dağ Kolanı k. | F.e.d., prof. |
| 24 | Qurbanov Qurban Balaqardaş oğlu | Təklə kəndi | Fiz-riy.e.n. dos. |
| 25 | Dəmirqarayev Şahvar Qara oğlu | Cəmcəmli kəndi | Coğrafiya e.n. dos. |
| 26 | Əzizov Adil Mürsəl oğlu | Təklə kəndi | Geolog-min. e.d. prof. |
| 27 | Əlizadə Vüqar Nuhbala oğlu | Çalov kəndi | F.e.n. dos. |
| 28 | Əliyev Əlikram Nuhlala oğlu | Çalov kəndi | Fiz-riy.e.d. prof. |
| 29 | Əliyev Vəli Ağası oğlu | Cəyirli kəndi | Texnika e.n. |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 30 | Əmrahov Seyidəli İfti oğlu | Poladlı kəndi | Soğrafiya e.n. dos. |
| 31 | Əsgərov Xanqardaş Adıgözəl oğlu | Təklə kəndi | Texnika e.n. |
| 33 | Əhlimanov Ramiz Mirağa oğlu | Cəmcəmli k. | Coğrafiya e.n. |
| 34 | Əsgərov Əsgər Adıgözəl oğlu | Təklə kəndi | Fizika-riyaziyyat e.n. dos. |
| 35 | Əfəndiyev Rafiq Feyruz oğlu | Sündü kəndi | Fizika-riyaziyyat e.n. dos. |
| 36 | Zərbəliyev Vəzirxan Allahverdi o. | Nərimankənd k. | Pedaqoji e.n. dos. |
| 37 | Zərbəliyev Cəmaləddin Camo o. | Ərəbşahverdi k. | İqtisad e.n. dos. |
| 38 | İbrahimov Ruslan Xəlifə oğlu | Sündü kəndi | Texnika e.n. |
| 39 | İlxasov Sabir Saqı oğlu | Damlamaca k. | İqtisad e.n. |
| 40 | İsmayılov Baləmi Qasım oğlu | Poladlı kəndi | Texnika e.n. dos. |
| 41 | Gülmalıyev Mətləb Məhərrəm o. | Mərəzə q. | Tarix elmləri namizədi. |
| 42 | Gülmalıyev Ağacan Mirzə oğlu | Damlamaca k. | Kimya e.n. dos. |
| 43 | Gülmalıyev Mirzəcan Mirzə oğlu | Damlamaca k. | Filologiya e.n. |
| 44 | Məmmədov Fəxrəddin Nəriman o. | Damlamaca k. | Tarix e.d. professor. |
| 45 | Manafov Manaf Cabbar oğlu | Cəyirli kəndi | Fizika-riyaziyyat e.n. |
| 46 | Məmmədov Ceyhun Hacıməmməd o. | Nərimankənd k. | Tibb. e.n. dos. |
| 47 | Məlikov Güləhməd Yusif oğlu | Təklə kəndi | Fizika-riyaziyyat e.n. dos. |
| 48 | Məlikov Telman Qulu oğlu | Təklə kəndi | Fizika-riyaziyyat e.n. |
| 49 | Məsimov Ağamirzə Məsim oğlu | Bəklə kəndi | İqtisad e.n. |
| 50 | Nağıyev Qəndalı Həmzalı oğlu | Cəyirli kəndi | Tex.e.d., p.Əməkdar elm xadimi. |
| 51 | Nəzərov İzayəddin Canı oğlu | Sündü kəndi | F.e.n. dos. |
| 52 | Orucov Əşrəf Davud oğlu | Nərimankənd k. | Fizika-riyaziyyat e.n. dos. |
| 53 | Orucov Həmzəağa Davud oğlu | Nərimankənd k. | Fizika-riyaziyyat e. dok.prof. |
| 54 | Rəfiyev Oqtay Yusif oğlu | Cəyirli kəndi | Fizika-riyaziyyat e.n. |
| 55 | Rəsulov Mehman Hümmət oğlu | Nərimankənd k. | Fizika-riyaziyyat e.n. dos. |
| 56 | Rüstəmov Canməmməd Nizam o. | Qurbançı kəndi | Fizika-riyaziyyat e.n. |
| 57 | Xanbabayev Qismət Yusif oğlu | Cəmcəmli k. | Kənd təsərrüfat e.n. |
| 58 | Haxıyev Əliabbas Seyidi oğlu | Dağ Kolanı k. | Fizika-riyaziyyat e.n. dos. |
| 59 | Haxıyev Seydəli Seydi oğlu | Dağ Kolanı k. | Fizika-riyaziyyat e.n.dok.prof |
| 60 | Haxıyev Sadəddin Seyid oğlu | Poladlı kəndi | Fizika-riyaziyyat e.n. |
| 61 | Həsənov Feyruz Misir oğlu | Poladlı kəndi | Fizika-riyaziyyat e.n. dos. |
| 62 | Cəbrayılov Bəyməmməd Saday o. | Qızılburun k. | Fizika-riyaziyyat e.n. |
| 63 | Cahangirov Atabəy Ağasoltan o. | Çalov kəndi | Fizika-riyaziyyat e.n. |
| 64 | Cahangirov Zakir Ağasoltan oğlu | Çalov kəndi | Fizika-riyaziyyat e.n. |
| 65 | Cəbrayılov Malik Saday oğlu | Qızılburun k. | Fizika-riyaziyyat e.d.prof. |
| 66 | Cəbrayılov Tərxan Ulusu oğlu | Çalov kəndi | Fizika-riyaziyyat e.n. dos. |
| 67 | Şərifov Xəlil Şərif oğlu | Nabur kəndi | Kimya e.n. dos. |



Rayonda keçirilən futbol çempionatı tədbiri



Şamaxı nümayəndələri Respuğlika müəllimlərinin
VII qurultayında



Yabanı baba ziyarətgahı



Qərbi piri (Sündü kəndi)



Yel piri (Poladlı kəndi)



Quyulu mağara (Şıxzərli kəndi)



Hacı Şirin baba ziyarətgahı (Ərəbqədim kəndi)



Qaranlıq mağara (Nərimankənd kəndi)



Qədim qəbristanlıq (Təklə kəndi)



Müsəlmançılığı qəbul etmiş molokanın məzarı (Cəyirli kəndi)



Aşıq Məmmədağa Babayev



Xalq artisti Alim Qasımov



**Aşıq Abbasın şagirdləri – Aşıq Məmmədağa, Aşıq Mirzə, xanəndə Tofiq və b.**



**Aşıq Əvəz Hacıyev**



Müğənni Məhəmmədəli Əliqulu oğlü



Müğənni Maşallah Bəkirov



Balabançı Alıxan Şahqulu oğlu

# IX FƏSİL



# QOBUSTANIN QARABAĞ ŞƏHİDLƏRİ

***"... Mən bütün şəhidlərin – Torpaq, Vətən yolunda həlak olanların xatirəsinin qarşısında baş əyirəm, onların valideynlərinə, bacı və qardaşlarına, qohumlarına Allahdan səbr diləyirəm".***

***Heydər Əliyev***

## BİR AĞI DE, AY NƏNƏ[1]

Dünyanın cənnət misallı bir guşəsi olan Azərbaycan ta qədim əsrlərdən günümüzə kimi yağıların gözünə ox olmuşdur. Yurdumuzu ələ keçirməyə çalışanların niyyətini ər oğullarımız gözündə qoymuş, düşmənə qarşı mübarizə aparmış, şəhid olmuş, ancaq torpağımızın bir qarışını onlara verməmişlər. Uzaq keçmişimizdən günümüzə yadigar qalan **"Şəhid daşları, "Şəhid qəbristanlıq"**ları çox mətləblərdən xəbər verir.

Neçə illərdir ki, erməni qəsbkarları Azərbaycanımızın dilbər guşəsi Qarabağ torpağını, eləcə də bir çox şəhər, qəsəbə və kəndlərimizi ələ keçirmişlər. Daha dəqiq desək, hazırda torpaqlarımızın 20 faizindən çoxu işqal altındadır. Bununla yanaşı yağı düşmən işğal etdiyi ərazidə yüzlərlə maddi-mədəniyyət abidələrimizi yer üzündən silmişlər, məhv etmişlər.

İlk dəfə torpağımızın müdafiəsinə qalxan say-seçmə oğullar arasında qədim tarixə malik olan Qobustan diyarının da ər qeyrətli igidləri olmuşdur. Həzrəti peyğəmbərimiz buyurub: "**Vətəni sevmək imandandır**". Bəli, bu qanlı-qadalı günlərdə imanı olanlar öncə silaha sarıldılar. Düşmənlə əlbəyaxa oldular. Qanlı döyüşlərdə

[1] Qobustan şəhidləri kitabını çoxdan – 1997-ci ildə hazırlamışdım. Çap etdirə bilmədim... Artıq vaxtilə görüşdüyüm insanların bir çoxu dünyasını dəyişib. Körpələr isə böyüyüb...

Qobustanın neçə-neçə cavan, "bığ yeri təzəcə tərləmiş", kiməsə deyəcəyi "sevirəm" sözü ürəyində qalan oğulları şəhid oldular! Daha doğrusu, şəhidlik zirvəsinə ucaldılar! Bu ədalətsiz, qanlı-qadalı müharibə Qobustan regionunda onlarla qapıları bağlı, anaları oğulsuz, oğulları atasız, bacıları qardaşsız qoydu... Söz bilənlər, sinədəftərlər neçə-neçə ağılar düzdülər dünyadan nakam gedənlərin adına...

***Dəvələr qatarmı ola?***
***Mənzilə çatarmı ola?***
***Ana baladan ayrı -***
***Dincəlib yatarmı ola?***

Bəli, Qobustan regionunda olan şəhidlər haqqında yazmağı qət edəndə fikirləşirdim ki, məlumatları yəqin tez toplaya bilərəm. Allahın adı ilə işə başladım. Bir neçə şəhid ailəsi ilə görüşəndən sonra məndə necə deyərlər, ürək qalmadı. Tab gətirə bilmədim şəhid anaların ağısına, ataların kədərli baxışına, gəlinlərin yanağında göz yaşının açdığı şırıma, bir də gəlimli-gedimli dünyanın hələ nə olduğunu bilməyən, dərk etməyən körpələrin üzünə baxmağa. Odur ki, şəhidlər haqqında məlumatları müxtəlif yoldaşlar (İcra aparatının işçiləri, nümayəndələri, ziyalılar) vasitəsilə əldə etməyi qərarlaşdırdım.

Şəhidlər haqqında yazanda da bəzən dərdə tab gətirməyib susur, bəzən bir neçə gün heç nə yaza bilmirdim. "Bu arada vaxtilə nənəm Ağca Gülağa qızının yaddaşından qələmə aldığım bayatı-ağılar dadıma çatırdı, fikrimə söykək olurdu". Elə bil, rəhmətlik, bayatıların çoxsunu bu günkü şəhidlərin taleyinə biçmişdir.

***Mən aşıq səngi, dağlar,***
***Dur dağlar, səngi, dağlar,***
***Dərdim qapana qoysam,***
***Gəlməz pərsəngi dağlar.***

***Su gəlib axıb, bala,***
***Çəpəri yaxıb, bala,***
***Dur bircə yanıma gəl,***
***Anan darıxıb, bala.***

Bu arada ürəyimdə deyirdim: "Allah sənə rəhmət eləsin, nənə.

Qələmim söz tutmayanda, bir ağı de, a nənə! Qoy bu müqəddəs, savab işi başa çatdırım"!

Ən nəhayət, Qobustan şəhidləri haqqında olan kitabı başa çatdıra bildim. Kitabın ərsəyə gəlməsində bizə öz köməyini əsirgəməyən bir çox xeyirxah insanlar – bütün kəndlərin icra hakimiyyəti nümayəndələri, məktəb direktorları və başqalarına dərin minnətdarlığımızı bildiririk. Əfsus ki, kitabı həmin illər çap etdirə bilmədik. Həmin vaxtdan səkkiz il ötməsinə baxmayaraq, şəhidlər haqqında yazdığım oçeriklər Qobustan regionuna həsr etdiyim fundamental əsərdə ilk dəfə işıq üzü görür...

## ABDULLAYEV ELŞƏN
## (1978-1996)

## ON SƏKKİZ YAŞIN QIŞI...

Elşən Vahid oğlu 1978-ci ildə Qobustan rayonunun Nərimankənd kəndində anadan olmuşdur. 1995-ci ildə Bakıdakı Nəsimi rayonu 240 saylı orta məktəbi bitirmişdir. Müəllimlərinin dediyinə görə, o, orta məktəbdə oxuduğu illərdə Vətən, yurd mövzulu şerləri, mahnıları oxumaqdan, dinləməkdən yorulmazdı. Yaşının az olmasına baxmayaraq, Vətən qeyrəti, təəssübü çəkmək onun canında, qanında idi. Məktəbdə yazdığı inşalarda da bütün bu hisslər özünü açıqca göstərirdi... Elşən torpağa bağlı bir gənc idi.

O, 1996-cı ildə könüllü olaraq cəbhəyə yola düşdü. Müharibənin dəhşətlərini-alov, qan, fəryad, başsız-qolsuz cəsədlər, qanına qəltan olmuş insanları öz gözləri ilə gördü... Oxuduğu kitablardakı təsvirlərin, filmlərdə gördüyü fraqmentlərin bu mənzərənin yanında çox sönük olduğunu aydınca dərk etdi... Düşmənə nifrəti artdı. Qisas almaq üçün bütün varlığını səfərbər etdi... Qanına qəltan olmuş çox soydaşının tez zamanda qanını ala bildi. Amma bir şeyə də heyfislənirdi ki, atdığı güllə və qumbaralardan ölənlər ermənilər olsa da, **alışıb-yanan Azərbaycan torpağı idi...**

**Haşiyə:** Elşənin ən böyük arzusu o idi ki, müharibəni qələbə ilə başa vursun. Evdə söz vermişdi ki, qələbə ilə dönəcək. Ondan sonra ali təhsil alacaq, gəlin yolu gözləyən anasının istəyini çin edəcəkdir. Ona elə gəlirdi ki, yəqin bu baharda müharibə qurtarar. On səkkiz

yaşlı bu gənc haradan biləydi ki, kafərlərin törətdiyi bu fitnə-fəsadlar müharibədən çox, oyuna bənzəyir... Əslində bu kimlərinsə düşünülmüş şəkildə müəyyən mənafelər üçün qurduğu oyundur... Odur ki, Elşənin arzuları gözündə qaldı. 1996-cı ilin qışında-dekabr ayının 11-də Ağdam bölgəsində qəhrəmancasına həlak oldu... Özü də şaxtalı, sazaqlı bir gündə... Elşənə qismət olmadı ki, ömrünün on səkkizinci ilinin baharını görsün...

**II Haşiyə:** Biz onun adına bağladığımız yazını hazırlayanda hələ Bakının Yasamal rayonunun II Alatava 99 saylı ünvana başsağlığına gəlib-gedənlərin, Abdullayevlər ailəsinə səbr diləyənlərin ardı-arası kəsilməmişdi. Elşənin qırxının çıxmasına hələ on gün qalırdı. Doğmalarının göz yaşları qurumamış, insan qəlbini oyum-oyum didən ağılar hələ bitməmişdi.

***Mən aşiq ağlağandı,***
***Qaraqaş ağlağandı,***
***Gedək dərd bilənlərə***
***Görək kim ağlağandı.***

***Evimdə var barama,***
***Dəymə mənim yarama,***
***Lampa götür, tez yeri,***
***Anam baxsın yarama.***

## ABDULLAYEV FƏRHAD
## (1974-1993)

## FƏRHAD ÖMRÜ

Fərhad Güloğlan oğlu 1974-cü ildə Qobustan rayonunun Sündü kəndində anadan olmuşdur. O, orta məktəbi bitirəndən sonra Bakı Maşınqayırma texnikumuna daxil olur. Ermənі işğalçılarının torpaqlarımızı ələ keçirdikləri bir vaxtda o, təhsilini yarımçıq qoyur. 1992-ci ildə Bakı Sabunçu rayon hərbi komisarlığına gəlir. Könüllü olaraq cəbhəyə getmək üçün ərizə verir. Ona məsləhət bilirlər ki, cəbhədə tibb işçisi çatışmır. Ona görə də əvvəlcə dörd aylıq tibb işçisi kursunu bitirib cəbhəyə yola düşsün... Fərhad razılaşır.



O, cəbhədə həm bir əsgər kimi vuruşur, həm də yaralı yoldaşlarının dadına, köməyinə çatır. Dostlarının dediyinə görə, Fərhadın ilk tibbi yardımından sonra neçə-neçə yaralı döyüşçü həyata qayıtmışdı. O, bir döyüşçü kimi də cəsarətli və bacarıqlı idi. Ağdamın Qaradağlı, Yeddixırmanlı ərazilərində gedən döyüşlərdə fərqləndiyi üçün komandanlığın xüsusi təşəkkürlərinə layiq görülmüşdür. Fərhad cəbhə dostları arasında öz şəfalı əlləri, cəsarəti ilə təzəcə hörmət-izzət qazanırdı ki, 1993-cü ildə Ağdam bölgəsində düşmən gülləsinə tuş oldu...

**Haşiyə:** Bəli, 19 yaşlı Fərhad ömrünün iyirminci baharı ilə görüşə bilmədi. Əcəl aman vermədi ki, yaşasın, qələbəni gözləri ilə görsün. Nə etmək olar, onun qisməti belə imiş. Tanrı hər kəsə bir ömür payı verir. Hələ indiyəcən elə bir kəs tapılmayıb ki, alın yazısını, tale qismətini dəyişə bilsin. Fərhad da eləcə! Son qisməti şəhidlik imiş Fərhadın... Alın yazısı belə yazılıbmış...

Fərhad haqqında yazılarıma nöqtə qoymaq istəyirdim ki, televiziyada yazıçı-alim Əzizə Cəfərzadənin 20 Yanvar müsibətindən bəhs edən ağrılı çıxışını göstərirdilər... Bu münasibətlə yana-yana danışan el anası təskinliyini sanki dediyi bayatılarla tapmaq istəyirdi... İnsan dərdinə həyan duran bayatılarla.

***Divara daş qoymuşam,***
***Uğrunda baş qoymuşam,***
***Gözlərimdən qan gəlir;***
***Adını yaş qoymuşam.***

***Bulandı göz yuvası,***
***Ağızdı söz yuvası,***
***Hər kim yuva dağıdır,***
***Dağılsın öz yuvası.***

Bəli, Əzizə xanımın şirin Şirvan ləhcəsi ilə söylədiyi bayatıların hamısı şəhid boyuna - şəhid oğullu anaların dərdlərinin boyuna biçilmişdi. Nümunə verdiyimiz bayatıların Fərhadın boyuna biçildiyi kimi... Allah doğmalara, el-obaya səbr versin... Təki Vətən var olsun!

## AĞAQULİYEV ANAR
## (1975-1993)

## "DƏRDİ BATMAN-BATMANAM"



Anar Qəşəm oğlu 1975-ci il fevral ayının 18-də Qobustan rayonunun **Sündü** kəndində anadan olmuşdur. O, 1992-ci ildə orta məktəbi bitirəndən sonra uzağa getməyib, elə doğma Sündü kəndində gücü çatdığı işdən yapışır... Bir müddət kənd mədəniyyət evində işləyir... Bir il sonra – 1993-cü ilin may ayında Şamaxı rayon hərbi komissarlığı tərəfindən xidmətə çağrılır. O, ilk əvvəl bir neçə ay hərbi təlim keçir. Sonra "N" saylı hərbi hissəsinin II motoatıcı dəstəsinə göndərilir. O, Ağdam bölgəsində gedən qanlı-qadalı döyüşlərdə igidlikliklə döyüşür. İlk döyüşdə onlarla erməni yaraqlısını, üç düşmən tankını məhv edir... Ağdamın Əhmədağa və Mərzili kəndləri uğrunda gedən döyüşlərdə daha çox fərqlənir... Bir neçə gün sonra həmin ərazidə təzədən döyüşlər başlayır. Anar da bu döyüşlərdə bir neçə yoldaşı ilə birlikdə həlak olur.

**Haşiyə:** Anar ailəsinin sonbeşiyi idi. Yaşasaydı, indi otuz yaşına addamışdı. Artıq bir el gözəlini də ata evinə gətirmişdi... Amma... Vətən, el, namus yolunda şəhid oldu Anar... Oğul itkisindən Qəşəm müəllimin beli büküldü... Oğul dağlı ananın gül çöhrəsi soldu, "oğul, oğul"-, deməkdən ozan oldu... Hələ Anar adına düzdüyü bayatıları oxumağı demirik.

*Mən aşiq özü bir-bir,*
*Çəkərəm közü bir-bir,*
*Anarçın ağız açıb*
*Deyərəm sözü bir-bir.*

**Ziya müəllimin dediklərindən:** Kənd camaatı yaxşı bilir ki, mən istedadı olan gənclərə xüsusi rəğbət bəsləyirəm. Anar da belə gənclərdən idi. Mədəniyyət evində çalışanda görmüşəm onun

bacarığını. Yaxşı da səsi vardı. Xalq mahnıları, bir də "Segah" muğamı şakəri idi. İnsana xüsusi ləzzət verirdi Anarın yanıqlı səsi.

Ziyanın bu fikirləri yadıma şair dostumun şerini saldı. Mənə elə gəldi ki, şair dostum Anar kimi gənclərin taleyini qabaqcadan duymuş və o ömrü misraların canına-qanına hopdurmuşdur.

***Yurduma yığılar qoşun çəkəndə,***
***İtəndə göylərim dumanda, çəndə,***
***Səsləyib elləri hücuma sən də,***
***Olmusan döyüşdə silahım mənim,***
***"Segah"ım, "Segah"ım, "Segah"ım mənim.***

Yəqin ki, yeri gələndə Anar da öz bənzərsiz "Segah"ı ilə döyüş dostlarını hücuma səsləmişdir...

**Qəşəm müəllimin dediklərindən:** "Ata üçün oğul itkisindən ağır dərd ola bilməz. Ana üçün cavan bala dağı görmək, ona tab gətirə bilmək cəhənnəm əzabı qədər çətindir. Biz arzusundaydıq ki, sonbeşiyimiz böyüyəcək, ev-eşik sahibi olacaq. İxtiyar yaşımızda bizə dayaq duracaqdır... Ən başlıcası isə son mənzilə də Anarın çiynində gedəcəyik... Qəşəm müəllim bir az başını aşağa dikdi, səsi tutuldu, onu qəhər boğdu. Haçandan-haçana dilləndi:

- Şükür olsun Allahın böyüklüyünə, özü bilən məsləhətdir... Bu dərd qiyamət gününə qədər məni yandırsa da, bir valideyin kimi fəxr edirəm ki, belə bir oğul böyütmüşəm... Allah bütün şəhidlərə rəhmət eləsin...

Qəşəm müəllim, Anarın adı ilə təkcə siz yox, bütün Qobustanlılar fəxr edir!

## AĞAQULİYEV CAVİD
## (1973-??)

## "DURNALARDAN XƏBƏR GÖNDƏR"

Cavid Babaqulu oğlu 1973-ci ilin fevral ayının 6-da Qobustan rayonunun Sündü kəndində anadan olmuşdur. Sündü kənd orta məktəbini bitirmişdir. O, bir müddət doğma kənddə valideyinlərinə köməkçi olur. Sonra onu hərbi xidmətə çağırırlar. Cavid hərbi xidmətinin bir ilini Riqada keçirir. Sonra Vətənə qayıdır... Artıq bu



illər erməni işğalçıları havadarlarının köməyi ilə torpaqlarımızda at oynadırdılar. Bax belə bir vaxtda Cavid cəbhəyə yollanır... On doqquz yaşlı Cavid Laçın bölgəsində düşmənlə üz-üzə dayanır. Qorxmur, çəkinmir düşməndən. Yoldaşlarına da "öldü var, döndü yoxdur", – deyə nəsihət edir.

Cavidgilin silah yoldaşları yerli camaatdan öyrənmişdilər ki, təkcə Qarabağın deyil, bütövlükdə Azərbaycanın kafirlərlə əsas qapısı Laçın dəhlizidir. Onu düşmənə vermək, torpaqlarımızın yarısını yağıya vermə deməkdir. Odur ki, Cavidgil möhkəm dayandılar dəhlizin müdafiəsində... Amma sapı özümüzdən olan baltalarımız, "başbilənlərimiz" vaxtında kömək göndərmədilər Cavidgilə... Neçə-neçə ər misalı cavanlar şəhid oldu, itkin düşdü, əsr alındı həmin davada... Cavid də itkin düşənlərdən biri oldu...

**Haşiyə:** Bu faciəli xəbər bir anın içində Sündü kəndinə yayıldı. El-oba təsəlliyə gəldi Babaqulu kişinin evinə. Ağzı dualılar təsəlli verdilər Cavidin doğmalarına: "İşi bilmək olmaz. Darıxmayın, gec-tez şadlıq sorağı yayılar elə. Bir də görərsiniz ki, Cavidiniz doqqazdan girdi içəri"... Bax o vaxtdan düz yeddi il keçir... Ata-ana, bacı-qardaş, yaxın-uzaq insanların gözü yolda, qulağı səsdədir... İnanmır ata-ana Cavidin ölümünə... Ağlamaqdan göz yaşları quruyan ana həm də ovuna bilmir...

**Cavidə xitabım:** Sənin adını, Qobustan şəhidləri ilə bir sırada yazsaq da, biz də inanmırıq ölümünə. Böyük yaradan keçsin günahımızdan, səni şəhidlər cərgəsinə qatdığımız üçün. Qardaş, haradasansa səs ver səsimizə, illərlə gözü yola dikilmiş ananın fəryadına! Əgər yağı düşmən imkan vermirsə, bizə sarı əsən küləkdən, vətənə uçan durnalardan xəbər göndər.

***Beş oğulduq bu arada, bir yerdə,***
***Ya ilahi, dərman elə bu dərdə,***
***Canım durna, hər Vətəndən ötəndə***
***Bizdən salam olsun doğma ellərə.***

Çatdırar oğul dağlı ana xətrinə durnalar sədanı bizə... Gözləyirik, qardaş!..

# ADGÖZƏLOV CƏMİL
# (1973-1995)

## "İLLƏR BOŞ KEÇDİ YENƏ"



Cəmil Adgözəl oğlu 1973-ci ildə Qobustan rayonunun Sündü kəndində anadan olmuşdur. O, kənd məktəbini bitirəndən sonra Göyçay kənd təsərrüfatı texnikumunun mexanika şöbəsinə daxil oldu... Arzusu kənd təsərrüfatında çalışmaq, öz el-obasına xeyir vermək idi.

Amma erməni işğalçılarının azğınlıqlarının günü-gündən artdığını görən Cəmil könüllü olaraq Azərbaycan milli ordusuna qoşulur. Komandirlərin məsləhəti ilə o, kursa göndərilir. Leytenant rütbəsi alır. Yenidən komandir kimi cəbhəyə yollanır. Yaşı bəzi əsgərlərdən az da olsa, tabeliyində olan əsgərlərlə qardaş kimi rəftar edir, onlara qayğısını əsirgəmir. Əməliyyat zamanı o nə qədər ciddi, tələbkar olurdusa, adi vaxtda çox səmimi və mehriban olurdu...

Cəmil 1995-ci ilə kimi müxtəlif döyüş bölgələrindən onlarla əməliyyatı uğurla həyata keçirmişdir. Torpaqlarımızın müdafiəsində əlindən gələni əsirgəməmişdir. Məqsədi düşməni məğlub etmək, Vətəni azad görmək idi...

**Haşiyə:** Çox əfsus ki, Cəmil arzularına qovuşa bilmədi. 1995-ci ildə hərbi tapşırığı yerinə yetirərkən qəhrəmancasına həlak oldu. Həmin gün döyüş dostlarından hansına çırtma vursaydın, qanı fəvvarə vurardı. Dəstə başdan-başa qara geydi. Axı Cəmil onlara təkcə komandir yox, həm qardaş, həm dost, həm də böyük sirdaş idi... Ən nəhayət, bu acı xəbər Sündüyə də gəlib çatdı. Adgözəl kişinin ünvanında bir şəhidi də son mənzilə yola salmağa toplaşdı camaat. Elin-obanın fəxri iyirmi iki yaşlı Cəmili.. El yenə qara geyindi. Ağsaqqallar doğmaları təsəlli ilə ovundurmağa çalışır, ağbirçəklər ağılarla məclis əhlinin ürəyini boşaltmaq istəyirdilər... Təkcə göz yaşı ürəyi boşalda, dərdi yüngülləşdirə bilmir...

*Gəl gedək Daş bulağa,*
*Suyu meyxoş bulağa,*
*Sən dərdli, mən yaralı*
*Tökək qan-yaş bulaqa.*

Adgözəl qardaş, el ağbirçəyinin dilindən qopan bu ağılar əsən küləyə qoşulub şəhid oğulların bütün analarına xəbər aparacaq ki, dərdlilər bir-birinə təsəlli olsunlar.

## ALICANOV HAFİZ
## (1975-??)

## "BİR XƏBƏR GÖNDƏR"...



Hafiz Rafayıl oğlu 1975-ci ildə Sündü kəndində anadan olmuşdur. O, 1993-cü ildə Sündü kənd orta məktəbini bitirmişdir. Məktəbi qurtarandan bir neçə ay sonra Hafiz hərbi xidmətə çağrılır. O, iki aya yaxın təlim məşqləri keçəndən sonra cəbhəyə göndərilir. Özü də Murovdağ bölgəsinə. Hafiz burada motoatıcı divizyanın tərkibində vuruşur. On doqquz yaşlı Hafiz Murovdağ əməliyyatında İtkin düşür...

Hafizin doğmalarının gözü yoldadır. Valideyinlər inanmır onun ölümünə. Hafiz subay idi. Ata-ana toy arzusunda idi. Allah baisin arzusunu puç etsin... Amma doğmaları inanmır Hafizin ölümünə... Biz də eləcə!

**Hafizə xitabım:** Qardaş, sənin adını şəhid qardaşlarının cərgəsinə yazsam da, inanmıram ölümə. Elə ona görə də səhifənin başında doğulduğun ili göstərmişəm. Heç itkin, və ya əsr düşdüyün tarixi də yazmamışam. Əgər yazsaydım, neçə-neçə oğul, qardaş həsrətlilərin arsuzunu puç etmiş olardım... Odur ki, sən də fürsət tapan kimi badi-səbadan da olsa ellərə bir xəbər göndər. Sağ olduğunu bildir. De ki, düşmən əlindəyəm, qurtulan kimi qayıdacam. Yolumu gözləyin... Mütləq qayıdacam... Gözümüz yolda, qulağımız səsdədir, Hafiz!..

## BABAYEV MİRTALIB
## (1974-1993)

## "OĞULUM QAYIDACAQ"...



Mirtalıb Soltanəli oğlu 1974-cü ildə Qobustan rayonunun Cəyirli kəndində doğulmuşdur. O, kənd orta məktəbini bitirmişdir. Məktəbi qurtarandan sonra hərbi xidmətə çağrılıb. Mirtalıb üç-dörd ay hərbi təlim keçəndən sonra döyüş bölgəsinə göndərilmişdir. O, 1992-1993-cü illərdə bir çox döyüş bölgəsində vurulmuşdur. 1993-cü ilin fevralında Ağdərə uğrunda gedən döyüşlərdə itkin düşmüşdür...

**Soltanəli kişinin dediklərindən:** Mən altı övlad böyüdüb tərbiyə etmişəm. Əlim iş tutandan halal zəhmətlə çalışıb, halal da çörək qazanmışam. Balalarım bir loxma da olsa, haram tikə dadmayıblar. Mirtalıbımı da özüm hərbi xidmətə yola salmışam, nəsihət vermişəm... Anası da, bacı-qardaşları – **İzayəddin, Habil, Mənzər, Səidə, Nəzakət** də onun cəbhəyə getməsinə narazılıq etməmişlər. Halal zəhmətlə dolandığımıza görə bizimkilər üçün qanun da həmişə müqəddəs olmuşdur.

**Söz ardı:** Fatma bacı, biz də inanmırıq Mirtalıbın ölümünə. Yəqin ki, o, indiyə kimi yağı caynağındadır. Başqa soydaşlarımız kimi. Ağır da olsa deməliyik; hazırda erməni həbsxanalarında yüzlərlə həmyerlimiz incidilir. Onlar bizdən imdad gözləyirlər... Biz isə... Yəqin ki, dövlətimizin rəhbərinin apardığı ardıcıl siyasət müharibəyə son qoyacaq, işğalçılar torpaqlarımızdan çıxarılacaq, əsirlər azad ediləcəkdir... Onda yüzlərlə itkin də qayıdacaq evinə. Elə sizin Mirtalıb da... Bu xəbər mənə çatan kimi gələcəm sizin ünvana gözaydınlığına...

**Haşiyə:** Fatma ana da inanmır oğlunun ölümünə... Əvvəllər heç "ölüb" sözünü dilinə gətirmirdi... Bu müddət ərzində oğul dərdi deyəsən, ananın qamətini əymişdir. Ana yana-yana, göynəyə-göynəyə necə ildir ki, oğul yolu gözləyir... Oğlunun ölümünə inanmasa da, uşaqlarından gizli, evdə tək olanda bayatılarla qəm, kədər yükünü yüngülləşdirməyə çalışır.

*Günlərim necə keçir,*
*Bilmirəm necə keçir,*
*Mənimki ah-vayınan*
*Balamkı necə keçir?*

## BABAŞOV RAUF
## (1967-1991)

## "VƏTƏN, SƏNİ QORUMAĞA GƏLMİŞƏM"



Sağdan birinci

Raufun anası Balacaxanımın göynəyə-göynəyə yazdığı məktubu həyəcansız oxumaq olmurdu. Bala dağlı ananın fəryadı, ahı, inilti-sızıltısı məktubun hər sözü, hər cümləsindən aydınca hiss olunurdu. "...Dilim gəlmir, Raufuma ölüb deməyə, Raufum ölməli oğul deyildi. Hər kəsin yerini bilən, hər şeyi ölçüb-biçən, lap yaşlı insanlar kimi... Təzə yazdığı şerlərini mənə oxuyanda balam necə də sevinərdi. Ana, darıxma sənin oğlun şair Sabir, Səməd kimi məşhur olacaq, - deyib boynumu qucaqlayırdı. Çox əfsus ki, arzuları ürəyində qaldı. Mənim də arzularım puç oldu... Balalarını dünyalar qədər sevirdi. Onlarla doyunca əylənməsəydi, gecələr yatmazdı... İndi isə... Mənə təsəlli bir balaları, bir də ayrı-ayrı vərəqlərdə yazdığı şerləridir"...

Dərdli ananın mənə göndərdiyi məktubda Raufun şerlərindən nümunələr də vardır. Şerlərdə məna tamlığı, poetik düzüm, bədii axım yerindədir. Daha dəqiq desək, qəlbi Vətən istəyi ilə alışıb yanan, bir ürəyin arzu və istəklərini ifadə edir bu şerlər.

**Haşiyə:** Rauf Afət oğlu 1967-ci ildə Qobustan rayonunun Cəmcəmli kəndində anadan olub. Kənd məktəbinin səkkizinci sinfini bitirib. Mərəzə qəsəbəsindəki 185 saylı peşə məktəbində oxuyub. Sonra ordu sıralarına çağrılır. Orduda xidmətini başa çatdırıb geri

dönür. Bakı şəhərindəki H.Z.Tağıyev adına toxuculuq fabrikində işləyir. Ailə qurur. İki övladı – oğlu və qızı dədə-baba ocağına daha böyük sevinc gətirir... Vətəni canından-qanından artıq sevən Rauf 1991-ci ilin noyabrında torpaqlarımızın müdafiəsi üçün Milli Orduya qoşulur... 1991-ci ilin dekabr ayının 25-də Gərkicahan uğrunda gedən döyüşlərdə həlak olur. Bakıda "Şəhidlər xiyabanı"nda dəfn olunur... Qədir bilən Cəmcəmlilər Raufun oxuduğu orta məktəbə onun adını veriblər... Ruhun şad olsun. Rauf şerlərini Şirvanlı təxəllüsilə yazırdı...

***Ay məni illərlə yandırıb-yaxan,***
***Üzümə "yox" deyib, dalımca baxan,***
***Küsülü olanda yoluma çıxan,***
***Nədən incimisən, nədir günahım?***

***Görüşə çağırsam naz-qəmzə edən,***
***Acı xatirə tək qəlbimi didən,***
***Bir kiçik kəlmədən inciyib gedən,***
***Getmə açılmayır sənsiz sabahım.***

***Bağrımın başını eyləmisən qan,***
***Sənsiz ürəyimi üzəcək hicran,***
***Qorxum yox köçsəm də qoca dünyadan,***
***Qoyma ki, bürüsün Şirvanı ahım.***

***Sən təbib, mən isə adi xəstəyəm,***
***Yataq dustağıyam, eşq həvəsdəyəm,***
***Qulağı səsdəyəm, könlü səsdəyəm,***
***İnan, sağalaram olsan pənahım.***

***Gəl sıxma könlümü, nə olar, gülüm,***
***Girməsin araya ayrılıq, ölüm,***
***Etmə aşiqinə bu qədər zülüm,***
***Ol mənim ümidim, ol qibləgahım.***

***Şirvanlı eşqinlə edər ahu-zar,***
***Ayağın altına sərilib yollar,***
***Unutsan qismətim olacaq məzar,***
***Səni qovuşdursun mənə Allahım.***

# BAYIMOV AKİF
## (1973-1994)

## "DAĞ AĞLAYAR, DAŞ MƏLƏR"...



Akif Soltanəli oğlu 1973-cü ildə yanvar ayının 16-da Qobustan rayonunun Nabur kəndində dünyaya göz açmışdır. O, 1990-cı ildə Nabur kənd orta məktəbini bitirmişdir. Heç bir il keçmir ki, onu hərbi xidmətə çağırırlar. Akif az bir müddət təlim keçəndən sonra cəbhə bölgəsinə göndərilir. O, iki ilə yaxın ən qızğın döyüş bölgələrində – **Ağdam, Kəlbəcər, Füzulidə** neçə-neçə qəhramanlıqlar göstərir, dəfələrlə ölümlə üz-üzə gəlir... Amma qaraçuxası yatmadığı üçün salamat qalır...

O, hünəri, cəsarəti ilə hamının rəğbətini qazandığına görə cəbhə dostları və komandirləri 1994-cü ilin yanvar ayının 16-da onun ad gününü qeyd edirlər. Bütün döyüşlərdə sinəsini Vətən torpağına sipər edən Akif 1994-cü ilin aprelində, yəni ad günündən üç ay sonra Murovdağ ətrafında gedən döyüşlərdə həlak olur... Arzuları çilik-çilik olan Akif şəhidlər cərgəsinə qoşulur.

**Haşiyə:** Ustad Aşıq Xanışla görüşlərimin birində Nabur şəhidləri haqqında soruşdum. O, fikrə getdi, bir az sonra qəlyanına dərin bir qullab vurub dilləndi...

- Seyfəddin müəllim, əvvəlcə onu qeyd edim ki, mən bu vaxta kimi yüzlərlə el məclisini yola vermişəm. Ona görə də insanları pis tanımıram. Mənə belə gəlir ki, təkcə Nabur şəhidləri deyil, ümumiyyətlə, bütün Azərbaycan şəhidləri əsl vətəndaşlar, el qədri, torpaq qədri bilən insanlar olublar. Mənə elə gəlir ki, Allah-təala bunların hamısını elə bil bir əqidədə yaratmışdır.

Bizim kəndin şəhid balaları – **Qabil, Akif, Kamal, Mahmud**... Hər biri bir elim dayağı, dirəyi olan oğullar idi... Hamımız borcluyuq o insanlara... Mən bir sənətkar kimi çox borcluyam o igidlərə... Onların nakam sevgilərinə həsr etdiyim dastanı hələ bitirməmişəm... Soltanəli kişinin oğlu Akif ayrı oğul idi... Təki bu günkü Nabur gənclərinin hamısı Akif ürəkdə, Akif cəsarətdə olaydılar... Onların ölü-

mü, dəfni kəndimizin ən müsibətli günlərindən olmuşdur... O matəm hamının matəmi idi. O, müsibət hamımızın müsibəti idi. Allah bir daha elə günləri heç kimə, heç bir elə göstərməsin... Ağbirçəklərin daşı, torpağı sızıldadan ağılarının zərbəsinə tab gətirmək olmurdu, həmin günlərdə... Elə Akifin müsibətində də..

*Çeşmələr, ha çeşmələr,*
*Qoyun-quzu çaş mələr,*
*Burda bir oğul ölüb*
*Dağ ağlayar, daş mələr.*

## BAYRAMOV TAHİR
## (1969-1993)

## "BOYUNA ÖZÜM QURBAN"



Tahir Ataxan oğlu 1969-cu ildə Qobustan rayonunun Nərimankənd kəndində doğulmuşdur. O, 1986-cı ildə kənd orta məktəbini bitirib, Mərəzə qəsəbə TPM-də oxumuşdur. Texniki peşə məktəbini qurtarandan sonra Tahiri hərbi xidmətə çağırırlar... O, iki il Litva Respublikasında xidmət edir. Vətənə qayıdandan sonra Bakı şəhərində tikinti idarələrinin birində fəhlə işləyir... 1993-cü ildə könüllülər dəstəsinə qoşulur... Elə həmin ildə də...

**Haşiyə:** Tahirin sənədlərini və haqqında bir yazını mənə qardaşı göndərmişdi. Qardaşın qardaş haqqında yazdığı məktubun başlığı belə idi: **"Qardaş haqqında qara yazı"**... Məktubu həyəcansız oxumaq mümkün deyildir. Çünki məktubda qardaş məhəbbəti, qardaş istəyi, qardaş kədəri ağrılı, kövrək dillə bir-birinə qarışmışdı... Müəllif məktubun bir yerində qardaşı haqqında yazır"... Qardaşımın Vətən yolunda şəhid olmağı, məncə, onun Allah-təala tərəfindən taleh yazısı idi. Yazıya isə pozu yoxdur... Özü də şeri, musiqini çox sevərdi. Vətənlə, torpaqla bağlı olanların, bir də ayrılıq-hicran soraqlı mahnıları yorulmazdı zümzümə etməkdən. Onun həmişə əzbər söylədiyi şerin bir bəndi indi də yadımdadır...

*Mənə halal edib duz-çörəyini,*
*Ölümə göndərsə, dinməz gedərəm.*
*Əgər lazım olsa, mən ürəyimi,*
*Vətənin yolunda məşəl edərəm.*

Can qardaşım... Arzuların çin oldu. Cavan ömrünü Vətən yolunda qurban verdin. Ürəyin də məşəl oldu. Qardaş, ölümün indi də məni diri-diri yandırır... Amma təsəllim də var. Təsəllim ondadır ki, sən qeyrət, namus, torpaq, Vətən yolunda ömrünü qurban verdin. Qardaş, dediyim kimi, itkin çox ağırdır bizim üçün. Ona görə də haqqında yazdığım yazının adını "**qara yazı**" qoydum. Yəqin ki, ruhun məni bağışlayacaq"...

Bu cümlələr qardaşın qardaş haqqında yazdığı kədərli məktubdan bir parçadır. Daha doğrusu, bu yazı ilə qardaş ürəyinin odunu söndürmək üçün sözlərin ovsununa sığınmış, sözləri dili ilə yanan ürəyinin oduna su səpmək istəmişdir... Dərd isə dərdliyində qalır. Bu iki bayatını da sənin dilinlə bağlayıram Tahirin adına:

*Durna sanınnan keçər,*
*Ötər sanınnan keçər,*
*Oğul Vətən yolunda*
*Ölər, canınnan keçər.*

*Tahir, yaran dərindi,*
*El kədərə büründü,*
*Boyuna özüm qurban*
*Məzarın and yerimdi...*

## BALAKİŞİYEV MAHMUD
## (1973-1992)

## "19 YAŞLI MAHMUD"

Mahmud Mahmudağa oğlu 1973-cü ildə Qobustan rayonunun Nabur kəndində doğulmuşdur. O, Nabur kənd orta məktəbini bitirəndən sonra Bakı şəhərindəki tibb texnikumuna daxil olmuşdur... Mahmud 1992-ci ildə iyul ayının 17-də həqiqi hərbi xidmətə çağrılır. O, bir müddət hərbi təlim məşqləri keçdikdən sonra cəbhəyə



yollanır. Döyüş yolu Ağdərə bölgəsindən başlanır Mahmudun. Tez bir zamanda alışır cəbhə həyatına, müharibənin oduna-alovuna... Odur ki, komandirləri, döyüş dostları tərəfindən sevilir, hörmət olunur... 1992-ci ilin oktyabr ayının 29-da Mahmudgil **Ağdərənin Qoçaqoç** kəndi uğrunda döyüşə başlayırlar. Döyüşün qızğın yerində düşmən gülləsi ürəyində yüzlərlə arzusu aşıb-daşan 19 yaşlı Mahmudun həyatına son qoydu...

**Haşiyə:** Qəlbi yaşamaq, yaratmaq eşqi ilə aşıb-daşan Mahmud cəmi on doqquz il yaşadı... Bu yaşda ana laylasının şirinliyi hələ insanın qulağından getmir... Bu yaşa qədər insan nə həyatın şirinliyini, nə də bir sevincini dadır, ancaq arzular dünyasında yaşayır... Mahmud da eləcə. Təzəcə qədəm qoymuşdu sərbəst həyata... Atası Mahmudağa, anası Xına xanım üç oğlunun – Mahmud, Arif, Sabirin boyuna baxıb fəxr edirdilər... Toylarında süzmək arzusu ilə çırpınırdı ürəkləri... Amma nə biləydilər ki, Mahmuda bu düyün qismət olmayacaq... Şükür Allahın böyüklüyünə...

**Aşıq Xanışın söylədiklərindən:** "Kəndimizin şəhid oğulları arasında Mahmudun öz yeri vardır. O, öz səmimiliyi, qanacağı ilə seçilirdi. Yaşının az olmasına baxmayaraq, aşıq sənətinə, muğamlarımıza böyük maraq göstərərdi... Onu da deyim ki, şəhid balaların hamısı halal zəhmətlə dolanan, əli qabarlı ailənin uşaqları idi... Mahmud da eləcə... Allah rəhmət eləsin. Mahmud bir evdən getməyib, eldən gedib. Əlimdən gələn odur ki, şəhidlər adına şer-ağı düzüm. Bəlkə düzdüyüm ağılar şəhidlərin doğmalarına bir təsəlli oldu...

*Karvanı çəkdim getdi,*
*Muradım, əhdim getdi,*
*Qarabağda qan düşdü*
*Neçə iyidim getdi.*

# BAXIŞOV BAXIŞ
# (1970-1994)

## "YIXDIN ATAN EVİNİ"...



Baxış Ceyhun oğlu 1970-ci il aprel ayının 28-də Qobustan rayonunun Nərimankənd kəndində dünyaya göz açmışdır. Nərimankənd kənd orta məktəbini bitirəndən sonra hərbi xidmətə çağırılıb və 1991-ci ilə kimi Rusiyada hərbi xidmətdə olmuşdur. Hərbi xidməti uğurla başa vurandan sonra kəndə qayıdır və fəhlə işləyir...

Bu zaman artıq quduz düşmən torpaqlarımızı ələ keçirir, faciələr törədirdi... Ömrü boyu atasının halal ruzisi ilə dolanan, düzlük-doğruluğu hər şeydən üstün tutan Baxış Vətənin belə qara günündə onun müdafiəsinə getməyi qət etdi... 1997-ci ildə cəbhəyə yola düşdü. Bir ilə yaxın döyüş gedən bölgələrdə vuruşdu. O, sonuncu dəfə Füzuli bölgəsində gedən döyüşdə vuruşurdu... Döyüşün qızğın çağında düşmən gülləsi ağır yaraladı. Dostları onu xəstəxanaya çatdırırlar... Amma güllə öz işini görmüşdü. Baxışa heç cür kömək etmək olmadı. Vətəni, torpağı, millətini bütün varlığı ilə sevən, düşmənə kin-kudurətinin qədəri olmayan Baxış 1994-cü il avqust ayının 10-da xəstəxanada dünyasını dəyişdi.

**Haşiyə:** İki il Nərimankənd kənd orta məktəbində oxumuşam. Onda yəqin etmişəm ki, bu kənd görkəmli ziyalıları ilə yanaşı, özünün müdrik ağsaqqal, dili dualı ağbirçəkləri və ömrü boyu süfrəsinə haram tikə dəyməyən insanları ilə seçilir... Ceyhun kişi və Gülsabah xalanın da ailəsi belələrindəndir. Ceyhun kişinin dörd övladı – üç oğul və bir qızının ağzına bircə loxma da olsa haram tikə dəyməyib. Belə halal ailədə böyüyən Baxış, öz ədəb-ərkanı, insanlara münasibəti ilə xüsusi seçilirdi.

**Qardaşı Kamilin dediklərindən:** Baxış qonum-qonşuya, insanlara biz qardaşlardan daha istiqanlı idi. Kənddə kimdəsə xeyir iş olsaydı, Baxış hamıdan əvvəl orada iştirak edir, əlindən gələn köməyi əsirgəməzdi. Odur ki, qardaşımın ölümü bütün həmyerlilərimi ağrıdır...

Baxış iyirmi dörd yaşında dəyişdi dünyasını. Əcəl aman vermədi ki, Baxış ömrünün iyirmi beşinci qapısını açıb içəri girsin, bir az rahatlansın, dünyanın dərd-sərinə baş vursun, arzuları üçün düşünsün… Elə üç qardaşın bircə bacısı Gülxanımı da yandıran odur…

*Gəlsin qardaş ağlasın,*
*Qursun bardaş ağlasın,*
*Sənin cavan ömrünə*
*Tamam dağ-daş ağlasın.*

## BƏBİROV CAVİD
## (1974-1995)

## ÇALOVLULARIN FƏXRİ

Cavid Sabir oğlu 1974-cü ildə Qobustan rayonun Çalov kəndində anadan olmuşdur. O, Çalov səkkizillik və Cəyirli kənd orta məktəbini bitirmişdir…

**Haşiyə:** Sabir kişi ömrü boyu halal zəhmətlə dolanmışdır. O, yeddi övladına da halallığı, düzlüyü, doğru danışmağı aşılamış, onları yurd sevən, torpaq qeydinə qalan gənclər kimi böyütmüşdür. Anaları Balacaxanım Əmkişi qızının da ömrü boyu bircə arzusu olmuşdur:, Allah balalarını bəladan uzaq etsin, süfrələrindən halal çörəklərim əksik eləməsin… Bəli, ata-ana övladlarına vəzifə, rütbə yox, düzgün, doğru olmaq, bir də halal çörək arzulayardı.

Belə bir ailədə böyüyən Cavid Vətənin dar günündə əlinə silah almağı qərara aldı və torpaqlarımızın azadlığı uğrunda mübarizə aparan könüllülərə qoşuldu. O, Qarabağda onlarla kəndin azad edilməsi uğrunda vuruşmalardan keçmiş, səngərdən-səngərə atılmış, döyüşdən-döyüşə yollanmış, qorxu, ölüm nə olduğunu bilməmişdir. Bu müddət ərzində bir neçə dəfə ölümlə üzləşmişdir. Atalar demiş, "dənəsi üzülmədiyi üçün" ölümü üstələmişdir. Cavidin döyüş yolu uzun – **Kəlbəcər, Ağdam, Murovdağ, Füzuli** bölgələrindən keçmişdir… Amma qismətdən də qaçmaq olmur… Ürəyi min arzulu, qəlbi Vətən eşqi ilə döyünən Cavid 1995-ci il oktyabr ayının 25-də torpaqlarımız uğrunda gedən döyüşlərin birində qəhrəmancasına həlak olur… Özü də 21 yaşında…

**Haşiyə:** O gün yüzlərlə kənd sakini Sabir kişinin həyətinə yığıl-

mışdı. Qonşu kəndlər, rayon mərkəzindən çoxları gəlmişdi, bu müsibətə şərik olmağa, Cavidlə vidalaşmağa, Sabir kişiyə təsəlli verməyə... Orta məktəb yoldaşları, müəllimləri məclisin önündə idilər. Heç kəs danışmağa cürət etmirdi. Hansısa dünyalar yola salmış bir el ağbirçəyinin kövrək səslə dediyi ağı məclisi təlatümə gətirirdi:

***Öyümdə var barama,***
***Dəymə mənim yarama,***
***Lampa götür tez yeri***
***Anam baxsın yarama.***

***Balamı kimlər ağlar?***
***Taleyi kəmlər ağlar,***
***Yarama toxunmayın***
***Ürəyim simlər, ağlar.***

Ən nəhayət, el ağsaqqalı Abdulla müəllim dilləndi: "Əzizlərim, bu gün kəndimizdə ağır bir gündür. Elimizin başını ellər içində uca edən oğullarımızdan biri – Cavidlə vidalaşırıq. Cavid elə-obaya gərəkli oğul idi. Ona görə bu itki təkcə Sabir kişinin deyil, bütün Çalovlularındır. Sabir kişiyə, onun ailəsinə Allah səbr versin".

Bəli, aylar, illər, əsrlər bir-birini əvəz edəcək, dünya dəyişəcək, təzələnəcək, çox şey unudulacaq... Təkcə şəhidlər – Cavid kimi qəhrəmanlar əbədi, daimi yaşayacaqdır. Özü də dünya durduqca...

## QARAYEV HABİL
## (1972-1992)

### "ATA BALADAN AYRI"...

Habil Əliheydər oğlu 1972-ci ildə yanvar ayının 1-də Sündü kəndində dünyaya göz açmışdır. O, kənd orta məktəbini bitirib Bakıya gedir. Bakının Biləcəri qəsəbəsindəki B.Sərdarov adlı zavoda işə girir... Xoşxasiyyətli, səmimi bir insan olan Habil cavan olmasına baxmayaraq burada özünə xeyli dostlar qazanır... Bir el gözəlinə könül verən Habil təzəcə arzusuna çatmışdı ki, onu səfərbərliyə alırlar... Ailədə hərə ona bir məsləhət verir. Habil bir neçə gün düşünür. Son qərarı özü verir:



– Mən başqaları kimi bəhanəyə əl atmaram. Onsuz da torpaq, Vətən dar ayaqda biz kasıblarındır... Odur ki, deyilən vaxt hərbi komissarlıqda oldu... O, 1992-ci il yanvarın 20-də düz iyirmi yaşı tamam olandan iyirmi gün sonra hərbi xidmətə yola düşür. İlk əvvəl o, tank batalyonunda təlim məşqləri keçir... Sonra Ağdam bölgəsinə yola düşür. Milli ordumuzda döyüşə başlayır. Neçə-neçə murdar erməni dığasını öz əlləri ilə qətlə yetirir. Sonra Ağdamın bir neçə kəndini düşməndən geri alınmasında əsl qəhrəmanlıq göstərir... Onun sonuncu döyüşü də Ağdam bölgəsində olur. Növbəti tapşırıq Ağdamın Məhbulaq kəndinin azad edilməsi olur. Habilgil bu döyüşdə böyük şücaət göstərirlər. Düşməni geri oturdurlar. Amma qəfil düşmən gülləsi ürəyi yaşamaq eşqi ilə aşıb-daşan Habilin ömrünü sona çatdırır.

**Haşiyə:** Sündü camaatı Əliheydər kişinin həyətinə yığılmışdılar. Hamını yandırırdı bu cavan oğlanın ölümü. Alışıb külə dönən isə Habilin ömür-günü yoldaşı idi. Habil təzəcə anadan olmuş körpəsinin üzünü görmədən gedir bu dünyadan...

*Bu bağda gəzmək olmaz,*
*Güllərin üzmək olmaz,*
*Habilim cavan öldü*
*Bu dərdə dözmək olmaz.*

Cəmi iyirmicə il ömür sürən Habil Vətən, torpaq, namus-qeyrət yolunda şəhid oldu... Allah Sündü camaatını var eləsin. Habilin adını əbədiləşdiriblər – Sündü kənd natamam orta məktəbinə Habilin adını veriblər...

## QARDAŞƏLİYEV BAHADUR (1969-1994)

## "VİCDANIM MƏNİ NARAHAT EDİR"

Bahadur Mirzalı oğlu 1969-cu ildə Qobustan rayonunun Mərəzə qəsəbəsində doğulmuşdur. A.Çernyayevski adına Mərəzə qəsəbə orta məktəbini bitirəndən sonra TPM-nə daxil olur. Peşə mək-



təbini qurtaran kimi hərbi xidmətə çağırılır. O, hərbi xidmətini Amur vilayətində başa vurub vətənə qayıdır. Bahadur bir müddət Mərəzə Təcrübə Stansiyasında işləyir. Sonra Quba rayonunun Yelenovka kəndinə köçür.

O, 1992-ci ildə Quba rayonunda yaradılan könüllülər dəstəsinə qoşulur. Bir müddət Martuni rayonunun Əmralılar kəndi ərazisindəki döyüşlərdə iştirak edir. Döyüşlərin birində yaralanır. Qubada müalicə olunur...

**Həyat yoldaşı Sevda Vahid qızının dediklərindən:** "Bahadur xəstəxanadan çıxıb evimizə gəldi. Hələ tam sağalmamışdı. Evdə özünü narahat hiss edirdi. Bir az babatlaşandan sonra dedi:

**- Sevda, buradakı insanlar cəbhədə nələr baş verdiyindən xəbərsizdirlər. Burada hərə öz işindəndir: Satan kim, alan kim, alver edən kim... Orada-cəbhədə neçə-neçə oğullar ölür, şəhərlər, kəndlər virana qalır. Erməni kafirləri ərazimizi tapdaq ediblər. Gündə neçə-neçə oğullar qanına qəltan edilir. Özü də günahsız yerə. Hamısı da məni kimi kasıb balaları... Oranı görməsəydim, bəlkə də, mən də geri qayıtmazdım. Vicdanım məni narahat edir. Getməliyəm..**

Heç kimin – ata, ana, bacı, qardaş sözünə baxmadan Bahadur yenidən cəbhəyə yollandı...

Bahadur *ikinci dəfə Fizuli rayonunun Horadiz qəsəbəsi* bölgəsində vuruşdu. Bura isə onun axrıncı döyüş yeri oldu. O, 1994-cü il mart ayının 19-da həlak oldu... Onu Mərəzə qəsəbə qəbristanlığında dəfn etdilər...

**Mirzalı dayının dediklərindən:** "Mənim on bir övladım vardı. Dörd oğlumun biri Vətən yolunda şəhid oldu. Yüzlərlə oğullar kimi, məni ən çox yandıran odur ki, Bahadurum öz övladının üzünü görmədən getdi bu dünyadan... Doğmaları məsləhətləşib Bahadurun övladının adını Nişanə qoydular. Yəni el yolunda şəhid olan Bahadurun Nişanəsi... Allah taleyini, qismətini uğurlu etsin"...

Acı taleyli Sevda xanım isə ağlamaqdan yorulmadı. Sözü də sovu da bayatılaşdı, ağılaşdı. Özü də Bahadurun boyuna biçildi bu ağılar:

*Mən aşiqəm bu güllər,*
*Bu bülbüllər, bu güllər,*
*Mənim bülbülüm gedib*
*Nöş açılıb bu güllər?*

**Haşiyə:** "Sevda xanım, qismət allahın alın yazısıdır… Allahtəala, Bahadurun taleyini özü həll edibmiş… Özü də heç kəslə məsləhətləşmədən, heç kəsə bildirmədən… Şükürlər olsun Allahın birliyinə… Bahadur torpaq yolunda şəhid oldu. Məncə, torpaq qədri bilən insanlar onun əziz xatirəsini heç vaxt unutmayacaq"…

## QƏRİBOV BEYDULLA
## (1973-1993)

## "ÇAĞIR ANAM AĞLASIN"…



Beydulla Həsən oğlu 1973-cü ildə Qobustan rayonunun Nərimankənd kəndində doğulmuşdur. Orta məktəbi qurtarandan sonra o, hərbi xidmətə yola düşür. O, ilk əvvəl Moskva şəhərində qulluq edir. Sonra onu Leninqrad şəhərinə göndərirlər. Bu o zamanlar idi ki, Sovetlər Birliyi son günlərini yaşayırdı. Ordudakıları da tərxis edirdilər. Beydulla da Vətənə dönür. Qalıb Rusiyada yaşaya, işləyə bilərdi. Amma Vətəndə gedən qırğından, savaşdan xəbəri var idi. Bilirdi ki, Vətən dardadır.

Doğmaları çox etiraz etdilər ki, Beydulla cəbhəyə getməsin. O, öz qərarını qəti vermişdi. Odur ki, 1993-cü ildə könüllülər dəstəsinə qoşuldu… Bir müddət Gəncədə hərbi təlim keçdi… Oradan isə Ağdərə bölgəsinə yola düşdü… Bir çox döyüşlərdə iştirak etdi…

**Döyüş yoldaşı Eldəniz Qasımovun dediklərindən:** "Beydulla igid yoldaş idi… Qorxu nə olduğunu bilməzdi… 1993-cü il dekabrın 27-si idi. Ağdərənin Moqodiz kəndi uğrunda gedən döyüşlərdə yamanca vuruşduq. Uğur qazansaq da, itkimiz də oldu. Geri döndük. Bu ara komandirimiz bildirdi ki, ön cərgədə yaralanan və ölənləri

tezliklə çıxarmaq lazımdır... Bir çox yoldaşlarımız bu işə səfərbər olundu... Beydulla yorğun göründüyü üçün komandir onun gedişinə razılıq vermədi... Beydulla isə özü təkid etdi... O da bizimlə yola düşdü... Yaralıları çıxartmağa başladıq. Sən demə Beydulla yolda minaya düşübmüş. Onu qospitala aparıblar... Qayıdanda xəbər tutdum ki, dostum vəfat edib"...

**Haşiyə:** 1993-cü il dekabrın 31-də yenə bütün kənd matəm içində idi... El bir şəhid balasını da yola salırdı. İyirmi yaşlı Beydullanın doğmalarına səbr verən kim, diri-diri alovlanan kim, için-için ağlayan kim, ağı deyən kim...

***Biçinçi xara bağlar,***
***Dərz bağlar, xara bağlar,***
***Çağır anam ağlasın***
***Özgəsi xarab ağlar.***

Ağı sona yetəndə kimisə qəhər boğmuş bir kəsin qəhərlə evin yıxılsın söz düzən, odsuz-ocaqsız yandırdın bizi, – deməsi sanki bütün məclisi silkələdi...

El öz şəhid oğlunu son mənzilə yola saldı. Baş daşına da bu rəqəmləri yazdılar: **1973-1993...**

## QƏDİROV QƏDİRXAN
## (1962-1994)

## "BAXIR DİVARDAKI ASILAN DƏFƏ"...

Qədirxan Əzizxan oğlu 1962-ci il sentyabr ayının 19-da Qobustan rayonunun Sədəf kəndində dünyaya göz açmışdır. Uşaqlıqdan vurulmuşdu şerə, sənətə. İlk əzbər öyrəndiyi də atası Əzizxanın satirik şerləri olmuşdu. Orta məktəbi qurtarandan sonra ömrünü həmişəlik musiqiyə həsr etdi Qədirxan. Mingəçevir şəhərindəki muğam kursuna daxil oldu və oranı fərqlənmə diplomu ilə başa vurdu. Tez bir zamanda səsi ilə neçə-neçə qəlblər fəth edə bildi... O, bir neçə dəfə respublikada keçirilən festivallarda iştirak edir, müxtəlif diplomlar qazanır...

Ölkəmizə yağı düşmən hücum edəndə oxumağı, toylara getməyi bir kənara qoyur Qədirxan. Gecə-gündüz əsarət altında qalan torpağımız, yer-yurdlarından didərgin düşən insanları fikirləşir... İki öv-



ladı olmasına baxmayaraq, qəti qərara gəlir... Və 1993-cü ildə könüllülər dəstəsinə qoşulur... Kəlbəcər döyüşlərində yaxından iştirak edir. Murovdağı uğrunda gedən döyüşlərin birində həlak oldu Qədirxan. Qara xəbər onun ailəsinə 1994-cü ilin yanvarında çatdı... Ömür-gün yoldaşı, qızı Ülkər, oğlu Sərxan inanmadı onun ölümünə... Amma qaçmaq olmaz taleh yazısından...

**Haşiyə:** İlahi, deyilən müdrik kəlamın – "oğul ölmü atanın belini qırır, ananı yumağa döndərir, doğruluğunu gözümlə gördüm Əzizxan müəllimlə görüşəndə. Ürəyimdə dedim. Hanı o havalı Əzizxan, hanı şaqraqlar çəkib gülən Əzizxan? Hanı hökümlü danışan şair? Gör kişi necə də yazıqlaşıb? Gör kişinin gözləri necə də qəmlidir? Görüşəndə bunları hiss etdirməməyə çalışdı... Ona təskinlik verdim. Qədirxan haqqında bir söz deməsini xahiş etdim. Üzümə baxdı, hiss etdim ki, dodaqları titrəyir. Əlini qoltuq cibinə saldı və kiçik bir kağızı mənə uzatdı.

- Hacı Seyfəddin, ürəyimdən keçənlər hamısı orada yazılıb. Açıb oxudum kağızı. Oğlunun ölümünə könüllər parçalayan bir ağı yazılmışdı orada... **"Ağlayır"** rədifli qoşması məni də çox kövrəltdi Əzizxan müəllimin...

***Bu dərdə dözməyir ana ürəyi,***
***Qövr edir qəlbində yara ağlayır.***
***Baxır divardakı asılan dəfə,***
***Həsrətdir kamana, tara ağlayır.***

***... Əzizxan, de oğul dərdi çəkən var,***
***Qızbəs təki göz yaşını tökən var,***
***Qədirxanla neçə nakam köçən var,***
***Gəlib anaları qara ağlayır.***

**Haşiyə:** Bir evin altında oğul dağlı ata-ana və yardan yaralı bir gəlin yaşayır. Talehsiz gəlinin boyuna baxanda qəhərlənməmək olmur... Amma vaxtilə oğul, gəlin boyuna baxıb necə də fərəhlənir-

dilər... Gəlin isə qayınata, qayınana üzünə baxmağa cəsarət etmir... Qorxur ki, valideyinlər yanılıb illər boyu soruşduqları sualı verərlər...

- Qədirxan, axşam toydan gec gəldi... Yəqin ona görə ayılmayıb yuxudan...

Yaxşı ki, Qədirxanın iki ciyərparası varmış. Yoxsa üçümüzün bağrı çatlayardı, deyə Əzizxan müəllim təskinlik tapır...

Əzizxan müəllim, dözməlisən Allahın qismətinə. Və fəxr etməlisən ki, oğlun ad çıxartdı, qəhrəman oldu... Bəli, heç kəs anadan qəhrəman doğulmur. Amma məqamı gələndə bircə anın içində hamı qəhrəman ola bilər. Bu şərtlə ki, gərək ölümün üstünə gedəsən, ondan bircə tikə də qorxmayasan! Elə sizin Qədirxanınız kimi! Xeyr, yanıldım, bizim – Qobustanın Qədirxanı kimi!..

## QULİYEV AYAZ
## (1967-1993)

## "QƏLBİMİZDƏ YAŞAYACAQSAN, AYAZ !"



Ayaz Ağahüseyn oğlu haqqında yazmaq istəyəndə yadıma düşdü ki, arxivimdə onun barəsində yazı olmalıdır. Ən nəhayət, **"Azərbaycan ordusu" qəzetinin 21 oktyabr 1993-cü il (№ 45)** tarixli nömrəsində baş leytenant Fikrət Əliyevin "Qəlbimizdə yaşayacaqsan, Ayaz" adlı oçerkin tapdım. Məqalənin bəzi məqamlarını burada verməyi məsləhət bildim:.. "Onu hərbi təlim mərkəzinə gələn kimi bizim hissəyə göndərdilər. "İlk baxışdan bütün zabitlərin diqqətini öz çılğınlığı ilə cəlb edmişdi. Elə hey deyirdi: "Komandir, nə vaxta kimi burada qalacağıq, kəndlərimiz bir-bir əldən gedir, namusumuz tapdanır axı"... Nəhayət, igid qardaşımızın can atdığı döyüş bölgəsinə avqust ayının 14-də gəldik. Ağdamın Cavahirli kəndini düşmənlərdən təmizləyərkən Ayazın necə qəhrəmancasına vuruşduğunun şahidi oldum. Avqustun 24-də yenidən qızğın döyüş başlandı. Ayazın pulemyotu şaqqıldayaraq bir neçə erməni dığısını yerə sərdi. Sağ qalan ermənilər onun atəşi altında geriyə sürünməyə məcbur oldular. Öz döyüş məharətindən

sevinən Ayaz mənə tərəf qışqıraraq zarafatla dedi: "Komandir, sənə bu döyüşdə mütləq bir erməni tutacağam". Lakin qəflətən partlayan düşmən mərmisi onu ağır yaraladı. Bərdə qospitalına çatdırsaq da, cəsur Ayaz əbədi olaraq gözlərini yumdu. İki övlad atası olan, qardaşımız qəlbimizdə həmişə yaşayacaq"... **Ayaz Quliyev 1967-ci ildə Qobustan rayonunun Cəyirli kəndində** anadan olmuşdur. Orta məktəbi bitirmiş və ailə həyatı qurmuşdur... Yaxşı ki, belə şəhid oğullarımızın yurd-yuvasında yadigarları-övladları qalır. Çünki ot kökü üstə bitər, deyib atalar. Bizcə, Ayazın iki övladı da özü kimi yurd-yuva qədri bilən insanlar olacaqdır. İnşallah.

**Höccət Paşanın dediklərindən:** "Bu qanlı-qadalı günlər hər elin vətəncanlı, torpağı müqəddəs bilən igidlərindən çox apardı. Mənim eloğlularım Tofiq, Ayaz kimi... İgid eloğlularım idi bu cavanlar... Onların ölüm yolu niskilli şerlərimdə tərənnüm olunur və bundan sonra da olunacaqdır... Elə bir yas mərasimi yoxdur ki, ağbirçəklər o şəhid balalarımızın boyuna ağı biçməsinlər".

***Dağlara çən düşəndə,***
***Sünbülə dən düşəndə,***
***Ruhum bədəndən oyanar, ay Ayaz***
***Yadıma sən düşəndə.***

Ayaz kimi oğullar haqqında hamımız yazmalıyıq; şer, hekayə, oçerk, dastan və s. fərqi yoxdur. Əsas iş odur ki, şəhid balalarımızın adını necə olursa-olsun əbədiləşdirək... Bizim camaat Ayazın oxuduğu məktəbə onun adının verilməsini məsləhət bildilər... Elə də oldu. Məktəbimizə Ayazın adını verdilər, məktəbin həyətində onun büstü qoyuldu"... Höccət Paşa sevimli şagirdi Ayaza həsr etdiyi şeiri ilə ona öz müəllim məhəbbətini belə bəyan edir.

## AYAZIM MƏNİM

***Bu qoca dünyaya gələn günündən,***
***Qəribə yazıldın, a yazım mənim.***
***Bir də onu gördüm solub güllərim,***
***Nə tez gəlib-getdin, a yazım mənim.***

***Həmişə gec yatıb durram obaşdan,***
***Ancaq ağıl, kamal törər o başdan,***

*Elə bir qışam ki, bilin o başdan,*
*Vardı qarım, şaxtam, ayazım mənim.*

*Düşmənin gülləsi dəldi sənəmi?*
*Bəs kimə tapşırdın qızın Sənəmi?*
*Görəndə deyirdin mənə sən, əmi,*
*Gültək nə tez soldun Ayazım mənim.*

## ƏBİLQASIMOV NURU
## (1975-1994)

## "VƏTƏNƏ LAYİQLİ ÖVLAD OLACAQSAN"...



Həyatda insana ömür bir dəfə verilir. Lakin bu ömrü mənalı, dəyərli yaşamaq, onun isti-soyuqluğunu duymaq, ona tab gətirmək, yaşantılarını xatirəyə çevirmək hər adama nəsib olmur. Haqqında söz alacağımız Nuru ömrü bu iztirablı, gəlimli-gedimli dünyanın istisindən, soyuğundan xəbər verən dəyərli, həmişəyaşar ömürlərdəndir.

1975-ci il Qobustan rayonunun Sündü kəndində Məşarif kişinin bir oğlan dünyaya gəldi, kənd məktəbini bitirdi. Ana yurdumuzun başını qara buludlar alanda artıq yetkinləşmiş – 19 yaşına çatmışdı Nuru. O, hər gün radio və televiziyadan düşmənin törətdikləri müsibətləri eşidib, sarsılırdı. Elə ona görə də çağırış yaşı tamam olan kimi, evdə heç kimlə məsləhətləşmədən cəbhəyə yola düşdü. Cəbhə bölgəsində təlim məşqləri keçdi. Sonra **Ağdam bölgəsinin Qaravənd, Salahlı kəndləri** uğrunda gedən döyüşlərdə yaxından iştirak etdi. Onun sonuncu döyüşü 1994-cü ilin yanvar ayının 20-də oldu. Hansı ki, o gün ölkəmizin hər yerində qanlı Yanvar günü kimi qeyd edilirdi. Həmin gün Nurugilin dəstəsi Fərəhli kəndi uğrunda qəhrəmanlıqla vuruşdu. Vuruşdular və düşməni geri oturtdular. Düşmən gülləsi həmin döyüşdə Nurunun sinəsindən dəydi... Nuru xalqımızın müstəqilliyinə təcavüz olunduğunun dördüncü ildönümü günü şəhid oldu...

**Lumu xanımın dediklərindən:** *"Mən bütün övladlarım kimi Nurunu da uşaqlıqdan alışdırmışdım düzlüyə, halallığa, paklığa. Ailədə ayrı yeri vardı Nuru balamın. Həm də çox cəsarətli, təpərli bala idi. Doğulduğu torpağa hədsiz məhəbbət bəsləyirdi. Elə ona görə də hərbi xidmətə gedəndə bizə bildirməmişdir. Övladım olduğu üçün demirəm. Vətən yolunda ölümə getməyə hazır idi. Atalar düz deyib, niyyətin hara, mənzilin də ora. Vətən, namus, torpaq yolunda şəhid oldu Nuru balam. Nurunun ölümü belimi qırdı, bütün ailəmizi boynuburuq, gözüyaşlı qoydu Nuru. Allah təala bala dağın heç kəsə göstərməsin. Ağır dağdır cavan bala dağı görmək"...*

Lumu xanım kövrəldi, dili söz tutmadı. Yaşlı gözləri çox mətləbləri qandırırdı...

***Bu dağda daş qalmadı,***
***Yuvada quş qalmadı,***
***Sənə ağı deməkdən***
***Gözümdə yaş qalmadı.***

Lumu bacı, topaqlarımız yolunda şəhid gedən igidlər axirət evində hələ rahat uymamışlar. Onlar gözləyirlər ki, canlarını qurban verdikləri Vətən torpağı düşmən tapdağından azad olsun, əsir düşmüş qız-gəlinlər Vətənə qayıtsınlar. Gec-tez son qoyulacaq bu ədalətsiz müharibəyə... Şəhid övladların ruhu onda rahatlıq, dinclik tapacaq. Elə sizin Nurunun da ruhu...

## ƏZİMOV ZAKİR
## (1972-1993)

## "BALAM VƏTƏN DAŞIDI"...

Zakir Böyükağa oğlu 1972-ci ildə Qobustan rayonunun Ərəbşalbaş kəndində doğulmuşdur. Kənd orta məktəbini bitirəndən sonra Şamaxı rayon peşə məktəbinə daxil olur... Təhsilini başa vurandan sonra – 1992-ci ildə o, hərbi xidmətə çağrılır... Tərəddüd etmədən rayon hərbi komissarlığına gəlir. Sonra Bakı şəhər Hərbi Polis batalyonunda xidmət edir. O, bir neçə aydan sonra ön cəbhəyə yola düşür. İlk döyüşü Ağdərə bölgəsində olur. Bu döyüş zamanı o, altı



nəfər ermənini də əsir götürür. Həmin bölgədə Kasapet kəndi uğrunda gedən döyüşdə bir neçə yoldaşı ilə üç gün ac-susuz mühasirədə qalır... Çətinlik də olsa, **Kəlbəcərin Tunel, Keçiqaya, Zülfüqarlı, Çələndar** kəndləri uğrunda gedən döyüşlərdə öz hünəri ilə fərqlənir. Əzimov Zakirin son döyüşü 1993-cü il may ayının 28-də oldu. **Goranboy bölgəsinin Gülüstan kəndi** uğrunda qanlı-qadalı döyüş başlamışdı. Amma bir azdan erməni işğalçıları tab gətirə bilmədilər döyüşçülərimizin zərbəsinə... Zakir də yaxşı vuruşdu bu döyüşdə. Amma döyüş sona çatana yaxın Zakir düşmən gülləsinə tuş gəldi...

**Böyükağa kişinin dediklərindən:** Altı övlad böyütmüşdüm. Özü də onları halal əməyim ilə, çörəyimlə boya-başa çatdırmışam. Hamısını da el qədri, torpaq qədri bilən insanlar kimi tərbiyə etmişəm. Bunların arasında Zakirimin öz yeri vardır. O, diribaş, çılğın bir uşaq idi... Odur ki, onun haqqında danışmaq mənə ağır gəlir... Bu əlacı olmayan bir dərddir. Təsəlli onda tapırıq ki, oğlumuz Vətən yolunda şəhid getmişdir. Çox ata-ananın balasız, uşaqları atasız, neçə-neçə bacı-qardaşları gözü yaşlı qoydu bu dava.

***Zakiri gözlər ağlar,***
***Gəlinlər, qızlar ağlar,***
***Dərdim ölçüyə sığmaz***
***Ürəyim sızlar ağlar.***

**Haşiyə:** Böyükağa kişi, şəhid oğul dərdi ağır dərddir... Allah səbirinizi versin... Çox doğru dediniz ki, "balanız Vətən daşı oldu"... Onu da bilin ki, Vətən daşı olan balamız qədir bilən insanlar tərəfindən həmişə xatırlanacaq, xatirələri şirin bir nağıl kimi ürəklərdə yaşayacaqdır. Bizim kimi alim, şairlər Zakirin adına bundan sonra da neçə-neçə şerlər, nəğmələr həsr edəcək... Bu yazdıqlarımız isə qo-

yun sizə, Çimnaz xalaya, eləcə də Hüseynağa, Yarağa və Laçına sadəcə bir təsəlli olsun...

## ƏLƏKBƏROV QALİB
## (1973-1992)

## "İKİ GÜN SONRA GƏLDİ AD GÜNÜNƏ"



Qalib Xanlar oğlu 1973-cü il iyul ayının 8-də Qobustan rayonunun Çuxanlı kəndində doğulmuşdur. O, Çuxanlı kənd səkkizillik məktəbini bitirib, qonşu Ərəbşalbaş kənd məktəbində orta təhsilini başa vurmuşdur. 1992-ci ildə rayon hərbi komissarlığının nəzdindəki sürücülük kursunu bitirəndən sonra hərbi xidmətə çağrılır. O, bir neçə təlim məşqləri keçir. Sonra könüllü olaraq döyüş bölgəsinə yollanır. Bir neçə döyüşdə iştirak edir. On doqquz yaşlı Qalib görür ki, müharibə onun kitabda oxuduqlarına heç bənzəmir. Doğrudan da, müharibə elə bir müdhiş fəlakətdir ki, dünyanın əşrəfi sayılan insanın qiymətini göz qırpımında balaca bir qurşun heçə endirir... Bir an öncə deyib-gülən, düşmənə meydan oxuyan ər misallı igid yağı gülləsinə tuş gəlməklə bu dünyaya əlvida deyir. Bəzilərinin isə son sözünü deməyə belə macalı da olmur. Belə bir od-alov içində Qalib neçə-neçə hünərlər göstərir. Son döyüşü **Qarabağın Naxçıvanik kəndi uğrunda** gedən savaşda başa çatır... İgid el oğlunu Çuxanlı kənd qəbristanlığında dəfn edirlər...

**Bacısı İradənin dediklərindən:** Biz bacıların iki qardaşı vardı: Qalib və Rahid. Qalib böyük qardaşımız idi. Bu da adətdir ki, həmişə böyük qardaşın canına and içərlər, onun toyunu gözləyərlər. Biz də eləcə... Qardaşım iyul ayının 8-də anadan olmuşdur. Həmişə keçirirdik onun ad gününü. Evdə bildirmişdim ki, Qalib ad gününə gəlsə, fikrini öyrənərik və nişan verərik... İyul ayının əvvəli olardı. Axşam yuxu gördüm. Gördüm ki, Qalib gəlib, onun üçün toy edirik. Səhər ayıldım. Qorxudan yuxumu heç kimə danışmadım. Tez bulağa getdim. Yuxumu suya danışdım ki, aydınlıq olsun. Ayın 6-da anam

Güləsmə dedi ki, bir neçə gündən sonra Qalibin ad günüdür. Hazırlıq görək, yır-yığış edək. Söz vermişdi ki, yoldaşları ilə gələcək. Doğrudan da, anam dedikləri düz çıxdı. Qardaşım gəldi ad gününə. İradənin səsi burada qırıldı... Göz yaşı selə döndü. Kövrəldim, mənim də ürəyimdən "dəli bir ağlamaq keçdi". Özümü güclə saxladım. Ağıların kədərinə büründüm... Təskinlik tapmaq və şəhid ailəsinə təskinlik vermək üçün.

*Aşıq ellərdə də var,*
*Sonam göllərdə də var,*
*Sizdəki şəhidlərdən*
*Bizim ellərdə də var.*

İllər keçəcək, hər yerdə, Çuxanlıda da, elə Qalibgilin evində də ad günləri keçiriləcək... Çünki həyat davam edir. Amma Qalibin ad gününə bənzəri olmayacaq. Onun ad gününü isə doğmaları əbədiyyətə qovuşduğu, şəhidlik zirvəsində yuva qurduğu gün kimi qeyd edəcəklər... Özü də bütün Çuxanlılarla bir yerdə...

## ƏMİROV ABİD
## (1975-1994)

## "AYRILIQ NƏ YAMANDI"

Abid Əmralı oğlu 1975-ci ildə Qobustan rayonunun Sündü kəndində anadan olub. Kənd orta məktəbini "əla" və "yaxşı" qiymətlərlə başa vurub...

**Haşiyə:** Uşaqlıqdan hərbçi olmaq istəyirdi Abid. Özü də tankçı olmaq arzusunda idi. Atalar demiş, niyyətin hara, mənzilin ora. Orta məktəbi qurtaran kimi rayon hərbi komissarlığına müraciət edir. Hərbi komissarlığ onu H.Aslanov adına Bakı Ali Hərbi birləşməsi komandirlər məktəbinə göndərir. Bir ilə yaxın orda təlim keçir. Bu zaman cəbhədə qızğın döyüşlər gedirdi. Odur ki, belə qərara gəlir ki, döyüşə getsin. Təhsilini sonra da davam etdirə bilər. Böyük çətinlikdən sonra məktəbdən döyüşə getmək üçün icazə alır...

Bir çox cəbhə bölgələrində vuruşur, qəhrəmanlıqlar göstərir. Komandiri ona 21 oktyabr 1994-cü il tarixdə mühüm bir tapşırıq verir. O, bir neçə cəbhə yoldaşı ilə növbəti hərbi əməliyyata gedir.



Ən nəhayət, onlar verilən tapşırığı yerinə yetirirlər. Geri qayıdarkən yolda Abid düşmən gülləsinə tuş gəlir. Ürəyində yaşamaq, yaratmaq, düşməndən intiqam almaq kimi ülvi hisslər baş alıb gedən Abid yoldaşlarının qolları arasında qəhrəmancasına həlak olur...

Sündü kəndinə bir şəhid cənazəsi də gətirirlər. Özü də 19 yaşlı bir gəncin - "sevirəm" kəlməsi ürəyində qalan Abidin! Onu Sündü kənd qəbristanlığında dəfn edirlər... Deyirlər ki, ağlayanlar arasında bir qızın hıçqırıqları kəsilmirdi, daha yanıqlı ağlayırdı o qız – ismi pünhan... Sonra bu hıçqırıqlar alışıb-yanan, yandıran ağı çələnginə büründü və dolandı başdan-başa Sündü kəndinə...

***Mən aşıq nə yamandı,***
***Dərd canda nə yamandı,***
***Sevmək el adətidir***
***Ayrılıq nə yamandır.***

***Aşıq beləmi ağlar,***
***Bülbül beləmi ağlar?***
***Eşqindən ayrı düşən***
***Bəyəm, beləmi ağlar?***

Bu ağıya bürünmüş sızıltılı səs Gülzaman ananın da qulağına çatdı. On doqquz yaşında qanına qəltan olmuş şəhid Abidin anası Gülzaman ana... Ömür-gün yoldaşı vəfat edəndən sonra övladını böyük əziyyətlə böyüdən Gülzaman ana... Sakitləşdirmək olmurdu, gözləri ilə od üfürən oğul dağlı ananı. Özü də Abidin cənazəsi ata ocağından çıxanda... Ananın yanıqlı səsi hamını odsuz-ocaqsız yandırırdı. Haradan idi anada olan bu yanıqlı səs, haradan idi ananın dediyi insan vücudunu lərziyə gətirən bu sözlər...

***Ay gedən, dayan getmə,***
***Dərdi et bəyan, getmə,***
***Çoxu getdi dinmədim***
***Məni kor qoyan, getmə...***

**Haşiyə:** Bəli, Gülzaman ana, dünyaya gələn gec-tez gedəcək. Xoş o kəsin halına ki, illər keçsə də, onun adını hörmət və izzətlə xatırlayacaqlar. Özü də Vətənin şəhid balası kimi...

## ƏMİROV VASİF
## (1975-1993)

## "18 YAŞ NƏ İDİ Kİ"...



Vasif Sərxan oğlu 1975-ci ildə Qobustan rayonunun Cəmcəmli kəndində dünyaya göz açmışdır. O, 1992-ci ildə Cəmcəmli kənd orta məktəbini bitirmişdir.

**Haşiyə:** Sərxan kişinin üç oğlu vardı. Özü torpaq, el qədri bildiyi, halallıqla dolandığı üçün, balalarını da bu ruhda, belə əqidədə tərbiyə etmişdi... Vasif orta məktəbi qurtaran kimi belə qərara gəlir ki, torpaqlarımızın müdafiəsinə yollansın. Ona görə də ürək sirrini ilk dəfə atasına açır. Oğlunun fikrini axıra qədər dinləyəndən sonra Sərxan kişi aramla deyir:

- Oğul, dədə-babadan torpaq, namus, qeyrət rəmzi sayılır. Ana torpaq darda olanda qeyrət qədri bilənlər geridə durmayır, bala. Əgər bu istək ürəyindən gəlirsə, mən nə deyə bilərəm? Yolun uğurlu olsun. Allah özü pənahında saxlasın...

Xəbəri eşidən ana – Elmira bacı ah-fəryad elədi. Vasif isə sözünün üstündə durdu... Baxmadı ananın fəryadına. Vasif doğmaları ilə halal – hümmət edib, yola düşdü.

Bir müddət təlim məşqləri keçəndən sonra cəbhəyə yollandı. İlk əvvəl Ağdamın "At zavodu" deyilən ərazisində döyüşdü... Bir neçə ay sonra onu, Tərtər bölgəsinə göndərildi... Vasif bu bölgədə də nümunəvi döyüşçü olur. Verilən tapşırıqları can-başla, yerinə yetirir... Yenə yağı düşmən hücuma keçmişdir. Vasif öz silah yoldaşları ilə döyüşə girişir. Qanlı vuruşma başlayır... Həmin döyüşdə düşmən susdurulsa da, xeyli döyüşçülərimiz itki də verildi... Vasif də həmin döyüşdə itkin düşür...

**Qardaşı Hamletin dediklərindən:** "Qardaşımın xasiyyətlərin-

dən biri də o idi ki, verdiyi sözə əməl edərdi. O, cəbhəyə yollananda mənə demişdi: "Qaqa, darıxma, anamı da qoyma ağlasın. Tezliklə düşməni məhv edəcəyik, qələbəynən qayıdacağıq"... Odur ki, inanmıram, qardaşımın ölümünə. O, söz veribsə, deməli qayıdacaq...

**Sərxan kişinin dediklərindən:** "Allah müharibə törədənlərin bəlasın versin. Çox ata-ananın gözünü yaşlı qoydu... Cavanlarımız tez getdilər bada. Vasifimin cəmi 18 yaşı vardı... On səkkiz yaş nə idi ki... Heç olmasa, balamın qəbri olsaydı"... Burada Sərxan kişinin səsi qırıldı, başını aşağı dikdi...

**Söz ardı:** Sərxan kişi, oğlunuz Vasif elin-obanın adını uca etdi. Xalqımız da heç vaxt Vasif kimi igidlərin adını unutmayacaqdır. Bu ara vaxtilə Ağca nənəmin dediyi ağılar yenidən dolaşdı fikrimdə. Çoxusu da Vasif taleyi ilə üst-üstə düşən ağılar...

*Əzizim, ağlar oldum,*
*Viranə bağlar oldum,*
*Dərd-ələm içindəyəm*
*Sinəsi dağlar oldum.*

## İBRAHİMOV ƏBULFƏT
## (1964-1992)

## HƏSƏNAĞA KİŞİNİN OCAĞINDA BİR GƏLİN VAR...

Əbülfət Həsənağa oğlu 1964-cü ildə Qobustan rayonunun Nabur kəndində anadan olub. O, orta məktəbi bitirəndən sonra hərbi xidmətə çağırılır... Əbülfət hərbi xidmətini Qazaxıstanda keçirir. Sovet ordusu sıralarında nümunəvi qulluq edib və bir neçə "Fəxri fərmana" layiq görülür. Vətənə qayıdandan sonra könül verdiyi bir gözəli ona ad edirlər. Ata-ananın sevincli günləri başlayır. Toya hazırlaşırlar. Ən nəhayət, Əbülfətin toyu olur, ailə arzusuna çatır. Ana-bacı doyunca oynayırlar. Həsənağa kişi də qol açıb oğul toyunda doyunca süzür. Toydan bir neçə ay sonra Əbülfət belə qərara gəlir ki, artıq Vətən torpağı günü-gündən düşmənin əlinə keçir. Kənarda qalmaq olmazdı. Əbülfət doğmaları ilə görüşüb cəbhəyə yola düşür...

Ana torpağı düşmən tapdağından təmizləmək, şəhid oğullarımızın qanını almaqdan ötrü. Üç aya yaxın Ağdam cəbhəsində vuruşur. Sovet ordusu sıralarında xidmət etdiyi vaxt əldə etdiyi təcrübə



də cəbhədə Əbülfətin köməyinə çatır. Odur ki, fəallığı ilə seçilir... 1992-ci ilin yayında Əbülfətgilin dəstəsi **Ağdamın Pircamal kəndi** uğrunda döyüşə başlayır. Vətən oğulları bu döyüşdə qələbə qazanırlar... Amma Əbülfət bu qələbəni görə bilmir. Döyüşün qızğın vaxtında düşmən gülləsi onun ömrünə son qoyur...

**Haşiyə:** Həsənağa kişinin ocağında taleyini qınayan bir gəlin var. Əbülfətin ömür-gün yoldaşı. Dünyaya yenicə göz açmış bir körpənin anası. Ağlamağınsızlamağın, ağız açmağın nə olduğunu o qədər də bilməyən bu gəlinin göz yaşları ümmana dönüb Əbülfətdən sonra... Hətta iş o yerə gəlib ki, balaca balasını da ömür-gün yoldaşının boyuna biçilmiş ağılarla oxşayır...

***Arançısan tut göndər,***
***Doşab göndər, tut göndər,***
***Özün gələ bilməsən***
***Bir kirəkeş tut göndər.***

Yeri gələndə də deyir ki, Əbülfət bütün qohumların əzizi idi. Hamıya kömək etməyi özünə borc bilərdi... Özü də ailəcanlı, mehriban və böyük ürək sahibi idi... Taleyini qınayan bu gəlin təskinliyi bir Əbülfətin ciyərparasında tapıb, bir də "yazıya pozu yoxdur", – kəlamı və Allaha şükürlərində...

***Aşıq nə çarə gərək,***
***Xalın nə çarə gərək,***
***Bir işi Allah əyə***
***Ona nə çarə gərək?!***

## İBRAHİMOV İQBAL
## (1971-1994)

## "DƏRƏKƏNDLİLƏRİN FƏXRİ"...



İqbal Atabala oğlu 1971-ci il noyabr ayının 25-də Dərəkənd kəndində dünyaya göz açmışdır. 1986-cı ildə kənd məktəbini bitirib, Mərəzə qəsəbəsindəki 185-saylı OTP məktəbinə daxil olur. O, məktəbi qurtarandan sonra hərbi xidmətə çağrılır. Penza şəhərində qulluq edir. Hərbi xidmətdən qayıdandan sonra, bir müddət Telman adına kolxozda işləyir. Və nəhayət, 1993-cü ildə könüllülər dəstəsinə qoşulur. Bir çox döyüşlərdə fərqlənir, yoldaşlarının sevimlisinə çevrilir. İqbal **1994-cü il yanvar ayının 12-də düşmən** gülləsinə tuş gəlir...

**Haşiyə:** İqbalın cənazəsi doğma kəndlərinə gətiriləndə bütün el-oba büründü matəmə. Nakam İqbalın itkisi qocanı da, cavanı da yandırırdı. Bir el ağbirçəyinin düzdüyü ağılar elə bil İqbalın boyuna biçilmişdir.

*Qarabağın meşəsi,*
*Tərtəzə bənövşəsi,*
*Şəhid verən bacının,*
*Ağlamaqdır peşəsi.*

O gündən İqbal bütün Dərəkəndlilərin sevimlisinə çevrildi. Ağsaqqal, ağbirçək, ziyalılar belə qərara gəldilər ki, İqbalın adını əbədiləşdirsinlər. Odur ki, oxuduğu məktəbə onun adını verdilər. Məktəbin qabağında isə büstünü qoydular... Kövrələnlər, için-için ağlayanlar çox oldu o gün. Bala dağlı ananın ah-fəryadı isə ürəklərə od salırdı... Bu zaman qabaqcıl pedaqoq İzzət müəllim göz yaşını silərək kədərli səslə dedi:

- Ağlama, bacı, bu gündən İqbal tək sənin yox, bizim hamımızın balasıdır. Bəli, sənin oğlun bizim oğlumuzdur...

Mərasimə yığılan məktəblilər bir daha yəqin etdilər ki, el,

torpaq yolunda şəhid olan İqbal kimi igidlər heç vaxt unudulmur... İqbal hər zaman Dərəkəndlilərin qəlbində əbədi yaşayacaqdır...

**Haşiyə:** Bu ara ustad Aşıq Xanışın – övladını əlləri ilə torpağa tapşıran oğul dağlı analara təsəlli olan örnək bir qoşması yadıma düşdü.

***Ana, dinlə məni, deyim hardayam,***
***İşıqdan, havadan intizardayam,***
***Üstümü ot basmış dar məzardayam,***
***Dörd yanım buz kimi divardı, ana.***

***...Torpağa qarışıb Heraklın başı,***
***Ərəstun, Əflatun olublar naşı,***
***Firon tək fərhənglər tökür göz yaşı,***
***İskəndər əliboş, üryandı, ana.***

***Xaqani, Füzuli, Hafiz, Nəsimi,***
***Firdovsi, Fələki, Şeyx Sənan, Cami,***
***Məsihi, Vidadi, Vaqif, Nizami,***
***Dərin düşünsədə, dardadı, ana...***

***Təsəlli deyilmi, anacan, sənə,***
***Yer altında yatan xan, xaqan sənə,***
***Bir quzuydum getdim mən qurban sənə,***
***Balalar qurbandı anaya, ana.***

Ömrün uzun olsun, Ustad Xanış... Şerlərinin çoxu belecə məlhəmdir dərdimizə, sərimizə...

## İBRAHİMOV NƏRİMAN
## (1963-1994)

## "GƏL, MƏNİ APAR İNDİ"...

**I Haşiyə:** Qobustan şəhidləri kitabını hazırlayarkən bəzi ailələrlə – iki övlad dağlı, nişanlı oğul itirən, məzarının yerinə həsrət qalan, övladlarının ölümünə inanmayan şəhidlərin doğmaları ilə görüşməyə cəsarət etmirdim. Ona görə ki, o görüş zamanı doğmaların göz yaşlarına, hıçqırtılarına, ah - fəryadlarına tab gətirmək olmur.



Odur ki, belə ailələrdən məlumatı başqalarının vasitəsilə və ya məktublarla almışam. Baş çəkə bilmədiyim, üzbəüz oturub danışa bilmədiyim belə ailələrdən biri də Ramiz, Nəriman kimi iki oğul şəhid vermiş Gülməmməd kişinin ocağı oldu... Öyrənə bildim ki, iki oğul itkisi atanın belini bükmüş, ananın göz yaşını leysana döndərmişdir...

*Kəkilin iki yana,*
*Dara tök iki yana,*
*Aləm bir yana yansa,*
*Mən yandım iki yana.*

İbrahimov Nəriman 1963-cü ildə Qobustan rayonunun Təklə-Mirzəbaba kəndində anadan olmuşdur. O, kənd orta məktəbi qurtarandan sonra hərbi xidmətə getmişdir. Rusiyada xidməti zamanı öz bacarığı, biliyi, cəsarəti ilə komandirlərinin rəğbətini qazanmışdır... Vaxtilə Nərimanın komandirləri onun valideyinlərinin adına neçə-neçə təşəkkürlər göndərmişdirlər... **"Oğlunuz Nəriman əsl Sovet vətəndaşıdır. Belə intizamlı, xeyirxah, mərd övlad böyütdüyünüz üçün sizə təşəkkürümüzü bildiririk"**... Belə xidmətinə görə Nəriman serjant rütbəsi ilə doğma kəndinə qayıdır... Bu o zamanlar idi ki, yağılar ölkəmizin bir çox regionunu ələ keçirmişdi. Nəriman bunu heç cür qeyrətinə sığışdıra bilmir. Odur ki, **iki uşağının** olmasına baxmayaraq, könüllü olaraq cəbhəyə yollanır...

**II Haşiyə:** Bu ara Nərimana xəbər gəlir ki, qardaşı Ramiz də hərbi xidmətdən qayıdan kimi cəbhəyə yola düşmüşdür... Nəriman bu xəbərdən bir az sarsılır. Axı o hələ uşaqdır, – deyə fikirləşir. Hansı bölgəyə getdisə, Ramizi soraqlayır ki, onu öz dəstəsinə keçirtsin, bir yerdə vuruşsunlar... Bir az keçəndən sonra qardaşının ölüm xəbərini eşidir... Valideyinlərinə təskinlik versə də, içində nə çəkdiyini bir özü bilirdi... Ən ağır döyüşlərdə iştirak edir ki, qardaşının qanını alsın, daha çox erməni qırsın. Elə də olur, Ramizin əvəzinə yüzlərlə erməni dığısını qanına qəltan edir... Nəriman Ramizin ölümündən sonra düz iki ilə yaxın düşmənlə vuruşur. Bu müddət ərzində təkcə qardaşının deyil, yüzlərlə şəhidin intiqamını alır yağıdan... Sonra o, Kəl-

bəcər, Laçın, Füzuli, Qubadlı, Ağdam bölgələrində yüzlərlə döyüşlərdə iştirak edir, dəfələrlə ölümlə üz-üzə gəlir... Ağdərə bölgəsində komandirlər Nərimanı növbəti əməliyyata göndərirlər. Düşmənin mövqeyini müəyyənləşdirmək üçün erməni əsgəri əsir edilməlidir. O, verilən tapşırığı yerinə yetirir – iki ermənini əsir edib geri qayıdır... Bu zaman Nəriman yaralanır... Və həmin yaradan yaxasını qurtara bilmir... **1994-cü il may ayının 3-də əbədiyyətə qovuşur...**

Yenidən Gülməmməd ocağı qara bağlayır. Ramiz dağı, yanğısı doğmalarının ürəyində qaysaqlamamış. Nəriman dərdi qoparır həmin qaysaqları... Belə bir faciə görməyən camaat bir-birinə dəyir... Heç kəs deməyə söz tapmır. Yenə də ağsaqqal-ağbirçəklər irəli dururlar. Bir təhər ovundurmağa çalışırlar Nərimanın doğmalarını. Kim idi ovunan?! İki övlad itkisinə kim dözə bilər? Yenə də şükür etmək lazımdır Allahın bildiyinə... Verəndə o kişidi, alan da!..

Bir gəlin – Güllü xanım – Nərimanın ömür-gün yoldaşı diri-diri alışıb yanır. Ağlaya-ağlaya qınayır öz bədbəxt taleyini... Təsəlli verənlər çox idi... Amma onun ürəyinin odunun-alovunun tüstüləşib başından çıxdığını heç kim görmürdü və görə də bilməzdi... El ağbirçəyinin ürək dağlayan səsi ağılara qoşulanda, Güllünün göz yaşları, ürəyinin odunu söndürmək əvəzinə onu daha da alovlandırırdı...

***Güllə dəydi sinəndən,***
***Yer titrədi pərindən,***
***Mən gözünü aç dedim***
***Sənsə yumdum dərindən.***

**Sonluq:** Gülməmməd ocağında Yeganə və Familə adında iki uşaq böyüyür. Güllü neçə illərdir ki, Nərimanın körpələrinin istisinə sığınıb... Təsəlli odur ki, uşaqlarını atalarının adına layiq böyütsün... Biz əminik ki, aylar, illər ötəcək Nərimanın yurddaşları böyüyəcək. Qara günlər arxada qalacaq... Torpaqlarımız azad olunacaq... Hər yerdə olub-keçənlərdən söz açacaqlar... O zaman Yeganə və Familəni görən hər kəs fəxrlə deyəcək: Bu uşaqlar xoşbəxt günlərimiz, xoş gələcəyimiz, müqəddəs torpaqlarımızın azadlığı üçün canını qurban verən Nərimanın balalarıdır. Maşallah böyüyüblər... Təki, xoşbəxt olsunlar...

# İBRAHİMOV RAMİZ
# (1973-1992)

## "SƏNƏ GƏLƏNİM QURBAN"...



Ramiz Gülməmməd oğlu 1973-cü ildə Qobustan rayonunun Təklə-Mirzəbaba kəndində anadan olmuşdur. O, 1990-cı ildə kənd orta məktəbini bitirmişdir. Ramiz 1991-ci ildə hərbi xidmətə çağrılır. Bir ilə yaxın Ukraynada əsgəri xidmətdə olur. O burada hərbin sirlərini müəyyən qədər öyrənə bilir. Belə ki, bir çox silahlarla rəftar etməyi öyrənir... Sən demə heç bir il keçməyəcək ki, o silahları işlətmək Ramizə lazım olacaqdır...

Vətənə qayıdan Ramiz onu qan içində görür. Aydın olur ki, böyük qardaşı iki uşağı olmasına baxmayaraq Vətənin müdafiəsinə getmişdir... Ramiz belə qərara gəlir ki, cəbhəyə – torpaqlarımızın müdafiəsinə yola düşsün... Valideyinləri nə qədər etiraz etsələr də fikirindən dönmür... Onu Füzuli bölgəsinə göndərirlər... Ukraynada keçdiyi təlimlər ilk gündən onun dadına çatır. Əli Qədirovun Qobustan qəzetinin **19 sentyabr 1992-ci il tarixli "Qeyrət qandadır, qardaş" oçerkində** Ramiz barədə oxuyuruq... "Cəbhə xəttindən xoş sorağı gəldi. Komandirləri onu səmimiliyinə görə qiymətləndirirdilər. Cəbhədən-cəbhəyə, döyüşdən-döyüşə gedən yollar Ramizi daha da şöhrətləndirir"... Raminzin son döyüşü 1992-ci ildə Füzuli regionun Cəmilli kəndi uğrunda gedən savaşda oldu... Bu ölüm bütün döyüş dostlarını sarsıtdı...

*Mən aşıq özü bir-bir,*
*Çəkərəm közü bir-bir,*
*Səninçin ağız açıb*
*Deyərəm, sözü bir-bir.*

Tənzilə ananın yanıqlı səslə dediyi bu ağılar bütün məclisi ağladırdı. Hamı ağlayırdı, sızlayırdı... Yazıya isə pozu yoxdur.

**Söz ardı:** Günlər keçəcək, aylar ötəcək, neçə-neçə şəhidin qanı tökülmüş Qarabağ torpağı azad ediləcək. Gülləbaran olmuş dağlar, meşələr, ormanlar şadlıq edəcək... Onda bütün şəhidlərin ruhu son

məzarlarında rahatlıq tapacaq... Hamı kimi, Təklə-Mirzəbaba kəndinin gəncləri dəstə ilə Bakıdakı "Şəhidlər xiyabanı"ndakı Ramizin qəbrinin ziyarətinə gedəcəklər. Hamı bir səslə deyəcək:

Şəhid qardaşlarımız, daha rahat yatın! Torpaqlarımız azad oldu. Qisasınızı düşməndən aldıq!

## İMANOV HEYBƏT
## (1975-1994)
## "QƏLƏBƏYLƏ QAYIDACAĞAM"...



Heybət Seydəli oğlu 1975-ci ilin iyul ayının 15-də Mərəzə qəsəbəsində anadan olmuşdur. O, A.O.Çernyayaevski adına Mərəzə qəsəbə orta məktəbini bitirmişdir. Sürücülük sənətini sevdiyi üçün Şamaxı şəhərindəki sürücülük məktəbinə daxil olur. Sevimli peşəsinə yiyələnəndən sonra hərbi xidmətə çağırırlar.

**Anası Güldənənin dediklərindən:** Uşaqların atası on ildir ki, dünyasını dəyişmişdir. Atadan yetim qalanda körpə idilər. Heybətin o zaman on yaşı vardı. O vaxtdan balalarımın əziyyətini özüm çəkmişəm. Əziyyətlə böyütmüşəm onları. Heybət də uşaq olmasına baxmayaraq, hər şeyi başa düşürdü. Ona görə sürücülük məktəbinə getdi ki, mənə kömək etsin. Sevincli günlərimiz təzəcə başlayırdı ki, balamı davaya apardılar... Baxmadılar başsız qadın olmağıma... Yola düşəndə dediyi sözlər indi də qulağımdadır:

- Ana, bacı-qardaşlarından muğayət ol. Ev-eşik sahibi olsalar da, hər zaman böyük sözünə ehtiyacları var. Məndən isə narahat olma. Allah qoysa, qələbə ilə qayıdacam evimizə... Son kəlməni deməklə Güldənə bacının səsinin gərilməsi, kövrəlməsi, göz yaşlarının yanaqlarından şırım açması bir oldu...

**Haşiyə:** Heybət Qarabağın bir çox bölgələrində vuruşdu. Özü də kişi kimi. Qorxu nə olduğunu bilmədi. Neçə-neçə ölümün pəncəsindən qurtardı. Amma ataların bir sözü var, vaxt gələndə heç yana qaçmaq olmur. Heybətin son döyüşü **1994-cü il yanvar ayının 10-da Ağdamın Qarvənd kəndi** uğrunda gedən döyüşdə oldu. Düşmən gülləsi Heybətin qorxu bilməz ürəyini susdurdu...

Güldənə bacı yanaqlarında puçurlanmış göz yaşlarını silə-silə deyirdi: "Amansız ölüm balamın arzu-muradını gözündə qoydu. Evimin çırağını həmişəlik yandırmaq onun payına düşürdü. Əcəl isə aman vermədi... Neçə ildir ki, mənim evimə Heybətin şəhidlik adının işığı düşür... Artıq mən də öyrənmişəm bu işığın nuruna"... Belə niskilli söhbətdən sonra anaya deyəsi bir söz tapa bilmədim. Allahın qismətinə şükürlər edib anaya səbr dilədim... Ana mənə öz razılığını etdi... Ayrılanda əlimi sıxdı,danışa bilmədi, gözləri ilə dediklərini anladım.

*Bağlarda üzüm mənim,*
*Qurtardı sözüm mənim,*
*Belə dərd görəcəkmiş*
*Nə pismiş üzüm mənim.*

*Əzizim yuvasına,*
*Şahmarın yuvasına,*
*Görüm qanı çilənsin*
*Düşmənin yuvasına.*

## İSMAYILOV DƏYANƏT
## (1974-1992)

## "SÜMÜYÜM DİLƏ GƏLDİ"...

Dəyanət Ağca oğlu 1974-cü il aprel ayının 10-da Nərimankənd kəndində dünyaya göz açmışdır. O, 1991-ci ildə Nərimankənd kənd orta məktəbini bitirmişdir. Kənd ziyalıları, müəllimləri və dostlarının dediyinə görə o, səmimiyyəti, doğruçuluğu, mehribanlığı ilə tay-tuşlarından seçilirdi. Haqsızlıqla heç vaxt barışmazdı. Yerişində, duruşunda, baxışında bir mətinlik vardı Dəyanətin. Bir sözlə, adı kimi dəyanətli oğlan idi Dəyanət... Bu dəyanətinə, mərdliyinə görə o, orta məktəbi qurtaran kimi orduya getməyi qət etdi. Odur ki, 1992-ci il iyulun on birində Qobustan rayon hərbi komisarlığına gəlir. Hərbi xidmətə yola düşür. O, əvvəlcə Lənkəran şəhərində təlim məşqləri keçir. Müəyyən təcrübə qazanır. Sonra cəbhəyə, özü də ön cəbhəyə – düşmən səngərləri ilə əhatə olunmuş Qubadlıya göndərilir. O, bir çox döyüşlərdə fəallıq göstərir. Cəbhə yoldaşlarının rəğbətini qazanır. **1992-ci ilin sentyabr ayının 28-də Dəyanətin** son döyüşü



olur. On səkkiz yaşı tamam olmuş Dəyanət Vətən yolunda şəhid olur.

**Düşündüklərimdən:** Dəyanət bu dünyaya yaşamaq üçün gəlmişdi. Əfsus *ki, o bu yolun son ucunu* görə *bilmədi*... Heç macal da tapmadı ki, kiməsə bircə dəfə də olsa sevgi dolu məktub yazsın... Bəlkə də yazmışdı, bəlkə də ürəyində əzizlədiyi o qıza sevgisini də bildirmişdi... Azmı olub orta məktəbdə bir-birini sevib səadətə qovuşanlar?! Dəyanətin sirrini isə ancaq Allah bilir... Əslində isə Dəyanət bir tikə uşaq idi – 18 yaşında. Bu yaşda Dəyanət sevgilisinə deyil, əbədiyyətə qovuşdu. Şərəfli bir əbədiyyətə... Dəyanət kimi insanların ömrü illərlə deyil, əsrlərlə ölçülür. Belə ömür sahibləri daim yaşayır, heç vaxt unudulmur. Və şübhəsiz ki, harada, haçansa igidlərdən söz düşsə, Dəyanət misallı ərlər xatırlanacaq, ehtiramla yad ediləcək. Və yaxud hansı yas mərasimlərində dərdli, oğul dağlı bir ana ağız açsa, Dəyanət kimi nakamların da ruhuna pay düşəcək...

*Gün keçdi ilə gəldi,*
*Göz yaşım gilə gəldi,*
*Dəyanətin dərdindən*
*Sümüyüm dilə gəldi.*

## İSRAFİLOV QABİL
## (1974-1992)

## "ÖMRÜ KƏM OLAN, QARDAŞ"...

Qabilin doğmaları – Gülağa kişi, Şura ana, eləcə də altı bacı toy arzusu - qardaş toyu həsrətində idilər. Söz düşəndə Sinəbəd deyirdi:

- Ay qağa, bir tələs, de görək ürəyindəki hansı bəxtəvərdi?.. Axı biz toyunda oynamaq istəyirik. Allaha şükür, gör neçə bacın var? Elə təkcə özümüz bəsik toyda oynamağa. Aşıqları da özümüz yoracayıq. Sən bircə o gözəlin adını de.



***Şirvan yolu gül bağlar,***
***O gülün birini üzəydim,***
***Saç bağıma düzəydim,***
***Qardaşımın toyunda***
***Bir doyunca süzəydim...***

Sinəbənd bu şeri havacatla oxuyar və eyvanın ortasında dövrə vurardı. Hamı şaqqanaq çəkib gülərdi... Sən saydığını say, gör fələk nə sayır? Qabil cəbhəyə gedəndən az sonra onun qara xəbəri gəldi kəndə... Səhərisi gün isə tabutu... Toy arzusunda olan bacılar qara bağladı, fəryad qopardılar... Odur ki, Qabilin toyunda oynamaqdan deyil, ağı deməkdən yoruldular bacılar...

***Ömrü kəm olan, qardaş,***
***Baxtı cəm olan, qardaş,***
***Bacılar olsun qurban***
***Arzusu xəm olan, qardaş.***

***Əzizim ünə düşdük,***
***Ündən də ünə düşdük,***
***Evin yıxılsın, fələk***
***Yaman pis günə düşdük.***

Qabilin bacıları – Gumuş, Qaratel, Məhbubə, hər biri ayrı-ayrı bayatı, ağı boxçası cəm etdilər şəhid Qabilin adına. Şirni boxçaları isə bağlı qaldı. Allahın qisməti belə imiş. Qismətdən isə qaçmaq olmur. Allah səbr versin...

**Haşiyə:** Qabil Gülağa oğlu 1974-cü il fevral ayının 12-də Qobustan rayonunun Nabur kəndində anadan olmuşdur. O, 1991-ci ildə hərbi xidmətə çağırılmışdır. O, təlim məşqləri keçəndən sonra cəbhəyə yola düşür. Bir neçə bölgədə vuruşur. Sonra Laçın bölgəsinə yollanır. **Laçının müdafiəsi uğrunda yorulmadan vuruşur**. Elə 1992-ci il sentyabr ayında həmin cəbhədə qəhrəmancasına şəhid olur.

Qəlbində yüzlərlə arzuları düşmənin bir gülləsi ilə sona yetən Qabil Gülağa oğlunu öz doğma kəndində dəfn etdilər.

# KƏRİMOV MAHİR
# (1972-1992)

## "ÖLÜB TORPAĞA GETSƏM"...

Şamaxıdan, təxminən 30 km məsafədə Pirsaat çayının sahilində uca dağlara dirsəklənmiş qədim bir kənd var; Poladlı kəndi. Gecələr Pirsaat çayının zümzümələri ilə yuxuya dalan bu kənd indiyə kimi xalqımızın qədim adətlərinin bir qismini özündə yaşada bilmişdir. Poladlı kəndində keçirilən toy, yas, bayram mərasimlərinin özünəməxsusluğu heç bir təsvirə sığmaz. İndinin özündə də toy mərasimində cavanlar hörmət xatirinə yaşlılarla bir yerdə oturub yeyib-içməzlər... Dədə-baba adətinə sadiq qalan Poladlılar indinin özündə də toy məclisinə əsasən, aşıqları dəvət edirlər.



O da yadımdadır ki, Poladlıya çox toylara gələn sənətkarlar bir çox ağsaqqalların istəyini də bilirdilər. Məsələn, aşıqlar bilirdilər ki, Rəhim kişi üçün mütləq "Bayatı Kürd" muğamını və ya "Zəminxarə"ni ifa etməlidirlər... Çünki Rəhim baba yaxşı baş çıxarırdı muğamlarımızdan. Özünün də səsi pis deyildi. Haqqında söz açacağım şəhid, Rəhim babanın oğul nəvəsidir...

**Bəymirzə dayının dediklərindən:** Övladın hamısı ata-ana üçün əziz olur. Nədənsə Mahiri çox istəyirdim. Mahir həm də qardaşlarına nisbətən yol bilən uşaq idi...Ukraynadan qayıdandan sonra könüllülər dəstəsinə qoşulmağından da xəbərim olmayıb. Bu işdən bir neçə gün sonra xəbər tutdum... Odur ki, cəbhəyə gedəndə heç boynunu qucaqlayıb öpə də bilmədim oğlumun. Yoldaşları deyir ki, oğlumu Umurlu kəndi yaxınlığında dəfn ediblər. Mən isə Mahirin ölümünə inanmıram. Gecələr yuxuma girir... Əminəm ki, Mahirim qayıdacaq. Yoxsa mən onsuz yaşaya bilmərəm. Bu arada Bəymirzə kişinin səsi tutuldu...

**Haşiyə:** Mahir Bəymirzə oğlu 1972-ci ildə Poladlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağrılır. Ukraynada qulluq edir. 1992-ci ildə geri dönür və könüllülər dəstəsinə qoşulur. Mahir döyüşə getməyə də bilərdi. Rəhim kişi kimi

bir el ağsaqqalının, Bəymirzə kimi zəhmətlə dolanan bir ailədə tərbiyə almış Mahir orada-burada qaçıb gizlənməyi özünə ar bildi. İlk əvvəl Ağdərənin düşməndən təmizlənməsində iştirak etdi. Sonra silah yoldaşları ilə ön cəbhəyə – Kəlbəcərin müdafiəsinə yollandı. Orda da bir çox uğurlar qazandı. Həmin ərazidə döyüşlərin birində yoldaşları ilə mühasirəyə düşürlər. Böyük çətinliklə mühasirəni yara bildilər. Yolda qayıdanda - Kəlbəcərin Umurlu kəndi yaxınlığında minaya düşürlər... Bir neçə yoldaşı ilə Mahir də həlak olur. Döyüş yoldaşları onu Umurlu kəndi yaxınlığında bir təpənin döşündə dəfn edirlər... Xəbər tezliklə elə çatdı. Hamı sarsıldı. Poladlı kənd camaatı hamılıqla matəm saxladı Mahirin ölümünə. El ağbirçəyinin ürəkləri dəlib-keçən yanıqlı ağıları kəndi başına götürdü.

***Yatanlar, ay yatanlar,***
***Əli haqqa çatanlar,***
***Gəlib yoldaşım olsun***
***Haqqı-sayı batanlar.***

**Söz ardı:** Mahirin şəhid adı öz el-obası üçün şöhrət çələngi oldu. Qədirbilən camaatın – el ağsaqqaları, ziyalıların məsləhəti ilə Mahirin oxuduğu məktəbə onun adının verilməsini məsləhət bildilər. Bundan sonra bu məktəbə qədəm qoyan birincilər dəftərlərinin üstünə yazdılar: **"Mahir Kərimov adına Poladlı kənd orta məktəbi".** Bax bu bircə cümlə gələcək nəsillərə çox söz deyəcək... **Kitabın çapı uzun bir müddət gecikdi. Artıq Bəymirzə dayı dünyasını dəyişib. Bizə elə gəlir ki, bu dünyada oğlunun düşmən əlində olan məzarını bir dəfə də olsun ziyarət edə bilməyən ata öz istəyinə axirət dünyasında çatdı. Şübhəsiz ki, böyük yaradan ata ilə oğlun ruhunu haqq dünyasında bir-birinə qovuşdurdu. Şükürlər olsun Allahın böyüklüyünə...**

## QARAYEV KƏNAN
## (1974-1993)

## ŞER DƏFTƏRİNİ ÖZÜ İLƏ APARDI...

Kənan Valeh oğlu 1974-cü ildə Bəklə kəndində anadan olmuşdur. O, natamam-orta məktəbi bitirib Bakıya gedir. Orada dəmir yolu məktəbinə daxil olur. Torpağa bağlı, əməksevər olduğuna görə bir

müddət sonra fikrini dəyişir. Belə qərara gəlir ki, mexanizator peşəsinə yiyələnib doğma kəndlərinə qayıtsın. Odur ki, Bakıda texniki-peşə məktəbini qurtarıb kəndə qayıdır. Bir müddət təsərrüfatda çalışır. Bu o zamanlar idi ki, yağı düşmən gündən-günə torpaqlarımızı əlinə keçirir, neçə-neçə kənd-şəhərlərimizi dağıdırdı. Elə gün olmazdı ki, hər kəndə, hər şəhərə şəhid tabutları gətirilməsin...

Valideyinlərinin narazılığına baxmayaraq, Kənan 1993-cü ilin aprel ayında cəbhəyə yola düşdü. İki aya yaxın təlim məşqləri keçdi. Sonra on doqquz yaşlı Kənan Ağdam bölgəsinə göndərildi. Bir çox döyüşlərdə o, öz hünərini göstərə bildi. Əsasən də, Çobandağ yüksəkliyi uğrunda gedən qanlı döyüşlərdə. Bu ağır döyüşdə düşmən qüvvəsi olmazın itki verdi... Döyüşlərin birində düşmən gülləsi arzuları bir ümman olan Kənanın ürəyini susdurdu...

**Haşiyə:** Kənan həm də şerlər yazırdı. Əlimin altında olan şerləri gələcəkdə onun gözəl şair olacağından xəbər verir. Doğmalarının dediyinə görə, ümumi dəftər həcmində olan şerlərini özü ilə aparır cəbhəyə. Deyib ki, dəftərin boş qalan səhifələrinə də müharibəyə həsr edəcəyim şerləri yazacam... Çox əfsus ki, Kənanın şer dəftərinin yeri məlum deyil. Cəbhə dostlarında qalıb, itkin düşüb, hələlik bəlli deyil. Hansı gözəlinsə adına ünvanlanmış əldə olan şerindən bircə bənd:

***Heç bilmirəm necə deyim "zalıma",***
***Baxışların od salıbdı canıma,***
***Söylə, niyə susamısan qanıma?***
***Nə olar ki, bir gələsən insafa.***

Bəli, Kənan yaşasaydı, şer beşiyi olan Şirvanda o, gec-tez öz sözünü deyə biləcəkdi... Şirvanın yüzlərlə şairi – Şirvanilər kimi...

***Yaman yerdə oda saldı Kənanı,***
***İllər ilə atəşinə yananı,***
***Hara getsən təkcə sənsən gümanı,***
***Nə olar ki, bir gələsən insafa...***

Şübhəsiz ki, bəkləlilərin çoxunun Kənanın şerlərindən xəbəri yoxdur. Görəsən, vaxtilə Kənan bu şeri hansı gözəlin adına bağlamışdır. Bəlkə o qız da xəbərsizdir bu misralardan. Düzünü Allah bilir...

Qədirbilən həmyerliləri Bəklə kənd məktəbinə şəhid Kənanın adını veriblər. Bizcə, qeyrət, hünər simvolu olan bu ad illərlə Bəklə kənd məktəbinə qədəm qoyan, orada oxuyan şagirdləri çox mətləblərdən halı edəcəkdir... Həmin şagirdlər Vətəni, torpağı sevməyi, onun qədrini-qiymətini bilməyi, bir sözlə, əsl Vətəndaş olmağı Kənanın ömür yolundan öyrənəcəklər...

## MƏDƏTOV ELMAN
## (1964-1994)

## "ELMANIN İYİNİ ÖVLADINDAN ALIRIQ"...



Elman Qürbət oğlu 1964-cü il aprel ayının birində Nərimankənd kəndində anadan olmuşdur. O, orta məktəbi bitirəndən sonra hərbi xidmətə çağrılır. Keçmiş sovet ordusu sıralarında özünü həqiqi əsgər kimi göstərə bilmişdir. Bu müddət ərzində komandirləri Elmanın valideyinlərinə bir neçə təşəkkür məktubları da göndərmişlər. Həmin təşəkkür məktubunun birində yazılıb: **"Hörmətli Qüdrət Mədətov, çox sağ olun ki, belə bir övlad tərbiyə etmisiniz. Sizin oğlunuz həqiqi Sovet Vətəndaşıdır, Sovet gəncidir"**... Günlər, aylar dolandı Elman hərbi xidmətdən qayıtdı. Bir el gözəlinə könül verdi və gənclər öz istəklərinə, arzularına çatdılar, ailə qurdular. Valideyinlərin də fərəhi yerə-göyə sığmırdı. Bir il sonra bu istəyin, sevincin üstünə bir sevinc də əlavə olundu. Elmanın ilk övladı dünyaya gəldi. Nənə, babalar dedilər ki, uşağın adını atası özü qoysun. Elman da oğlunun adını Əvəz qoydu. Sən demə bununla Elman öz gələcəyini oğlunun adına yazırmış. Yəni, vaxt gələcək, sən atanı əvəz edəcəksən, Əvəz! Bəli, bu da bir qəribəlik, bu da bir alın yazısıdır, taledir...

**Haşiyə:** Elman 1994-cü ilin avqust ayında cəbhəyə yola düşdü. O, Murovdağ uğrunda gedən döyüşlərə qatıldı. Hərbi xidmətdə əldə etdiyi təcrübə döyüşdə köməyinə çatdı. Komandirlərə məsləhətçi oldu. Bir neçə döyüşdə uğurlar qazandılar... Təzəcə ad-san qazanan El-

man döyüşlərin birində düşmən gülləsinə tuş gəldi. Elmanın ölüm xəbəri kəndə çatdı... El bu ölüm xəbərindən yenidən sarsıldı... Hamı otuz yaşlı cavanın ölmünə yas saxladı...

Qardaşının ölmü bacısı Şamamanı daha çox yandırıb-yaxırdı. Axı *Elman heç ikinci oğlunun üzünü də görməmişdi... Qardaş dərdi* onu sinədəftər etmişdi. Bayatı, ağı söyləməkdən yorulmayan, usanmayan Şamama bir ozan olmuşdu.

***Gəlin-gəlin, dul gəlin,***
***Ətəkləri pul gəlin,***
***Qardaşımın xətrinə***
***Ollam sənə qul gəlin.***

Qəmli bir gəlin yaşayır Elmanın ocağında. İki körpə ümidində qalan, dərdi-səri başından aşan bir gəlin... Elmanının iyini övladından alan bir gəlin. Ürəyi buza dönmüş bu gəlinin həyatda bir arzusu var, Elmanını vəsiyyətini yerinə yetirmək – onun oğlanlarını əsil vətəndaş kimi böyütmək, təhsil vermək, ev-eşik sahibi etmək...

## MƏLİKOV İLYAS
## (1969-1994)

## "ÖLÜMÜ ÖLDÜRMƏYƏ GEDİRƏM"...



İlyas Səlim oğlu 1969-cu ildə Sündü kəndində dünyaya gəlmişdi. Uşaqlıqdan bir az ərköyün böyümüşdü... Sözü üzə şax deməyi də vardı İlyasın. Ona görə də tay-tuşları arasınqda hörmət qazanmışdı. İlyas 1993-cü ilin deyabr ayının 10-da qoşuldu könüllülər dəstəsinə. O, ilk günlərdən hünəri ilə seçilirdi. Dəfələrlə öz həyatını təhlükədə qoyub, döyüş dostlarını ölümdən xilas etmişdir. Son döyüşü Füzuli bölgəsinin ***Yuxarı Seyidəhmədli kəndi uğrunda*** **gedən döyüşlərdə oldu. O, 1994-cü ilin fevral ayının 3-də şəhid oldu.**

**Atası Səlim kişinin dediklərindən:** "Mənim beş oğlumun

sonbeşiyi idi İlyas. Çox diribaş, səmimi və qonum-qonşu ilə mehriban bir uşaq idi. Düzlük, doğruluq elə bil tək bunun adına yazılmışdır. Odur ki, iki övladı olmasına baxmayaraq, məndən xəbərsiz qoşulmuşdu könüllülər dəstəsinə. Mən bu işdən bir həftə sonra xəbər tutdum. Axırıncı dəfə balamla 1993-cü il dekabrın 26-da evə gələndə görüşdüm. Bir az sınıxmışdı…

**I Haşiyə:** Səlim dayı, oğul itkisi ağır olur. Yenə səbrini bas, dözümlü ol. Allahın qismətindən qaçmaq olmaz... İlyas öz ölmü ilə ölməzlik, əbədi ömür qazandı. İllər, əsrlər ötəcək, dünya dəyişəcək, ağ-qaralar üzə çıxacaq, bu fitnə-fəsadı törədənlər, torpaqlarımızı düşmənə verənlər məlum olacaq. Tarixdə açılmayan sirlər olmur. Biz də biləcəyik, lənətlər yağdıracayıq o qansızlara…

**II Haşiyə:** Səlim kişinin ocağında Mahirə adlı bir gəlin yaşayır… İlyasın ömür-gün yoldaşı… İlyasın iki yadigar körpəsinin anası… Taleyini qınayan bu gəlin ilk vaxtlar gününü ağlamaqla keçirirdi. Ömür-gün yoldaşının ölmünə inanmayan Mahirə özü də bilmədən onun boyuna ağılar biçdi...

***Dağlar, haramı dağlar,***
***Təbib yaranı bağlar,***
***Necə gəlim yanına***
***Kəsib aranı dağlar.***

Sonradan belə qərara gəldi ki, İlyasın ruhunun şad olması üçün onun ciyərparalarını böyütmək, ev-eşik sahibi etmək onun birinci vəzifəsidir… Dərdli taleyini qınayan Mahirə ancaq bununla təsəlli tapır…

…Sona ana da hər gün yuxularda görür oğlunu. Dərdləşir onunla. Birdən qəfildən yuxudan dik atılır… Bir anlığa ona elə gəlir ki, oğlu ölməyib, hələ düşmənlə vuruşur… Qəfildən gözləri İlyasın qara örtüyə bələnib divardan asılan şəklinə sataşır… Göz yaşı selə dönür, asta səslə oxuduğu ağıların təsəllisinə sığınır…

***Bazara keçi gəldi,***
***Keçinin üçü gəldi,***
***Gedin deyin anaya;***
***Bədbəxtin köçü gəldi.***

Sona xala, Allah özü səbir versin…

# MƏMMƏDOV BARAT
# (1957-1994)

## "YANINA APAR MƏNİ"...



Barat Məmməd oğlu 1957-ci ildə Sündü kəndində anadan olmuşdur. O, orta məktəbi bitirəndən sonra – 1976-cı ildə hərbi xidmətə çağrılır. Barat hərbi xidmətini Qazaxıstanın Uralski şəhərində keçirir. Hərbi xidməti başa vurandan sonra həmin şəhərdə qalıb işləyir... İki il sonra Azərbaycana qayıdır. Bakıda radioquraşdırma zavodunda fəhlə işləyir. Bir el gözəli ilə ailə qurur. Ömür-gün yoldaşı ilə ən müqəddəs arzusuna çatır – ilk övladları dünyaya gəlir. Gənclərin arzuları günü-gündən gerçəkləşir. Onların daha iki övladı olur. Gənclərin fərəhli, qayğılı günləri başlayır. Bu zaman artıq erməni işğalçıları torpaqlarımızı ələ keçirməyə çalışırdılar. Azərbaycanın bir çox regionları erməni işğalçıları tərəfindən zəbt edilirdi...

**Ömür-gün yoldaşının dediklərindən:** Barat halal bir ailədə doğulmuşdur. O, ailəsini də öz zəhməti ilə dolandırırdı. Bir ailəsini, bir də ana vətəni daha çox sevirdi Barat. Axşamlar uşaqlarını doyunca oynadıb yatırdandan sonra özü yatardı. Düşmənin torpaqlarımıza təcavüzü son vaxtlar Baratı çox narahat edərdi. Vətənə, torpağa olan istəyi onu könüllülər dəstəsinə apardı. Mən onun bu hərəkətinə qarşı çıxmaq istədim. Amma yaxşı bilirdim ki, Barat dediyindən dönməyəcək. Elə də oldu. Barat üç övladı olmasına baxmayaraq, öz ərizəsi ilə qoşuldu könüllülərə. Özü də bir çox qaynar müharibə bölgələrində – Daşaltı, Naxçıvanik, Şuşa, Laçında cəsarətlə vuruşdu.

**Döyüş yoldaşları – Pənah, Ramiz və Bəhramın dediklərindən:** "...Bəzən görürsən ki, öləni hamı tərifləyir. Amma doğrudan da, Barat ayrı oğul idi... Vətən, torpaq, millət üçün canından keçən bir oğul. Bir neçə fakt fikrimizə dəstək tutur. Əvvəla, Baratın üç övladı vardı. Sonrası o, döyüşlərin birində boğazından ağır yaralanmışdı. İstəsəydi ordudan tərxis oluna bilərdi. O isə bir müddət müalicə olunandan sonra cəbhəyə döndü. Bizimlə çiyin-çiyinə vuruşdu"...

Baratın son döyüşü Füzuli bölgəsində oldu. O, **1994-cü il yanvarın 26-da Horadiz uğrunda gedən** döyüşlərin birində qəhrəmancasına həlak oldu. Onu Bakıdakı Şəhidlər xiyabanında dəfn etdilər. Allah rəhmət eləsin.

Barat kimi oğulları itirmək nə qədər ağır olsa da, təsəllimiz bir o olur ki, belə insanlar əbədi yaşamaq haqqı qazanırlar. Və bir ailənin, bir nəsilin, bir kəndin deyil, bütövlükdə bir millətin, bir xalqın doğması, ciyərparası olurlar.

## MƏMMƏDOV HEYBƏTALI
## (1972-1994)

## "ƏSLİNİN QARDAŞ DƏRDİ"

Heybətalı Dostalı oğlu 1972-ci ildə Qobustan rayonunun Qaracüzlü kəndində dünyaya göz açmışdır. Sonra yoldaşları ilə kənd məktəbində oxumuş, hamı kimi qayğısız, şıltaq uşaqlıq illərinin, şirinliyini yaşamış, tay-tuşları arasında seçilmişdir. Heybətalı 1990-cı ildə hərbi xidmətə çağrılır və 1992-ci ilə kimi Sovet Ordusunda qulluq edir. O, hərbi xidmətdən qayıtdıqdan sonra könüllülər dəstəsinə qoşulur. İki il cəbhədə döyüşür, neçə-neçə uğurları olur. Bu müddət ərzində cəbhə dostları və komandirlərinin hörmətini qazanır, evlərinə qələbə soraqlı məktublar yazır.

**Davudun dediklərindən:** Qardaşım cəbhəyə gedəndən bacım Əsli ilə dinclik tapa bilmirik. Cəbhədən bəd xəbərlər gəlir, qonşu kəndlərə şəhidlər gətirilirdi. Gizlində bacımla dərdləşsək də, evdə atama-anama təsəlli verirdik. "Ana, darıxma, müharibəyə gedənin hamısı ölmür ki, ...Ölüm Allahın qismətidir. Allah nə yazıbsa, o da olacaq". Ən nəhayət, böyük itkinin xəbəri bizə də gəlib çatdı. Hamımız yerimizdə donub qaldıq. Bacım Əslini heç belə bilməzdim. Qardaş dərdi, inan ki, onu sinədəftər etmişdir...

*İtkini ay, itkini,*
*Gözüm yollar tutqunu.*
*Gəzib hardan taparam,*
*Sənin kimi itkini?*

Tanrı Heybətalının böyüyüb boya-başa çatdığı Qaracüzlü kəndinə çox şey verib; Bərəkət, ruzi, gözəl biçənək, dağ-yamac, mal-

dövlət... Tanrı bu diyara bir şəhid oğul da qıydı, verdi ki, qoy bu qədim el igid oğulları ilə də öyünə bilsin... Qaracüzlünün gələcək nəsilləri görsün ki, Vətən darda olanda bu elin igid oğulları kənarda qalmayıb, ön cəbhədə vuruşublar.

Heybətalı bu dünyada cəmi 22-il yaşadı. İyirmi iki yaş Heybətalının fani dünyadakı yaşıdır. Əsl ömrü isə el-obanın, Qaracüzlünün ömrü qədər olacaqdır. Gələcək nəsillər öz şəhid oğullarının adına nəğmələr qoşacaq, dastanlar bağlayacaqdır. Şübhəsiz ki, dastanların, nəğmələrin ömrü isə əbədidir, daimidir...

## MUSAYEV MUSA
## (1971-?)

## "BİZİM MUSAMIZ QAYIDACAQ"...



Musa Mirağa oğlu 1971-ci il may ayının 17-də Nərimankənd kəndində anadan olmuşdur. A.Qayıblı adına kənd orta məktəbini bitirəndən sonra hərbi xidmətə çağrılır. 1991-ci il hərbi xidmətdən geri dönür.

Bu o zamanlar idi ki, erməni azğınlığı tüğyan edirdi. Cəbhədən bir-birindən qara gələn xəbərlər Musanın vücudunu titrədirdi... Musanın ürəyi dözmədi torpaqlarımızın yağı tapdağına meydan olmasına... Könüllülər dəstəsinə qoşuldu. İlk gündən döyüş əməlyatlarında fəal iştirak etdi. Əsgərlikdə qazanılan təcrübə hər yerdə onun dadına çatırdı... Döyüşlərdə çox çevik və soyuqqanlı hərəkətləri komandirlərinin gözündən yayınmadı... Ona daha çox etibar olunmağa başladı. Gizli əməliyyatların həyata keçirilməsində Musanın məsləhətləri hamı tərəfindən bəyənilirdi. Yoldaşlarının dediyinə görə, döyüş zamanı Musanın bir gülləsi də boşa çıxmırdı. **Onun sonuncu döyüşü Murovdağda oldu. İtkin düşdü Musa.**

"Kitabi-Dədə Qorqud" dastanında Beyrəyin bacıları kimi Musanın da bacıları – Fatma və Almaranın neçə illərdir ki, gözləri yollarda, qulaqları səsdədir... Hər qapı açılanda, hər qapı döyüləndə dik

atılırlar yerlərindən; Bəlkə Musadan xəbər var... İnanmırlar Musanın ölümünə. Elə qardaşları Mirzəman və Məzahir də. Qardaşımız qayıdacaq, mütləq qayıdacaq, – deyib təskinlik tapırlar.

Anaxanım ana da eləcə. Bala ölümünə inanmayan ananın ürəyi qan ağlayır. Bəzən uşaqlar evdə olmayanda asta səslə zümzümə etdiyi ağılarla soyudur ürəyinin odunu, alovunu...

*Kababı gözlərəm, gəl,*
*Kömürü üzlərəm, gəl,*
*Nə qədər canım sağdı,*
*Yolunu gözlərəm gəl.*

*Payız gedər, yaz gələr,*
*Ördək gedər, qaz gələr,*
*Belə tərxam igidlər*
*Dünyaya az-az gələr.*

**Düşüncələrimdən:** Dünyada möcüzələr çox olur. Deyirəm nə olaydı, Allah təala oğlunun ölmünə inanmayan Anaxanım ananın ürəyində olan arzu – gümanını göyərdəydi. İtkin düşmüş Musa bir gün qaça-qaça gəlib açaydı ata-baba ocağının qapısını...

## MUSTAFAYEV AĞAMOĞLAN (1962-1995)

## "BALALARIMI SƏNƏ TAPŞIRIRAM"

Ağamoğlan Səlim oğlu 1962-ci ildə Dərəkənd kəndində anadan olmuşdur. O, Dərəkənd kənd orta məktəbini bitirmişdir. 1981-ci ildə Qazaxıstanın Alma-Ata şəhərində hərbi xidmətdə olmuşdur. Hərbi xidməti başa vurduqdan sonra Qaradağ rayonunun Ələt qəsəbəsinə köçmüşdür. N.Nərimanov adına Dəniz Neft və Qazçıxarma idarəsində sürücü işləmişdir. İki övlad atası idi...

**Ömür-gün yoldaşı Zəkiyyənin dediklərindən:** "Günlərin bir günü o, axşam uşaqlar yatandan sonra mənə dedi:

- Bir söz deyəcəm. Xahiş edirəm ki, düşünüb cavab verəsən. Torpaqlarımızı düşmənlər ələ keçirir, neçə-neçə oğullar həlak olur. İstəyirəm ki... Burada sözünü kəsdim...

- Nə vaxt çağırarlar gedərsən, məni və iki balanı gözü yaşlı qoyma.

O, başını aşağı saldı. Bir azdan dilləndi:

- *Mən heç kimdən artıq deyiləm.* Torpaq isə *varlıların* deyil, mənim kimi halallıqla dolananların qeyrəti, namusudur. Mən səni belə bilməzdim.

Bir anlığa ikimiz də susduq. Ən nəhayət, mən dilləndim:

- Mən heç bir şey demirəm...

*Bu sözdən sonra hiss etdim ki, onun gözləri güldü.*

- Mən bilirdim ki, torpaqlarımızın yağı əlinə keçməsinə sən də razı olmarsan deyib, – könlümü almaq istədi.

Səhər tezdən halal - hümmət etdik.

- Balalarımı, – Orxanı, Süréyyanı sənə tapşırıram, – deyib onların gözündən öpdü...

**Haşiyə:** O, 1993-cü ildə könüllü cəbhəyə getmiş, bir il sonra itgin düşməsi barədə xəbər gəlmişdir. Sonradan bəlli olub ki, o, Murovdağda həlak olubmuş. 1995-ci ilin martın 17-də cənazəsi Ələtə gətirilib və orada dəfn olunmuşdur.

Üç qardaş, dörd bacı, iki övlad həsrətdə qaldı o gündən. Ata-ana, bir də Zəkiyyə o gündən diri-diri alışıb yandı. Ata dost var – düşmən var deyə, – ağlamadı... Dərdi-sərini ürəyinə vurdu. Dağ kimi kişinin günü-gündən beli bükülməyə başladı. Amma dözdü. Ağamoğlanın anası Anaş xala Zəkiyyənin və oğlunun ciyərparalarının boyununu qucmaq, oxşamaqla təsəlli tapdı.

***Qoyun gələr quzuyla,***
***Ayağının tozuyla,***
***Fələyə neyləmişdik?***
***Düşmən oldu biziylə.***

## MÜRSƏLOV PƏRVİZ
## (1970-1994)

## "OĞUL DƏRDİ AĞIR DƏRDDİR"...

*Pərviz Amil oğlu* 1970-*ci il mart ayının* 12-də *Çuxanlı kəndində* anadan olmuşdur. O, kənd 8 illik, sonra Təklə kənd orta məktəbini bitirir. Ailələrinə əziyyət olmasın deyə, Bakıdakı 14 №-li OTPM-ə daxil olur. Məktəbi qurtarıb çilingər peşəsinə yiyələnir. O, 1989-cu ildə hərbi xidmətə çağırılır. Pərviz Ukraynanın Feodosiya şəhərində

xidmət edir. Bir müddət sonra xidmətdən tərxis olunur.

Pərviz 1994-cü ildə torpaqlarımız uğrunda gedən döyüşlərə qoşulur. İlk gündən özünü təcrübəli döyüşçü kimi göstərə bilir.

**Atası Amilin dediklərindən:** "Pərviz ailəmizin böyük uşağı idi. Uşaqlıqda dəcəl olsa da, böyüyəndən sonra bir qədər ağırlaşmış, özünü lap yaşlılar kimi aparırdı. Arzularımızın başlanğıcı idi Pərviz. Valideyn kimi fikirləşirdik ki, sevincli günlərimiz, nişanımız, toyumuz, çal-çağırımız onunla başlayacaqdır. Özü də çox dostcanlı, qohumcanlı idi. Hamının yerini bilərdi... İstəyirdi ki, qələbə gününə kimi ön cərgədə vuruşsun, günahsız ölənlərin intiqamını alsın. Yaxşı yadımdadır, cəbhəyə getməmiş Xocalı hadisələrinə həsr olunmuş bir şeri hər gün zümzümə edərdi:

***Allah özü bu gün bizə yar olsun,***
***Düşmənlərə nifrət olsun, ar olsun,***
***Azərbaycan oğulları var olsun,***
***Çox çəkməz toy-büsat qurar Xocalı.***

Şerin son misrasını deyərkən Amil kişinin səsi titrədi... Oğul dərdi ağır dərddir, – deyib susdu.

Allah səbir versin Amil kişi, Firuzə ana. Gün o gün olsun ki, bu bəlayə son qoyulsun. Qələbə günü biz nə qədər sevinsək, Pərviz kimi şəhid balalarımızın ruhu iki o qədər sevinəcəkdir. Bizcə, o gün çox da uzaqda deyil.

**Pərviz 1994-cü il 16 apreldə Füzuli bölgəsində həlak oldu.** Onu doğma kənd qəbristanlığında dəfn etdilər.

## MÜSLÜMOV RASİM
## (1960-??)

Rasim dörd övlad atası idi. Artıq neçə illərdi ki, dörd ciyərparası və ömür-gün yoldaşının yollara göz dikməkdən gözləri qaralıb. İnanmırlar Rasimin ölümünə. Yeri düşəndə də deyirlər:

- Rasim o insafın sahibi olmaz. Razı olmaz balaları atasız böyüsün. Yəqin əsr düşüb. Mütləq qayıdacaq, Rasim!

Balaları heç kimi ağlamağa qoymur. Rasim adına ağlamaq istəyənlərə deyirlər:

- Bizi atamız çox istəyirdi. O, ölməyib, qayıdacaq. Ağlamayın atamızın adına. Atamız qayıdacaq!..

**Haşiyə:** Rasim Alı oğlu 1960-cı ildə Sündü kəndində doğulmuşdur. Orta məktəbi bitirəndən sonra Komi vilayətində hərbi xidmətdə olmuşdur. O, 1983-cü ildə Bakıya köçmüş, H.Z.Tağıyev adına toxuculuq kombinatında işə qəbul olunmuşdur. Dörd uşağının olmasına baxmayaraq, 1994-cü ildə könüllülər dəstəsinə qoşulmuşdur.

Bir çox döyüşlərdə şücaət göstərən **Rasim Ağdərə uğrunda gedən döyüşlərdə İtkin düşür.**

Allah doğmalarına səbr, dözüm versin!

## NƏBİYEV ƏLVAN
## (1973-1992)

## ƏLVAN KİMİ SEVİN ELİ-OBANI...



Əlvan Mansur oğlu 1973-cü ildə Təklə-Mirzəbaba kəndində anadan olub. Dərs dediyi müəllimlər onun haqqında deyirlər: "O, məktəbdə oxuduğu zaman özünü bacarıqlı, qabiliyyətli şagird kimi göstərə bilmişdir. Əlvan həm özü, həm də yoldaşlarına qarşı çox tələbkar idi. O, yaxşı oxuduğu kimi, həm də nizam-intizamlı idi. Məktəbin bütün tədbirlərində yaxından iştirak edərdi. Biz müəllimlər fəxr edirik ki, məktəbimiz onun adını daşıyır". Əlvan 1992-ci il mart ayının 9-da hərbi xidmətə yola düşmüşdür. Altı aydan artıq Laçın bölgəsində düşmənlə döyüşmüşdür. **Sentyabr ayının 25-də Laçının Qaçay kəndinin müdafiəsində gedən** ağır döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

**Haşiyə:** Təklə-Mirzəbaba kəndinin şəhid oğlu Əlvan on doqquz yaşında əbədiyyətə qovuşdu. Özü də şəhid kimi... İllər keçəcək, nəsillər dəyişəcək. İnsanlar bir-birini əvəz edəcək. Çoxumuzun adı da unudulacaq; kiminki tez, kiminki də bir az gec. Ancaq Əlvan kimi igidlərimizin adı həmişə hörmətlə xatırlanacaq. Hər il onun adını daşıyan məktəbə onlarla gül çöhrəli balalar gələcək, yazmağı, oxumağı

öyrənəcəklər... Sinif müəllimi birinci gün dərsə başlayanda körpələrə gur səslə deycək: "Əziz balalar, məktəbimiz Əlvan Nəbiyevin adını daşıyır. Əlvan kəndimizin şəhid oğlu olmuşdur. Arzu edirik ki, siz də onun kimi oxuyub, xalqı, el-obanı onun kimi sevən bir vətəndaş olasız"... Beləcə, bu kimi məlumatlar yüz illər Təklə-Mirzəbaba kəndinin birinci sinfinə qədəm qoyanlara dərs deyən müəllimlərin ilk sözü, arzusu olacaqdır...

**Söz ardı:** Qobustanın Təklə-Mirzəbaba kəndində bir şəhid adı dolaşır. Bu ad on doqquz yaşında şəhidlik zirvəsinə ucalmış Əlvan Nəbiyevdir. Əlvan indi təkcə Nəbiyevlər ocağının, Təklə-Mirzəbaba kəndinin deyil, bütün azərbaycanlı ata-anaların şəhid balasıdır. On doqquz yaşlı Əlvanın şəklinə diqqət kəsilirəm. Mənalı gözləri ilə çox mətləbləri açıqlayır. Sevmək, yaşamaq, yaratmaq!.. Qələmi yerə qoymuşdum ki, radionun Bulaq verlişində dəyərli səs sahibi Məhluqə Sadıqovanın ifasında ağılar səsləndi...

***Uçub getdin quş kimi,***
***Yuxu kimi, huş kimi,***
***Sənsiz qan-yaş tökərəm***
***Ularam bayquş kimi.***

Necə də Əlvanın boyuna biçilmişdi...

## NOVRUZOV FƏXRİ
## (1970-1995)

## "SAĞ-SALAMAT QAYIDACAĞAM"...

Fəxri Xeyri oğlu 1970-ci il mart ayının 5-də Nərimankənd kəndində doğulmuşdur. O, orta məktəbi bitirəndən sonra hərbi xidmətə çağrılmışdır. 1990-cı ildə hərbi xidmətini başa vurub Vətənə qayıdır. Bir müddət kənddə işləyir. Erməni işğalçılarının günü-gündən Vətənimizin torpaqlarının müəyyən hissəsini ələ keçirməsi, qız-gəlinlərimizi əsr etmələri Fəxrinin qəlbinə ox kimi sancılır. Odur ki, 1992-ci ildə könüllülər dəstəsinə qoşulmağı qərara alır.

**Doğmalarının dediklərindən:** Düzdü, ailədə çoxumuz razı deyildik Fəxrinin bu fikrinə. Onu yolundan heç kim döndərə bilmədi.



Sonda onu dedi: "Mən getməyim, sən getmə, bəs kim getsin torpaqlarımızın müdafiəsinə? Belə getsə, ermənilər sabah-biri gün torpaqlarımızın çoxsunu zəbt edəcəklər. Mən getməliyəm. Darıxmayın sağ-salamat qayıdacağam. Özü də qələbə ilə".

Odur ki, Fəxri 1992-ci ildə Qarabağ cəbhəsinə yola düşdü. Ağdam, Füzuli, Tərtər uğrunda gedən döyüşlərdə üç ilə yaxın vuruşdu, igidliklər göstərdi.

**Cəbhə yoldaşlarının dediklərindən:** "Fəxri əsl döyüşçü idi. Komandirlərin tapşırıqlarına sözsüz əməl edən, döyüş vaxtı heç nədən qorxmayan bir oğul idi. Düşməndən çox qisas aldı. Arzusu qələbəni görmək idi... Evlərinə bu istəklə dönmək istəyirdi. Heyif ki, Fəxri çox yaşamadı. Qələbə gününü görmədi"...

Fəxri Xeyri oğlu **1995-ci il fevral ayının 12-də Fizuli bölgəsində qəhrəmancasına həlak oldu.** Fəxri Nərimankənd kənd qəbristanlığında dəfn olundu. Allah rəhmət eləsin.

**Haşiyə:** 25 yaş ömür sürdü Fəxri bu dünyada. Nə az, nə də çox – iyirmi beşcə bahar. Amma əcəl aman vermədi ki, iyirmi altıncı qapını açıb içəri keçsin. Bir də ki, şəhid ölümündən əcəlin xəbəri olmur, – deyirlər. Bu şərəfli ölmü insan özü qazanır. Odur ki, şəhidlər heç vaxt ölmürlər – əbədiyyətə qovuşurlar. **"Şəhidlər əbədi günəş kimi qurub edib hər səhər sevdikləri, uğrunda canından keçdikləri anamız torpağın dan yerindən dünyamıza boylanır"**... Elə Fəxrinin müqəddəs ruhu da eləcə...

## RƏSULOV SEYMUR
## (1970-??)

Seymur Gülayəddin oğlu 1970-ci ildə Qobustan rayonunun Sündü kəndində anadan olub. Sündü kənd orta məktəbini bitirib və Bakıya köçür. O, 1988-ci ildə hərbi xidmətə çağrılır. Hərbi xidməti başa vurub Bakıya qayıdır, ailə qurur, istəyinə çatır. Bir qız balası dünyaya gəlir...

O, 1993-cü ildə Vətənin müdafiəsinə yollanır. İlk gündən öz



ustalığı ilə fərqlənir. Yoldaşlarının sevimlisinə çevrilir.

Seymur cəbhədə neçə-neçə igidliklər göstərir. Döyüşlərin birində itkin düşür...

Bir neçə ildir ki, Seymurun həyat yoldaşı və ciyərparası yol gözləyir. Seymuru soraqlayırlar. Hələlik Seymurdan dəqiq xəbər almamışlar. Doğmaları ümidlə yaşayırlar !..

Ümid də bir təskinlik, bir arzudur, – deyiblər...

Təki arzuları çin olsun!..

## SADIQOV YAŞAR
## (1964-1992)

## "BELƏ YAŞAMAQDAN ÖLMƏK YAXŞIDIR"...

Yaşar Nüsrəddin oğlu 1964-cü ildə Çalov kəndində anadan olmuşdur. Uşaqlıqdan anasını itirən Yaşar bir qədər əziyyətlə böyümüşdü. Bakıda orta məktəbi bitirəndən sonra - 1982-ci ildə hərbi xidmətə çağırılır. O, hərbi xidmətdə olanda texnikaya dərindən yiyələnə bilir. Hərbi xidməti başa vurandan sonra Bakıda "Xəzər dəniz gəmiçiliyi" idarəsində işləyir. Texnikaya dərindən bələd olması, səmimiliyi və bacarığı ilə seçilir, neçə-neçə dost-tanış qazanır.

Erməni işğalçılarının torpaqlarımızı zəbt etməsi Yaşarı narahat edir, necə deyərlər, gecələr gözünə yuxu getmir. Dost-tanışa, qohumlara yeri gələndə deyərdi:

- Bu heç kişilikdən deyil. Gözümüz baxa-baxa düşmən başımıza əlli cür oyun açır. Belə yaşamaqdansa, ölmək yaxşıdır. Mən daha dözə bilmirəm...

Elə səhəri gün ömür-gün yoldaşı və balaca Sevinci ilə görüşən Yaşar döyüş bölgəsinə yollanır... Öz bacarığı, cəsarəti ilə döyüş yoldaşları arasında böyük ad-san qazandı Yaşar. Kəşfiyyata getdi, müşkül məsələlərin həllində seçildi. Bir neçə ağır döyüş keçirir və yüzdən artıq ermənini cəhənnəmə göndərir. **Onun son döyüşü 1992-ci il mart ayının 16-da Naxçivanik uğrunda oldu...**

**Cəbhə dostlarının dediklərindən:** "Ölümündən bir neçə gün qabaq bizə demişdi ki, Novruz bayramına evə gedəcək. Körpə qızını görməkdən ötrü. Bir də söz vermişdi ki, hamımıza Novruz sovqatı gətirəcək. Amma vaxtsız əcəl Yaşarın arzularını gözündə qoydu... Yenicə yurd-yuva qurmağa tələsən, körpəsini, Sevincini doyunca oxşamayan, arzuları ürəyində qırılan Yaşar Vətən yolunda şəhid oldu"...

**O, Bakıda Şəhidlər Xiyabanında dəfn olunmuşdur.**

**Haşiyə:** Ata-baba ocağına olan istəyinin həddi-hududu yox idi Yaşarın. Onun nəzərində ulu Azərbaycan – Qarabağ, Muğan, Mil, Dağıstana gedən yollar candan əziz sevdiyi Çalov kəndindən başlayır və uzun-uzun yollar buradan çözələnir dünyanın o biri başına... Bakıda oxuyanda, keçmiş İttifaqda hərbi xidmətdə olanda da gördüyü yollara baxıb fikrləşərdi... Bizim eldən başlayıb gəlir yollar buralara... Bax ata-baba ocağını belə sevdiyin üçün vurğunu olmuşdun torpağlarımızın...

Elə ona görə də cavan yaşında – heç iyirmi səkkizi başa vurmamış qovuşdun sevgili torpağa... Qismətin belə imiş, Yaşar... Bütün Çalovlular, eləcə də ömür-gün yoldaşın, saçlarını oxşamadığın, boyuna baxıb sevinmədiyin Sevincin də belə düşünür... Dillərində boyuna biçilmiş bayatılarla...

***Palazı naxışlaram,***
***Göl sallam, naxışlaram,***
***Səndən bir xəbər çıxsa,***
***Canımı baxışlaram.***

## SALMANOV ŞƏFAHƏT (1973-1994)

## "ŞƏFAHƏT AYRI OĞUL İDİ"...

Şəfahət Əlisafa oğlu 1973-cü ildə Nərimankənd kəndində anadan olmuşdur. O, A.Qayıblı adına Nərimankənd kənd orta məktəbini bitirmişdir. Orta məktəbi qurtarandan sonra - 1992-ci ildə hərbi xidmətə çağırılmışdır. Bir müddət sınaq təlimi keçmiş, sonra arzusu ilə döyüş bölgəsinə göndərilmişdir. İlk əvvəl Fərrux yüksəkliyi uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Neçə-neçə əməliyyatların həyata keçirilməsində fəallıq göstərmişdir. O, öz cəsarəti, bacarığı ilə



həm komandir, həm də yoldaşları arasında böyük hörmət qazanmışdır. Şəfahət 1993-cü ildə Füzuli bölgəsinə göndərilir. Orada da cəsarətlə vuruşur, yüzlərlə ermənini cəhənnəmə vasil etmiş, bir çoxunu əsr almışdır. Vətən torpağını canından əziz bilən **Şəfahət 1994-cü ildə Ağcabədi bölgəsində şəhid oldu.** O, Nərimankənd kənd qəbristanlığında uyuyur.

**Cəbhə yoldaşlarının dediklərindən:** "Şəfahət ayrı oğul idi. Heç nədən qorxmazdı. Çətin vəziyyətdən baş çıxarmağı bacarırdı. Arxayın idik ki, harada Şəfahət varsa, oradakı əməliyyat baş tutacaq. Əfsus ki, o, tez getdi aramızdan. Amma belə oğullar ölmürlər. Biz dəstəmizdən şəhid olanları hər vaxt yanımızda hiss edirik. Şəfahət kimi minlərlə şəhidlərimizin qanını düşməndən çoxdan almışıq. Onların ruhunun sakit olması üçün torpaqlarımızı mütləq azad edəcəyik... Biz buna varlığımızla inanırıq".

**Haşiyə:** Ata-ana üçün oğul itkisindən ağır itki yoxdur. Xoş o ata-ananın halına ki, oğul çiynində son mənzilə-axirət evinə aparılır. Bax ona görə göyüm-göyüm göynəyir Şəfahətin valideyinləri...

***Əzizim gün əridər,***
***Yaz qarı gün əridər,***
***Oğlu ölmüş ananı***
***Hər qara gün əridər.***

Oğul dağlı ananın təskinliyi ancaq göz yaşları və bu ağılardadır. 21 yaşlı Şəfahət qələbə günü sorağında idi. Bütün varlığı ilə çalışırdı ki, şəhid oğulların qanını düşməndən alsın, torpaqlarımız azad olsun. Görə bilmədi Şəfahət o günü. İnşallah, o gün gələcək! Həmin gün torpaqlarımız uğrunda canından keçən şəhidlərimiz xatırlanacaq. Bax onda Şəfahətin tanrı dərgahına qovuşan şəhid ruhu təskinlik tapacaq!

## SAHİBOV MÜBARİZ
## (1973-1993)

## "ANASI DÖZMƏDİ OĞUL DƏRDİNƏ"...

Mübariz Əli oğlu 1973-cü il aprel ayının 16-da Ərəbqədim kəndində dünyaya gəlmişdir. Hər səhər Haramı dağları ilə salamlaşan bu kəndin sıldırım qayaları, ulu yurd daşları onun üçün hər şeydən əziz və qiymətli idi. Bir də bu torpaq Mübarizə onun üçün qiymətli idi ki, əsrlərlə ata-babalarımızın sitayiş etdiyi Şeyx Eyyub Şeyx Bayram oğlu (1731-1797) Ərəbistan torpağına bənzəyən bu torpaqda dünyaya göz açmışdır. Ona elə gəlirdi ki, Sofu Novruz turbəsinin yuxarı tərəfində ər kimi dayanmış o daşlar uzaq keçmişdən bəri yurdu yurd edən igid oğulların abidəsidir. **Babək Xurəmmidin, Qoç Koroğlunun, Şah İsmayıl Xətainin...**



Mayası halallıq, saflıqla yoğrulan belə bir yurdda dünyaya göz açan Mübariz orta məktəbi qurtaran kimi - 1992-ci ildə hərbi xidmətə yola düşür. Bir müddət sonra onu evə buraxırlar. Bu müddətdə o, sənədlərini Bakı Plan-İqtisad texnikumuna verir və hüquq fakültəsinə qəbul olunur.

Bu o zaman idi ki, ermənilərin fironluğu cövlan edirdi. Vətən aşiqi Mübariz heç kimə bir söz demədən könüllü olaraq cəbhəyə yollanır. Ağdam bölgəsinə gəlir. Yaşının az olmasına baxmayaraq, hünər, cəsarət ilə tay-tuşları arasında seçilir, etibar olunur. **Sonuncu döyüşü, 1993-cü ilin iyun ayının 13-də olur...** Yağı düşmən yenidən hücuma keçmişdir. Amma bizimkilər də yerində möhkəm dayanmışdı. Bizimkilər hücuma başladılar. Yağı çaşbaş qaldı. Məcbur olub geri çəkildi. Bu ara yağı gülləsi Mübarizi yerə sərdi...

**Əli kişinin dediklərindən:** Halal zəhmətlə iki oğul, səkkiz qız uşağı böyütmüşük. Övladlarımın arasında Mübarizin ayrıca yeri vardı. Lap uşaqlıqdan düzlük, doğruluq onun üçün hər şey idi. Elə ona görə də bu kənddə elə bir adam tapılmazdı ki, onun xətrini istəməsin. Lap ağsaqqal misallı idi. Yazıq anası dözmədi oğul itkisinə. Çox dedim ki,

## SAHİBOV MÜBARİZ
## (1973-1993)

## "ANASI DÖZMƏDİ OĞUL DƏRDİNƏ"...

Mübariz Əli oğlu 1973-cü il aprel ayının 16-da Ərəbqədim kəndində dünyaya gəlmişdir. Hər səhər Haramı dağları ilə salamlaşan bu kəndin sıldırım qayaları, ulu yurd daşları onun üçün hər şeydən əziz və qiymətli idi. Bir də bu torpaq Mübarizə onun üçün qiymətli idi ki, əsrlərlə ata-babalarımızın sitayiş etdiyi Şeyx Eyyub Şeyx Bayram oğlu (1731-1797) Ərəbistan torpağına bənzəyən bu torpaqda dünyaya göz açmışdır. Ona elə gəlirdi ki, Sofu Novruz türbəsinin yuxarı tərəfində ər kimi dayanmış o daşlar uzaq keçmişdən bəri yurdu yurd edən igid oğulların abidəsidir. **Babək Xurəmmidin, Qoç Koroğlunun, Şah İsmayıl Xətainin...**



Mayası halallıq, saflıqla yoğrulan belə bir yurdda dünyaya göz açan Mübariz orta məktəbi qurtaran kimi - 1992-ci ildə hərbi xidmətə yola düşür. Bir müddət sonra onu evə buraxırlar. Bu müddətdə o, sənədlərini Bakı Plan-İqtisad texnikumuna verir və hüquq fakültəsinə qəbul olunur.

Bu o zaman idi ki, ermənilərin fironluğu cövlan edirdi. Vətən aşiqi Mübariz heç kimə bir söz demədən könüllü olaraq cəbhəyə yollanır. Ağdam bölgəsinə gəlir. Yaşının az olmasına baxmayaraq, hünər, cəsarət ilə tay-tuşları arasında seçilir, etibar olunur. **Sonuncu döyüşü, 1993-cü ilin iyun ayının 13-də olur...** Yağı düşmən yenidən hücuma keçmişdir. Amma bizimkilər də yerində möhkəm dayanmışdı. Bizimkilər hücuma başladılar. Yağı çaşbaş qaldı. Məcbur olub geri çəkildi. Bu ara yağı gülləsi Mübarizi yerə sərdi...

**Əli kişinin dediklərindən:** Halal zəhmətlə iki oğul, səkkiz qız uşağı böyütmüşük. Övladlarımın arasında Mübarizin ayrıca yeri vardı. Lap uşaqlıqdan düzlük, doğruluq onun üçün hər şey idi. Elə ona görə də bu kənddə elə bir adam tapılmazdı ki, onun xətrini istəməsin. Lap ağsaqqal misallı idi. Yazıq anası dözmədi oğul itkisinə. Çox dedim ki,

üzmə özünü. Bu, Allahın qismətidir. Yazıq arvad ağlamaqdan usanmadı, beş-altı günün içində qəddi əyildi və tamam düşdü...

*Gedərəm ellərindən,*
*Nə gələr əllərimdən,*
*Yaşılbaş sona olub*
*Uçaram göllərindən.*

**Haşiyə:** Mən sizə torpağı müqəddəs bilən iyirmi yaşlı bir gəncin ömür yolundan kiçik bir söhbət açdım. Mərdliklə yoğrulmuş Mübariz ömründən. Yaz ayında dünyaya göz açan Mübariz yazla-yayın qovuşuğunda dəyişdi dünyasını. Bu müsibət bütün ərəbqədimlilərin müsibəti idi. Ona görə də onlar Mübarizin adını əbədiləşdirdilər. Oxuduğu məktəbə Mübarizin adını verdilər, döyüş yolunu əks etdirən güşə yaratdılar. Bu da həmin məktəbdə təhsil alan gənclər üçün əbədi məşəl oldu. Onları uğurlu gələcəyə səsləyən, Mübariz yadigarlı əbədi bir məşəl...

## SƏLİMLİ MALİK
## (1973-1992)

## "19 YAŞIN DASTANINDAN"...

Malik haqqında yazmaq üçün həmyerliləri, valideyinləri ilə görüşdüm.

**Malik haqqında deyilənlərdən:** "Məktəbdə oxuduğu illərdə təhsil və tərbiyəsində həmişə başqalarına nümunə olmuş, fənn olimpiadalarında yüksək yer tutmuş, məktəbin bütün ictimai işlərində fəal iştirak etmişdir"...

"...1988-ci ildə Azərbaycanda başlayan xalq hərəkatında yaxından iştirak edən 15 yaşlı Malikin ən böyük arzusu respublikamızı müstəqil və azad görmək idi...

*Qarış-qarış gəzib Vətən torpağın,*
*Ovuc-ovuc bulağından içərəm.*
*Dağlarına qollarımı dolayıb,*
*Yamacından, zirvəsindən öpərəm".*

"... Özüm qırx ildən artıq zəhmətlə çalışmışam. Oğlumu da



halallığa, düzlüyə öyrətmişdim. Malikim başdan-başa torpaq, Vətən qeyrətinin rəmzi idi. Torpağı çox sevdiyi üçün tez də qovuşdu ona"...

"Malik düşmənin üstünə ər kimi gedirdi... Qorxu, ölüm nə olduğunu bilməzdi... Heyif Malikə"...

Bu deyilənlər on doqquz yaşında şəhid olan Malikin ömür dastanından parçalardır. Gün gələcək bu şərəfli ömür şerləşəcək, *nağıllaşacaq, el-torpaq qədrini* canından əziz bilən Malikin adına layiq bir dastana dönəcəkdir.

**Haşiyə:** Malik Kərəm oğlu 1973-cü il mart ayının 6-da Qobustan rayonunun Nərimankənd kəndində anadan olmuşdur. 1990-cı ildə orta məktəbi əla qiymətlərlə başa vurur. Sənədlərini M.Rəsulzadə adına ADU-ya vermişdi. Arzusu filoloq olmaq idi...

Vətəni candan əziz sevən on doqquz yaşlı Malik ali təhsil almağı *arxa plana qoydu. Torpağımız azad olmasa, şəhid qardaşlarımın qanını* almasam, dinclik tapmaram, – deyib 1992-ci ildə Respublika Daxili İşlər Nazirliyinin daxili xidmət qoşunlarında hərbi xidmətə başlayır. Tezliklə Qarabağın azadlığı uğrunda döyüşlərə qoşulur. Ağdam, Canyataq, Gülyataq səmtə gedən döyüşlərdə fəal iştirak edir. O, **1992-ci ilin sentyabrında Fərrux yüksəkliyi uğrunda gedən döyüşdə** yaralanır və bir neçə gündən sonra əbədi olaraq gözlərini yumur...

**Söz ardı:** Allah təala hərəyə bir qismət yazıb... Malikin də taleyi belə imiş... Ölmün min bir üzü var... O, yaxşıya-yamana çox zaman fərq qoymur. Ölümün nə vecinə ki, qəlbi Vətən, Torpaq eşqi ilə coşub-daşan Malik kimi igidlərin qalaq-qalaq arzuları puç olur – yazılmamış şeyləri, el gözəlinə deyilməmiş sözləri qalır... Torpağımızı canından artıq sevən Malik öz ölmü ilə ölməzlik qazandı... Qədirbilən insanlar əbədiləşdirdilər Malikin adını... Neçə-neçə mərasim, toplantı və yığıncaqlar keçirilən *Qobustan rayon mədəniyyət* evi Malikin adını daşıyır...

Malikin haqqında fikrimi tamamlamaq istəyirdim ki, radionun "Bulaq" verilişində ixtiyar yaşlı bir ananın yanıqlı səsi diqqətimi çəkdi:

*Yoxuşdan enən mənəm,*
*Yolunu dönən mənəm,*
*Qapım bağlı qalıbdır*
*Çırağı sönən mənəm.*

Səs də, söz də yaman tutdu məni! Görəsən, hansı oğul dağlı ana idi bu bayatını çəkən?!.

## SƏMƏDOV HİCRAN
## (1963-1993)

## "BARI GƏL YUXUMA GİR"...



Hicran Umudəli oğlu 1960-cü ildə Cəyirli kəndində doğulmuşdur. Bu kənd öz aşıq və sənətkarları ilə Şirvanda ad çıxarmışdır. Uşaqlıqdan bu ünlü sənətkarlar – Aşıq Barat, Aşıq Məmmədağa, xanəndə Tofiq və başqalarının nəsihətamiz şerlərini, səsini dinləyən Hicran dünya varında o qədər də gözü olmayan bir insan kimi böyümüşdü. Beş yaşında üç qardaşı ilə atadan yetim qalmışdır. Anası gözü ilə od pilənmiş, böyük çətinlik və zəhmətlə övladlarını böyüdüb ev-eşik sahibi etmişdi. Belə bir ailədə böyüyən Hicran lap uşaqlıqdan çörəyin, torpağın qədrini bilmiş, halallığa söykənmişdir. Anasının vəsiyyəti onunçun həyat devizi olmuşdur: "Bala, süfrənə haram loxma qoyma. Yadında saxla, halal incələr, amma heç vaxt üzülməz".

Bax Hicran da beləcə halallıqla çörək qazanmış, var toplamış, halal ailədə böyümüş qismətinə düşən bir el gözəli ilə ailə qurmuşdur. Allah təala iki övlad payı qıyır Hicranın ailəsinə. Ailənin sevincli, çal-çağırlı günləri başlayır...

**Haşiyə:** Bu vətəndə halallıqla böyüyənlərin faciəsi daha böyük olur. Bəlkə də, böyük yaradan bilə-bilə o insanları imtahana çəkir. Şükürlər olsun Allahın bildiyinə...

**Vətənimizin bu faciəli illərində neçə-neçə vəzifə sahiblərnin bir çoxu - eldən-obadan, torpaqdan-xalqdan ağzıdolusu danışanlar övladlarını müxtəlif bəhanələr adı ilə müharibəyə getməyə**

**qoymadılar. Yük düşdü fağır-füqəranın, kasıb-kusubun balalarının üstünə. Vəzifədə, var toplamaqda birinci olanlar, övladlarını cəbhəyə göndərməkdə heç axırıncı da olmadılar...** Hicranın iki övladı var idi. İstəsəydi, həmin nankorlar kimi getməzdi davaya... Halallığı kəsdi yolunu... Ömür-gün yoldaşı da etiraz edə bilmədi Hicranın bu istəyinə... Hicran cəbhəyə yollandı... Füzuli bölgəsində vuruşurdu... Neçə-neçə döyüşlərdən uzüağ çıxdı. Sonra Tərtər bölgəsinə göndərildi. Burada da eləcə... **Sonuncu döyüşü Tərtər rayonunun Qaraqoyunlu kəndi uğrunda gedən savaşda oldu...** Yağı gülləsinə tuş gəldi Hicran! Özü də düz sinəsindən...

**Ömür-gün yoldaşının dediklərindən:** Allah təalə məni Hicran kimi zəhmətlə dolanan bir ailəyə qismət etmişdi. Hicran mənim üçün hər şey idi. Xoşbəxt yaşayırdıq. Müharibəyə getmək istədiyini mənə bildirəndə etiraz etmədim. Amma yavaşca dedim:

- Hicran, qorxuram ki, Nərminlə, Elçini atasız qoyasan. Başıma daş salasan.

- Heç narahat olma, Allah nə yazıbsa, eləcə də olacaq...

Bəli, Hicran getməyi ilə mənə hicran dağı çəkdi... Balalarını dünyalar qədər istəyirdi. Hər axşam onları oxşayıb yatırmasaydı, özü də yatmazdı. Məni dəhşətə gətirən də elə budur. İnanmıram ki, gecələr onun ruhu rahatlıq tapmış olsun... Məncə, Hicranın ruhu o vaxt rahatlıq tapacaq ki, mən balarımızı oxudum, ev-eşik sahibi edim... Mən də ki, qadın xeylağı... Bu ağır yükə gücüm çatacaqmı?...

Bu ara Cəyirli kəndinin o biri başından qulağıma bir el ağbirçəyinin ürək dağlayan səsi gəldi...

*Aşıq miyana dərdim,*
*Səndən o yana dərdim,*
*El bilməz, dərman desin,*
*Yazım hayana dərdim?*

## SEYİDOV OKYAN
## (1973-1993)

## "ANA İSTƏYİ GÖZÜNDƏ QALDI"...

Okyan Baday oğlu 1973-cü il fevral ayının 8-də Bədəlli kəndində dünyaya göz açmışdı. İbtidai təhsilini kənd məktəbində alan Okyan orta təhsilini Şamaxı şəhər iki saylı rus dili məktəbində başa


Sağdan birinci

vurmuşdur... Arzusu hərbiçi olmaq idi Okyanın. Keçmiş Sovetlər birliyində həqiqi zabit olmaq üçün rus dilini bilmək vacib sayılırdı... Odur ki, orta təhsilini başa vurub Bakı Ümumqoşunlar məktəbinə daxil olur... Təhsilini yarımçıq qoyub qoşulur könüllülərə.

**Baday kişinin dediklərindən:** "Mənim dörd övladım var. Heç birinə bənzəmirdi Okyan. Yerişi, duruşu, boy-buxunu, insanlara münasibəti ilə seçilirdi o biri övladlarımdan... 1992-ci il idi. Bir də xəbər tutduq ki, Okyan bizə heç bir söz demədən müharibəyə yollanıb... Ağdərə bölgəsində döyüşür. Bir müddət bu xəbəri anasından gizli saxladıq... Bir gün o bizə xəbər çatdırdı ki, ad günümdə evə gələcəm... Elə də oldu, 1993-cü ilin fevral ayının əvvəlində evimizə gəldi. Anası məsələdən hali oldu. Okyana yalvardı ki, hələ uşaqsan, get məktəbini oxu. Okyan anasına söz verdi. Fevralın 8-də yoldaşları ilə birlikdə ad gününü – 20 yaşını qeyd etdik... Səhəri gün mənə yaxınlaşdı:

- Ata, heç kəs bilməsin. Mən ayın onuna kimi icazə almışam. Cəbhə dostlarım məni gözləyir. Anama bildirmə. Xeyir-dua ver. Axı sən özün də razı idin ki, oğlun hərbçi olsun... İnan ki, dilim-ağzım qurudu – heç nə deyə bilmədim. Sonra anası ilə görüşdü!

- Ana, Bakıya gedirəm. Dərslərimdən geri qalmışam. Bir də tətildə gələcəm.

- Əcəb eləyirsən bala. Ona qədər mən də sənin toyuna hazırlaşacam... İstəyirəm ki, sənin toyunda doyunca süzüm... Axı tay-tuşlarından ev-eşik sahibi olanlar çoxdur...

Nə biləydim ki, bu oğlumuzla son görüşümdür. Nə biləydim ki, Okyanımın iki gün sonra arzuları çilik-çilik olacaqdı... Nə biləydim ki, vaxtsız əcəl iki gün sonra sinəmə oğul dağı çəkəcəkdi... Danışa bilmədi Baday kişi. Elə mən də artıq qeyd apara bilmədim. Güllər ana isə göz yaşına bürünmüşdü. Deyəsən, ağılarla soraqlayırdı Okyanını...

*Əzizinəm baş məndən,*
*Kiprik məndən, qaş məndən,*
*Nə sulu bulağammış*
*Qurtarmayır yaş məndən?*

## SOLTANOV EMİL
## (1973-??)

## "MƏZARININ YERİNİ BİLSƏYDİK"...



Emil Şahalı oğlu 1973-cü il oktyabr ayının 8-də Təklə-Mirzəbaba kəndində anadan olub. 1990-cı ildə kənd orta məktəbini bitirmişdir. O, 1992-ci ildə hərbi xidmətə çağırılıb. Bir müddət təlim məşqi keçəndən sonra cəbhəyə yola düşmüşdür. Özü də ən qaynar nöqtəyə – Laçına... Laçından sonra Emil Ağdərə, Kəlbəcər, Tərtər bölgəsində vuruşmuş və son məktubları oradan gəlmişdir. Bir müddətdən sonra onun məktublarının arası kəsilmiş, həlak olması haqqında doğmalarına heç bir məlumat gəlməmişdir, verilməmişdir...

**Emilin məktublarından:** "Məndən heç narahat olmayın. Rotamızın uşaqları ilə belə qərara gəlmişik ki, bir addım da geri çəkilməyək. And içib, əhd bağlamışıq. Son nəfəsimizə qədər torpaqlarımızı müdafiə edəcəyik. Düşmən bizim meyidlərimizin üzərindən keçib irəlləyə bilər. Bu da asan deyil. Ona görə ki, yoldaşlarımızın hər biri ər misallı, Koroğlu qeyrətlidir... Hamıya salam söyləyin... Torpaqlarımız azad olandan sonra qayıdacam evimizə"...

**Doğmalarının ürək sözləri:** "Respublika Hərbi Komissarlığı, Qırmızı Xaç Cəmiyyətinə müraciət etməyimizə baxmayaraq, Emil haqqında heç bir məlumat əldə edə bilmədik. Oğul düşmən çəpəridir. Torpaq, Vətən yolunda da şəhid olar... Məncə, bu o qədər də dərd deyil. Ən çətin dərd odur ki, övladının məzarına həsrət qalasan. Emilin məzarının yerini bilsəydik..."

Bəli, ağır dərddir oğul dərdi. Ağır dərddir aylarla, illərlə itkin oğlunun yolunu gözləmək! Çox ağırdır!

**Düşüncələrimdən:** Bu davada çox itkilərimiz oldu. Deyirəm, bəlkə o igidlərin çoxusu sağdı-əsirlikdədir. Haçansa qurtaracaqlar o vəhşilərin caynaqından. Emilin dediyi kimi, bəlkə dava qurtaranda qayıdacaq o oğulların çoxusu. Azmı olub Böyük Cahan müharibəsində belə təsadüflər?... Kaş düşüncələrim çin olaydı. Müharibə

qurtaraydı. Bir də görəydik ki, Emil qapını açıb içəri girir. Və sevincək:

- Demişdim ki, müharibə qurtarandan sonra qayıdacam. Budur, gəldim!..

Xəbəri eşidən kimi mən də üz tutaydım Emilgilə... Göz aydınlığı verəydim. Qoşulaydım o insanları sevincinə.. Təki elə olaydı.

## TAPDIQOV ƏMRAH (1979-1998)

## "AL MƏNİ, APAR MƏNİ"...



Əmrah Rəşid oğlu 1979-cü ildə Cəmcəmli kəndində anadan olmuşdur. O, 1996-cı ildə kənd orta məktəbini bitirir. Əmrah 1998-ci ilə kimi kənddə mexanizator işləyir... Elə həmin ildə hərbi xidmətə çağrılır. Ailədə, qohum-əqraba Əmrahı şadyanalıqla yola salır... Əmrah gedəndən ananın göz yaşları qurumurdu.

"Yeri gəldikcə anasına təsəlli verirdim. Əmrah Ağdam ərazisində qulluq edir, qorxma, atəşkəsdi. Balamıza heç nə olmaz. Bir də ki, taleyinə nə yazılıbsa, o da olacaq"... Bu sözləri deyəndə sanki özüm də diksinirdim... Ürəyimdən bir sızıltı da keçdi... Əmrah tez bir zamanda Ağdamın Üçoğlan kəndi ərazisindəki hərbi hissədə hörmət qazanır... Öz fərasəti ilə seçilir. Sən demə erməni, elə ermənidir ki, var, xain, fürsətsiz, namərd... Atəşkəs olduğu üçün Əmrah kimi cavanlar bəzən ehtiyatsızlıq edir... Əmrah da erməni kafirlərinin namərdliyini unudur... Səngərdə olduğu vaxt ehtiyatsızlıq edir. Arın-arxayın gəzdiyi yerdə yağı gülləsinə tuş gəlir... **1998-ci il dekabr ayının 17-də...** Düz on ay on beş gün idi ki, qulluq edirdi... 19 yaşında...

**Haşiyə:** Bu faciənin sorağı tez çatdı Cəmcəmliyə. İlk əvvəl inanan olmadı bu xəbərə. Axı indi dava getmir, sakitlikdir deyə – Rəşid kişinin ailəsinə çoxları təskinlik verdi...

Bəli, Əmrah həlak olmuşdu. Bu dərd bütün elin dərdinə

çevrildi...Hamı şərik oldu Əmrahın ailəsinin dərdinə. Bütün el qara geydi... Babalar köks ötürdülər, nənələr ağıyla təskinlik tapdılar, gənclər yumruqlarını düyünlədilər... Bir cavan ananın fəryadına isə göydən gedən durnalar da qanad saxladılar sazaqlı, çiskinli bir gündə.

*Əzizim yüz il belə,*
*Nimçəyə düzül belə,*
*Yolunu gözləyərəm*
*Gəlməsən yüz il belə.*

*Al məni, apar məni,*
*Yarpızam qopar məni,*
*Sənsiz çox darıxmışam,*
*Yanına apar məni.*

## HİDAYƏTOV RAMİL (1974-1994)

## "İYİRMİ YAŞINDA ŞƏHİD OLDU BALAM"...



Ürəyimdəki dərdi-niskili gözlərindən, baxışlarından aydınca hiss olunur Xanım xalanın. Hiss edirsən ki, ana özünü nə qədər səbirli aparır. Allah-təalanın qisməti ilə razılaşsa da, yenə oğul itkisi yandırıb-yaxır onu. Yanğısını isə dediyi bayatılarla söndürməyə çalışırdı Xanım ana.

*Qışda yeri qar alar,*
*Dinmə, qanım qaralar,*
*Lənət gəlsin fələyə*
*Yazar, pozar, qaralar.*

Ananın göynəyə-göynəyə avaz ilə dediyi ağılar bizi də kövrəltdi... Gözlərinin leysan yaşını silən Xanım ana səsi qırıla-qırıla sözə başladı.

- Ramilim cəmi iyirmi il yaşadı. İyirmi yaşın qışında şəhid oldu balam... Mən toy tədarükündə idim. Az qalmışdı ki, elçiliyə gedəm.

Arzum isə ürəyimdə qaldı. Allah müharibəyə bais olanların evini yıxsın. Çox analar qaldı gözü yaşlı. Kənddə kimdən soruşsanız, sözümü təsdiq edər. Ramilim ağıllı bala idi. Böyük-kiçik yerini yaxşı bilirdi. Müəllimləri həmişə oğlumun davranışından, qanacağından razılıq edirdilər. Balam haqqında deyilən xoş sözlər məni fərəhləndirirdi... Fərəhim isə çox çəkmədi...

Ananı qəhər boğdu... Biz də susduq... Şərik olduq ananın dağ boyda dərdinə...

**Haşiyə:** Ramil Biləsuvar oğlu 1974-cü il dekabr ayının 7-də Cəmcəmli kəndində anadan olmuşdur. O, orta məktəbi bitirəndən sonra hərbi xidmətə çağırılır. Bir müddət təlim keçəndən sonra – 1993-cü ilin iyul ayında Milli Orduya çağrılır. Sonra cəbhəyə yola düşür. O, ilk əvvəl Tərtər bölgəsinə yollanır... Müxtəlif döyüş bölgələrində düşmənə qarşı mərdliklə vuruşur. Şəhid olmuş neçə-neçə qardaşlarının qanını alır Ramil...

Ürəyi Vətən eşqi, yaşamaq arzusu ilə coşub-daşan Ramil 1994-cü ilin yanvar ayında gedən qanlı-qadalı döyüşlərin birində ağır yaralanır... **Və yanvar ayının 31-də əbədi olaraq gözlərini yumur.** Ramil doğma kənd qəbristanlığında dəfn olunmuşdur. Qəbrin nurla dolsun, Ramil!.. Qədirbilən həmyerliləri Ramil adını əbədiləşdirmişlər. Belə ki, Cəmcəmli kənd mədəniyyət evi şəhid Ramilin adını daşıyır...

## HÜSEYNOV RASİM
## (1964-1994)

## "QƏLƏBƏ MÜJDƏSİ İLƏ GƏLƏCƏM"...

Rasim Hüseyn oğlu 1964-cü ildə Cəyirli kəndində anadan olmuşdur. Orta məktəbi bitirəndən sonra hərbi xidmətə gedir. Hərbi xidməti başa vurub Əli-Bayramlı şəhərindəki Sənaye texnikumuna daxil olur. O, həm də şəhər 2 saylı qazçəkmə idarəsində fəhlə işləyir...

**Hüseyin dayının dediklərindən:** Oğlanlarımı uşaqlıqdan zəhmətə, düzlüyə, torpaq qədri bilməyə öyrətmişəm. Atalar demiş; oğul düşmən çəpəridir. Oğlanlarımın üçü də torpağımızın müdafiəsinə hazır idi. Qabağa Rasim düşdü. Nə deyə bilərəm, Allah bilən məsləhətdir. Ürəyimdə bircə nisgilim var. Kaş torpaqlarımız tez azad



olaydı. Rasim kimi yüzlərlə ər qeyrətli oğulların qanı yerdə qalmayaydı. Müharibə qurtaran kimi qurban da kəsəcəm. Ona görə ki, bu yolda şəhid olanların ruhları onda təsəlli tapacaq və həmin gün onlara əyan olacaq uğrunda can verdikləri torpaq azad oldu...

Rasim 1992-ci ildə könüllülər dəstəsinə qoşuldu. Bacarığına görə onu alay komandiri təyin etdilər. O, Xocavənd, Uğurlu, Güllücə istiqamətində gedən döyüşlərdə mərdliklə vuruşdu. Bunun əvəzi olaraq Rasimə beş gün məzuniyyət verdilər. Yaxşı oldu ki, onun evə gəlməsi oğlu Yunisin ad gününə düşdü. Qohumlar, doğmalar bir süfrə başında əyləşdilər. *Dedilər, güldülər, çaldılar, oynadılar. Sən demə* bu həm də Rasimin doğmaları ilə son görüşü imiş... Gedəndə hamı ilə görüşüb: *Darıxmayın ikinci dəfə qələbə müjdəsi ilə gələcəm...*

**Rasimin alayının növbəti hücumu 1994-cü il yanvar ayının 6-da oldu.** Hava sərt olmasına baxmayaraq əməliyyat lazımınca yerinə yetirildi... Düşmən böyük itki verdi və məcbur olaraq geri çəkildi... Amma bu qanlı döyüşdə Rasim düşmən gülləsinə tuş gəldi...

**Haşiyə:** Şəhid qardaşım Rasim. Sən dünyaya öz bənzərsizliyi, təbiəti ilə seçilən dağ kəndində gəlmişdin... Bu kəndin saf dağ havası, bulaq suyu və Hüseyn kişinin halal tikəsi ilə böyümüşdün... Yaxşı bələdəm sizin elin adamlarına – Allaha-dinə çox qayıldılar... Rəhmətlik **Hacı Qara, Kəlbəlayi Cavad, Kərbəlayi Ağası**, eləcə də **Məşhədi Xanalı, Məşhədi Zeynal** və başqaları kimi... Bu kəndin **Aşıq Abbas, Aşıq Barat, Aşıq Məmmədağa** kimi istedadlarının da adı-sanı bütün Azəbaycana bəllidir... Bax həmin insanlar kimi sən də öz ölümünlə – şəhid adınla başucalığı gətirdin doğma Cəyirli kəndinə... Fəxri oldun elin-obanın... Sağ olsun, qədirbilən həmyerlilərin. Əbədiləşdirdilər sənin adını. **Oxuduğun məktəbə sənin adını verdilər, Rasim!..**

## HÜSEYNQULİYEV FUAD
## (1971-1993)

## "VƏTƏNİ SEVMƏK İMANDANDIR"...



Fuad Hüesynqulu oğlu 1971-ci ildə Cəmcəmli kəndində anadan olmuşdur. O, 1988-ci ildə kənd məktəbini bitirəndən sonra Bakıdakı beş saylı texniki peşə məktəbinə daxil oldu. Peşə məktəbini bitirib hərbi xidmətə yola düşür. Estoniyada üç il hərbi xidmətdə olan Fuad müxtəlif fəxri fərmanlarla vətənə qayıdır. Valideyinləri bu xoş günün şərəfinə qurbanlıq qoçu oğlunun ayaqlarının altında kəsirlər...

Fuad bilirdi ki, bu ev həmişə halallığa söykənib. Onun ata-baba ocağının urvasına heç vaxt haram qatılmayıb, ata-ana halal zəhmətlə dolandırıb övladlarını... Fuad da sovxozda işləməyə başlayır... Bu zaman ermənilər torpaqlarımızı bir ucdan zəbt edirdilər. Fuad Vətənin ağır günlərində döyüşdən kənarda qalmasını qeyrətinə sığışdıra bilmədi. Günlərin bir günü fikrini anasına bildirdi...Anası bir qədər duruxub dedi:

- Bala, həzrəti peyğəmbərimiz Məhəmməd (s) buyurub ki, **Vətəni sevmək imandandır.** Buna görə də mən sənə etiraz edib, imansız ola bilmərəm... Yəqin ki, səni bu fikrə sövq edən Vətənə olan sevgin, məhəbbətindir. Qismət isə Allahındır. Amma çalış ki, ehtiyatlı olasan. Düşmən quduz olduğu kimi, müharibə də ən dəhşətli vəhşidir... Fuad 1993-cü ildə cəbhəyə yola düşdü. Hərbi xidmətdə qazandığı təcrübələr köməyinə çatdı. İlk günlərdən bacarığı, cəsarəti ilə seçildi. Bir çox bölgələrdə vuruşdu. Ağdam rayonunun Paprəvənd kəndi uğrundakı döyüş son döyüşü oldu Fuadın... Xəbər doğma yardu Cəmcəmliyə gəlib çatdı... İnanan da oldu, inanmayan da... Ana, bir də qardaşları – Mehman və Nizami inanmırdı Fuadın ölümünə... Ta şəhid Fuadın cənazəsi evlərinə gətirməyənə qədər... Ana haray çəkdi, şüvən qopartdı...

*Xoruzun ban səsinə,*
*Oyannam ban səsinə,*

*Bir dəfə səsin gəlsə,*
*Verərəm can səsinə.*

**Söz ardı:** Cəmcəmli kəndində çox olmuşam. Bu kəndin ərazisinə bənzər ərazi çətin tapılar Qobustan rayonunda. Kəndi ağuşuna alan sal daş qayalar, dərin dərələr, sıldırımlar, ərlər-ərənlər yurdunu xatırladır insanlara... Yayın süddən ağ gecələrində kənd sakinlərinin Sarı qayadan gətirdikləri bulaq suyu lap sirli-sehirli nağıllarımızdakı kimidir. Kəndin belə ab-havası, bənzərsiz ərazisi lap uşaq yaşlarından igid, qorxmaz kimi böyüdür insanları... Məncə, sən də uşaqlıqda o sal daşların üstündən quş kimi səyriyib ötürdün, sıldırım qayalara bir göz qırpımında dırmaşırdın, Fuad!.. Belə cəsarətin oldu səni döyüşə aparan. Vətəni sənə sevdirən... Elə ona görə də Vətən yolunda şəhid oldun. Qoynunda böyüyüb boya-başa çatdığın Cəmcəmli kəndinə şəhidlik adınla şöhrət gətirdin... Həmyerlilərin isə sənin müqəddəs adını əbədiləşdirir – kənd kitabxanasına sənin adını verdilər...

## CAVADOV ANAR
## (1974-1994)

## "YUXUN ÇİN ÇIXACAQ"...



Anar Əlisəfa oğlu 1974-cü il sentyabr ayının 12-də Cəmcəmli kəndində anadan olmuşdur. Anar orta məktəbi bitirəndə artıq bir neçə il idi ki, erməni fitnəkarlığı başlamışdı. Bu fitnəkarlıq isə günü-gündən artırdı... O, 1992-ci ildə hərbi xidmətə çağrılır. Bir müddət Bakıda, Gəncədə təlim məşqləri keçir, hərbi səriştəyə yiyələnir. Bir çox ağır döyüşlərdə iştirak edir, yavaş-yavaş alışır cəbhəyə. Artıq ona böyük etimadlar göstərilir... Komandirlər tərəfindən verilən bütün tapşırıqları lazımınca yerinə yetirir Anar... Onların sonuncu döyüşü **Ağdərə bölgəsinin Dəstəgül kəndi ərazisində olur...** Həmin döyüşdə bir çox silahdaşları ilə birlikdə Anar da itkin düşür...

**Haşiyə:** Anarın itkin düşdüyü gündən Əlisəfa dayı, Gülcahan xala və bacı-qardaş gözləri yolda, qulaqları səsdədir... Anardan xəbər

gəlmir ki, gəlmir... Ata-ana hələ ümidini üzməyib... Hər dəqiqənin bir hökmü var, – deyilər. Oğul həsrətli ana – Gülcahan isə ürəyinin odunu-alovunu yas yerlərində yana-yana oxuduğu ağılarla söndürür.

*Əzizim dolu gözlər,*
*Göy kişnər, dolu gözlər,*
*Deyirsiz ağlamayım -*
*Dözərmi dolu gözlər.*

Altı qardaşın bircə bacısı Gülxar da göyüm-göyüm göynəyir qardaş itkisinə. Axı Anar onun neçə-neçə arzusunu ürəyində qoymuşdu... Gülxarın arzusu idi ki, Anarın toyunda doyunca oynasın... İstəyi gözündə qaldı Gülxarın... Amma deyir ki, son vaxtlar hər gecə yuxuda görürəm qardaşımı. Ona yalvarıram ki, evimizə tez gəlsin. Qurbanlıq qoyunların alnını, ayağını özüm xınalamışam...Gələn kimi onları kəsəcəyik. Niyyət etmişik ki, o heyvanların ətindən dilimizə də vurmayaq... Təki sən salamat qayıdasan... Son dəfə yuxuda qardaşım mənə söz verdi: "Bacıcan, darıxma qələbə çaldığımız günü qayıdacam evimizə. Həmin gün də toyumu edərsiniz"... Bax bu yuxu ilə təsəlli tapan Gülxar ürək-dirək verirdi doğmalarına...

**Haşiyə:** Cəmcəmli kəndinin insanları böyük etiqad sahibləridir... Əlisəfa kişi də iman əhlidir. Hər səhər sübh tezdən yuxudan ayılanda əlini haqqın dərgahına tutub təmənna edir. "Ey böyük yaradan, səndən təmənna edirəm, o görünən Yavanı babanın üzü hörmətinə mənim balamdan bir xəbər yetir... Heç olmasa, balamın öldüyü yeri bilim. Qəbrini tapım... Həmin qəbrin baş daşına sığınıb doyunca ağlayım, ürəyimi boşaldım"...

**Söz ardı:** Əlisəfa kişi, Gülcahan bacı, mən arxayınam ki, sizin – Anarınız, onun nağıllaşan ömür yolu haqqında onlarla dastanlar yaranacaq... Mütləq yaranacaq!..

## CƏBRAYILOV QALİB
## (1968-1992)

## "OĞULUMDAN MÜĞAYAT OLUN"...

Qalib Qüdrət oğlu 1968-ci ildə Nərimankənd kəndində anadan olmuşdur. O, orta məktəbi bitirib, hərbi xidmətə yola düşür. Qalib Sovet ordusunda xidmət etdiyi müddətdə evlərinə bir neçə dəfə



komandirləri tərəfindən minnətdarlıq məktubu göndərilmişdir. O, hərbi xidmətini uğurla başa vurub Vətənə dönür. Bir müddət sürücü işləyir. Könül verdiyi bir el gözəli ilə ailə qurur... Gənc ailəsində doğulan oğlan uşağı sevincli günlərinin üstünə yeni sevinclər əlavə edir.

Erməni cəlladlarının törətdiyi qırğın Qalibi narahat edirdi. Ən nəhayət, bir gün o, fikrini doğmalarına, ömür-gün yoldaşına açır. Qalibin sözündə bütövlüyünü hamı bildiyi üçün etiraz edən olmadı. Doğmaları yaxşı bilirdi ki, Qalib dediyindən dönməzdir. Odur ki, hamı ona yaxşı yol arzuladı. Deyəsən, ürəyinə nəsə dammışdı Qalibin. Doğmaları ilə halal-hümmət edəndə dedi:

- Taleyin işini bilmək olmaz. Müharibə yaman quduzdu... Oğlumu sizə tapşırıram. Muğayat olun oğlumdan... Məndən isə narahat qalmayın... Hamı kövrəldi. Deyəsən, Qalibin də bir anlığa səsi tutuldu...

Qalibin qorxmazlığı, Sovet ordusunda xidmət etdiyi müddətdə qazandığı hərbi bilik, bir də sinəsində Vətən üçün alışıb-yanan ürəyi onu kollektivin sevimlisi etdi... Döyüş zamanı düşmənə verilən ağır itkilərdə Qalibin xüsusi rolu var idi...

O, Naxçivanik uğrunda gedən bir neçə döyüşdə də əsl mərdlik göstərdi, dəfələrlə ölümlə üz-üzə gəldi... **1992-ci il iyun ayının 13-də həmin** ərazidə gedən ağır döyüşlərin birində qəhrəmancasına həlak oldu...

**Ənvər müəllimin dediklərindən:** "Ağır gün idi o gün... Nərimankəndlilər bir şəhid oğlunu da son mənzilə yola salırdı. Bu müsibət təkcə Qüdrətin ailəsinin deyil, bütün camaatın idi. Ona görə də həmin gün yadla doğmanı bir-birindən seçmək olmurdu. Bütün analar gözü yaşlı idi... Qalibin ömür-gün yoldaşını ovundurmaq olmurdu... Dediyi ağılar da lap insanın iliyinə işləyirdi...

*Kəkilin iki yana,*
*Dara tök, iki yana,*
*Aləm bir yana yansa*
*Mən yandım iki yana.*

# CƏMİLOV CƏMİL
## (1973-1993)

## ÖZÜNDƏN ÇOX TORPAĞI SEVİRDİ...



Cəmil Kərəm oğlu 1973-cü il may ayında Təsi kəndində anadan olmuşdur. O. 1989-cu ildə M.Ə.Sabir adına qəsəbə orta məktəbini bitirib, Şamaxı kənd təsərrüfatı texnikumunda təhsil almışdır. Texnikumun muhasibat uçotu şöbəsini bitirən Cəmil bir müddət kənddə işləmişdir. O, 1992-ci ildə hərbi xidmətə çağrılır. O, hərbi təlim məşqlərini əvvəl Sumqayıtda , sonra isə Bakıda keçir... Torpaq eşqi, yurd istəyi ürəyinin təpəri, sevgisi olan Cəmil ana torpaqdan gücünü, köməyini, canını əsirgəməməyi qət edir. Axı yurd-yuvası dağılan, xarabazara çevrilən, soydaşlarının didərgin olması Cəmilin qəlbinə dağ çəkirdi. Odur ki, komandirlərindən onu cəbhəyə göndərməyi xahiş edir. Ən nəhayət, Cəmil cəbhəyə yollandı. O, Ağdamın Taleyçilər, Xaramun kəndləri uğrunda vuruşduqca, düşmən qüvvələrinə ağır zərbələr vurduqca, elə hesab edirdi ki, ürəyinin göynərtisi bir az azalırdı. Ona elə gəlirdi ki, kafirləri cəhənnəmə vasil etdikcə neçə-neçə şəhid qardaşları məzarda təskinlik tapır... O, 1993-cü il yanvar ayının 23-24-də Fərrux yüksəkliyi uğrunda gedən döyüşlərdə iştirak edir. Bu dəhşətli döyüşdə xəyanət nəticəsində yüzlərlə eloğlumuz qətlə yetirildi, bir çox döyüşçülər itkin düşdülər.

Cəmil doğma Təsi kəndinin yaşıllığa bürünən, Pirsaat çayının boz-bulanıq axan, baharın allı-güllü bir vaxtında gəlmişdi dünyaya. Ömrün iyirminci qışının qarı, boranı, sazağı qəvi düşmənə tərəfdar çıxdı. Cəmili ölümünün 20-ci baharı ilə görüşməyə qoymadı... Düşmən fitinə-fəsadı iyirmi yaşı tamam olmamış bu insanın da ömrünü yarımçıq qoydu. Cavan canını qurban verdi ana deyib – on doqquz il çölündə-düzündə gəzib dolandığı, müqəddəs bildiyi torpağa...

**Haşiyə:** Kərim kişinin altı övladı – dörd oğlu, iki qızı vardı. Hamısını da halallıqla böyütdüyü kimi, onlarda torpaq, elə, Vətənə

məhəbbət, böyük məhəbbət hissi də aşlamışdır. Yeri düşəndə də deyir ki, Cəmil balam ayrı oğul idi... Özündən də çox torpağı sevirdi... İndi də inanmıram onun ölmünə... Anası Firəngiz isə ayrı cür alışır-yanır:

- Balanın hər biri valideyin üçün əvəzsizdir. Nəsə mən Cəmilimi daha çox istəyirdim... O da məni... Elə ona görə də balam istəməz ki, mən gora yaralı gedəm... İtkin düşən balam mütləq qayıdacaq...

**Müəllifdən:** Kərim qardaş, Firəngiz bacı, Allah səbrinizi versin... Allahın qismətindən qaçmaq olmaz. Sizin oğlunuz indi bütün Azərbaycanlıların övladıdır. Ona görə ki, o doğma torpaqlarımız uğrunda şəhid oldu! Allah təala, bir daha səbrinizi versin.

## FƏRZƏLİYEV VİDADİ
## (1962-??)
## "MƏN AŞİQ ORDUBADA"...



Vidadi Mövlud oğlu 1962-ci ildə Qobustan rayonunun Sündü kəndində doğulmuşdur. Orta məktəbdə oxuduğu illərdə Böyük Vətən müharibəsinə həsr olunmuş əsərləri oxumaq, kinolara baxmaqdan doymazdı. Vidadi orta məktəbi bitirəndən sonra hərbi xidmətə gedir. Hərbi xidmətdən qayıtdıqdan sonra bir illik hərbi kurs bitirir və ilk əvvəl Bakıda zabit kimi əmək fəaliyyətinə başlayır.

Vətənimizin başını qara buludlar alanda o, zabit kimi cəbhəyə yollanır...

**Dostlarının dediklərindən:** "Vidadi bizimlə dost, yoldaş, qardaş idi, özünə rəva bilmədiyini əsgərlərə də qıymazdı. Döyüş vaxtı həmişə öndə olardı. Şakəri də bu bayatını avazla oxumaq idi.

***Mən aşiq Ordubada,***
***Yol gedir Ordubada,***
***Sərkərdə igid olsa,***
***Heç verməz ordu bada!***

Doğrudan da, Vidadi özünün Vətən yolunda bada getməyinə razı oldu, biz dostların isə yox... Allah rəhmət etsin"...

Vidadi Ağdamda, Fərrux dağında olan döyüşlərdə bir komandir kimi böyük hünər göstərmişdir. Elə həmin döyüşlərin birində də həlak oldu...

Vidadi üç oğul – Orxan, Elxan və Ceyhun əmanət qoydu, ömür-gün yoldaşına, qohumlarına, dostlarına, sündülülərə! El qədri, torpaq qədri bilən insanlar gərək şəhid Vidadinin balalarına mənəvi dayaq olsunlar. Bu həm də Vidadi adına, ruhuna hörmət və ehtiram olardı...

Ailədə bir gəlin də var... Bu gəlinə isə kədər, niskil ömrü boyu yoldaş olacaq... Dərdini-sərini çəkə-çəkə şübhəsiz ki, bu ayrılığa dözəcək. Ona görə dözəcək bu ayrılığa ki, balalarını böyüdə bilsin, ev-eşik sahibi etsin. Axı bu həm də Vidadinin arzusu idi... Neçə vaxtdır ki, dözür bu dərdə. Balalarının yanında niskilini büruzə verməməyə çalışır. Hətta kövrələndə də, ağlayanda da, ağıya qoşulanda da gizlicə, için-için yanır...

*Görünən qaraqaşdı,*
*Hörülən qarğı saçdı,*
*Pünhan ağla, gözlərim,*
*Yağı görməsin yaşdı.*

## ŞABANOV MÜBARİZ
## (1975-1994)

## "GECƏLƏR NARAHAT YATIRDIM"...

Mübariz Ənvər oğlu 1975-ci il fevral ayının 18-də Çuxanlı kəndində anadan olmuşdur. O, Çuxanlı kənd 8 illik və Ərəbşalbaş kənd orta məktəbini bitirmişdir.

**Əziz müəllimin dediklərindən:** "Mübariz məktəbimizdə ən bacarıqlı şagirdlərdən olmuşdur. Müəllim və şagird kollektivi arasında öz səmimiliyi, mədəni rəftarı, çalışqanlığı ilə seçilirdi. Məktəbin ictimai işlərində daha fəal olurdu. Yuxarı siniflərdə yazdıqları inşalarında torpağa, Vətənə istəyi, məhəbbəti aydınca hiss olunurdu. Allah doğmalarına səbr versin, Mübariz ölməli oğul deyildi"...

Mübariz 1993-cü ildə hərbi xidmətə çağrılır. O, bir neçə ay



təlim məşqləri keçir, sonra Ağdam bölgəsinə – cəbhəyə gedir... İlk gündən döyüş əməliyyatlarında fəal iştirak edir. Amma bir neçə gün sonra Ağdamın İlxıçılar kəndi uğrunda döyüşə gedəndə onu qarşılayacaq ölümdən xəbəri yox idi Mübarizin. O, baş qərərgaha gəldi ki, yaralı yoldaşlarını xilas etsin. Axırıncı yaralı silahdaşını atəş altında döyüş mövqeyindən çıxaranda özü də yağı gülləsinə tuş gəldi. **1994-cü ilin iyirmi iki fevralında...**

**Anası Ceyranın dediklərindən:** "Mübarizin davaya getməsini bir müddət məndən gizlətdilər. Dedilər ki, Sumqayıtda əsgərlik edir. Nədənsə gecələr narahat yatırdım. Sən demə bu zamanlar oğlum cəbhədə odun-alovun içində imiş... Fevralın 21-də cəbhə yoldaşı ilə oğlum evimizə salam göndərmişdi. Sən demə, ayın 18-də üç gün əvvəl yoldaşları onun ad gününü – 19 yaşını qeyd ediblər... Bir gün sonra – fevralın 22-də oğlum şəhid olub... Məni yetim qoyub... Balam cəmi 19 il dörd gün yaşadı... Nakam getdi bu dünyadan".

*Gülləri üzmək olmur,*
*Yollara düzmək olmur,*
*Mübariz nakam getdi*
*Bu dərdə dözmək olmur.*

**Haşiyə:** Ceyran bacı, Mübarizə öldü deyə bilmərik. Əmin ola bilərsiniz ki, nə qədər bəşər cəmiyyəti var, nə qədər vətən torpağı var, Mübariz kimi şəhidlərin – nakam balaların müqəddəs adı da yaşayacaqdır...

## ŞİKAROV ŞİKAR
## (1953-1993)

## "ETİBARIM AĞLASIN"...

Şikar Şükür oğlu 1953-cü ildə Bakı şəhərində dünyaya göz açmışdır. Ata-babası qədim Söndü kəndindəndir. Şikarın qayğısız, dərddən-bəladan uzaq uşaqlıq illərinin bir hissəsi bu kənddə keçmişdir.



Ailədə həmişə qayğı ilə əhatə olunmuşdur. O, orta təhsilini Bakı şəhərindəki 46 saylı məktəbdə almışdır. Lap uşaqlıqdan hərbiçi olmaq istəyirdi Şikar. Məktəbdə oxuduğu illərdə müharibədən bəhs edən kinolara çox tamaşa edərdi. Doğmalarının dediyi kimi, bizimkilər almanlara qalib gələndə az qalırdı ki, ekrana girib əsgərlərimizi bağrına bassın. Orta məktəbi bitirəndən sonra sənədlərini Bakı Ali Ümumqoşun Komandirləri məktəbinə verir. Şikar həmin məktəbə qəbul olur və oranı fərqlənmə diplomu ilə başa vurur. Mütəxəssislər Şikarın bacarığını görüb, onu Uzaq Şərqin Ussuriyya şəhərinin Posrapçik qəsəbəsindəki Vısotpaya qarnizonuna xidmətə göndərirlər. Şikar burda rota komandiri təyin edilir. Bir müddət keçəndən sonra komandirlər bu gəncin bacarığını görüb, onu batalyon komandiri təyin edirlər. Şikarın gələcəkdə böyük hərbiçi olacağını hiss edən rəhbərlər onu təhsilini davam etdirmək üçün oradakı Frunze adına hərbi Akademiyaya göndərirlər. Bu hərbi məktəbi uğurla başa vurduqdan sonra o, yenidən - 1986-89-cu illərdə Moskvada hərbi təhsilini davam etdirir və **35 yaşında podpolkovnik rütbəsinə yüksələ** bilir... Almaniyada təkmilləşmə kursu keçən Şikar Luqansk şəhərində polk qərərgahının rəisi olur...

**Haşiyə:** Bu ara artıq erməni işğalçıları havadarlarının köməyi ilə soydaşlarımızı qədim dədə-baba yerlərində çıxarmış, cənnət Qarabağ iddiasına başlamışdılar. Onu da deyək ki, bu zaman polk qərərgahının rəisi kimi Şikarın Rusiyada böyük hörməti, həm də yaxşı dolanışığı vardı... Amma vaxtaşırı doğma Azərbaycandan gələn qara xəbərlər onu narahat edirdi. 1991-ci ilin sonlarında Azərbaycanın bir çox regionlarının üstünü ölüm kabusunun aldığını yəqin edən Şikar qəti qərarını verdi. Vətənə döndü, Azərbaycan Müdafiə Nazirliyinə getdi və məqsədini bildirdi. Onu nazirlikdə Baş rəisin birinci müavini təyin etdilər. O, Milli ordumuzun yaradılmasında bu vaxta qədər əldə etdiyi təcrübəni əsirgəmədi... Erməni işğalçılarının günü-gündən torpaqlarımızı ələ keçirdiyini görən Şikar ön cəbhəyə getməyi qərara aldı. O, 1992-ci ilin martında döyüş bölgəsinə gəldi. İllərlə əldə etdiyi təcrübəni döyüşçülərə açıqlamağa başladı. Bir an içərisində vəziyyəti qiymətləndirib nəticə çıxarmağı, müəyyən plan

cızmağı bacaran Şikar neçə-neçə uğurlu döyüş əməliyyatları keçirdi, düşmənə ağır itki verdi. Onun hazırladığı bütün əməliyyatlar uğurla başa çatırdı. Dəyərli insan bacarıqlı komandir, Vətəni dini-imanı sayan **Şikar 1992-ci il iyulun 13-də Tərtər bölgəsində gedən döyüşlərin** birində qəhrəmancasına həlak oldu. Özü də dəstənin önündə...

**Yoldaşlarının dediklərindən:** "Vallah, ölüb deyə tərifləmirəm... Çox komandirlər görmüşük. Şikar ayrı cür insan idi. Ağır döyüşlərdə o biri komandirlər kimi arxada gözləməzdi. Bizimlə çiyin-çiynə vuruşardı... Yuxarıda oturanlar Şikarın qədrini bilmədilər. O, hərbi taktikanı çox güclü bilirdi. Şikar kimi komandirlər az-az tapılar. O, bizim ordumuza çox lazım idi. İndinin özündə də, gələcəkdə də"... Podpolkovnik Şikar 39 yaşında qovuşdu əbədiyyətə. Deyirəm ki, ölüm də insaf olsaydı, qıymazdı belə oğula. Bağışlayardı onun cavanlığına. Və ya gözü yaşlı qalmış doğmalarına...

***Geydiyin abı deyil,***
***Qaradır, abı deyil,***
***Belə cavan igidin***
***Qara yer babı deyil...***

**Şikar Şikarov Bakıda "Şəhidlər Xiyabanı"nda dəfn olundu.** Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Şikar Şükür oğluna **"Azərbaycanın Milli Qəhrəmanı"** adı verildi... Sündü kəndinin ağsaqqalları, ziyalıları bir yerə cəm olub bu qeyrətli Vətən oğlunun adını əbədiləşdirməyi qərara aldılar. Əlaqədar təşkilatlar sündülülərin bu arzularına müsbət cavab verdilər. **Sündü kənd orta məktəbinə Azərbaycanın Milli qəhrəmanı Şikarın adı verildi...**

## ŞÜKÜROV HİKAYƏT
## (1962-1993)

## "ATAM ÖLMƏYİB, AĞLAMAYIN"...

O gün Hikayət adına ağlayanlar, ağı söyləyənləri yandırıb yaxan "atam ölməyib, ağlamayın", - deyən iki qızın fəryadı, naləsi idi. Tab gətirmək olarmı bu ünə, bu fəryada! Ürəyi daş olan, gözündən ömründə yaş çıxarmayanlar da hönkürdülər. **O gün-1993-cü ilin iyun ayında,** Hikayətin BTR-nin vurulub, özünün itkin düşməsi xəbəri gələn gün!..



Bax o gündən doğmalar ümidlərini kəsməyib. Atalar doğru deyib, ümidsiz şeytandır. Biz də inanırıq ki, haçansa bir gün Hikayət öz evinə qayıdacaq, balalarının gözünü yoldan yığacaq.

**Haşiyə:** Hikayət Süleyman oğlu 1962-ci ildə Sündi kəndində anadan olub. Orta məktəbi bitirib Şamaxı 119 saylı TPM-də daxil olur. TPM-i bitirib hərbi xidmətə yola düşür. Hərbi xidmətini Çexoslovakiyada keçirir. Erməni işğalçıları torpağımıza hücum edəndə Bakıdan cəbhəyə yola düşür. Öz BTR-i ilə düşmənə neçə-neçə itki verir. 1993-cü il iyun ayının 7-də Ağdam bölgəsindəki döyüşlərin birində BTR-i vurulur, özü isə itkin düşür...

## *QARDAŞ, APAR BİZİ DƏDƏ-BABA YURDUNA!..*

Bu ədalətsiz müharibə çox müsibətlər açdı başımıza. Torpaqlarımız getdi, şəhər, qəsəbə, kəndlərimiz dağıldı. Yollarımız bağlandı, varımız-dövlətimiz talandı. Çoxumuzun da qismətinə köçkünlük, qaçqınlıq düşdü. Allah baisin evini yıxsın! Çırağın söndürsün. Söndürdü minlərlə çırağımızı, kor etdi arzularımızı...

İş o yerə çatdı ki, bir çox şəhid balalarımıza ata-baba torpağında dəfn olunmaq da qismət olmadı...

Əlbəttə, Azərbaycanın hər güşəsi, hamımızındır. Amma nədənsə, doğulub boya-başa çatdığın torpağın isə öz hüsnü, öz şirinliyi, öz doğmalığı, təskinliyi vardır...

Bir çox regionların-Laçın, Cəbrayıl, Füzuli şəhidləri qədim Qobustan torpağında uyumalı, haqq dünyasına qovuşmalı oldular. Həmin qanlı-qadalı günlərdən uzun bir vaxt keçdi. Bu illər ərizində o şəhidlər son mənzildə narahat uyuyurlar. Axı torpaqlarımız yağı tapdağından xilas olmadı, şəhid balaların qisası alınmadı. Çoxları el-obalarından uzaqda dəfn edilmişdi. Doğmalarının arzusu idi ki, onları doğma eldə dəfn etsinlər. Amma nə torpaq alındı, nə də onların nəşi. Bizə belə gəlir ki, bu illər ərzində ruhu səmalarımızda dolanan şəhidlər üzünü bizə tutub deyir:

- Qardaş, qanımızı alın, nəyin bahasına olursa-olsun düşməni

*torpaqlarımızdan çaxarın, əsirləri qaytarın, ondan sonra bizi də dədə-baba ocağına aparın. Onda ruhumuz rahat olacaq! Kim idi onlar?!*

## HƏSƏNOV ELŞAD
## (1972-1992)

## DAŞLI KƏNDİNİN ŞƏHİD OĞLU



Elşad Lətif oğlu 1972-ci ildə Laçın rayonunun *Daşlı kəndində anadan* olmuşdur. O, 1988-ci ildə Daşlı kənd orta məktəbini bitirib, Laçındakı texniki peşə məktəbində sürücü-maşinist peşəsinə yiyələnir. O, 1991-ci ildə Laçın rayonunda könüllülərdən təşkil olmuş 811-ci hərbi hissəyə qoşulur. Elşad bir çox döyüşlərdə şücaət göstərir. 1992-ci il 15 iyunda Laçın rayonunun Səfiyan kəndi uğrunda gedən döyüşlərdə yaralanır. Qubadlı və Bakı xəstəxanalarında müalicə olunub cəbhəyə qayıdır... Yaxşı döyüşçü kimi **"Sərhəd" qəzetində (1992-ci il 17 iyun sayında)** Elşad haqqında bir yazı da dərc etmişdir... 20 Oktyabr 1992-ci ildə Laçın rayonunun Tığ – 2 kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olur... Elşadı Nərimankənd kənd qəbristanlığında dəfn etdilər.

Elşadın atası Lətif kişi müəllimdir. Ömrünün çoxunu gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir. Halal çörəklə dolanmışdır. Balalarını da bu əqidədə tərbiyə edib Lətif müəllim...

**Lətif müəllimin dediklərindən:** Ömrümün çoxunu müəllimliyə həsr etmişəm. Mənim altı oğlum, dörd qızım vardı. Həmişə zəhmətlə dolanmışıq, balalarım haram tikə yeməyib. Allah baisin evini yıxsın. Laçını verdilər düşmənə, biz də didərgin qaldıq. Oğlum Elşad, sonra Alxan (o, II qrup əlilidir) könüllü getdilər cəbhəyə. Başqa Laçınlı şəhidlər kimi mənim də balamın cənazəsi ata-baba torpağına qismət olmadı. Balamın dərdindən çox məni yandıran budur ki, özüm də yad yerə qismət olam. Tək bircə arzum var. Müharibə *qurtarsın*, balamın *cənazəsini* ata-baba torpağına-Daşlıya aparım. Onda Elşadım rahatlıq tapar məzarda!"...

*Bəli, Lətif müəllim, Allah baisin evini yıxsın. El-obanı qoydu-*

lar pis günə. Amma ataların belə bir müdrik kəlamı da var ki, pis günün ömrü az olar. Mən əminəm ki, gec-tez qayıdacaqsınız Daşlıya. Özü də sonbeşiyinə – Anara da gözəl bir toy çaldıracaqsınız Daşlıda...

Qobustandan çoxlu dostlarını dəvət edəcəksən o toya. Bax onda məni – Hacı Seyfəddini də unutma ha...

## CƏFƏROV RÖVŞƏN
## (1969-1993)
## "GÜLÜM, MƏNİ AZ AĞLA"...



Rövşəngil beş qardaş, iki bacı idilər. Atası Əziz kişi, anası Şəfiqə xalanın da övladlarının sayı qədər – yeddi böyük ali arzusu, istəyi vardı. Oğul toyu, qız toyu görmək, nəvə sevinci dadmaq, övladlarını ev-eşik sahibi etmək...

Bitən-tükənən deyil valideyn arzuları. Əziz kişi, Şəfiqə xala övladlarına toy da etdilər, nəvə şirinliyi də gördülər. Başlarına gələn müsibətlər yatanda heç yuxularına da girməzdi; köçkün olmaq, ev-eşiyi virana qalmaq, şəhid valideyni olmaq, dədə-baba məzarlarına tamarzı qalmaq.

**Cəfərov Rövşən haqqında yazmaq istəyəndə hörmətli dostum Tariyel Abbasovun Cəbrayıl şəhidlərindən bəhs edən "Torpağın qanlı köynəyi"** kitabını bir də vərəqlədim. Rövşən yadigarlı oçerki oxumaqdan ötrü. Tapa bilmədim Rövşən ünvanlı yazı. Kitabın "Son söz əvəzi"ni oxudum. Mənə aydın oldu ki, başqa həmyerliləri kimi Rövşən də kitab çapa gedəndən sonra, Cəbrayıl, onun Arazboyu kəndləri alınandan sonra şəhid olub. Qələm dostum kitabın sonunda yazır: "Onlarla eloğlularımız Cəbrayıl ərazilərində gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Biz həmin şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyir və söz veririk ki, bu qəmli dastanı davam etdirərək onların ruhu qarşısındakı borcumuzu yerinə yetirəcəyik"... Müəlliflər "son hadisələr zamanı şəhid olanların, siyahısını veriblər: **89 nəfər şəhid. Siyahıda 68-ci şəhid Cəfərov Rövşən Əziz oğludur...**

Bu məlumatdan sonra Röfşənin məndə olan tərcümeyi - halı, şəkili və bir neçə xatirəyə baxıb onun haqqında yazmağa başladım.

**Haşiyə:** Cəfərov Rövşən Əziz oğlu 1969-cu ildə Cəbrayılın Əmirvarlı kəndində anadan olub. Kənd orta məktəbini bitirib. 1991-ci ilin may ayının 20-də Cəbrayıl rayon hərbi kommisarlığı tərəfindən xidmətə çağırılıb... Cəbrayıl rayonunun Haravlı, Daşbaşı kəndləri uğrunda gedən döyüşlərdə iştirak edib. Sonra Srik zonasında döyüşmüşdür. Həmin döyüşlərin birində ağır yaralanır. 1993-cü ilin dekabrın 24-də aldığı yaralardan Gəncə şəhərindəki xəstəxanada vəfat edir. Onu qərib bir yerdə – İmişlinin Qara Kola kəndində dəfn edirlər...

**Ömür-gün yoldaşı İlhamə Namaz qızının dediklərindən:** Rövşən, doğrudan da, bütün ailənin işığı idi. Qayınatam, qayınanam, qayınlarım, baldızlarım çox istəyirdilər Rövşəni. Həmişə də onun canına and içirdilər. Çox arzuları vardı... Ürəyində qaldı. Hamımızı diri-diri yandırdı Rövşən... Məni bağışlayın, ölümündən yeddi gün sonra bir övladı gəldi dünyaya. Adını Yadigar qoyduq. Bəli, Rövşənin Yadigarı. Bütün doğmalar Rövşənin iyini Yadigardan alır... Gərək Yadigarı da Rövşən əqidədə böyüdəm...

Cəbrayıldan, Əmirvarlı kəndindən çox-çox uzaqda-qədim Qobustanın Xilmilli kəndində məskunlaşıb Rövşəngilin ailəsi. Ürəklərində bircə arzuları var. Cəbrayıl, Əmirvarlı kəndi azad olsun, ata-baba ocağına qayıtsınlar. Ata-baba ocağında ilk çıraq yanan kimi Rövşənin ruhu axirət evində dinclik tapacaqdır...

Yazıya nöqtə qoymuşdum ki, yadıma nənəmin bir bayatısı düşdü:

***Gülüm, məni az ağla,***
***Bahar ağla, yaz ağla.***
***O bəxtəvər günlərin***
***Bir də qayıtmaz, ağla.***

## RÜSTƏMOV İSLAM
## (1970-1994)

## "DAĞLAR OĞLU"...

İslam Yaqub oğlu respublikamızın dilbər güşələrindən birində – Laçında anadan olub. Dağlar oğlu idi İslam.

Yaqub kişinin on övladı vardı. Beş oğul, beş qız atası idi Yaqub.



Arzusu bu idi ki, balaları Laçının Bozgüney kəndində ev-eşik sahibi olsunlar. O, da nəvələrinin boyuna baxıb fərəhlənsin. Amma yağı düşmən Yaqub kişinin arzusunu ürəyində qoydu. Taleyinə də köçkünlük düşdü. Son pənahı Qobustan rayonunun Təklə kəndi oldu…

Oğlu İslam da cəbhəyə Təklə kəndində yola düşdü…

**Haşiyə:** Rüstəmov İslam 1970-ci ildə Laçın rayonunun Bozgüney kəndində anadan olub. Şuşada səkkizillik məktəbi bitirib, Bərdədə TPM-də oxumuş, sürücülük ixtisasına yiyələnmişdir. Rusiyada hərbi xidmətdə olub. Təklə kəndinə gələndən sonra cəbhəyə yola düşdü. Bir çox bölgələrdə vuruşdu. **O, 1994-cü ilin iyun ayında Füzuli bölgəsində yaralanır və xəstəxanada** vəfat edir. İslam Ağcabədi rayonunda məskunlaşmış Laçın qərargahında dəfn olunmuşdur…. Allah rəhmət eləsin.

## QARABAĞ DÖYÜŞLƏRİNDƏ ŞƏHİD OLAN, İTKİN DÜŞƏN VƏ XİDMƏTİ VƏZİFƏLƏRİNİ YERİNƏ YETİRƏRKƏN HƏLAK OLANLARIN SİYAHISI

| № | Soyadı, adı, atasının adı | Doğulduğu yer | Vəfat tarixi |
|---|---|---|---|
| 1 | Cəbrayılov Qalib Qüdrət oğlu | Nərimankənd kəndi | 1992 |
| 2 | Səlimov Məlik Kərəm oğlu | Nərimankənd kəndi | 1993 |
| 3 | İsmayılov Dəyanət Ağca oğlu | Nərimankənd kəndi | 1992 |
| 4 | Bayramov Tahir Ayatxan oğlu | Nərimankənd kəndi | 1993 |
| 5 | Qədirov Beydulla Həsən oğlu | Nərimankənd kəndi | 1993 |
| 6 | Salmanov Şaməddin Əlsəfa o. | Nərimankənd kəndi | 1993 |
| 7 | Novruzov Fəxri Xeyri oğlu | Nərimankənd kəndi | 1995 |
| 8 | Mədətov Elman Qüdrət oğlu | Nərimankənd kəndi | 1994 |
| 9 | Babaşov Rauf Afət oğlu | Cəm-cəmli kəndi | 1993 |
| 10 | Hüseynquliyev Fuad Hüseyn... o. | Cəm-cəmli kəndi | 1993 |
| 11 | Hidayətov Ramil Biləsuvar o. | Cəm-cəmli kəndi | 1993 |
| 12 | Balakişiyev Mahmud M. o. | Nabur kəndi | 1993 |

| | | | |
|---|---|---|---|
| 13 | İbrahimov Əbülfət Həsənağa o. | Nabur kəndi | 1993 |
| 14 | İsrafilov Qalib Gülağa oğlu | Nabur kəndi | 1993 |
| 15 | Qarayev Kamal Şıxsafa oğlu | Nabur kəndi | 1993 |
| 16 | Gərayev Kənan Valeh oğlu | Nabur kəndi | 1994 |
| 17 | Bayımov Akif Soltanəli oğlu | Nabur kəndi | 1993 |
| 18 | Qarayev Habil Əlheydər oğlu | Sündü kəndi | 1993 |
| 19 | Fərzaliyev Vidadi Mövlud oğlu | Sündü kəndi | 1993 |
| 20 | Əbilqasımov Nuru Məşarif oğlu | Sündü kəndi | 1993 |
| 21 | Məlikov İlyas Səlim oğlu | Sündü kəndi | 1994 |
| 22 | Abdiyev Fərhad Güloğlan oğlu | Sündü kəndi | 1993 |
| 23 | Şükürov Hidayət Süleyman oğlu | Sündü kəndi | 1993 |
| 24 | Sadıqov Yaşar Nüsrəddin oğlu | Cəyirli kəndi | 1994 |
| 25 | Quliyev Ayaz Ağahüseyn oğlu | Cəyirli kəndi | 1994 |
| 26 | Səmədov Hicran Umudalı oğlu | Cəyirli kəndi | 1994 |
| 27 | Hüseynov Rasim Hüseyn oğlu | Cəyirli kəndi | 1994 |
| 28 | İbrahimrov İqbal Atabala oğlu | Dərəkənd kəndi | 1994 |
| 29 | Mustafayev Ağamoğlan Səlim o. | Dərəkənd kəndi | 1994 |
| 30 | İmanov Heybət Seyidalı oğlu | Mərəzə kəndi | 1994 |
| 31 | Qardaşəliyev Bahadur Mirzalı o. | Mərəzə kəndi | 1994 |
| 32 | İbrahimov Ramiz Gülməmməd o. | Ərəbşalbaş k. | 1994 |
| 33 | Nəbiyev Əlvan Mənsur oğlu | Təklə-Mirzəbaba | 1994 |
| 34 | Əzimov Zakir Böyükağa oğlu | Təklə-Mirzəbaba | 1993 |
| 35 | İbrahimov Nəriman G. o. | Təklə-Mirzəbaba | 1993 |
| 36 | Süleymanov Elçin Gülbaba oğlu | Təklə-Mirzəbaba | 1993 |
| 37 | Ələkbərov Qalib Xanlar oğlu | Ərəbşalbaş kəndi | 1994 |
| 38 | Şabanov Mübariz Ənvər oğlu | Çuxanlı kəndi | 1993 |
| 39 | Hüseynov Elşən Firudin oğlu | Təklə kəndi | 1993 |
| 40 | Rüstəmov İslam Yaqub oğlu | Təklə kəndi | 1994 |
| 41 | Mürsəlov Pərviz Amil oğlu | Təklə kəndi | 1994 |
| 42 | Kərimov Cahangir Əbülfət oğlu | Hilmilli kəndi | 1994 |
| 43 | Kərimov Mahir Bəymirzə oğlu | Poladlı kəndi | 1993 |
| 44 | Sahibov Mübariz Əli oğlu | Ərəbqədim kəndi | 1993 |
| 45 | Seyidov Okean Baday oğlu | Bədəlli kəndi | 1993 |
| 46 | Qədirov Qədirxan Əzizxan oğlu | Bədəlli kəndi | 1994 |
| 47 | Məmmədov Heybət Dostalı oğlu | Qurbançı kəndi | 1994 |
| 48 | Ağaquliyev Anar Qəşəm oğlu | Sündü kəndi | 1994 |
| 49 | Cəbiyev Telman Mehrab oğlu | Sündü kəndi | 1994 |
| 50 | Əmirov Abid Əmiralı oğlu | Sündü kəndi | 1994 |

| | | | |
|---|---|---|---|
| 51 | Şərifov Ramiz Kabus oğlu | Mərəzə qəsəbəsi | ,-------, |
| 52 | Cavadov Anar Əlsəfa oğlu | Cəm-cəmli kəndi | ,-------, |
| 53 | Alcanov Hafis Rafael oğlu | Sündü kəndi | ,-------, |
| 54 | Ağaquliyev Cavid Babaqulu oğlu | Sündü kəndi | ,-------, |
| 55 | Əmirov Vasif Sərxan oğlu | Cəm-cəmli kəndi | ,--------, |
| 56 | Cəmilov Cəmil Kərəm oğlu | Bədəlli kəndi | ,--------, |
| 57 | Soltanov Emil Şahalı oğlu | Təklə-Mirzəbaba kəndi | ,--------, |
| 58 | Babayev Mirqalib Soltanəli oğlu | Cəyirli kəndi | ,--------, |
| 59 | Musayev Musa Mirzağa oğlu | Nərimankənd kəndi | ,--------, |
| 60 | Hacıyev İxtiyar Ağaxan oğlu | Şıxzərli kəndi | ,-------, |
| 61 | Müslümov Rasim Əli oğlu | Sündü kəndi | 1994 |

# XİDMƏTİ VƏZİFƏSİNİ YERİNƏ YETİRƏRKƏN HƏLAK OLANLAR

| № | Soyadı, adı, atasının adı | Doğulduğu yer | Vəfat tarixi |
|---|---|---|---|
| 1 | Adgözəlov Cəmil A.o.(l-nt) | Sündü kəndi | 1995 |
| 2 | Bəbirov Cabir Sabir oğlu | Cəyirli kəndi | 1995 |
| 3 | İmaməliyev Elşən İ. o. | Nərimankənd k. | 1998 |
| 4 | Səfquliyev Fərhad A.o. | Sündü kəndi | 1996 |
| 5 | Orucov Elman Qaraoğlan o. | Sündü kəndi | 1997 |
| 6 | Mirzəyev İxtiyar Vəkil o. | Hilmilli kəndi | 1997 |
| 7 | Məmmədov Qamət Q.o. | Nabur kəndi | 1997 |
| 8 | Ağayev Əli Adgözəl oğlu | Mərəzə kəndi | 1996 |
| 9 | Vəliyev Həsrət Ağasəlim o. | Təklə kəndi | 1996 |
| 10 | Bayımov Fərman F.o. | Bədəlli kəndi | 1996 |
| 11 | Hacıyev Natiq Mirbala o. | Ərəbşalbaş kəndi | 1998 |
| 12 | Ağayev Cahangir Abbas o. | Təklə kəndi | 1998 |
| 13 | Tapdıqov Əmrah Rəşid o. | Cəm-cəmli kəndi | 2000 |
| 14 | Dəmirov Şamil İsrayıl oğlu | Ərəbşalbaş kəndi | 1999 |
| 15 | Baxşiyev Əfsər İzzətalı o. | Çalov kəndi | 2000 |
| 16 | Əliyev Elçin Təyyar oğlu | Cəyirli kəndi | 2002 |
| 17 | Atakişiyev Seymur B.o. | Ərəbqədim kəndi | 2004 |
| 18 | Zülfüqarov Cəfər Vahid o. | Hilmilli kəndi | 2004 |

# X
# FƏSİL



# QOBUSTAN BU GÜN

## 1. QOBUSTANIN MƏDƏNİ HƏYATI

Azərbaycanamızın qədim bir guşəsi olan, tarixlər şahidi Şirvanın qonşusu başı Kiçik Qafqaz sıra dağlarından yol alan, ayağı ceyran-cüyürlər məskəni Küdrü düzü ilə görüşən bir ərazidə yerləşən Qobustan regionunun bu günkü mədəni həyatı öz rəngarəngliyi ilə də seçilir.

Vaxtilə bu ərazidə Mərəzə rayonu təşkil ediləndən sonra burada mədəniyyət şöbəsi də fəaliyyət göstərmişdir. Həmin illərdə Mərəzə rayon mədəniyyət şöbəsinə incəsənət, teatr, musiqi, kitabxana, klub, səyyar teatr tamaşalarına xüsusi rəğbət bəsləyən, onların təşkilinə, yaradılmasına cani-dildən çalışan və rayonda böyük hörmət-izzət sahibi olmuş Məhərrəm Əsədov kimi istedad rəhbərlik etmişdir.

Ötən əsrin 50-ci illərindən respublika mətbuatının bir çoxunun səhifələrində, eləcə də rayonun mətbuat orqanı olmuş "Mərəzə kolxozçusu" qəzetinin səhifələrində mədəniyyət şöbəsi tərəfindən rayonda, eləcə də onun bir çox kəndlərində (Xilmilli, Nərimankənd, Sündü, Cəmcəmli və s.) keçirilən mədəni-kütləvi tədbirlər, konsertlər, kino işinin genişləndirilməsi, məhsul bayramları, əl işləri sərgisinin təşkili barədə istənilən qədər məlumat və yazılar dərc olunmuşdur.

Təməlinin nə zaman qoyulduğu o qədər də bəlli olmayan Şirvan poeziya mühitinin XII-XVIII əsrlərində qərib ellərdə ömür sürmüş nümayəndələri - son nəfəsinə kimi "Şamaxı, ey mənim sevimli yurdum", - deməkdən yorulmayan Əbu Bədil Əfzələddin İbrahim Həssanül - Əcəm Xaqani Şirvani, həyat və yaradıcılığı haqqında həmyerlilərindən əvvəl hind alimi Həsən Hadi tərəfindən tədqiqat aparılmış **Məhəmməd Fələki Şirvani**, yaradıcılığına Xaqani

tərəfindən yüksək qiymət verilən **Əmir İzzəddin Şirvani**, "böyük türk sufisi" Yunis İmrə "onu siğəyə" çəkməsindən ehtiyat etdiyi **Molla Qasım Şirvani...** XVI-XIX əsrdə bütöv Şirvanda aşıq sənətinin bilicisi sayılan **Aşıq Dostu Şirvani, Aşıq Saleh, Aşıq Bilal...** İnsanların inam, güman yeri olan övliyalar - Həzrət Baba, Diri Baba, Şah Xəndan.. səs və avazları ilə bülbülləri susdaran, zəngilələri ilə aqil insanların ixtiyarını əlindən alan tarixin bütün mərhələlərində el-obanın məhəbbətini qazanmış, əvəzsiz musiqi xadimləri – **Rizəddin Şirvani, Kəlbəlayi Əkbər, Mirzə Məhəmmədhəsən, Mirzə Güllər...; maarif pərvanələri - Kafiyyəddin Ömər Osmanoğlu, Mirzə Mahmud Həbiboğlu, Şəms əd-Din ibn Məhəmməd, Mir Qədir Şirvani...; teatr tarixində xüsusi rol oynamış M.Atamalıbəyov, A.M.Şərifzadə, A.Gənaybəyli, Fatmaxanım Çaybasarski, Şeyda Cavadova...;** və başqalarının elm-sənət, bünövlərərinin üzərində vətənin istedadı övladları (Qobustan regionun da 1990-cı ilə kimi Şamaxı ilə bir rayonda olub) neçə-neçə "sənət binaları" ucaltmışlar. Bir sözlə, belə "zəngin mədəni irsə söykənərək inkişaf edib formalaşan Qobustanın mədəni durumu" son on ildə xeyli inkişaf etmiş, uğurlar qazanmış, müvəffəqiyyətlər əldə etmişdir. Bu illər ərzində mədəniyyət şöbəsi rayonun kəndlərində yeni klub, kitabxana, musiqi məktəblərinin təşkili, tarixi abidələrin qorunması, incəsənət ustalarına diqqət və qayğının göstərilməsi, xalq sənətinin inkişafı, mədəni-kütləfi tədbirləri günün tələbləri səviyyəsində qurulması üçün xeyli işlər görə bilmişdir. Rayon təşkil olunandan az sonra ali təhsilli mütəxəssis kimi rayon mərkəzi kitabxanası sistemində ilk əmək fəaliyyətinə başlayan, hazırda **mədəniyyət şöbəsinin müdiri işləyən Lalə xanım söhbətimiz əsnasında Qobustanın mədəni həyatı barədə belə dedi:**

– "Rayonda əmək fəaliyyətinə başladığım ilk gündən işim mədəniyyət şöbəsi ilə bilavasitə bağlı olmuşdur. Odur ki, şöbənin keçirdiy tədbirlərin həm iştirakçısı, həm də şahidi olmuşam. Məndən əvvəl mədəniyyət şöbəsinə rəhbərlik etmiş, bacarıqlı mütəxəssislər – **Y.Maqsudov, M.Xələfli** rayonun mədəni həyatı üçün xeyli əməli işlər görə bilmişlər. Təxminən, 10-14 il ərzində rayonda görülən işləri aşağıdakı kimi xarakterizə etmək olar.

Əvvəlcə onu qeyd edim ki, rayonda **5 mədəniyyət evi, 17 klub, 230 min nüxsədən çox kitab fondu olan 24 kütləfi kitabxana, 2 uşaq-musiqi məktəbi** (və bir neçə filialı) fəaliyyət göstərir, əhaliyə

çoxşaxəli mədəni xidməti həyata keçirir. Bu müəssisələrdə çalışan **160 nəfərdən** çox mədəniyyət işçinin əksəriyyəti öz vəzifəsinin öhdəsindən layiqincə gəlir, mədəni dəyərlərimizin aşkara çıxarılıb qorunması, inkişafı və xalqın istifadəsinə verilməsi üçün səylərini əsirgəmirlər. **240 nəfərdən artıq şagird və 55 nəfər pedaqoji kadrı** olan R.Behbudov adına Mərəzə qəsəbə və Təklə kənd uşaq musiqi məktəbləri rayonun musiqi həyatının inkişafında xüsusi rol oynayır, kənd özfəaliyyət dərnəklərinə, ümumtəhsil məktəblərinə əməli, metodik köməklik göstərirlər. Hər iki məktəbdə xalq çalğı alətləri *ansanbılı və uşaq xor kollektivləri fəaliyyət göstərir. Onların* **Hilmilli, Ərəbşalbaş, Ərəbqədim, Göydərə, Bədəlli, Cəmcəmli, Cəyirli** kəndlərində müxtəlif şöbələr üzrə sinifləri fəaliyyət göstərir. Həmin kəndlərin uşaqları öz doğma kəndlərində musiqi təhsili alırlar. Bütün bunlar rayonda mədəni-kütləvi işlərin kəmiyyət və keyfiyyətinə müsbət təsir göstərməklə, tarixi, milli və dini dəyərlərimizin, görkəmli şəxsiyyətlərinin yubleylərinin, tariximizin qan yaddaşı olan "20 Yanvar", "Xocalı soy qırımı" və digər faciələrimizin, şəhidlərimizin xatirə gecələrinin və digər iri miqyaslı tədbirlərin yüksək səviyyədə keçirilməsini təmin edir...

**Haşiyə:** Öz soykökünə arxalanaraq inkişaf edib püxtələşmiş, *çoxsaylı incəsənət işçilərimiz-aşıqlarımız, xanəndələrimiz,* sazəndələrimiz rəngarəng proqramları ilə təkcə rayon əhalisi qarşısında deyil, qonşu rayonlarda, respublikanın geniş tədbirlərində məharətlə çıxışlar edir, milli-mənəvi dəyərlərimizi qoruyur, ləyaqətlə təmsil və təbliğ edirlər. Fəxrimiz - **Alim Qasımov, Nazpəri Dostalıyeva, Çuxanlı Elnarə Abdullayeva, ustad Aşıq Xanış Zahidov, Vüqar Mahmudoğlu, Abbas Musaxan oğlu, Əvəzxan Xankişiyevin və b. sədaları xarici ölkələrdən gəlir. Ustad Şamlı Aşıq Xanmusa Musayev, Şıxzərli Aşıq Əvəz Hacıyev, balabançı Məlik Vələdov, Mirağa Niftəliyev, Elburus Niftalıyev, Müşfiq Niftalıyev, qaramonçalan Mirzağa Xankişiyev, nağaraçı Səxavət Binyətov, *Ramiz Əzizov, xanəndələr Zabit* Nəbiyev, Camal Dadaşov, Nemət Süleymanov, Zahid Ərəboğlu, Əldadaş Çələbiyev, Eminağa Niftəliyev, Balacəfər Yolçiyev, Emin Mirzəliyev** öz əməli fəaliyyətləri ilə hörmət qazanmış sənət təşnələridir.

Qədim bir diyar olan Qobustanda vaxtı ilə duluzçuluq, dəmir, daş və ağac üzərində işləmələr (oymalar), xalçaçılıq və digər xalq sənətkarlığı nümunələri çox geniş intişar tapmış, zaman keçdikcə bun-

ların bəzisi, xüsusən dulusculuq və s. sıradan çıxmışdır. Həmin əl işlərinə bu gün minillik tarixə malik olan qədim qəbristanlıqlardakı daşlar üzərinə oyma üsulu ilə həkk edilmiş yazıları, arxeoloji qazıntılar zamanı aşkara çıxarılan qədim maddi-mədəniyyət qalıqları olan məişət əşyaları üzərindəki müxtəlif naxışları, indi də yaşamaqda olan dünya şöhrətli Qobustan xalçalarına hörülən naxış və bəzəmələri nümunə göstərmək olar.

* * *

**L.Maqsudovanın dediklərindən:** 1998-ci ildə Mədəniyyət Nazirliyinin əmri ilə el sənətkarlarının əl işlərinə I respublika baxış müsabiqəsi keçirildi. Türk şirkətlər birliyinin sponsorluğu ilə üç turdan ibarət keçirilən və beynəlxalq xarakter daşıyan baxış-müsabiqə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubleyinə həsr edilmişdir. Qobustanın tarixində ilk dəfə keçirilən və ümumrayon şənliyinə çevrilən I turda 600-dək sənət əsərləri - xalça və xalça məmulatları, tikmələr-gəlinciklər, pərdə başlıqları, rəsm əsərləri, dağ, ağac və dəmir üzərində əl işləri nümayiş etdirildi. **"El sənətkarlığı milli sərvətimizdir"** devizi altında keçirilən və rayon İcra Hakimiyyətinin başçısı R.Alışovun təntənəli surətdə açdığı sərgi-müsabiqədən 250-yə yaxın sənət əsəri münsiflər heyəti tərəfindən Bakı şəhərinə II və III turuna töfsiyə olundu. Baxış müsabiqənin III beynəlxalq mərhələsində nümayiş etdirilən 156 sənət əsərinin 4-dən biri, xalça məmulatlarının isə demək olar ki, hamısı Qobustan sənətkarlarının işi olmaqla **yeganə I mükafata (2000 ABŞ dolları pul, birinci dərəcəli diplom və laureat)**, mədəniyyət işçisi, Cəyirli kənd kitabxanaçısı Minarə İbadova layiq görülmüşdür. Dördüncü mükafata Cəyirlidən Tərgül İbrahimova, diplom və həvəsləndirici mükafata layiq görülmüş, mərkəzi kitabxananın işçisi Elza Ağayeva, Mərəzə qəsəbə sakini Telnaz Əzizova və onlarla başqa sənətçilərin əl işlərini sərginin qızıl fondu hesab etmək olardı.



I Respublika baxış-müsabiqədə qazandığımız naliyyətlər və

əldə edilən təcrübə el sənətkarlarının II respublika baxış müsabiqəsinə daha yaxşı hazırlaşmağına zəmin yaratdı. **"Dədə Qorqud dastanının 1300 illik yubleyi"**nə həsr edilmiş bu baxış - müsabiqə də Türk şirkətlər birliyinin sponsorluğu ilə üç turda keçirildi. Rayon İcra hakimiyyətinin yaxından köməyi ilə keçirilən baxış müsabiqənin şərtlərinə yüksək səviyyədə əməl olunaraq təqdim olunmuş 500 əl işindən 200 ədədi seçilərək respublika baxış müsabiqəsinə göndərilmiş, nəticə çox sevindirici olmuşdur. Belə ki, 1999-cu il noyabrın 11-də S.Bəhlulzadə adına sərgi salonunda açılış və dekabrın sonunadək davam edən bu möhtəşəm beynəlxalq baxış sərgini yenə də Qobustan sənətçilərinin əl işləri, xalı-xalçaları zinətləndirməklə ən yüksək mükafatlar da (I-II-III və üç həvəsləndirici) onların payına düşdü. Müsabiqə üzrə müəyyən edilmiş 20 mükafatdan 6-sı Qobustana verilməklə Mərəzə qəsəbə sakini **Üzeyirova Şahsənəm Əliqardaş qızının xalçası 2000 ABŞ dolları pul mükafatına, I dərəcəli diploma və laureat adına, Cəyirli Əsədova Minarə Şirinqızının xalçası 1000 ABŞ dolları pul mükafatına, III dərəcəli diplom və laureat adına, Hilmilli kənd mədəniyyət evinin işçisi Ağgül Bayramovanın toxuduğu yəhər üzü, Mərəzə qəsəbə sakinləri Əsədova Həmişə Səfərbala qızının xalçası və Cəfərov Mehman Ələm oğlunun ağac üzərində işlədiyi sandıqça 200 ABŞ dollarına və xüsusi diploma layiq görülmüşdür.**

Bütün bu illər rayon mədəniyyət şöbəsinin əməli təşkilatçılıq fəaliyyətinin və bütövlükdə mədəniyyət işçilərinin gərgin zəhməti nəticəsində başa gəlmiş, milli sərvətimiz olan xalq sənətkarlığının zəngin nümunələri aşkara çıxarılıb geniş ictimaiyyətə nümayiş etdirilmişdir. I və II baxış müsabiqə sərgilərinin davam etdiyi dövrlərdə minlərlə ölkə vətəndaşı, respublikamızdakı xarici iş adamları və qonaqlar milli mədəniyyət incilərimizlə daha ətraflı tanış olmuş, incilərə öz xoş münasibətlərini bildirmişlər. Mükafatlandırılması imkan xaricində olan onlarla el sənətkarlarının əsərləri sərgini bəzəmiş, onların adları baxış müsabiqənin yekun sənədlərində (katoloq və s.) əks olunaraq tarixə çevrilmiş və gələcək nəsillərə ərmağan olmuşdur.

Yeri gəlmişkən onu da qeyd edim ki, rayonumuzun bir çox kəndləri də yerlərdə müxtəlif səpgili görüşlər, xatirə gecələri, bir çox kitabların müzakirəsi ilə bağlı tədbirlər təşkil edirlər. Bu cür qabaqcıl, işinin öhdəsindən bacarıqla gələ bilən klub, kitabxana işçilərinə Sündü mədəniyyət evi (direktoru Tahir Şeydabəyli), Xilmilli mədə-

niyyət evi (direktoru Xalidə Mansurova), Nərimankənd mədəniyyət evinin (direktoru Rəfail Məmmədov) əməkdaşlarını nümunə göstərmək olar.

Bütün bunlarla bərabər rayon İcra Hakimiyyətinin məsləhəti ilə mədəniyyət şöbəsi tərəfindən incəsənət ustaları ilə görüşlərin təşkili, bir çoxlarının yubleylərəri və ya xatirə gecələrinin keçirilməsi artıq ənənəyə çevrilmişdir. Bu tədbirlər Qobustan aşıqları, xanəndələri, balabançılarının yaddaşında əbədi iz salmışdır. **Aşıq Ələsgərin 180, Şirvanı Aşıq Bilalın 130, Aşıq Şəmşirin 110 illiyi** ilə bağlı keçirdiyimiz ümumrespublika tədbirləri mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir. Xalqımızın adət-ənənəsi, klassik irsə, klassik sənətə ehtiram-hörmət aşılayan və eləcə də bunları gənclərə sevdirməkdə, aşılamaqda xüsus rol oynayan belə tədbirlər bundan sonra da təşkil ediləcəkdir..."

**Haşiyə: Maqsudova Lalə Ziyad qızı** 1965-ci ildə Şamaxı rayonunun Çüxanlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinə daxil olmuşdur. O, 1991-ci ildə həmin fakültəni bitirib Qobustan rayon mərkəzi kitabxana sistemində əmək fəaliyyətinə başlamışdır.

2001-ci ilin iyul ayında rayon İcra aparatında səhiyyə və mədəniyyət şöbəsi üzrə böyük referat işləmişdir. 2004-cü ilin mart ayında isə rayon mədəniyyət şöbəsinin müdiri təyin edilmişdir. Gözəl təşkilatçı, işlədiyi vəzifənin öhdəsindən bacarıqla gələn Lalə xanımın əməyi az müddət ərzində neçə-neçə "Fəxri fərman" və mükafatlara layiq görülmüşdür.

## XURAMAN AĞAYAR QIZI

Xuraman Ağayeva 1959-cu ildə anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra kitabxanada işləmişdir. 1990-cı ildə isə kitabxana müdiri vəzifəsinə təyin edilmişdir. O, 1990-cı ildə Şamaxı Mədəni - Maarif texnikumuna daxil olmuş və 1993-cü ildə oranı bitirmişdir. Qobustan rayonu təşkil edildikdən sonra Xuraman MKS-da xidmət şöbəsinin müdiri təyin edilmişdir. Həmin vaxtdan bu günə kimi o, rayonda təşkil edilən mədəni - kütləvi tədbirlərdə fəal iştirak edir.

Respublika Prezidenti, Milli Məclisə və bələdiyyə seçkilər keçirilən zamanı başqa ziyalıları kimi o da xüsusi fəallıq göstərmişdir.



X.Ağayeva 2002-ci ilin sentyabr ayında Açıq Cəmiyyət İnsitutunun dəstəy ilə Litva və Azərbaycan kitabxana işçilərinin birgə təşkil etdiyi seminarın iştirakçısı olmuş və məruzə ilə çıxış etmişdir. "Müasir kitabxanaların idarə edilməsi" barədə "Sertifikat" almışdır.

Bacarıqlı kitabxanaçı, fəal ictimayyətçi X.Ağayev rayonda keçirilən mədəni-kütləvi tədbirlərin fəal iştirakçısı olduğu üçün rayon İcra Başçısının "Fəxri-fərmanı"nada layiq görülmüşdür.

Ailəlidir, üç övladı var.

## R.BEHBUDOV ADINA MƏRƏZƏ QƏSƏBƏ YEDDİİLLİK UŞAQ MUSİQİ MƏKTƏBİ

Bu regionun ən dəyərli insanları, bacarıqlı pedaqoqlarından biri də el ağsaqqalı Davud Orucov olmuşdur. Maarif, incəsənət, poeziya və muğanlarımızın bilicisi, təbliqatçısı, adət-ənənələrimizin yaşaması üçün *əlindən gələni əsirgəməyən Davud müəllim qəsəbədə musiqi* məktəbinin açılması üçün vaxtilə lazımı təşkilatlar qarşısında ilk dəfə məsələ qaldıranlardan biri olmuşdur. Dostu, qabaqcıl təsərrüfat rəhbəri Baləli Səfərov da onun fikrini dəstəkləyir. Beləliklə, 1983-cü ildə noyabr ayında Mərəzə qəsəbəsində ilk dəfə uşaq musiqi məktəbi açılır.

İlk *əvvəl bir neçə otaqdan ibarət olan məktəbdə* **fortopiano, tar, qarmon, piano, balaban ixtisasları** fəaliyyətə başlayır. Məktəbə 1992-ci ilə kimi gözəl tarzən laçınlı **Vidadi Mehdiyev** rəhbərlik edir. Bundan əlavə, məktəbə musiqi biliciləri - ixtisaslı müəllimlər cəlb edilir. İlk əvvəl məktəbin nəzdində **"Şirvan şikəstəsi"** ansanblı yaradılır. Ansanbl tez bir zaman kəsiyində həm rayon, həm də *respublika tədbirlərində maraqlı proqramlarla çıxış edir.* Müxtəlif mükafatlara, fəxri fərmanlara layiq görülür. Bundan əlavə, məktəb şagirdlərindən təşkil olunan **"Qobustan"** adlı uşaq ansanblı da az bir müddət ərzində məşhurlaşır. "Qobustan" uşaq ansanblı təkcə rayon

tədbirlərində deyil, eləcə də respublika yarışlarında uğurlar qazanır, yüksək yerlərdən birini tutur...

Mərəzə uşaq musiqi məktəbi yetirmələrinin sayı indiyə kimi yüz nəfərdən artıq olmuşdur: **Anar Niftalıyev, Mütəllim Dəmirov, Altay Niftəliyev, İsmi Məmmədov, Teymur Qəhrəmanv, Veyis Şıxıyev** və başqa istedadlar, dəfələrlə zona müsabiqələrinin qalibi olmuş, respublikamızın müxtəlif müsiqi məktəblərində təhsillərini davam etdirmişlər... V.Mehdiyevdən sonra Z.Məmmədov, K.Aslanov məktəbin direktoru işləmişlər.

2003-cü ildə musiqi məktəbinin bir neçə şagirdi Göyçay şəhərində keçirilən respublika "Uşaq folklor musiqi festivalı" və Ağsu şəhərində keçirilən "Məktəblilərin respublika xalq yaradıcılığı festivalı"nda **Xəyal Niftalıyev, Veyis, Xankişiyev Elvin, Xankişiyev Adəm** müsabiqənin fəxri diplomuna layiq görülmüşlər". 2004-cü ildə musiqi məktəbinin istedadlı şagirdləri (Ağayev Behbudalı, Rəcəbov Rəhim, Xankişiyev Adəm) Astara şəhərində keçirilən müsabiqədə öz çıxışları ilə münsiflər heyətini razı salmış və diplomla mükafatlandırılmışlar.

Bir sözlə, Mərəzə qəsəbə yeddiillik uşaq musiqi məktəbi iyirmi illik fəaliyyəti dövründə yüzlərlə istedadlara yol göstərmiş, onları kamil sənətkarlar kimi yetişdirmiş və mükəmməl ixtisas sahibləri kimi tədris müəssisələrinə göndərmişdir. İlk vaxtdan bu günə kimi məktəbin uğurlar qazanmasında **Mirzağa Xankişiyev, Nazim Rzayev, Dadaş Hümmətov, Məhərrəm Xanəliyev, Səxavət Binyətov, Balacəfər Yolçiyev** və başqa pedaqoqların xüsusi xidmətləri olmuşdur. Mərəzə uşaq musiqi məktəbi yetirmələrinin bir çoxu artıq respublikamızın sayılıb-seçilən sənət sahiblərindəndir. Məktəbin istedadlı müəllimi, uğurların qazanılmasında xüsusi xidməti və zəhməti olan **Nanə Məmmədova** bu yaxınlarda məktəbə direktor təyin edilmişdir. Məktəbin ümumi potensialı, kollektivin bacarığına əmin olan Nanə xanım deyir: "Məktəbimizdə fortopianino, tar, saz, nağara, balaban, səs-muğam, qarmon və bu ildən kamança sinifləri fəaliyyət göstərir. Cəmcəmli, Nərimankənd, Göydərə, Ərəbqədim kəndlərində filiallarımız var. Ümumiyyətlə, 207 şagirdimiz müxtəlif siniflərdə musiqi savadına yiyələnirlər... Rayonda keçirilən tədbirlərdə çıxış etmək üçün bir ansanbl da yaratmağı planlaşdırırıq...". Uğurlar olsun...

## TƏKLƏ MUSİQİ MƏKTƏBİ

1981-ci ildə rayon rəhbərliyi, mədəniyyət şöbəsi, eləcə də Təklə kənd orta məktəbinin direktoru, istedadlı pedaqoq H.Şikarovun təşəbbüsü və səyi nəticəsində kənddə Şamaxı uşaq musiqi məktəbinin filialı təşkil edildi. Musiqi məktəbinə qonşu kəndlərdən də uşaqlar cəlb olunurdu. Beləliklə, bir neçə il ərzində məktəbin şagird kontingentinin sayı xeyli artdı. Odur ki, 1988-ci ildə Təklə kənd musiqi məktəbi sərbəst şəkildə fəaliyyətinin davam etdirməyə başladı. Eləcə də məktəbdə ixtisasların sayı səkkizə (tar, kamança, qarmon, gitara, balaban, saz, səs və fortopiano) çatdırıldı. Yeri gəlmişkən, onu qeyd edək ki, məktəbin "ilk addım atmasında" mərhum sənətkar, **ustad Aşıq Aydın Çobanoğlunun** da əməyi böyük olmuşdur.



Həmin vaxtdan başlayaraq musiqi məktəbinin istedadlı nümayəndələri rayonda keçirilən mədəni-kütləvi tədbirlərdə, respublikada təşkil edilən festival və müsabiqələrdə iştirak etmiş, uğurları müxtəlif diplom və fəxri fərmanlara layiq görülmüşlər. İndiyə kimi musiqi məktəbi məzunlarının sayı yüzlərlədir. Onların bir çoxu artıq həm rayon, həm də respublikamızda adlı-sanlı sənətkarlar cərgəsindədirlər. Hal-hazırda məktəbdə fəaliyyət göstərən iyirmi yeddi nəfər müəllim arasında məzunları da vardır. Məktəbdə çalışan qabaqcıl, bacarıqlı müəllimlərin əməyi vaxtaşırı olaraq rayon mədəniyyət şöbəsinin müxtəlif təltiflərinə layiq görülmüşdür.

Təklə musiqi məktəbi fəaliyyətə başladığı vaxtdan günümüzə kimi kollektivə beş nəfər rəhbərlik etmişdir. İyirmi üç yaşı olan

məktəbin uğurlar qazanması, nailiyyətlər əldə edilməsində müəllim kollektivi ilə yanaşı direktorların da **(Quluyev Kamran, Nuhbabayev Natiq, Babayev Tahir, Əhmədov Ramazan, Cəbrayılov Gülağa)** ayrıca əməyi, zəhməti olmuşdur. Bu gün də Qobustan rayonunda keçirilən mədəni-kütləvi tədbirlərdə Təklə musiqi məktəbi kollektivi də yaxından iştirak edir...

## 2. RAYONUN MƏTBUAT TARİXİNDƏN

Azərbaycan respublikası ərazisi əsasən, ötən yüz illiyin 30-cu illərindən inzibati rayonlara bölünmüşdür. Hər bir rayon təşkil edilərkən onun inzibati orqanları ilə yanaşı rayon Komitəsi və XDS-nın (ilk illərdə rayon Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsi) orqanı olan qəzeti də nəşr edilirdi. Keçmiş Mərəzə *ərazisinin böyük hissəsi vaxtilə Şamaxı inzibati rayonunun tərkibində* olmuşdur. Şamaxı inzibati rayonu 1930-cu ildə təşkil edilmişdir. Rayon Komitəsi və XDS-nın orqanı olan **"Yeni Şirvan" qəzeti ilk dəfə 1932-ci ildə nəşr olunmağa** (1935-1954-cü illərdə qəzetin adı "Qırmızı pambıqçı" olub) başladı.

Böyük Vətən muharibəsi illərində - 1943-cü ilin oktyabr ayının 8-də Mərəzə rayonu təşkil edildi. Müharibə olduğu üçün rayonda qəzet çıxarmaq mümkün olmadı. Ən nəhayət, Böyük Vətən müharibəsi qurtardı, ölkənin iqtisadi vəziyyəti get-gedə gücləndi, ölkənin qüdrəti artdı. Mərəzə rayon PK və XDS-nın orqanı olan **"Mərəzə kolxozçusu" qəzeti 1954-cü ildə işıq üzü gördü.** Qəzetin redaktor gənc jurnalist İslam Həsənov təyin edildi.



**I Haşiyə: Həsənov İslam Ağahəsən oğlu** 1923-cü ildə anadan olub. O, 1952-ci ildə Azərbaycan KP MK-a yanında olan partiya komitəsində təbliğat şöbəsinin müdiri işləmişdir. **İslam müəllimin dediklərindən:** "1954-cü ildə mərkəzin göstərişi *ilə Mərəzə rayonuna yollandım.* Rayon Partiya Komitəsinin birinci katibi Kamal Qəhrəmanov məni çox səmimi qarşıladı. Rayonda qəzet təşkil etmək işini mənə

həvalə etdi:" Tez bir zamanda redaksiya fəaliyyətə başladı. Maarif şöbəsində çalışan Kamal Bədəlovu redaksiyaya katib təyin etdilər. Bakılı **Səfiyev Ədaləti** mürəttib götürdüm. "Mərəzə kolxozçusu" qəzetinin ilk nömrəsi 1954-cü il avqust ayında işıq üzü gördü. Qəzet tez bir zamanda böyük hörmət qazandı. Qəzetimiz dövlət tərəfindən bir neçə mükafata layiq görüldü. Beləliklə, mən düz üç il dörd ay qəzetin redaktoru oldum. 1957-ci ildə Şamaxıya qayıtdım. "Yeni Şirvan" qəzetinə redaktor təyin edildim...



**II Haşiyə: Kamal Əlbədəl oğlu** 1926-cı ildə Şamaxı qəzasının Cəmcəmli kəndində anadan olub. Kənd yeddiillik məktəbini bitirmişdir. Müharibə qurtarandan sonra - 1946-cı ildə o, ordu sıralarına çağrılır. Hərbi xidməti başa vurub kəndə qayıdır. Orta təhsilini Nərimankənd kənd orta məktəbində başa vurub, BDU-nun (keçmiş S.M.Kirov adına ADU) filologiya fakültəsini qiyabi şöbəsinə daxil olur. Onun bacarıq, səriştəsi və kadr çatışmamazlığı nəzərə alan rayon rəhbərliyi onu Mərəzə rayon İK-nın müavini vəzifəsinə irəli çəkir. Ali təhsilini başa vurduqdan sonra o, əvvəl "Mərəzə kolxozçusu" qəzetinin redaktoru müavini, bir az sonra redaktoru təyin edilir. İyirmi səkkiz-iyirmi doqquz yaşında mətbuat aləminə qədəm qoyan K.Bədəlov 1975-ci ilə kimi - 20 ildən artıq bu sahədə külüng çalır. Mərəzə rayonu ləğv edildikdən sonra o, Şamaxıda çıxan "Yeni Şirvan" qəzetində ədəbi işçi, redaktor müavini və nəhayət, redaktor vəzifəsində işləmişdir. Bu illər ərzində o, 500-dən artıq oçerk, məqalə və hekayə yazmışdır. Bacarıqlı jurnalist sadə və prinsipial ziyalı K.Bədəlov işlədiyi müddətdə bir çox mükafatlarla təltif olunmuşdur. O, SSRİ Jurnalistlər İttifaqının üzvü seçilmişdir.

1975-ci ildən təqaüdə çıxana qədər K.Bədəlov 3 saylı Sabir adına üzümçülük sovxozunda həmkarlar təşkilatının sədri işləmişdir. Şamaxı-Qobustan rayonunda böyük hörmət-izzət sahibi, təvəzökar, sadə bir insan olan Kamal Bədəlov 2001-ci il avqust ayının 4-də dünyasını dəyişmişdir. O, doğma Cəmcəmli kəndində dəfn olunmuşdur. İstedadlı publisist-şair Y.Yusifov öz müəlliminə olan məhəbbətini poetik bir dillə gözəl ifadə etmişdir.

*Nəsimi vətəni, Sabir torpağı,*
*Bu sadə insana şöhrət gətirdi.*
*İnamla çalışdı qələmi ilə,*
*Ömür dastanını yazdı, bitirdi.*

* * *

Rayon yenidən təşkil edildikdən sonra Qobustan rayon İcra hakimiyyətinin orqanı olan "Qobustan" adlı qəzeti 1992-ci ildən çıxmağa başladı. Ötən müddət ərzində Sahil İskəndərov qəzetin redaktoru olmuşdur. **Mirzə Xələfli, Abdulla Rəfibəyli, Elimxan Baxşəliyev, Məmməd Baxışov, Məhəmməd Bayramov, Əlibəy Abduləzizov** isə qəzetin redaksiya heyətinin üzvləridirlər. İndiyə qədər qəzetin 66 sayı çap olunmuşdur.

2003-cü ildə Yeni Azərbaycan Partiyası Qobustan Rayon Təşkilatı **"Qobustanın səsi"** adlı orqan təsis etmək haqqında qərar qəbul etdi. Və elə həmin vaxtdan "Qobustanın səsi" qəzetinin ilk nömrəsi işıq üzü gördü. Qəzetin redaktoru bacarıqlı-ziyalı **Məhəmməd Bayramov** seçildi. Uzun illər YAP-ın fəal üzvləri - dərin intellektual biliyə malik, rayonda böyük nüfuz sahibi olan ziyalılar - **Heybət Rəfiyev, Mirzə Xələfov, Məmməd Baxışov, İmran Sabirov** redaksiya heyəti təyin edildi. Həm ictimai-siyasi, elmi-publisist, həm bədii yazılarla oxucuları ovsunlayan "Qobustanın səsi" qəzetinin indiyə kimi ön nömrəsi işıq üzü görmüşdür.

Əminik ki, Qobustan rayon İcra hakimiyyəti və YAP rayon təşkilatının orqanı olan bu qəzetlər bundan sonra da ölkəmizdə gedən quruculuq işləri, Prezidentimizin daxili və xarici siyasəti, eləcə də rayonda keçirilən maraqlı, müxtəlif səpkili tədbirlər, aqrar islahatlar, əhaliyə göstərilən dövlət qayğıları barədə geniş söz açacaq, bir sözlə, rayon həyatının güzgüsü olacaqdır. Özü də qəzetlər, qüdrətli, müqtədir şairimiz M.Ə.Sabir demiş... **"pisi pis, əyrini əyri, düzü həmvar"... yazacaqlar...**

## 3. QOBUSTAN SƏHİYYƏSİ

Dünyada ilk dəfə hansı müalicə üsullarının olduğu və bunların kimlər tərəfindən müəyyən edildiyi indiyə kimi o qədər də dəqiq bəlli deyildir. Amma araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, hələ eramızdan çox-çox əvvəl həm Şərq, həm də Avropa ölkələrində

loğmanlar, həkimlər, təbiblər, türkəçarələr yaşamış, cəmiyyət arasında mövcud olan bəzi xəstəliklərə "diaqnoz" qoyulması, onların aradan qaldırılmasına nisbətən də olsa nail olunmuşlar... Qədim yunan həkimi, **"Təbabətin atası" Hippokrot Heraklid oğlu** (e.ə. 460 - e.ə. 377); **Məhəmməd Zəkəriyyə əl Razi, Əbu Reyhan Biruni** (IX-X əsr); Şərqin filosofu sayılan **"Tibb qanunları" əsərinin müəllifi Əbu Əli İbn Sina** (X əsr) və başqalarının hazırladıqları dərman, apardıqları müalicə üsulları, hətta cərrahi əməliyyatlar haqqında qədim mənbələrdə istənilən qədər məlumatlar vardır.



**Mərəzə qəsəbə xəstəxanasından bir görünüş**

Azərbaycanımız qədim diyarı Şirvanda tibb elminin yaranmasının xüsusi tarixi vardır. Təkcə onu qeyd etmək kifayətdir ki, böyük filosof, riyaziyyatçı, astronom, həkim kimi məşhur olan **Kafiyyəddin Ömər Osman oğlu** XI əsrdə Şamaxıda yaratdığı Akademiyasında xüsusi **Tibb elmləri mərkəzi** fəaliyyət göstərmişdir. Bu barədə geniş tədqiqat aparan professor E.Mehrəliyev yazır: "... Bu müalicəxanada tətbiq olunan dərmanlar heyvan, bitki və mineral tərkibli idi. Professor N.P.Koşkin öz əsərlərində qeyd edir ki, hələ XI əsrdə Azərbaycandakı Məlhəm akademiyasında müxtəlif xəstəlikləri müalicə etmək üçün penisilin (yaşıl kif) tətbiq olunurdu. Professor D.Dəmirovun fikrincə, bu akademiyada "məlhəm" (plastır) işlədilirdi" .

Xaqani Şirvaninin "Töhfətül-İraqeyn" əsərində əmisi Kafiyyəddin həkimliyi, dərman hazırlaması ilə bağlı istənilən qədər

məlumat və faktlar mövcuddur. Hətta həmin poemanın "Əmim haqqında" fəslindən bəlli olur ki, onların hər ikisi Yunan tibb elminə, Hippokratın (Bokratın) həkimlik fəaliyyətinə tam bəlli imişlər:

*Mən təbib əmimdən almışam ilham,*
*Odur, söz mülkünün bir Bokratıyam.*
*...Dərman qayırmağı sanki peyğəmbər,*
*Eyləmiş əzəldən ona müssər.*
*Əliylə yaratdı kövsərdən dərman,*
*Mən Rəfrəf satıram, açmışam dükan.*
*O, dərman verərdi xəstə insana,*
*O, İsa kimidir, ruh verir cana ...*

Bundan əlavə, XII-XIX əsrlərdə Şirvan torpağında tibb sahəsində fəaliyyət göstərmiş onlarla loğmanlar olmuşdur. Xəstəliklərin müalicəsində sulardan **(bədov)** daha çox istifadə edən **Kafiyyəddinin oğlu Vəhədəddin Şirvani** (XII əsr), **"Siracül Tibb" ("Tibbin çırağı")** əsərinin müəllifi **Həsən ibn Rza Şirvani** (XII əsr); **Şəmsəddin Təbib Şirvani** (XII əsr); **"Müxtəsər Tibb"** əsərinin müəllifi, şair, **Mahmud ibn Məhəmməd Dilşad Şirvani** (XV əsr); **Nəcəfqulu ibn Məşədi Cümşüd Şirvani** (XVII əsr); **Soltan Məhəmmədxan Fatehin** şəxsi həkimi **Şükür ibn Əhməd Şirvani** (XV əsr); **"Töhfətül Möminin"** əsərinin müəllifi **Məhəmməd Mömin** (XVII əsr); **Mustafa ibn Səlim Şirvani** (XVII əsr); **"Tibbnamə"** əsərinin müəllifi **Məhəmməd Yusif Şirvani** (XVIII əsr); şair, filosof **Nizaməddin ibi Həsən Şirvani** (XVIII əsr) **Kərbəlayi Ələkbər** (XIX əsr); **Mirzə Həbib, Məhəmməd Rza Lahıclı** (XIX əsr), **Abbas Səhhət** və başqa əli şəfalı insanların bir çoxunun adı təkcə Şirvanda deyil, demək olar ki, bütün Şərqdə məşhur olmuşlar.

XIX əsrdən başlayaraq həm Şərq, həm Avropa, həm də rusiya şəhərlərində həkimlik sənətinə yiyələnmiş Azərbaycanlılar arasında Şirvanilər də olmuşdur. Şirvan bölgəsinin səyahət etmiş, uzun illər ərzində bir çox türkəçarələr ilə görüşmüş, dünyalarını dəyişən insanlar haqqında yaddaşlardan xeyli məlumat (bəzilərinin şəkillərini də) toplaya bilmişik: **Musa Kərim oğlu, Soltan Bağır oğlu (Göyçay), Dadaş Misir oğlu, Fatma Məşədi Əli qızı, Sərxan Baba oğlu (Ağsu); Süleyman Miri oğlu, Minəxanım Pənah qızı, Ağakişi Abdul oğlu (Kürdəmir); Musa Xasi oğlu, Boq Musa, Hacı Xası,**

**dəmirçili Tavat xala; Gövhər Bəyim Quliyeva, Hacı Quliyev (Şamaxı); Ağca Gülağa qızı, Abdulla Rəcəbov və başqaları** belə insanlardan olmuşlar.

* * *

Hal-hazırda Qobustan rayon Mərkəzi xəstəxanasının baş həkimi Dadaş Hümbətovdur. Onun haqqında çox eşitmişdim. Amma yaxından tanış deyildim. Kitabla bağlı axtarışlar apardığım müddətdə iş elə gətirdi ki, Dadaş həkimlə bir neçə dəfə görüşməli oldum. Sadə insan, gözəl ziyalı, əli şəfalı həkimin məqsədimi biləndən sonra necə sevindiyinin şahidi oldum. ...Fikirləşib sözə başladı:

- Qobustan qədim tarixlər şahidi olan, istedadlı övladlarının sayı-hesaba gəlməyən bir diyardır. Bu diyar haqqında yazmağa çox gecikmişik, bizim nəsil də bu işdən boyun qaçırsa, vay bizim gələcəyimizə...

Söhbətimiz zamanı özündən bəhs etmək yadına düşmədi. Başladı Qobustan regionunda yaşamış aşıq, şair, rəssam, xanəndə, müəllim, elm və dövlət xadimlərindən bildiklərinin adlarını saymağa, xidmətlərindən bəhs etməyə. Biləndə ki, yaddan çıxan olmayıb, həmin insanların hamısı əhatə edilib, sevincindən gözləri alışıb-yandı...



D.Hümbətov həm də yaradıcı ziyalılarımızdandır. Rayonun səhiyyəsinin tarixinə aid yazıları müxtəlif qəzetlərdə işıq üzü görüb. Müəyyən mənbələr əsasında yazılmış həmin məqalələrdən birini -

rayon səhiyyəsinin tarixini əsasən əhatə etdiyi üçün müəyyən ixtisarla bu fəsildə verməyi məsləhət bildik...

"...Çar Rusiyasının müstəmləkəçilik siyasəti Azərbaycanda tibbin inkişaf etməsinə imkan vermirdi. Azərbaycanda tibb kadrları hazırlayan tədris ocağı yox idi. Yalnız məhdud sayda yerli varlıların övladları Rusiya və başqa xarici ölkələrdə təhsil almağa gedirdilər...

1841-ci ildə Azərbaycan inzibati hakimiyyət idarə üsulu tətbiq olunması ilə əlaqədar bir sıra iqtisadi-mədəni maarif və tibb işinin təşkili üzrə tədbirlər həyata keçirilir.

1847-ci ildə çar hökuməti Zaqafqaziyada tibb işçiləri ştatı haqqında qanun qəbul edir. Bu qanuna görə, hər bir qəzaya bir həkim, iki feldşer və bir mamaça nəzərdə tutulurdu. Həmin vaxtdan Azərbaycanın qəzalarında rus həkimləri, feldşerləri və mamaçaları işləməyə başladılar. 24 dekabr 1864-cü ildə qeyri-zemstvo quberniyalarının da kənd həkim sahəsi yaradılması haqqında qanun verilir. 1884-cü ildə Azərbaycanda hər biri 4 çarpayılıq 3 (Göyçay, Salyan və Zaqatala), 1885-ci ildə 2 (Ağdaş, Hadrut) müalicəxanaları yaradıldı. Həmin dövrdə kənd yerlərində tibb işçilərinin fəaliyyətində əksepidemik tədbirlər demək olar ki, yox dərəcəsində idi. Əhali arasında çiçək, vəba, maliyariya geniş yayılmışdı. 8 mart 1904-cü ildə hökumət kənd sahə xəstəxanalarının yaradılması haqqında qanun qəbul edir.

1905-ci ildə artıq 16 kənd xəstəxanası (**Maştağa, Xaçmaz, Göytəpə, Mərəzə, Göyçay, Petropavlovsk, Dzeqam, Qazax, Ağdam, Ağdaş, Aratak, Cəbrayıl, Qax, Naçxıvan, Qutqaşen, Baş Noraşen), (seçmələr bizimdir - S.Q.)** fəaliyyət göstərirdi. 1910-cu ildə Azərbaycanda 198 xəstəxana çarpayısı var idi. XIX əsrin sonlarında kənd yerlərirndə ilk azərbaycanlı həkimlər (G.Mehmandarov, B.Həsənbəyov, D.Ləmbəranski) işləməyə başlayır. XX əsrin əvvəllərində Azərbaycanda tibbi biliklərin təbliğində H.Zərdabinin, N.Nərimanovun, A.Səhhətin böyük xidmətləri olmuşdur.

Bakıda 17 aprel 1875-ci ildə ilk dəfə şəhər özünüidarəsi hesabına 25 çarpayılıq (Mixaylovsk xəstəxanası) xəstəxana açılır. 1890-ci ildə Bakıda 30, 1913-cü ildə 400 çvarpayılıq xəstəxana var idi. Yelizavetrolda (Gəncə) ilk xəstəxana 1904-cü ildə açılır. 1913-cü ildə Azərbaycanda 529 çarpayılıq 8 şəhər xəstəxanası (Bakı, Yelizavetpol, Şamaxı, Quba, Lənkəran, Salyan, Şuşa, Naxçıvan) mövcud idi...

Bakıda 15 çarpayılıq doğum evi ilk dəfə 1897-cü ildə açılır. 1918-ci ildə Müstəqil Azərbaycan Respublikası yarandıqdan sonra, iyunun 17-cə Xalq Səhiyyə Nazirliyi təşkil edilir. İlk səhiyyə naziri

Xudadat bəy Rəfibəyov təyin edilir.

1919-cu ildə Bakı Dövlət Universitetində Milli kadrlar hazırlayan tibb fakültəsi açılır və 1928-ci ildə ilk buraxılış olur. Burada 1930-cu ilədək 1431 həkim hazırlanır. Azərbaycan Dövlət Tibb İnstitutu 1930-cu ildə yaranmışdır...

1941-45-ci illərdə Mərəzə rayonunun ilk səhiyyə şöbəsinin sədri **Rizvan Cavadov** olmuşdu. O vaxt səhiyyə idarələri xüsusi yaşayış evlərində (ambulatoriya Moçalovun evində, 50 çarpayılıq stasionar İvan Fateyevin evində) yerləşirdi...

1945-48-ci illərdə **Əli Bağırov**, 1948-52-ci illərdə **Mais Həsənov**, 1952-1957-ci illərdə **Hüseyn Hüseynov** Mərəzə səhiyyə şöbəsinə rəhbərlik etmişlər... 1957-ci ildə **Fərhad Bədirxanov** baş həkim təyin edilir. Həmin ildə Mərəzə rayon seçiciləri ilə SSRİ Sovetinə deputatlığa namizəd respublika səhiyyə naziri Vəli Yusif oğlu Axundovun görüşü olur. Görüş zamanı o, seçicilər qarşısında yeni xəstəxana binasının inşa olunacağı barədə söz verir.

1965-ci ildə 75 çarpayılıq Mərəzə xəstəxanası tikilib, əhalinin istifadəsinə verilir. 1975-ci ilədək F.Bədirxanov həmin xəstəxanaya rəhbərlik edir.

1975-ci ildən – 1990-cı ilədək Şamaxı rayon mərkəzi xəstəxanasının tərkibində olan Mərəzə qəsəbə xəstəxanasına **İvan Potapov** baş həkimlik edir. 1990-cı ildə Qobustan rayonu yaradıldığı gündən 125 çarpayılıq Qobustan rayon mərkəzi xəstəxanası fəaliyyət göstərir. 1994-cü ilədək **Kamil Bəkirov** həmin xəstəxanaya baş həkimlik etmişdir. 1994-cü ilin 2 fevralından bu günə kimi Dadaş Hülbətov Mərkəzi xəstəxananın baş həkimidir..."[1]

**Dadaş həkimin dediklərindən:** Vaxtilə Mərəzə rayonunda bacarıqlı və istedadlı həkimlər fəaliyyət göstərmişlər. Əlləri şəfalı belə insanlara **Bədirov Arif** (cərrah), **Şirəliyev Tahir** (perapevt), **Bağırov Nofəl** (terapevt), **Qarayeva Lalə** (epidemioloq), **Heybətov Hüseyn** (terapevt), **Əlizadə Təhmuraz** (pediat), **Əliyev Yusif** (sanitar həkim), **Məmmədova Məryəm** (stomotoloq), **Həsənova Xalidə** (mama-ginekoloq), **Kərimova Sara** (pediatr) və b. nümunə göstərmək olar. Xalqın dərin hörmət və məhəbbətini qəlblərində yaşadan həkim-terapevt **Rasim Adgözəlovun**, mama-ginekoloq **Mədinə Mövsümzadənin**, cərrah **Fərhad Bədirxanovun**, eləcə də orta tibb işçilərindən **Əjdər Adıgözəlovun, Xanalı Qayıbovun, Rza Rzayevin, Niyazi Nərimanovun, Gilə Surxayevanın, Tərlan**

[1] "Qobustan" qəzeti. 2002.

**Tərlanovun, Şirinbala Məmmədovun** və başqaları da bacarıqlı həkimlər olmuşlar.

1990-cı ildə yaranmış Qobustan rayon Mərkəzi Xəstəxanası 125 çarpayılıq Mərəzə qəsəbə xəstəxanası, 50 çarpayılıq Təklə kənd sahə xəstəxanası, 12 kənd həkim ambulatoriyaları (**Nərimankənd, Cəmcəmli, Şıxzahırlı, Təklə-Mirzəbaba, Cəyirli, Üzümçü, Ərəbqədim, Ərəbşalbaş, Nabur, Qurbançı, Hilmili, Poladı**) və 6 feldşer-*mama* məntəqələri (Çalov, Qaracüzlü, Bəklə, Çüxanlı, Dərəkənd, Ərəbşahverdi) vasitəsilə Qabustan rayon əhalisinə tibbi xidmət göstərir. Rayonun 30 yaşayış ərazilərindən yalnız 21-də tibb məntəqələri mövcuddur...

Rayon ərazisində tibbi xidmət, qışlaqları da nəzərə almaq şərtilə, 70-80 km radiusu əhatə edir ki, onun da əksər hissəsi dağlıq yerlərdədir... Kənd sahə xəstəxanalarının hər ikisində ali təhsilli həkimlər işləyir. Kənd həkim ambulatoriyalarında yalnız 5 həkim vardır... Ştat cədvəlinə görə, 169,5 isə vahid orta tibb işçisi təsdiq edilmiş, onlardan 105,0 vahidi tutulmuş, 64,5 vahid vakantdır.

1997-ci ilin iyun, iyul aylarında baş vermiş təbii fəlakətin törətdiyi ziyanların aradan qaldırılması məqsədilə respublika Səhiyyə Nazirliyinin, Rayon İcra Hakimiyyətinin, xüsusilə BMT-nin Respublikamızdakı humanitar ofisinin, Böyük Britaniya hökumətinin köməkliyi sayəsində 08,10,1999-cu ildə Təklə kəndində smeta dəyəri 150 min ABŞ dolları məbləğində yeni 25 çarpayılıq kənd sahə xəstəxanası inşa olunaraq əhalinin istifadəsinə verilmişdir.

Respublikamızda əhalinin sağlamlığının qorunması, fəal, uzunömürlü olması dövlət əhəmiyyətli məsələlərdən biridir. Məhz ona görə də respublika səhiyyəsinin vəziyyəti həmişə möhtərəm Prezidentimiz H.Əliyevin diqqət mərkəzində olmuşdur. Onun ölkəmizdə başçılıq etdiyi 30 il ərzində Azərbaycanın şəhər, rayon və kəndlərində 300-dən artıq müasir klinika, doğum evi, poliklinika, xəstəxana yaradılmışdır"...

**Haşiyə: Hümbətov Dadaş 1960-cı ildə** Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirib N.Nərimanov adına ATİ-yə daxil olur və 1983-cü ildə oranı müvəffəqiyyətlə bitirir. O, 1983-cü ildən 1987-ci ilə kimi Şamaxı rayon Mərkəzi xəstəxanasında həkim işləmişdir. Sonra Bakı şəhərində Ə.Əliyev adına ADHTİ-də şöbə müdiri vəzifəsində çalışmışdır. Üç il burada çalışdıqdan sonra yenicə təşkil olunmuş Qobustan rayonuna qayıdır. Bir il SES-in baş həkimi işləyir. *Bacarıqlı təşkilatçı, məsuliyyətli işçi olduğunu müəyyən edən rayon*

rəhbərliyi onu İcra hakimiyyətinin birinci müavini təyin edir. 1992-ci ildə o, öz ərizəsi ilə vəzifəsindən azad edilir. Yenə də öz doğma peşəsində çalışır. 1994-cü ildə Qobustan rayon Mərkəzi xəstəxanasının baş həkimi vəzifəsinə irəli çəkilir.

1994-cü ildən rayonun 36 min nəfərin rayon əhalisinin sağlamlığının keşiyində ayğı-sayıq dayanan D.Hümmətov ilk əvvəl mərkəzi xəstəxananın avadanlıqla təmin edə bilmiş, dam örtüyü təzələnmiş, ümumi təmir işləri gördürmüşdür. Onun, vəzifədə çalışdığı bu illər ərzində rayonun bir çox - Sündü, Təkələ, Təsi, Cəyirli, Yekəxana, Ərəbşahverdi, Ərəbqədim və s. kəndlərində kənd sahə xəstəxanası, kənd həkim ambulatoriyası, feldşer-mama məntəqələri yenidən təmir edilmiş və müasir avadanlıqla təmin olunmuşdur. D.Hümbətovun respublika Səhiyyə Nazirliyi, rayon rəhbərliyi ilə əlbir işləməsi, özünün apardığı əlavə tədbirlər nəticəsində Qobustan səhiyyəsində olan çatışmamazlıqlar - müasir xəstəxana binalarının tikilməsi, yeni avadanlıqla təchizi, kadr çatışmamazlığı günügündən aradan qaldırılır...

Ailəlidir, dörd övladı var.

* * *

Məlum olduğu kimi, Qobustan rayonunun insan sağlamlığı üçün əlverişli - quru və təmiz havası vardır. Bundan əlavə, bu ərazidə **kükürdlü, şor sular, palçıq vulkanlarının** qədəri-qismi yoxdur. Tarixən, yerli əhali - türkəçarə bilən insanlar, bu sulardan dəri-zöhrəvi, qızdırma, soyuqdəymə və s. xəstəlikləri bacarıqla müalicə edə bilmişlər... Elə indinin özündə də bir çox kəndlərdə "ata-baba adətləri"ndən istifadə edirlər. Çox əfsus ki, kapitalist dünyası üçün ən əlverişli gəlir mənbəyi olan bu təbii müalicə vasitələri - kükürdlü sular neçə illərdi ki, boş-boşuna axıb gedir. Qobustanın quru və təmiz havası da vərəm xəstəliyinə tutulanların sağalması üçün çox lazımlıdır.

**Haşiyə:** Yaşlı Qobustan sakinləri ata-babalarından eşitməmiş olmazlar. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda olan çar ordusunda vərəm xəstəliyi baş alıb gedirmiş. Həmin vaxt mütəxəssislər Qobustanın Xaltava ərazisində müalicəxana təşkil ediblər. Qobustanın təmiz, quru havası və suyu az bir müddət içində ordunu xəstəlikdən tamamilə xilas edə bilir...

Biz inanırıq ki, **Qobustan ərazisində olan təbii "məlhəm"lərdən mütəxəssislər nə vaxtsa istifadə edəcək, əldə edilən**

**mənfəət əhalinin daha da firavan və varlı yaşamasını təmin edəcəkdir...** Həmin günlər isə çox da uzaqda deyil...

## 4. QOBUSTAN RABİTƏSİ

Müasir dövrdə rabitə artıq gündəlik məişətimizə daxil olunan vasitələrdən biridir. Hazırda Azərbaycanımızın başqa bölgələri kimi Qobustan övladlarının da səsi-sorağı dünyanın müxtəlif ölkələrindən gəlir. Həmin insanlar doğmaları, Vətənlə ancaq rabitə vasitəsi ilə əlaqə saxlayırlar... Respublikamız müstəqillik qazandığdan sonra rabitəyə daha çox ehtiyacımız olmuşdur...



Artıq neçə ildir ki, Qobustan rayonunda müasir tələblərə cavab verən rabitə-telefon mərkəzi fəaliyyət göstərir. Bu barədə Telekommunikasiya Qovşağının rəisi **Tofiq Baloğlanov Qobustan ATS-nin** bugunkü fəaliyyəti barədə ürəkdolusu danışaraq deyir:

"Son vaxtlarda rayonumuzda bu sahədə görülən uğurlarımız çoxdur. Əvvəlcə onu qeyd edək ki, rayonda on iki kənd və bir mərkəzi ATS mövcuddur. Rayon mərkəzində ilk ATS 1987-ci ildə quraşdırılmışdır. Amma rayon ərazisində olan kəndlərin hamısının telefonlaşdırılmasına son dövrlərdə başlanmışdır. İdarəmizin öz daxili imkanları hesabına beş kənddə ATS quraşdırıldı. Rayonun Nabur kəndində isə respublikamızda ilk dəfə KASKAD tipli ATS quruldu və yaxşı da effekt verdi.

İndi isə qarşımızda daha böyük vəzifələr durur. Bunlardan biri və ən başlıcası da odur ki, yaxın vaxtlarda rayon mərkəzinin tam yeni elektron sistemə keçməsini təmin edək. Bundan əlavə, artıq bir neçə kənddə yeni, müasir tələblərə cavab verən ATS binalarının tikilməsi planlaşdırılmışdır. Yaxın vaxtlarda rayonun Poladlı, Yekəxana, Təsi və s. kəndlərində işə başlanacaqdır. Kollektivimizin üzvləri planlarımızı həyata keçirmək üçün var qüvvəsi ilə çalışır. Kollektivimizdə bacarıqlı mütəxəssislər çoxdur. Öz işgüzarlığı ilə kollektivimizdə adsan qazanan belə insanlara **R.Quliyev, Ş.Baloğlanov, İ.Xankişiyev, M.Ağayev, Ə.Əkbərov, Q.Quliyev, G.Rüstəmova, R.Yunisov** və

başqalarını nümunə göstərmək olar. Əminəm ki, kollektivimizin birgə səyi nəticəsində tezliklə məqsədlərimizə nail olacayıq..."

**Haşiyə: Baloğlanov Tofiq Seyran oğlu** 1956-cı il dekabr ayının 17-də Qurbançı kəndində anadan olmuşdur. O, 1973-cü ildə kənd orta məktəbini bitirib, Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və 1978-ci ildə institutu müvəffəqiyyətlə başa vurmuşdur. T.Baloğlanov ilk əmək fəaliyyətinə Bakı ƏTUS- 1-də başlamış, 1978-1983-cü illərdə isə Şamaxı ATS-də mühəndis vəzifəsində çalışmışdır. O, 1983-cü ildə Mərəzə rabitə qovşağında sahə rəisi, 1990-cı ildə isə rabitə qovşağının rəisi vəzifəsinə irəli çəkilmişdir. On ilə kimi bu vəzifənin öhdəsindən bacarıqla gələn Tofiq müəllim 2000-ci ildə Qobustan rayon Elektrik şəbəkəsinin direktoru təyin edilir. Bir il keçməmiş sadə insan, bacarıqlı mütəxəssis T.Baloğlanova rayon rəhbərliyi daha böyük etimad göstərir. Belə ki, o, 2001-ci ildə Qobustan rayon Telekommunikasiyasa idarəsinə rəis təyin edilir. T.Baloğlanov hal-hazırda da həmin vəzifədə çalışır.

# XI FƏSİL



# QOBUSTAN FOLKLORUNDAN SEÇMƏLƏR

*"... Ən kiçik folklor incisi belə, xalqın tarixi keçmişi və həyat tərzini özündə yaşadan epopeyadır"...*

*Əzizə Cəfərzadə*

Əvvəlki fəsildə qeyd etdiyimiz kimi övliyalar, aşıq-xanəndələr, sinədəftər şairlər, baməzə adamları, şəbədəçiləri ilə məşhur olan ulu Qobustan indiyə qədər öz tədqiqatçısı - folklor bilicisinin yolunu gözləyən bir məkandır. Bu qədim diyarın hər dağı, hər dərəsi, hər el-obası, laləli-nərgizli ormanı, çayı-bulağı; yovşanlı-çərənli, qarağanlı boz düzləri ilə bağlı, yetmişi yola salıb səksənin bəhini almış ağsaqqal babalar, ağbirçək, ipək nənələrin yaddaşında yüzlərlə deyimlər, duyumlar, əfsanə-rəvayətlər, ağı-bayatılar, layla-oxşamalar, bir sözlə, folklor xəzinəsi yatır. Özü də çoxusu tərəkəmə həyat tərzi, tərəkəmə adət-ənənəsi, bir sözlə, tərəkəmə dünyası ilə bağlı olan örpəklər.

Azərbaycanımızın bu qədim diyarı, bu müqəddəs torpağına bağlı, onun hər bir elini gəzib-dolaşan, yüzlərlə insanları ilə ünsiyyətdə olan bir alim, ziyalı kimi, yana-yana etiraf edirəm ki, bu diyarın zəngin folklor örpəkləri əməlli-başlı toplanmayıb, işıq üzü görməyib. Tədqiqatla məşğul olduğumuz 20-25 il müddətində imkanımız daxilində bu elin ancaq 2000 nəfərdən artıq sinədəftər - söyləyicilərinin reperturanı qələmə almışıq. Hafizələrdən qələmə **aldığımız örnəklərin həcmi, təxminən, 200 çap vərəqindən artıqdır. Mən cəsarətlə deyərdim ki, bu dəryadan, nəhrdən damla misallıdır.** Qobustan regionundan əldə etdiyimiz həmin nümunələrin cüzi bir qismini kitaba daxil edə bildik...

## I. SAYAÇI SÖZLƏRİ

*Nənəmin səkil qoyunu,*
*Su iç, çəkil qoyunu,*
*Çobanı gün vurubdu*
*Yatağa çəkil, qoyunu.*

*Nənəm, qarala qoyun,*
*Oxşar marala qoyun,*
*Çoban yununu qırxıb*
*Yığar xarala, qoyun.*

*Nənəm, qoyunun gəlini,*
*Ovşara gəlməz yelini,*
*Səni sağan gəlinin*
*Qucum incə belini.*

*Nənəm, a nazzı qoyun,*
*Boynu qotazdı qoyun,*
*Qışın fikrini çəkmə*
*Ağıllar sazdı, qoyun.*

*Nənəm, ay çəmli qoyun,*
*Boynu mərcəmli qoyun,*
*Səndən Hacı olubdu*
*Arab, Cəmcəmli, qoyun.*

*Nənəm, ay nazdı qoyun,*
*Şirin avazdı, qoyun,*
*Döl də doğ, dıbara da*
*Quzumuz azdı, qoyun.*

*Nənəm, ay nazlı qoyun,*
*Ay maral gözlü qoyun,*
*Pişdağı baldan artıq*
*Qatığı üzlü qoyun.*

*Nənəm, ay nazlı, qoyun,*
*Qırqovun gözlü, qoyun,*
*Çillənin fikirin çəkmə*
*Qabağı yazdı, qoyun.*

*Nənəm, ay əmlik quzu,*
*Gəl yemə yemlik, quzu,*
*Kökəlsən olacaqsan*
*Qonağa yemlik, quzu.*

*Nənəmin, əl quzusu,*
*Alnı təpəl quzusu,*
*Qış çıxdı, novruz gəldi*
*Otla, kökəl, quzusu.*

*Nənəm, ay qara keçi,*
*Gedirsən hara keçi?*
*Çoban sənin əlindən*
*Gəlibdi zara, keçi.*

*Qabistanın qoyunu,*
*Çoban, güdər qoyunu,*
*Çobanlarda qaydadı,*
*Çıxardar hər oyunu.*

*Qabıstanın təpəsi,*
*Boz kəkliyin fərəsi,*
*Bol südlü, yunlu olar*
*Ağ qoyunun kərəsi.*

*Qabıstanın baharı,*
*Çoban edər naharı,*
*Sürülərdə tək olar*
*Qoyunların çaharı.*

*Qabıstanın lalası,*
*Düzənliyi, alası,*
*Küzdə doğan qoyunun*
*Tez böyüyər balası.*

*Qabıstanın çobanı,*
*Gəzər eli, obanı,*
*Çoban dava eləsə,*
*Qanar beli, yabanı,*

*Qara təkə tək durar,*
*Buynuzları şək durar,*
*Sürünün qabağında*
*Hamıdan göyçək durar.*

*Qabıstanın dağı var,*
*Aranında bağı var,*
*Keçi, uzağa getmə,*
*Hər qayada yağı var.*

*Qabıstanın aranı,*
*Gəl tərpətmə yaranı,*
*Erkəcim yoxa çıxdı*
*De gəzmədim, haranı?*

## II. QOBUSTAN REGİONUNDA İŞLƏDİLƏN AND, ALQIŞ VƏ QARĞIŞLARDAN NÜMUNƏLƏR

**(Yerli ziyarətgahlarla bağlı)**

- Həzrət Baba haqqı
- Yabanı Babaya and olsun
- Qarlı Baba haqqı
- Qayıblar Baba haqqı
- Şıx Eyyib Babaya and olsun
- Sarı Şıx Eyyub haqqı
- Sofu Həmid baba haqqı
- İlanlı Sofu Həmid baba haqqı
- Diri Babaya aid olsun
- Şeyx Bəsrə babaya and olsun
- İtkiçi Sofu Xanməmməd Babaya and olsun

- Şayıb-Qayıblar haqqı
- Səlim Babanın cəddinə and olsun
- Musafa baba haqqı
- Pir Abdul Kərim babanın ocağı haqqı
- Mir Səftər Baba haqqı
- Seyid Zəhra nənənin qəbri haqqı
- Şıxzadə Babanın ocağı haqqı
- Hümmü Babaya and olsun
- Həzrət Baba köməyin olsun
- Qarlı Baba işini avand eləsin
- Yabanı Baba sənə yar olsun
- Pirsaat Baba köməyin olsun
- Diri Baba balanın işini avand eləsin
- Şıx Eyyub baba dadına çatsın
- Mustafa Babanın cəddi köməyin olsun
- Mir Səftər Ağa işini avand eləsin
- Pir Abdul Kərim baba müşkülünü asand eləsin
- Pirsaat Baba köməyin olsun
- Hacı Ağanın cəddi sənə kömək olsun
- Sofu Həmid Baba arzuna çatdırsın
- Sofu Xaməmməd Baba köməyin olsun
- Seyid Zəhra nənə köməyin olsun
- Alıxan Baba ocağı haqqı
- Alıxan Babanın ala gözləri haqqı
- Yabanı Baba dadına çatsın
- Hümmü Baba düyününü açsan
- Sarı Şıx Eyyub Baba köməyin olsun
- Qayıblar Baba balanın işini avand eləsin
- Qırxlar Baba müşkülünü açsın
- Sofu Novruz Baba səni naümüd qoymasın
- Boza piri özü kömək olsun
- Bəsrə nənə özü işini avand eləsin
- Xalıq Baba kömək eləsin
- Şıx Eyyub Baba sənə qəlim olsun
- Diri Baba sənə göstərsin
- Səni Sofu Həmid Babaya tapşırıram
- Mir Səftər Ağanın cəddi sənə qənim olsun
- Sofu Həmid Baba özü bildirsin

- Pir Abdul Kərim Baba sənə qənim olsun
- Hümmü Baba özü bildirsin
- Səlim Baba sənə qənim olsun.
- Şıx Eyyub Baba sənə qənim olsun
- Diri Baba sənə göstərsin
- Diri Baba sənə qənim olsun
- Səni Qayıblar Babaya tapşırıram
- Sofu Xaməmməd sənə qənim olsun
- Sofu Novruz Baba özü bildirsin
- Yabanı Baba sənə qənim olsun
- Mustafa Baba sənə bildirsin

# III. ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## DİRİ BABA

Belə rəvayət edirlər ki, böyük kəramət sahibi olan Diri Babanın möcüzələrindən biri də o, olub ki, o, hər cümə günü Məkkəyə gedir. Namaz qılar və geri qayıda bilərdi.

Nəql edirlər ki, bir dəfə Şamaxıdan həcc ziyarətinə gedənlər arasında üç nəfər də Çarhan kəndindən olur. Zəvvarlar mənzil başına çatırlar. Qayıdana yaxın həmin çarhanlı zəvvarların biri - Həsən kişi xəstələnir. Yoldaşları çarəsiz qalıb xəstə həmyerlilərini orada məsçidin axunduna tapşırıb geri dönürlər. Bir ay keçməmiş, xəstə sağalır. Geri dönmək haqqında fikirləşir. Çarə tapa bilmir. Məsçidin axundu bu şəxsin gününün ahu-zar içində keçdiyini görüb, bir dəfə onu yanına çağırıb deyir:

- Sənə bir sirr açacam. Sizin məmləkətdən cümə günləri bura yaşıl əbalı bir nurani gəlir. Namaz qılıb qayıdır. Sən onun ətəyindən əlini üzmə.

Bir cümə günü, axund aralıdan yedəyində atla gələn nurani kişini göstərib deyir:

- O, nurani kişi dediyim adamdır.

Nurani kişi əsasını quma sancıb, atının yüyənin ora keçirir. Məscidə çatanda başmaqlarını soyunub irəli keçir. Bir vaxtdan sonra nurani kişi məsciddən çıxır. Başmaqlarını tapmır. Ayaqyalın getmək istəyəndə çarhanlı böyürdən çıxıb başmaqları kişinin ayaqlarının altında cütləyir. Sonra onun əbasının ətəyindən tutur:



- Ağa, başına dönüm, - əlimi ətəyindən üzmə. Mənə kömək elə. Ya da əlimi kəs.

- Bala, ayağa dur, görüm məndən nə istəyirsən?

Çarhanlı Hacı Həsən başına gələnləri Ağaya nəql edir. Yenə də kişinin əbasından yapışır.

- Bala, bir az buradan uzaqlaşaq. İcazə ver mənə azca uyuyum, sonra sənə bir söz deyərəm.

Onlar şəhərdən kənara çıxırlar. Kişi atın yüyənini Çarhanlıya verib, bir qədər kənara çəkilir. Sonra yerə uzanıb, gözlərini yumur. Heç yarımsaat keçməmiş yuxudan ayılır. Sonra oğlanın yanına gəlir.

- Bala, yuxuda mənə hər şey əyan oldu. Mən səni Vətənə aparacam. Amma sən mənim əcəlimsən. İmkan daxilində çalış, bu sirri heç kimə açma. Sirr açılsa ikimiz də, sirri sənə açmağa məcbur edən də, öləcəyik. Çarhanlı söz verir ki, sirri açmayacaq. Hər ikisi ata minəndən sonra Ağa deyir:

- Gözlərini yum, ta mən deyənə qədər açma.

Bir az vaxt keçəndən sonra Diri Baba yavaşca dillənir:

- Aç gözlərini.

Çarhanlı gözünü açanda görür ki, Şamaxının ayağındadır.

- Bala, mən Dəmdəməki şəhərindənəm - Şeyx Məhəmmədəm. Çalış sirrimizi gizlin saxla. Çətinliyin olanda gəl mənim yanıma.

Kişi payi-piyada Çarhan kəndinə gəlir. Camaat onu görəndə təəccüblənir. Çünki zəvvarların gəlməsinə hələ 10-12 gün qalırdı.

Bu kişinin arvadı, qohumları nə qədər soruşurlarsa, kişi heç kimə, heç nə demir. Kim nə soruşsa, deyir ki, mən həccə getdim, allah-təalanın köməyi ilə yoldaşlarımdan tez qayıtdım.

Ən nəhayət, xəbər gəlir ki, zəvvarlar bu gün Şamaxıya gələcək. Başqaları ilə yanaşı bu kişinin də qardaşları ata minib Şamaxıya yollanırlar. Çarhanlıları da qarşılamağa kənddən çox adam gəlir. Çarhanlı hacılar hamı ilə görüşdülər. Xəstə yoldaşlarının qardaşları ilə görüşəndə yavaşcadan dilləndilər.

- Qardaş, sizin qardaşınız Məkkədə xəstələndi. Biz qayıdana kimi yaxşı olmadı. Məscidin axunduna tapşırdıq. Darıxmayın, Allah qoysa sağalar və qayıdar. Hamı bu söhbətə təəccüb etdi. Sonra biri dilləndi:

- Sizin xəstə dediyiniz adam 10-12 gündür ki, gəlib çıxıb. Heç kəs də o, yazığın dediyinə inanmır. Bu xəbəri eşidən Hacılar yerlərində donub qalırlar.

Bu görünməz möcüzə vilayətin hər yerinə yayılır. Hamı Həsən kişiyə ziyarətə gəlir. Hacı Həsən soruşanlara təkcə bu kəlməni deyir:

- Allah təala kömək etdi, tez gəlib çatdım. Avadı isə kişidən əl çəkmir. Kişi hələlik arvada heç bir söz demir. Bir təhər dözür. Günlər gəlib keçdikcə qohum-qonşu, arvadı Hacının gününü qara əsgiyə döndərirlər.

Bir gün Hacı Dəmdəməkiyə - Diri Babanın yanına gəlir.

Məscidə girən kimi:

- Hacı, bilirəm, daha səni dinc qoymurlar. Yazıya pozu yoxdur. Yəqin ki, əcəlimiz çatıb.

- Yox, Ağa, mən razı olmaram, sən öləsən. Gəlmişəm ki, səninlə sonuncu dəfə görüşüm. Mən evdən həmişəlik gedirəm.

- Yox, Hacı, mən buna yol vermərəm. Sən evə qayıt. Sənə təkid edənlərə sirri aç. Görsünlər ki, dünyanın sahibi var. Hacı Həsən oradan geri dönür.

Diri Baba biləndə ki, sabah əcəli tamam olacaq. Bazara gəlir. Bazarın tinində illərlə qıçı iflic olmuş, yeriyə bilməyən dilənçiyə deyir:

- Oğul, dur qaç, car çək ki, Şeyx Məhəmməd ölür. Camaat məscidə toplansın.

- Ağa, başına dönüm, sən bilirsən ki, mən yeriyə bilmirəm.

- Dur deyirəm, sənə, - deyib dilənçiyə bərk bir şillə vurur. Şillədən diksinən dilənçi yerindən dik qalxır. Başlayır qışqıra-qışqıra car çəkməyə:

Camaatı heyrət bürüyür. Məhəmməd məscidə çatır. Başlayır namaz qılmağa...

Şikəst dilənçinin ayağını açıldığını görən camaat bilmir nə etsin. Fikirləşirlər ki, o bu vaxta kimi yalan danışıb. Amma dilənçi ağlaya-ağlaya qışqırıb:

- İnanın mənə, mənim ayağımı da Baba açdı. Tez olun, o nur parçasının son dəqiqəsidir. Tez olun, ay camaat.

Bir çox aqil insanlar başladılar məscidə tərəf qaçmağa. Gəlib gördülər ki, Şeyx Məhəmməd səcdədədir. Hamı dayanıb gözlədilər. Bir saat keçdi. Baba səcdədən qalxmadı. Möminlərdən biri ona yaxınlaşır. Dizi üstə yerə çöküb ağlamağa başladı.

- Şeyx dünyasını dəyişib. Camaat bilmədi nə etsin.

Sən demə, Hacı Həsən günorta bütün qohum-əqrabasını başına yığıb deyir:

- Ay camaat, mən sirri sizə açacam. Amma onu deyirəm ki, bu sirr açılanda Ağam Şeyx Məhəmməd mən və bu işi mənə vadar etdirən arvadım öləcəyik. Odur ki, hamımızdan halallıq istəyirəm. Özünüz də bilin ki, bu dünyanın öz yiyəsi, öz sahibi var... Bütün kainatın sahibi böyük yaradandır, Allah-təaladır. Şükürlər olsun onun böyüklüyünə. Məni Məkkədən vətənimə bir gündə gətirib çıxaran Allah-təalanın kəramət verdiyi Şeyx Məhəmməd olmuşdur.

Camaat dağınıb gedir. İnanan inandı, inanmayan inanmadı...

Amma səhəri gün məlum oldu ki, Hacı öz arvadı ilə yatdığı yerdə dünyalarını dəyişiblər. Dünənki söhbətə inananlar bu möcüzəyə ağladılar, inanmayanlar isə peşmançılıq keçirib, Allahın böyüklüyünə şükürlər etdilər.

Düz 600 yüz ildən artıqdır ki, Mərəzə (keçmiş Dəmdəməki) şəhərində Diri Babanın, Çarhan kəndində Hacının qəbri mömün insanlar tərəfindən ziyarət olunur.

## ...SAĞALMAZSAN İNŞALLAH

Şirvana yayıldı ki, Şeyx Eyyub babaya Allah tərəfindən vergi verilmişdir. Onun adına gələnlər şəfa tapardılar. Feyzulla adlı bir şəxs Şeyxin kəramətinə şəkk gətirir. Bir gün gözünü yumub onun yanına gəlir:

- Şeyx, mənim bir gözüm kor, o biri də pis görür. Mənə bir əlac eylə.

Şeyx Eyyub babaya hər şey əyan olur. Odur ki, ona qəzəblə deyir:

***Lailahə-illəllah,***
***Sənin adın Feyzulla,***
***Əcəb korsan, maşallah,***
***Sağalmazsan, inşallah.***

Həmin güdən Feyzullanın gözləri həmişəlik tutulur.

## CƏNGİ DAĞI

Bakı-Şamaxı yolunun 57 kilometirliyində hündür bir dağ vardır. Dağın zirvəsində köhnə bir qalanın izləri qalmışdır. Xalq arasında buraya "Cəngi dağı" deyilir. Rəvayətlərə görə, Cəngi qalasında yalnız cəngavər qadınlar yaşayırdılar. Bu amazonkalar, kişi əsgərlər kimi hərbi libas geyər, saçlarını qısa saxlayar, toppuz atar, əmud qaldırar və məharətlə qılınc oynadardılar. Cəngi qalasını əhatə edən dağların zirvələrində müşahidə qübbədəri yerləşirdi. Düşmən bu yerlədə görünəndə kəşfiyyat dəstəsi qübbələrindən gündüz, tüstü, gecə isə məşəl vasitəsilə qalaya xəbər verilərdilər. Cəngavər qadınlar yaraqlanaraq hərbi cəng müsiqisi altında yadelli işğalçılara gözlənilməyən yerlərdən hücuma keçər və ağır zərbələr vurardılar. Adətən bu vuruşmalarda cəngavər qadınlar zəfər çalardılar.

Deyilənlərə görə, qədim Vətənimizin cəngavər qadınları qələ-

bədən sonra adətən təntənəli məclis qurar, çalıb oynayarmışlar. Belə məclislər Cəngi qalasında yox, ondan xeyli aralı - Şamaxı dağlarının ətəyindəki eyni adlı meşələrdə qurularmış...

Cəngi musiqisinin sədaları uzun müddət burada səsləndiyinə görə ərazinin adı "Cəngi" qalmışdır.

## GAVUR YARAN

Ərəblər Azərbaycana hücum edəndə bu yerin əhalisi dağlara, əlçatmaz yerlərə çəkilir və uca yerlərdən qala kimi istifadə edərək oradan düşmənin üstünə iri qaya parçaları və ox atır, beləliklə, özlərini müdafiə edirlər. Ərəblər oranı silah gücünə ala bilməyəcəyini görüb dağı mühasirəyə alır, qaçqınları aclıq və susuzluğla məğlub etməyə nail olmaq istəyirlər. Həftələr keçir, aylar ötür, lakin insanlar tabe olmur. Deməli, onlar nə vasitə iləsə qayadan 3-4 yüz metr aşağıda olan çaydan su götürürlərmiş.

Aradan 3-4 ay keçir, bir səhər ərəblər təzədən dağa hücum edəndə görürlər ki, heç bir müqavimət edən yoxdur. Qoşun dağa dırmaşır. Baxıb görürlər ki, qaçqınlar çaya enib su götürmək üçün sərt qayada 50 metr uzunu 2 metr eni olan bir yol və sonra 260 metr uzunluğda yeraltı lağım açmışlar. Sən demə bu yol ilə çaydan su götürmüşlər. Özü də bütün işləri gecələr ediblər. İndi isə həmin lağım vasitəsi ilə qaçıb gediblər... Onların qayada çapdığı yola ərəblər "Gavur yaran" deyirlər.

## MƏRYƏM NOXUDU

Məryəm arvadın əri ölmüş, yeddi yetimi ilə ac-yalavac qalmışdı. İki gün idi ki, uşaqlar heç nə yeməmişdilər. İndi də acından ağlaşır, onun böyrünə qısılıb yemək istəyirdilər. Əlacsız qalmış Məryəm qazanı qoltuğuna vurub uşaqları da yanına salıb dağa çıxır. Dağda ocaq qaladı, bulağın suyundan qazanı doldurub ocağa qoydu. Uşaqlara dedi:

- Siz gedin, yemlikdən-zaddan yeyin. Siz gələnəcən mən xörək bişirəcəyəm.

Uşaqların hərəsi bir yana dağılmışdı.

Məryəm fikir içində oturmuşdu. Öz-özünə düşünürdü ki, indi uşaqlar gələndə mən onlara nə cavab verəcəyəm. Aradan bir qədər keçdi. Uşaqlar qayıdıb gəldilər. Dedilər:

- Ana, acmışıq, tez ol, xörəyi ver, yeyək.

Yazıq Məryəm əlacsız qalıb qazanı yerə qoydu. Ağzını açanda heyrətdən donub qaldı. Qazan ağzına kimi noxud ilə dolu idi. Uşaqlar onu həvəslə yedilər. Məryəm baxıb gördü ki, bu koldan hər tərəfdə bitib. Bir müddət uşaqlarını onunla saxladı.

O bitkiyə indi də el arasında "Məryəm noxud" deyilir.

## HACIBABA BULAĞI

Hacıbaba adlı yetim, kasıb oğlan qonşu obanın sahibi Murtuz ağanın çobanı idi. Hacıbaba öz ağasının qızı Mirvarini, qız da onu sevirdi. Lakin bu sirri açmağın mənası yox idi - ağa öz qızını nökərinə ərə verməzdi. Bu zaman bir dövlətli yerdən Mirvariyə elçi gəldi. Mürtüz ağanın arvadı əhvalatdan xəbərdar olduğu üçün qızı ilə Hacıbabanın bir-birini sevməsini ərinə danışdı:

- Nə olar, ay kişi, iki könülü qırmaq Allaha da xoş getməz. Gedənin də heç kəsi yoxdur, o da olar sənin oğlun.

Mürtüz ağa qəzəbləndi, arvada acıqlandı, qızını evə salıb qapını bağladı və gecə ikən Hacıbabanı obadan qovurdu.

Hacıbabanın daha gedəsi yeri olmadığı üçün dağlara çəkildi. Orada ah-zar edib ağlamağa başladı. 3-4 gündən sonra Mirvari bir bəhanə ilə evdən çıxıb Hacıbaba oturan dağa gəldi. İki sevgili bir-birinə qısılıb ağladılar. Elə bu vaxt gördülər ki, Murtuz ağanın adamları atla onların üstünə gəlir.

Hacıbaba dedi:

- Allah, onlar gəlib Mirvarini mənim yanımda görməsinlər, onun adına ləkə düşməsin. Məni bir axar bulaq elə, qoy qızı bulaq başında görsünlər.

Hacıbaba elə o dəqiqə soyuq sulu bir bulaq oldu. Mirvari bunu görüb dərin bir ah çəkdi.

- Allah, səni and verirəm öz kəramətinə. Məni sevgilimdən ayırma, daş elə bulağa sal.

Mirvari də o saat xırda daş olub bulağa töküldü, hər ikisi bir-birinə qovuşdu.

O bulağa el arasında indi Hacıbaba bulağı deyirlər.

## OĞLAN QALA - QIZ QALA

Ərəbşahverdi ərazisində çox hündür və zivəsi qalaya bənzər iki dağ var. Bu dağ-qalalar arasında kiçik yumru məpə-"daş alma" vardır. Belə rəvayət edirlər ki, bu ərazidə iki qəbilə yaşayırmış. Qəbilələr bir-birinə düşmən imiş. Qəbilə başçılarının birinin yetkinlik yaşına çatmış oğlu, o birinin isə qızı varmış. Bir gün təsadüfən dağlar arasında olan meşəlikdə bulağın başında gənclər rastlaşırlar. Bir-



birinə aşiq olurlar. Meşənin rotasında olan təpənin üstündəki alma ağacının altında vaxtaşırı görüşürlər. Ən nəhayət, işdən hali olan gənclərin valideyinləri bu izdivaca heç cür razılıq vermirlər. Onlar öz övladlarını artıq qaladan çölə buraxmırlar. İllər ötür. Gənclər necə edirlərsə, bir-birini görə bilmirlər. Bir müddət çobanların vasitəsi ilə məktublaşırlar. Çobanlar alma ağacının altına gəlir, məktubları dəyişirlər. Çobanlar onlara meyvə-alma da gətirirlər. Bir gün gənclər hər ikisi eyni yuxu görür. Yuxuda onlara bir dərviş bildirir ki, biri gün günorta namazından sonra hər ikiniz qalanın bürcünün üstünə çıxın. Qız əlindəki almanı sevgilisinə atsın, oğlan tuta bilsə, arzularına çatacaqlar... Almanı tuta bilməsə, hər ikisi sal daş qayaya dönəcəkdir. Odur ki, valideyinlərinə bu dəhşətli xəbəri çatdırsınlar. Valideyinlər bu xəbərə inanmadılar.

Birisi gün deyilən vaxt hər iki gənc qarşı-qarşıya görülən bürcün üstünə çıxırlar. Onlara manc olmaq istəyəndə:

- Yaxın gəlməyin, özümüzü atarıq, - deyə gənclər qışqırırlar. Qız

almanı əlinə alır. Oğlan da əllərini qabağa uzadır. Qız almanı var gücü ilə tullayır. Alma görüşdükləri təpəyə qədər güclə çatır. Oğlanın əlləri uzana qalır. Camaat yuxuya gülüşür. Elə bu an ildırım çaxır, yer silkələnir. *Oğlanın əlləri uzana şəkildə bürcün üstündə qız da o biri qalanın bürcün* üstündə sal daşa dönür. Hamı çaş qalır. Bilmirlər nə etsinlər. Hər iki qəbilə tutduqları işə peşman olur. Aradakı təpənin üstünə düşən alma da daşa çevrilir... Belə deyirlər ki, bir neçə gün sonra həmin əraziyə ilan sürüsü gəlir. Əhali oranı tərk edir. Nakam, nak məhəbbətin şahidi olan həmin Daş yadigarlar; **Oğlan qala - Qız qala bir də Daş alma** uzaq keçmişdən günümüzə qədər keşməkeşli bir yol keçib gəlmişdir. El-oba həmin əhvalatla bağlı bir neçə əfsanə yaratmışdır. Kitaba daxil etdiyimiz isə onlardan biridir. **İnanmasanız yolunuz Ərəbşahverdi kəndindən salın - çözələyin ixtiyar yaşlıların yaddaşlarını.**

## ÇOBANÇATLADAN DAĞI

Çobançatladan dağı Bakı-Şamaxı şose yolunun təxminən, yarısında, yolun düz qırağında yerləşir. Deyilənə görə, həmin ərazidə küllü miqdarda qoyun sürüləri olan bir Sərdar yaşayırmış. Onu bütün Şirvan əhli tanıyardı. Sərdarın gözəl bir *qızı olur. Gözəllikdə ay ilə, gün ilə bəhs edə bilən qənirsiz*



gözəl. Sərdarın sürüdən əlavə həyətində 10-15 baş, dizi qara,

gözü qara qoçu olurdu; eyni boyda, eyni çəkidə. Qıza çox elçilər gəlir. Qız heç kimə "hə" demir. Atasıgilə bildirir ki, o adama gedəcəkdir, ki, o cavan həmin qoçlardan istədiyini bir nəfəsə dağın başına çıxartsın. Çox cavanlar gücünü sınayır. Uzağı dağın yarısına kimi qalıxa bilərlər. Ən nəhayət, Yusif misallı, pəhləvan cüsəlli başqa bir çoban oğlu şərti yerinə yetirəcəyinə söz verir. Özü də bütün oba qarşısında onu da bildirir ki, ürəyim partlasa da, qoçu yerə qoymayacam. Odur ki, onu mənə bağlayın. Bu ailənin gözünün ağı-qarası tək övladı olur. Valideyinlər nə qədər etsələr də, oğul dediyindən dönmür... Belə də olur.

O, qoçu boynuna götürüb dağa çıxmağa başlayır. Dağın zirvəsinə yaxınlaşdıqca, kücdən düşür. Amma inadından dönmür. Addım-addım, qarış-qarış yeriyir. Artıq taqəti qalmır. Zirvəyə 20-30 m qalmış ürəyi çatdayır və canını tapşırır... Doğmalarının vay-şüvəni dağda əks-səda verir. Həmin vaxtdan dağın adı "Çobançatladan" adlanır.

## IV. GÜLMƏCƏLƏR

Qobustan kəndlərini gəzib-dolaşdığım illər ərzində bu yurdun hazırcavab, baməzə, "lağlağı" insanları barədə məlumat və söylədiklərindən nümunələr də toplamışam. Qobustanın hazırcavab, baməzə insanları - Keçəl Piri, Nuru Baba, Naburlu Badam, Canan Seyran oğlu, Lağlağı Lətif, Molla Nurməmməd, Şamlı Cabbar, Çimnaz qarı, Erkək Fatma, Məşədi Tağı, Soltan baba, Alış Musa oğlu, Kolanı Culan İsmayıl, Məşədi Əvəz, Mirzə dayı, Cəyirli Rəfi, Aşıq Abbas, Cəyirli Kərəm, Aşıq Xanış və başqalarının gülməcələrini doğmaları və yaş ötürmüş insanların yaddaşlardan toplamışıq. Həmin nümunələr əsasında "Qobustan lətifələri" kitabı hazırlamışam... Yaxın vaxtlarda kitab işıq üzü görəcək...

### AŞIQ ABBASIN GÜLMƏCƏLƏRİNDƏN YARPAQLAR

...Bir toyda aşıqlar üçün çolpa bişirirlər. Xörək süfrəyə gəlir.

Aşıq Abbas kassasında çolpanın budunu görməyib təəccüblənir. Uşaqların da qabında budu tapa bilməyən aşıq xörək bişirən qadını çağırtdırır.

- Ay bacı, sizin yerdə toyuğun, çolpanın budu olmur?

Arvad da astaca dillənir:

- Olur, ey aşıq qardaş. Yəqin adətimizi bilmirsən. Bizim yerdə bud xörək bişirənə düşür. Aşıq Abbas özünü o yerə qoymayıb, qoşanağaraçısı qozbel İsaya göz vurub deyir:

- Ay İsa, yadında saxla, bundan sonra buraya toya gələndə xörəyi bu xanımla özün bişirərsən.

* * *

...Bir gün Aşıq Abbasın qayınları ilə qonşu savaşır. O, savaşanları ayırmağa çalışır. Dava edənləri bir az sakitləşdirmişdi ki, o tərəfdən biri təzədən gəlib girir ortalığa. Məni burax, Abbas kişi, bunların hamısını qıracam. Abbas tutduqca təzə gələn tutulmur. Əlacsız qalan Abbas kənara çəkilib deyir:

- Bala, bir əl saxla, sözümü deyim. Əcəb edib qıracaqsan. Amma xahiş edirəm ki, elə qır ki, hər nəsildən bir erkək, bir dişi qalsın. Yoxsa nəsil kəsilər. Bu sözü eşidən adamlar hamısı şaqqanaq çəkib gülür. Həmin adam pərt olub aradan çıxır.

* * *

...Şamaxıda mədəniyyət evində aşıqlar məşq edirlər. Aşıq Məzahir də burada idi. Aşıq Məzahirin solaxay saz çalmasını görən Aşıq Abbas deyir:

- Ay Məzahir, gözəl çalırsan, amma olmaz ki, sazı avandına tutasan.

- Ay ustad, buxarının əyri olmasını neynirsən, tüstü düz çıxırmı?

Aşıq Məzahirin belə hazırcavablığına o, gülə-gülə deyir:

- Mən bunu bilmirdim, ay Məzahir. Bir də ki, sən də düz deyirsən.

* * *

...Şamaxıda aşıqlar vaxtilə köhnə bazarın yanındakı çayxanıyı və ya pedməktəbin yanına toplaşardılar (indi bağa

toplaşırlar - S.Q.). Toylarında şıdırığı vaxtı idi. Aşıq Abbasın toylara az gedən çağıydı. Özü də şənbə günü idi. Cavan sənətkarlarından biri (adını özümüz qeyd etmədik - S.Q.). həmin yerə gəlir. Aşıq Abbas oturan stolun ətrafında əyləşir. Durar-tutmaz Aşıq Abbasa deyir:

- Ustad, fikrinizi bilmək mənim üçün maraqlıdır. Hazırda səndən məndən başqa Şamaxıda yaxşı aşıq varmı?

Bu söz dünyalar görmüş aşığın iliyinə işləyir. Bir az fikrə gedib sonra dillənir.

- Hə (bir kobud ifadə işlədir), düz deyirsən. Yaxşı aşıqların hamısı toydadı. Səninlə mən - "yaxşı aşıq" isə çayçıda mırt vururuq. Həmin aşıq cınqırını çəkmədən durub sürüşür.

* * *

...Vaxtilə xanəndə toyxanaya əvvəl gələrdi. Aşıq isə bir az sonra. Aşıq Abbas bir dəfə sənətə o qədər də dərindən bələd olmayan şagirdi ilə toya gedir. Ona tapşırır ki, o qədərdə özünü dərinə vurma. Günorta məclisi başlayır. Ansanbıl mağara gedir. Aşıq Abbas da oturduğu evdə çalğıya qulaq asır. Bir də görür ki, şagirdi-xanəndə "Çargah" başladı. Tez ayağa durur ki, özünü toyxanaya çatdırsın. Toyxanaya daxil olur. Görür ki, şagird o qədər də zil olmayan səsi ilə "Mənsuriyyə" qalxdı. Ayaq verməyə isə çətinlik çəkir. Abbasa baxır. Abbas əvvəl kömək etmək istəmir. Sonra, lənət şeytana deyir. Yavaşca şagirdinə pıçıldayır:

- Ayə, yapış Füzulinin ətəyindən. "Ey Füzuli" - deyən kimi düşəcəksən aşağı.

Məclisdən sonra məlum olur ki, bir nəfər xanəndəyə yüz manat verib ki, "Çargah" oxusun.

Məqsəddən hali olan Aşıq Abbas deyir:

- Pula ki, bu qədər həris oldun, başqa birisi səni rusca da oxudacaq. Pula görə sənəti ucuz tutma. Özünün isə əybin yoxdu.

* * *

...Bir dəfə Aşıq Abbas Şamaxıda bazardan şor almaq istəyir. Şor satan qadının vedrədə olan şoruna barmaq batırıb deyir:

- Ay bacı, bu zığın qiyməti neçəyədir?

Arvad hirslənib deyir:

- Yekə kişisən, mənim bərəkətimə "zığ" deyirsən, ayıbdı.

Aşıq Abbas deyir.

- Bacı, bunun südü də, qaymağı da, yağı da çıxarılıb. Yerdə nə qalır? ... Bağışla, təzədən soruşacam. Ay bacı, bu beçə balının qiyməti neçəyədir?!

* * *

...Aşıq Abbas xəstəxanada yatırdı. Bir dəfə sənət yoldaşları ona dəyməyə gedir. Hamı ona sağalmaq, şəfa tapmaq arzu edir. Həmin sənətkarlardan biri burada özünü daha çox gözə soxmağa çalışır.

- Ustad, qorxursanmı, qorxma?

- Aşıq Abbas bu sözdən əsəbləşib deyir:

- Ay... (kobud ifadə), mən Bakıya, Şəkiyə gedirəmmi, qayıdam və ya qorxmayam. Qorxuram! Özü də çox! Sən mənim yerimdə olanda qorxmazsan...

## NABURLU CANAN SEYRAN OĞLUNUN GÜLMƏCƏLƏRİNDƏN

...Kəndin çobanı Bayram adlı birisi olur. Sürüdə Canan kişinin iri əmcəkli, südlü bir qoyunu var idi. Bayram hər gün bu qoyunu tutub sağar və südünə çörək doğrayıb yeyərmiş... Canan işdən hali olur. Amma bunu çobana deməyə utanır. Bir gün sürü yatağa gələndə Canan Bayramla qarşılaşır. Bayram onu qabaqlayıb soruşur:

- Canan kişi, necəsən? Kefin yoxdur, Canan fürsət düşdüyünü görüb, çoxdan fikirləşdiyini ona belə bəyan edir:

*Mən aşiq saqala xoş,*
*Gül yanaq, saqqala xoş,*
*Bayram sağır qoyunu*
*Qalıbdı çaqqana[1] boş.*

* * *

...Müharibə zamanı, camaatın aclıq çəkən vaxtı imiş.

[1] Çaqqana-Balaca süd sağılan mis qab.

Çöldə bir qrup adam öküz - kötanla qan-tər içində yer əkirlərmiş. Canan kişi də onların arasında. Bu zaman boz atın üstündə sədr onlara yaxınlaşır. Canan kişi yəqin edir ki, sədr yaxşıca yeyib-içib.

Sədr atın üstündən soruşur:

- Canan kişi, necəsən? Yorulmamısınız ki?

Canan kişi bir ac qarına işləyən yoldaşlarına, bir də keyf içində olan sədrə baxıb deyir:

***"Kora dərə", "Kol təpəsi"[1].***
***Yoğundur sədr nəsi,***
***Canan yeyib göy kətəsi,***
***Tək-tək alır o nəfəsi.***

Söz sədri tutur. Atına bir qamçı vurub oradan uzaqlaşır[2].

[1] Nabur kəndi ərazisində toponimlər.

[2] Aşıq Xanışın yaddaşından.

# XII FƏSİL



# QOBUSTAN RAYONUNUN TOPONİMLƏRİ

*"... Toponimlər xalqımızın keçmiş tarixi, onun dili barədə günümüzə daha çox soraq verən mənbədir"...*
***Rəmzi Yüzbaşov***

Toponimlər xalqın, regionunun qədim çağlarından günümüzə soraq gətirən tarixidir, yazılmamış məlumat "kitabı", və ən qədim "mənbə"dir. Bir sözlə, "... toponimlər tarixi məlumatları özündə saclayan leksik vahidlərdir."(A.Qurbanov)

Xalqın yaddaş, adət-ənənə, mənəvi-dəyərləri, dünyagörüşü və tarixini özündə yaşadan Qobustan regionunda olan oykonimlər barədə indiyə kimi ciddi şəkildə tədqiqat aparılmamışdır. Qobustan regionunda olan oykonimlərin **(qaya, dağ, dərə, yarğan, təpə, orman, çay, bulaq, göl, ovdam, kəhriz, nohur, quyu, meşə, yol, bağ, keçid, rəng, yurd, oba, kurqan, qala, qəbristanlıq, mağara, pir, yaşayış yeri, kənd, qəsəbə, tayfa, şəhər, qışlaq, yaylaq, yataq, heyvan, bitki, bədən üzvləri və s.)** sayı iki mindən artıqdır. Regionda qeydə aldığımız toponimlərin çoxusu türk mənşəli sözlərdən əmələ gəldiyi kimi, fars, ərəb, tat və s. dillərdən olan sözlərdən də yaranmışdır. Bununla yanaşı regionda hibrit - türk-fars; Azərbaycan - tat və s. toponimlər də mövcuddur.

Onu da qeyd edim ki, uzun illər ərzində topladığım onomastik vahidlərin elmi və xalq yozumu əsasında "Qobustan toponimləri" adlı kitab hazırlamışam. (Nümunə, **"Qonçu"** qışlağı - xalq yozumuna görə toponim "qoyunçu" sözünün təhrif formasıdır; Baydar qışlağı - "baydar" sözü - türk dilindəki "bay" və fars dilindəki "dar" sözlərinin birləşməsindən əmələ gəlmişdir. "Bəy olan", "bəy gəzən" yer.

"Baydar" toponimi xalq düşüncəsinə görə, padar sözünün

dəyişilmiş formasıdır; "Alıbəyli" yatağı, suvatı - Burada vaxtilə Alı adlı bəyin mal-qarası qışlayırmış).

Azərbaycan toponimyasının bir hissəsi olan Qobustan rayonu toponimlərinin təbii ki, hamısının **elmi və xalq yozumu** barədə bu kitabda ətraflı məlumat vermək təbii ki, imkan xaricindədir. Uzun illər Qobustan rayonuna aid olan 1986 adlı toponimlərin bir hissəsinin leksik mənası, yeri gəldikcə kitabda izah olunmuşdur. Rayonun müxtəlif kəndlərindən topladığımız toponimlərin bir qisminin isə **quruca adını** oxuculara təqdim edirik.

## QOBUSTAN TOPONİMLƏRİNƏ AİD NÜMUNƏLƏR

| **Oykonimin adı** | **Yerləşdiyi ərazi** |
|---|---|
| Ağalı qışlağı | Qurbançı qışlağı |
| Alıbəyli suvatı | Dağ Kolanı kəndi |
| Ali dölləki | Ərəbqədim kəndi |
| Allahuəkbər dağı | Dağ Kolanı kəndi |
| Ağsağlı düşən | Dağ Kolanı kəndi |
| Abuzər suyu | Cəmcəmli kəndi |
| Aybatıran yeri | Sündü kəndi |
| Abas qəlbi | Sündü kəndi |
| Aydolanmaz yeri | Sündü kəndi |
| Ağlayan qaya | Sündü kəndi |
| Ağası bəy çökəyi | Sündü kəndi |
| Allahverdi Kəhrizi | Sündü kəndi |
| Aşağı yataq | Qışlaq |
| Alabörk | Xilmilli qışlağı |
| Alıbəyli | Qışlaq |
| Bala qalacıq | Çalov kəndi |
| Boza bulağı | Ərəbşahverdi kəndi |
| Boyağlı dərə | Ərəbqədim kəndi |
| *Bala dağ* | *Poladlı kəndi* |
| Başıbağlı təpə | Dağ Kolanı kəndi |
| Bağçalar | Poladlı kəndi |
| Baydar | Yekəxana qışlağı |
| Borbor | Poladlı kəndi |
| Bulaq ayağı | Çalov kəndi |

| | |
|---|---|
| Balaxır dərəsi | Sədəf kəndi |
| Bala çələ | Sündü kəndi |
| Beştola | Sündü kəndi |
| Bəndi quba | Sündü kəndi |
| Burunsuz | Sündü kəndi |
| Bərəgə | Nərimankənd kəndi |
| Curum daşı | Ərəbqədim kəndi |
| Cili pohru | Dağ Kolanı kəndi |
| Cərcəbi | Çalov kəndi |
| Cərdə qayası | Çalov kəndi |
| Cəyirli arası | Sündü kəndi |
| Cəlil bulağı | Sündü kəndi |
| Çaparxana | Dağ Kolanı kəndi |
| Çil dağ | Poladlı kəndi |
| Çənlibel | Poladlı kəndi |
| Çappalı ürək | Poladlı kəndi |
| Çalaxarmanı | Cəmcəmli kəndi |
| Çalağa təpə | Sədəf kəndi |
| Çəlmədağar | Sündü kəndi |
| Çanaq bulağı | Sündü kəndi |
| Daş üstü | Çalov kəndi |
| Dovşan bulağı | Qışlaq |
| Daşdı dağ | Qışlaq |
| Dəlləkşişi | Dağ Kolanı kəndi |
| Donuz ürəyi | Poladlı kəndi |
| Dəlmələr | Şamlı kəndi |
| Dəvə yatağı | Çalov kəndi |
| Dağdəki yeri | Cəmcəmli kəndi |
| Dəlbəyli yeri | Nərimankənd kəndi |
| Eyvaz quzayı | Qurbaçı kəndi |
| Əzganlı | Cəmcəmli kəndi |
| Əyricə qışlağı | Dağ Kolanı kəndi |
| Ərəb quzayı | Sündü kəndi |
| Əli (Nənə) bulağı | Sündü kəndi |
| Əhmədalı (Qorçi) bulağı | Sündü kəndi |
| Əhmədəli | Qışlaq |
| Əfəndi yeri | Nərimankənd kəndi |
| Fərzəli bulağı | Qurbançı kəndi |

| | |
|---|---|
| Fındıq təpəsi | Dağ Kolanı kəndi |
| Fatmaxanım yeri | Dağ Kolanı kəndi |
| Godək bazı | Dağ Kolanı kəndi |
| Gülüstan ölən | Ərəbqədim kəndi |
| Gicəki dağı | Ərəbqədim kəndi |
